AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

AMEA - 60

AZƏRBAYCANDA ELMİN İNKİŞAFI VƏ REGİONAL PROBLEMLƏR

B a k ı - «Nurlan» - 2005

Azərbaycan Milli Elmlər Akademiyasının
60 illiyinə həsr olunur

Redaksiya heyəti:
İsmayıl Hacıyev, İsa Həbibbəyli, Əbülfəz Quliyev,
Tariyel Talıbov, Vəli Hüseynov, Əliəddin Abbasov,
Hacı Qadir Qədirzadə, Qulu Həziyev, Rəcəb Rəhimli.

Azərbaycanda elmin inkişafı və regional problemlər (28 fevral – 1 mart 2005-ci il tarixdə keçirilmiş elmi konfransın materialları). Bakı, «Nurlan», 2005. - 632 səh.

4602000000
N – 098 – 2005 *Qrifli nəşr*

© «Nurlan», 2005

MÜNDƏRİCAT

PLENAR İCLAS

İsmayıl Hacıyev. Müqəddəs elm məbədi.....11
İsa Həbibbəyli. Azərbaycan elminin baş qərargahı 19
Tariyel Talıbov. Naxçıvan MR ərazisində botaniki tədqiqatlar tarixi.....23
Əbülfəz Quliyev. 60 ildə Naxçıvan MR dialekt, şivə və yer adlarının öyrənilməsi.....29
Əliəddin Abbasov. Azərbaycanda kimyanın inkişaf istiqamətləri və XXI əsrə baxış.....36
Qulu Həziyev. XX əsrdə Azərbaycanda astronomiya elminin inkişaf tarixi 43
Asif Şirəliyev, Müslüm Cabbarzadə. Azərbaycanda iqtisadi araşdırmaların və elmi tədqiqatların əlaqələndirilməsinin mərkəzi.....46

B Ö L M Ə L Ə R

1. Tarix elmləri

Qadir Qədirzadə. Qızılbaşlığın mahiyyətinə dair 49
Fəxrəddin Səfərli. Naxçıvan İmamzadəsinin kitabələri.....56
Vəli Baxşəliyev. Naxçıvanın qədim tayfalarının ideoloji görüşləri.....63
Emin Şıxəliyev. Naxçıvanın problemli zonaya çevrilməsində böyük dövlətlərin maraqları 68
Musa Quliyev. Şükrulla Xan Kəngərli ilə bağlı araşdırmalar 74
Nəzakət Əsədova. Naxçıvan qəzasının iqtisadi-mədəni həyatında Kəngərlilərin rolu 79
Sara Hacıyeva. Naxçıvanın açıq muzeyindəki qoç və qoyun heykəlləri haqqında.....84
Türkan Qədirzadə. Türkəçarə müalicə üsulu.....89
Arif Əsədov. Naxçıvan MR ərazisindəki maddi-mədəniyyət abidələrinin öyrənilməsi tarixindən 93
Zakir Rzayev. Nəhəcirin orta tunc dövrü keramikası.....96
Fizuli İbrahimzadə. B.Şahtaxtınskinin publisistik fəaliyyəti....102

Zəhmət Şahverdiyev, İsmayıl Zeynalov. Naxçıvanda məişət mədəniyyəti və onun təkmilləşdirilməsi.....105
Həmzə Cəfərov. XX əsrin əvvəllərində Azərbaycanlı tələbə gənclərin ictimai-siyasi fəaliyyəti.....110
Elşən Hüseynov, Rafiq Rəhimov. Sülh amili Heydər Əliyevin xarici siyasətinin əsasıdır.....122
Elbrus İsayev. Böyük ipək yolu üzərində Naxçıvan şəhərləri.....127
Nadir Hüseynbəyli. Naxçıvanda sovetləşməyə qarşı müqavimət hərəkatı.....133

II. FƏLSƏFƏ, İQTİSADİYYAT VƏ HÜQUQ ELMLƏRİ

Məmməd Rzayev. Müasir keçid dövrü şəxsiyyətinin formalaşmasının bəzi məsələləri.....140
Rəcəb Rəhimli. Demokratikləşmə prosesində mərkəzi dövlət orqanları ilə yerli özünüidarəetmə orqanları arasında münasibətlərin tənzimlənməsi.....147
Novruzəli Rəhimov. Qloballaşma prosesinin mahiyyəti və bu prosesdə Azərbaycanın rolu.....152
Ağarza Rüstəmov. Bazar münasibətləri şəraitində kənd əhalisinin sosial müdafiəsinin iqtisadi mexanizminin mahiyyəti və onun əsas prinsipləri.....156
Ərəstü Həbibbəyli. Azərbaycanın enerji resurslarının istifadəsində Böyük Britaniya şirkətləri arasında tarixi rəqabət.....160
Ceyhun Mahmudov. İnvestisiya siyasəti və Azərbaycan iqtisadiyyatında xarici sərmayə.....167
Həsən Məmmədov. İstehsal infrastrukturunun formalaşması və inkişafında demoqrafik amillərin rolu.....171
Bəhram Həsənov. Aqrar bölməyə dövlət himayəsi.....176
Asəf Qəribov. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının zəruriliyi və əhəmiyyəti.....183
Əli Səfərli. Bazar iqtisadiyyatına keçid şəraitində kənd təsərrüfatının səmərəliliyinin yüksəldilməsi.....187

Elçin İbrahimov. Sahibkarlıq münasibətlərinin mahiyyəti və iqtisadi münasibətlər sistemində yeri 189
Rəhman Məmmədov. Aqrar sektorda məhsulun keyfiyyətinin və rəqabət qabiliyyətinin artırılması yolları 193
Səhət Həbibbəyli. Daxili bazarın tənzimlənməsində gömrük amili 199
Mehriban Qasımova. İqtisadi artım və əhalinin rifahı – sosial-iqtisadi inkişafın əsas amili kimi.....202
Məmmədcəfər Sadıqov. Hazırlıq iclasının nəticələrinə dair çıxarılmış xüsusi qərar 207

III. FİLOLOJİ ELMLƏR VƏ İNCƏSƏNƏT

Məhərrəm Cəfərli. Məhəbbət dastanlarında şərti amil.....212
Rafiq Babayev. Bədii dünyanın butalı Şeyx Sənanı.....217
Məhsəti İsmayıl. Əfsanələrdə mifik inamın təzahürü 222
Nazirə Əsgərova. Naxçıvan lətifələri və onların ideya-bədii xüsusiyyətləri.....225
Yusif Səfərov. Bəzi nağılların tarixi kökləri.....229
Firudin Rzayev. Naxçıvan və onun ətraf bölgələrində qədim Sak türkləri.....233
Kəmalə İsmayıllı. Naxçıvan toponimlərinin tədqiqi tarixindən 242
Adil Bağırov. Naxçıvan ərazisində bəzi oykonimlərin mənşəyi haqqında 248
Nuray Əliyeva. Azərbaycan dilinin şahbuz rayon şivələrində cümlənin baş üzvləri.....253
Şirməmməd Quliyev. Dilçilikdə sahə nəzəriyyəsinə dair.....258
Sədaqət Həsənova. Söz-cümlə (cavab cümləsi) və predikativlik 261
Fərqanə Kazımova. Akademik Məmməd Cəfər Cəfərovun bədii yaradıcılığı 267
Aynur Cəlilova. Naxçıvan regionu əfsanə və rəvayətlərinin bədii xüsusiyyətləri 273
Surə Seyid. Mirzə İbrahimovun Naxçıvanda ədəbi proses və mətbuatın inkişafında rolu 277

Azadə Zeynalova. Güllü Məmmədovanın «Qarabəkir əfsanəsi» romanı 283
Aypara Behbudova. Adil Babayevin lirikası və onun əsas xüsusiyyətləri.....288
Lütvüyyə Əsgərzadə. «İblis» - şərq mifologiyasının tipoloji həlli.....293
Nəzakət İsmayılova. Mədəni irsimizin güney qolu istiqamətində öyrənilməsi.....299
Əli Qəhrəmanov. Rza Təhmasibin teatr, kino və pedaqoji fəaliyyəti 304
Cəlil Vəzirov. «Vaqif», «Frhad və Şirin» pyesləri Naxçıvan səhnəsində.....311
Rüxsarə Hüseynova. Azərbaycan xalq teatrında musiqinin rolu.....317
Mehriban Sultan. «Yeni yol» qəzetində teatrşünaslıq məsələləri 322
Gülnarə Qənbərova. Memarlıq və xalçaçılıqda naxış yaradıcılığının ortaq prinsipləri.....328

IV. TƏBİƏT ELMLƏRİ

Tariyel Talıbov, Abbas Dəmənabi. Cənubi Azərbaycanın Kiyaməki ərazisinin endemik və nadir bitkiləri.....336
Varis Quliyev. Hibridləşmə yolu ilə yeni üzüm formalarının alınması.....339
Teyyub Paşayev. Naxçıvan MR lixenofloraşı üçün yeni şibyə növləri 343
Ənvər İbrahimov. Naxçıvan MR ərazisində yayılan yabanı armud növlərinin fenoloji xüsusiyyətləri 347
Seyfəli Qəhrəmanov. Naxçıvan MR-də yayılmış bir sıra yaşıl yosunlar 350
Aydın Qənbərli, Rüstəm Rəhimov. Sənaye əhəmiyyətli bəzi bitkilərdə efir yağlarının toplanılma dinamikasının və yağ çıxımının təyini.....354
Ramiz Ələkbərov. Naxçıvan MR brioflorasının sistematik təhlili 358
Arzu Məmmədov. H.Ə.Əliyev adına Ordubad Milli parkının ornitofaunas 362

Loğman Bayramov. Naxçıvan MR ərazisində yayılmış bəzi yerli alma sortlarının biomorfoloji xüsusiyyətləri 368
Abbas İsmayılov. Gilançay hövzəsinin səhra və yarımsəhra bitkiliyi.....372
Pərviz Fətullayev. Naxçıvan MR şəraitində buğda bitkisinin müxtəlif sort və formalarının öyrənilməsi.....376
Səyyarə İbadullayeva, Tamaşa Nəzərəliyeva. Kərəvüzkimilərin bəzi yabanı ədviyyat bitkiləri haqqında 380
Orxan Bağırov. Naxçıvan MR ərazisində gilas və gilənarın sort müxtəlifliyinin tədqiqinə dair.....385
Şəfiqə Allahyarova. Tülpan cinsinə daxil olan növlərin Nəbatat bağında toplanılması və biomorfoloji xüsusiyyətlərinin tədqiqi.....390
Günay Rüstəmova. Naxçıvan MR-in səhləbkimilər fəsiləsi bitkiləri.....392
Aytən Vəlisoy. Naxçıvan MR-də yayılmış ardıç növlərinin biomorfoloji xüsusiyyətləri 395
Zülfiyyə Salayeva. Naxçıvan MR-in Naxçıvan düzənliyi botaniki-coğrafi rayonunun süsənləri 397
Gültəkin Əliyeva, İlhamə Mustafayeva. Dərman təyin edilməsinin bəzi xüsusiyyətlərinə dair 403
Fərman Xudaverdiyev. Naxçıvan MR-də becərilən yerli və gətirilmə gavalı sortları.....410
İsmayıl Sadiqov. Naxçıvan florasının yeni taxıl növləri 412
Xanbala Rüstəmov, Naibə Əliyeva. Naxçıvan MR-də otlaq və biçənəklərin mühafizəsinə dair 416
Musa Piriyev. Andız bitkisinin biologiyası və əhəmiyyəti.....421
Əli Məmmədov. Nalbənd ağacı Naxçıvanın gözəl bəzək bitkisidir 425
Daşqın Qənbərov. Arazboyu düzənlik zonasının epigey şibyələrinin indikatorluq xüsusiyyətləri ...429
Hamlet Nəzərov. Naxçıvan MR-də qoz bitkisinin bəzi bioloji xüsusiyyətləri.....432
İsmayıl Məmmədov. Naxçıvan MR-də xırdabuynuzlu heyvanların sarkosporidiozu 436

Etibar Məmmədov. Anoplosefalyatozların iribuynuzlu heyvanlarda yayılma xüsusiyyətləri 439
Mahir Məhərrəmov. Arazboyu maili düzənliyin arıkimilərinin (hymenoptera apoidae) öyrənilməsi.....442
Akif Bayramov. Naxçıvan su anbarında ali xərcəng növlərinin çoxillik inkişaf dinamikası.....446
Aqil Qasımov. Gavalı meyvələrini (laspeyresia funebrana Tr.) onun bioloji xüsusiyyətləri və entomofaqları 450
Mirmahmud Seyidli. Naxçıvan MR ərazisində bal arısının cinsləri və onların populyasiyaları.....454
Elsevər Əsədov. Vərəmumun bioloji təsir mexanizminə dair 458
Salch Məhərrəmov. Naxçıvan MR-in müxtəlif zonalarında helmintlərin yayılmasının ekoloji xüsusiyyətləri 463
Tapdıq Məmmədov. Naxçıvan MR-in balıq sərvətlərindən səmərəli istifadə yolları 466
Yavər Məmmədov. Ağqalxanlı sümürtkən (Anisoplia leucaspis cast) böcəyi növünün Naxçıvan MR şəraitində generasiya xüsusiyyəti.....471
Həbib Hüseynov. Azərbaycanda arı xəstəliklərinin öyrənilməsi vəziyyəti 475
Həmid Fərəcov. Naxçıvan su anbarında ekoloji amillərin heyvanat aləminə təsiri.....480
Qara Mustafayev, Hüseyn Novruzov. Naxçıvan MR-də quşların sinekologiyasının əsas göstəriciləri 485
Sahib Hacıyev. Sədərək düzünün torpaq örtüyü struktur tərkibinin öyrənilməsi və onlardan səmərəli istifadə yolları.....490
Bəhruz Şəkuri, Akif Mərdanlı. Naxçıvan Muxtar Respublikasında dağ və dağətəyi zonalarda eroziyaya qarşı mübarizə tədbirləri.....496
Fizzə Məmmədova, Aytən Məmmədova, Əliəddin Abbasov. KU-2x8 kationiti ilə Cu^{2+}, Zn^{2+} və Pb^{2+} ionlarının sorbsiyasının tarazlıq xüsusiyyətləri və kinetikası.....501

Bayram Rzayev, Rafiq Quliyev, Naibə Məmmədova. SnS_2-$AgNO_3$-H_2O sistemindən Ag_2SnS_3 tərkibli tiobirləşmələrin alınma şəraitinin araşdırılması.....507
Əlməd Qarayev. Parağaçay molibdenit filizinin kollektiv Flotasiyası 511
Günel Məmmədova. İzobutilen oliqomerlərinin alınması və onunla qatılaşdırılmış M-10 yağının özlülük indeksinin təyini.....516
Məmməd Babanlı, Qorxmaz Hüseynov. TlJ-Te sistemi 520
Şəmil Mahmudov. Naxçıvan Ağdərə polimetallik konsentratı əsasında yeni, bir və çox nüvəli molibden karbonil klaster birləşmələrinin sintezi və tədqiqi 522
Məmməd Ağasıyev. Naxçıvan MR ərazisində neft təzahürləri.....527
Malikəjdər İbrahimov. Darıdağ mineral suyunun ürək-damar xəstəliklərində müalicəvi əhəmiyyəti 535
Əlövsət Quliyev. Əylis kəhriz sistemləri, onların potensial imkanları.....540
Aygün Heydərova. Kəngərli rayonunun hidrogeoloji şəraitinə dair.....544
Nazim Bababəyli. Orta Araz təbii vilayəti düzənlik landşaft kompleksində səhralaşma problemi.....548
Əli Qurbanov. Naxçıvan MR ərazisində aqroirriqasiya eroziyası.....553
Aləm Ələkbərov. Naxçıvan MR torpaqlarında radionuklidlərin hərəkti və miqrasiyası 556
Ceyhun Əsgərov. Gilançayın hidroenerji ehtiyatları.....560
Gültəkin Süleymanova. Naxçıvan MR-də dağ-çəmən landşaftının rekreasiya ehtiyatlarının qiymətləndirilməsi.....564
Etiqat Bektaşi. Naxçıvan Muxtar Respublikasında endogen mənşəli təbiət abidələri 568

V. FİZİKA, RİYAZİYYAT VƏ ASTRONOMİYA ELMLƏRİ

Azad Məmmədli. Məhdud üç cisim məsələsinin xüsusi həlləri haqqında.....572
Tapdıq Hacıyev. Kiçik səyyar kornoqraf.....580
Əlövsət Dadaşov. Orbitlərarası ən qısa məsafənin tapılmasının bir həlli haqqında.....583
Sadıq Vəliyev. Cırlaşan əmsallı eksponentlər sisteminin hilbert bazisliyi.....586
Rövşən Həsənov. Başlanğıc gərginlik yarımmüstəvi üçün dövri məsələ (xüsusi elastiki potensiallar).....592
İbrahim Rüstəmov, Fatma Hacıyeva. İbtidai siniflərdə tənlik qurmaqla məsələlər həllinin tədrisinə dair.....598
Elşad Ağayev. Bir elliptik tip tənlik üçün sərhəd məsələsi.....603
Azad Novruzov, Sahib Əliyev. Riyazi analizdən praktik məşğələlər üçün çalışmaların seçilməsi prinsipi və onun didaktik əhəmiyyəti.....608
Aygün Sultanova. $ZnGa_2Se_4$ monokristalında valent və keçiricilik zonası üçün deformasiya potensialı.....613
Almuq Abbasov, Məcnun Ağayev, Oruc Əhmədov. $CuGdTe_2$, Cu_5GdTe_4 birləşmələrinin sintezi və əksolma spektrlərinin öyrənilməsi.....616
Məmməd Hüseynəliyev. Horizontal bricmen üsulu ilə alınmış $CuInS_2$ monokristalının optik xassələri.....619
Məhbub Kazımov, Nazilə Mahmudova. $GaInS_3$-Fe tipli monokristalının sintezi, elektronoqrafik və rentgenoqrafik tədqiqi.....623
Nailə Qardaşbəyova. Polyar optik fononlardan səpilmə.....625
Məhərrəm İbrahimov. İnformasiyaölçmə sisteminin əsas xüsusiyyətləri haqqında.....627
Cavid Mustafayev, Rafiq Nəcəfov. Tədqiq edilən obyektlərdən informasiyanın alınması və toplanması....630

İSMAYIL HACIYEV
AMEA Naxçıvan Bölməsi

MÜQƏDDƏS ELM MƏBƏDİ

Azərbaycanda elmin, mədəniyyətin, ictimai-fəlsəfi fikrin inkişafında çox mühüm rol oynayan Milli Elmlər Akademiyası 60 ilə yaxın bir müddətdə şərəfli yol keçmişdir. Bu illərdə Azərbaycan elmi, təhsili və mədəniyyəti dünya elminə birbaşa inteqrasiya olunmaq imkanı qazanmış və həmişə cəmiyyətin inkişafına xidmət etmişdir.

«Azərbaycan Milli Elmlər Akademiyasının 60 illik yubileyi haqqında» Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamda qeyd edildiyi kimi, bir çox sahələrdə alimlərimizin əldə etdiyi nəticələr elm aləmində öz layiqli yerini tutmuşdur[1].

Respublikamızda elmi-tədqiqat təşkilatları və idarələrinin formalaşması prosesi keçən əsrin 20-ci illərindən başlamışdır. 1923-cü ildə Elmlər Akademiyasının ilk özəyi olan «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti» (ATTC) yaradıldı[2]. 1929-cu ildə ATTC təxminən akademiya strukturuna malik olan Azərbaycan Elmi-Tədqiqat İnstitutuna çevrildi[3]. Bu instituta respublikada mövcud olan bütün elmi idarə və təşkilatların fəaliyyəti birləşdirildi. 1923-cü ildə həmin institutun əsasında SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi (AzOZFAN) yaradıldı[4]. 1935-ci ildə isə bu şöbə SSRİ EA-nın Azərbaycan Filialına çevrildi[5].

SSRİ XKS-nin 28 yanvar[6] 1945-ci il tarixli qərarı və Azərbaycan XKS-nin həmin ilin 27 mart tarixli xüsusi qərarı ilə Azərbaycan Filialı əsasında Azərbaycan Elmlər Akademiyası yaradıldı[7]. Bu vaxt akademiyanın 4 bölməsi (geologiya-kimya elmləri və neft, fizika-texnika elmləri və neft, biologiya və kənd təsərrüfatı elmləri, ictimai elmlər)[8], 16 elmi-tədqiqat institutu, 2 elmi-tədqiqat şöbəsi, 3 muzeyi, mərkəzi kitabxanası və respublikanın 4 regionunda elmi bazaları var idi[9]. Bu zaman Akademiyanın ilk heyəti də

formalaşır: 41 nəfər namizəddən 15-i Elmlər Akademiyasına həqiqi üzv seçilir. Onun ilk heyətinə M.Mirqasımov, Ü.Hacıbəyov, S.Vurğun, Y.Məmmədəliyev, M.Torçubaşov, M.İbrahimov, M.Qaşqay, S.Dadaşov, Ş.Əzizbəyov, A.Qrossheym, İ.Yesman, Ə.Əlizadə, H.Hüseynov, İ.Şirokoqo- rov və M.Hüseynov daxil oldu[10]. Həmin ilin mart ayının 31-də Akademiyanın keçirdiyi ümumi iclasda akademik M.Mirqasımov Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti seçildi[11]. 1945-1947-ci illərdə Akademiyanın prezidenti olan M.Mirqasımovun təşkilatçılıq bacarığı sayəsində respublikada elm və texnikanın müxtəlif sahələri üzrə fundamental və tətbiqi tədqiqatların genişləndirilməsi, texniki, neft-kimya, təbiətşünaslıq, ictimai elmlər, ədəbiyyat və incəsənət sahəsində aktual məsələlərin yaxın illərdə həlli üçün məqsədyönlü tədbirlər planlaşdırıldı.

Sonrakı illərdə Respublika Elmlər Akademiyasına tanınmış elm xadimləri Yusif Məmmədəliyev (1947-1950; 1958-1961), Musa Əliyev (1950-1958), Zahid Xəlilov (1962-1967), Rüstəm İsmayılov (1967-1970), Həsən Abdullayev (1970-1983), Eldar Salayev (1983-1997), Fəraməz Maqsudov (1997-2000) rəhbərlik etmişlər. 2001-ci ilin iyul ayından isə elm ocağına görkəmli alim Mahmud Kərimov rəhbərlik edir.

1945-1965-ci illərdə Azərbaycan Elmlər Akademiyası 5 bölmədən, 22 elmi-tədqiqat institutundan, 2 sektordan, 3 muzeydən ibarət olmuş və burada 6 mindən artıq əməkdaş çalışmışdır. Elmi əməkdaşlardan 150 nəfəri elmlər doktoru, 300-ə qədəri isə elmlər namizədi olmuşdur. Həmin illərdə Akademiyanın 34 nəfər həqiqi üzvü, 25 nəfər müxbir üzvü olmuşdur[12]. Bu illərdə Azərbaycan Elmlər Akademiyasına 6 dəfə (1945, 1949, 1955, 1958, 1959, 1962) seçkilər keçirilmiş, Azərbaycan elminin ən görkəmli nümayəndələri həqiqi və müxbir üzv seçilmişdir. 20 il ərzində Elmlər Akademiyasının maddi texniki bazası möhkəmlənmiş, əhatə dairəsi genişlənmiş, yeni elmi-tədqiqat müəssisələri, laboratoriyalar, şöbələr, bölmələr açılmış, perspektivli elmi sahələrin inkişafına,

yüksək ixtisaslı kadr hazırlığına və elmi əlaqələrin artırılmasına ciddi diqqət yetirilmişdir.

60 illik tarixə malik olan Azərbaycan Elmlər Akademiyasının ən yüksək inkişaf dövrü ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərə təsadüf edir. Bu elm ocağının yeni yüksəlişi məhz Heydər Əliyevin adı ilə bağlıdır. 70-ci illərdə Akademiya onun böyük təşkilatçılıq istedadı nəticəsində dünyada şöhrət qazandı, özünün kadr potensialını, texniki arsenalını yaratdı[13]. Akademiya sistemində 6 bölmə, 24 elmi tədqiqat institutu, 3 sektor, 3 muzey, 1 mərkəz, 1 fond və 1 XDR sarayı fəaliyyət göstərirdi.

Həmin illərdə Akademiyanın Gəncə və Naxçıvan şəhərlərində fəaliyyət göstərən Elmi Mərkəzlərinin, Şamaxı Astrofizika Rəsədxanasının və Şəki zona elmi bazasının işləri də xeyli gücləndirilmiş. onların elmi-texniki avadanlıq baxımından imkanları xeyli zənginləşmişdir[14].

70-80-ci illər Azərbaycanda elmin müxtəlif sahələrinin sürətli inkişafı ilə xarakterizə olunur. Elmin fizika, riyaziyyat, informatika və texnika sahələrinin inkişafı təmin edildi. Nəticədə, 120-dən artıq informasiya-hesablama mərkəzi, informatika elm-istehsalat birliyi və başqa müəssisələr yaradıldı. Elm-istehsalat birlikləri, elektron və cihazqayırma zavodları işə salındı. Astronomiya, kosmik tədqiqatlar sahəsində uğurlar əldə edildi. Biologiya elminin yeni sahələri - biokimya, molekulyar biologiya, biofizika, gen biotexnologiyasının əsasları yaradıldı. Bu illərdə elmlə istehsalatın əlaqəsinə xüsusi önəm verildi. Kimya, neft emalı və neft-kimya sənayesinin əsl inkişafı bu illərə təsadüf edir. Fiziologiya, mikrobiologiya, seysmologiya kimi sahələrin inkişafına xüsusi diqqət yetirilirdi. Neft və qaz emalı, yeni neft məhsulları alınması, neft kimyası prosesləri, kimya texnologiyasının nəzəri əsasları, respublikanın mineral sərvətlərinin kompleks emalı, materialların karroziyadan qorunması, polimerlərin alınması, elektrokimya, yüksək enerjilər kimyası, dizel və avtomobil yanacağı istehsalının səmərəli metod-

larının yaradılması, yüksək keyfiyyətli aşqarların sintez edilməsi akademiyanın elmi-tədqiqat planlarında xüsusi yer tuturdu[15]. Akademiyanın ictimai və humanitar istiqamətli elmi-tədqiqat institutlarında da maraqlı və əhəmiyyətli tədqiqatlar aparılır və bir sıra fundamental və ümumiləşdirici əsərlər nəşr olunurdu.

1967-1989-cu illərdə Azərbaycan Elmlər Akademiyasına 8 dəfə seçki keçirilmiş (1967, 1968, 1969, 1972, 1976, 1980, 1983, 1989), nəticədə Akademiyanın tərkibində 53 həqiqi üzv, 72 müxbir üzv təmsil olunmuşdur. Bu dövrdə Akademiyanın tərkibində 6 bölmə, 31 elmi-tədqiqat institutu, 2 sektor və 2 muzey olmuşdur. Akademiyanın elmi-tədqiqat stirukturlarında 450-yə yaxın elmlər doktoru, 2 minə yaxın elmlər namizədi çalışmışdır.

Azərbaycan elminin inkişafında Elmlər Akademiyasının xüsusi mövqeyi və xidmətləri olmuşdur. 60 il ərzində elmimizin bütün sahələrinin ağırlığı Akademiyanın üzərinə düşmüşdür. Son 60 ildə neft kimyası, neftayırma sənayesi, yarımkeçiricilər fizikası, energetikanın fiziki-texniki problemləri, fotoelektronika, neft-qaz problemləri, regional-geoloji tədqiqatlar, seysmologiya və zəlzələlərin proqnozlaşdırılması, palçıq vulkanizmi, yerli floranın və faunanın öyrənilməsi, bitkilərin fiziologiyası, biofizika və biokimya problemləri, patoloji anatomiya, eləcə də kimya və digər elm sahələri üzrə onlarca digər mühüm problemlərə dair çox qiymətli tədqiqatlar və kəşflər məhz Elmlər Akademiyasının alimlərinə məxsusdur[16]. Bu elm sahələri üzrə Y.Məmmədəliyev, Ə.Quliyev, V.Qutırya, H.Abdullayev, A.Mirzəcanzadə, Ə.Hüseynov, M.Qaşqay, Ş.Mehdiyev, Z.Xəlilov, M.Topçubaşov, İ.Mustafayev, M.Nağıyev, H.Əliyev, V.Volobuyev, M.Dalin, A.Qarayev, C.Əliyev, Ə.Sumbatzadə, E.Salayev, F.Maqsudov, Z.Bünyadov, A.Əlizadə, T.İsmayılov, C.Kərimov, M.Kərimov, M. Rüstəmov kimi alimlərin qazandıqları uğurlar Azərbaycan elmini dünyaya tanıtdırmışdır.

Keçən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəlləri Azərbaycan üçün ən çətin, ən ağır dövrə çevrildi. Həmin

illərdə Azərbaycan elminə, mədəniyyətinə, təhsil sisteminə də ciddi zərbələr vuruldu. 90-cı illərin əvvəllərində Azərbaycan Elmlər Akademiyası dağılmaq təhlükəsi qarşısında qaldı. 1993-cü ildən, Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra, Azərbaycan elminin və təhsilinin intibahına geniş yol açıldı. Müstəqil dövlət quruculuğuna qayıdan Heydər Əliyev ilk görüş yeri kimi Elmlər Akademiyasını seçdi. Bununla böyük öndər müstəqil dövlətin qurulmasında «...intellektual potensiala arxalandığını ictimai fikrə çatdırdı»[17].

Azərbaycan xalqının ümummilli lideri 1997-ci il yanvarın 31-də Elmlər Akademiyasının rəhbərliyi; həqiq və müxbir üzvləri ilə görüşündə Akademiya ilə bağlı olan söz-söhbətlərə son qoydu: «...XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir. Biz bununla fəxr edirik. Bir şeyi bilməlisiniz, bu, mənim fikrimdir - Azərbaycan Elmlər Akademiyası respublikamızın ən yüksək elmi müəssisəsidir. Azərbaycan dövlətinin ən yüksək elmi müəssisəsi Elmlər Akademiyasıdır. Bu Akademiyanın işi və orada işləyənlərin səviyyəsi, şübhəsiz ki, başqalarından yüksəkdir, yüksək də olacaq. Biz Akademiyanın hörmətini həmişə qoruyub saxlamalıyıq, heç vaxt imkan vermək olmaz ki, Akademiyamız, yüksək səviyyəli elmi-tədqiqat institutlarımız yaranan cürbəcür elmi müəssisələr arasında ərisin, itsin. Buna yol vermək olmaz. Azərbaycan Elmlər Akademiyası dövlətin Akademiyasıdır. Prezidentin birbaşa himayəsi altındadır, tabeliyindədir və Prezidentin qarşısında cavabdehdir. Bir daha bunu deməyə məcburam ki, Azərbaycan Respublikasının müstəqil Elmlər Akademiyası Azərbaycanın ən yüksək elmi müəssisəsi, elmi təşkilatıdır...»[18].

Ölkə prezidenti Heydər Əliyev 15 may 2001-ci il tarixli fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına «Azərbaycan Milli Elmlər Akademiyası» statusunu vermiş və bununla da Akademiyanın fundamental elmin inkişafında əldə etdiyi nailiyyətləri, Azərbaycan xalqının mədəni və mənəvi təşəkkülündə oynadığı rolu və akademik elmin ölkənin inkişafının əsas təminatçısı olduğunu bir daha təsdiq etmişdir

2001-ci ilin iyun, noyabr və 2003-cü ilin aprel aylarında Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvlərinin seçkiləri keçirilmişdir. Heydər Əliyev Akademiya üzvlərinin ümumi sayının 200 nəfər müəyyən edilməsi haqda xüsusi sərəncam imzalamışdır. Seçkilər nəticəsində 40 ixtisas üzrə AMEA-nın üzvlüyünə 31 nəfər həqiqi üzv və 94 nəfər müxbir üzv seçilmişdir. Beləliklə, keçirilmiş seçkilərdən sonra həqiqi üzvlərin sayı 61, müxbir üzvlərin sayı 109-a çatmışdır.

2002-ci il avqustun 7-də dövlət başçısı Naxçıvan Muxtar Respublikasında elmi-tədqiqat qurumlarının fəaliyyətini gücləndirmək, mövcud elmi potensialdan səmərəli istifadə etmək, Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şərait yaratmaq məqsədilə AMEA-nın Naxçıvan Bölməsinin yaradılması haqqında tarixi sərəncam imzalamış, avqustun
12-də Naxçıvanda Bölmənin yaradılmasına həsr olunmuş müşavirə keçirilmişdir.

Ölkə prezidenti Heydər Əliyevin 4 yanvar 2003-cü ildə verdiyi fərmanla

AMEA-nın statusu və Nizamnaməsi təsdiq edilmişdir. Verilən həmin fərmanda ölkəmizin müasir inkişaf səviyyəsinə uyğun olaraq elm və texnikanın qarşısında duran vəzifələr konkret və aydın göstərilmişdir. Fərmanda bu münasibətlə deyilir: «Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlət elmi və elmi-texniki siyasətini həyata keçirən, Azərbaycan Respublikasındakı bütün elmi müəssisələrinin və ali məktəblərin elmi tədqiqat fəaliyyətini əlaqələndirən və istiqamətləndirən, Azərbaycan Respublikasını xarici ölkələrdə elm və elmi-texniki fəaliyyət sahəsində təmsil edən ali dövlət elmi təşkilatıdır»[19].

Qəbul olunmuş Nizamnamədə AMEA-nın fəaliyyətinin məqsəd və vəzifələri, funksiyaları, strukturu və fəaliyyətinin təşkili və hüquqları göstərilmişdir. Nizamnamədə deyilir: «Akademiyanın fəaliyyətinin əsas məqsədi təbiət, cəmiyyət və insan haqqında yeni biliklər əldə etməklə

Azərbaycanın iqtisadi, sosial və mənəvi inkişafına xidmət göstərmək. Azərbaycanda elmi inkişaf etdirməkdir»[20].

Azərbaycanda Milli Elmlər Akademiyasının çoxminli kollektivi qarşıya qoyulan vəzifələrin həlli üçün səylə çalışır, ciddi elmi-tədqiqat işləri aparırlar. 2003-cü ildə Akademiyanın elmi müəssisələrində 153 problemi əhatə edən 427 mövzu üzrə elmi tədqiqatlar aparılmış, 100-dən artıq mühüm elmi nəticə alınmışdır[20]. Azərbaycan MEA-nın bütün idarə və təşkilatlarında, elmi-tədqiqat müəssisələrində 10249 nəfər əməkdaş çalışır. Bunlardan 4306 nəfəri elmi işçidir. Elmi işçilərdən 450 nəfəri elmlər doktoru, 1998 nəfəri isə elmlər namizədidir[22]. Ümumiyyətlə, respublikada 11599 nəfər pedaqoji fəaliyyətlə yanaşı elmi-texniki işləri də yerinə yetirir. Bunlardan 9913 nəfərin elmi dərəcəsi vardır. Elmlər doktoru 1530, elmlər namizədi 8383 nəfərdir[23].

Hazırda Azərbaycan MEA sistemində 5 elmi bölmə, 36 elmi-tədqiqat institutu, 1 Bölmə, 3 mərkəz, 2 muzey fəaliyyət göstərir. MEA-nın bütün əməkdaşlarının Akademiyanın işini müstəqil dövlətimizin tələbatlarına uyğun olaraq daha intensiv qurması, dövlət əhəmiyyətli prioritet istiqamətlər üzrə elmi-tədqiqat işlərinin aparılması, Azərbaycan elminin dünya elminə daha sıx inteqrasiya olunması, struktur islahatların həyata keçirilməsi istiqamətində səmərəli iş aparırlar. «Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir. Onu qoruyub saxlamalıyıq», - Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi bu sözlər bütövlükdə Azərbaycan elminə, Akademiya əməkdaşlarına verilən ən yüksək qiymət olmaqla qalmır, həm də Akademiyanın yaranmasının 60 illiyini qarşılayan elm adamlarının məsuliyyətini bir daha artırır.

Ədəbiyyat

1. «Azərbaycan» q., 2005, 15 fevral (№ 35).
2. Müqəddəs elm məbədi (AEA-nın 50 illiyinə həsr olunur. Tərtibçi T.Əhmədov). Bakı, «Azərbaycan», 1996, s.7.
3. Xəlilov H. Mənəvi borc və şərəfli iş. «Azərbaycan» q., 2003, 2 dekabr.

4. ASE. c.1, Bakı, 1976, s. 171.
5. Azərbaycan SSR EA-nın xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1975, №1, s.5.
6. Bəzi mənbələrdə bu tarix 23 yanvar göstərilir (Bax: ASE. c.1. Bakı, 1976, s.171).
7. Müqəddəs elm məbədi... s.7.
8. Академия наук Азербайджанской ССР (Под редакцией президента АН Азерб. ССР Г.Б.Абдуллаева). Баку, «Элм», 1976, s.7.
9. ASE. c.1, s.171.
10. Yenə orada. s.171-172.
11. Dağ əzəmətli insan. «İqtisadiyyat» q., 2004, 23-29 aprel.
12. Müqəddəs elm məbədi... s.11.
13. Kərimov M. Heydər Əliyev fenomeni. «Elm». Xüsusi buraxılış. Bakı, «Nurlan», 2003, s.12.
14. Müqəddəs elm məbədi... s.11.
15. ASE. c.1, s.172.
16. Müqəddəs elm məbədi... s.12.
17. Kərimov M. Göstərilən əsəri. s.32.
18. «Azərbaycan» q., 1997, 4 fevral (№22).
19. Yenə orada, 2003, 5 yanvar (№03).
20. Yenə orada.
21. AMEA-nın 2003-cü ildəki fəaliyyəti haqqında hesabat. Bakı, «Elm», 2004, s.182.
22. Yenə orada.
23. «Elm» q., 2004, 28 dekabr (№37-40).

İSA HƏBİBBƏYLİ
Naxçıvan Dövlət Universiteti

AZƏRBAYCAN ELMİNİN BAŞ QƏRARGAHI

Azərbaycanda elm bir çox istiqamətlər üzrə yaranıb inkişaf edir. Milli Elmlər Akademiyasında, ali məktəblərdə, müxtəlif nazirliklərə aid olan sahə elmi-tədqiqat intitutlarında yaranan və inkişaf etdirilən elm Azərbaycan xalqının milli sərvətidir. Azərbaycan alimlərinin üçdə ikisinin təmsil olunduğu ali məktəb elmi fundamental tədqiqatlarla yanaşı, pedaqoji-metodiki xarakteri ilə də səciyyələnir. Sahə institutlarında formalaşan elmi fəaliyyət konkret bir istiqamət çərçivəsində aparılmaqla bərabər, daha çox tətbiqi-təcrübi xarakter daşıyır. Azərbaycan Milli Elmlər Akademiyasında yaranan elm isə fundamental xarakterinə, dərin nəzəri səviyyəsinə, ümumiləşdirici əhəmiyyətinə və tətbiq imkanlarının universallığına görə seçilir. Milli Elmlər Akademiyası həmçinin respublikamızın aparıcı elmi istiqamətlərini müəyyən edən, elmin özünün inişafına dair proqramlar, layihələr hazırlayan əsas elmi mərkəzdir. Azərbaycan Respublikası miqyasında bütün sahələr və istiqamətlər üzrə çoxcəhətli elmi fəaliyyəti əlaqələndirmək, koordinasiya etmək, ümumiləşdirib yekunlaşdırmaq vəzifələrini də Milli Elmlər Akademiyası yerinə yetirir. Bütün bunlara görə Milli Elmlər Akademiyası Azərbaycan elminin baş qərargahıdır.

Respublikamızda Milli Elmlər Akademiyasının yaradılması və inkişaf etdirilməsi XX əsrin mühüm tarixi nailiyyətidir. Azərbaycan elminin bu günkü yüksək elmi səviyyəsi üçün daha çox Akademiyamıza borclu və minnətdarıq. Milli Elmlər Akademiyasının keçdiyi çətin, keşməkeşli və şərəfli inkişaf yolu Azərbaycan elminin son altmış ildəki qabarmalarının və çəkilmələrinin, kəsirlərinin və uğurlarının güzgüsüdür.

Danılmaz həqiqətdir ki, bütün fəaliyyəti ərzində Milli Elmlər Akademiyasının ən yüksək təşəkkülü və inkişafı ümummilli liderimiz Heydər Əliyevin hakimiyyəti illərinə aiddir. Görkəmli dövlət xadimi Heydər Əliyev həm Elmlər Akademiyasını elmin inkişaf etdirilməsinin əsas hərəkətverici faktoruna – mərkəzinə çevirdi, həm də Azərbaycanın inkişafı və tanıdılması naminə Akademiya faktorundan faydalanmaq vəzifəsini böyük bacarıqla həyata keçirdi. Azərbaycan tarixində Akademiyanın imkanları və nüfuzu heç vaxt dövlətçiliyinin Heydər Əliyev mərhələsindəki səviyyədə olmamışdır. Məhz Heydər Əliyev dövründə Azərbaycan aliminin və elminin nüfuzu Milli Elmlər Akademiyasının konkret tarixi şəraitdə malik olduğu nüfuzla ölçülmüş, müəyyən olunmuşdur. Sovet hakimiyyəti illərində Elmlər Akademiiyasını keçmiş İttifaq məkanında əsas elmi mərkəzlərdən biri kimi tanıtmağa nail olmuş Heydər Əliyev müstəqillik mərhələsində bu böyük elmi qurumu xalqın milli sərvətinə çevirməklə yanaşı, dünya elminin tərkib hissəsi səviyyəsində qəbul edilməsi üçün də düşünülmüş əməli addımlar atmışdır.

Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması uzaqgörən qüdrətli dövlət xadimi Heydər Əliyevin Azərbaycan elminə, yeni tipli Akademiya quruculuğuna sanballı töhfəsidir. Akademiyanın Naxçıvan Bölməsi ideyasının gerçəkləşdirilməsi milli elmin coğrafiyasının genişləndirilməsi və respublikanın əsas ərazisindən ayrı salınmış bir regionda elmi qüvvələrin qorunub saxlanılması, daha da inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyətə malik olan düşünülmüş uğurlu dövlət tədbiridir. Naxçıvanda Akademiya yaratmaq müstəqil respublikamızın üzvi tərkib hissəsi olan Naxçıvan diyarında qədim oğuz-türk mədəniyyətinin, dilimizin, milli tariximizin və ədəbiyyatımızın köklərinin, təşəkkülü və inkişafı yollarının daha əsaslı, tutarlı, dəlillisübutlu şəkildə araşdırılıb ümumiləşdirilməsinə geniş meydan açmaq deməkdir. Bu akademik qurumun təşkili eyni zamanda Cənubi və Qərbi Azərbaycanı, Şərqi Anadolunu

tədqiq etmək vəzifələrini həyata keçirən ciddi bir elmi mərkəzin yaradılması kimi uzaqgörən strateji məqsədlərə də xidmət edir. Qısa müddətdə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr potensialının formalaşdırılması istiqamətində görülmüş genişmiqyaslı işlər, əldə edilmiş ilkin müsbət elmi nəticələr ümummilli liderin siyasi kursunun uğurla yerinə yetirilməsinə əyani sübutdur.

Naxçıvan Dövlət Universiteti ilə Milli Elmlər Akkademiyasının Naxçıvan Bölməsinin qarşılıqlı, işgüzar fəaliyyətinin təmin olunması respublikamızda elmlə ali təhsilin inteqrasiyasına bariz nümunələrdən biri sayıla bilər. Bakalavr, magistratura və aspirantura pillələri üzrə Naxçıvan Dövlət Universitetinin qəbul planlarının, Dissertasiya Şurasının fəaliyyətinin Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin zəruri ehtiyaclarına, əsas tələbatlarına doğru istiqamətləndirilməsi, yeni elmi qurumun elmi dərəcəli kadrla təminatı sahəsində qayğıkeş addımların atılması, birgə elmi konfransların və seminarların keçirilməsi, müştərək nəşrlərin hazırlanması regionda vahid elmi mühitin formalaşdırılmasına və canlandırılmasına normal şərait yaratmışdır. Elmi və ali təhsili əhatə edən bu iki qurum arasında inteqrasiyanın daha da dərinləşməsi və möhkəmləndirilməsi qısa müddətdə regionda yeni və mükəmməl elmi məktəblərin yaranmasına, nüfuzlu alimlərin yetişib formalaşmasına özünün sanballı töhfəsini verəcəkdir.

Azərbaycanın dünya şöhrətli alimləri əsasən Milli Elmlər Akademiyasından çıxmışdır. Bu mənada Milli Elmlər Akademiyası təkcə Azərbaycan üçün deyil, geniş mənada bəşəriyyət üçün faydalı olan ideyaları, ciddi kəşfləri, nadir ixtiraları meydana çıxaran, ərsəyə gətirən böyük elmi mərkəzdir. Yer kürəsinin müxtəlif qütblərində qəbul olunan görkəmli Azərbaycan alimləri – Yusif Məmmədəliyev, Həsən Abdullayev, Həsən Əliyev, Cəlal Əliyev, Mahmud Kərimov, Ziya Bünyadov, Fəraməz Maqsudov, Həbibbulla və Toğrul Şahtaxtinskilər, Mustafa Topçubaşov, Azad Mirzəcanzadə,

Arif Mehdiyev, Əhməd Mahmudov, Budaq Budaqov, Əlisöhbət Sumbatzadə, Cəmil Quliyev, Bəkir Nəbiyev, Akif Əlizadə, Məmmədcəfər Cəfərov, Asəf Nadirov, Ağamusa Axundov, Yaşar Qarayev, Kərim Kərimov və başqaları Milli Elmlər Akademiyasının elmi mühitində və zəngin ənənələri zəminində yetişib formalaşmış, tanınıb məşhurlaşmışlar. Uzun illər Milli Elmlər Akademiyasına uğurla rəhbərlik etmiş, böyük elmi kəşflərin müəllifi, neft kimyası elmi məktəbinin yaradıcısı, görkəmli alim – təşkilatçı, beynəlxalq aləmdə qəbul olunan akademik Yusif Məmmədəliyevin xidmətləri bütövlükdə əhalisinə və ərazisinə görə respublikamıza uyğun gələn digər ölkələrin Akademiyalarının fəaliyyətinə bərabərdir.

Azərbaycan dünyada həm də böyük elmi və görkəmli alimləri ilə tanınmışdır.

Müstəqillik dövründə Azərbaycan Milli Elmlər Akademiyası özünü yenidən bərpa etmiş və yeni inkişaf mərhələsinə qədəm qoymuş güclü elmi mərkəz kimi fəaliyyətini uğurla davam etdirir. Hazırki tarixi mərhələdə Akademiyamız müstəqil Azərbaycanın elm üzrə Baş Qərargahı funksiyasını həyata keçirməyin məsuliyyətini və şərəfini bütün ciddiliyi və ləyaqəti ilə nəinki gerçəkləşdirir, həm də böyük qətiyyətlə və inamla daha böyük gələcəyə doğru aparır.

TARİYEL TALIBOV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

NAXÇIVAN MR ƏRAZİSİNDƏ BOTANİKİ TƏDQİQATLAR TARİXİ

Bitkilər aləmi Yer kürəsində canlılar aləminin təşəkkülündə, onun formalaşmasında və yaşayışında çox mühüm rol oynamışdır. Təkcə xlorofil piqmentinin yaranması canlılar aləmində ən böyük bir möcüzə, ən böyük bir inqilab kimi qiymətləndirilir.

Məlumdur ki, insan da digər canlılar kimi ilk olaraq öz qida rasionunda bitki mənşəli məhsullardan daha çox istifadə etmiş, onu tanımağa başlamışdır. Məskunlaşandan sonra əkinçilik mədəniyyəti formalaşmış, yabanı növlər becərilərək yavaş-yavaş stabil qida ehtiyatı əldə edə bilmişlər. Bu proses vəhşi heyvanların saxlanılması, əhlilləşdirilməsi ilə də davam edilərək, yenə qida ehtiyatı xatirinə heyvanları diri – "canlı konserv" formasında saxlamışlar. İnsan təkmilləşdikcə, elmi təfəkkür formalaşdıqca o nəinki öz əhatə dairəsini, eyni zamanda bütün əraziləri, qitələri gəzərək yeni təbii ehtiyat bazası əldə etməyə və öyrənməyə çalışılmışdır.

Naxçıvan MR-in torpaq-iqlim amilləri, relyef və digər fiziki-coğrafi xüsusiyyətləri burada spesifik ekosistemin əmələ gəlməsi və formalaşmasında xüsusi rol oynamış, müasir biomüxtəlifliyin yaranmasına səbəb olmuşdur. Bu zənginliyin yaranmasının digər səbəbi, ərazinin genezisi ilə bərabər, həm də onun bir neçə botaniki-coğrafi rayonlar sərhəddində yerləşməsidir ki, bu zaman növlərin miqrasiya imkanları hesabına biomüxtəliflik daha da zənginləşmişdir.

Biomüxtəliflik tükənməyən təbii sərvətlərdən biri olub, hər bir ölkənin iqtisadi həyatında çox vacib rol oynayır. Biomüxtəlifliyi təşkil edən növlər qida, yem, dərman, texniki, dekorativ və s. məqsədlərlə istifadə edilə bilir. Bacarıqla və məqsədyönlü istifadə edildikdə, eyni zamanda növün

təbiətdəki populyasiyasının say dinamikasına nəzarət olunduqda, bioresurslardan istifadə effektli olmaqla yanaşı, istifadə edilən canlının təbiətdəki normal fəaliyyəti də bərpa oluna bilər.

Naxçıvan MR-də biornüxtəlifliyin zənginliyi dedikdə onu nəzərə almaq lazımdır ki, ərazimiz bəşəriyyətin əsas qidasını təşkil edən buğdanın təkdənli və ikidənli növlərinin, insanların ilk əhlilləşdirdiyi keçi (bezoar keçisi) və qoyunun (muflon), nadir, endemik və relikt növlərin vətənidir. Bu zənginlik içərisində ərazinin florası da özünəməxsus olub, öyrənilmə tarixi qədim zamanlara gedib çıxır. Məhz bu səbəbdəndir ki, biz ərazinin floristik tədqiqi tarixindən danışdıqda mütləq xalq təbabəti, səyyah və təbiətşünasların və s. müxtəlif səpkili məlumatları ilə kifayətlənməli oluruq. Ərazimizin "İpək Yolu" marşrutu üzərində yerləşməsi (8,12) təbii ki, bu bölgədən keçən səyyah, tacir, təbiətşünas və başqalarının yazdıqları xatirələrdə, əsərlərdə və s. öz əksini tapmış olmalıdır. Belə mənbələr az da olsa vardır və onlar müəyyən fikirlərin irəli sürülməsinə imkan verir (10, 19).

Naxçıvan mahalında xalq seleksiyaçıları tərəfindən qiymətli meyvə sortları yaradılmış, dərman bitkilərindən müvəffəqiyyətlə istifadə edilmişdir. Lakin bu haqda yazılı məlumatlar çox az olmuşdur. Hələ keçən əsrin əvvəllərində Azərbaycanda tədqiqat mərkəzlərinin, muzeylərin və s. yaradılması ilə əlaqədar olaraq, elmi-tədqiqat işlərinin həcmi və miqyası artmağa başlamış, floraya aid dəqiq yazılar meydana çıxmışdır. 1920-ci illərin əvvəlində yaradılmış "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" 1931-ci ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutuna (Az. DETİ) çevrilir. 1932-ci ildə Az. DETİ-nin tərkibində Bakı Sektoru yaradılır ki, ona da A.A. Qrossheym rəhbərlik edir. Az bir müddətdən sonra bu İnstitut Azərbaycan Dövlət Təbii İstehsalat Gücünün Öyrənilməsi İnstitutuna çevrilir. 1932-ci ilin noyabr ayından etibarən bu İnstitut SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan şöbəsinə, Bitki Ehtiyatı seksiyası isə Azərbaycan şöbəsinin Botanika sektoruna

çevrilir. Bu sektorun müdiri A.A. Qrossheym olur. 1936-cı ildə bu sektor SSRİ EA Azərbaycan Filialının Botanika İnstitutuna çevrilir.

1931-1936-cı illərdə Azərbaycanda və o cümlədən Naxçıvan MR ərazisində intensiv tədqiqat işləri aparılmışdır. Qarşıya qoyulan məqsəd bitki ehtiyatını müəyyənləşdirmək, kauçuklu, efir yağlı və dərman əhəmiyyətli bitkiləri öyrənmək olmuşdur (1,4,16,17). Qeyd edildiyi kimi Naxçıvan MR-in iqlim faktorları burada kserofit bitki qruplarının formalaşmasına səbəb olmuşdur. Bu bitki qruplarının içərisində çoxlu efir yağlı, kauçuqlu, kitrəli, dərman əhəmiyyətli və s. istiqamətli bitki növləri çoxdur.

Əraziyə edilən planauyğun ekspedisiyalar nəticəsində elm üçün çoxlu miqdarda yeni bitki növləri aşkar edilmiş, bitki ehtiyatı öyrənilməyə başlamışdır. A.A. Qrossheym bu dövrdə Azərbaycan dilində ilk dəfə olaraq 3 cildlik "Azərbaycan florası" əsərlərini nəşr etdirir (3). Azərbaycan dilində yazılan bu əsərlər botanik alimlərin, xüsusən sistematiklərin yetişməsində mühüm rol oynamışdır. Bu əsərlərdə Naxçıvan MR florası haqqında da məlumatlar verilir.

Bu ərəfədə L.İ. Prilipko Naxçıvan MR-in bitki örtüyünü, eyni zamanda əsas sistematik qrupları şərh edən "Naxçıvan MSSR-də bitki münasibətləri haqqında" əsərini nəşr etdirir (18). Naxçıvan MR-in bitkiliyinə həsr edilən bu qiymətli tədqiqat əsəri bu gün də öz dəyərini itirməmişdir. L.İ. Prilipko Muxtar Respublikada tədqiqat işi aparan mütəxəssislərin bütün əsərlərini öz kitabında qeyd etməklə, gələcək tədqiqatçılara düzgün istiqamət tapmaqda kömək etmişdir. O, ərazidə 1148 növ ali bitki növünün yayıldığını qeyd edir.

A.A. Qrossheym özünün "Флора Кавказа" adlı fundamental əsərlərini bu müddətdə nəşr etdirməyə başlayır. Çox təəssüf ki, onun ölümü ilə əlaqədar olaraq yalnız 7 cild nəşr edilmiş və Qafqaz florasına həsr ediləsi digər 3 cild bu günə

kimi işlənilməmiş qalır. Bu əsərlərdə Naxçıvan MR-də aşkar edilən bitki növləri də (1150) öz əksini tapmışdır (14).

Keçən əsrin 50-ci illərindən başlayaraq iqtisadi əhəmiyyət kəsb edən bitkilərlə yanaşı sistematik qruplara da xüsusi fikir verilməyə başlanılmışdır. Botanika İnstitutu özünün fundamental 8 cildlik "Флора Азербайджана" əsərlərini nəşr etdirir (22). Bu əsərlərdə Naxçıvan MR-in o dövrdə tədqiq edilən bitki növləri göstərilmişdir. 1980-cı ilə qədər Naxçıvan MR-in flora biomüxtəlifliyinin tədqiqi müəyyən ekoloji qrup, cinslər, fəsilələr, həm də bəzi endemik və dərman bitkilərinin tədqiqi ilə məhdudlaşmış, floranın tam spektri öyrənilməmişdir (1,7,13,14,22).

1980-cı illərdən başlayaraq ərazinin florası (2,5,10,20,21) və bitki örtüyü (6,15) sistemli şəkildə tədqiq edilmiş, burada yabanı və mədəni floraya daxil olan 168 fəsilə və 880 cinsə aid 2963 növün cəmləşdiyi dəqiqləşdirilmiş, bitkilik isə assosasiya səviyyəsində öyrənilmişdir. Eyni zamanda təbii ehtiyatı bol olan dərman, efir yağlı, vitaminli və s. bitkilərin yayıldığı zonalar, istifadə imkanları haqqında da tədqiqat işləri aparılmışdır. Tədqiqat işləri Naxçıvan MR-in nadir və endemik bitkilərinə aid də aparılmışdır. Ərazidə 59 Azərbaycan və 109 Qafqaz endeminin olduğu müəyyənləşdirilmiş, ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilərin 110 növünün nadir olduğu aydınlaşdırılmışdır (10).

Bütün bunlara baxmayaraq Azərbaycan florasının 62,4 %-ni təşkil edən "Naxçıvan florası" kitabları, həmçinin Naxçıvan MR-in "Qırmızı Kitab"ı yazılmamış qalır. Ərazi florasında yabanı meyvə-giləmeyvə bitkiləri, ağaclar və kollar, indikator, zəhərli və zərərli bitkilər və s. öz tədqiqi zamanını gözləyir. Hal-hazırda AMEA Naxçıvan Bölməsinin elmi işçiləri bu istiqamətdə planauyğun işlər aparır, növləri tədqiq etməklə yanaşı onların genetik fondunun "Nəbatat bağı" və təcrübə sahələrində qorunmasına çalışırlar.

Naxçıvan MR-də ibtidai və bəzi ali bitki qruplarına dair indiyə qədər çox zəif elmi-tədqiqat işləri aparıldığını nəzərə alaraq, həmin çatışmazlıqlar aradan qaldırılmışdır. Yaşıl yosunlar, şibyələr və marnırlara dair aparılan tədqiqat işləri flora biomüxtəlifliyinə 150-dən çox Qafqaz, Azərbaycan və Naxçıvan MR üçün yeni növlərin aşkar edilməsinə imkan vermişdir. Bütün bunlarla bərabər hələ də bir çox bitki qrupları tədqiq edilməmiş qalır və onların da yaxın zamanlarda öyrənilməsi vacib problem kimi qarşıda durur.

Ədəbiyyat

1. Abutalıbov M.H.,Hacıyev V.C., İsayev Y.M., Səfərov İ.S.,Xəlilov Ə.X. Naxçıvan MSSR-də bitki örtüyü və onun xalq təsərrüfat əhəmiyyəti. Naxçıvan MSSR-50.Elm nəşriyyatı, Bakı.1975,s. 213-229.
2. Əsgərov A.M.Naxçıvan MSSR-in qıjıkimiləri və çılpaqtoxumluları. Naxçıvan MSSR-in florası, bitki örtüyü və faydalı bitkiləri. Elm, Bakı, 1981, s.48-59
3. Qrossheym A.A. Azərbaycan florası. Azərnəşr. Bakı, cild 1-3. 1934-1936
4. Hacıyev Y. Azərbaycanın efiryağlı bitkiləri və onlardan istifadə qaydaları. SSRİ EA Azərbaycan filialının nəşriyyatı. Bakı,1939, 76 s.
5. İbadullayeva S.C. Çətirçiçəklilər fəsiləsinin faydalı bitkiləri. Araz.Bakı, 2001, 149 s.
6. İbrahimov Ə.Ş., Talıbov T.H. Naxçıvan MR-in təbii bitki ehtiyatları və ondan səmərəli istifadə yolları. "Elm və texnika yenilikləri" jurnalı. Bakı, 2000,№1.(4), s.12-23.
7. Musayev S.H. Azərbaycan taxıllarının tə'yinedicisi. Elm, Bakı, 1979,215 s.
8. Talıbov T.H., Babayeva S.N. Ə r i k. Elm nəşriyyatı, Bakı, 1997, s.27-38
9. Talıbov T.H. Naxçıvan MR-də flora biomüxtəlifliyinin əmələ gəlməsi və formalaşması. Azərb. Respublikasının "Təhsil" cəmiyyəti, Bilgi dərgisi. Kimya, Biologiya, Tibb. Bakı, 2002, № 1, s. 71-76

10. Talıbov T.H. Naxçıvan MR-in flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması. Elm nəşriyyatı, Bakı, 2001, s. 11-34
11. Talıbov T.H., Naxçıvan MR-in flora biomüxtəlifliyinin müasir vəziyyəti. Azərbaycan Milli EA Məruzələri, Elm nəşriyyatı, Bakı, 2002, c.58, № 1-2, s.
12. Ашурбейли С.В. Экономические и культурные связи Азербайджана с Китаем в период средневековья. Материалы I Всесоюзной научной конференции востоковедов в г. Ташкенте с 4 по 11 июня 1957. Ташкент, 1958
13. Ахундов Г.Ф., Гогина Е.Е.,Прилипко Л.И. Узкоэндемные и редкие виды природной флоры Нахичеванской АССР.Бюлл.ГБС,1978, вып.107,с.54-62.
14. Гроссгейм А.А.Флора Кавказа. 1939-1967.тт.1-7
15. Ибрагимов А.Ш. Растительность высокогорий Нахичеванской АССР и ее хозяйственное значение. Автореферат дисс. на соиск.уч.ст.канд. био. наук. Баку, 1980, 26 с.
16. Исаев Я.М. Природная кормовая база Нахичеванской АССР. Изв.АН Азерб.ССР.Сер. биол.наук, 1949, №5, с. 42-50
17. Карягин И.И. Дикие каучуконосы Нахичеванской АССР и Южной Армении. Тр.Аз.ФАН СССР, 1933, вып 11, с.26-42
18. Прилипко Л.И. Растительные отношения в Нахичеванской АССР. Изд. Аз ФАН СССР, Баку, 1939.Т.YII .196 с.
19. Роллов А.Х.Очерк плодоводства Эриванской губернии. Сб сведений по плодоводству в закавказском крае. Тифлис, 1899, вып.2.с.9-28
20. Талыбов Т.Г. О неотложных мерах по охране генефонда исчезающих видов растений Нахичеванской АР. Материалы IX Международного Симпозиума "Неградиционное растениеводство. Эниология. Экология и здоровье". Симферополь, 2000, с.104
21. Талыбов Т.Г. О новым семействе Adiantaceae для флоры Нахичеванской АР (Азербайджан). Ботанический журнал. Санкт-Петербург. 2001, т.86, №6, с. 171-172
22. Флора Азербайджана. Ред.И.И.Карягин. Изд.АН Азерб.ССР. Баку. 1950-1961. тт.1-8

ƏBÜLFƏZ QULİYEV
AMEA Naxçıvan Bölməsi İncəsənət,
Dil və Ədəbiyyat İnstitutu

60 İLDƏ NAXÇIVAN MR DİALEKT, ŞİVƏ VƏ YER ADLARININ ÖYRƏNİLMƏSİ

Son illər türk dilli xalqlarda türk dillərinin tədqiqinə xüsusi maraq göstərilir. Bu cəhətdən Azərbaycan dilçiliyi türkologiyanın ön cərgələrində gedir. Belə ki, təkcə Azərbaycan ədəbi dilinin xüsusiyyətləri deyil, onun dialekt və şivələri, həmçinin toponimləri də ətraflı və geniş öyrənməkdədir.

Azərbaycan dilinin ayrı-ayrı dialekt və şivələri ətraflı şəkildə öyrənilərək bir çox dissertasiyalar, çoxlu monoqrafiyalar, yüzlərlə elmi məqalələr yazılmış, elmi sessiya və konfranslarda məruzələr dinlənilmişdir. Azərbaycan dilinin dilektlərinə dair lüğətlər çap edilmiş, türkologiyada ilk dəfə olaraq Azərbaycan dilinin dialektoloji atlası hazırlanmışdır.

Azərbaycan Respublikasının dialekt fərqi baxımından zəngin bölgələrindən biri də Cənub qrupuna daxil olan Naxçıvan Muxtar Respublikasıdır. Bu qrupun dialekt və şivələri özünəxas xüsusiyyətlərinə görə dilçiliklə maraqlanın şəxsləri cəlb etsə də Naxçıvan MR dialekti XX əsrin ortalarından sonra öyrənilməyə başlamışdır. Naxçıvan dialektinə dair geniş məlumatlara R.Rüstəmovun, A.Həsənovun, M.Şirəliyevin, E.Əzizovun, B.İbrahimovun və b. əsərlərində rast gəlinir.

Naxçıvan Muxtar Respublikasından ekspedisiya yolu ilə küllü miqdarda toplanan dialektoloji materialların təhlili və müqayisəsi nəticəsində aydın olmuşdur ki, Naxçıvan MR-in iki dialekti eləcə də beş şivəsi: Naxçıvan və Ordubad, Culfa, Şərur, Şahbuz, Babək, Sədərək- vardır.

«Azərbaycan dilinin Naxçıvan qrupu dialek və şvələri» adlı əsərdə verilən dialektoloji materiallar beş il müddətində (1950-1955) Naxçıvan MR-ın Naxçıvan, Ordubad, Culfa,

Şərur və Şahbuz rayonlarının müxtəlif kəndlərindən toplanmışdır.[1] Bu əsər Azərbaycan dialektologiyası tarixində yeni bir mərhələ təşkil edir. Əsərdə müqayisəli – tarixi üsuldan istifadə edilmiş və bir çox materiallar - qohum dillərin materialları, türk dillərinə aid qədim yazılı abidələr və Azərbaycan klassiklərin əsərləri ilə müqayisə edilmişdir.

Əsərin ayrı-ayrı hissələri prof. M.Ş.Şirəliyev (fonetika), K.T.Ramazanov (morfologiya), R.Ə.Rüstəmov (sintaksis və Şahbuz şivələrinin mətnləri), B.M.İbrahimov (leksika A-K hərfləri, mətnlər), A.N.Vəliyev (leksika,L-Ş hərifləri; terminləri) tərəfindən işlənmişdir.

Naxçıvan dialekt və şivələri haqqında yazılmış məqalələrdən M.Ş.Şirəliyevin «Naxçıvan dialektləri», T.B.Həmzəyevin «Ordubad rayon şivələrinn fonetik xüsusiyyətləri», K.T.Ramazanovun «Noraşen rayonu şivələrinin bəzi xarakter morfoloji xüsusiyyətləri haqqında», R.Ə.Süleymanovun «Ordubad və Culfa rayonları şivələrinin leksik xüsusiyyətləri», R.Ə.Rüstəmovun «Şahbuz şivələrinin sintaksisi», A.Həsənovun «Ordubad dialektinin bəzi xarakter leksik və morfoloji xüsusiyyətləri» və s. məqalələri göstərmək olar.[2]

Aparılan elmi-tədqiqat işlərində, müdafiə olunmuş dissertasiyalarda Naxçıvan dialekt və şivələrinin leksikası da unudulmamışdır. Bunlara B.İbrahimovun «Naxçıvan şivələri qrupunun bəzi lüğət xüsusiyyətləri»[3], M.Zeynalovun «Məişət leksikası» (Naxçıvan qrupu dialekt və şivələri materialları əsasında)[4], T.Həmzəyevin «Ordubad dialekti»[5], Ə.Quliyevin «Azərbaycan dilinin Şahbuz şivələrinin leksikası»[6], K.İmamquluyevanın «Noraşen rayon şivələrinin lekiskası»[7] və s. əsərlərini misal göstərmək olar.

Azərbaycan dilinin dialekt və şivələri mənəvi bir xəzinədir. Məhz elə onun belə zəngindiyi və tükənməzliyi səbəbindəndir ki, 70 ildən artıqdır bu sahədə çox qiymətli, orijinal tədqiqatlar aparılır. Bu mənada M.Əhmədov uzun illər fərdi yolla tədqiqat aparmışdır. Onun «Naxçıvan qrupu şivələrinin leksikasına aid materiallar»[8] adlı əsəri xüsusi

maraq doğurur. Bu əsərə Naxçıvan qrupu şivələrinin lüğəti, atalar sözləri və məsələlər daxildir.

Bütün bu uğurlu araşdırmalara baxmayaraq Naxçıvan Muxtar Respublika dialektologiyasının hərtərəfli, dərindən və türk dilləri ilə müqayisəli şəkildə öyrənmək üçün kifayət qədər dialektoloq kadrlar çatışmır. Elə bu məqsədlə də AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik Şöbəsinin elmi tədqiqat planı Naxçıvan Muxtar Respublikasının şəhər, rayon və kəndlərinin dialekt və şivələrinin öyrənilməsinə yönəldilmişdir. Bu sahədə Ə.A.Quliyevin, Z.İsmayılın və N.Əliyevanın apardığı tədqiqatlar təqdirə layiqdir.

Naxçıvan ərazisi Azərbaycanın ən qədim yaşayış məskənlərindən və ən qədim mədəniyyət mərkəzlərindəndir. Buradakı qədim tarixə malik topooykonmlərin tədqiqi də aktual problemlərdəndir.

Naxçıvan toponimlərinrı tədqiqinə M.Vəliyev (Baharlı) xüsusi zəhmət sərf etmiş, uzun illərin tədqiqatından sonra yazdığı «Azərbaycan» adlı kitabında ilk dəfə olaraq coğrafi adların öyrənilməsinin istər dilimiz, istərsə də tariximiz üçün xüsusi əhəmiyyət daşıdığındarı danışmışdır. Bu kitabda ilk dəfə olaraq Naxçıvan ərazisi ilə bağlı Xələc, Kəngərli, Kotam, Xəlilli, Sirab və s. coğrafi adlar haqqında öz elmi fikirlərini şərh etmişdir.[9]

1960-1970-ci illərdə Azərbaycan toponimikası öz inkişafına başlamış və bu sahənin istiqmətləndirilməsində xüsusi xidmət olan A.Həsənov «Coğrafi adlarda tarixin illəri», «Dərəşam toponimi haqqında», Q.Qeybullayevlə birgə işlədiyi «Naxçıvan MSSR-in bəzi oykonimləri haqqında» adlı məqalələrində Naxçıvanla bağlı yer adlarının, mövcud onomastik vahidlərinin tədqiqinin təməlini qoymuş və bəzi toponimlərin linqivistik təhlilərinə də yer ayırmışdır.

Toponimlərin öyrənilməsində əsl vətəndaş yanğısı ilə xüsusi xidmət göstərmiş Q.Qeybullayev toponim və etnonimlərin elmi əsaslarla öyrənilməsində əvəzsiz alimdir. Onun «Naxçıvanın bəzi oykonimlərin» məqaləsi rus dilində

yazdığı «К этногенезу азербайджанцев»[10], «Топонимия Азербайджана»[11] adlı dəyərli kitabları istər Azərbaycan, istərsə də Naxçıvan toponimlərinn elmi şəkildə çox dəqiqliklə təhlilində olduqca qiymətli mənbədir.

A.Qurbanovun «Azərbaycan dilinin onomologiyası»[12] adlı əsəri onomologiyanını elmi –nəzəri problemlərinin şərhi ilə yanaşı Azərbaycan toponimlər sisteminin bütün sahələrini (oykonim, etnonim, oronim və.s), o cümlədən dilimizin hidronimlər qrupu da əsaslı surətdə dil materiallarına söykənilərək sistem halına gətirilmişdir.

Naxçıvan toponimlərinin bir qisminin elmi əsaslarla təhlilinə bir daha biz Azərbaycan alimi – A.Axundovun elmi əsərlərində rast gəlirik. Onun «Torpağın köksündə tarixin izləri»[13] adlı kitabında Naxçıvan toponimlərindən Əlincə, Qarabağlar və Naxçıvan özü, bu onomastik vahidlərin mənşəyi, linqvistik baxımdan mənbələrə istinadən elmi əsaslarla işıqlandırılmış və təhlil edilmişdir.

Naxçıvan toponimləri haqqında, onun ayrı-ayrı sistemləri haqqında dəyərli məlumatlar görkəmli alim T.Əhmədovun «Azərbaycan toponimikasının əsasları»(Bakı, 1991) adlı toponmika üçün çox dəyərli monoqrafiyasında öz əksini tapmışdır. Burada dilimizin toponimik sisteminin bütün sahələri elmi-nəzəri yolla araşdırılmış, Naxçıvan ərazisinə aid olan hidronim, oykonın, oronim və etnonimlərin mənşəyi haqqında bəzi fikirlər söylənmişdir.[14]

Görkəmli alm S. Babayev « Kitabi- Dədə Qorqud» dastanını peşəkar coğrafiyaçı kimi araşdırmış, boylardakı Naxçıvanla bağlı əlliyə yaxın toponimin yerini müəyyənləşdirmişdir. Qaraçuğ, (Culfa rayonunda), Qapılı Dərbənd (Şərur), Altuntaxt, Günortac, Salaxan qayası (Babək rayonu), Dərəşam, Əlincə, Köksü gözəl (Şahbuz rayonu) və s. belə adlardandır.[15]

Son dövrlər Naxçıvan toponimləri haqqında Q.Budaqovun yazdığı «Naxçıvan MR toponimləri» kitabı da ərazidəki toponimlərin tədqiqi ilə bağlı yazılmış yüksək

səviyyəli elmi monoqrafiyadır. Burada müəllif «İzahlı toponimik lüğət»ə də geniş yer ayırmış, oykonim, oronim və digərlərini linqivistik təhlilinə üsütünlük verimişdir. [16]

Naxçıvan toponimlərinin görkəmli tədqiqatçısı A.Bağırovun yazdığı «Naxçıvan toponimlərinin linqivistik xüsusiyyətləri» monoqrafiyası, onun doktorluq dissertasiyasının bir qismini təşkil edir.[17] Bu kitab alimin 2000-ci ildə çap olunmuş «Naxçıvan hidronimləri»[18] adlı əsərinin davamıdır. Əsərdə Naxçıvan toponimləri haqqında ayrı-ayrı tədqiqat xüsusiyyətlərindən bəhs edən müəllif topladığı toponimləri yaradan etnosların da rolunu izah etməklə ərazidəki toponimləri etnik xüsusiyyətlərinə görə qruplaşdırır və dil mənşəyinə görə seçir. Onomastik vahidlərin bütürı səviyyədə təhlili, onların yaranma yolları, tarixi, malik olduğu məna çalarları, etnonimlərin dil mənsubluğu, qrammatik xüsusiyyətləri monoqrafiyada sistem təşkil edir. Bütün bu yüksək keyfiyyətlərə baxmayaraq təbii ki, Naxçıvan MR toponimləri hələdə sistemli şəkildə öyrənilməmiş və tədqiqata ehtiyacı olan sahələrdəndir.

Toponimik tədqiqatların içərisində B.Budaqov və Q.Qeybullayevin «Naxçıvan diyarının yer yaddaşı» (2004) kitabının da tədqiqat nəticəsi kimi böyük əhəmiyyəti vardır. Kitabda Naxçıvanla bağlı yer adları qeyd olunmaqla onların bir qismi haqqında etimoloji yozumlar da verilmişdir.[19]

Belə yazıların içərisində K.Allahyarovun ARİN NDUnın «Elmi əsərlərinin IX sayında» «Naxçıvan sözünün mənşəyi və mənası» adlı məqaləsi də çox maraq doğurur. Özündən əvvəlki müəlliflərin Naxçıvan sözünün etimologiyası haqqındakı fikirləri ilə razılaşmayan müəllif yeni konsepsiyadan çıxış edərək Naxçıvan sözünü «nəxcirvan» kimi təqdim edir, onun yaranma tarixini, aid olduğu dili Parfiya dili ilə əlaqələndirir və təbii ki, etimologiya səthidir.[20]

Bu cür kiçik həcmli yazılara və onların etimoloji təhlilərinə Q.Mahmudovun «Qanlı (Kanlı) Kanqlı və yaxud Kəngərli etnotoponimi türk arealında»[21], Nətavanın

«Xəzəryurd»etnonimi, A.Bağırovun «Sələsüz oykoniminin izi ilə» adlı elmi məqalələrində rast gəlirik.[22]

Dərələyəz toponiminin etimoloji yozumunun geniş təhlili ilə bir İ. Bayramovun və U. Mirzəyevanın birdə yazdıqları «Dərələyəz toponimi haqqında»kı elmi məqaləsində tanış oluruq. Əsərdə Dərələyəz mahalının mövcud olduğu tarix, onun sərhədləri və sərhədlərlə bağlı Babək, Şahbuz, Sədərək toponimlərinin adı çəkilir və Dələyəz oronimnə elmi prizmadan yanaşılır.

AMEA Naxçıvan Bölməsinn İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Onomastika şöbəsnin müdiri F.Rzayev Naxçıvan bölgəsi toponimlərinin öyrənilməsində böyük xidmət göstərməkdədir. O, bu sahəyə aid «Əlincə çayı vadisi toponimlərində türk layı» adlı namizədlik dissertasiyası müdafiə etmiş və indi də elmi araşdırmaları davam etdirməkdədir. Bundan əlavə Firudin müəllimin başçılıq etdiyi onomastika şöbəsi də bütünlüklə Naxçıvan MR-in onomastik tərkibini öyrənməklə məşğuldur. Şöbənin elmi əməkdaşı K.İsmayıllı Şahbuz rayonu toponimlərinin tarix-linqivistik xüsusiyyətlərini araşdırmaqdadır.

Bütün bunlar aparılmış elmi tədqiqatların uğurlarından hesablanmaqla Naxçıvanın maddi mədəni mühitinin eləcə də şivə, ləhcə, toponomik sistem, folklor və s. bölmələrinin tədqiqi gələcək elmi nəticələrin böyük uğurlarından xəbər verir.

Ə d ə b i y y a t

1. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı, 1962
2. Azərbaycan EA xəbərlərin ictimai elmlər seriyası. Bakı,1958
3. İbrahimov B.Naxçıvan şivələri qrupunun bəzi lüğət xüsusiyyətləri (nam.diss.)1960
4. Zeynalov M. Məişət leksikası /Naxçıvan qrupu dialekt və şivələri materialları əsasında / (nam.diss.)Bakı,1983
5. Həmzəyev T.B. Ordubad dialekti (Nam.diss.)Bakı,1959
6. Quliyev Ə.M. Azərbaycan dilinin Şahbuz şivələrinin leksikası 9nam.diss.) Bakı,1984

7. İmamquliyev K. Noraşen rayonu şivələrinin leksikası. Bakı,1987
8. Əhmədov M.Naxçıvan şivələrinin lüğəti.Atlas sözləri .Bakı,Atilla,2001
9. Vəliyev M. (Baharlı) Azərbaycan. Bakı,1993
10. Гейбуллайев Г.А. К этногенезу Азербайджцев.Баку,1991
11. Гейбуллайев Г.А. Топонимия Азербайджана. Баку,1990
12. Qurbanov A.M. Azərbaycan dilinn onomologiyası. Bakı,1988
13. Axundov A. Torpağın köksündə tarixin izləri.Bakı,1983
14. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. Bakı,1991
15. Babayev S.Naxçıvanda «Kitabi Dədə Qorqud» toponimləri. Bakı,2002
16. Budaqova Q.Naxçıvan MR toponimləri. Bakı,1998
17. Bağırov A. Naxçıvan toponimlərinin linqivistik xüsusiyyətləri. Bakı,2002
18. Bağırov A. Naxçıvan hidronimləri. Bakı,2000
19. Budaqov B., Qeybullayev Q. Naxçıvanın yer yaddaşı. Bakı,2004
20. Allahyarov K. Naxçıvan sözünün mənşəyi və mənası «elmi əsərlər» ARTN,NDU,2002 №9
21. Mahmudov Q. Qanlı /Kanlı/ Kanqlı və yaxud Kəngərli etnotoponimi türk arealında «Filologiya məsələlərinə dair tematik toplu» Bakı,200,№1
22. Bağırov A. Sələsüz oykoniminin izi ilə «Filologiya məsələrinə dair tematik toplu» Bakı.2002, №1-2

ƏLİƏDDİN ABBASOV
AMEA Naxçıvan Bölməsi
Təbii Ehtiyatlar İnstitutu

AZƏRBAYCANDA KİMYANIN İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ XXI ƏSRƏ BAXIŞ

Azərbaycanda kimyanın inkişafı əsasən üç: kimyəvi kinetika, kataliz, maddənin kimyəvi quruluşu və onların reaksiya qabiliyyəti istiqamətində aparılmış və kifayət qədər sanballı nəticələr alınmışdır. Azərbaycan kimyaçılarının araşdır- malarında aparıcı istiqamət neftin emalı və neft-kimya proseslərinin təkmilləşdi-rilməsi ilə bağlı olmuşdur. Ölkəmizdə kimyanın inkişafı birinci növbədə Y.H.Məmmədəliyev, M.F.Nağıyev, V.S.Əliyev, H.B. və T.N. Şahtaxtinskilər, S.D.Mehdiyev, R.H.İsmayılov, Ə.M.Quliyev, İ.N.Orucova, V.S.Qutırya, M.A.Dalin, V.F.Neqreyev, R.H.Rizayev, H.X.Əfəndiyev, Ş.M.Məmmədov, M.A.Mərdanov, Z.H. Zülfüqarov və adlarını sadalamadığımız çoxlu sayda digər görkəmli Azərbaycan alimlərinin adları ilə bağlıdır.

Y.H.Məmmədəliyev və V.S.Qutıryanın SSRİ EA-nın müxbir üzvü seçilmələri, R.H.İsmayılov və M.F.Nağıyevin Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmələri, V.F.Neqreyevin Lenin, Y.H.Məmmədəliyev, Ə.M.Quliyev, R.H.İsma-yılov, V.S. Qutırya və M.A. Dalinin əməklərinin SSRİ Dövlət mükafatı ilə qeyd edilməsi bütünlükdə Azərbaycan kimyaçılarının uğuru idi.

Y.H.Məmmədəliyev izopropilbenzolun sintezi üsulunu işləyib hazırlamış, bu da Böyük Vətən müharibəsi illərində aviasiyanın yüksək oktanlı yanacaqla təmin edilməsində müstəsna rol oynamışdır.

M.F.Nağıyevin işlədiyi resirkulyasiya prosesləri nəzəriyyəsi kimya texnolo-giyası ilə bağlı komplekslərin riyazi modelləşdirilməsinin əsasını qoymuşdur.

Ə.M.Quliyev aşqarlar kimyası elminin yaradıcılarından biri olmaqla, SSRİ-də ilk aşqar qurğuları onun və həmkarlarının işləri əsasında tikilmişdir.

Azərbaycan kimyaçılarının araşdırmaları neftdən yüksək keyfiyyətli yana-caqların, sürtgü yağlarının və onlara əlavələrin (aşqarların), yeni növ yüksək səmə-rəliliyə malik katalizatorların, farmakologiyada və kənd təsərrüfatında istifadə olunan bioloji fəal maddələrin, ölkəmizin mineral sərvətlərinin emal texnologiyala-rının, polimer materialları və onların alınması üçün zəruri monomerlərin istehsal texnologiyalarının yaradılması və tətbiqi, kimya texnologiyalarının nəzəri əsasla-rının yaradılmasına istiqamətləndirmiş və uğurlu nəticələr əldə edilmişdir. Bu nəti-cələrin bir çoxu elmə və texnikaya əvvəllər məlum olmayan bir sıra yeni istiqa-mətlərin açılmasına təkan vermişdir.

Müəyyən fiziki-kimyəvi xassələrə malik yeni perspektivli maddələrin sintezi, yüksək seçicilikli sorbent və ekstragentlərin və katalitik sistemlərin təklif edilməsi, kimyəvi reaksiyaların kinetika və mexanizminin araşdırılması, metalların korro-ziyadan mühafizəsi və elektrokimya üsullarının elmi əsaslarının yaradılması Azər-baycan kimyaçılarının uğurlarının tam olmayan siyahısıdır.

Kimya texnologiyasında ilk dəfə olaraq mürəkkəb kimya-texnoloji kom-plekslərin öyrənilməsi üçün sistem analz üsulu işlənib hazırlanmışdır. Bu üsul qapalı resirkulyasiya tsiklləri olan kimya-texnoloji komplekslərinin və ayrıca işləyən zavodların riyazi modellərinin qurulmasına imkan verir.

Son 15 ildə SSRİ-nin dağılması ilə bağlı postsovet məkanının hər yerində olduğu kimi Azərbaycanda da sənaye ilə elmin qarşılıqlı əlaqələrinin pozulması, iqtisadiyyatdakı qeyri-sabitlik, keçmiş elmi əlaqələrin itirilməsi elmin başqa sahələrində olduğu kimi kimyanın da inkişafına mənfi təsirini göstərmişdir. Dövlətin elm siyasəti məqsədyönlü fundamental və Dövlət sifarişinə əsaslanan araşdırmaları əhatə etməklə, onların bilavasitə Dövlət tərəfindən maliyyələşdiril-məsi, özəl

bölmənin cəlb edilməsi və innovasiya tədqiqatlarına yönəltdiyi investisiya vəsaitləri ilə tamamlanmalıdır.

Müasir fiziki-kimyəvi üsullara əsaslanan yeni instrumental metodların bu gün tədqiqatlarda istifadə edilməməsi artıq aparılan işlərin keyfiyyətinə ciddi mənfi təsirini göstərməkdədir. Messbauer spektroskopiyası (EXAFS), kombinə olunmuş EXAFS və rentgen-difraksiya (XRD) spektroskopiyası, infraqırmızı Furye transformasiya (FTİR) spektroskopiyası, yüksək həssaslığa malik elektron mikroskopiyası (HREM), bərk cisimlərin nüvə maqnit spektroskopiyası, «in sity» izləyici tunelləşdirmə mikroskopiyası (STM) və s. çoxlu sayda digər metodlarla araşdırmalar aparmaq bu gün Azərbaycan kimyaçıları üçün ancaq arzu olaraq qalır (1).

Keçmişdə əldə edilən uğurlar nə qədər parlaq, qibtəediləcək səviyyədə olsa belə, bu nə arxayınlaşmağa, nə də dünyada aparılan işlərdən kənarda qalmağa kiməsə əsas vermir. İngilis yazıçısı Şelli Persi Bişinin qeyd etdiyi kimi «keçmiş ölümündür, gələcək sənin». Gələcəkdə öz yerini tutmaq, digər imzalar içərisində öz millətinin, Azərbaycanın imzasını təsdiq etdirmək üçün bu gün Azərbaycan elminin qarşısında ciddi problemlər dayanır. Sirr deyil ki, bəşəriyyətin bir sıra ümidləri bilavasitə kimyanın gələcək inkişafından asılıdır. Nəhəng kimyəvi mak-roreaktor olan canlı orqanizmin kimyəvi qalaktikasının fəthi hələ irəlidədir. Bunlardan başqa biz kimyadan sehrli xassəli yeni materiallar, enerji mənbələri, təmiz və təhlükəsiz texnologiyalar və digər saysız-hesabsız tapıntılar gözləyirik.

Bir kimyaçı olmadan, bir dəliqanlı cəngavər öz sevgilisini sevər kimi bu elmi sevmədən onun daxili dünyasını, məntiqini, əzəmətli gözəlliyini, musiqisini və harmoniyasını duymaq çox çətindir.Bir kimyaçı olaraq bu səviyyəyə yüksələn insanlara ən səmimi hisslərimlə qibtə edirəm.

Şredinger tənliyi kimyanın açarıdır. Bu tənliyin həlli enerjinin diskret səviyyələrini və elektronun dalğa funksiyalarını (orbitallarını) verir. Bu funksiyalar (orbitallar) cəmisi 16-dır. Sadə şahmat gedişləri kombinasiyasından sonsuz

sayda variantlar, yeddi sadə musiqi notundan sehrli və həmişəyaşar musiqi necə yaranırsa, 16 sadə atom orbitallarından –kimyəvi notlardan da nəhəng və bitib-tükən-məyən dünyanın kimyəvi arxitekturası yaranır. Kimyəvi sintez atom orbitallarının kombinasiyalarının seçim bacarığı, onları idarə etmək sənətidir. Obrazlı deyilsə, KİMYA –müəllifləri TƏBİƏT və KİMYAÇI olan 16 notlu möhtəşəm MUSİQİDİR. Bu ecazkar musiqinin son dövrlərə aid bir neçə nümunəsini xatırlamaqla onun həqiqi miqyasını təsəvvür etmək olar:

Üzvi ifratkeçiricililər və ifratkeçirici keramikalar, üzvi ferromaqnetiklər, pilləkən molekullar sintez edilmiş, dendrimer, rotaksan, katenan, fulleren, ku-boman, yüksək spinli ferromaqnit molekullar yaradılmışdır. Son illərin uğurlu nəticələrindən biri 10nm diametrli karbon nanoçubuqlarının sintezidir. Elektrik keçi-riciliyi 2000 simensə yaxın metallik hidrogenin sintezi insan zəkasının və mühəndis əməyinin təntənəsi hesab edilə bilər.Göründüyü kimi təbii və sintetik molekulların atom arxitekturası sonsuz dərəcədə müxtəlif və estetik baxımdan təkmildir.

İfrataxıcı helium; ultrasoyuq atomların kristallik qaz qəfəsləri; ~10^{16} Vt/sm^2 güclü lazerlərin qüvvətli elektrik sahələri (sahənin gərginliyi burada ~200 B/nm olmaqla molekullardakı daxili elektrik sahələrinin gərginliyi ilə müqayisə olunur); qüvvətli mikrodalğalı və maqnit sahələri; qüvvətli qravitasiya sahələri kimi ekstremal şəraitlərdə kimya böyük sürətlə inkişaf edir. Bu araşdırmaların məqsədi yüksək texnologiyalara mümkün çıxışlar üçün yeni reaksiyalar, proseslər və rejimlərin axtarışıdır (2).

Transgen mühəndisliyinin qeyri-adi uğurlarını qeyd etməmək mümkün deyil. Bu uğurların əldə edilməsində kimyanın payı yetərincədir. Əlbəttə, hələlik kimya-çıların əldə etdiyi uğurların xeyli hissəsi istifadə edilməsə də, bunların sivilizasiyanın inkişafına etdiyi böyük təkan şübhəsizdir. Bu elmin uğurlarından bəşəriyyətin xeyrinə və ya zərərinə istifadə edilməsi faktları kimyanın deyil, onu istifadə edənlərin vicdan

problemidir. Fikrimizcə, eyni problem atom energetikasına və elmin bir sıra digər sahələrinə də aiddir (3).

Qeyri-kovalent qarşılıqlı təsirlər (ion və dipolların elektrostatik qarşılıqlı təsi-ri, hidrogen rabitələri, vanderraals qüvvələri və s.) əsasında yaranan qeyri-kova-lent kimyanın qarşısında yeni üfüqlər açılır. Klassik kovalent və qeyri-kovalent kimyanın prinsiplərinin kombinasiyası istənilən miqyaslı kimyəvi arxitekturanın ağlagəlməyən variantlarının gerçəkləşməsinə şərait yaradacaqdır.

Koherent kimya bu elmin yeni sahəsidir. Klassik qeyri-koherent kimya iki amillə – enerji və spinlə idarə olunsa da, bu halda reaksiyanın faza nəzarətini də həyata keçirmək olar. Koherent proseslərin həyati əhəmiyyəti bir sıra bioloji proseslərin izahında aydın görünür.

Buna misal olaraq özünü tənzimləyən bioloji sistem kimi insan beynini göstərmək olar. Beyində sinaps və neyronların kimyəvi və elektrik fəallığı harmonik şəkildə sinxronlaşdırılıb. Bu makroreaktorda normal vəziyyət ideal nizamla, kohe-rentliklə bağlıdır. Bunun əksi olaraq xaos-Altsqeymer xəstəliyi kimi qorxulu patologiya göstərilir. İdeal nizam-istedadlı, dahi zəkalara məxsus ideya və fikirlərin generasiyasına şərait yaradır. beyni cilalayır. Koherentliyin yüksək səviyyəsi ilə zəkiliyin, dahiliyin əlaqəsi ideyası isbat olunmasa da, bunun böyük həqiqət olduğunu inkar etməyə cürət edənlər də yoxdur (4).

Lazerlərin mənimsənilməsi kimyanın üfüqlərini genişləndirməklə femtokimyaya nəhəng sıçrayışı təmin etdi. Femtokimya kimyəvi proseslərin ultraqısa zaman miqyasında (10^{-15} – 10^{-14} san və ya 1-10 femtosaniyə) qəbul edilməsini öyrənən sahədir. Qeyd edilən zaman kəsiyi molekullarda atomların rəqslərinin dövründən (10^{-13} -10^{-11} san) xeyli azdır. Zamanın belə nisbətinə görə femtokimya kimyəvi reaksi-yanın özünü «görür» : başqa sözlə ilkin molekulların məhsul molekullara necə çevrilməsi müşahidə edilir. Bu kəşf kimyəvi reaksiyaların mexanizminin öyrənilməsinə birbaşa yol açmaqla, reaksiyaların idarə edilmə imkanlarına şərait

yaradır. Bu kəşfə görə kimya lazerlər fizikasına və konkret bu kəşfə görə 1999-cu ildə Nobel mükafatına layiq görülmüş A. Zevayla minnətdardır (5).

Spin kimyası yeni az öyrənilən sahə olmaqla kimyəvi reaksiyalarda spinin saxlanması kimi fundamental və universal prinsipə əsaslanır. Bütün reaksiyalar spinə görə seçicidir, başqa sözlə spinin dəyişilməsi tələb olunan reaksiyaların baş verməsi mümkün deyil. Bu oblast unikal olmaqla kimyəvi proseslərə maqnit qarşılıqlı təsirini daxil edir və reaksiyanın maqnit ssenarisini yazır (6).

Fərdi molekulun tunel spektroskopiyasının kəşfi son illərin ən mühüm uğurlarından biridir. Özündən əvvəlki metodlardan əsaslı şəkildə fərqlənən tunel spektroskopiyası fərdi molekul, ion və klasterlərin kimyasının öyrənilməsində yeni sərhədləri açır. Bunun nəticəsində fərdi radikal, ion və paramaqnit molekulların elektroparamaqnit spektroskopiyasının müzakirəsi gerçəkləşəcək, nəticədə maqnit rezonansının yeni sahəsinə daha yaxından baxmağa imkan yaranacaqdır (7,8).

Kiçik bir yazıda Azərbaycan kimyaçılarının keçdiyi böyük yolu təfərrüatı ilə işıqlandırmaq, BÖYÜK KİMYAnın nəhəng panoramını təqdim etməyə iddia etmək sadəlövhlük olardı. Məqsədimiz əsasən kimyanın məntiqini, onun qeyri-adi gözəlliyini, sonsuz imkanlarını göstərməklə bu sahənin mütəxəssisi olmayan insanlarda belə, bu dərəcədə parlaq, sehrli bir elmə az da olsa maraq və hörməti artırmaq istəyi olubdur. İnanıram ki, mütəxəssislər sətirlər arasında daha çox mətləblər duyacaq, qeyd edilməmiş xeyli məqamları, faktları oxuyacaq, adıçəkilən kəşflərin məntiqindən duyduğum hissləri və təəccübü mənimlə bölüşəcəklər.

Eyni zamanda inanmaq istərdim ki, çox da uzaq olmayan gələcəkdə adları sadalanan sahələrdə Azərbaycan kimyaçılarının da imzalarına rast gələcək, bundan qürur duyacaq, həmin müəlliflərin sevincini bölüşmək arzumu Azərbaycan elminin uğurları ilə sevinən hər kəslə paylaşacağam.

Ədəbiyyat

1. Rüstəmov M.İ., Əzizov A.H. XXI əsrdə kimya sənayesi və elminin strateji inkişaf istiqamətləri haqqında. «Elm» qəzeti, 2003, № 19-20
2. Бучаченко А.Л. Химия на рубеже веков: свершения и прогнозы / Успехи химии, 1999, т. 68, с. 85-102
3. Коровин Н.В. Общая химия. М. : Высшая школа, 2004, 557 с.
4. Филиппов Ю.В., Попович М.П. Физическая химия. М. : Изд-во МГУ, 2003, 400 с.
5. Zewail A.H. Femtochemistry /J. Physical Chemistry, 1996, v. 100, p. 12701
6. Buchachenko A.L., Frankevich E.L. Chemical generation of microvawes. New York, 1994, 234 p.
7. Далидчик Ф.И., Кобалевский С.А., Гришин М.А., Шуб Б.Р. Туннельная спектрос-копия одиночных молекул / Письма в ЖЭТФ, 1997, т. 66, с. 37
8. Далидчик Ф.И., Ковалевский С.А. Наблюдение одиночного парамагнитного центра / Письма в ЖЭТФ , 1998, т. 67, с. 965

QULU HƏZİYEV
AMEA Naxçıvan Bölməsi
Batabat Astrofizika Rəsədxanası

XX ƏSRDƏ AZƏRBAYCANDA ASTRONOMİYA ELMİNİN İNKİŞAFI HAQQINDA

XIX əsrin sonlarında dünyaya böyük neft chtiyatlarına malik olan bir ölkə kimi tanınan Azərbaycan, XX əsrdə çox dramatik bir inkişaf yolu keçmişdir. Bu yol çoxşaxəli və zidiyyətli bir yoldur.

Danılmaz faktdır ki, XX əsrdə meydana gələrək təşəkkül tapmış Sovet İttifaqında fundamental elmlərin inkişafına xüsusi fikir verilirdi. Təbiidir ki, bu tendensiya Azərbaycana da öz təsirini göstəpmişdir. 1945-ci ildə Azərbaycanda Elmlər Akademiyasının yaradılması çox böyük əhəmiyyətə malik bir hadisə idi. Akademiyanın yaradılması, başqa elm sahələrində olduğu kimi, astronomiyanın da inkişafına münbit şərait yaratdı. Bildiyimiz kimi Azərbaycanda astronomiya elmi zəngin tarixi ənənəyə malikdir. İstər Avropa tədqiqatçılarının [1], istərsə də Sovet [2] və Azərbaycan [3] alimlərinin araşdırmalarında şərqdə, o cümlədən Azərbaycanda orta əsrlərdə astronomiya elminin necə yüksək bir səviyyədə olduğu öz əksini tapmışdır.

Azərbaycanın yerləşdiyi ərazi həm təbii iqlim nöqteyi-nəzərindən, həm də sırf coğrafi baxımdan ən müxtəlif astronomik müşahidələr aparmaq üçün çox əlverişlidir. Təsadüfü deyildir ki, hələ 1927-ci ildə Azərbaycanda astronomik rəsədxananın qurulması məsələsi ortaya qoyulmuşdur [4]. Həmin il Leninqrad Astronomiya İnstitutunun əməkDaşları Azərbaycana gələrək, yerli mütəxəssislərlə birlikdə müəyyən zonaların iqlimi və relyefi ilə tanış olmaq məqsədi ilə ekspedisiyalar təşkil etdilər. Alınan nəticələr 1932-ci ildə Moskvada Astronomiya Institutunun bulletenində çap olundu. 30-cu illərin məlum hadisələri və ikinci dünya müharibəsi Azərbaycanda rəsədxana qurulması prosesini ləngitdi. 1949-cu ildə bu sahədə işlərin davam etdirilməsi üçün növbəti ekspadisiya yaradıldı. Həbib Məmmədbəylinin rəhbərlik etdiyi bu elmi ekspedisiya rəsədxananın qurulması üçün ən əlverişli yer olaraq Şamaxı rayonunun Pirqulu dağını

seçdi. Azərbaycan SSR EA Rəyasət Heyyətinin 6 dekabr 1952-ci il tarixli qərarı ilə, seçilmiş ərazidə rəsədxananın qurulması üçün hərtərəfli işlər görülməyə başladı. 1957-ci il sentyabr ayının 26-30-da Bakı şəhərində SSR EA Astronomiya Şurasının səyyar sesiyası keçirildi və Azərbaycanda yaradılacaq rəsədxananın fəaliyyət konsepsiyası və bu sahədə aparılmış işlər müzakirə edildi. Nəhayət 1959-cu ilin sonlarında Şamaxı Astrofizika Rəsədxanasının (ŞAR) yaradılması haqqında hökumət qərarı verildi.

Qeyd etdiyimiz kimi Azərbaycanın təbii və coğrafi mövqeyi astronomik müşahidələr üçün çox əlverişlidir. Bu üstünlüklərdən kifayət qədər səmərəli istifadə etmək zərurəti, artıq 1960-cı illərin sonuna yaxın ŞAR-ın nəzdində bir və ya bir neçə müşahidə stansiyalarının yaradılması məsələsini gündəmə gətirdi. Yeni qurulacaq stansiyanın dəniz səviyyəsindən hündürlüyü ŞAR-dan çox olmalı idi. Bu nəzərdə tutulan astronomik tədqiqatların xarakteri ilə bağlı idi. Bir çox zonalar nəzərdən keçirilsə də, gələcək stansiyanın Nax. MSSR Şahbuz rayonu ərazisində yerləşən Batabat yaylasında inşa edilməsi qərara alındı. 1969-cu ildə ŞAR-ın bir qrup əməkdaşı Nazçıvana gəldi və yerli partiya, hökumət rəhbərləri ilə bu məsələni müzakirə etdilər.

Azərbaycan SSR EA Rəyasət Heyyətinin 25 mart 1971-ci il tarixdə qəbul etdiyi 13 saylı qərar əsasında ŞAR-ın Batabat Bölməsi yaradıldı. Az bir müddət ərzində Batabatda gələcək rəsədxananın yerləşəcəyi məntəqə seçildi və orada astroiqlimin öyrənilməsi üçün tədqiqatlar başlandı. Seçilmiş məntəqə dəniz səviyyəsindən 2050m yüksəklikdə yerləşirdi. Moskva, Leninqrad və Bakı universitetlərini bitirmiş yerli gənclərin işə götürülməsi nəticəsində, az bir müddətdə Batabat Bölməsində güclü elmi potensiala malik bir kollektiv yaradıldı. Təsadüfü deyildir ki, stansiyanın yaradılmasından cəmi 10 il sonra, yəni 80-cı illərin əvvəlində stansiyada artıq 4 nəfər elmlər namizədi alimlik dərəcəsi almış, 4 nəfər isə müxtəlif formalarda təhsillərini davam etdiridilər. Batabat Bölməsi formal olaraq ŞAR-ın tərkibində olsa da, müəyyən məsələlərdə tam sərbəst hərəkər edə bilirdi. Bunun nəticəsi idi ki, SSRİ-nin, demək olar ki, bütün uyğun aparıcı elmi-tədqiqat müəssisələri ilə Batabat Bölməsinin birbaşa əlaqələri

var idi. Təsadüfü deyil ki, 1976-cı və 1979-cu illərdə bölmədə ittifaq miqyaslı konfranslar keçirilmişdir.

1980-cı ilin yayında ümummilli liderimiz Heydər Əliyev Nax. MR-a səfəri çərçivəsində Batabat Bölməsində oldu. Möhtərəm Heydər Əliyevin EA rəhbərliyinə verdiyi tövsiyə və tapşırıqlar nəticəsində Batabat Bölməsi daha sürətlə inqkişaf etməyə başladı. 1970-90-cı illər ərzində Bölmə əmkdaşlarının 120-dən çox elmi məqalələri SSRİ-nin və Avropanın nüfuzlu elmi jurnallarında dərc olunmuşdur.

1988-ci ildən başlayan məlum hadisələr nəticəsində bütün sahələrdə olduğu kimi, elmi strukturlara da ziyan dəydi. Ən çox zərər çəkən də astronomiya elmi oldu. Köhnə SSRİ miqyasındakı bütün əlaqələr kəsildi, maddi-texniki baza istifadəsiz vəziyyətə düşdü, güclü kadr axını baş verdi. ŞAR tamamilə iflic vəziyyətinə düşdü. Ermənistanla sərhəd bölgəsində yerləşən Batabat Bölməsinin vəziyyəti daha acınacaqlı oldu. Batabat Bölməsi dəfələrlə Ermənistan ərazisindən artileriya atəşinə tutuldu. Bölmənin bir işçisi şəhid oldu. 1992-ci ildən etibarən Batabat Bölməsi faktiki olaraq fəaliyyətini dayandırdı.

90-cı illərin sonunda möhtərəm Prezident Heydər Əliyevin bilavasitə qayğısı nəticəsində ŞAR öz fəaliyyətini bərpa etməyə başladı. Nax. MR-nın tamamilə blokada şəraitində olması Batabat Bölməsində elmi-tədqiqat işlərini yenidən canlandırmağı qeyri-mümkün edirdi. Və nəhayət XX əsri tam fəalliyyətsizlik içərisində başa vuran ŞAR-ın Batabat Bölməsi, Azərbaycan Respublikası Prezidentinin AMEA Naxçıvan Bölməsinin yaradılması haqqındakı sərəncamı ilə, AMEA Naxçıvan Bölməsinin tərkibində Batabat Astrofizika Rəsədxanası adı altında müstəqil fəalliyyətə başladı.

Ədəbiyyat

1. Suter H., Die Mathematiker and Astronomer der Araber and ihre Werke, Leipriq, 1900, s. 215
2. Матвиевская Г.П., Розенфельд Б.А., Математики и астрономы мусульманского средневековья и их труды, (VIII-XVII вв.), том 2, М., 1983, с.650.
3. Мамедбейли Г.Д., Основатель Марагинской Обсерватории Мухаммед Насирэддин Туси, Б., 1961, с. 351.
4. Ə. S. Quliyev, Azərbaycan astronomiyası 20-ci əsrdə, B., 2002, s. 110.

ASİF ŞİRƏLİYEV,
MÜSLÜM CABBARZADƏ
Naxçıvan Dövlət Universiteti

AZƏRBAYCANDA İQTİSADİ ARAŞDIRMALARIN VƏ ELMİ TƏDQİQATLARIN ƏLAQƏLƏNDİRİLMƏSİNİN MƏRKƏZİ

Azərbaycan xalqının ümummilli lideri H.Ə.Əliyev demişdir: «İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir». İqtisadiyyatın və həmçinin istehsalın artmasında, iqtisadi artımda və bütünlüdə maddi istehsal sahələrinin səmərəliliyinin yüksəldilməsində başqa amillərlə yanaşı iqtisad elmləri və dövri iqtisadi mətbuat da mühüm rol oynayır. Bu mənada yaradılmasının 60 illiyini qeyd etdiyimiz Azərbaycan Milli Elmlər Akademiyasının iqtisadi təmayüllü bölmə və institutunun xidməti, elmi-tədqiqat işlərinin və araşdırmaların əhəmiyyəti, elmi və xalq təsərrüfatı faydası danılmazdır. Akademiyanın İqtisadiyyat İnstitutu yaradıldığı dövrdən bu günlərədək respublikamızda aparılan tədqiqat və araşdırmalarla bu elmlərin zənginləşdirilməsinin, praktiki əhəmiyyətinin artmasının beşiyi və əlaqələndirmə mərkəzi olmuşdur. Öz fəaliyyətinin ilk illərində Azərbaycanın neft sənayesinin və neft maşınqayırma kompleksinin səmərəliliyinin yüksəldilməsi sahəsi üzrə elmi-tədqiqat işi aparan bu məktəb sonralar ölkənin bütün sahə və sferalarını elmi araşdırma obyektinə çevirmiş, özünün tədqiqatlarının ümumiləşdirilməsi ilə çıxarılmış nəticələr əsasında praktiki əhəmiyyət kəsb edən təklif və tövsiyyələr hazırlaya bilmişdir.

Adı çəkilən elmi-tədqiqat institutu əvvəlcə bölmə kimi fəaliyyət göstərmiş, daha sonra ölkədə yüksək ixtisaslı kadrlar hazırlayan, elmi-tədqiqat işi aparan və xalqın iqtisadi təfəkkürünün formalaşmasında mühüm rol oynayan, elmi işləri vahid mərkəzdən əlaqələndirən bir elm ocağına çevrilmişdir. Fəaliyyəti müddətində həmin institutda 250 nəfərdən çox elmlər namizədi və elmlər doktoru yetişmişdir. Hazırda iqtisad təmayüllü elmi tədqiqat institutlarında və ali-orta ixtisas tədris müəssisələrində iqtisad elmlərini gənc nəslə

öyrədənlərin demək olar ki, əksəriyyəti bu institutun keçmiş aspirantları və doktorantlarıdır – iqtisadçı alimlərdir.

Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat elmi tədqiqat İnstitutunun yetişdirmələrindən 4 nəfəri akademiyanın həqiqi üzvü, 9 nəfəri isə müxbir üzvüdür.

Cəmiyyətimizin bir keyfiyyət halından digər keyfiyyət halına – inzibati-amirlik sistemindən bazar iqtisadi sisteminə keçməsi ilə əlaqədar olaraq bu mötəbər elmi məbəddə aparılan elmi-tədqiqat və araşdırmaların elmi-nəzəri və metodoloji- praktiki əhəmiyyəti daha da artmışdır.

İstehsalın intensivləşdirilməsi, məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi, aqrar sənaye kompleksinin faydalılığının artırılması və s. kimi məsələ və problemlərin tədqiqi institutda aparılmış elmi-tədqiqat və araşdırmaların bir hissəsini təşkil edir. Müasir dövrdə institut ictimai istehsalın və iqtisadi nəzəriyyənin ən prioritet sahə və sferalarının araşdırmaya cəlb edilməsində, tədqiqat obyektinə çevrilməsində daha çox əhəmiyyət kəsb edir.

Daşınma və nəqliyyat, maliyyə, əməyin iqtisadiyyatı, demoqrafiya və s. məsələlər üzrə tədqiqatlar institutda aparılan elmi araşdırma işlərinin yeni istiqamətləri sayılır. Ölkəmizdə birinci dəfə olaraq bu tədqiqat müəssisəsinin təşəbbüsü ilə iqtisadi hadisə və proseslərin araşdırılmasında riyazi metodlardan və modellərdən istifadə edilməsi həyata keçirilmişdir. Bu elmi-təsisatın araşdırma və tədqiqat obyektində tarixçilərlə birlikdə Azərbaycanın xalq təsərrüfatı tarixi öyrənilməyə başlanmış, iqtisadi təlimlər tarixi işlənib hazırlanmışdır.

Fəaliyyət göstərdiyi müddət ərzində institutda 350-dən artıq monoqrafiya və iqtisad səciyyəli digər əsərlər çap olunmuşdur. İnstitutun fəaliyyəti çoxcəhətlidir, elmi-tədqiqat və onun nəticələrinin tədbiqi, yüksək ixtisaslı elmi pedoqoji kadrların hazırlanması, respublikada iqtisad elmləri üzrə elmi araşdırma və tədqiqatların əlaqələndirilməsi, beynəlxalq elmi əlaqələr və s. bu kimi işlər institutun fəaliyyətinin ayrı-ayrı istiqamətlərini təşkil edir.

Azərbaycan Respublikası Prezidenti İ.H.Əliyevin «Azərbaycan Respublikasının sosial iqtisadi inkişafının sürətləndlirilməsi tədbirləri haqqında» 24 noyabr 2003-cü il tarixli və «Azərbaycan Respublikası regionlarının sosial

iqtisadi inkişafının Dövlət Proqramı (2004-2008-ci illər)» 11 fevral 2004-cü il tarixli fərmanlarından irəli gələn vəzifələri reallaşdırmaq və həyata keçirmək məqsədilə institut tədqiqat işlərinin istiqamətini xeyli dəyişdirmiş, araşdırmalara yeni problemlər cəlb etmişdir.

BÖLMƏLƏR

I. TARİX ELMLƏRİ

HACI QADİR QƏDİRZADƏ
AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu

QIZILBAŞLIĞIN MAHİYYƏTİNƏ DAİR

Azərbaycan milli dövlətçiliyində, düşüncə tərzində qızılbaşlığın özünəməxsus yeri vardır. Qızılbaşlıqla bağlı araşdırmalar Azərbaycanla yanaşı Türkiyədə və digər ölkələrdə də aparılır. Çox təəssüflə qeyd olunmalıdır ki, hansı səviyyədə tədqiq olunmasına baxmayaraq qızılbaşlığın tarixi, onun mahiyyəti elmi cəhətdən tam öyrənilməmişdir. Məsələyə bir neçə yöndən yanaşmışlar və bütün yanaşmalarda da müəyyən yanlışlığa yol verilmişdir. Bu isə daha çox siyasi amillərlə, Osmanlı- Səfəvi münasibətləri ilə bağlı olmuşdur. Ən başlıcası isə qızılbaşlıq ələviliklə, hətta əliallahiliklə qarışdırılmışdır. Bunun başlıca səbəbi tarixin müəyyən mərhələlərində qızılbaşlığa şiəliyə əsaslanan hərbi- siyasi birlik kimi baxılması olmuşdur. Bir sıra müəlliflər isə qızılbaşlığı türk tayfalarının etnik birliyi kimi təqdim edirlər. Bu fikir də yanlışdır. Mənbələrə əsaslanaraq demək olar ki, qızılbaşlıq şiəliyin zahiri əlamətlərə görə seçilməsidir. Daha doğrusu baş geyimi ilə bağlıdır. Yayılma arealına baxdıqda qızılbaşlıq dünyanın müxtəlif etnosları arasında da mövcuddur: ərəblər, İraq türkmənləri, Anadolu türkləri, kürdlər, talışlar, albanlar, makedoniyalılar və s. Lakin ən geniş yayıldığı ərazi tarixi Azərbaycan və Anadoludur. Deməli qızılbaşlıq etnos deyil.

Etnik məsələlər və inamlar sistemi ilə yanaşı qızılbaşlığın tarixilə də bağlı yanlış fikirlər mövcuddur. Daha

çox rus alimləri V.A. Qordlevski, E.P. Petruşevski, Y.A. Belyayev, həmçinin bir sıra türkiyə qaynaqlarına əsaslanan müəlliflər qızılbaşlığın XV əsrin II yarısında yarandığını, işğalçı, bir sıra halda allahsız, bidətçi toplu olduğunu söyləyirlər. Bu özünü daha çox V.A. Qordlevskinin əsərlərində göstərir.

«Bolğşaə Sovetskaə Enüiklopediə» da qızılbaşlıqdan bəhs edilərək yazılır ki, Kiçik Asiya və Azərbaycanda türklərin köçəri tayfa birliyi olan qızılbaşlar (qızılbaş adını XV əsrin II yarısında almışlar) qonşuluqda olan qeyri müsəlman ölkələrinə yürüşlər edirlər (4, s. 192- 193).

ASE- də də eyni fikir nisbətən genişləndirilmiş şəkildə verilmiş və yazılmışdır ki, qızılbaşlıq Azərbaycanda, Kiçik Asiyada və Suriyada yaranmış türkdilli tayfa ittifaqıdır (2, s. 159). Göründüyü kimi hər iki mənbədə bu ancaq türklərlə bağlı tayfa birliyi kimi təqdim olunur və formalaşma tarixi XV əsr göstərilir.

Tarixi mənbələrə söykənərək demək olar ki, qızılbaşlığın tarixi islamın Mədinə dövrünə aiddir. İlk qızılbaş Uhud müharibəsində başına qırmızı bağlayıb, son damla qanına qədər Allah və Rəsulu uğrunda döyüşüb, bədənini Peyğəmbərə atılan oxlara sipər edib, şəhid olan Əbu Düccanədir (10, s. 118- 119., 6, s. 10).

628- ci ildə Hz. Əli başına qırmızı bağlayıb: «Allah və Rəsulu uğrunda ölmək var qalanı almadan dönmək yoxdur»- deyib təkbaşına Xeybər qalasına hücum edir və böyük zəfər qazanaraq islam tarixində ikinci qızılbaş olur (6, s. 11- 12). Deməli, ilk qızılbaşlıq fərdi hünərdən, haqq uğrunda savaşdan başlamışdır.

İslam tarixində ilk qızılbaş ordusu Süffeyn döyüşündə Hz. Əli tərəfindən yaradılmışdır. Döyüşdən əvvəl Hz. Əliyə xəbər verilir ki, Müaviyə Osmanın intiqamını almaq üçün ordusundakıların başına qara bağlatmışdır. Hz. Əli göstəriş verir ki, biz haqq uğrunda savaşdığımız üçün hər kəs başına qırmızı bağlasın (6, s. 13- 14)

İkinci qızılbaş ordusu Şeyx Heydər tərəfindən yaradıldı. Lakin fərqli cəhət bundan ibarət idi ki, onların çalmalarında 12 qırmızı zolaq vardı. Yəni Allahı, onun Rəsulu və 12 imam uğrunda mübarizə aparmaq. Bu məsələ Şah İsmayılın zamanında daha kəskin şəkil alır. Azərbaycanla bərabər Anadolunun demək olar ki, hər yerində eyni məqsədə qulluq eyləyən Səfəvi- Bektaşi və şiəlikdən bəhrələnən dərvişlər yayılmışdı. Bu isə Osmanlı dövləti üçün böyük təhlükə idi. Beləliklə Osmanlı imperiyasında sünnü olmayan bütün müsəlmanlar ələvi-qızılbaş - bektaşı adlandırıldı və onlara qarşı kəskin mübarizə başlandı. Xüsusən Sultan Səlim zamanında qızılbaşlıq, ələvilik əliallahilik, dinsizlik, allahsızlıq kimi təbliğ olunurdu. Hz. Əlini, Əhli- Beyti sevən hər bir kəs ələvi- qızılbaş adlandırıldı. Bu ad altında şiəlik- cəfəriliklə qəti əlaqəsi olmayan Əliallahilər (Haşa Hz. Əlini Allah sayanlar) də birləşdirildilər. Qızılbaş ifadəsi təhqir mənasında işlədilirdi. Avropa və rus tarixçiləri, siyasət adamları bundan öz məqsədləri üçün istifadə etməyə, daxili münasibətləri daha da kəskinləşdirməyə çalışırdılar. Məhz bu yolla Osmanlı- Səfəvi düşmənçiliyi yaratmaq, beləliklə Avropanı, bütövlükdə xristian dünyasını müsəlman- türk istilasından xilas etmək mümkün idi. Onlar bundan məharətlə istifadə etməklə istədiklərinə nail oldular. Bu prinsip sonrakı dövrdə də Türkiyəni daxildən zəiflətməyə xidmət etmişdir. Heç təsadüfü deyil ki, 1807- ci ildə Napaleon öz səfirindən Türkiyə ilə bağlı məlumat istəyərkən səfir yazmışdır: «Türklər əsla məğlub edilməzlər. Onları məğlub etməyin yolu ələvi- sünnü kimi bölmək, parçalamaqdır» (1, s. 20). Bu təkcə siyasətçilərin, dövlət adamlarının deyil, tarixçilərin də qarşısında dayanan mühüm vəzifə idi. Tarixdə qızılbaşlıqla bağlı ən kəskin mövqe tutanlardan biri V.A. Qordlevski olmuşdur. Anadoluda tədqiqat aparan müəllif açıq- aşkar ələvi (qızılbaş) – sünnü qarşıdurması yaratmağa çalışmış, ən kiçik məsələləri qabardaraq düşmənçilik həddinə çatdırmışdır. Bunlar azmış kimi müəllif qızılbaşların,

xüsusən Kars və ətrafındakıların soyca erməni olduqlarını, lakin şiəlik- qızılbaşlıqla bağlı olaraq assimilyasiya edildiklərini sübut etməyə çalışır. Bununla bağlı ayrıca yazı nəşr etdirdiyimizdən məsələnin üzərində geniş dayanmayacağıq (7, s. 12). Amma bir fikri xüsusi vurğulamaqla onun hansı mövqe tutduğunu göstərmək olar. Guya qızılbaşların ona verdiyi məlumata görə «onlarla ermənilər arasında fərq tük qədərdir» (8, s. 252). Bu az imiş kimi müəllif Doğu Anadoluda geniş yayılmış və fevral ayında keçirilən (Naxçıvandakı kimi) Xızır- İlyasla bağlı mərasimi ermənilərlə əlaqələndirir (8, s. 244-245).

Çox təəssüflə qeyd edilməlidir ki, Azərbaycan tarixşünaslığında da bəzi müəlliflər Səfəvilər, qızılbaşlar və Şah İsmayılla bağlı müəyyən məsələlərdə bu qaynaqlara önəm verirlər, onları əsas mənbə kimi göstərirlər. Onlar isə ələviliyi- əliallahlıq sayırlar, bidətçi hesab edirlər. Lakin əldə olan çox sayda Ədəbiyyat materiallarına əsaslanaraq demək olar ki, əliallahiliklə əsl ələviliyin, şiə- qızılbaşlığın, xüsusən özlərini Cəfəri hesab edənlərin heç bir əlaqəsi yoxdur. Bu bir faktır ki, indi də Türkiyədə Əlisiz ələvilər, az miqdarda əliallahilər, ateis ələvilər və s. bu kimi qruplar mövcuddur. Doğrudan da bunlar bidətçiliklə, allahsızlıqla məşğuldurlar. Məsələn, Əlisiz ələvilər iddia edirlər ki, ələvi sözü Hz. Əli ilə bağlı deyil, bu alovidir. Yəni odla bağlıdır. Özlərini zərdüştlüklə əlaqələndirirlər. Deməli, bunun əsl ələviliyə aidiyyatı yoxdur. Digər qrup - əliallahilər isə hələ Hz. Əlinin zamanında ortaya çıxmışdır.Tarixi mənbələrə görə Hz. Əli onlara ən ağır cəza vermişdir (5, s. 20).

Lakin bunlardan fərqli olaraq Cəfəri adlanan şiə-qızılbaş- ələvilər islamda ayrıca məzhəb, təriqətdir. Ələviliyin mahiyyətini bilməyənlər onu Əliallahilərlə qarışdırırlar. Y.A.Belyayevin məlumatından belə çıxır ki, bütün ələvilər Əliallahidir (3, s. 82). Müəllif yazır ki, ələvi təriqəti Əlini Allah kimi tanımaqdır (3, s. 82). Çox təəssüf ki, Y. A. Belyayev bu fikrində özündən əvvəlki tendensiyaya söykənmişdir. Bu gün Türkiyədə Ələvilik, onun mahiyyəti ilə

bağlı çox sayda ədəbiyyat materiallar vardır. İndi ələviliyin-şiəliyin mahiyyəti daha dərindən araşdırılaraq bizim də qatıldığımız bir neçə toplantıda islami birlik, bütün məzhəbləri Quran və Əhli- Beyt ətrafında birləşdirmək başlıca şərt olmuşdur. Bizim bu məsələni önə çəkməyimizin başlıca səbəbi budur ki, tarixdə bizə də şiə- qızılbaş- ələvi deyilmişdir. Bir cəhətə xüsusi diqqət verilməlidir ki, bir çox ədəbiyyatda ələvi- qızılbaş sözləri sinonim kimi verilmişdir. Tarixi mənbələrdə çox vaxt Səfəvi imperiyası- Qızılbaş imperiyası, əhalisi isə qızılbaş adlandırılır. Uzun illər Naxçıvan əhalisi haqqında da bu ifadə işlənmişdir: şiə-qızılbaş. «Naxçıvan sancağının müfəssəl dəftəri» kitabında boş qalmış kəndlərin bir qismi ilə bağlı yazılır ki, bu kəndin əhalisi pis əməlli qızılbaş (şiə) olduğu üçün qaçıb getmiş və boş qaldığı üçün dəftərdə məzrə olaraq qeydə alındı (11, s. 291). Bu tarixi mənbədədir. Lakin bizim topladığımız materiallarda əhalinin özünü ələvi- qızılbaş adlandırmasına rast gəlməmişik. Özləri haqqında daha çox Əli şiəsi, Cəfəri, ümumiyyətlə müsəlman deyirlər. Hətta yaşlılar Azərbaycan dili haqqında da «müsəlman (yerli deyimdə müsürman dili)» ifadəsi işlətmişdir». Naxçıvanda bədniyyət, ümumi qanunlara tabe olmayan, dava- dalaş törədənlər haqqında deyilən «Əliallahı, tumantökən»ifadəsi əliallahiliyə münasibəti aydın şəkildə göstərir.

Ümumiyyətlə Ələviliyin mahiyyətinə gəlincə söz «Əli evi», yəni Əhli Beytlə bağlılıqla əlaqləndirilir. Bu baxımdan ələviliyi bir neçə hissəyə ayırmaq olar:

1. Soyca Əhli- Beytə bağlananlar. 2. Hərbi- siyasi məsələlərdə, döyüşlərdə Hz. Əli tərəfindən çıxış edənlər. 3. Yaşamda, ibadətdə, iman və təqvada Hz.Əli yoluna- yəni ona söykənən məzhəb və təriqətə uyanlar.

Deməli İ. P. Petruşevski, V.A. Qordlevski, Y.A. Belyayev və başqalarının dediyi kimi, Ələvilik- qızılbaşlıq Əlini Allah (Haşa !) saymaq deyil. Onu ayrıca təriqət adlandırmaq da yanlışdır. Unudurlar ki, təriqətə görə xüsusi zikr forması, «Əsma yolu», «Sufilik», «Təkcə (Xəlvətiyyə)»,

«Müsəmna yolu» və s. əsas şərtdir. Qızılbaşların yəni sadə camaatın ibadəti şiə (Cəfəri) məzhəbinə əsaslanır. Bir məsələ də xüsusi qeyd olunmalıdır ki, bəzi müəlliflər sübut etməyə çalışırlar ki, qızılbaşlar təkcə Hz. Əlini deyil, həmçinin Şah İsmayılı da Allah (Haşa) kimi təqdim edirlər. Bunun qaynağını isə Xətayinin yaradıcılığında axtarırlar. Çox təəssüf ki, eyni fikirlər bəzi Azərbaycan müəlliflərinin səfəvilərlə bağlı əsərlərində də mövcuddur. Biz bu sahədə geniş bəhs etməyəcək, Şah Xətayidən kiçik nümunə verməklə kifayətlənəcəyik.

Ba ismi- ilahü fərdi- yəzdan,
Rəhmani rəhimi heyyi- sübhan
Hər karını, ey dil ibtida qıl,
Çün əhdə bəli dedin, vəfa qıl,
Ta hər işin yetə kəmalə,
Şükür eylə Cəlili- Zülcəlalə.
Virid eylə sənayi- Mustafani,
Zikr eylə kəmali Mürtəzan ifadələrini və ya

Xətayiyəm, şəha, əksüklü quləm,
Qapında bir kəminə kəmtərəm mən.
Xətayi nəyinki Allahın, Rəsulun, Hz. Əlinin qulu
O özünü Hz. Əlinin silahdaşı, qulamı. Qənbərin qulu sayır
Fikrü zikrim hərdəm ol Sultani- aləmdir məni
Bu Xətayi xəstə anın Qənbərinə bir qulam

Xətainin əsərlərini oxuyan hər kəs tez- tez belə ifadələrə rast gəlir. Düşünürsən, belə olduqda bu bidətçilik, allahlıq fikirləri haradan qaynaqlanır. Bəlkə Nəsimini anlamayanlar ona dinsiz dedikləri kimi, Xətayiyə də bu damğanı yapışdırırlar. Bizcə bu bilgisizlikdən, islamda insanın kamillik mərhələsinə yüksəlməsindən, hal əhlindən,

təsəvvüfdən, əhlullahdan-emullaha yüksəlməyi anlamamaqdan qaynaq-lanır. Xətayi demişkən:

Nəfəsi əhli- dilin gövhəri- candır bilənə,
Nitqimiz qüdrəti- həq, ruhi- rəvandır bilənə
Məritfət gövhərinin kaninə mədən ola gör,
Üştə bu gəncü hünər elmi- nihandır bələnə.
Şərbəti- həqqdən içən eşq əri azad olur,
Eylə sərməst olanın küfri imandır bələnə.

Yazının həcmini və məsələyə dönə- dönə qayıtmalı olacağımızı nəzərə alaraq aşağıdakı nəticəyə gəlirik.

1. Ələvilik- şiəlik- qızılbaşlıq məsələləri tarixilik və inam baxımından hərtərəfli təhlil edilməlidir.
2. Orta əsr mənəvi mədəniyyətimizi, inamlar sisteminin araşdırarkən islam fəlsəfəsinə, təsəvvüfə ciddi diqqət yetirilməlidir. Əks təqdirdə böyük yanlışlığa yol veriləcəkdir.
3. Araşdırmalar zamanı hər hansı sünnü- şiə, ələvi-qızılbaş və s. ilə islami bölücülüyə yol verilməməlidir. Bu məsələdə mövcud olan ədəbiyyatlara çox ehtiyatlı və tənqidi yanaşılmalıdır. Məsələlər islamçılıq, türkçülük və millilik baxımından öyrənilməlidir. Tədqiqatda ən çox yol verilməz hal problemə mənsub olduğu məzhəbə və ya şəxsi rəğbətinə uyğun yanaşmaqdır. Sonda Hz. Əli (ə.s) nin bir fikrini vermək yerinə düşərdi. «Mənin uobatımdan iki qrup cəhənnəm odunda yanacaq, biri məni layiq olduğumdan yuxarı qaldıranlar, digəri mənim haqqımı yendirənlər». Yəni hər şey haqqa və fakta söykənməlidir.

Ədəbiyyat:

1. Ahmet Er. Alevilik sünnilik yapay bir hadisedir. Genç Erenler dergisi, 1998, sayı 30.
2. Azərbaycan Sovet Ensiklopediyası, III cild.
3. Y. A. Belyayev. Müsəlman təriqətləri. Bakı, 1991.

4. Большая Советская Энциклопедия, том 14.
5. Gülpınarlı A. İslamda təriqətlər və məzhəblər haqqında 100 sual və cavab, Əhli Beyt məktəbi nəşriyyatı, 1999.
6. Haydar Kaya. Alevi, Bettaşi. Erkani, evradı ve edebiyyatı. İstanbul, 1996.
7. Kadirzade Hacı Kadir. Rus alimi akad. V.A. Kordlevskinin Bektaşiliklə ilgili araştırmaları üzerine bir açıqlama. Türk kültürü Hacı Bektaş Araştırma Merkezi Hacı Bektaş Veli Sempozyumu Bildirileri, Ankara, 1999.
8. Гордлевский В. А. Из религиозных исканий в Малой Азии Кызылбаши. Изб. соч. том 1.
9. Гордлевский В. А. Из религиозной жизни кызылбашей Малой Азии. Изб. соч. том 1. Москва, 1960.
10. Mustafa Asıvı Koşkal. İslam tarihi. Medine devri, cild 10.
11. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997.
12. Şah İsmayıl Xətayi. Keçmə namərd körpüsündən. Şerlər və poemalar. Bakı, 1988.

HACI FƏXRƏDDİN SƏFƏRLİ
Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN İMAMZADƏSİNİN KİTABƏLƏRİ

Naxçıvan Muxtar Respublikası ərazisindəki ziyarətgahların içərisində «imamzadə»lər xüsusi yer tutur. Hazırda Naxçıvanda «imamzadə» adı ilə tanınan üç müqəddəs yer – ziyarətgah vardır. Yerli əhali tərəfindən birbaşa şiə imamlarının övladları ilə əlaqələndirilən bu qəbil ziyarətgahlar üzərində digər müqəddəs yerlərdən fərqli olaraq orta əsr sənətkarlarının əli ilə möhtəşəm tarix-memarlıq abidələri – türbələr ucaldılmışdır. Zəmanəmizədək nisbətən salamat vəziyyətdə gəlib çatmış bu abidələrin bəziləri memarlıq baxımından qismən tədqiq edilsələr də, demək olar ki, onlar lazımi səviyyədə öyrənilməmiş, dövrün tələblərinə uyğun olaraq

sovet hakimiyyəti illərində diqqətdən kənarda qalmışlar.

Əsasən oxşar memarlıq – konstruktiv quruluşa malik olan bu abidələr ərazidəki digər ziyarətgah – pirlərdən fərqli olaraq «imamzadə» adlanıdırılırlar. Ərəbcə «imam», farsca «zadə» sözlərinin birləşməsindən əmələ gələn bu söz «imam övladı», «imam nəslindən olan» mənasını verir. El arasında yayılan fikirlərdən də göründüyü kimi, bu komplekslərdə olan qəbirlərdə uyuyan şəxslər şiə imamlarının övladları olmuşlar.

Tarixdən məlumdur ki, şiə imamları Abbasi xəlifələri tərəfindən daim təqib olunmuş, bu səbəbdən də onların övladları təqibdən yaxa qurtarmaq üçün qaçıb müxtəlif ölkələrə, o cümlədən Azərbaycana və onun ayrılmaz tərkib hissəi olan Naxçıvan bölgəsinə pənah gətirmişlər Onlar burada yaşamış və yerli əhali arasında böyük nüfuza malik olmuşlar. Vəfat etdikdən sonra yaşadıqları yerdə də dəfn olunan bu adamların qəbirləri əhali tərəfindən ziyarətgaha çevrilmişlər.

Naxçıvan ərazisində və ona yaxın yerlərdə, vaxtı ilə Azərbaycan torpaqları olan digər yaşayış məskənlərindəki imamzadələr xalq tərəfindən imam Museyi-Kazimin övladları ilə əlaqələndirilir. Məsələn, Şərur ərazisindəki Parçı imamzadəsi onun övladlarından İbrahimlə, Babək rayonundakı Nehrəm imamzadəsi Seyyid Əqillə, Ordubad rayonunun Düylün kəndindəki pir Seyyid Səffanla, taleyi daim Naxçıvanla bağlı olan Mehri rayonundakı (indi Ermənistan Respublikasının tərkibindədir) Buğuçar piri Seyyid Əhmədlə əlaqələndirilir.

Şiələrin yeddinci imamı Museyi-Kazim hicri-qəməri təqvimilə 183-cü ildə (miladi təqvimilə 799-800-cü ildə) xəlifə Harun ər-Rəşid zamanında zəhərlənib öldürüldükdən sonra onun övladları təqib olunmuş və onlar canlarını qurtarmaq üçün didərgin düşüb müxtəlif yerlərə qaçmışlar. Məsələn, onun qızı Hökümə xanım Heybət adlı nökəri ilə birlikdə qaçıb Azərbaycana gəlmiş və orada yaşamışlar. Vəfat etdikdən sonra orada da dəfn olunmuş, qəbrinin üstündə

məşhur Bibiheybət türbəsi inşa edilmişdir (1, s.156).

Azərbaycan Səfəvi dövlətini yaradan Qızılbaş şeyxləri öz məqsədlərini həyata keçirmək üçün islamın şiəlik məzhəbindən istifadə etdiklərindən idarə etdikləri ərazilərdə şiə imamları ilə bağlı olan ziyarətgahlara – qəbirlərə diqqətlə yanaşmış, onların üzərində gözəl memarlıq abidələri ucaltmışlar. Təsadüfi deyildir ki, Naxçıvan şəhərində, Babək bölgəsinin Nehrəm kəndində və Şərur bölgəsinin Xanlıqlar (Parçı) kəndindəki imamzadələr məhz Səfəvilər dövründə inşa edilmişlər.

Naxçıvan Muxtar Respublikası ərazisində «imamzadə» adı ilə tanınan ən məşhur ziyarətgahlardan biri Naxçıvan şəhərində, yerli əhali tərəfindən «imamzadə» adlandırılan memarlıq kompleksidir. Şəhərin cənub tərəfində yerləşən və əhalinin böyük ehtiram bəsləyərək ziyarətə gəldiyi bu kompleks üç binadan ibarətdir. Kompleksin əsas özəyini cənub tərəfdə yerləşən türbə təşkil edir. Aşağıdan kvadrat şəklində inşa edilən abidənin yuxarı hissəsində, silindr şəkilli gövdəsində memar çox ustalıqla qırmızı rəngli bişmiş kərpicləri üfüqi, tünd bənövşəyi rəngli kaşılı kərpicləri isə şaquli şəkildə simmetrik düzərək Bərdə türbəsində olduğu kimi xalını xatırladan bəzək ünsürü və kufi xətlə dəfələrlə təkrarlanan epiqrafik motiv – «Allah» sözünü yaratmışdır.

Türbənin içərisində bir qəbir vardır. Qəbrin üstü sənduqə formasında (uzunluğu 150 sm, hündürlüyü 88 sm, eni 115 sm) düzəldilmiş, sementlə suvanmış, üstünə qara parçadan örtük salınmışdır. Şəhərin yaşlı əhalisinin söylədiyinə görə bu qəbirdə şiələrin VIII imamı Rzanın oğlu dəfn edilmişdir.

1926-cı ildə Naxçıvanda olan rus alimi V.M.Sısoyev muxtar respublikaya səfərinin yekunlarına həsr olunmuş elmi hesabatında bu imamzadədən danışarkən həmin qəbir haqqında da bəhs edir. Alim qeyd edir ki, deyilənə görə burada VIII imam Rzanın oğlu dəfn edilmişdir. Həmçinin alim yazır ki, qəbrin yanında müqəddəs sayılan və dindarların öpdüyü iki ədəd iri, qara rəngli daş vardır. Yerli əhali bu daşları «hərəkət edən daşlar» adlandırırlar (5, s. 107)

(Belə daşlara ərazidəki bəzi ziyarətgahlarda da rast gəlinir. Yerli əhali arasında olan inama görə bu daşlar hərəkət edir, gecələr qəbrin başına dolanırlar. Həmin daşların doğub çoxalması fikrini söyləyənlər də vardır).

Qəbrin üzərində epitafiya – məzar kitabəsi olmadığı üçün onun mənsubiyyəti, kimə aid olması haqqında dəqiq fikir söyləmək mümkün deyildir. Ancaq abidənin xalq tərəfindən «imamzadə» adlandırılmasından da göründüyü kimi qəbirdə dəfn edilən şəxs şiə imamları ilə əlaqəlidir.. Görünür ki, Abbasilər xilafəti hakimlərinin təqibləri üzündən didərgin düşmüş imam övladlarından hansı isə biri Naxçıvana gələrək orada yaşamış, əhali arasında yüksək nüfuza malik olmuşdur. Vəfatından sonra orada da dəfn edilmişdir. Yerli əhali tərəfindən ziyarətgaha çevrilən həmin qəbrin üstündə sonralar türbə inşa edilmişdir.

Bu memarlıq kompleksi, o cümlədən türbə tədqiqatçılar tərəfindən müxtəlif vaxtlarda qismən də olsa öyrənilmişdir. Mərhum akademik Ə.Salamzadə və sənətşünaslıq doktoru K.Məmmədzadə Naxçıvan imamzadəsi kompleksinin XVI-XVII əsrlərdə yaranması fikrini irəli sürürlər. Ancaq kompleksə daxil olan binaların heç birinin üzərində inşaat kitabəsi olmadığı üçün onun təyinatı və inşa tarixi haqda dəqiq fikir söyləmək çətindir.

Keçən yüzilliyin 20-ci illərində «Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti»nin göndərişi ilə Naxçıvanda olmuş epiqraf İ.Əzimbəyovun yazdığına görə türbənin şimal-qərb tərəfində nəsx xətti ilə ərəb dilində yazılmış kitabə olmuşdur. O, kitabənin mətnini və bəzi səhvlərlə rus dilində tərcüməsini nəşr etdirmişdir (3, s. 310-311).

Təəssüf ki, tarixi baxımdan çox qiymətli olan bu kitabə indiyədək qalmamış, yox olmuşdur. Onun sonrakı taleyi də məlum deyildir. İ.Əzimbəyovun təqdim etdiyi məlumata görə kitabənin mətninin tərcüməsi belə olmuşdur. «Bu imarətin bina edilməsini böyük sultan, xaqan, hörmətli əmir, ərəb və əcəmlərin hakimi, sultan Əbu Müzəffər şah Təhmasib Bahadur xanın hakimiyyəti zamanında mərhum,

günahları bağışlanmış Hacı Fulad bəyin oğlu, zəmanənin xeyirxahı Həzrət Rufai bəy əmr etmişdir».

Kitabədə tarix qeyd olunmamışdır. Ancaq orada qeyd olunan «Əbu Müzəffər şah Təhmasib Bahadur xanın hakimiyyəti zamanında» sözlərinə əsasən inşa ili dəqiq olmasa da abidənin tarixini təxmini müəyyənləşdirmək mümkündür. Kitabədə adı qeyd edilən Əbu Müzəffər şah Təhmasib Bahadur xan Səfəvi şahı Sultan Hüseynin oğludur. Tarixdə II şah Təhmasib adı ilə tanınan bu adam 1722-1732-ci illərdə hakimiyyətdə olmuşdur. Kitabədə abidənin onun zamanında tikilməsini qeyd edən xəttat bu vasitə ilə abidənin inşa tarixini çatdırmışdır. Deməli türbə XVIII əsrin 20-ci illərində inşa edilmişdir.

XIX əsrin ortalarında Naxçıvanda olmuş rus şərqşünası və diplomatı N.V.Xanıkov da türbəni Səfəvi şahı II Təhmasibin dövrünə aid edir (4, s.15). Yəqin ki, N.V.Xanıkov haqqında bəhs edilən kitabəni görmüş və bu fikri də ona əsasən söyləmişdir.

Bu türbəyə bitişərək nisbətən böyük həcmə malik və qərbdən giriş qapısı olan bina kompleksin mərkəz hissəsini təşkil edir. V.M.Sısoyevin yazdığına görə kompleksin bu hissəsi Naxçıvan xanlarının məqbərəsi hesab edilirmiş. Alimin şəhadətinə görə burada Abbasqulu xanın hicri 1337-ci il tarixdə (1918-ci il) vəfat etmiş oğlu Mustafaqulu xan Naxçıvanskinin qəbri var imiş. Ancaq bu və orada olan digər qəbirlər zaman keçdikcə dağılmış və məhv olmuşlar.

Kompleksin ikinci salonunda boz daşdan hazırlanmış sənduqə formalı bir qəbirüstü xatirə abidəsi saxlanılır (ölçüsü 131 x 25x22 sm). Ortadan iki yerə bölünmüş bu abidənin səthi təbii qüvvələrin təsiri nəticəsində güclü aşınmaya məruz qaldığından orada heç bir kitabə və ornament izi qalmamışdır. Sənduqənin sağ və sol yanında lentvari haşiyə şəklində kitabə həkk edilmişdir. Kitabənin bəzi yerləri aşındığından bir neçə sözün oxunmasında çətinlik yaradır. Kitabənin mətninin tərcüməsi belədir: «Onun (qəbrin) sahibi mərhum Kəlkuta şahın qızı, mərhumə, günahları bağışlanmış,

xöşbəxt şəhid, yüksək Allahın (rəhmətinə) getmiş Ba (nu) Şahbikə fani dünyadan əbədi dünyaya köçdü. Doqquz yüz altıncı il».

Hicri-qəməri təqvimilə 906-cı il miladi ilə 1500-cü ilə müvafiqdir.

2004-cü ildə imamzadə ətrafında bərpa və abadlıq işləri aparılarkən torpağın altından boz rəngli daşdan hazırlanmış başqa bir sənduqə tipli xatirə abidəsi də aşkar edilmişdir. Ölçüsü 139 x 29 x 23 sm olan və ortadan iki yerə bölünmüş sənduqənin səthi təbii qüvvələrin təsirindən güclü aşındığı üçün orada heç bir kitabə və ya təsvir izi qalmamışdır. Ancaq abidənin sağ yanındakı kitabə müəyyən dərəcə aşınsa da orada həkk olunan mətni qismən oxumaq mümkün olmuşdur. Kitabənin mətni belədir: «Onun (qəbrin) sahibi salehə (qadın) ... Bayəzid qızı fani dünyadan əbədi dünyaya köçdü».

Kitabənin tarix yazılan hissəsi güclü aşındığından dövrünü dəqiq müəyyən etmək mümkün deyildir. Ancaq onu ölçüsü, forması, hazırlandığı material, xətt xüsusiyyətləri və digər oxşar cəhətlərinə əsasən Ba[nu] Şahbikəyə aid xatirə abidəsi ilə eyni dövrə – XVI yüzilliyin əvvəllərinə aid etmək olar.

Hər iki abidənin oxşar cəhətlərini müqayisə edərək onların eyni usta tərəfindən bir mərkəzdə hazırlandığını söyləmək mümkündür.

Bu abidələr göstərir ki, hələ memarlıq kompleksi yaradılmamışdan qabaq da türbədəki qəbrin ətrafında onun xatirinə dəfn mərasimləri keçirilmiş, tədricən böyük qəbristanlıq yaranmışdır. Orada son vaxtlara kimi dəfn mərasimləri keçirilmişdir. Təəssüf ki, görkəmli rəssam, 1922-ci ildə vaxtsız vəfat etmiş Bəhruz Kəngərlinin və görkəmli maarifpərvər M.T.Sidqinin qəbirləri istisna olmaqla həmin qəbristanlıqdan heç bir iz qalmamışdır.

Tədqiqatçılar təsdiq edirlər ki, orta əsrlər zamanı imamzadələrin funksiyası təkcə ziyarətgah – pir olmaqla məhdudlaşmamış, onlar həm də ərazidə fəaliyyət göstərən

sufi təriqətləri üzvlərinin yığıncaq və ibadət yeri olmuşlar. Belə komplekslərin səciyyəvi xüsusiyyəti əvvəllər mövcud olmuş dəfn tikililərinin təmir, bərpa və yenidənqurma yolu ilə abadlaşdırılmasından və bərpa olunmuş məqbərəyə bitişik məscid, təkyə və digər xidmət otaqları tikilməsi yolu ilə dini kompleksin yaranmasından ibarətdir (2, s. 191).

Bu fikri təsdiq edən ən sanballı qaynaqlardan biri Nehrəm imamzadəsinin günbəzinin daxilində, kaşı üzərində sufilərə – Bəktaşi dərvişlərinə məxsus «Nad Əliyyən» - «Əlini çağır» duasının yazılmasıdır. Bu duanın imamzadənin daxili divarında qeyd olunmasının orada yaşayan dərvişlərlə bağlı olmasına heç bir şübhə yoxdur. İmamzadələrdə sufi təriqəti üzvlərinin yaşaması və fəaliyyət göstərməsini belə bir fakt da təsdiq edir ki, ərazimizdə XVII-XVIII yüzilliklərdə inşa olunmuş xanəgahlar yoxdur. Görünür yaşamaq və ideyalarını yaymaq üçün içərisində şiə imamları ilə bağlı qəbirlər olan imamzadələrdən istifadə edən dərvişlər xanəgahlar tikməyə ehtiyac duymamış, bu səbəbdən də XVII-XVIII yüzilliklərdə ərazimizdə xanəgahlar inşa edilməmişdir. Bunun əvəzində isə imamzadələr yanında dərvişlərin yaşaması üçün təkyələr inşa edilmişdir. Zikr və ibadətlərini ziyarət obyekti olan qəbir yerləşmiş türbədə həyata keçirən təriqət mənsubları həmin təkyələrdə gecələmişlər.

Ə d ə b i y y a t:

1. ASE II cild. Bakı: ASE Baş redaksiyası, 1977, 592 s.
2. Salamzadə Ə.V., Məmmmədzadə K.M. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı: Elm, 1985, 268 s.
3. Азимбеков И. Мусульманские надписи Тифлиса, Эривани и Нах.ССР Известия «Азкомстарис»а, вып. 4 (тетрадь 2). Баку, 1929, с. 295-311
4. Выдержки из «Записок о мусульманских надписях на Кавказе», М.Н.Ханыкова, опубликованных в «Азиатском журнале», август, 1862, г. Пер. с франц. яз.

Э.К.Спитницкой. Научный Архив Института Истории Национальная Академии Наук. Азербайджана. Инв. № 1076
5. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. ССР (отчет о поездке летом 1926 г.) Известия "Азком-старис"а, вып. 4 (тетрадь 2). Баку, 1929, с. 87-121

VƏLI BAXŞƏLIYEV
AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu

NAXÇIVANIN QƏDİM TAYFALARININ İDEOLOJİ GÖRÜŞLƏRİ

Xalqımızın qədim tarixi haqqında dəyərli mənbə olan maddi-mədəniyyət nümunələrinin folklor nümunələri və etnoqrafik materiallarla müqayisəli şəkildə öyrənilməsi Vətənimizin qədim sakinlərinin ideoloji təsəvvürlərini, o cümlədən mifologiyasını öyrənməyə imkan vermişdir. Maddi-mədəniyyət nümunələrində dünyanın və insanın yaranışı, dünyanın quruluşu ilə bağlı təsəvvürlər əks olunmuşdur. Bu təsəvvürlər etnoqrafik materiallarda və Azərbaycan folklorunda aydın şəkildə əks olunmuş, indiyədək qorunub saxlanmışdır (8, s. 60-75; 6, s.189-196; 13, s. 7-79).

Arxeoloji araşdırmalar Azərbaycanda mifoloji təsəvvürlərin Paleolit dövründə meydana çıxdığını təsdiq edir. Bu dövrdə axirət dünyasına inam, təbiət qüvvələrinə, ulu əcdada sitayiş, totem və ovsun kimi dini təsəvvürlər meydana çıxmışdır (1, s.23). Naxçıvan əhalisinin qədim dini təsəvvürlərini öyrənmək üçün ən qədim tapıntılar hələlik Neolit dövrünə aiddir . Neolit və Eneolit dövrünə aid qəbir abidələrinin tədqiqi qədim insanlarda mifoloji düşüncə tərzinin formalaşdığını təsdiq edir (3, s. 28, s. 39-54). Gil qablar üzərindəki təsvirlər və dəfn adətləri qədim insanların

Günəşə, Aya və təbiət qüvvələrinə sitayiş etdiyini, məhsuldarlığın təmin olunması ilə bağlı müəyyən ayinlərin keçirdiyini deməyə əsas verir (6, s. 30-34). Eneolit və Erkən Tunc dövrünə aid ev ziyarətgahları, Erkən Tunc dövrünə aid müxtəlif heyvan fiqurları və sitayiş əşyalarının aşkar olunması dini təsəvvürlərin insanların həyatında mühüm rol oynadığını göstərir (3,s. 28; 6, s. 19-46; 15, s. 38-40; 16, s. 35-125). Erkən Tunc dövründə maldarlığın insanların həyatında mühüm rol oynaması, o cümlədən iribuynuzlu heyvanlardan qoşqu qüvvəsi kimi istifadə olunması öküz kultunun geniş yayılmasına səbəb olmuş, sitayiş əşyaları öküz buynuzu, ya da öküz başı formasında hazırlanmışdır.

Orta Tunc dövründə təsviri sənətin inkişafı (4, s. 43-90; 14, s. 102-110, 171) qədim insanların ideoloji təsəvvürlərinin daha aydın ifadəsi üçün şərait yaratmışdır. Təsviri sənət nümunələrində dünyanın vertikal və qorizontal quruluşu ilə bağlı təsəvvürlər öz əksini tapmışdır (6, s. 61-71). Dünya vertikal olaraq üç yerə bölünmüş və həyat ağacı şəklində təsəvvür edilmişdir. Türk mifologiyasında, o cümlədən Azərbaycan türklərində dünyanın quruluşu vertikal olaraq üç yerə bölündüyü kimi, qorizontal olaraq dörd yerə bölünmüşdür (8, s.65). Bu bölgü bəzən beşlik şəkilində – dünyanın mərkəzi və onun dörd tərəfi şəklində düşünülmüşdür. Boyalı qabların xarici səthinin üç qurşağa bölünərək naxışlanması, həyat ağacı təsvirləri, Qızılburun nekropolundan aşkar olunan beş çıxıntılı başlığı olan sancaqlar və digər faktlar bu ideoloji təsəvvürlərin mövcudluğunu təsdiq edir. Maaday Qara dağın başındakı dörd qayın ağacından nənni asaraq yeni doğulmuş uşağını oraya qoyur. Burada dağ yerin mərkəzi, qayın ağacları isə dünyanın dörd tərəfini simvolizə edir. Qayın ağacları uşağı dünyanın dörd tərəfindən, Qaradağ isə göydən gələn bəladan qorumalı idi. Yerüstü məkanın dörd hissəli strukturu haqqındakı təsəvvürlər, habelə onun dörd tərəfinin hər birinin qoruyucu Tanrısı olması haqqındakı inanclar türk xalqlarının mifologiyası üçün xarakterikdir. Bu qoruyucu

Tanrılar bəzən zoomorf və antopomorf obrazlarla verilmişdir. Qədim mədəniyyət nümunələrində xaçşəkilli işarələrin yaranması bu ideologiya ilə bağlı olmuşdur. İlk nümunələrinə Şumer mədəniyyətində rastlanan bu tip xaçşəkilli təsvirlər Naxçıvanın e.ə. IV-I minilliyə aid mədəniyyət nümunələrində geniş şəkildə əks olunmuşdur.

Qədim insanların təsəvvürünə görə bu dünya və o biri dünya arasında daima mübarizə gedir, Göy aləmi və orda məskun olan Tanrılar bu mübarizəni nizamlayır və dünyada ədalətin təntənəsini qoruyur. Heyvanların mübarizəsi səhnəsi, heyvanbaşlı bilərziklər, xaçşəkilli işarələr, müxtəlif heyvan təsvirləri və digər sənət nümunələrinin öyrənilməsi Naxçıvanın qədim sakinlərinin mifologiyası ilə türk xalqlarının mifologiyası arasında genetik bağlılıq olduğunu təsdiq edir (8, s. 76-104).

Naxçıvanın qədim sakinlərinin ideoloji təsəvvürlərini əks etdirən maraqlı sənət əsərlərinin bir qrupu ilanbaşlı bilərziklə və boyunbağılarla təmsil olunmuşdur. İlanbaşlı bilərziklər praktiki olaraq insanları bəd qüvvələrdən qorumalı, onların həyatını təmin etməli idi. İlan təsvirlərinə həmçinin boyalı qablar üzərində də rastlanmışdır. Şərurdan aşkar olunmuş tunc möhürün üzərində dağ keçisi və onu halqa şəklində əhatə edən ilan təsviri verilmişdir. Bu tip təsvirlər dünyanı binar oppozisiya şəklində, həyatın hər zaman ölümlə əvəz edilə biləcəyini ifadə etmişdir.

Qədim insanlar həyatın o biri dünyada davam etdiyinə inandıqları üçün axirət dünyasında insanların həyatını təmin etmək üçün müxtəlif ayinlər icra etmişlər. Yuxarıda qeyd etdiyimiz kimi, Neolit və Eneolit dövründə ölülərin oxra ilə boyanması adəti mövcud olmuşdur. Tunc dövründə isə qəbirlərin üzərində kurqan düzəltmə, onların kromlexlərlə əhatə edilməsi adəti mövcud olmuşdur. Nəhəcir nekropolunda ikiqat kromlexlə əhatə olunmuş qəbirə də rastlanmışdır. Qəbirlərin üzərində kurqan düzəltmə və onların kromlexlərlə əhatə olunması qədim əkinçi-maldar tayfaların Günəşə inamı ilə bağlı olmuşdur (12, s. 46). Kolanı

nekropolunda daş qutu tipli qəbirlərin birinin divarında Günəş Tanrısını simvolizə edən təsvirin olması Günəşlə bağlı inancların geniş yayıldığını təsdiq edən dəlillərdən biridir (10, s. 205-207). Qədim türklərin inamına görə cəmiyyətin seçilmiş üzvləri öldükdən sonra onların ruhu Göyə çəkilərək Günəşə qovuşurmuş.

Naxçıvanda məskənləşən qədim tayfaların ideoloji görüşlərinin xarakterik cəhətlərindən biri balıqla bağlı inanclardır. Balıqqulağı keçirilmiş sırğalar və boyunbağılar qədim geyimlərin ayrılmaz hissəsi olmuşdur(7, s. 44; 9, s. 217-227). Sarıdərə nekropolundan aşkar olunmuş bəzək əşyalarının birinin üzərində yarıbalıq-yarıinsan mifoloji varlıq təsvir edilmişdir (7, s. 61). Balıq təsvirlərinə Gəmiqayada da rastlanmışdır. Qədim dövrdə Naxçıvanda qəbirlərə balıqqulağı qoymaq adəti də mövcud olmuşdur. Balığa sitayiş Su Tanrısı ilə bağlı inancları əks etdirmişdir. Qədim Şərq sənətində, o cümlədən skiflərdə polimorf varlıqların xtonik xarakteri balıq quyruğu ilə ifadə edilmişdir.

Sənət nümunələrinin tədqiqi Naxçıvanın qədim tayfalarının bitkin mifoloji təfəkkür tərzinə yiyələndiyini göstərir. Qədim sənət əsərlərində, etnoqrafik materiallarda, folklor nümunələrində əks olunan təsəvvürlərə görə insanların yaşadığı dünyanın yuxarısında və aşağısında da bir dünya vardır. Tanrılar, xeyirxah qüvvələr Göydə, o biri dünya insanların yaşadığı dünyanın altında, yaxud onların ətrafındadır. Bir-birinə qarşı qoyulan bu dünya və o biri dünyadakı proseslər qarşılıqlı əlaqədədir. Ölüm həyatın dəyişilməz şərtidir. Canlıların daima intibahının və təzələnrnəsinin rəhnidir. Göyün, Yerin və o biri dünyanın sahibi mifoloji obrazlarla verilmişdir. Bu varlıqlarla əlaqə yaradılması, dua edilməsi, qurban kəsilməsi və digər ayinlərin icra edilməsi onların həyatındakı uğurların əsas təminatıdır. Arxeoloji sənət nümunələrindəki müxtəlif motivli təsvirlər də bu inanclarla bağlı olmuşdur.

Ədəbiyyat:

1. Azərbaycan tarixi. Z.M. Bünyadov və Y.B.Yusifovun redaktəsilə, 1-ci cild, Bakı, 1994.
2. Azərbaycan Mifoloji Mətnləri. Bakı, 1988.
3. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, 1982.
4. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991.
5. Антонова Е.В. Обряды и верования первобытных земледельцев Востока. М., 1990.
6. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı, 2004.
7. Baxşəliyev V.B. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı, 2002.
8. Baxşəliyev V.B. Gəmiqaya təsvirləri. Bakı, 2002.
9. Бахшалиев В.Б. Могильник эпохи раннего железа на территории древней Нахичевани. Советская археология, 1991, № 4, с. 217-227.
10. Бахшалиев В.Б. Некоторые образцы изобразительного искусства из могильника Коланы. Российская археология, 1995, № 3, с. 205-207.
11. Бахшалиев В.Б., Алиев В.Г. Об одном хозяйственно-бытовом комплексе из Кюльтепе II. Доклады АН Азерб.ССР, 1989, с. 56-60.
12. Baxşəliyev V.B., Seyidov A.Q. Naxçıvanın qədim tarixi. Bakı, 1995.
13. Qədirzadə Q.İ. Əshabi-Kəhf. Müqəddəslik, tarixilik və inancların genezisi. Bakı, 2002.
14. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı, 1977.
15. Əliyev V., Aşurov S. Maxta Tunc dövrü abidələri. Azərbaycanda arxeologiya və etnoqrafiya elminin son nəticələrinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 1992, s.38-40.
16. Seyidov A.Q. Naxçıvan VII-II minillikdə. Bakı, 2003.

EMİN ARİF (ŞIXƏLİYEV)
AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu

NAXÇIVANIN PROBLEMLİ ZONAYA ÇEVRİLMƏSİNDƏ BÖYÜK DÖVLƏTLƏRİN MARAQLARI

Ermənilər tərəfindən Azərbaycana, onun ayrılmaz parçası olan Naxçıvana qarşı ərazi iddialarının əsl mahiyyəti kifayət qədər aydınlaşdırılmamışdır. Məsələyə bu iddiaların sırf Ermənistan tərəfindən irəli sürülməsi yönündən baxmaq doğru olmaz. Bunlar müəyyən mənada, həqiqətə uyğun olsa da, məsələnin əsl mahiyyətini bütünlüklə açmır.

Ermənilərə görə, Naxçıvan Ermənistanın tarixi ərazisidir. Çox münbit torpaqlara sahib olan Naxçıvanın Ermənistanın sərhədləri daxilində olmaması ölkənin iqtisadiyyatı baxımından çox böyük bir itki hesab edilir.[1] Hələ XX əsrin əvvəllərində Azərbaycanda yaranmış vəziyyətdən istifadə edərək hadisələrə müdaxilə edən ermənilər Naxçıvanda yaşayan azərbaycanlılara divan tutmuş, onları bu ərazidən qovmağa və beləliklə Naxçıvana sahib olmağa çalışmışlar. Ovanes Kazaçnuni yazırdı ki, Ermənistan Şərur və Naxçıvansız yaşaya bilməzdi.[2] Digər bir iddiaya görə, Naxçıvansız, Şərursuz, Axalkalasız, Lorisiz, Qarabağsız bir Ermənistan yarımçıq qalmış bina kimiydi.[3]

Ermənilər beynəlxalq platformalarda, Paris Sülh Konfransında da ard-arda Naxçıvanı tələb etmişdilər. Yeri gəldiyi zaman siyasətə, yeri gəldiyi zaman da zora baş vurmuş, ancaq heç birində uğur qazana bilməmişlər. Onlar sərhədləri ətrafında yer alan türk bölgələrini istila etmək və beləliklə, həm xəyali Ermənistan dövlətinə bir addım daha yaxınlaşmaq, həm də Türkiyə- Azərbaycan koridorunu bağlamaq istəyirdilər.[4]

Konfransda Azərbaycan və Ermənistan arasında sərt mübahisələr cərəyan edirdi. Xüsusilə Naxçıvan məsələsi düyüm nöqtəsi idi. Azərbaycan heyəti Naxçıvan və Şərurun öz torpağı olduğunu irəli sürür və bunu isbat etmək üçün dəlillər göstərirdilər.[5] Erməni heyəti isə saxta sənədlərlə konfransa gələrək Azərbaycanı «məzlum» Ermənistana qarşı çirkin əməllər bəsləməkdə, Qarabağ və Naxçıvandakı müsəlmanların sayını şişirtməkdə ittiham edirdilər.[6]

Ermənilər Naxçıvan bölgəsini ələ keçirərək həm geniş münbit torpaqlara sahib olmaq, həm də Türkiyənin Azərbaycan və dolayısı ilə Orta Asiya ilə əlaqələrini gücləndirən yeganə koridoru bağlamaq istəyirdilər. Ancaq Türk Milli Mücadiləsinin liderləri Mustafa Kamal Paşa və Kazım Qarabəkir Paşa Naxçıvanın strateji əhəmiyyətini çox gözəl qavrayırdılar. Kazım Qarabəkir Paşaya görə, Naxçıvan «Şərq Qapısı»,[7] Mustafa Kamal Paşaya görə isə, «Türk Qapısı» idi.[8] XI ordu komandanı Cavid bəyə göndərdiyi telqrafda Kazım Qarabəkir Paşa Naxçıvan haqqında düşüncələrini belə açıqlayırdı: «...Hər baxımdan pərişan bir vəziyyətdəyik. Yalnız Azərbaycana açıq olan Naxçıvan pəncərəsi var. Onun bağlanmamasını istəyirəm...»[9] Kazım Qarabəkir Paşa Azərbaycana və dolayısıyla türk dünyasına açılan yeganə dəhliz, əhalisi türklərdən ibarət olan Naxçıvanın əhəmiyyətini anlamış və bölgədə yerli əhalidən milis dəstələri yaratmışdı. Naxçıvanın Türkiyə baxımından digər bir əhəmiyyəti isə, Ermənistana qarşı təşkil ediləcək hücumda strateji bir mövqe xarakteri daşıması idi. Digər tərəfdən Orta Asiyaya açılan qapı mövqeyində olması, türk dünyasını bir- birinə bağlayan körpü vəzifəsini icra etməsi, Ermənistan və İrana qarşı strateji bir üstünlük təşkil etməsi, əhalinin tamamilə türk olması Naxçıvanı Türkiyə baxımından əhəmiyyətli bölgəyə çevirmişdi. Eyni zamanda, Naxçıvan Sovet Rusiyası ilə münasibətlərdə bir mərkəz halına gətirilmişdi. Rusiyanın da siyasətində Naxçıvanı Türkiyənin himayəsinə verməmək üçün gizli niyyətlər hökm sürürdü. İstər çar Rusiyası dövründə, istərsə də Sovet

Rusiyası dövründə Azərbaycan, xüsusilə də onun ayrılmaz parçası olan Naxçıvan, eyni zamanda Ermənistan Rusiyanın maraq dairəsi içərisindəydi. Rusiya Azərbaycan, dolayısıyla da Türkiyə arasında Ermənistanı yaradaraq həm türk dünyasının bir- biriylə əlaqəsini kəsmək, həm də Türkiyə üzərində üstünlük qazanaraq Ermənistan lehinə torpaq iddialarını irəli sürmək və beləliklə, zəif Türkiyə dövləti üzərindən Yaxın Şərqə və isti dənizlərə açılmaq kimi gizli niyyətlərinə çatmaq istəyirdi. Heç təsadüfi deyildir ki, XX əsrin 40- cı illərində Ermənistanın Hai- Tahd (ermənilərin davası) ideologiyası içərisində yer alan «türk işğalı altındakı Ermənistanı», yəni ermənilər tərəfindən uydurulan Qərbi Ermənistanı xilas etməyi, eyni zamanda Ermənistandakı Azərbaycan türklərini yaşadıqları yerlərdən qovmağı hədəfləyən tələb və təklifləri Moskva tərəfindən də bəyənilmiş və bu tələblər «Anavətənə dönüş layihələri» çərçivəsində həyata keçirilməsi məqsədəuyğun hesab edilmişdi. Daha doğrusu, bu layihənin arxasında sırf Moskva özü dayanırdı. Sovet Rusiyasının əsl məqsədi Türkiyəni təsir dairəsinə almaq idi və bu istiqamətdə ermənilərdən öz məqsədləri üçün istifadə edirdi. «Anavətənə dönüş layihəsi» çərçivəsində Sovet Ermənistanına gətiriləcək ermənilərdən Türkiyəyə qarşı istifadə olunacaqdı. Çünki Moskva Türkiyəyə hücum etməyə hazırlaşırdı və vaxtı gəlincə erməniləri ön planda tutacaqdı.[10] Rusiyanın bu siyasəti, Moskvanın Yaxın Şərqə sahib olmaq istəklərinin manifestini təşkil edirdi. Bu siyasət isə, öz növbəsində həm İngiltərə, həm də dünya gücü olan ABŞ-ın da dövlət maraqlarına zidd idi. ABŞ Sovetlərin bu siyasətinə qarşı Trumen Doktrinasıyla öz münasibətini ortaya qoydu. ABŞ - ın araya girməsi və Türkiyənin 1952- ci ildə NATO- ya daxil olması ilə Rusiyanın Türkiyə əleyhinə apardığı məlum siyasətin qarşısı alınmış oldu.[11]

Rusiyanın məlum siyasəti hər nə qədər üzdə görünməsə də, bu gün də davam edir. Moskva öz siyasətlərinə çatmaq üçün ermənilərdən əl çəkmək niyyətində deyil. Ermənistan isə Rusiyanın bu siyasəti davam etdiyi

müddət ərzində Azərbaycan torpaqlarını ələ keçirmək niyyətindədir.

Bu gün Ermənistan müəyyən səbəblərə görə, Türkiyəyə qarşı hücumun tətbiq edilməsinin doğru olmadığını (Türkiyə qarşısında zəif qalması səbəbi ilə) və hətta bunun təhlükəli olduğunu anladığı üçün yığışıb qalmış kini və nifrəti ucbatından müdafiəsiz qalan digər türksoylu dövlət olan Azərbaycana hücum etməyi daha məqsədəuyğun hesab etmişdir. Çünki Türkiyəyə qarşı torpaq, təzminat, soyqırım iddialarının qəbulu imkansız olduğu üçün Moskvanın dəstəyi ilə Azərbaycanın bəzi torpaqlarını işğal etmək tamamilə gerçək görünürdü. Rusiyanın Türkiyəyə qarşı məlum siyasətindən istifadə edən Ermənistan, indiki mərhələdə Türkiyə ilə Azərbaycanın əlaqəsini qopararaq Naxçıvana sahib olmağı, beləliklə Türkiyənin dəstəyindən məhrum olacaq Azərbaycan torpaqlarını Hai- Tahd ideologiyasına uyğun olaraq qlobal sistemin də dəstəyi ilə ələ keçirməyi, zaman içərisində əgər Türkiyə zəifləyərsə iddia edilən Qərbi Ermənistanı öz torpaqlarına birləşdirməyi hədəfləməkdədir. Bu aspektdən yola çıxan Ermənistan, «Böyük Ermənistan» ideyasını gerçəkləşdirmək niyyətindədir. Bu ideyalarını gerçəkləşdirmək üçün ermənilər məsələyə Naxçıvandan başlamaq niyyətindədirlər. Nəyə görə Naxçıvan ? Bizcə, yuxarıda deyilən fikirlər bunu bir daha sübut edir. Bu da bir həqiqətdir ki, Ermənistan Azərbaycanın işğalına Naxçıvandan deyil, Qarabağdan başladı. Daha doğrusu Naxçıvandan başlamağa cəsarətləri çatmadı. Heç təsadüfi deyildir ki, radikal millətçi fikirləri ilə tanınan Daşnaq ideoloqlarından Zori Balayan da özünü erməni xalqı qarşısında günahkar hesab edərək məsələni Naxçıvandan başlamağa cəsarətləri çatmadığını təsdiq etməkdədir. Litvada çıxan **«SM- seqodnya»** qəzetinin müxbiri A. Geroyanın «Dağlıq Qarabağ hadisələrinin liderlərindən biri olaraq öldürülənlər və qaçqınlar qarşısında özünüzü günahkar olaraq görürsünüzmü ?» sualına Zori Balayan bu cavabı vermişdi: «Mən bu işi başlatdığım üçün deyil, xalqımı gec

ayağa qaldırdığım üçün özümü günahkar hiss edirəm. Məsələni Naxçıvandan başlatmağa gücüm çatmadı.»[12]

Tam açıqlığı ilə deyilmiş bu fikirlər sübut edir ki, Naxçıvan məsələsi ermənilərin gündəliyindədir. Onlar Naxçıvan həsrətindədirlər və Naxçıvanın işğalı məsələsi Ermənistanın baş planlarından biridir. Ermənilər 1987- ci ildə ABŞ - da nəşr olunan «Armenian Weekly» qəzetində «birgə rəsmi təbliğ» (comınunique) dərc etdirib Naxçıvan da daxil olmaqla ərazi iddialarına başlamışdılar.[13]

Ermənilər bu gün də Naxçıvanı Ermənistanla birləşdirməyi əməli vəzifə kimi qarşıya qoyub geniş kompaniya başladıblar. Ermənistan 1921- ci ildə Rusiya və Türkiyə arasında imzalanmış müqavilələrin ləğv edilməsini tələb edir. 16 mart 2004- cü ildə (Ermənistan Yazıçılar İttifaqı) EYİ binasında keçirilən və Moskva müqaviləsinin 83- cü ildönümünə həsr olunmuş konfransda edilən çıxışlarda bildirilib ki, Ermənistan üçün ədalətsiz olan, 1921- ci ildə Sovet Rusiyası ilə Türkiyə arasında imzalanan Moskva müqaviləsinin ləğv edilməsi Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanması prosesini sürətləndirə bilər. Bu müqavilə nəticəsində qədim erməni torpaqları Qars, Ərdəhan, Bitlis və başqa ərazilər Türkiyəyə, Naxçıvan isə Azərbaycana verilib: itirilən torpaqların ümumi sahəsi 80 min km^2 olub. Mümkün olduğu qədər Naxçıvanın geri qaytarılmasına çalışmalıyıq. Daha sonra Ermənistan parlamenti Rusiyanın Dövlət Dumasına, Türkiyənin Böyük Millət Məclisinə və BMT- yə müraciət imzalayıb. Müraciətdə Naxçıvanın əzəli və qədim erməni torpağı olduğu bildirilmiş, «Naxçıvan problemi» həll edilməyincə Dağlıq Qarabağ münaqişəsinin də bir nəticə verməyəcəyi vurğulanmışdır.[14]

Bütün bu faktların dərindən elmi təhlili belə bir nəticəyə gəlmək imkanı verir ki, Naxçıvana qarşı ərazi iddialarının əsl mahiyyəti başqadır. Bu mahiyyəti dərk etmək üçün aşağıdakı faktorlar nəzərə alınmalıdır:

1. İddia edilən «Böyük Ermənistan dövləti»nin gerçəkləşməsi üçün başlanğıc olaraq Naxçıvan hədəf seçilmişdir.

2. TRACECA (Transport Corridor Europe - Caucasus - Asia) yolu üzərində yerləşən, eyni zamanda körpü vəzifəsini icra edən Naxçıvanın ortadan qaldırılaraq türk dünyasının bir- biriylə əlaqələrinin kəsilməsi və beləliklə, bütün dəstəklərdən məhrum edilən Azərbaycan torpaqlarının işğal edilməsi planlaşdırılmışdır. Bu baxımdan 1921- ci il Moskva və Qars müqavilələrinin ləğvi tələb edilməkdədir. Belə bir vəziyyətdə bu müqavilələrin nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyi ortaya çıxır.

3. Rusiya və böyük dövlətlərin, daha doğrusu «Qlobal sistem»in geosiyasi və geostrateji baxımdan böyük əhəmiyyətə malik olan Naxçıvana müdaxiləsi onların mənafeyini erməni milli maraqlarıyla üst – üstə düşməsi ilə bağlı olmuşdur.

Buradan da belə bir məqam ortaya çıxır: ermənilər Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış etsələr də, bu iddiaların arxasında sırf Ermənistan dayanmır. Yəni bu iddiaların arxasında üzdə Ermənistan görünsə də, pərdə arxasında bu iddialara dəstək verən Rusiya və bu işdə maraqlı olan böyük dövlətlər dayanır. Naxçıvanın problemli zonaya çevrilməsi böyük dövlətlərin də maraqlarına uyğundur. Buna görə də məsələnin mahiyyətini anlamadan Naxçıvanın tarixinin öyrənilməsi, gələcəyə doğru fəaliyyət proqramlarının planlaşdırılması qeyri - mümkündür. Dövlət tərəfindən Naxçıvana göstərilən qayğı və onun tarixinin dərk edilərək dolğun yazılması tələbi bu prizmadan baxıldığında böyük məna kəsb edir.

Ədəbiyyat:

1. Nassibian Akaby, Britain and the Armenian Question 1915 - 1923, New York, 1984, p. 156
2. Качазнуни Ованес. Дашнакцутюн больше нечего делать . Баку, 1990, с. 18

3. Muciri Aleksandr. Birlik olsa idi, Sovet Gürcüstanı, 20 sentyabr 1990, № 11, (9806)
4. ATASE, A. 5 / 2793, Kls. 324, D. 9- 4, F. 26
5. USA. NA. Paris Peace Confranse 184. 021 / 10
6. Kazemzadeh Firuz. The struggle for Transcaucasia (1917 - 1921), New York, 1951, p. 268
7. Ünüvar Veysel. İstiklal harbinde bolşeviklerle sekiz ay (1920- 1921), İstanbul, 1948, s. 4
8. Mustafa Kemal Paşa, «Nahçıvan türk kapısıdır», Türk Dünyası Tarih Dergisi, sayı: 64, s. 5
9. Ünüvar Veysel, İstiklal harbinde bolşeviklerle sekiz ay (1920- 1921), İstanbul, 1948, s. 4
10. (Şıhaliyev) Emin Arif, Kafkasya jeopolitiğinde Rusya, İran, Türkiye rekabetleri ve ermeni faktörü, Ankara, 2004, s. 165
11. Foreign Relations of the Unitet States, VIII, p. 1310-1311; Saray Mehmet, Sovyet tehdidi karşısında Türkiyenin NATO - ya girişi, Ankara, 2000, s. 92- 93
12. «СМ- сегодня» qəzeti, 5 fevral 1993
13. Qasımov Abutalıb. XX əsrdə Naxçıvanda erməni - Azərbaycan ziddiyyətləri, tərtibçi: Süleyman Məmmədov. Azərbaycan tarixində Naxçıvan, Bakı, 1996, s. 70
14. Ekspress qəzeti, 17 mart 2004

MUSA QULİYEV
AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnsititutu

ŞÜKRULLA XAN KƏNGƏRLİ İLƏ BAĞLI ARAŞDIRMALAR

Naxçıvan xanlığı haqqında yazılan kitablarda adı az çəkilən, həyat və fəaliyyəti demək olar ki, öyrənilməyən Kəngərli xanlarından biri də Şükrulla xan Heydərqulu xan oğlu Kəngərlidir. Bəzi mənbələrdə onun adını Şükürəli kimi yazsalar da, çox yerdə, o cümlədən Kərim xan Zəndin

hakimiyyəti dövrünə aid sənədlərdə də Şükrulla xan kimi qeyd edilmişdir.

Azərbaycan MEA- nın M. Füzuli adına Əlyazmalar İnsititutunda maraqlı bir sənəd saxlanılır. Bu sənədin mətnini araşdırıcı - alim Elmira xanım Seyidbəyli də öz kitabına daxil edib. Orada deyilir: «Şükrulla xan Heydərqulu oğlu Kəngərli Kərim xan Zəndin 1768- ci il tarixli fərmanı üzrə «Müstəqil xan», yəni hakim tituluna layiq görülməklə yanaşı, bütün Kəngərli cəngavərlərinə, (süvarilərinə) sərkərdə təyin olunduğu müddətdən etibarən tümən hakimi kimi şöhrət tapmışdır» (3, s. 8).

Amma nədənsə tarixçilər Naxçıvan xanlığının hərb tarixində özünəməxsus yeri olan, həmçinin Naxçıvanın abadlaşmasında ürəkaçan işlər görən Şükrulla xanı unutmuşlar. Elə Fuad və Mirabdulla Əliyevlərin «Naxçıvan xanlığı» kitabında da onun fəaliyyəti haqqında çox qısa məlumat verilib. Müəlliflərin bir qeydi isə daha çox maraq doğurur: «... Naxçıvan taxtının sahibsiz qalmasından və hakim dairələrdəki qarışıqlıqdan istifadə edərək nüfuzlu Naxçıvan feodallarından biri olan Şükürəli xan 1785- ci ildə hakimiyyəti öz əlinə keçirdi.Naxçıvanda Şükürəli xanın hakimiyyəti haqqında Mərkəzi Dövlət Hərbi Tarixi Arxivində (Moskva şəhəri) 17 fevral 1785- ci il tarixli sənəddən başqa hələlik digər sənəd əldə edilməmişdir (1, s. 57). Şükrulla xan hakimiyyətdə uzun müddət qala bilmədi. İki ildən sonra o, Cəfərqulu xan tərəfindən devrildi». Bu qeydlərdən fərqli olaraq tarixi sənədlərdə 1768, 1770, 1777- ci illərdə Şükrulla xan Naxçıvanın hakimi kimi təqdim edilir. Həmin sənədlərə istinadən demək olar ki, o, 1768- ci ildən 1787- ci ilə qədər Naxçıvan xanlığının hakimi olub (3, s. 84-94). Ola bilsin ki, onun xanlıqdakı hakimiyyətində müəyyən fasilələr olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, bu istiqamətdə araşdırmalar aparılır.

Maraqlıdır ki, bütün sənədlərdə Şükrulla xan xanlığın ən ali məqamlısı, «uca iqballı», xeyirxah hakim kimi qeyd olunur. 1770- ci ilin 27 mayında Əlimərdan bəyin qızları

Xanımcan və Şərəf xanımların irsi əmlaklarına yiyələnmək iddiası barəsində yazılmış bir vəkalətnamə çox maraq doğurur və yuxarıda deyilənləri təsdiqləyir: «Rəhmətə getmiş mərhum Əlimərdan bəyi Böyükxanım və Balaxanım ləqəbi daşıyan izzətli və vəkalətli varisləri Xanımcan və Şərəf adlı xanımlar mülklərini, kəndlərini və s.- i fərdi- təsərrüflərinə almaq iddiası barəsində ən yüksək məqam sahibi Şükrulla xanı özlərinə müdafiəçi götürüblər».

Qeyd edək ki, burada adı çəkilən Əlimərdan bəy Naxçıvan hakimi Cəfərqulu xanın oğludur. Naxçıvanın «Vəkili titulunu daşımışdır» sənədələrində ciddi araşdırmalar aparılanda yəqin olur ki, Şükurulla xan Naxçıvan xanlığının hakimi olduğu vaxtlarda çox uğurlar qazanmışdır. Bir arxiv sənədində: «Şükrulla xan Kəngərli dövlət işlərində ən çox fayda verən və xanlığın ən çox təşəkkürünü qazanan bir hakim olmuşdur...».

Y.N.Marrın xatirəsinə həsr olunmuş «Ön Asiya sənədlərdə» kitabının «Naxçıvanın əlyazma sənədləri» (XVII-XIX əsrlər) adlanan birinci hissəsində göstərilir ki, Naxçıvan uzun illər Səfəvi dövlətinin xidmətinə Kəngərli süvarilərindən ibarət atlı dəstələri göndərib. Sənədlərdə atlı dəstələrinə başçılıq edən sərkərdənin adları da göstərilib (2, s. 10-54). Ancaq Azərbaycan MEA Əlyazmalar İnstitutunun «Arxeoqrafik və tarixi sənədlər» bölməsində mühafizə olunan bir sənəddən araşdırıcı alim Elmira xanım Seyidbəylinin əldə etdiyi məlumata görə 1777- ci ildə Naçıvanda hakimlik üsuli-idarəsinin Astrabad ölkəsinin bəylərbəyi Mürtəzaqulu xan Kəngərlinin nəvəsi Şükrulla xanın şəxsiyətində cəmləşməsi (Hibənamənin mətni içərisindən çıxarıb yuxarı hissəsində salınmış qeyd belədir:Naxçıvan ölkəsinin hakimi Şükrulla xan Kəngərli. Allah onun ucə. iqbalını daimi etsin) faktı belə bir qənaət yaradır ki, o, (Şükrulla) Kəngərli tayfalarından təşkil edilmiş atlı qoşun hissələrinin tərkibində təkmilləşdirmə işi həyata keçirmək məqsədilə 1780- cı ildə həmin göstərişi verib. Şükrulla xan özü isə 10 min Kəngərli atlı dəstəsinə «Naxçıvan süvariləri»nin sərkərdəsi kimi başçılıq etmişdir.

Bu işdə ona əmiləri Vəliqulu xan və Abbasqulu xan kömək etmişlər (3, s. 108). Sadalanan faktlara əsasən demək olar ki, Şükrulla xan Naxçıvan xanlığının tədbirli hakimi olmaqla yanaşı, həm də mahir bir hərbçi olmuşdur. Əminik ki, gələcəkdə əldə ediləcək yeni arxiv sənədləri bunu tam təsdiqləyəcək.

Şükrulla xanın doğum və ölüm tarixi hələlik dəqiqləşdirilməyib. Məlumatlara əsasən demək olar ki, onun nəsil davamçıları sonralar Zülfüqarov familiyasını daşımışlar. Onun mülkləri və torpaqları Naxçıvanda Azadciranda və Qarabağlar kəndində olmuşdur.

İrəvan Dövlət Arxivində onun nəsil davamçılarından birinin- Zülfüqar xanın İrəvan bəy komissiyasına yazdığı ərizə Zülfüqarxanovların Şükrulla xan nəslindən olduğunu xəbər verir: Naxçıvan şəhər sakini Zülfüqar xan Şükrulla xan oğlu 5 oktyabr tarixində Bəy Komissiyasına onunla eyni bir əcdaddan törəmiş ailələrin siyahısını və şəcərəsini təqdim edib. Zülfüqarxanov xahişnaməsində bildirib ki, onun ulubabası Heydər qulu xan və onun oğlu Şükrulla xan Naxçıvan qəzasını və Mehri sahəsini çıxmaqla Azadciran (Azadciran XIX əsrdə Naxçıvandan şərqdə yerləşən torpaqların ərazisi Müəllif) dairəsini idarə ediblər. Onun babası Zülfüqar xan Azadciran dairəsini idarə edib. Göstərilən şəxslərdən və əmisi oğlu Abbasqulu xanın İranda yaşayan vərəsələrindən başqa o heç kimi tanımır və babasının adı ilə bağlı olan Zülfüqarxanov soyadı götürmək istəyir. Təqdim olunmuş siyahıya əsasən göstərilən ailələrin tərkibi aşağıdakı kimidir: 1. Zülfüqar xan 38 yaşında, arvadı Tükəzban xanım 30 yaşında, oğlu Humay xan 2 yaşında, Şükrulla xan- 1 yaşında. qızları Kövhər xanım 8 yaşında, Hacı Bəyim 5 yaşında; 2. Cahangir xan 24 yaşında və s. 3. Əmir Aslan xan 15 yaşında. Siyahıda qeyd olunub ki, əvvəllər onların Naxçıvan və Ordubad qəzalarında çoxlu kəndləri olub, lakin həmin kəndlər kənar şəxslərə satılıb, indi isə Naxçıvan qəzasının Şıxmahud kəndində 2 axça torpaqları var. Şəcərədə köstərilir ki, xahiş edənin ulubabası Heydər

qulu xan olub, onun isə iki oğlu olub: Rəhim xan, hansının ki, vərəsələri İrandadırlar və Şükrulla xan. Ərizə ilə müraciət edən Zülfüqar xan Şükrulla xanın nəticəsi olub. 1859- cu ilin kameral siyahısına görə Naxçıvan şəhəri üzrə xan nəslindən olan ailələrin siyahısına xahiş edənin atası Şükrulla xan və onun 2 oğlu: Zülfüqar xan və Cahangir xan daxil edilirlər. Üçüncüsü Əmir Aslan xanın isə siyahıda adı yoxdur.

Bunları dinləyərək və siyahı ilə şəcərəni nəzərdən keçirərək iştirak edən üzvlər yekdiliklə bildirdilər ki, xahiş edən Zülfüqar xan və qardaşları Cahangir xan və Əmir Aslan xan həqiqətən də Heydər qulu xandan törəyiblər; xahiş edənin digər əcdadları İran hökuməti dövründə bəy adından istifadə ediblər, nə həmin vaxtlar nə də Rusiya hökuməti dövründə onlardan heç biri adından məhrum edilməyib. İrəvan bəy komissiyası Təminatın 9, 14, 19, 21, 25- ci maddələrinə əsasən bu barədə protokol tərtib etmək niyyətindədir (5. Fond 89, Siyahı 1, iş 26, vərəq 255).

Bu sənəd 1859- cu ilə aiddir. İrəvan bəy komissiyası şikayətçinin ərizəsinə müsbət cavab verib. Onların xan nəslindən olduğunu təsdiqləyib. Sənəd Naxçıvan xanlığının nəsil şəcərəsinin tərtibi zamanı çox dəqiqləşdirmələrə köməklik etdi. Bir daha təsdiqləndi ki, Zülfüqarxanovlar və Sovet dövründə Zülfüqarlı soyadlarını daşıyan şəxslər də Kəngərli xanlarından Şükrulla xanın nəslindən olanlardır. Atasının Naxçıvan çay üzərində saldığı körpünü o, yenidən təmir etdirmişdir ki, həmin körpü indiyədək Şəkərabad kəndi yaxınlığında durmaqdadır. Eləcə də o, dünyanın ən möcüzəli ziyarət yerlərindən biri olan Əshabi- Kəhfə çox qayğı göstərmişdir. Əshabi- Kəhf ziyarətgahında bir neçə kitabə vardır. Tədqiqatçı Hacı Fəxrəddin Səfərlinin araşdırmalarından məlum olur ki, kitabənin üzərində «Qurani Kərim» in «Əl- kəhf» surəsinin 9, 10, 11, 12, 17 və 18- ci ayələri həkk edilmiş mərmər lövhə təbii aşınma nəticəsində məhv olmaq təhlükəsində olduğu üçün Naxçıvan ölkəsinin hakimi Şükrulla xanın qərarı ilə onun üzü təzədən

ayrı bir daşa yazılaraq əvvəlki yerinə qoyulmuşdur. Bu hadisə 1776- cı ildə olmuşdur (4, s. 25).

Ədəbiyyat

1. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Azərnəşr, Bakı, 1996
2. Передняя Азия в документах (Серия памяти Ю. Н. Марра). Книга Ы, Нахичеванские рукописные документы, ХВЫЫЫ – ХЫХ вв. Издателство Грузинского филиала Академии Наук СССР. Тифлис, 1936
3. Seyidbəyli E. Naxçıvan torpaq mülkiyyətinə aid XVII- XVIII əsr Kəngərli arxeoqrafik sənədləri. Bakı, Elm, 2001
4. Səfərli H. F. Duaların Allaha çatdığı yer- Əshabi Kəhf. Bakı, 2002
5. Государственный Исторический Архив Республики Армении, фонд 89, опись 1, дело 26, лист 255

NƏZAKƏT ƏSƏDOVA
Naxçıvan Muxtar Respublikası
Dövlət Tarix Muzeyi

NAXÇIVAN QƏZASININ İQTİSADİ-MƏDƏNİ HƏYATINDA KƏNGƏRLİLƏRİN ROLU

Qədim türk tayfalarından olan Kəngərlilər son əsrlərdə Azərbaycanın, o cümlədən, Naxçıvanın hərbi-siyasi tarixində mühüm rol oynamışlar.

Muxtar Respublika Dövlət Tarix Muzeyinin fondlarında qorunub saxlanılan nadir sənədlər içərisində XVIII əsrin sonu XX əsrin ilk onilliklərinə aid ərəb, fars, rus dillərində yazılmış qəbalə, hibənamə, iqrarnamə, vəkalətnamə və şəhadətnamələrin, həmçinin, Zaqafqaziya İdarəçiliyi dövrünə məxsus sənədlərin araşdırılması ilə Kəngərlilər haqqında bir sıra maraqlı məlumatlara rast gəlinir, qaranlıq məsələlərə aydınlıq gətirilir. Məlum olur ki, hərbi-siyasi fəaliyyətləri ilə xüsusi nüfuz və mənsəb sahibləri olan

Kəngərlilər, eyni zamanda xanlıqlar dövründə Naxçıvan qəzasında və İrəvan Quberniyası ərazisində geniş torpaq və əkin sahələrinə hüquqi sahibkarlıq etmiş, əkinçiliyin, bağçılığın, bostançılığın inkişafına xüsusi səy göstərmiş, həmin dövrdə iqtisadi-mədəni həyatın yüksəlişində əsas aparıcı qüvvələrdən biri olmuşlar. Siyasi-hərbi və iqtisadi-mədəni sahələrdə aparıcı tayfalar kimi Kəngərlilərin yüksək nüfuzunu hiss edən Çar Rusiyası və Zaqafqaziya İdarəçiliyi xüsusi dairələr tərəfindən tayfa üzərinə ciddi nəzarət qoymuş və əlaltı mənbələr vasitəsilə məlumatlar toplaması üçün inanılmış idarələrə məxfi tapşırıqlar verilmişdir.

Məxfi sənədlərdən birində deyilir: «Kəngərlinski nəsli haqqında məlumat toplamağı yuxarı komandanlıq hər adama tapşırmamalıdır» (1).

Dövrün siyasi dairələrinin diqqət mərkəzində saxlanılan Kəngərli tayfalarının say tərkibi haqqında da məlumatlar əldə edilmişdir. Fond sənədlərinin birində, daha doğrusu, Zaqafqaziya ölkəsi Baş Dəftərxana İdarəsinin 39 nömrəli 10 yanvar 1851-ci il tarixli sənədində bildirilir: «15 dekabr 1850-ci il tarixdə olan iclas jurnalından (protokolundan) çıxarış. İrəvan Quberniyasının 9 dekabr 1837-ci il tarixli 8551 nömrəli təqdim etdiyi məlumatından görünür ki, Kəngərli nəsli (tayfası) 1403 ailədən ibarətdir. O cümlədən, 1055 ailə kəndlərdə, 348 ailə isə Naxçıvanda yaşayır.(2)

XVIII əsrin sonlarından XX əsrin 40-cı illərinədək daha çox siyasi-hərbi fəaliyyətləri ilə tarixin yaddaşında qalan Kəngərlilər, eyni zamanda Naxçıvanın iqtisadi-mədəni həyatında da mühüm əhəmiyyət kəsb edən işlər görmüş, Naxçıvan qəzasında, Ordubadda, Şərur-Dərələyəz qəzasında kənd təsərrüfatı və sənayenin inkişaf etdirilməsi üçün ayrı-ayrı istehsal sahələrinin yaradılmasına xüsusi diqqət yetirmişlər. Kəngərlilər həmin sahələrdən əldə edilən gəlirlər hesabına qəzanın mədaxil büdcəsi hesabına yüksək faizlə vergilər ödəmiş və şəxsi büdcələrinə toplanılan vəsaitlərin bir hissəsini xeyriyyəçilik işlərinə sərf etmişdilər. Qəzada

hamamlar, məscid və mədrəsələr, köşklər tikdirmiş, karvansaralar və körpülər saldırmış, xüsusilə qız məktəblərinin təşkilinə böyük yardımlar göstərmişdilər. Araşdırılmış sənədlərdən aydın olur ki, bağçılığın və əkinçiliyin təşkilini Kəngərlilər öz nüfuz dairələrində saxlamışlar.

Hicri 1202-ci il məhərrəm ayında (miladi 1787- ci il 13 sentyabr) yazılmış təyin (təyinat) kağızında Ordubadın Dırnıs çayı kənarında geniş torpaq sahələrini əhatə edən meyvə bağlarının və əkin yerlərinin Lütfəli Sultan Kəngərliyə məxsusluğu bildirilir. (3) Həmçinin, Allahverdi Dizəsində (Culfa ərazisi) və ona bitişik ərazilərdə Lütfəli Sultanova məxsus torpaq və əkin sahələri olduğu qeyd olunur. (4) Həmin ərazilərdə salınmış bağlarda 15 növdən çox meyvə ağacları becərilirdi. Əkin sahələrində isə ən nadir kənd təsərrüfatı məhsulları: noxud, lobya, maş, mərcimək əkilirdi. Fond sənədlərində Lütfəli Sultan oğlu Novruz ağanın Şıxmahmudda bağçılığın salınması və toxum səpilməsi üçün əlverişli əkin sahələrinin olması bildirilir. (5) Naxçıvanın Əlixan məhəlləsində Məmməd bəy Kəngərlinin, (6) Topçu Süleyman bəy Kəngərlinin geniş alanda yararlı torpaq sahələri olması faktı da sənədlərdə öz əksini tapmışdır. (7)

Hicri 1205-ci il zilhiccəl-həram ayında (13 sentyabr 1790-cı il) fars dilində yazılmış qəbalədən Naxçıvana bitişik Dərələyəzdə Şeyxəli xan Tağı xan oğlu Kəngərliyə məxsus geniş ərazilərdə sulu və demyə torpaqların mövcud olması məlum olur.(8) Bu torpaqlarda isə kənd təsərrüfatı məhsullarının digər növləri: arpa, buğda, çəltik, darı və s. əkilirdi. Fond sənədlərinin araşdırılmasından görünür ki, ümumiyyətlə kənd təsərrüfatında əsas aparıcı sahələrdən biri kimi taxılçılığın və əkinçiliyin ildən-ilə genişləndirilməsinə xüsusi diqqət yetirən Kəngərlilər bu sahələrdən yüksək məhsuldarlıq əldə edilməsinə nail olmuşdular.

Zaqafqaziya ölkəsi Baş Dəftərxana İdarəsinin 10 yanvar 1851-ci il tarixli 39 nömrəli sənədində bildirilir: «Kəndlərdə yaşayan 133 ailəni çıxmaqla, Kəngərlilər bütün

növ torpaq məhsullarını ödəyiblər. Buğda 294 xalvar 641 batman (1 xalvar 300 kq, 1 batman 160 kq-dır), arpa 147 xalvar 31,8 batman, darı 29 xalvar 491 batman, çəltik 18 xalvar 15 batman, pambıq 7 xalvar 18 batman və xırda istehsaldan isə 61 manat 79 qəpik ödəyiblər».

Kənd təsərrüfatı ilə bərabər sənayenin də inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verən Kəngərlilər o dövr Naxçıvan qəzasında ayrı-ayrı istehsal sahələrini yaratmış və onlara başçılıq etmişdilər. Naxçıvan qəzasında 1866-cı ilədək mövcud olan fərdi zavodların siyahısına aid sənəddən aydın olur ki, həmin dövrədək fəaliyyət göstərən 5 fərdi zavoddan 4-nü məhz, Kəngərlilər təsis etmişdilər. Sənəddə göstərilir: «1839-cu ildə Lütfəli Sultan oğlu Novruz ağanın Naxçıvan qəzasında təsis etdiyi dulusçuluq zavodu il boyunca gil qablar istehsalı ilə məşğul olur. Həmin mallar şəhərdə və qəzalarda satılaraq 600 manatdan çox gəlir əldə edilirdi. Həmçinin, sənəddə İsmayıl xan və Kalbalı xan Kəngərlilər tərəfindən yaradılmış zavodlar haqqında da məlumat verilir. Sənəddə bildirilir: «1846-cı ildə Qvardiya polkovnikləri İsmayıl xan və Kalbalı xan Kəngərlilər tərəfindən təsis edilmiş gön-dəri zavodu il boyunca 2350 manat gümüş pul dəyərində məhsul buraxır. Həmin istehsal olunmuş məhsullar isə qəzanın təminatını tam ödəyirdi».

XIX əsrin II yarısından sonra Naxçıvan qəzasında aparılan tikinti və quruculuq işlərində tikinti materiallarına olan tələbatın ödənilməsi üçün Məşədi Həsənağa Nəcəf oğlu tərəfindən təsis olunmuş kərpic zavodu mühüm rol oynamışdır. Belə ki, göstəriləri sənəddə qeyd olunur: «1865-ci ildə Məşədi Nəcəf oğlu tərəfindən təsis olunmuş kərpic zavodu ildə 130 tona qədər kərpic istehsal edirdi ki, bu da 900 manat gümüş pul dəyərində gəlir götürülməsinə imkan verirdi». Xanlıqlar dövründə fəaliyyət göstərən 5 zavoddan 2-ni isə Çar Rusiyasının bədnam siyasətinin nəticəsi olaraq İran və Türkiyədən Naxçıvana köçürülmüş ermənilərə icarəyə verilmişdir. Gil qablar və ona müvafiq qabların istehsalı ilə məşğul olan bu zavodlardan biri Təzəkənddə (indiki Babək

rayonu ərazisində), digəri isə Naxçıvanda fəaliyyət göstərirdi. İllik istehsal gücü 121 tona bərabər olan bu zavodlarda ermənilər çalışırdı.(9) Bir zamanlar qapımızda hambal olan ermənilər bu gün başımızda ağa olmaq istərkən dönüb keçmişlərinə yaxşı-yaxşı baxsınlar. Naxçıvan əhalisinin boğazından kəsib yer üzündən qovulan ermənilərə yedirdiyimiz azuqələrimiz gec-tez burunlarından gələcək.

Beləliklə, XVIII əsrin ortaları XX əsrin əvvəlləri Kəngərlilərin həm siyasi-hərbi, həm də mədəni-iqtisadi nüfuz dairələrinin genişləndiyi və möhkəmləndiyi bir dövrdür. Bu gün Kəngərlilər haqqında arxivlərdə, fondlarda; ayrı-ayrı adamların şəxsi kitabxanalarında kifayət qədər məlumatlar olması, sənəd və fotoşəkillərin mövcudluğu faktına rast gəlmək mümkündür. Lakin bütün sahələrdəki fəaliyyətləri ilə bərabər Kəngərlilərin doğma diyarımızın iqtisadi-mədəni həyatındakı fəaliyyətləri də az öyrənilmiş, az tədqiq olunmuşdur. Çox güman ki, gələcəkdə bu sahədə tədqiqatların genişləndirilməsinə, Kəngərlilərin fəaliyyətləri haqqında yeni tarixi faktların, əsaslı məlumatların ortaya çıxarılmasına diqqət artırılacaqdır.

Ədəbiyyat

1. Naxçıvan MR Dövlət Tarix Muzeyi, fond, sənəd: NDTM- 27176 (v) - s- 4464 (v).
2. Fond, sənəd: NDTM- 27108- s- 4366.
3. Fond, sənəd: «Təyin kağızı» NTM- 13242-s- 1069.
4. Fond, sənəd: «Qəbalə»- NİM- 1385.
5. Fond, sənəd: «Qəbalə»- NİM- 1386.
6. Fond, sənəd: «Qəbalə»- NİM- 3.
7. Fond, sənəd: «Qəbalə»- NIM- 1383.
8. Fond, sənəd: «Qəbalə»- NİM- 13232- 5- 1059.
9. Fond, sənəd: «Vedomost», 1866- NDTM- 27108- 9- 4396.

SARA HACIYEVA
AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu

NAXÇIVANIN AÇIQ MUZEYİNDƏKİ QOÇ VƏ QOYUN HEYKƏLLƏRİ HAQQINDA

Azərbaycanın xatirə abidələri sırasında yer alan, yüksək bədii sənətkarlıqla işlənmiş sənduqə, qoç və qoyun heykəlləri tariximizi öyrənmək üçün olduqca əhəmiyyətlidir. Daş qoç və qoyun heykəlləri çox qədim tarixə malikdir. Qəbirlərin üzərinə qoyun və qoç fiqurlarının qoyulması qədim türk tayfalarının dəfn adətləri və inamları ilə əlaqədar meydana gəlmişdir. Sənətşünas alim Nəsir Rzayev Azərbaycanda yaranan ilk xatirə abidələrinin animizm ideyaları ilə (Ruhlara inam) bağlı olduğunu göstərmişdir. Belə abidələr əvvəlcə qəbirüstü insan heykəlləri şəklində ortaya çıxmış, sonra bəzi qəbilələrdə bunlar at və qoç fiqurları ilə əvəz edilmişdir. Bu cür qəbirüstü fiqurlardan isə birinci olaraq oğuz tayfaları istifadə etmişlər.[1]

Daş qoç və qoyun heykəlləri türkdilli xalqlar yaşayan bütün ərazilərdə, o cümlədən Xakasiyada, Qazaxıstanda, Göytəpədə (Cənubi Azərbaycanda) və Diyarbəkirdə (Türkiyədə) aşkar olunmuşdur. VIII əsr türk xaqanı Gültəkinin qəbri üzərində qazıntı işləri aparılarkən buradan iki mərmər qoç fiquru aşkar edilmişdir. Buna əsaslanaraq tədqiqatçılar Azərbaycan mədəniyyətinin uzaq keçmişdə Mərkəzi Asiya ilə sıx əlaqədə olduğunu qeyd etmişlər.[2]

Qoç qədim türk xalqlarında güc, qüvvət, bolluq rəmzi hesab edilmişdir. Bu fiqurlarla bağlı inamlara arxeoloji qazıntılarda da rast gəlinir. Naxçıvan MR ərazisindəki Kültəpə yaşayış yerindən ilk tunc dövrünə aid gildən hazırlanmış kiçik ölçülü qoyun fiqurları aşkar edilmişdir.

Qoç fiqurları üzərində insan, at, qılınc, ox, kaman, günəş və s. kimi müxtəlif bədii təsvirlər mövcuddur. Daş qoç

və qoyun fiqurlarının oxşar cəhətləri olsa da hər biri özünəməxsus orijinal bədii üslubda işlənmişdir.

Daş qoç və qoyun fiqurları Naxçıvan MR-in bir çox rayon və kəndlərində qeydə alınmışdır. Bu qəbirüstü heykəllərin bir qismi bölgədəki qəbristanlıqlardan gətrilərək Naxçıvan şəhərində Mömınə xatun məqbərəsi qarşısında Naxçıvan MR Ali Məclisi Sədrinin sərəncamı ilə yaradılan açıq muzeydə mühafizə və nümayiş etdirilir. Hazırda açıq muzeydə 72 qoç və qoyun fiquru, 12 sənduqə tipli xatirə abidəsi nümayiş etdirilir. Onların içərisində diqqəti ən çox cəlb edən üzərində müxtəlif kitabə və bədii təsvirlər həkk olunan abidələrdir. Bu abidələrin üzərində təsvir olunan hər bir işarənin özünə məxsus anlamı, məna çaları vardır. Bu təsvirlərin əski türk inancları və adətləri ilə, eyni zamanda islami inamlarla bağlı olduğu ehtimal edilir.

Buradakı bir qoç fiquru (145 x 65 x 45 sm) arxa ayaqları yarım bükülü vəziyyətdə, başı kiçik ölçüdə, quyruğu yastı, buynuzları burulmuş halda düzəldilmiş, ağzı az nəzərə çarpdırılmışdır. Digər bir fiqurun (140 x 65 x 40 sm) ayaqları bitişik, buynuzları burulmuş halda, başı bir qədər uzunsov olub, ağız hissə bildirilməmişdir, quyruğu yastıdır. 3- cü fiqur (150 x 71 x 50 sm) altlıq üzərində, qıvrıq buynuzlu, başı bir qədər girdə şəkillidir. Belində kəmər olan qoç fiqurunun quyruğu yastıdır. Ayaqlar daşın bir qədər oyulması ilə nəzərə çarpdırılmışdır. Bir fiqur (160 x 70 x 40 sm) altlıq üzərində ayaqlar bir-birindən aralı şəkildə düzəldilmişdir ki, bu da sənətkardan böyük ustalıq tələb edirdi. Buynuzları düz, başı digərlərinə nisbətən kiçik ölçülüdür. Fiqurun quyruq hissəsi maili şəkildədir. 5- ci fiqur (170 x 80 x 41 sm) yenə də altılıq üzərində ayaqları bitişik, buynuzları burulmuş vəziyyətdə, alt çənə bir qədər irəli çıxmış halda, qabaq ayaqları bitişik şəkildə düzəldilmişdir.

Fiqurların öyrənilməsi göstərir ki, onların hər biri orjinal bədii üsluba malikdir ki, bu da ustanın fərdi yaradıcılıq qabiliyyətini göstərir. Qoç fiqurları üzərində olan

müxtəlif bədii təsvirlər özünəməxsus maraqlı tədqiqat obyekti kimi diqqəti cəlb edən abidələrdəndir.

Burada olan bir fiqur (95 x 92 x 49 sm) iki ayağı üstə başı yumru, buynuzları burulmuş vəziyyətdə, quyruğu yastı, ağzı az nəzərə çarpacaq formada düzəldilmişdir. Bu abidə qırmızı daşdan hazırlanmışdır. Abidənin sol tərəfində iki insan və insanlardan arxa tərəfdə taxcada su qabı həmçinin quş təsviri işlənmişdir. Təsvirdəki, insanlardan biri taxtda əyləşmiş və başında tac vardır. Bu onun hökmdar olmasını, digər bir insanın isə əlində saz, onun qarşısında əyləşməsi burada saz, söz yaradıcılığının, musiqi məclisinin olduğunu göstərir.

Musiqi əski türklərin əsas sənət sahələrindən biri, saz isə aşıqların ən qədim zamanlardan ilahi və dünyəvi şeirləri ifa etdikləri qədim musiqi alətidir. Bu musiqi aləti dastan və nağıllarımızdan da məlumdur. «Kitabi Dədə Qorqud», «Koroğlu», «Aşıq Qərib» və s. dastanlardan da göründüyü kimi saz ən əziz musiqi aləti olmuş, müqəddəs hesab edilmişdir.

Digər bir fiqur ayaqları bitişik vəziyyətdə, quyruq hissəsi azca çıxıntılı halda düzəldilmişdir. Onun baş hissəsi sındırılmışdır. Fiqur sarı daşdan hazırlanmışdır. Bu fiqurun (107 x 152 x 85 sm) üzərində günəş, sünbül, qılınc təsviri çəkilmişdir. Günəşə inam Azərbaycanda çox qədim zamanlardan geniş yayılmışdır. Sənətşünas N.Rzayev günəş kultunun Azərbaycanın madii mədəniyyət abidələrində daha çox işləndiyini göstərir və qeyd edir ki, günəş kultu Azərbaycanın mənəvi mədəniyyətinin xarakterik xüsusiyyətlərindən olmuşdur.[3]

Günəş təsviri təkcə daş işləmə sənətində deyil, həm də bəzək əşyalarında, xalçaçılıqda və digər əl işlərində də öz əksini tapmışdır. Mirəli Seyidov apardığı araşdırmalara dayanaraq qeyd edir ki, bir çox xalqlarda olduğu kimi azərbaycanlılarda da Günəş Tanrısı- şüa, zoomorfik onğon və insan kimi təsəvvür edilmişdir.[4]

Günəşə inam insanların həyatı, yaşama inancı ilə bağlı hesab edilə bilər. Şübhəsiz ki, günəş işığı olmadan nə təbiət, nə də insanlar yaşaya bilməzlər. Bu isə günəşli günlərin insanların həyatında mühüm yer tutduğunu göstərir.

Fiqur üzərində digər bir təsvir quş təsviridir. Tədqiqatçılar quş təsviri ilə bağlı inamlara arxeoloji qazıntılarda rast gəlindiyini qeyd edirlər. Azərbaycan folklorunda da quşların xeyirxahlığı insanlara kömək etməsi ilə bağlı xeyli əfsanə vardır. Məsələn Nuh(ə.s.)la bağlı əfsanələrdə qaranquş, göyərçin insanın yaxın dostu köməkçisi kimi verilmişdir.[5] Yaxud da nağıllarda tez-tez rast gəlinən əfsanəvi Simurğ və Səməndər quşları xeyirxah qüvvələri təmsil edir. Qəbir daşlarında öz əksini tapmış quş təsvirləri quşun qoruyucu funksyası göy aləminin təmsilçisi kimi insanların ruhunun bəd qüvvələrdən mühafizə etməsi inancları ilə bağlı olduğunu söyləməyə imkan verir.

Fiqurların bir neçəsinin üzərində ən çox qılınc təsviri çəkilmişdir. Məlum olduğu kimi türklər qılınca və qalxana hər zaman sahib olmuş və bu türklərin döyüşkənlik rəmzi kimi dəyərləndirilmişdir.

İstər dini ədəbiyyatlarda, istərsə də dastan və nağıllarda qılınca ecazkar nəzərlə baxılmışdır. Məsələn Hz. Əlinin Zülfüqarı, Koroğlunun Misri qılıncı kimi möcüzəli qılınclar haqqda məlumatlar vardır. Qədim türklərdə hər bir döyüşçünün vətənini, namusunu qorumaq üçün qılıncı olmuşdur. Qəbirlər üzərindəki təsvirlər arasında qılıncın daha çox yer alması dəfn edilənin döyüşçü olduğunu söyləməyə imkan verir.

Üçüncü bir fiqurun (113 x 142 x 60 sm) üzərində qılınc və at təsviri işlənmişdir. Bu qoç fiqurunun ayaqları bitişik, buynuzları burulmuş, başı bir qədər uzunsov, ağzı isə qapalı halda düzəldilmişdir. Üzərində kitabəsi vardır.

Qeyd edək ki, qədim türklərdə, o cümlədən də Azərbaycan türklərində atla bağlı inanc və ata olan yüksək ehtiram qəbirüstü daş abidələr üzərindəki təsvirlərdə də özünü göstərməkdədir. Bütün türk xalqlarında olduğu kimi

Azərbaycan türklərində də ata yüksək ehtiram bəslənmişdir. Şifahi və yazılı ədəbiyyat nümunələrində dastan və nağıllarda isə minik atına münasibət daha önəmli olmuşdur. H.Q.Qədirzadə atla bağlı qədim türk dastan və nağıllarına, həmçinin toplanmış etnoqrafik materiallara əsaslanaraq qeyd edir ki, atla bağlı inanclar türk xalqlarına digər xalqlardan deyil, əksinə türklərdən, xüsusən Azərbaycan türklərindən dünyanın bir sıra xalqlarına yayılmışdır.[6]

Türklər bütün heyvanlar arasında ən çox ata üstünlük vermişlər. At türklər arasında misilsiz hörmət və məhəbbətə malik olmuşdur. Qədim türkləri atsız təsəvvür etmək mümkün deyildir. Ata olan yüksək ehtiram türk dastan və nağıllarının demək olar ki, əksəriyyətində göstərilmişdir. Bu təsvirlər şübhəsiz ki, islamaqədərki dövrün inanclarını, mifologiyasını göstərir. İslam dini qəbul edildikdən sonra da, hətta günümüzə qədər islam inancları ilə bərabər insanlar qədim türk adət və ənənələrini, inamlarını yaşatmaqdadırlar. Orta əsrlər dövrünü xarakterizə edən daş qoç fiqurlarının üzərində qədim inancları yaşadan təsvirlərlə yanaşı həm də islamı ideyalarla bağlı kəlamlar vardır. Bir qoç abidəsinin üzərində (115 x 148 x 48 sm) olan insan və qılınc təsviri ilə bərabər həm də «Allah, Məhəmməd, Əli» kəlmələri yazılmışdır. Bu fiqurun isə ayaqları bitişik vəziyyətdə, buynuzları burulmuş, başı uzunsov, ağzı qapalı, quyruğu yastı halda düzəldilmiş dir.

Bu kitabə və təsvirlərin öyrənilməsi Azərbaycan xalqının dini, ictimai-siyasi dünyagörüşünün, qədim inanclarının, həyat tərzinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Nəsir Rzayev. Əsrlərin səsi. Bakı, Azərnəşr, 1974, s. 67
2. Rasim Əfəndiyev. Danışan daşlar. Bakı, Gənçlik, 1980, s. 23
3. Nəsir Rzayev.Əcdadların izi ilə. Bakı, Azərnəşr, 1992, s. 82
4. Seyidov M. Azərbaycan xalqının soy kökünü düşünərkən.Bakı, 1989, s.368

5. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı, Sabah nəşriyyatı, 1994, s. 66
6. Kadirzade Kadir. Naxçıvanda eski türk inamları (Atla bağlı inamlarımız və soy elakalarımız). V MTHKK Gelenek, Görenek İnamlar Seksion bildirileri. Ankara, 1997, s. 248

TÜRKAN QƏDİRZADƏ
AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya Insititutu

TÜRKƏÇARƏ MÜALİCƏ ÜSULU

Qədim tarixə malik olan xalq təbabəti elmi təbabətdən min illər əvvəl yaranmışdır. Əldə olan mənbələrə əsaslanaraq demək olar ki, xalq müalicə üsulunda türkəçarənin müxtəlif sahələri geniş yayılmışdır. Bunların bir qismi öz əksini ayrı-ayrı ədəbiyyatlarda tapmışdır. Tədqiqatlar göstərir ki, keçmişdə xəstəliklərin müalicəsində daha çox bitki mənşəli dərmanlara, uzunmüddətli təcrübəyə əsaslanan üsullara geniş yer verilmişdir. Zaman keçdikcə bitkilərlə bərabər heyvanat aləminin və mineralların xüsusiyyətlərini dərindən öyrənən əcdadlarımız öz müalicə üsullarında onlardan da istifadə etmişlər. Beləliklə müalicədə bitki, heyvan və mineral mənşəli maddələr (dərmanlar) geniş yer tutmuşdur. (Məs: Üzərlik, kirpi əti, zəy və s.) Topladığımız materiallar göstərir ki, Naxçıvanda mineral bulaqlardan (xalq arasında şor su, qotur suyu və. s) müalicə məqsədi ilə istifadə xalq arasında geniş yayılmışdır. Xalqın inamına görə bu sular xəstəliklərdən qorunmaq, onları sovuşdurmaq xüsusiyyətinə malikdir. Həmin bulaqların bəziləri müqəddəs hesab edilir. Əgər hər hansı xəstə bu bulağın suyu ilə çimizdirilsə dərdləri sovuşarmış. Naxçıvanda xalq arasında olan inama görə mineral bulaqların suyu ilin əsasən isti vaxtlarında- yazda, yayda daha şəfaverici olur.[1]

Bir sıra xəstəliklər bəd nəzərlə əlaqələndirilir. Nəzərdən qorunmaq üçün müxtəlif vasitələrdən istifadə olunur. Üzərlik yandırma adətinin izləri qədim tarixə malikdir. İnama görə üzərliyi odda yandırıb tüstüsü xəstəyə verildikdə onun baş ağrıları götürülür. Nizami «İsgəndərnamə» əsərində yazır.

Üzərlik yaxarlar göz dəyən üçün,
Od yaxıb yandırar dərdi büsbütün.

Üzərliyin kökünü döydükdən sonra sıxıb suyunu çıxarır və arpa unu ilə qarışdırırdılar. Həmin qarışığı bir neçə gün qotura sürtməklə xəstəliyi müalicə etmək mümkündür. Üzərlik maqik xüsusiyyətlərə də malikdir.

Üzərlik ağ üzərlik
Üzərlik göy üzərlik,
Müzkül işim düşübdür
Xətasın sov üzərlik.

Xalq təbabətinə dərindən bələd olan türkəçarəçilər- el həkimləri bir çox halda qarışıq tərkibli dərmanlar hazırlamış, onları sınaqdan keçirərək şəfaverici məlhəmlər düzəltmişlər. Zaman- zaman onlar bir sıra daxili xəstəlikləri də bitkilərdən, meyvələrdən alınan cövhərlər və şirələrlə müalicə etməyin sirlərini öyrənmişlər. Tədricən sadə tərkibli dərmanlar daha mürəkkəb təsirli müalicə vasitəsinə çevrilmişdir. Xalqın arasında yetişən bilicilər- türkəçarəçilər ara həkim-ləri kimi əhaliyə xidmət göstərmişlər. Naxçıvanda da türkəçarə müalicə üsuluna böyük inam vardır. Adından da göründüyü kimi, bu müalicə üsulu əsasən qədim türklərlə bağlıdır. Sözün kökündə olan çarə, əlac, dərdədəva, dərdləri sovuşdurmaq mənasında işlədilir. Türkəçarə müalicəni 2 yerə bölmək olar. 1. Ümumi camaatın məşğul olduğu müalicə üsulu, ailə müalicəsi. 2. Xüsusi adamların

məşğul olduğu müalicə üsulu. Bu daha çox peşəkarlıq və müəyyən təcrübə tələb edirdi. Müalicənin ümumi üsullarını bilməyənlər (gənc nəsl) yaşlılardan soruşaraq öyrənir, beləcə müalicə üsulu nəsldən- nəslə ötürülərək yaşadılırdı. Lakin ayrı- ayrı sahələr üzrə müalicə aparmaq nəsli xarakter daşıyırdı. Yəni müalicə üsulu sir kimi qorunub saxlanır, atadan- oğula, anadan- qıza öyrədilirdi. Peşəkar ara həkimliyi də bir neçə yerə ayrılır: 1. Mama, türkü mama. Bunlar güclü təcrübəyə malik olan sonsuzluğu, qadın və uşaq xəstəliklərini müalicə edən, doğuma köməklik göstərən qadınlar idi. Mamalar da peşəkarlığına görə 2 yerə ayrılırdı:

1. Doğuma köməklik göstərən və müəyyən yüngül xəstəlikləri müalicə edənlər.

2. Müalicə ilə məşğul olanlar, xüsusi dərmanlar hazırlamağı bacaranlar. 2.Çöpçülük, daha çox kiçik uşaqların burnunda qalan müxtəlif qida qalıntılarının, yad cismlərin üfürülərək çıxarılması. 3. Sınıqçılıq, müxtəlif formalı sınıqları, çıxıq və əzikləri müalicə edənlər.

4. Dəlləklik- Cərrahlıq, arxeoloji materiallara və yazılı məlumatlara əsaslanaraq demək olar ki, cərrahlıq çox qədim tarixə malikdir. Xalq arasında ümumi adla- dəllək, tanınan belə adamlar yüngül əməliyyatlar aparmış, yaraları müalicə etmişlər. Bəzən belə düşünülür ki, dəlləklik ancaq kişi sənəti olmuşdur. Lakin müalicə mənasında dəlləklik yəni cərrahlıq qadınlara da aiddir. Məs: «Dəllək Fatma, dəllək Lala və s.» Xalq arasında dəllək ifadəsi çoxbilmiş mənasında da işlədilir. Xalq müalicəsi böyük təcrübəyə əsaslanırdı. İndi də biri xəstələnəndə yaşlılara müraciət edərək deyirlər: «Siz dünya görmüş adamsınız, bilərsiniz». Bu müalicə üsulunun yaranması insan xəstəliklərinin meydana çıxması ilə bağlı olmuşdur. İnsan xəstələndikdə ona çarə axtarılmağa başlanmış bəzən təsadüf, bəzən isə uzunmüddətli təcrübələr nəticəsində bitkinin çiçəklərinin, yarpaqlarının, toxumlarının, meyvələrinin müalicəvi xüsusiyyətlərini tapmışlar. İlin isti fəslində (yayda, yazda) bu bitkilər toplanır, qurudulur sonra isə

istifadə edilirdi. Əgər bitki vaxtında toplanmasa, onun tərkibi dəyişir və təsiri azalırdı. Bitkilərin saxlanması qaydasını da bilmək çox vacibdir.

Dərman bitkilərindən istifadə etmənin müxtəlif üsulları vardır. Məs: dəmləmə, yaranın və ya ağrıyan yerin üstünə bağlama, dağlama, təpitmə, müəyyən qarışığın hazırlanıb yaraya sürtülməsi, qoturda və səpmədə dərman bitkilərindən hazırlanan su ilə xəstənin çimizdirilməsi və s. Hər bir insan qəbul etdiyi qidanın fayda və zərərlərini bilməlidir. Təbii vasitələlərlə müalicə aparılarkən xəstəliyin əlamətləri dəqiq müəyyən edilir, sonra ona uyğun dərman hazırlanırdı. Müalicə həkim tərəfindən və ya onun məsləhəti və nəzarəti altında aparılırdı. Belə olduqda müalicənin nəticəsi daha səmərəli olurdu. Dərmanın hazırlanması üçün lazım olan bitkiləri onu tanıyan, bilən adam toplayır və xüsusi yerlərdə saxlayırdı. Bu müalicə vasitəsi ilə bir sıra xəstəliklərdən qurtarmaq mümkündür. Dərman bitkilərindən hansının faydalı olub olmamasını müəyyən ləşdirmək o qədər də asan olmamışdır. Bu proses uzun zaman davam etmiş, əldə edilmiş təcrübə xalq yaddaşında günümüzədək qorunub saxlanmışdır. Hər şeydən öncə bitkinin təsir vasitəsi öyrənilirdi. Bitki vardı kökü, çiçəyi, yarpaqları ayrı- ayrılıqda işlədilirdi. Bir deyimə diqqət yetirək: «Öldürgənə dəymək qandır, külü qotura dərmandır». Bu ifadə türkəçarəçilərin bitkilərə ümumiyyətlə, istafadə etdikləri dərmana nə dərəcədə dərindən bələd olduqlarını göstərir. Xalq təbabəti sayəsindəki təcrübəyə əsaslanaraq hər hansı bir xəstəlikdə nədən və necə istifadə etməyi öyrənmək olar.

Xalq təbabətində ana südünün bir sıra xəstəliklərə dərman olduğu göstərilir. «Kitabi Dədə Qorqud» dastanında Dirsə xan oğlu Buğac bəy boyunda ana südünün məlhəm olduğu qeyd edilmişdir. Buğac yaralandıqda boz atlı Xızır (ə.s) onun yarasını üç kərə sığallayıb: «Sana bu yaradan, qorxma, oğlan, ölüm yoxdur. Tağ çiçəgi anan südüilə sənin yarana məlhəmdir»[2] dedi. Buradan ana südü ilə Buğacın yarasının sağaldığı, həm də ana südünün bəzi

xəstəliklərdə dərman kimi istifadə edildiyi aydın olur. Ana südündən qulaq, göz ağrılarında da geniş şəkildə istifadə olunur. Ana südü yeni doğulan uşaqlar üçün də çox vacib qidadır. «Qurani- Kərim»də buyurulur:... Uşaqlarınızı iki yaşına qədər ana südü ilə böyüdün [3].

Yuxarıdakılara yekun vuraraq demək olar ki, türkəçarə müalicə üsulu etnosun soyadı ilə bağlı olmaqla çox qədim tarixə malikdir. Türkəçarə müalicəsi ilə bağlı başlıca vəzifələrdən biri onun təcili toplanıb sistemləşdirilməsi və elmi təbabətdə istifadə edilməsidir. Unutmaq olmaz ki, həmin müalicə üsulunun bilicilərinin sayı gündən- günə azalmaqdadır.

Ədəbiyyat

1. H.Q.Qədirzadə: Ailə və məişətlə bağlı adətlər inamlar, etnogenetik əlaqələr Bakı, Elm, 2003, s. 262
2. Kitabi- Dədə Qorqud Bakı, Yazıçı, 1988, s.39
3. Qurani- Kərim. Bəqərə surəsi, ayə 233
4. Erzurumlu İbrahim Hakkı Marifetname İstanbul, 1997

ARİF ƏSƏDOV
AMEA Naxçıvan Bölməsi Tarix,
Etnoqrafiya və Arxeologiya İnstitutu

NAXÇIVAN MR ƏRAZİSİNDƏKİ MADDİ-MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN ÖYRƏNİLMƏSİ TARİXİNDƏN

Muxtar Respublikanın əlverişli coğrafi mövqeyi, burda olan təbii mağaralar, zəngin bitgi örtüyü, su ehtiyatları ilk insanların məskunlaşmasına şərait yaratmışdır. Arxeoloji qazıntılar zamanı maddi-mədəniyyət abidələrindən tapılan zəngin materiallar ulu əcdadlarımızın Paleolit dövründən bu ərazidə yaşadığını sübut edir (1, s. 6).

XVII-XIX əsrlərdə Naxçıvanda olan xarici səyyahlar bu ərazidə tarixi abidələrin olduğunu xatırlamışlar. Qədim

diyarın maddi-mədəniyyət nümunələrinə maraq Naxçıvan xanlığının Rusiya imperiyası tərəfindən işğalından sonra daha da artmışdır. Arxeoloji qazıntılar, elmi ekspedisiya adı altında aparılan işlərin əsl mahiyyəti təbii sərvətlərimizi qarət edən çar siyasətinin davamı idi. Bununla belə bölgədə olan çar məmurları Naxçıvan abidələri haqqında müəyyən məlumatlar da vermişlər. Şərqşünas alim, etnoqraf və diplomat N.V.Xanıkov 1847-49-cu illərdə Qafqazda diplomatik vəzifədə işlədiyi dövrdə qraf Vorontsovun göstərişi ilə Naxçıvan ərazisində olan maddi-mədəniyyət abidələri haqqında məlumat vermişdir. (1,s.7)

1870-ci ildə K. A. Nikitin Naxçıvan duz mədənlərində tədqiqat apararkən qədim silah və əmək alətləri aşkar etmişdir (1, s. 8). Bundan qısa müddət sonra 1879-cu ildə İ. S. Rolyakov yenidən duz mədənlərində tədqiqat aparmış, 13 ədəd daş çəkic əldə etmişdir (2, s. 10).

1896-cı ildə N.V.Fyodorov Qızılburun bölgəsində qazıntı işləri aparmışdır. O, əldə etdiyi zəngin materialları Moskva Dövlət Tarix Muzeyinə göndərmişdir (3, s. 69). N. V. Fyodorov qazıntılar zamanı əldə etdiyi yastı tiyəli tunc xəncərlər, Ön Asiya tipli xəncər, daş toppuz, obsedian ox ucluqları, eynəkşəkilli tunc asma tipli bəzək əşyaları da aparmışdır (2, s. 11).

1926-cı ildə akademik İ.İ.Meşşaninov Qızılburun yaşayış yerində 7 daş qutu qəbir, A.A.Miller isə iki qəbir tədqiq etmişdir. Bu qazıntılar zamanı əldə olunan materialların bir hissəsi Azərbaycan Dövlət Tarix Muzeyinə, digər hissəsi isə Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir (3, s. 69-70).

30-cu illərdə Ə.Ələkbərov Şortəpə, Şahtaxtı, Oğlanqala və Nəhəcirdə tunc dövrü abidələrini aşkar edərək Naxçıvan mədəniyyətinə aid xeyli material toplamışdır (4, s. 7).

II Dünya müharibəsindən sonra Naxçıvanın maddi-mədəniyyətinin öyrənilməsinə diqqət bir qədər də artmışdır. 1951-64-cü illər arasında O. H.Həbubullayevin Kültəpə yaşayış yerində uzun müddətli arxeoloji qazıntıları Azərbaycan tarixinə bir sıra yeniliklər gətirmişdir.

V.H.Əliyevin 1968-76-cı illərdə II Kültəpədə apardığı arxeolcji qazıntılar nəticəsində III minilliyin sonu və II minilliyin əvvəllində Naxçıvan ərazisində ilkin şəhərlərin formalaşdığı müəyyənləşdirilmişdir.

1965-ci ildə geoloqlar tərəfindən üzə çıxarılan Gəmiqaya abidələri arxeoloqlar tərəfindən tədqiq edilmiş, ümummilli liderimiz H.Əliyevin sərəncam və göstərişlərindən sonra bu abidə daha geniş şəkildə öyrənilmişdir. Abidə ilə bağlı xeyli məqalə və monoqrafiyalar yazılaraq çap edilmişdir.

Araz SES-in tikintisi ilə əlaqədar olaraq 1968-ci ildə Araz arxeoloji ekspedisiyası yaradılmış, R.B.Göyüşovun rəhbərliyi ilə 1968-70 illərdə su altında qalmaq təhlükəsi olan Muncuqtəpə, Xarabaşəhər, Astabad, Abbasabad yaşayış yerlərində arxeoloji tədqiqatlar aparmışlar. Qazıntı zamanı orta əsrlərə aid xeyli maddi-mədəniyyət nümunəsi aşkar edilmişdir (5, s. 12).

1979-cu ildən başlayaraq Xarabagilan ərazisində arxeoloji qazıntılar genişləndirilmişdir. Q. M. Aslanov, B. İ. İbrahimov, S. M. Qaşqay tərəfindən qədim və orta əsrlər dövrünə aid bir sıra yaşayış yerləri tədqiq edilmiş, zəngin maddi- mədəniyyət nümunələri əldə olunmuşdur.

V. B. Baxşəliyevin 1988 - 1994 - cü illərdə apardığı tədqiqatlar nəticəsində Muxtar Respublikasının arxeoloji abidələri toplu halında hazırlanaraq çap edilmişdir.

Ə.K.Ələkbərov, O.H.Həbubullayev, V.H.Əliyev, H.İ. Qədirzadə, M. M. Hüseynov, Q.M.Aslanov, S.M.Qaşqay, B.İ.İbrahimov, M.M.Seyidov, Q.H.Ağayev, V. B. Baxşəliyev, N. Əliyev, A.Q.Seyidov, S.H.Aşurov, N.Ə.Müseyibli, Ə.H.Bədəlov, Ə. İ. Novruzlu, Ə. Q.Cəfərov və digərlərinin apardığı tədqiqatlar zamanı Naxçıvanın qədim mədəniyyətinin öyrənilməsi üçün mühüm əhəmiyyətli olan maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur.

Tədqiqatlar zamanı aşkar olunan I Maxta Kültəpəsi, Aşağı Daşarx yaşayış yeri, Kolanı, Sarıdərə, Bayəhməd, Qarabulaq nekropolları tariximizin öyrənilməsi üçün xüsusilə əhəmiyyətlidir. Naxçıvan ərazisində aşkar edilib, tədqiq edilən abidələr qədim Şərq və Cənubi Qafqazda arxeoloji mədəniyyətin formalaşması və dövrləşməsilə bağlı dəyərli dəlillər vermişdir.

Ümummilli liderimiz H.Əliyev Naxçıvanın hər daşının, hər qayasının tarixin canlı səhifəsi olduğunu qeyd etmişdir. Məhz onun bu qədim diyarın tarixinə göstərdiyi qayğı sayəsində ümümdünya arxeologiyasında mühüm yeri

olan Naxçıvan abidələrinin də tədqiqi genişlənmiş, elmi tədqiqat işləri sürətlənmişdir.

Ədəbiyyat

1. Göyuşov R. B. Azərbaycan arxeologiyası. Bakı, 1986
2. Абибуллаев О. А. Энолит и бронза на территории Нахичеванской АССР Баку, 1982
3. Seyidov A. Q., Baxşəliyev V. B., Novruzlu Ə. İ., Babayev V.M. Naxçıvanın və Babək bölgəsinin arxeoloji abidələri. Bakı, 1995
4. Алиев В. Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991
5. Baxşəliyev V. B. ,Seyidov A. Q. Naxçıvanın qədim tarixi. Bakı, 1995

ZAKİR RZAYEV
AMEA Naxçıvan Bölməsi Tarix,
Etnoqrafiya və Arxeologiya İnstitutu

NƏHƏCİRİN ORTA TUNC DÖVRÜ KERAMİKASI

Eramızdan əvvəl 7-6 minilliklərdə meydana çıxan dulusçuluq ən qədim sənət sahələrindən biri hesab edilir. Neolit dövründə məişət əşyalarının istehsalı zamanı insan öz fəaliyyətinin estetik tərəflərini düşünmüş, eneolit dövründə isə incəsənətin inkşafında mühüm irəliləyiş olmuşdur. Eneolit dövründə keramika istehsalına tələbatın artması dulus kürələrinin təkmilləşməsinə şərait yaratmışdır.

Sənətkarlığın əsas sahələrindən olan keramika istehsalında sənətkarların insan zövqünü ritmik elementlərdən olan ornamentlərlə ifadə etməyə cəhd göstərməsi dulusçuluq və tətbiqi sənəti bir-birinə yaxınlaşdırmışdır.

Arxeoloji araşdırmalar zamanı hər dövrün ornamentlərində özünəməxsus stil və forma müxtəlifliyi müəyyən olunmuşdur. Qədim dövrlərdə insanın yaşam tərzində hakim mövqeyə çevrilən amillər keramika

məmulatları üzərindəki ornamentlərədə öz təsirini göstərmişdir.

Qədim tayfalar arasında müxtəlif inanc növlərinin yayılması ilə şamanizm və cadugərlikdən tutmuş monoteist dinlərə kimi müxtəlif inanclar ornamentlərdə öz əksini tapmışdır. Ornamentasiyada nöqtələr, spiralşəkilli təsvirlər, çevrə, çoxbucaqlı, romb kimi həndəsi fiqurlarla yanaşı müxtəlif fantastik və gerçək heyvana bənzər təsvirlərdən də istifadə olunmuşdur.

Qeyd edək ki, qədim insanların keramika məmulatı üzərində təsvir etdiyi ornamentlər zaman keçdikcə, nəinki öz mənasını itirməmiş, dekorativ və arxitektonik əhəmiyyətini də qoruyub saxlamışdır. Paleolit dövründən başlayaraq Son Tunc dövrünə qədər ornamentlərin müxtəlifliyi və çəkilmə texnikası sənətkarların ustalığını, onların hansı faktorla əlaqədar olduğunu anlamağa imkan verir. İnsanların estetik zövqünün inkşafi tunc dövründə özünü daha qabarıq şəkildə göstərmiş, təsərüffat və mədəniyyətinin müxtəlif sahələrində təzahür etmişdir.

Orta tunc dövrnün keramika məmulatlarında ornamental motivlər üstünlük təşkil edir. Bu dövrün əsas sənətkarlıq sahələrindən hesab olunan dulusçuluq məmulatın hazırlanması, onların üzərlərindəki naxışların oxşar və fərqli cəhətləri tədqiqatçılar tərəfindən öyrənilmişdir(1, s.71-84).

Bu baxımdan Culfa rayon mərkəzindən 54 km şimal-qərbdə Nəhəcir kəndi ərazisində yerləşən Orta Tunc dövrü Nəhəcir yaşayış yerində araşdırmalar zamanı əldə olunmuş keramika məmulatlarındakı ornamentlərin üslub və forma müxtəlifliyi diqqət çəkir.

Qədim Nəhəcir yaşayış yerində dulusçuluğun meydana gəlməsinə və inkşafını aşağıdakı faktlar təsdiq edir.

1.Dulusçuluğun inkşafı üçün yerli areallarda lazımi qədər gil və keramika istehsalında istifadə edilən süxur və mineralların olması, ərazinin coğrafi-geoloji mövqeyi.

2.Dulus çarxları və kürələrin olmasını təsdiqləyən faktlar.

3.Dulus kürələrində istifadə olunan yanacaq ehtiyatları və energi mənbələri.

4.Etnoqrafik və toponomik materiallarından əldə olunan nəticələr.

Nəhəcir ərazisində tapılmış boz və narıncı rəngli saxsı parçalarını analiz etməklə belə nəticəyə gəlinmişdir ki, bu ərazidə keramika məmulatlarının istehsalı üçün yetərincə xammal vardır. Nəhəcirin yerləşdiyi ərazidə bütün geoloji dövrlərin çöküntülərinə rast gəlinir. Ərazinin torpaqlarında kalsit birləşmələri, vulkanik-maqmatik süxurların çoxluğu bu fikirləri bir daha təsdiq edir.

Qazıntılar zamanı Nəhəcir ərazisində tapılmış boyalı və boyasız keramika nümunələri hazırlanma texnologiyasına görə 2 qrupa ayrıla bilər. Birinci qrupdakılar əldə, ikinci qrupdakılar dulus çarxında hazırlanmışdır. Bu qabların əksər hissəsində mineral və süxurların parçalanmaz qalması onların aşağı və orta tempraturda bişirildiyini göstərir. Araşdırmalar Nəhəcirdən aşkar edilmiş dulusçuluq məmulatlarının yerli sənətkarlar tərəfindən hazırlandığını göstərir. Kimyəvi analizlərin nəticələri də bu fikri təsdiqləyir.

Nəhəcirdə tapılan, dulus çarxlarında hazırlanan qablar əldə düzəldilmiş qablardan hazırlanma texnologiyası və orjinallığı ilə fərqlənir. Dulus çarxından istifadə sənətkarlara daha keyfiyyətli məhsul hazırlamağa imkan vermişdir. Hələlik Nəhəcir ərazisindən dulus kürələri tapılmasa da, onun varlığını təsdiqləyən faktlar vardır. İçəri tərəfdən hisli narıncı keramika nümunələri sübut edir ki, bu qablar açıq kürələrdə bişirilmişdir.

Açıq kürələrin işlədilməsi 1 və 2 yaruslu qapalı kürələrdən fərqli olaraq çox çətindir. Beləki qapalı kürələrə keramika məmulatı yığıldıqdan sonra ağzı bağlanmış, odluğa qoyulmuş yanacaq kürədə tempraturun yüksəlməsinə səbəb olmuşdur. Açıq kürələrdə isə kürənin açıq hissəsi tempraturun qalxmasını və sabit qalmasını əngəlləyir. Deməli, belə kürələrdə tempraturun saxlanmasında istifadə olunan yanacaq mühüm rol oynayırdı. Naxçıvan ərazisində

meşə sahəsi az olduğundan ehtimal ki, qədim insanlar süni meşəliklər salmış, ondan yanacaq kimi istifadə etmişlər. Çünki qədim tayfalar ağac kömürünün əvəzedilməz enerji mənbəyi olduğunu gözəl dərk edirdilər.

Fikrimizə görə dulus kürələrində tempratur ağac kömürü vasitəsilə tənzim edilmişdir. Ağac kömürünün Naxçıvan MR ərazisində hələ Erkən tunc dövründən istehsalı arxeologi materiallardan məlumdur. O.Həbubullayevin I Kültəpədə apardığı arxeologi qazıntılar zamanı 8,5 metr dərinlikdən ağac kömürünün qalıqlarına rastlamışdır (6, s. 191).

Ağac kömürünün yüksək adsorbsiya xassəsi vardır. O, adi temperaturda havanın oksigeni ilə birləşə bildiyindən bəzən öz-özünə alışaraq yanır. Bu kömürdə zəhərli qarışıqlar fosfor(P)və kükürd(S) az olduğundan onların məişətdə işlədilən qablara çökə bilmə ehtimalı da zəifdir. Şam və küknardan alınan kömürün yanma istiliyi 1kq-da 7000- 8100 kilokaloridir. Dağdıq ərazilərdə bitən oduncağı bərk ağac növlərində isə bu istilik daha çox olur.

Əldə olunmuş etnoqrafik materiallara əsasən yerli əhali öz ulu babalarının dulusçuluqla məşğul olduğunu qeyd edirlər.Toponomik materiallara əsasən dulusçuluqla bağlı yer adları da toplanmışdır(2, s. 78).

Dulusçuluğun inkşaf etdiyi tunc dövründə Naxçıvanda 15-dən artıq çeşiddə qab nümunəsi istehsal edildiyi halda Nəhəcirdə yalnız 4-5 çeşid keramika nümunəsinə rast gəlinmişdir.

Nəhəcir kurqanında tapılmış küpələrin biri basma naxışlıdır.Küpənin ornamenti təkrarolunmazlığı ilə fərqlənir. Ornamentlər bütöv olsada 2 hissəlidir.Birinci hissədə qabın boğazına paralel xətlərin arasında çarpaz yerləşdirilmiş qırıq-qırıq xətlər çəkilmiş, ikinci isə qabın bütün diametri boyunca ona çarpaz olan təbərzini xatırladan yuxarıdakı paralel xətlərə birləşən naxışlar həkk olunmuşdur(1, s.79).

Bu ornamentin bütün cizgiləri simmetrik olduğundan onun xüsusi alətlə möhür kimi basıldığını qeyd etmək olar.

Güman varki, Nəhəcir ərazisində də təbərzin tipli alətlərdən istifadə olunmuşdur. Təbərzin tipli silahlara bütün Zaqafqaziya ərazisində çox rast gəlindiyindən arxeoloji ədəbiyyatda «Zaqafqaziya təbərzini» terminin yaranmasına səbəb olmuşdur. Bu tipdə naxışlanmış qablara II Kültəpə yaşayış yerində də rast gəlinib(3, s. 98).

Basma naxışlı qablara təkcə Naxçıvan ərazisində deyil(4, s. 85), Qarabağ zonası abidələrində də(5, s. 97) təsadüf olunmuşdur.

Basma üsulla naxışlanmış qablara Zaqafqaziyanın digər ərazisində də rast gəlinmişdir. Bu tip qablar Trialeti mədəniyyətinin yayıldığı ərazidərdə də aşkar olunmuşdur (8, s. 10).

Nəhəcir Orta Tunc dövrünün keramikasının əsas ornament xüsusiyyətlərindən biri də qabarıq və batıq zolaqlardan ibarət naxışlardır. Müxtəlif formalı qabların bu tip ornamentlərlə naxışlanması onların estetik gözəlliyini daha da artırmışdır.

Nəhəcir ərazisində sınıq dalğalı xətlərlə naxışlanmış keramika məlumatları daha çoxdur. O.Həbibullayev bu xətləri axar suyun simvolu kimi göstərmişdir(6, s. 272). Suyun əkinçi --maldar tayfaların həyatında mühüm rol oynadığını nəzərə alaraq bunun qənaətbəxş fikir olduğunu söyləmək olar.

Nəhəcir nekroplundakı çəhrayı rəngli qabların birinin üzəri qəhvəyi rəngli dalğalı və düz xətlərlə naxışlanmışdır. Boya ilə örtülmədən birbaşa qabın narıncı səthinə çəkilmiş ornament boyalı qabların ən qədim nümunəsi hesab edilir (2, s. 94).

Nəhəcir Orta Tunc dövrü boyalı keramikasının bənzərləri Muxtar Respublikasında Yaycı (7, s. 98), Şahtaxtı (9, s. 46) Sarıdərə və digər yaşayış məskənlərində də rast gəlinmişdir.

Nəhəcir keramikasındakı forma oxşarlığı ilə yanaşı ornament eyniyyəti Naxçıvan Muxtar Respublikasının digər yaşayış yerləri ilə iqtisadi və mədəni bağlılığın olduğunu göstərir. Nəhəcir keramikasında Naxçıvan boyalı qablarının

ilkin mərhələsi üçün xarakterik olan bütün xüsusiyyətlər vardır(1, s. 108).

Nəhəcirdən aşkar olunmuş, Naxçıvanın digər yaşayış yerlərində də geniş yayılmış monoxrom boyalı qabların müxtəlif istehsal mərhələlərindən keçdiyi tədqiqatçıdar tərəfindən müəyyən edilmiş, monoxrom boyalı qabların Naxçıvandan Cənubi Qafqazın digər regionlarına yayıldığı qeyd edilmişdir(1,s. 4). Nəhəcir monoxrom boyalı qablarının Naxçıvanın digər yaşayış yerlərində də aşkar edilmiş qablarla bənzərliyi Nəhəcir dulusçuluq mərkəzinin Naxçıvan boyalı qablarının əsas istehsal ocaqlarından biri və bu ərazidə yayılan boyalı qablar mədəniyyətinin tərkib hissəsi olduğunu təsdiq edir.

Ədəbiyyat

1. Baxşəliyev V.B. Naxçıvanın qədim xalqlarının mənəvi mədəniyyəti. Bakı, Elm 2004
2. Seyidov A.Q., Baxşəliyev V.B. Nəhəcirdə arxeologi araşdırmalar. Bakı, 2002
3. Сеидов А.Г. Памятники Куро-Аракской культуры Нахичевани. Баку, 1993
4. Baxşəliyev V.B. Erkən dəmir dövrü mədəniyyəti. Bakı, 2002
5. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991
6. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, 1982
7. Belli O., Baxşeliyev V. Nahçıvan bölgesinde orta ve son tunc çağı çanak- çömlek kültürü. İstambul, 2001
8. Кушнарева К.Х.. Южный Кафказ в ЫХ-ХЫЫ тыс.л.до. н.э.. Санкт- Петербург, 1993
9. Ağayev Q.H. Şahtaxtı son tunc və dəmir dövründə. Bakı, 2002

FİZULİ İBRAHİMZADƏ
Naxçıvan Özəl Universiteti

BEHBUD ŞAXTAXTİNSKİNİN PUBLİSİSTİK FƏALİYYƏTİ

XX əsrin əvvəllərində Azərbaycan xalqının tarixi taleyində mühüm rol oynamış şəxsiyyətlərdən biri də Azərbaycan Respublikası Xalq Ədliyyə Komissarı və Xalq Komissarları Soveti sədrinin müavini vəzifəsinədək yüksələn, Naxçıvan SSR Fövqəladə Komissarı və Xalq Komissarları Sovetinin Sədri kimi vəzifələrdə işləyən, Moskva (1921, mart) müqaviləsində Azərbaycanı təmsil edən və Qars (1921, oktyabr) müqaviləsini imzalayan Behbud Şaxtaxtinskidir.[1]

Behbud Şaxtaxtinski görkəmli dövlət xadimi və diplomat olmaqla bərabər jurnalistlik fəaliyyəti ilə də məşğul olmuş, bir müddət "Balaban" (1907) jurnalına redaktorluq etmiş[2] və müxtəlif mövzularda yazdığı publisist məqalələri ilə dövrün mətbu orqanları olan "Zakavkazye", "Nicat", "Azərbaycan", "Kommunist" və s. qəzetlərində çıxış edərək, dövlətin, millətin və xalqın taleyi məsələləri ilə bağlı öz maraqlı mülahizələrini bildirmişdir.

Məlumdur ki, XX əsrin əvvəllərində "Sakartvello" (Gürcüstan) adlanan gürcü inqilabçı-federalist-sosialistlər partiyasının orqanı kimi nəşr olunan "Zakavkazye" (1906-1914) qəzeti o dövrdə ümumən Zaqafqaziyada nəşr olunan rusdilli mətbuat orqanları sırasında ən mütərəqqi yol tutan qəzet olmuşdur. Xüsusilə, Azərbaycanın ictimai-siyasi və ədəbi –mədəni fikrini "Zakavkazye" qəzeti qədər demokratik mövqedən ardıcıl şəkildə təbliğ edən ikinci bir rusdilli mətbuat orqanının adını çəkmək çətindir.[3] "Zakafkazye" qəzetinin Azərbaycan həyatı ilə əlaqədar məfkurəvi istiqamətini düzgün müəyyənləşdirmək üçün özünün siyasi və publisist məqalələri ilə bütün Zaqafqaziyada böyük şöhrət qazanmış Behbud Şaxtaxtinskinin həmin qəzetdəki

fəaliyyətinə nəzər salmaq zəruridir. Çünki, onun siyasi-publisist məqalələri Şərq xalqlarının azadlıq mübarizəsi ilə müəyyən qədər səsləşir. Yaxın Şərqdə inqilabi-azadlıq fikir və ideyalarının müdafiəçisi olan B.Şaxtaxtinski siyasi-publisist fəaliyyətində olduğu kimi, inqilabı fəaliyyətində də həmin ideyalara sadiq qalmışdır. Onun "Yaxın Şərqdə baş verən hadisələrin vəziyyətinə dair"[4] adlı məqaləsində də bu məsələ realistcəsinə işıqlandırılmışdır.

Behbud Şaxtaxtinski publisist yazılarında rus burjua şovinistlərini də kəskin tənqid atəşinə tutmuş, Azərbaycan də daxil olmaqla bütün müsəlman Şərqinə qarşı yönəlmiş iftira və böhtanları ifşa edərək özünün "Poxod protiv musulman"[5] məqaləsində çarizmin lokeylərinə şovinistlərə tövsiyə edirdi ki, ruslaşdırma siyasətinin təbliğinə deyil, böyük rus xalqı ilə dünya xalqlarının, o cümlədən müsəlman Şərqi xalqlarının əbədi dostluğuna çalışmaq lazımdır. Ümumiyyətlə, B.Şaxtaxtinskinin bu səpgidə yazılmış siyasi publisist məqalələri "Zakavkazye" qəzetinin məfkurəvi istiqamətinə daha çox uyğun olub, böyük təsirə malik idi.

B.Şaxtaxtinskinin "Müsəlman Maarifçilik Cəmsiyyəti"nin İ.B.Aşurbəyovun redaktorluğu ilə nəşr etdirdiyi "Nicat" qəzetinin 1910-1911-ci il tarixli saylarındakı məqalələri həmin dövrün ictimai-siyasi mühitinin öyrənilməsi üçün daha çox əhəmiyyətlidir. Xüsusilə, onun "Gənc türklərin siyasətinə dair"[6], "Qan intiqamı"[7], "Panislamizm"[8] kimi məqalələrindən aydın olur ki, XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi şərait mühüm proseslər və hadisələrlə zəngin olmuş, burada bir sıra cərəyan və hərəkatların yaranması gərgin ideya məfkurə mübarizəsi dövrünü yaşamış, çoxlu ziddiyyətlər və problemlər baş vermişdir.

B.Şaxtaxtinski "Azərbaycan" (rus dilində) qəzetində çap etdirdiyi "Otkliki cizni"[9] məqaləsində təhsil, elm və mədəniyyətin millətin və xalqın ən çətin dövrlərində nə qədər vacib olduğunu qeyd edərək yazmışdır ki, "müharibə sübut etdi ki, (birinci dünya müharibəsi nəzərdə tutulur) xalqların mübarizəsində qələbə o xalqa məxsusdur ki, daha yüksək

mədəniyyətə, sivilizasiyaya və elmi qüvvələrə malikdir və bunlar bir xalqın başqa xalqlara qarşı nəinki qələbə rəhnidir və eləcə də bu xalqın həqiqi xoşbəxtlik rəmzidir".

B.Şaxtaxtinski həmin məqalənin sonunda yazır: "Özünəməxsus mədəniyyəti olmayan millət müstəqil ola bilməz".

B.Şaxtaxtinskinin mahir diplomat olması həmin dövrdə Rusiyanın Şərqdə yeritdiyi siyasətin mahiyyəti ilə bərabər, Şərqin ümumi vəziyyəti və gələcəyi haqqında da ona mülahizə və fikir yürütməyə imkan vermişdir. Bu mənada onun "Kommunist" (rus dilində) qəzetində çap olunan "Sovetskaə politika na Vostoke"[10] və "K momentu"[11] məqalələri təqdirəlayiqdir. Hər iki məqalədə B.Şaxtaxtinski belə nəticəyə gəlmişdir ki, "Şərqdə milli inqilaba əhəmiyyət verməmək hücum edən düşmənin əlinə öz silahını təhvil verməyə bərabərdir. Şərqin milli inqilabı demokratik inqilabla sıx bağlıdır. Xaricilər tərəfindən zorakılıq və istismarçılıq ləğv ediləndən sonra, orada iti sürətlə yaranan demokratik çevrilişin qaçılmazlığı gələcəkdə şərq gerçəkliyi çərçivəsində siyasi işin aparılmasına imkan verəcəkdir".

Şərqdə tarixi hadisələrin sonrakı gedişi B.Şaxtaxtinskinin nə qədər uzaqgörən siyasətçi olduğunu sübut etdi.

Məqalələrdən aydın olur ki, B.Şaxtaxtinskinin publisistik fəaliyyəti geniş olub və bu məqalələr daha çox həmin dövrün siyasi problemlərinin təhlilinə və çıxış yollarına yönəldilmişdi. Belə şəxsiyyətlərin dövlət, millət və xalq qarşısında xidmətləri danılmazdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Bəli, o vaxt o insanlar çox milli qürurlu olublar. İndi bəziləri onların hamısının kommunist, bolşevik kimi, necə deyərlər, üzərindən qara xətt çəkirlər. Bu ədalətsizlikdir. Mən buna həmişə etiraz etmişəm, bu gün də etiraz edirəm. Hansı partiyaya, hansı siyasi qüvvəyə mənsubluğundan asılı olmayaraq kim Azərbaycanın milli mənafeyinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə

həmişə hörmətlə yada salınmalıdırlar və tariximizə daxil olmalıdırlar”[12]

Ədəbiyyat

1. Azərbaycanda sovet hakimiyyəti uğrunda fəal mübarizlər, Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1958, s.158-159.
2. Azərbaycan Respublikası MPİH MDA, f. 12, siy. 3. iş 7410, s..15.
3. Qədimov Ə. ”Zakavkazye” qəzetində Azərbaycan ədəbiyyatı məsələləri (1906-1914). Namizədlik dissertasiyası. Bakı, 1982, s.48-52.
4. ”Zakavkazye” 1 may, 1908, №97.
5. ”Zakavkazye” 17 aprel, 1908, №85
6. ”Nicat”. 11 dekabr, 1910, №4
7. ”Nicat”. 19 fevral, 1911, №14
8. ”Nicat” 21 may, 1911, №28
9. ”Azərbaydjan”. 18 oktyabr, 1918, №23
10. ”Kommunist”. 12 aprel, 1921, №83
11. ”Kommunist” 20 aprel, 1921, №90
12. ”Azərbaycan” qəzeti. 11 fevral 1999, №32

ZƏHMƏT ŞAHVERDİYEV,
İSMAYIL ZEYNALOV
Naxçıvan Dövlət Universiteti

NAXÇIVANDA MƏİŞƏT MƏDƏNİYYƏTİ VƏ ONUN TƏKMİLLƏŞMƏSİ

Mədəniyyət dedikdə, insanın çox əsrlik inkişafı prosesində qazandığı əmək fəaliyyəti, ictimai və mənəvi fəaliyyət kimi başa düşülür.

Mədəniyyət və məişət məsələsi, ictimai həyatın ən vacib və mürəkkəb məsələlərindən biridir. Məişət və mədəniyyət bir-birindən ayrılmazdır, çünki məişəti əlverişli şəkildə qurmadan mədəniyyəti inkişaf etdirmək mümkün deyildir.

Məişət iqtisadiyyatın ardınca gedərək istehsala, ictimai həyatın digər sahələrinə əks təsir göstərir, bu isə məişətin nizamsız təşkil edilməsi ilə bağlıdır. Çünki yeni həyat tərzi yaratmaq üçün iqtisadiyyatda dəyişiklik etmək və məhsuldar qüvvələri inkişaf etdirmək vacib sayılır, beləliklə keçmişin zərərli qalıqlarını aradan qaldırmaq lazım gəlir.

Məişət insanın həyatının maddi və mədəni şəraitinin tam əsasını əhatə edir. O həm də son dərəcə çoxcəhətli, kompleks hadisədir. Buna görə məişətə elmi tərif vermək çətinlik törədir. Məişət çoxcəhətli ictimai hadisə olub ictimai həyatın müxtəlif cəhətləri ilə üzvü sürətdə əlaqədardır. O cümlədən mənzil şəraiti, ailənin təşkili, ev avadanlığı şeyləri, insanın maddi tələbatının ödənilməsi və s. sahələri əhatə edir.

İqtisadi təməllə və ideologiya ilə bağlı şəkildə yaranan və daimi inkişaf edib təkmilləşən məişət mövcud cəmiyyətin ümumi tələblərinə hökmən uyğun gəlməlidir. Təbiidir ki, yeni cəmiyyətin iqtisadiyyatında, mədəni həyatında, məfkürəsində inkişaf artdıqca, ictimai şüuru inkişaf edib formalaşdıqca adamların da, məişətində, o cümlədən, mənəvi aləmində irəliyə doğru müəyyən dəyişikliklər baş verir. Deməli, köhnə məişət qaydaları yeni meydana gələn cəmiyyətin tələblərinə uyğun gəlmədiyi və bu tələbləri ödəyə bilmədiyi kimi, həmin cəmiyyətin üzvlərinin də yeniləşən arzu və istəklərinə, ümumi inkişaf səviyyəsinə uyğun gəlmir. Başqa sözlə desək, köhnə məişət tərzi ilə yeni yaranan məişət arasında müəyyən ziddiyyət və mübarizə gedir. Lakin məişət sahəsində olan ziddiyyət və mübarizə həmişəlik olaraq qalmır, bunlar yeni məişətin inkişaf edib formalaşması prosesində tədricən aradan qalxır, əlbəttə, yeni yaranan məişətin özü də zaman keçdikcə dəyişir və təkmilləşir.

Məişətin yenidən qurulması insanların şüuruna təsir göstərib və şüur da məişətin yenidən qurulmasına, adamların düzgün nəticələrə gəlməsinə, məişətdə yaxşı cəhətləri pisdən ayırmağa və ictimai mənafeyə uyğun olaraq hərəkət etməyə imkan yaradır.

«Məişətdə insanların bir-biri ilə əlaqə və münasibətləri, həyat tərzi, əxlaqi, habelə adət və ənənələrə, əməyə, ictimai yaşayış qaydalarına baxışları da özünü göstərir. Bütün bu sahələrdə daha böyük nailiyyətlər qazanan, gənc nəsli tərbiyə etmək, insanın əxlaqi cəhətdən düzgün formalaşmasından, ailənin möhkəmliyndən, məişətin düzgün qurulmasından asılıdır».

Ölkəmiz müstəqillik əldə edəndən sonra Muxtar respublikamızda məişətin yaxşılaşdırılmasına diqqət daha da artmış və buna geniş imkanlar yaranmışdır. Ona görə insanlar yaranmış əlverişli şəraitdən istifadə edərək məişəti yaxşılaşdırmağa, elm və mədəniyyətə yiyələnməyə, texnikanın sirlərini öyrənməyə, siyasi cəhətdən inkişaf etməyə səy göstərirlər.

Bununla yanaşı Naxçıvan Muxtar Respublikasında yaradılmış şəraitlə əlaqədar İran və Türkiyə ilə əlaqələrin genişlənməsi hesabına xalqın maddi imkanları xeyli artmışdır. Digər tərəfdən dövlət qayğısı ilə əlaqədar 1994-cü ildən etibarən geniş miqyasda həyata keçirilən aqrar islahat hesabına kənd zəhmətkeşlərinin də maddi imkanlarının daha da artmasına və mənəvi tələbatların ödənilməsi imkanları yaranmışdır.

Milli gəlirin xeyli artması hesabına Muxtar respublika əhalisinin əksəriyyəti məişətdə istifadə olunan avadanlıqlar almaq, mənzil şəraitini yaxşılaşdırmaq, məişət mədəniyyətini yüksəltmək və zövqlə geyinmək imkanı da əldə etmişdi.

1996-2004-cü illərdə Muxtar respublikada aparılan etnoqrafik tədqiqatımızdan aydın olur ki, respublika rəhbərliyinin diqqət və qayğısı nəticəsində zəhmətkeşlərin yaşadıqları evlərin ətrafı, küçələr qaydaya salınır, səkilərdə ağac əkilir, yeni salınmış park və meydançalarda təmizlik işləri aparılır. 1996-2004-cü illərdə Naxçıvan respublika rəhbərliyinin diqqət və qayğısı nəticəsində çoxlu miqdarda park salınmış, I stadion yenidən köklü surətdə bərpa edilmiş, şahmat evi tikilmiş, müəllimlər evi yeni simaya salınmış, şəhərin bütün küçələri, bir sıra yaşayış evləri yenidən

quruculuq işləri aparılması nəticəsində yeni görünüşə malik olmuşdur, həmçinin 4 ticarət bazarı, 2 məscid xalqın istifadəsinə verilmişdir.

Muxtar respublikamızın Naxçıvan şəhərində aparılan quruculuq və yaşıllaşdırma işi Sovetlər birliyi dövrünün təxminən 50-60 il ərzində görülən işə bərabər hesab etmək olar. Təkcə Muxtar respublikanın Naxçıvan şəhərində deyil respublikanın Babək, Sədərək, Culfa, Ordubad, Şahbuz rayonlarında və onların kəndlərində də yeni mədəniyyət evləri tikilmiş və ya bərpa edilmiş, məktəblər bərpa olunmuş, və ya yenisi tikilmiş, körpülər salınmış və sıradan çıxanlar bərpa edilmiş, eləcə də kütləvi sürətdə yaşıllaşdırma işləri aparılmışdır. Bir sözlə şəhərdə başlanan bu quruculuq işləri rayonlarda və kəndlərdə də öz əksini tapmış, görülən quruculuq işləri Muxtar Respublikanının mətbuatında, radio və televiziya verilişlərində təbliğ olunmuşdur. Xüsusi ilə qeyd etmək yerinə düşər ki, təkcə 1998-ci ildə böyük öndərimiz Heydər Əliyevin 75- illik yubileyi ilə əlaqədar Muxtar Respublikanın təkcə Naxçıvan şəhərində 75-dən çox obyekt tikilib istifadəyə verilmişdir. Ən başlıcası odur ki, 1980-ci ildə Sovetlər birliyi dövründə bünövrəsi qoyulmuş və dağılıb getmək üzrə olan universitet binası respublika rəhbərliyinin şəxsi təşəbbüsü ilə yenidən tikilib. Yubiley münasibəti ilə təhvil verilmiş və bu elm ocağının açılışında 1999-cu ilin oktyabr ayında xalqımızın ümummilli lideri Heydər Əliyevin özü iştirak etmişdir.

Eləcə də yubiley münasibəti ilə Babək rayonun Qahab kəndində orta məktəb binası əsaslı surətdə yenidən bərpa edilmişdir. Sirab və Çalxanqala kəndlərində orta məktəb istifadəyə verilmişdir.

Respublikamızın müstəqillik qazanması, daxili sabitliyin yaranması, hüquqi dövlət quruculuğu işlərinin həyata keçrilməsi ilə əlaqədar, Muxtar respublikamızda da verilmiş qanunlar ardıcıl həyata keçirililərək əhalinin məişətinin yaxşılaşdırılmasına ciddi təsir göstərir. Muxtar Respublikada aqrar islahat həyata keçirilib başa çatdırılması,

su kanallarının bərpa edilməsi, yeni su nasoslarının qurulması, kənd zəhmətkeşlərinin vəziyyətinin və onların məişətinin yaxşılaşdırılmasına ciddi təsir göstərmişdir. Aparılan etnorqrafik tədqiqatlardan aydın olur ki, Muxtar Respublikmızın rayon və kəndlərində məişət mədəniyyətini yüksəltmək məsələlərinə aid elmi–nəzəri konfranslar, tematik gecələr keçirilmişdir. Bu konfrans və tematik gecələrinin keçirilməsinin əhəmiyyəti ondan ibarətdir ki, adamlar məişəti müasir zövqlə qurmaqda çətinlik çəkməsinlər, eləcə də bu tematik gecələr ictimai qaydaları pozanları tərbiyə edir və xoşagəlməz hərəkətlərdən çəkindirməyə təsir göstərir. Amma məişət mədəniyyətinin yüksəldilməsində həmçinin islam əxlaq qaydalarının da mühüm rolu vardır. Sovetlər birliyi dövründə uzun illər boyu məişət münasibətləri sahəsinin dini adətlərlə bağlılığı tənqid və bir növü qadağan edilməsi, islam əxlaq qaydalarından kənarda qoyurdu.

Ölkəmiz müstəqillik qazandıqdan sonra , dinə xüsusi azadlıq verilmiş, insanın İslami əxlaq normalarına yiyələnməyə böyk imkanlar açılmışdır. İndi Muxtar respublikamızın elə bir rayon və kəndləri yoxdur ki, orada məscid tikilib istifadəyə verilməsin, digər tərəfədən özlərində sağlam dini qadağalar aradan götürüldüyündən adamlar Məkkəyə, Kərbalaya, Məşhədə axın- axın gedərək, saflığa, paklığa doğru addım atmış olurlar. Məhz bu cəhətlərə görə, müasir şəraitdə din məişətdə yenidən adət- ənənələrini yaşadır və formalaşdırır.

Etnoqrafik tədqiqatlar göstərir ki, hazırda Muxtar respublikamızın rayon və kəndlərində dinə inananların sayı çoxluq təşkil edir. Göründüyü kimi, beləliklə xalqın formalaşmış məişət adət- ənənələri ketdikcə daha mütərəqqi adətlərlə zənginləşir və inkişaf etdirilir. Məişət münasibətləri sahəsində hazırda, zəif olsa da, təzahürlərinə rast gəldiyimiz mülkü sahibkarlıq məişət qapalığına son qoyur və sosial fəallıq artır. Ölkəmiz müstəqillik qazandıqdan sonra xüsusi mülkiyyət şəhər və kənd iqtisadiyyatında tədricən özünü biruzə verərək məişətin təkmilləşməsinə güclü təsir göstərir.

Ədəbiyyat

1. İ.Həbibbəyli. Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövründə Naxçıvan Dövlət Universiteti. «Qeyrət» nəşriyyatı, 1998.
2. Hacı Qadir Qədirzadə. Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr. Bakı, Elm, 2003.
3. H.A.Quliyev. Məişətimizdə adət və ənənələr. Bakı,1976.
4. H.A.Quliyev. Azərbaycanda ailə məişətinin bəzi məsələləri. Bakı, 1986.
5. М.Атакишиева. Семейный быть азербайджанцев в прошлом и настоящем М.1953 г.
6. Zəhmət Şahverdiyev, İsmayıl Zeynalov. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Qismət nəş., 2002.
7. Şərq qapısı. 04 noyabr 2001.
8. Şərq qapısı. 04 yanvar 2001.
9. Şərq qapısı. 06 yanvar 2001.
10. Şərq qapısı. 15 fevral 2001.

HƏMZƏ CƏFƏROV
Naxçıvan Dövlət Universiteti

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANLI TƏLƏBƏ- GƏNCLƏRİN İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ

Cəmiyyətin mədəni, siyasi, iqtisadi inkişafı hər şeydən əvvəl gənclərlə bağlıdır. Bütün dövrlərdə gənclik tarixi hadisələrin gedişinə əhəmiyyətli təsir göstərmiş və göstərməkdədir.

Gənclərin cəmiyyətdə yeri və rolu məsələsinin geniş tədqiqi müasir dövrdə – gəncliyin respublikamızın müstəqilliyi, demokratik inkişafı və sosial tərəqqisi uğrunda mübarizənin gücləndiyi dövrdə xüsusi əhəmiyyət daşımağa başlayır. Heç bir dövlətin inkişafı və tərəqqisi gəncliyin

inkişafı olmadan mümkün deyildir. Gənclərsiz bütün bəşəriyyətin həllinə çalışdığı çoxcəhətli humanitar vəzifələrin öhdəsindən gəlmək mümkün deyildir.

Gənclik fenomeninin milli tariximiz kontekstində öyrənilməsi bizə gənclərin cəmiyyətdə tutduğu yeri və rolunun təkamülü prosesini müəyyənləşdirməyə imkan verir. Bu baxımdan Azərbaycanda tələbə-gənclər hərəkatının formalaşması məsələsinin mühüm elmi əhəmiyyəti vardır.

XX əsrin əvvəllərində bütün Rusiyada olduğu kimi Azərbaycanda da sosial, milli münaqişələrin kəskinləşməsi, fəhlələrin, kəndlilərin kütləvi çıxışları, cəmiyyətin bütün təbəqələrinin siyasi və ideoloji cəhətdən fəallaşması üçün imkan yaratdı. Birinci rus inqilabı Qafqazda erməni təcavüzkarlığının artması, Azərbaycanda müxtəlif cərəyanların, siyasi təşkilatların yaranmasını sürətləndirdi.

Getdikcə daha geniş vüsət alan bu prosesdə Rusiyanın qabaqcıl ali məktəblərində oxuyan azərbaycanlı tələbələr yaxından iştirak etməyə başlamışdılar. Rusiyada təhsil alan azərbaycanlı tələbələr öz vətənləri ilə daim əlaqə saxlayır, burada baş verən sosial, siyasi, mədəni hadisələrlə daim maraqlanırdılar. Xüsusən Azərbaycanda təşəkkül tapmaqda olan siyasi təşkilat və qrupların fəaliyyətində azərbaycanlı tələbələr yaxından iştirak edirdilər. Məlumdur ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Rusiyada tələbələr arasında ən çox yayılmış sosial nəzəriyyə marksizm idi və bu cərəyan tələbə hərəkatı üzərində çox böyük təsirə malik idi. Ümumrusiya tələbə hərəkatında fəal iştirak edən azərbaycanlı tələbələrin bir çoxu da marksizm nəzəriyyəsi ilə tanış olduqdan sonra ilk siyasi fəaliyyətlərinə məhz sosial-demokrat partiyasının üzvləri kimi başlamış, vətənə

qayıtdıqdan sonra da bir müddət bu ideologiyanın təbliğatı ilə məşğul olmuşdular.

Azərbaycanda ilk sosial-demokrat təşkilatı olan «Hümmət»in, onun eyniadlı orqanının yaradılmasında M.Ə.Rəsulzadə, M.H.Mövsumovla yanaşı Peterburq Texnologiya İnstitutunun məzunu M.H.Hacınski də əsas rol oynamışdır (1). M.H.Hacınskinin öz siyasi fəaliyyətinə sosial-demokrat kimi başlamasının əsas səbəbi məhz Peterburq həmyerlilər cəmiyyətində marksist ideyaları ilə yaxından tanış olması idi. Məhz M.H.Hacınskinin bilavasitə təsiri altında onun kurs yoldaşı M.Əzizbəyov, Odessa Universitetinin tibb fakültəsinin tələbəsi N.Nərimanov və gələcəkdə Kazan Universitetinin tibb fakültəsinin tələbəsi olacaq S.M.Əfəndiyev bu təşkilata üzv olmuşdular.

M.H.Hacınski İnstitutu qurtardıqdan sonra Bakıya qayıdır, Rusiya paytaxtında Azərbaycan həmyerlilər cəmiyyətinin işi ilə Peterburq Universitetinin hüquq fakültəsinin tələbəsi Aslan bəy Səfikürdski məşğul olmağa başlayır. Gələcək Zaqafqaziya Seyminin və Azərbaycan XC Parlamentinin ən fəal üzvlərindən biri A.Səfikürdskinin bir ziyalı və siyasi xadim kimi formalaşmasında Peterburqdakı tələbəlik həyatının mühüm rolu olmuşdur. Onunla yanaşı həmin illərdə tələbə həmyerlilər cəmiyyətinin fəalları arasında Bakı şəhər dumasının təqaüdçüləri, Mülki Mühəndislər İnstitutunun tələbələri Mustafa və Musa Hacıqasımovlar (2), Peterburq Universiteti hüquq fakültəsinin tələbələri Ş.Rüstəmbəyov, Ə.Kərimov, Dağ Mədən İnstitutunun tələbəsi Ağakərim Kərimov (3), Yol Mühəndisliyi İnstitutunun tələbəsi Xudadat bəy Məlikaslanov da var idilər.

X.Məlikaslanov institutda oxuduğu illərdə Peterburq həmyerlilər cəmiyyətinin (ittifaqının) ən fəal üzvlərindən olmaqla yanaşı, o zaman tələbələr arasında geniş yayılmağa başlayan marksizm ilə yaxından maraqlanmağa başlamış və 1901-ci ildə RSDFP-yə üzv olmuşdu.

1906-1911-ci illərdə Peterburq Dağ Mədən Mühəndisləri İnstitutunda təhsil almış Ağa Əminov da tələbələrin həmyerlilər cəmiyyətinin işində yaxından iştirak etmişdir. Lakin öz əksər tələbə həmyerlilərindən fərqli olaraq A.Əminov sosial-demokrat hərəkatına deyil, milli demokratik hərəkata meyl etmiş, vətənə qayıtdıqdan sonra Müsavat partiyasının üzvü olmuş, Azərbaycan XC hökumətində maliyyə naziri olmuşdu.

Onların təhsil aldığı illər Rusiyada siyasi hadisələrlə zəngin bir dövr idi. Geniş fəhlə və kəndli hərəkatının zirvəsi olan 1905-1907-ci illər inqilabında digər sosial təbəqələrlə yanaşı, tələbə-gənclər də yaxından iştirak etmiş, inqilabın əsas hərəkətverici qüvvələrindən olmuşdular. Paytaxtda və digər şəhərlərdə keçirilən demokratik hərəkatda – nümayiş və mitinqlərdə, tətillərdə tələbələrin iştirakı, onların daha da radikallaşması ilə müşayət olunurdu. Sosial-demokrat ideyaların təsiri altında fəaliyyət göstərən tələbə hərəkatı sırf universitet həyatı ilə bağlı tələblərlə yanaşı, ümumdemokratik tələblər – monarxiyanın ləğvi, respublika təsisi, azad seçkilər və s. irəli sürməyə başlamışdı. Tələbələr arasında tətillərin mütəşəkkilliyini təmin etmək üçün Tələbə Şurası yaradılmış, buraya azərbaycanlı tələbələr də daxil idilər. Tələbə hərəkatında fəal iştirak etdiyinə görə Musa Hacıqasımov institutdan qovulmuş və həbs edilmişdi. Musa Hacıqasımov,

N.Nərimanov kimi M.H.Hacınskinin vasitəsilə «Hümmət» qəzetinə materiallar göndərirdi (4).

1905-ci il avqustun 11-də azərbaycanlı tələbələrin də təhsil aldıqları iki institutda – Mülki Mühəndislər və Yol Mühəndisləri İnstitutlarında tələbə yığıncaqları keçirilmiş və siyasi tələblər – hökumətin istefası, Müəssislər Məclisinin çağırılması, siyasi məhbusların azad edilməsi və s. tələblər irəli sürülmüşdü.

Tələbə hərəkatının geniş vüsət aldığı şəhərlər arasında Riqa, Odessa, Kiyev, Moskva şəhərləri də var idi.

1905-ci il avqustun 13-də Riqa Politexnik İnstitutunda oxuyan tələbələr ictimai həyatın demokratikləşməsi tələbi ilə mitinq keçirmişdilər. İnstitutda azərbaycanlıların da daxil olduğu Qafqaz Həmyerlilər Cəmiyyəti fəaliyyət göstərirdi. Bakı şəhər dumasının təqaüdçüsü Kərim bəy Məlikov və İbadulla Əmirov (5) da həmin cəmiyyətin fəallarından idilər.

Tələbə çıxışlarının genişləndiyi Kiyev şəhərində 1905-ci ilin yanvarında keçirilmiş tətillərdə iştirak etdiyinə görə Kiyev Politexnik İnstitutunun kimya fakültəsinin tələbəsi, H.Z.Tağıyevin fərdi təqaüdçüsü Hacı bəy Axundov institutdan xaric edilmiş və təqaüddən məhrum olmuşdu. O, Gəncəyə qayıdaraq Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü kimi ictimai iş aparmış, yalnız 1908-ci ildə tələbəliyə bərpa edilə bilmişdi (6).

Odessanın ali məktəblərində təhsil alan azərbaycanlı tələbələr ümumrusiya tələbə hərəkatına qoşulmuşdular. Azərbaycanlı tələbələrin təsis etdikləri həmyerlilər cəmiyyətləri arasında Odessa həmyerlilər təşkilatı öz fəallığı ilə seçilirdi. 1902-ci ildə Odessa Universitetinin hüquq fakültəsinə daxil olmuş Nəsib bəy Yusifbəyli, həmin

universitetin tibb fakültəsində oxuyan Nəriman Nərimanov, Xosrov bəy Sultanov və Şahmalıyev qardaşları onun üzvləri idilər. N.Nərimanov Qafqaz Həmyerlilər Cəmiyyətinin sədri olmuşdur. Eyni zamanda qrup nümayəndələri şurasının üzvü olan N.Nərimanova polisdə açılmış dosyedə deyilirdi ki, o, tibb fakültəsinin böyük auditoriyasında keçirilmiş tələbə yığıncağında iştirak etmiş, üzərinə sədr funksiyasını götürmüş, qadağan edilmiş student qəzetinin oxunmasında rolu olmuşdur (7).

Odessada oxuyan tələbələr oxuduqları ali məktəblərin mədəni həyatında yaxından iştirak etməklə yanaşı, Azərbaycanla da daim əlaqə saxlayır, burada baş verən siyasi, mədəni hadisələrlə maraqlanırdılar. N.Nərimanovun F.Köçərliyə məktubundan bəlli olur ki, tələbələr onun kitablarını oxumuş və onda olan yeni materialların və ana dilində olan kitabların onlara göndərilməsini xahiş edirdi (8). N.Nərimanov ehtiyacı olan tələbələri kitabla təmin etmək üçün «Nadir şah» dramını tamaşaya qoymaq fikrinə də düşmüşdü (9).

Bir qədər sonra ali təhsil almaq üçün Odessaya gedən Həmid bəy Şahtaxtınski də universitetin hüquq fakültəsində oxuduğu müddətdə tələbə həmyerlilər təşkilatının rəhbərlərindən biri olur. 1907-1912-ci illərdən tələbəlik həyatı onun siyasi dünyagörüşünün formalaşmasında mühüm rol oynamış, sonralar o, Azərbaycan Cümhuriyyətinin ən parlaq simalarından biri olmuşdur.

XX əsrin əvvəllərində Rusiyanın şəhərləri arasında Kazan xüsusi yer tuturdu. Həmin dövrdə azərbaycanlı tələbələr Tahir bəy Qazıyev, Rəhim bəy Tahirov Kazan Universitetinin tibb fakültəsində oxuyarkən tələbə hərəkatına qoşulmuş, Qafqaz həmyerlilər təşkilatının üzvü olmuşlar.

1906-cı ildə ailə vəziyyəti ilə əlaqədar Odessa Universitetinə dəyişilən R.Tahirov orada da ən fəal azərbaycanlı tələbələrdən olmuşdu. Həmin illərdə Movska Universitetində təhsil alan azərbaycanlı tələbələr də şəhərdə baş verən inqilabi hadisələrdə, tələbə hərəkatında iştirak etmiş, həmyerlilər cəmiyyətinin fəalları olmuşdular. İnqilabi ideyaların mərkəzinə çevrilmiş Moskva həyatı onların siyasi cəhətdən formalaşmasında mühüm rol oynamışdır. Moskva Universitetinin hüquq fakültəsində təhsil almış İsmayılxan Ziyadxanovun, Fətəli Xan Xoyskinin, Həsən bəy Ağayevin ənənələrini davamı etdirən yeni nəslin nümayəndələri M.Saracalınski, D.Sultanov, İ.Əliyev, Ə.Şahsuvarov ilk siyasi mübarizə təcrübələrini məhz burada almış, tələbə yığıncaqlarında, küçə nümayişlərində iştirak etmişdilər.

1905-ci ilin əvvəllərindən Rusiyanın qabaqcıl təhsil ocaqlarını tətillər dalğası bürüdü. Tələbə hərəkatı bu zaman açıq antihökumət xarakteri almış, mütəşəkkilliyi, vahid mərkəzdən idarə olunması ilə səciyyələnirdi. Azərbaycanlı tələbələrin əksəriyyəti bu hərəkatda fəal iştirak edirdilər.

Tələbə hərəkatının genişlənməsi Rusiya hakimiyyətini bəzi güzəştli addımlar atmağa məcbur etdi. 1905-ci il avqustun 6-da Dövlət Dumasının çağırılması haqqında çar reskripti imzaladıqdan bir müddət sonra 27 avqustda ali təhsil müəssisələrinin idarə edilməsinin müvəqqəti qaydaları haqqında fərman imzalandı.

Həmin fərmanla hökumət ali məktəblərin hüquqlarını, muxtariyyət statusunu genişləndirməyə razılıq vermiş, ali məktəb rektorları professor şurası tərəfindən seçilməli idi.

Lakin bu tədbirlər də tələbələrin siyasi hərəkatda iştirakının qabağını ala bilmədi.

1905-ci il sentyabrın 3-də Vıborqda 13 tələbə kollektivinin iştirakı ilə IV tələbə qurultayı oldu. Qurultayın işində Ə.Əminov, M.Saracalınski və R.Tahirov da iştirak etdilər. Tələbə yığıncaqları bütün şəhərləri bürüdü.

Sentyabrın 7-də Moskva Unitversitetində 4 min tələbənin iştirakı ilə keçirilən yığıncaqda İsrafil Əmirov, Ələkbər Şahsuvarov, Məlik bəy Sultanov, M.Saracalınski də iştirak etdilər, sentyabrın 13-də Peterburq Universitetində keçirilmiş yığıncaqda isə M.Hacıqasımov, A.Əminov, Mustafa Haşımov, Ə.Kərimov və b. azərbaycanlı tələbələr fəallıq göstərmişdilər.

Qeyd edək ki, tələbə yığıncaq və nümayişlərində ali məktəb həyatının məsələləri, o cümlədən qəbulda sosial məhdudiyyətlərin götürülməsi, ali məktəblərin idarə edilməsinin demokratikləşdirilməsi, tələbələr üçün məcburi ümumi geyim formasının aradan götürülməsi, institut inspektorlarının ləğvi, universitetlərdə «açıq qapılar» prinsipinin tətbiqi – milli, dini, cinsi, yaş və s. amillərə görə məhdudiyyətlərin ləğvi və orta məktəbləri – realnı məktəbləri, müəllim seminariyaları, xalq məktəblərini qurtaranların hamısına ali məktəblərə daxil olmaq imkanının verilməsi və s. məsələlər də müzakirə edilirdi.

1905-ci ilin sonunda tələbə yığıncaqları açıq siyasi xarakter daşıyan geniş xalq hərəkatına çevrildi. Moskva, Xarkov, Kazan, Odessa şəhərlərində tələbələr inqilabi hadisələrin əsas iştirakçılarına çevrilmişdilər. Oktyabrın 16-da Odessada N.Nərimanov, N.Yusifbəyli, Şahmalıyev qardaşları, O.Kriqinski fəhlələrin mitinqində, barrikada döyüşlərində iştirak etmişdilər. N.Nərimanov isə rus inqilabı haqqında referatla çıxış etmiş, Rusiya müsəlman xalqlarının

hüquqsuz vəziyyəti barədə fikirlər söyləmişdi (10). Noyabrın 6-da isə N.Nərimanov qaragüruhçular tərəfindən qətlə yetirilmiş mitinqçilərin matəm mərasimini təşkil etmişdi.

İlin sonunda inqilabi hərəkatın zəifləməsindən istifadə edən çar hökuməti tələbə hərəkatının daha güclü olduğu ali məktəblərdə dərsləri müvəqqəti dayandırmaq qərarına gəldi. Hökumət 20 dekabr 1905-ci il tarixli qərarı ilə Kiyev Politexnik İnstitutu istisna edilməklə, bütün ali məktəblərdə 1906-cı ilin sentyabrına qədər məşğələlər dayandırıldı. Bundan sonra azərbaycanlı tələbələr vətənə qayıdaraq Azərbaycanda davam edən siyasi mübarizəyə qoşuldular. Onlar Bakıda tələbə-müsəlmanlar arasında iş aparır, qəzet səhifələrində çıxış edir, müxtəlif xeyriyyə tədbirlərində, kasıb tələbələrə yardım göstərilməsində, qarşılıqlı yardım kassalarının yaradılmasında kitabxanaların təşkilində iştirak edirdilər. M.B.Axundov, M.Əzizbəyov, H.Terequlov, C.İsmayılov, N.Nərimanov və b. bu işlərdə daha fəal idilər. N.Nərimanov «Nadanlıq», «Nadir şah» əsərlərini tamaşaya qoymuş və pulu ehtiyacı olan tələbələrə kömək üçün vermişdi (11).

Lakin artıq qeyd edildiyi kimi, tələbə hərəkatı sosial-demokrat partiyasının təsiri altında idi. Azərbaycanın tələbə gənclərindən bir çoxu bu firqəyə daxil idilər. Əgər Rusiyada ali təhsil almış yaşlı nəslin nümayəndələri, mülkədar sinfindən çıxmış ziyalılar (Ə.Topçubaşov, İ.Ziyadxanov, F.X.Xoyski, X.B.Xasməmmədov və b.) rus liberalizmini müdafiə edirdilərsə, gənc nəsil Rusiyanın radikal və inqilabçı cərəyanlarına təmayül göstərirdi. M.Ə.Rəsulzadə qeyd edirdi ki, çarizmə qarşı mübarizədə onlar inqilabçı sosializmə ən sadiq olmasa da, ən münasib müttəfiq hesab edirdilər.

Məmləkətimizi istila və istismar edən Rusiyaya qarşı bəslədikləri kin sayəsində onlar pozğunçuluq hərəkətlərini, bu işdə daha ifratçı firqələrin taktikasını təbii ki, daha məqbul hesab edir və bu taktikanı daha asanlıqla qəbul edirdilər (12).

1906-cı ilin sonlarında universitetlərdə məşğələlərin bərpa edilməsi, azərbaycanlıların öz oxuduqları ali məktəblərə dönmələri ilə həmyerlilər cəmiyyətinin fəaliyyəti də canlanmağa başlayır.

Həmin dövrdə Rusiya universitetlərinə azərbaycanlıların yeni nümayəndələri daxil olur. Bunlar içərisində Odessa Universitetinin tələbəsi H.Şahtaxtınski (13), Peterburq Universitetinin hüquq fakültəsinin tələbəsi Camal bəy Hacınski (Azərbaycan parlamentinin üzvü Mehdi bəy Hacınskinin qardaşı, Qubalı imzası ilə tanınmış publisist), Moskva Universitetinin tələbələri Zeynal bəy Səlimxanov, Məmməd Yusif Cəfərov, Əkbər bəy Kazımbəyov, Kazan Universitetinin tələbələri Əliabbas Qədimov, Mirhidayət Seyidzadə, Xarkov Universitetinin tələbələri Hüseyn Vəliyev (milyonçu Aşurbəyov təqaüdçüsü), İlyas Cəfərov (Bakı Dumasının təqaüdçüsü) və başqaları var idi.

C.Hacınski ali təhsil aldığı illərdə həmyerlilər cəmiyyətinin işində yaxından iştirak edir, mədəni-maarif işlərinə baxırdı. O, həmçinin Bakıda çıxan qəzetlərə müxtəlif mövzularda materiallar göndərirdi. Azərbaycanlı tələbələr arasında öz fəallığı ilə seçilən gənclərdən biri də M.Y.Cəfərov idi. O, Moskvada təhsil almış tələbələrlə birlikdə Azərbaycan etnoqrafik və konsert gecələri təşkil etmiş, yığılan pulları imkansız tələbələrin ehtiyacları üçün sərf edirdi. 1912-ci ildə hüquq fakültəsini bitirərək Nigahın şəriət üzrə pozulması haqqında dissertasiya müdafiə etmişdir. Kazanda təhsil alan

azərbaycanlılar da inqilabi hərəkatda iştirak etmişdilər. Onlardan biri H.Vəzirov həbs edilmiş, yalnız milyonçu M.Muxtarovun sayəsində universitetdən xaric olunmamışdı. Kazan həmyerliləri cəmiyyəti İranda inqilabi hərəkata pul vəsaiti və silahların ötürülməsində yardım göstərirdilər. İranlı inqilabçılara ədəbiyyat və silahla yardım göstərilməsində Peterburqda oxuyan azərbaycanlılar da iştirak edirdilər (14).

Azərbaycanlı tələbələr əvvəllər olduğu kimi, yenə də inqilabi hərəkatda iştirak etməkdə davam edirdilər. 1907-ci ilin fevral-mart aylarında Moskva Universitetində təşkil edilmiş mitinqlərdə M.Y.Cəfərov, M.Saracalınski, Z.Səlimbəyov, Peterburqda martın 8-də olmuş tələbə yığıncağında, C.Hacınski, A.Əminov, M.Haşımov iştirak etmişdilər.

Lakin çarizmin inqilabi hərəkatına qarşı repressiv hərəkətləri öz təsirini tələbə hərəkatında da göstərməyə başlamışdı. Tələbələrin kütləvi həbsləri, institutlardan xaric edilmələri şəraitində bu hərəkat əvvəlki intensivliyini itirməkdə idi. Düzdür, bu hərəkatın müəyyən uğurları da olmuşdur. Belə ki, hökumət orta məktəbləri qurtaranların hamısını ali məktəblərə daxil olmaq hüququnu tanımış, institut inspektorları vəzifəsi ləğv edilmiş, qadınların təhsil almaq imkanları artmışdı. Lakin tezliklə hökumət universitet ilə bağlı qəbul etdiyi qərarlara yenidən baxaraq, ali məktəblərin muxtariyyətini ləğv etmişdi. 1907-ci il iyunun 11-də Stolıpinin qəbul etdiyi «tələbə təşkilatları və ali məktəblərdə yığıncaqların təşkili haqqında» qaydalara görə bütün inqilabi-demokratik və həmyerlilər təşkilatlarının universitetlərdə fəaliyyəti qadağan edilirdi. İki gün sonra isə – 13 iyunda qəbul edilmiş tələbə yataqxanaları haqqında yeni

qaydalara görə orada tələbə yığıncaqlarının keçirilməsinə görə cinayət məsuliyyəti müəyyən olunurdu.

Bu qərarlar bütün tələbələr kimi azərbaycanlı tələbələrin ictimai-siyasi fəaliyyətinə mənfi təsir göstərmiş, onlara qarşı təqiblər güclənmişdi. Buna baxmayaraq onlar mədəni-maarifçilik fəaliyyətlərini davam etdirir, müxtəlif mərkəzlərdə, klublarda, siyasi dərnəklərdə, xüsusən müsəlman həmyerliləri cəmiyyətlərində yaxından iştirak edir, öz vətənlərində gedən siyasi, mədəni proseslərlə daim maraqlanırdılar.

Ədəbiyyat

1. «Odlar yurdu» qəzeti, 1989, may, №14.
2. ARDTA, f 389, siy 6, iş 113, v.295 - 298.
3. «Odlar yurdu», 1990, aprel, № 8 – 9.
4. Ахундов Н.Периодическое печать Азербайджана (1832-1910), Б., 1987, с. 118.
5. ARDTA, f 389, siy 6, iş 113, v.102 – 109. iş 126, v.211. iş 189. v.23. iş 167, v.79 – 81.
6. Yenə orada, iş 311, v.186 – 190.
7. Нариманов Н. Избранные произведение. В трех томах, т.1, (1890 – 1917), Баку, 1988, с. 9.
8. Yenə orada, s. 56.
9. Əhmədov T. Nəriman Nərimanov, B., 1988, s. 75.
10. Narimanov N. göstərilən əsəri, s. 352.
11. İstorii Azerbaydcana, t.11, B.,1960,s.593 – 594; «Həyat» qəzeti, 1906, 7 fevral. Əhmədov T. göstərilən əsəri, s. 94.
12. Rəsulzadə M.Ə. Milli Azərbaycan hərəkatının xarakteri, «Azərbaycan yurd bilgisi» məcmuəsi, 1934, № 29.
13. «Odlar yurdu, 1989, avqust, № 16.
14. Газиев М. Жизнь и деятельность М.Азизбекова, Б., 1956. с. 38.

ELŞƏN HÜSEYNOV
Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi

RAFİQ RƏHİMOV
Naxçıvan Dövlət Universiteti

SÜLH AMİLİ HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏTİNİN ƏSASIDIR

Kəssə hər kim tökülən qan izini
qurtaran dahi odur yer üzünü...
Hüseyn Cavid

Müasir Azərbaycanın beynəlxalq əlaqələri, onun müstəqil dövlət kimi dünya birliyində tanınmasında müstəsna xidmətləri olan şəxsiyyət – Heydər Əliyevin adı, əməli fəaliyyəti, konkretləşdirdiyi işlərlə bağlıdır.

H.Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanın, bugünkü uğurlarının əsasını qoymuş və gələcəyə aparan yolunu müəyyən etmişdir.

Heydər Əliyevin xarici siyasətinin əsasını təşkil edən sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil edir.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasəti özünəməxsus xüsusiyyətləri ilə seçilir. Belə ki, Azərbaycanın xarici siyasətinin mahiyyətinə və xüsusiyyətlərinə toxunan Heydər Əliyev qeyd etmişdir ki, "....bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq".

1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycanın geosiyasi vəziyyətinin və beynəlxalq siyasətə təsir etmə

imkanlarının dərin nəzəri təhlili əsasında xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər müstəvisində yeri, Avropa ölkələri və ABŞ-la, keçmiş Sovet respublikaları və Rusiya ilə, müsəlman dünyası və İranla, türkdilli dövlətlər və Türkiyə ilə, Cənubi Asiya dövlətləri və Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında qeyd etmişdir ki, Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir.

Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışından sonra bütün sahələrdə hökm sürmüş ətalətə, özbaşınalığa, xaosa və özfəaliyyətə son qoyuldu. Azərbaycanın tarixdə əldə etdiyi ən əvəzsiz nailiyyəti olan istiqlaliyyətini məhv olmaq təhlükəsindən xilas etdi. Xüsusilə də, xarici siyasətdə mövcud olan çoxsaylı problemlər nəticəsində ölkənin dünya ilə inteqrasiyası çətinləşmiş, Ermənistanın hərbi təcavüzü nəticəsində milyondan artıq qaçqın və məcburi köçkünün olduğu ağır iqtisadi, siyasi və hərbi vəziyyətlə yanaşı, Azərbaycanın informasiya blokadasında olması özünün ən kulminasiya nöqtəsinə çatmışdı. Belə bir məsuliyyətli vaxtda heçnədən çəkinmədən xalqın, dövlətin mənafeyi naminə hər cür məşəqqətə dözən Heydər Əliyev bu barədə deyəcəkdir ki, "Mən çox böyük sınaqlardan çıxmış bir adamam və həyatımı

da özümə yox, xalqıma həsr etmişəm". Məhz Heydər Əliyevin fitri liderlik istedadı sayəsində Azərbaycanda dövlətçilik özünü təkcə siyasi-hüquqi hadisə kimi deyil, konkret olaraq milli-mənəvi gerçəklik kimi təsdiq edə bildi.

Artıq XX əsrin sonunda beynəlxalq miqyasda baş vermiş iri miqyaslı hadisələr, iki dünya sistemi arasındakı mübarizədə siyasi və hərbi balansın pozulması nəticəsində dünyanın ən böyük güc mərkəzi olan SSRİ-nin sıradan çıxması nəticəsində dünyada yeni nizamın formalaşdığı bir dövrdə hər bir xalq öz gələcək inkişaf istiqamətini dəqiq müəyyənləşdirmək üçün yollar aradığı bir vaxtda Azərbaycan problemlərin məngənəsində sıxılırdı.

Məhz onun siyasi bacarığı nəticəsində Azərbaycan özünün geosiyasi imkanlarını gerçəkləşdirməyi bacardı. Heydər Əliyevin zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırıldı.O, bütün çətinliklərə sinə gərərək, xalqı öz arxasınca aparmağa və müstəqil dövlətçiliyimizi ardıcıl sivil inkişaf yoluna çıxarmağa qadir olduğunu sübut etdi. Hətta "Azərbaycan dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də, bir Prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram"-deyə Heydər Əliyev bunu açıq bəyan etdi.

Dünya siyasəti meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, siyasi çəkisi və nüfuzu ilə seçilmişdir.

Heydər Əliyevin çevik siyasəti nəticəsində artıq 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və gerçəkləşdirilməsi ilə Heydər Əliyev müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasını yaratdı və onun həyata keçirilməsi üçün ardıcıl işlər görməyə başladı. Bu layihənin gerçəkləşməsi iqtisadi maraqların təmin olunması ilə yanaşı, regionda sülhün daha da bərqərar olunmasına imkan yaratdı. SSRİ dağılsa da hələ də onun acı nəticələri olan etnik münaqişələrin, separatizmin mövcud olması bütün regionda

sülhü və əmin-amanlığı böyük təhlükə altına qoymuşdur. Bu isə özünün sabit və əmin-amanlıq dövrünü yaşayan Avropanı ona coğrafi baxımdan daha yaxın olan Qafqazın qaynar və narahat bölgə kimi inkişafdan kənarda qaldığı üçün olduqca narahat edir.

Regionda etnik münaqişələrin olması sülh və təhlükəsizlik üçün böyük problemlər yaratdığından Qafqaz dövlətləri və xalqlarını dünya dövlətləri arasında iqtisadi və mədəni inteqrasiya proseslərindən uzaqlaşdırır.Bu isə ümumi inkişafı ləngidir, regionda sülhün və təhlükəsizliyin bərqərar olmasını çətinləşdirir.

Lakin regionun əlverişli mövqeyi ona bölgədə və dünyada sülh və inteqrasiya prosesində dominantlıq, aparıcılıq, liderlik mövqeyi qazandırır. Bu mövqedən səmərəli və beynəlxalq hüquq normalarına uyğun şəkildə istifadə edən Azərbaycan rəhbərliyi regionda sülh və inteqrasiya proseslərinin sürətləndirilməsi məqsədilə bir sıra iri beynəlxalq layihələrin işlənib hazırlanması və gerçəkləşməsinə başlamışdır.

Belə ki, "Böyük İpək Yolu"nun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin-"TRASEKA" proqramının həyata keçirilməsi, Xəzərin enerji ehtiyatlarından birgə istifadəyə dair "Əsrin müqaviləsi" adını almış neft müqavilələri, "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac neft kəməri, "Bakı-Tbilisi-Ərzurum" qaz kəməri layihələrinin əsas məqsədi regionun, o cümlədən Azərbaycanın. Gürcüstanın milli təhlükəsizliyi, xalqların rifahı, iqtisadi, mədəni inteqrasiyası, regional əməkdaşlığın sürətləndirilməsi, bölgə üçün vacib olan sülhün, əmin-amanlığın, sabitliyin möhkəmlənməsinə birbaşa xidmət etmiş oldu.

Qafqazı vahid iqtisadi qurumda birləşdirmək "... öz tarixləri ilə fəxr edən və gələcəyə inamla baxan insanların yaşadıqları dinc, tərəqqi edən regiona çevirmək..." ideyası ilə yaşayan Heydər Əliyev 1999-cu ilin dekabr ayında ATƏT-in İstanbul sammitində "Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq paktı"nın yaradılması təklifi ilə çıxış etmişdi.

Sammitdə Qafqazda sülhün çağdaş dünyanın maraqlarına tam uyğun olduğu, habelə regionda sülhün, təhlükəsizliyin təminatında mühüm amil olması xüsusi vurğulanmış və iştirakçı dövlətlərin başçıları tərəfindən müdafiə olunmuşdur.

Azərbaycanın XXI əsr neft strategiyasının memarı olan Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən Transqafqaz nəqliyyat qovşağında Xəzərin enerji ehtiyatlarının Qərbə nəqlini əsas tutan "BTC" və "BTƏ" neft və qaz kəmərləri layihələrinin reallaşması Cənubi Qafqaz dövlətlərinin, ilk növbədə Azərbaycanın, Türkiyənin və Gürcüstanın dövlət və milli təhlükəsizliyi, iqtisadi yüksəlişi, bütövlükdə regional və beynəlxalq inteqrasiya üçün çox böyük əhəmiyyət kəsb etdiyi bu gün bütün dünya tərəfindən etiraf edilir.

Bölgədə, ilk növbədə isə Azərbaycanda sosial-iqtisadi tərəqqinin hərtərəfli inkişafına əlverişli şərait yaratmaq məqsədi ilə Heydər Əliyev təkcə iqtisadi-siyasi amillərlə yanaşı, dünyada baş verən qlobal siyasi proseslərdən də ümummilli məqsədlərə çatmaq üçün istifadə etməyə çalışırdı. Belə ki, 20 sentyabr 2001-ci ildə dünyanın siyasi həyatında baş verən qlobal terror dalğası nəticəsində yaranmış beynəlxalq antiterror koalisiyasına Azərbaycan dövləti də dərhal qoşuldu. Onsuzda erməni terrorundan ən çox əziyyət çəkən Azərbaycan bunun fəsadlarını öz üzərində hələ ABŞ-dan çox öncə hiss etmişdi. İllərlə terrorun təkcə Azərbaycan üçün yox, dünyanın bütün xalqları üçün ən dəhşətli bəla olduğunu açıq bəyan edən Heydər Əliyev, beynəlxalq ictimaiyyətin terrorla mübarizə çağırışına da öz əməli işi ilə dəstək verdi. Azərbaycanın silahlı qüvvələri beynəlxalq sülh məramlı qüvvələrin tərkibində Kosovo, Əfqanıstan və Iraqda öz sülhpərvər missiyasını uğurla yerinə yetirir.

Ümummilli lider Heydər Əliyevin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirdiyi xarici siyasət kursunun ən mühüm uğurlarından biri də 2001-ci ildə Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi, Avropa ailəsinə

qovuşması oldu. Beləliklə Azərbaycan özünün gələcəyini Avropaya tam inteqrasiya ilə bağladı.

Heydər Əliyevin xarici siyasətini təhlil edərkən diqqəti cəlb edən əsas məqam ondan ibarətdir ki, o, gördüyü işlərin əsas qayəsini təkcə Azərbaycan xalqı və dövləti üçün deyil, eyni zamanda bütün region xalqlarının mənafeyi naminə, onların sülh və təhlükəsizlik şəraitində yaşayıb- inkişaf etməsi, bölgəni dünyanın siyasi-hərbi problemlərdən uzaq bir guşəsinə çevirmək təşkil edirdi.Bu da onun ümumbəşəri dəyərlərə malik bir şəxs olduğunu sübut edir.

Bu gün də Azərbaycan dövləti, onun lideri İlham Əliyev də Ümummilli Lider Heydər Əliyevin bizlərə miras qoyduğu siyasətə sadiq qalmaqla onu uğurla davam etdirir. Bölgədə sülhün və təhlükəsizliyin təmin olunması üçün bütün vasitələrdən istifadə edilir.

Ömrünün böyük bir hissəsini xalqına, Vətəninə bağlayan bu dahi şəxsiyyət haqqında hələ bundan sonra da çox deyiləcək, yazılacaqdır. Çünki o, Azərbaycan tarixində Heydər Əliyev dövrü adlı böyük bir mərhələnin başlanğıcını qoymuş və perspektivini müəyyənləşdirmişdir. Bu gün reallaşdırılan Heydər Əliyev ideyaları xalqımızı tərəqqiyə, ölkəmizi gələcək inkişafa aparan yolun, milli ideologiyamızın ana xəttini təşkil edir.

ELBRUS İSAYEV
Naxçıvan Dövlət Universiteti

BÖYÜK İPƏK YOLU ÜZƏRİNDƏ NAXÇIVAN ŞƏHƏRLƏRİ

Böyük İpək Yolu və qollarının keçdiyi Azərbaycan şəhərləri arasında Naxçıvan, Ordubad, Azad, Culfa və Qarabağlar şəhərlərinin özünəməxsus yeri vardır. Şərqlə Qərb arasında ticarət yolları ayrıcında yerləşmiş Naxçıvandan İrana, Hindistana, Orta Asiyaya, Çinə uzanan karvan yolu

Naxçıvanın iqtisadi və mədəni inkişafında əhəmiyyətli rol oynamışdır. Tarixi mənbələrdə Böyük İpək Yolunun bir qolu da Ekbatandan ayrılıb Albaniya ərazisinə keçdiyi, Qədim Qəbələ, Bərdə və Naxçıvandan dolanaraq yenidən Bağdada əsas yola qovuşduğu göstərilir. Yaxın Şərqin başqa orta əsr şəhərlərində olduğu kimi bu şəhərdə də sənətkarlıq və ticarət təsərrüfatın başqa sahələri ilə əlaqədar şəkildə inkişaf edirdi. Naxçıvanda istehsal olunan kənd təsərrüfatı məhsulları və şəhər sənətkarları tərəfindən hazırlanan müxtəlif növ əşyaların müəyyən qismi şəhər əhalisinin istehlakına sərf olunurdusa, bir hissəsi də bazara çıxarılır və başqa yerlərə ixrac edilirdi. Naxçıvandan ölkənin digər şəhərlərinə və Yaxın Şərq ölkələrinə duz, mis, pambıq, taxıl, quru meyvə, balıq və s. aparılırdı. Naxçıvan ustaları tərəfindən hazırlanmış müxtəlif məmulatlar, zərif parçalar, zinət əşyaları, ağacdan qayrılmış incə naxışlı qablar, saxsı əşyalar xarici bazarlara çıxarılırdı. Yaxın Şərq ölkələrindən öz növbəsində buraya müxtəlif əmtəələr gətirilirdi. Həmin əmtəələr içərisində ədviyyat, müxtəlif ipək parçalar, şirli saxsı qablar, fayans, seladon, metal əşyalar, silahlar və s. var idi (1, s.55).

Naxçıvan ərazisi beynəlxalq ticarət yollarının kəsişdiyi mühüm məntəqə idi. Təbrizdən Qara dəniz şəhərlərinə gedən ən qısa yol Naxçıvan ərazisindən keçirdi. Eyni zamanda Təbrizdən Qara dəniz vasitəsilə Avropaya gedən yol Naxçıvandan keçirdi. Bu ən münasib və qısa yollardan biri sayılırdı. Naxçıvandan və Culfa tərəfindən Araz çayı üzərində salınan körpülər bu yolu xeyli rahatlaşdırırdı (2, s.33). Ticarət əsasən şəhərlərdə aparıldığı üçün karvan yolları da bu şəhərlərdən keçirdi. Bunlardan ən mühümü Şamaxı-Qarabağ-Naxçıvan-İrəvan və Türkiyəyə gedən yol; Təbriz-Mərənd-Naxçıvan-İrəvan-Ərzurum-İstanbul yolu; Əylis-Naxçıvan-İrəvan-Kars-Ərzurum-Tokat-İzmir-İstanbul-Venesiya yolu idi (3, s.28). Orta əsr ərəb səyyahı və coğrafiyaşünaslarından İbnXordadbeh və Əbu əl-Fərəc Qudama Naxçıvandan Dəbilə qədər olan məsafəni 20 fərsəng. əl-İstəxri, ibn Havqəl, Əl-

Müqəddəsi və Əl-İdrisi isə dörd mənzil olduğunu göstərirlər. Buradan göründüyü kimi Naxçıvandan Dəbilə olan karvan yolunda hər «mənzil» beş fərsəngə bərabər idi. Naxçıvan həm də Mərənd, Xoy, Təbriz, Marağa, Urmiya, Səlmas, Xarrakan, Dəbil və s. şəhərləri birləşdirən tranzit-ticarət yolu üzərində yerləşmişdir. Naxçıvandan Mərəndə məsafə 20 fərsəng, Xoya 25 fərsəng, Səlmas 32 fərsəng, Urmiyaya 46 fərsəng, Marağaya 76 fərsəng, Dəbilə 20 fərsəng idi (1, s.58).

Orta əsr ticarət yollarının keçdiyi Naxçıvan ərazisində Ordubad şəhəri ticarət-iqtisadi cəhətdən mühüm əhəmiyyətə malik bir şəhər idi. Dəniz səviyyəsindən 950 metr yüksəklikdə, Naxçıvan şəhərindən 88 km cənub-şərqdə yerləşən, qədim zamanlardan Naxçıvan əhalisi tərəfindən «yerin cənnəti» adlandırılan Ordubad orta əsrlər Azərbaycanının əhəmiyyətli sənətkarlıq, ticarət, elm və mədəniyyət mərkəzi kimi şöhrətlənmişdir (4, s.4).

Xanlıqlar dövründə də Ordubad şəhəri ticarətdə mühüm rol oynamışdır. Ordubad şəhərində 35 topdansatış dükanı fəaliyyət göstərirdi. Ordubad bazarında 85 dükan var idi ki, onlardan 30-da ipək və pambıq parçalar, mahud, çay, qənd, kofe və s. satılırdı. İxrac olunan mallar əsasən daxildə istehsal olunan pambıq, çəltik, dəri, güncüt yağı, yun, quru meyvə və s-dən ibarət idi (5, s.109).

Ordubad şəhərinin ixrac etdiyi mallar Zaqafqaziyadan xeyli uzaqlara göndərilirdi. Ordubaddan Moskvaya, Nijneqorod yarmarkasına xam və boyadılmış ipək aparılırdı (6, s.96). Ordubad həm də Azərbaycanda qədim tarixə malik olan ipəkçiliyin yayıldığı ilk ərazilərdən biri olmuşdur. İpəkçiliyin bu ərazidə geniş yayılmasının və inkişafının başlıca faktorları bu ərazidə münbit hava şəraitinin olması və 40-60 gün ərzində barama qurdlarının düzgün qidalandırılmasıdır. Eyni zamanda ipəkçiliyin inkişafında iqtisadi amillərin rolu da böyükdür. Çünki bu dövrdə ipək sürətlə inkişaf edərək digər məhsullarla müqayisədə ən qiymətli mala çevrilmişdir (7, s.47).

Orta əsrlərdə Cülfa şəhəri beynəlxalq ticarətin iri

mərkəzlərindən biri kimi şöhrətlənmişdir. Mühüm ticarət yollarının keçdiyi Culfa şəhəri XV əsrədək kənd olmuş, bu zamandan etibarən onun iqtisadi yüksəlişi başlamışdır (8, s.237).

Bəzi mənbələrdə Culfa sözünün orta əsrlərdə fəaliyyət göstərən tacir təşkilatının adı ilə bağlı olduğunu göstərilməsi, bu ərazidə ticarətin mühüm rol oynadığını, hətta şəhərin salınmasının ticarətlə bağlı olmasını söyləməyə bizə əsas verir. Avropa ilə bir çox Yaxın Şərq ölkələrini birləşdirən və Böyük İpək Yoluna xidmət edən ən mühüm yollardan biri də məhz Təbriz-Mərənd-Culfa-Naxçıvan yolu idi (2, s.33). Bu yol vasitəsilə Culfa tacirləri Qərbi Avropanın Venesiya, Amsterdam, Marsel şəhərləri, habelə Suriya, Türkiyə və Hindistanda alver edirdilər. XVI əsrin II yarısından başlayaraq karvan yollarının üzərində yerləşən Culfa şəhərinin əhəmiyyəti daha da artır. 1581-ci ildə Culfaya gəlmiş ingilis taciri Nyuberi xəbər verir ki, şəhərdə evlərin sayı 3 minə, əhali isə 15-20 min nəfərə çatırdı. 10 il sonra şəhərdən keçib gedən digər ingilis taciri və səyyahı Kartvrayt burada 2000 ev və 10 min nəfər əhali olduğunu yazır.

Mühüm ticarət əhəmiyyəti olan Culfa ipək və digər mallarla ticarətin mərkəzi hesab edilirdi. T.e.d. O.Əfəndiyev ingilis səyyahı E.Edvardsın söylədiklərinə əsaslanaraq göstərir ki, XVI əsrin 60-cı illərində Culfa tacirləri Suriya limanı olan Hələbə 500 tay ipək gətirir və əvəzində yalnız 18 min parça Venetsiya maddəsi (qarazəy) aparırdılar. 1590-1613-cü illərə dair Venetsiya arxivinin məlumatlarına görə Suriyadan yalnız Venetsiyaya 23724 tay ipək gətirilmişdi (9, s.211). Göründüyü kimi Culfa şəhəri orta əsrlər dövründə nəinki Yaxın Şərq, eləcə də Avropanın inkişaf etmiş ticarət şəhərləri ilə geniş iqtisadi əlaqələrə malik olmuş və bu yolla da dövlət xəzinəsinin mühüm gəlir mənbələrindən birinə çevrilmişdir.

Qədim və orta əsrlər dövründə beynəlxalq karvan yolları üzərində mühüm məntəqə sayılan yurd yerlərindən biri də, adı yalnız mənbələrdə qeyd olunan Azad (Əsədabad)

şəhəridir. Vaxtilə Azad şəhərinin yerinin müəyyənləşdirilməsi müəyyən mübahisələrə səbəb olsa da sonrakı araşdırmalar bu şəhərin Ordubad şəhəri ilə Culfa şəhəri arasında yerləşdiyi sübut edilmişdir. T.e.d. H.Səfərlinin aşkar etdiyi bir neçə epiqrafik sənəd, qəbir daşı üzərindəki yazı Azad şəhərinin yerinin müəyyənləşdirilməsi üçün böyük əhəmiyyətə malikdir. Belə bir nəticəyə gəlinmişdir ki, Azad şəhəri indiki Aşağı Azadkəndinin yerində qəbristanlığın yaxınlığında yerləşmişdir. Şəhər inkişaf etmiş ticarət və sənətkarlıq mərkəzi olduğundan ətraf ərazi uzun müddət Kiranla (hazırda Naxçıvan-Ordubad şose yolunun sol tərəfində xarabalıqları qalan Aşağı Aza kəndindən təxminən 6-7 km şimalda yerləşən orta əsr şəhəri Gilan-Xaraba Gilan) birlikdə onun adı ilə Azad-Gilan adlanmışdır (10, s.10). Bu şəhər XI-XII əsrlərdə Yaxın və Orta Şərqin böyük ticarət və sənətkarlıq mərkəzi kimi şöhrət tapmışdı. Rusiya və oradan da Qərbə gedən mühüm ticarət yolları bu şəhərdən keçirdi. Gilançay üzərində bu günə kimi qalmış nəhəng körpü deyilənlərə bir daha sübut etməkdədir.

Karvan-ticarət yolları üzərində mühüm əhəmiyyət kəsb edən Azad şəhəri haqqında bir sıra səyyah və coğrafiyaşünasların əsərlərində rast gəlmək olar. Coğrafiyaşünas Həmdullah Qəzvini «Nüzhət əl-qülub» əsərində Azad şəhərinin adını çəkərək qeyd edir ki, Azad bol, taxıl, üzüm, pambıq məhsulları ilə şöhrət tapmış kiçik şəhərdir. Buranın şərabı çox məşhurdur. Əhalisi ağbənizdir (11, s.2).

Azad şəhəri haqqında səyyah J.B.Tavernye yazır: İki gün orada qaldıq, çox gözəl şəhərdir. İstirahət üçün yararlıdır. 4 karvansara vardır. Hər evin həyətində bir bulaq axır. Suyun çoxluğu bu ərazini məhsuldar etmişdir. Xüsusilə oranın əla şərabı vardır. Bütün dünyada marena (boyaq otu, qızıl boya) verən yeganə şəhərdir. Həmin boyaqotu vasitəsilə İran və Hisdistanda xeyli ticarət edirlər. Marena elə bir bitki köküdür ki, torpaqda yayılır və şirin biyana bənzəyir. Dabbaqlıqda ondan istifadə edirlər. həmin kökdən qırmızı

boya alırlar. O, elə qırmızı boyadır ki, Hindistanda və Böyük Monqol ölkəsində toxunan parçalara bəzək verir. Karvanların əksəriyyətinin yükləri həmin marenadan ibarətdir (12, s.8). Göründüyü kimi əsas karvan yollarının keçdiyi bu ərazidə yerləşən Azad şəhəri orta əsrlər zamanı mühüm ticarət və sənətkarlıq mərkəzi kimi şöhrət qazanmışdır.

Qədim yaşayış məskəni Qarabağlar şəhəri öz məşhur bazarları, karvansaraları, türbələri və qiymətli məhsulları ilə Naxçıvanın mühüm ticarət şəhəri olmuşdur. XVIII əsrin məşhur türk səyyahı Ölviya Çələbi Naxçıvan torpağındakı çox qədim şəhər olan Qarabağların tarixindən, abidələrindən, təbii şəraitindən, təsərrüfatından bəhs edərək göstərir: Qarabağlar şəhəri 50 min nəfər əhalisi, 10 minə qədər evi, 40-a qədər minarəsi, 70 məscidi, karvansaraları, bazarları, hamamları, meyvə bağları, üzümlükləri, yaxşı havası və suyu olan bol nemətli bir yaşayış məntəqəsidir (13, s.118). Fikrimizcə çoxlu karvansara və bazara malik olması şəhərin orta əsr ticarətində əhəmiyyətli rol oynadığını sübut edən mühüm faktdır. Qarabağlar şəhəri Ordubad-Naxçıvan-Sədərək ticarət yolu üzərində salınmış mühüm ticarət, sənətkarlıq və mədəniyyət şəhəri olmuşdur. Şəhər haqqında Tavernye yazır: Karvan Arpa çayından keçir. Bu çay Araz çayına tökülür. Bir liv uzaqlaşıb, cənubda yerləşən körpüdən keçmək lazımdır. Oradan Fəkənd qalasına doğru gedib gecələyirlər. Birinci gün həmin düzənlikdən keçdikdən sonra Qarabağlar adlı bir karvansaraya çatırlar. 1664-cü il son səfərimdə həmin Qarabağlar karvansarası yenicə tikilib istifadəyə verilmişdir. Karvansaradan Naxçıvana bir günlük yolundan da az məsafə var idi (12, s.8).

Göründüyü kimi Böyük İpək Yolunun düyün nöqtəsində yerləşən Naxçıvan ərazisi hər zaman diqqət mərkəzində olmuş və dünyanın bir çox ölkələri, o cümlədən uzaq Qərb dövlətləri ilə geniş əlaqələr qurmuşdur.

Ədəbiyyat

1. R.Məmmədov. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, 1977
2. F.M.Əliyev. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. Bakı, 1964
3. Z.Həsənaliyev. Avropa səyyahları. Səfəvi dövlətinin daxili və xarici siyasəti haqqında. Tarix və onun problemləri. №3, Bakı, 2003
4. H.Səfərli. Ordubad şəhərinin epiqrafik abidələri. Bakı, 2004
5. F.Ağamalı. XVIII əsrin II yarısı – XIX əsrin əvvəllərində Qüzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti. Bakı, 1999
6. F.M.Əliyev. XVIII əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərləri. Bakı, 1960
7. Paşaev A. Qorod Ordubad v XIX – naçale XX vv. Baku, 1998
8. Эфендиев О. Азербайджанское государство Сефевидов. Баку, 1981
9. O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993
10. Сафаров Ф.Я. Арабо – персоязычные надписи Нахичеванской АССР (XBЫ-XЫX вв.) как историко-культурные памятники. Дисс.канд.ист.наук. Баку, 1987, с.101-102; Yenə onun: Bir daha Azad şəhəri haqqında. Ali Diplomatiya Kolleci. Naxçıvan Bölməsi. İctimai Elmlər Məqalələr məcmuəsi, №1, Bakı, 1998
11. M.Nemət. Aza kəndi-Azad şəhəri haqqında. Elm və həyat. №2, Bakı, 1990
12. S.M.Onullahi. Jan Battist Tavernye Naxçıvan haqqında. Bakı Universitetinin Xəbərlərinin Xüsusi buraxılışı. №3, Bakı, 1999
13. E.Çelebi. Seyahetname. Ankara, 1998

NADİR HÜSEYNBƏYLİ
Naxçıvan Dövlət Universiteti

NAXÇIVANDA SOVETLƏŞMƏYƏ QARŞI MÜQAVİMƏT HƏRƏKATI

Bolşeviklər hakimiyyətə yiyələnən kimi, verdikləri vədə xilaf çıxaraq, Azərbaycanda qırğınlar törətdi, talançılığa başladılar. Onların bu hərəkətləri əhali arasında ciddi narazılığa səbəb oldu. Xalqa qarşı yeridilən siyasi təzyiqlərin başında Azərbaycanın hüquq-mühafizə və sovet təhlükəsizlik

qurumları dayanırdı. Azərbaycanın dövlət qurumlarında ruslar və ermənilər əsas fiqurlardan idi. Zorakılıq və özbaşınalıqlar qanuni bir hal hesab edilirdi.

N.Nərimanov 1920-ci il sentyabrın 15-də Təşkilat və Siyasi bürolarının birgə keçirdikləri iclasda çıxış edərək bildirdi ki, Fövqəladə Komissiyanın fəaliyyəti əksinqilabı nəinki öldürmür, əksinə yeni əksinqilabçılar yaradır (1).

Kommunist rejiminin xalqa, onun milli həyatına qarşı yeritdiyi zorakılıq siyasəti xalqın daxili hiddətinə və qəzəbinə səbəb oldu. Nəticədə bolşevik- rus özbaşınalıqlarına etiraz əlaməti olaraq, mayın 26-dan iyunun 20-dək Şəmkirdə, Lənkəranda, Astarada, Qubada, Qusarda, Naxçıvanda, Gəncədə, Ağdaşda, Göyçaydа, Nuxada, Ağdamda, Şuşada, Tərtərdə və Zaqatalada silahlı üsyanlar baş verdi (2).

Azərbaycanın, demək olar ki, bütün yerlərində bolşevik diktatura rejiminə qarşı müqavimət hərəkatı yaranır, açıq silahlı çıxışlara gətirib çıxarırdı.

Bir- birinin ardınca baş verən üsyanlar və hadisələrə qarşı bolşeviklər sərt tədbirlər görürdü. Üsyanların və kəndli ixtişaşlarının genişlənməməsi üçün onlar ayrı- ayrı rayonlara nümayəndələr göndərir və yerlərdəki vəziyyəti öyrənməyə, fövqəladə hadisələrin qarşısını almağa çalışırdılar.

İlk illərdən Naxçıvanda və ətraf kəndlərdə sovet hakimiyyətinə qarşı üsyanlar və etiraz aksiyaları başlandı. 1920-ci il iyunun 19-da S.Orconikidze V.Leninə və G.Çiçerinə göndərdiyi məktubda yazırdı: «Qarabağda və Zəngəzurda sovet hakimiyyəti elan edilmişdir. Göstərilən ərazilər Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz tərkib hissəsidir. Naxçıvan bir neçə aydır üsyançı müsəlmanların əlindədir. Ümumiyyətlə, mənim fikrimcə, Azərbaycanın nümayəndəsini Moskvaya çağırıb onunla birlikdə Azərbaycana və Ermənistana aid mübahisəli məsələləri həll etmək lazımdır» (3).

S.Orconikidzenin də məktubundan göründüyü kimi 20-ci illərin əvvəllərində Naxçıvanda da sovetləşməyə qarşı müqavimət hərəkatı güclü olmuşdur. Belə etiraz

aksiyalarından birincisi Cəhri kəndində həyata keçirildi. Belə ki, XI Qızıl Ordunun Naxçıvandakı özbaşınalıqlarına, talanlarına, əhali ilə sərt rəftarına etiraz əlaməti olaraq 1921-ci ilin yanvar ayının 28-də cəhrililər qiyam qaldırdılar. «Bu qiyamın başında türk zabitləri dururdular. Qiyamçılar dairə inqilab komitəsini, torpaq komitəsini və ərzaq komitəsini həbsə ala bildilər. Onlar Tirkeş və Qızıl- Boğaz məntəqələrində olan əksinqilabçı ünsürlərlə birləşib Naxçıvan şəhəri üzərinə yeriməyi nəzərdə tuturdular» (4).

Üsyançılar az müddət də olsa Cəhridə sovet hakimiyyətini devirə bildilər. Onların planları daha geniş idi və çalışırdılar ki, qiyamın coğrafiyası getdikcə genişlənsin. qiyama bütövlükdə Naxçıvan da qoşulsun. Bu məqsədlə onlar Naxçıvanda olan türklərlə də danışıqlar aparmış və razılaşmışdılar ki, etiraz aksiyaları başlandığı təqdirdə osmanlı türkləri də onlara qoşulacaq və qüvvələrini birləşdirərək bolşevik hakimiyyətinə son qoyacaqlar. Qiyamın daha da genişlənəcəyindən qorxuya düşən bolşeviklər, xüsusilə də Qızıl Ordu və Fövqəladə Komissiyanın gördüyü tədbirlər nəticəsində onun qarşısı alındı və qiyam yatırıldı, onlarla qiyamçı həbs edildi.

Qiyamın yatırılması müvəqqəti olaraq müqavimət hərəkatını sakitləşdirsə də, onu bütövlükdə dayandıra bilmədi. Naxçıvanın müxtəlif yerlərində qısa müddətli və qeyri- kütləvi olsa da, etiraz aksiyaları baş verdi. Lakin Cəhri hadisələrinin davamı 1921-ci ilin fevral ayının 18-də Qaraçuq və Tirkeş kəndlərində oldu. Bu dəfə aksiya iştirakçıları yalnız osmanlı türkləri ilə deyil, eyni zamanda bolşevik təqiblərindən qorunmaq üçün İranda mühacirətdə olan dəstələrə də ümid bəsləyirdilər. Maraqlıdır ki, qiyam zamanı sovet hərbi hissələrindən olan qüvvələrin də bir qismi qiyamçıların tərəfinə keçmişdirlər. Bütün qüvvələrini səfərbər edən sovet hərbi birləşmələri və xüsusi xidmət orqanları Qaraçuq qiyamını yatıra bilsələr də, Tirkeşdə bunu bir müddət edə bilmədilər. KQB-nin o zamankı məlumatında deyilirdi: «Burada komanda heyətinin satqınlığı üzündən

Qızıl Ordunun bir batalyonu quldur dəstələri tərəfindən gözlənilmədən mühasirəyə alındı; quldurlar vacib strateji nöqtələri ələ keçirərək batalyonu tamamilə məhv etmək qərarına gəldilər. Naxçıvan Ölkə Partiya Komitəsi, İnqilab Komitəsi, Naxçıvan Fövqəladə Komissiyası və Qızıl Ordunun komandanlığı mühasirəyə alınmış, qırmızı döyüşçülərə yardım etmək çağırışı ilə ölkənin bütün zəhmətkeşlərinə müraciət etdilər. Kommunist partiyası və Sovet hakimiyyətinin çağırışına cavab olaraq Şahbuz, Cəhri, Sələsüz və s. kəndlərin əhalisi antisovet qiyamçı dəstələrinə qarşı mübarizəyə qalxdılar. Kəndlilər qiyamçıların rabitə yollarını kəsib onların başlıca qüvvələrinin və hərbi sursatının yerləşdiyi Tirkeş kəndini mühasirəyə aldılar və qiyamçıları qızıl əsgərləri mühasirədən buraxmağa məcbur etdilər. Beləliklə, antisovet quldur dəstələri bu dəfə öz arzularına çata bilmədilər» (5).

Naxçıvan Fövqəladə Komissiyası və hüquq- mühafizə orqanları üsyanlar yatırıldıqdan sonra Qaraçuq və Tirkeş kəndlərinin üsyançılarının böyük əksəriyyətini həbs etdi. Onların çoxu məsuliyyətə cəlb edildi, bəziləri cərimələndi, qalanları isə müxtəlif müddətlərdə islah əmək koloniyalarında və ya həbs düşərgələrində saxlanıldıqdan sonra buraxıldı. Azadlığa buraxılanların hamısı bir nəfər kimi nəzarətə götürüldü. Onların bəzilərinə rayonu tərk etmək qadağan edildi.

1925-ci ildə Mir Cəfər Bağırov Mərkəzi Komitəyə göndərdiyi məktubda bildirirdi ki, 1925-ci ilə kimi Azərbaycanın müxtəlif yerlərində 52 üsyan hadisəsi baş vermişdir. Bu fakt bir daha onu göstərir ki, bolşevizmə qarşı mübarizə heç də ötəri, keçici xarakter daşımamış, o güclü və mütəşəkkil olmuşdur. Doğrudur, həmin dövrün mətbu mənbələrində bu hadisələr geniş oxucu kütlələrinə təhriflərlə çatdırılmışdır. Məsələn, sovet ideologiyasının diqtəsi ilə təbliğ edilmişdir ki, bolşevikləşməyə qarşı yönəldilmiş mübarizənin, xüsusilə də üsyan və qiyamların yatırılmasında xalq kütlələri Sovet hökumətini dəstəkləmişdir. Əslində isə həmin etiraz aksiyalarında çıxış edənlərin böyük əksəriyyəti

elə kəndlilərin özləri olmuşdur. Sovet hüquq-mühafizə orqanlarının tətbiq etdiyi total cəza tədbirlərindən qorxan əhalinin bir qismi isə dəstəklədiyi qolçomağı və mülkədarı da açıq müdafiə etmədən çəkinmişlər.

Azərbaycanda bolşevikləşməyə qarşı mübarizənin yeni və ən güclü dalğası 1930-cu ildə baş verdi. Belə ki, kolxoz quruculuğunda qolçomaqlara. mülkədarlara və ortabab kəndlilərə qarşı zorakılıq, inzibatçılıq, qeyri- insani rəftar və repressiyalar onların narazılığına səbəb olurdu. 1930-cu ilin əvvəllərində Şəki- Zaqatala mahalında, Xızının Ağdərə, Şəmkirin Bitdili, Cəbrayılın Sirik, Naxçıvanın - Keçili, Milax, Ərəfsə və b. kəndlərində üsyanlar qalxırdı.

Moskvanın apardığı ruslaşdırma siyasəti və 1928-1929-cu illərdə keçirilən seçkilər də milli narazılıqlara səbəb oldu. Xalqın demək olar ki, 86%-i seçki hüququndan məhrum edilmişdi. Seçkilərdə yalnız fəhlə və yoxsul kəndlilər iştirak edə bilərdi. Ziyalılar, ortabablar, tacirlər, qolçomaqlar, mülkədarlar və s. seçkiyə buraxılmırdı. 1929-cu ilin sonlarından bütün ortabab kəndlilərə məxsus torpaq, əmlak, heyvan və digər məhsullar nə varsa müsadirə edilib kollektivlərə verilməyə başlandı. Bunun nəticəsi olaraq, 1930-cu ilin fevral, mart-. aprel aylarında geniş və qanlı qiyamlar qalxdı. Qiyamlara qoşulanların, partizan-qaçaqçılıq hərəkatı tərəfdarlarının sayı ketdikcə artırdı.

Ölkədə siyasi və iqtisadi cəhətdən əhalinin mənafeyinə zidd olan qərarların qəbul olunması yerlərdəki narazılıqları daha da artırırdı. Məsələn, 1930-cu ilin fevralında AK(b)P MK-nın fərdi təsərrüfatlarda olan mal-qaranın ictimailəşdirilməsi barədə verilən qərarı kəndlilərin ciddi narazılığına səbəb olmuşdu. Bunun nəticəsi idi ki, Şərur, Ordubad və digər rayonların dağ kəndlərində silahlı müqavimətlər genişlənirdi (6).

1930-cu il martın 18-də Naxçıvanın Qızıl- Boğaz mahalında Qasım və Əlibəyin başçılıq etdiyi qaçaqlarla Qızıl Ordu arasında iki gün qanlı döyüşlər olmuşdur. Rus əsgərləri sonradan günahsız insanları qılıncdan keçirmişdilər .

Bu səbəbdən mart- may aylarında bir sıra yerlərdə əhali tərəfindən kolxozlar ləğv edildi. 1930-cu ilin martın 20-22-də Şahbuz rayonunda cəmlənmiş 500-ə qədər silahlı kəndlinin müqavimət dəstəsinə qarşı hökumət nizami ordu hissələri yeritmişdi. MTN-in arxivində qorunub saxlanılan 270 saylı istintaq işi də bir çox mətləblərə aydınlıq gətirir. Həmin istintaq işində göstərilir ki, Naxçıvan MSSR-də Sovet hakimiyyətini qəbul etməyən Nəhəcir dəstəsi Naxçıvan mahalında etiraz aksiyalarına başlayır. Üsyançılar qonşu Əbrəqunus rayonunun Ərəzin, Əbrəqunus, eyni zamanda Şahbuz rayonunun Keçili və b. kəndlərin üsyançılarını birləşdirərək bolşevizmə qarşı mübarizə aparmışdır. İstintaq materiallarından aydın görünür ki, üsyan yatırıldıqdan sonra Dövlət Siyasi İdarəsinin əməkdaşları, xüsusilə də Orbelyan üsyançılara qarşı amansız olmuş, onların böyük əksəriyyəti güllələnmiş, bir çoxu isə müxtəlif müddətlərə azadlıqdan məhrum edilmişdir. Belə ki, həbs olunan 89 nəfərdən 50 nəfəri güllələnmiş, 6 nəfər üç il, 17 nəfər beş il, 4 nəfər altı il, 3 nəfər yeddi il, 3 nəfər səkkiz il, 3 nəfər on il azadlıqdan məhrum edilmişdir (7). Böyük «işgəncələrlə 40 ailə, o cümlədən uşaqlar, körpələr, 90 yaşlı qocalar, xəstələr, hamilə gəlin və qadınlar vaqonlara doldurulub həmişəlik yaşamaq üçün sürgünə göndərildi» (8). Bu cür repressiyalar respublikanın digər bölgələrində də davam edirdi. Belə ki, 1930-cu il fevralın 19-da Zaqatalada 128 nəfər, fevralın 20-də Lənkəranda 99 nəfər, fevralın 26-da Şirvanda 147 nəfər, aprelin 15-də Muğanda 50 nəfər qolçomaq və antisovet cəzalandırılımış və mülkləri müsadirə olunmuşdur (9).

Göründüyü kimi Azərbaycanda, o cümlədən Naxçıvanda da xalq bolşevizmə qarşı kütləvi aksiyalar keçirmiş, sovet rejiminin yeritdiyi siyasəti qəbul etməmişdir.

Ədəbiyyat:

1. Azərbaycan Respublikası MDA. F.1. siy.1, iş 24, v. 10.
2. Siyasi tarix. I cild, Bakı, 2001, s. 163.
3. Naxçıvan MR MDA. F. 63, iş 4, v.1-2.

4. Mədətov Q. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili, Bakı, 1958, s. 96.
5. Yaqublu N. Müsavat partiyasının tarixi. Bakı, 1997, s. 147.
6. Sadıxov S. Naxçıvan Muxtar Respublikasının tarixindən. Bakı, 1995, s. 80.
7. Qasımov C. Yaddaşın bərpası, Bakı, 1999, s. 102-103.
8. Zeynaloğlu S. Tarixin qanlı yaddaşı, Bakı, 1999, s. 47.
9. Məmmədov E. Kənd təsərrüfatının elliklə kollektivləşməsi illərində Azərbaycan kəndində sinfi mübarizə (1930-1937-ci illər), Bakı, 1967, s. 42.

II. FƏLSƏFƏ, İQTİSADİYYAT VƏ HÜQUQ ELMLƏRİ

MƏMMƏD RZAYEV
Naxçıvan Dövlət Universiteti

MÜASİR KEÇİD DÖVRÜ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASININ BƏZİ MƏSƏLƏLƏRİ

XX əsrin sonlarından etibarən elmdə şəxsiyyət probleminə genişmiqyaslı maraq müşahidə edilir. Bu təsadüfi olmayıb, bir sıra amillərlə şərtlənir. Hər şeydən əvvəl sovetlər ittifaqı dağıldıqdan sonra onun ərazisində yaranan müstəqil milli dövlətlər açıq cəmiyyətə keçid yoluna qədəm qoymuşlar. Həmin dövrdə ictimai həyatın bütün sfera və tərəflərində baş verən əsaslı dəyişikliklər şəxsiyyətin həyat tərzini, dünyagörüşünü ciddi şəkildə yeniləşdirir, onun öz mahiyyət qüvvələrini reallaşdıra bilməsi üçün misilsiz imkanlar açır. Digər tərəfdən keçid dövrü şəxsiyyət tipinin formalaşmasına dünyanın elmi mənzərəsinin təkamülü, genişmiqyaslı qloballaşma prosesləri də özünün güclü təsirini göstərir. Sonrakı prosesdə cəmiyyətdə ictimai həyat formalarının təzələnməsi və təkmilləşməsi şəxsiyyətin dəyərlərini və dəyərlər oriyentasiyasını, onun sosial ideal, həyatın mənası və ədalətlilik haqqında təsəvvürlərini də əsaslı surətdə yeniləşdirir.

Müasir şəxsiyyətin yaşadığı sosial şəraitin əsaslı surətdə yeniləşməsi həm də şəxsiyyətin elmi anlaşılmasında öz müvafiq əksini tapır. Bunun nəticəsidir ki, hazırda insanın varlığını bütöv bir tam kimi götürən, onun maddi və mənəvi həyatını ayrılmaz hesab edən nəzəriyyələr yaranır. Bu isə şəxsiyyətin bütün canlılar aləminin özünəməxsus fenomeni

kimi elmi mənalandırma problemini fundamental əsaslar üzərinə keçirir.

Nəzərdə tutmaq lazımdır ki, şəxsiyyətin fəlsəfi təhlili digər elmlərdən (sosiologiya, psixologiya, pedaqogika və s.) fərqli olaraq, onu müstəqil bir bütövlük kimi götürərək, dünyaya, cəmiyyətə, müasir dövrdə baş verən proseslərə və nəhayət özünün özünə olan müxtəlif münasibətlərini araşdırır. Buna görə də şəxsiyyətin fəlsəfi anlamı onun konkret elmlər tərəfindən öyrənilməsinin əsası, özülü rolunu oynayır (2,s.9).

Hər bir cəmiyyətin şəxsiyyəti buradakı ictimai münasibətlərin, insanların müxtəlif və çoxtərəfli fəaliyyət növlərinin kəsişmə nöqtəsini təşkil edir. O eyni zamanda müxtəlif sosial birlik formalarının (millətin, sinfin, əmək kollektivinin, ailənin və s.) üzvüdür. Şəxsiyyətin fəaliyyəti təkcə onu əhatə edən mikromühit ilə deyil, bütövlükdə ictimai həyat ilə, onun keçmişi və gələcəyi ilə müəyyən olunur. Həm də cəmiyyət inkişaf etdikcə şəxsi və ictimai mənafelər arasında əlaqələr daha da möhkəmlənir, digər tərəfdən isə şəxsiyyət ümumsosial əhəmiyyətli dəyərləri öz əməllərinə daha dərindən hopdurur. Buradan aydındır ki, müasir cəmiyyətin və bütövlükdə bəşəriyyətin topladığı tarixi təcrübə və ictimai inkişafın gələcək meyilləri onun formalaşmasında müstəsna dərəcədə böyük rol oynayır. Lakin bu rol həmişə eyni səviyyəli deyildir. Başqa sözlə şəxsiyyət nə qədər yüksək inkişaf səviyyəsinə malikdirsə, onun ətraf mühitdən asılılığı da bir o qədər az olur və ya əksinə (5,s.526).

Müasir fəlsəfi fikirdə şəxsiyyət haqqında əsasən iki başlıca konsepsiya mövcuddur. Birinci konsepsiya şəxsiyyəti insanın funksional xarakteristikası və ya rolu baxımından qiymətləndirir. Digər konsepsiyaya görə şəxsiyyət mahiyyəti ilə səciyyələnir.

Birinci konsepsiya insanın sosial funksiyası anlayışına, daha doğrusu sosial rol anlayışına əsaslanır. Bu konsepsiya

XX əsrin 30-cu illərində Amerika sosial psixalogiyasına C.Mid tərəfindən gətirilmiş və müxtəlif sosioloji cərəyanlarda geniş yayılmışdır. Lakin bütün əhəmiyyətinə baxmayaraq həmin konsepsiya insanın daxili aləmini dərindən açmağa imkan yaratmır, eləcə də onun həqiqi mahiyyətini həmişə ifadə etməyə istiqamətləndirmir. Struktur-funksional təhlil nəzəriyyəsinin nümayəndələri, ilk növbədə isə müasir sosiologiyanın görkəmli nümayəndəsi amerika alimi T. Parsons belə hesab edir ki, şəxsiyyət hər hansı cəmiyyətdə müxtəlif fərdlərə xas olan cox saylı sosial rolları həyata keçirən varlıqdır. Sosial rollların sistemləşdirilməsinə ilk səy göstərənlərdən biri məhz T.Parsons olmuşdur.

Şəxsiyyət anlayışını daha dərindən açıqlamağa ikinci konsepsiya xidmət edir, başqa sözlə, şəxsiyyətin mahiyyətli xarakterikasını üzə çıxarır, onun tənzimləyici-mənəvi imkanlarını, iradə mənbəyini və xarakterinin mahiyyətini, azad hərəkətlərinin subyektini, insanın daxili həyatının ali cəhətlərini ifadə edir.

Şəxsiyyətə dair daha məqsədyönlü sayılan axırıncı konsepsiyanın tərəfdarlarından biri, görkəmli Rusiya filosofu A.Q.Spirkin yazır:"Şəxsiyyət ictimai münasibətlərin və insanların funksiyalarının fərdi əsasıdır, dünyanın dərk olunmasının və dəyişdirilməsinin, hüquq və vəzifələrin, etik, estetik, və bütün digər sosial normaların subyektidir"(4,s.358-359). Məhz, bu mənada şəxsiyyət həmişə mənəvi cəhətdən inkişaf etmiş insandır.

Şəxsiyyətin mahiyyətinin səciyyələndirilməsi həmçinin, normativ konsepsiyada öz əksini tapır. Funksional və ya sosial rol konsepsiyasından fərqli olaraq bu konsepsiya məcburi və oriyentasiya xarakteri daşıyır, şəxsiyyəti onun əhatəsində olan aləmi müəyyən dərəcədə dərk etmək, qiymətləndirmək və davranmaq formasında araşdırır.

Fəlsəfi ədəbiyyətda şəxsiyyətin mahiyyətinin müəyyənləşdirilməsi digər mövqelərdən də təhlil olunur. Bu baxımdan fəaliyyət konsepsiyası maraq doğurur. Həmin

konsepsiya tərəfdarlarından olan L.S.Vıqotski şəxsiyyəti hər şeydən əvvəl. fəaliyyətdə olan varlıq kimi araşdırır və belə bir mühakimə yürüdür ki, şəxsiyyətin dərk olunmasına imkan yaradan müəyyən edici amil məhz, "fəaliyyət" kateqoriyasının təhlilidir. Çünki şəxsiyyətin məqsədi, vəzifələri, davranışı və hərəkətləri yalnız onun fəaliyyətində üzə çıxır. Beləliklə, şəxsiyyət insanın biososial başlanğıcının son və yekunlaşdırıcı funksiyası kimi çıxış edir. Şəxsiyyət inteqrativ başlanğıca malik fenomen olmaq etibarilə insanda üç əlamətin-bioloji, sosial və psixoloji komponentlərin məcmuu kimi səciyyələnir. "Şəxsiyyət onu təşkil edən üç başlıca cəhətin: biogenetik qabiliyyətin, sosial amillərin (mühit, şərait, normalar) və onun psixososial əsasının məcmuudur (4,s. 360-364).

"Şəxsiyyət" anlayışını təşkil edən cəhətlərin məcmuunun müəyyənləşdirildməsi iki mühüm cəhətə malikdir: Əvvəla şəxsiyyətin sosial əhəmiyyətini səciyyələndirir. Şəxsiyyət insani fərddir, münasibətlərin və şüurlu fəaliyyətin fəal, məqsədyönlü subyektidir. İkinci cəhət insanın sosial-psixoloji simasının kifayət qədər sabit təzahürünü göstərir. Burada şəxsiyyət fərdləri səciyyələndirən daimi və müəyyən sosial əhəmiyyətli amillərin məcmuu kimi çıxış edir.

Bəzən elmi ədəbiyyatda şəxsiyyətinin xüsusiyyətinin müxtəlif növlərinin öyrənilməsi bir-birindən təcrid olunmuş halda aparılır, hətta bir sıra hallarda onlar bir-birinə qarşı qoyulur. Nəticədə nəzəri idrakın inkişafı üçün təbii hal hesab olunan şəxsiyyətin müxtəlif səpkilərinin sadəcə seçilib ayrılması deyil, onların bir-birindən təcrid edilməsi və şəxsiyyətin varlığının ayrı-ayrı cəhətlərinin fetişləşdirilməsi baş verir (6,s.188).

İnsanın məcmu fəaliyyəti haqqında idea müasir dövrdə şəxsiyyətin fəlsəfi araşdırılmasında aşağıdakı üç mühüm nəticəyə gətirib çıxarır:

1) şəxsiyyətin inkişafının köklərini təkcə insan şüurunun subyektiv təzahürlərində, onun tələbatlarında və

ona xarici mühitin təsirində deyil, məqsədyönlü, çoxtərəfli fəaliyyət prosesində axtarmağın zəruriliyini əsaslandırır. Göstərir ki, insan öz fəaliyyətində subyektiv və obyektiv momentləri birləşdirərək, bütünlükdə təbiəti yüksək səviyyədə insaniləşdirməyə qadirdir. İnsanın fəaliyyəti nə dərəcədə çox universaldırsa, o insan kimi bir o qədər də çox spesifik olur.

2) insanın fəaliyyət sisteminin öyrənilməsi bu fəaliyyətin yaradıcı və məqsədyönlü xarakterini üzə çıxarır. Bununla da nəzəri fikir insanın nə üçün yaşadığını və çalışdığını anlamaq imkanı əldə edir (3,s.197).

3) bu mövqedən aparılan təhlil insanın dünyasını yalnız tələbatların ödənilməsinə muncər edən baxışların bir tərəfliliyini aradan qaldırmağa kömək edir.

Şəxsiyyətin problemlərinin tədqiqində fəlsəfi metodologiyanın mühüm bir prinsipi aşağıdakından ibarətdir: anlayışı ilə məzmunca ona yaxın olan insan orqanizmi, fərd və fərdiyyət anlayışları arasındakı münasibətləri araşdırarkən zahiri, sxematik əlaqələri əsas götürmək yolverilməzdir. Əks halda stereotip təfəkkürdən doğan nöqsanlar labüd surətdə özünü göstərir. Halbuki, fəlsəfi ədəbiyyatda bəzən sözügedən anlayışları yalnız dairə və sxemlərlə izah etmək cəhdlərinə rast gəlinir (1,s.54). Keçid dövrü şəxsiyyət tipinin sosial-fəlsəfi təhlili həm də onun sosial rolunda baş verən əsaslı dəyişiklikləri nəzərə almağı tələb edir. Çünki məhz şəxsiyyətin sosial rolu onun konkret şəraitdə davranışı üsullarını şərtləndirir, beləliklə də onun əhatəsində olan insanların bu barədə ümidlərini formalaşdırır. Şəxsiyyətin sosial rolu sabit deyildir, daim yeniləşməkdə olan sosial şəraitin təsiri altında dəyişilir. Sosial rolun digər bir xüsusiyyəti bundadır ki, o özündə həm tipik və ümumiləşmiş, həm də individual, fərdi tərəfləri əhatə edir (5,s. 112).

Müasir şəxsiyyətin çox mühüm keyfiyyətini onun tərəfindən dəyərlərin yenidən mənalandırması prosesinin

həyata keçirilməsi təşkil edir. Dəyərlər sisteminin və dəyərlər oriyentasiyasındakı dəyişikliklərin böyük rolu bundadır ki, insanın daxili aləmi məhz onların vasitəsilə bütövlükdə cəmiyyətlə, habelə buradakı ayrı-ayrı sosial qruplar ilə əlaqələr yaradır. Bununla əlaqədar qeyd edək ki, keçid dövründə baş verən bir sıra proseslər, xüsusilə də bazar münasibətlərinin və azad sahibkarlığın formalaşması gedişində şəxsiyyətin dəyərlər sistemində çox ciddi dəyişikliklər baş verir. Bunları səciyyələndirərkən E.From hazırda şəxsiyyətin yeni – «bazar» tipinin formalaşdığını qeyd edir. Belə şəxsiyyət üçün gəlir əldə etmək, uğurla sövdələşmələrə daxil olmaq məqsədi ön plana keçir. Nəticədə şəxsiyyətin ənənəvi mənəvi dəyərlərinin təsir dairəsi zəifləyir, onların yerini maddi mülahizələri ifadə edən dəyərlər tutur (7,s.27).

Keçid dövrü şəxsiyyətinin sosial simasının çox mühüm yeni keyfiyyətini onun fəallığının qeyri-adi dərəcədə yüksəlməsi təşkil edir. Bu proses milli dövlətçiliyin yaradılması və möhkəmləndirilməsi, ölkənin siyasi həyatının sabitləşməsi, siyasi sferada fikir pluralizminin bərqərar olması, azad sahibkarlığa və işgüzar rəqabətə geniş meydan verilməsi, mənəvi həyatda demokratikləşmənin genişlənməsi, şəxsiyyətin sərbəst yaradıcılığı üçün zəruri olan mühitin təmin edilməsinin nəticəsi kimi çıxış edir.

Müasir şəxsiyyətin həyat və fəaliyyəti prinsipcə yeni şəraitdə baş verir, bu indiki şəxsiyyət tipini keçmiş tarixi tiplərdən fərqləndirən özünəməxsus cəhətləri nəzərə almağı tələb edir. Şəxsiyyətin müasir tipinin formalaşdığı şərait özünün qlobal miqyasda və əsaslı sürətdə yeniləşməsi ilə səciyyələnir. Bu keyfiyyət yeniliyi sosial həyatda aşağıdakı əsas amillərdə ifadə olunur: müstəqillik əldə olunduqdan sonra digər postsovet respublikalarında olduğu kimi, Azərbaycanda da totalitar rejimin qalıqlarının aradan qaldırılmasına və açıq cəmiyyətə keçidi səciyyələndirən strateji xarakterli əsaslı dəyişikliklərin baş verməsi, ictimai

həyatın bütün sahələrində əsaslı demokratikləşdirmə xəttinin ardıcıl surətdə həyata keçirilməsi, köklü iqtisadi islahatlar nəticəsində mülkiyyət formalarının müxtəlifliyinə rəvac verilməsi və xüsusi mülkiyyətin rolunun artırılması, azad sahibkarlığın və bazar münasibətlərinin formalaşması , siyasi və mənəvi həyat sferalarında fikir və fəaliyyət azadlığına, pluralizmə, tolerantlığa geniş yer verilməsi, əhalinin mədəniyyət və şüurluluq səviyyəsinin yüksəlməsi, insanlarda mənlik şüurunun formalaşması və milli özünüdərk yolunda atılan mühüm addımlar və s. Müstəqil dövlətimizin xarici siyasət sahəsində qazandığı böyük uğurları, neft strategiyasının qələbələri, ölkəmizin beynəlxalq miqyasda nüfuzunun möhkəmlənməsi və dünya birliyi ölkələri ilə daim artmaqda olan hərtərəfli inteqrasiyası prosesləri də mütləq bu siyahıya əlavə olunmalıdır.

Müasir şəxsiyyətin spesifik tipliliyini səciyyələndirən yeni şəraitin ikinci qrup amilləri insanın təbiətlə və ətraf mühit ilə olan münasibətlərinə aiddir. Müasir sivilizasiya miqyasında və eləcə də ayrıca bir ölkə və şəxsiyyət səviyyəsində belə bir fikir qəti qərarlaşmışdır ki, insan özünün təbiətə münasibətini tamamilə yeniləşdirməli, onunla ağıllı və harmonik əlaqələr yaratmalıdır. Əks təqdirdə bəşəriyyətin başının üstünü almış böyük ekoloji təhlükə onun gələcəyini öz təbii əsasından məhrum edə bilər. Ona görə də müasir ekoloji böhranı aradan qaldırmaq üçün bütün ölkələr və xalqlar, bütün insanlar birlikdə fəaliyyət göstərməlidir.

Yuxarıda göstərilən amillər bir-birilə qarşılıqlı təsirdə və vəhdətdə çıxış edərək müasir şəxsiyyətin aşağıdakı əsas keyfiyyətlərini şərtləndirir: onun həyat fəaliyyətində azadlığa doğru daha geniş imkanlar açılır; şəxsiyyətin davranış və hərəkətlərində daxili öztənzimləyici amillərin rolu artır; bu proseslərdə onun ümumi sosiomədəni normalardan asılılığı azalır; fəaliyyətinin bütün tərəflərində həm strateji, həm də taktiki məqsədlərin irəli sürülməsi və həyata keçirilməsində şəxsi seçiminin üfüqləri genişlənir; şəxsiyyətin öz sosial

fəaliyyəti fərdi, şəxsi əməlləri və eləcə də ekoloji hərəkətləri üçün məsuliyyəti çoxalır.

Ədəbiyyat:

1.Абищев К.Человек. Индивид. Личность, Алма-Ата. 1988.
2.Арсеньев А.С. Философские основания понимания личности. Москва.2001.
3. Бегун И.Ф. Бытие человека : деятельность и смысль. Рига. 1987.
4.Спиркин. А.Г.Философия. Москва. 2001.
5.Ильин. В.В. Философия. Москва. 2001.
6.Лейбин В.М. Системные исследования и символическая концепция человека.(Системные исследования). Москва. 1985.
7.Франкл В. Человек в поисках смысла. Москва.1990.

RƏCƏB RƏHİMLİ
AMEA Naxçıvan Bölməsi

DEMOKRATİKLƏŞMƏ PROSESİNDƏ MƏRKƏZİ DÖVLƏT ORQANLARI İLƏ YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARI ARASINDA MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİ

Ən böyük siyasi cəmiyyət olan dövlətin, hər hansı siyasi hakimiyyəti mənimsəmiş olmasından asılı olmayaraq idarəetmə sistemində iki əsas təşkilatlanma forması mövcuddur. Bunlardan biri mərkəzi idarəetmə sistemi, digəri isə yerli özünüidarəetmə sistemidir.

Mərkəzi idarəetmə sisteminin əsas xüsusiyyətlərini aşağıdakı kimi ümumiləşdirmək mümkündür.

1.Bütün səlahiyyətlər mərkəzi dövlət orqanlarında toplanmışdır.

2.Hər bir dövlət xidmətini həyata keçirəcək olan mərkəzi dövlət orqanının yerlərdə təşkilatları və təmsilçiləri mövcuddur.

3.Bütün resurslar mərkəzi dövlət orqanlarının nəzarətindədir.

Bu xüsusiyyətlər güclü bir dövlət idarəçiliyinin qurulmasının əsas səbəbləri hesab olunur. Xalqa veriləcək olan dövlət xidmətləri tək mərkəzdən idarə olunur. Eyni zamanda bütün bəşəri və malı resursların istismarı mərkəzi dövlət orqanlarının nəzarəti altındadır. Bu isə resurslardan xalqın mənfəəti doğrultusunda istifadə edilməsinə şərait yaradır. Yəni dövlət bölgələr arasında fərq yaratmadan bütün bölgələrin inkişafına (təbii ki, bölgənin coğrafi böyüklüyü və demoqrafik quruluşu nəzərə alınaraq) bərabər səviyyədə və lazımi qədər vəsait ayırır.

Ancaq mərkəzi idarəetmə sisteminin bu faydaları ilə bərabər, aşırı bürokratikləşməyə yol açması, dövlətin vermək məcburiyyətində olduğu xidmətlərin yerli ehtiyaclar nəzərə alınmadan (bütün planların mərkəzdə, yerlərdəki əhalinin ehtiyaclarını araşdırmayan bürokratlar tərəfindən kor-koranə hazırlanması) həyata keçirilməsi, mərkəzdə xalqın ehtiyac və arzuları nəzərə alınmadan qərarlar alınması kimi mənfi cəhətləri də mövcuddur. Buna görə də, son illərdə ortaya çıxan yeni siyasi və idarəetmə teoriyalarının əksəriyyətində mərkəzi idarəetmə sistemindən (yəni bütün səlahiyyətlərin mərkəzdə toplanması və ölkənin tək mərkəzdən idarə olunması) uzaqlaşılması, bunun yerinə yerli özünüidarənin inkişaf etdirilməsi tövsiyə edilməkdədir. Səbəb isə 1929- cu il dünya iqtisadi böhranından sonra ortaya çıxan Keynesyen iqtisad teoriyalarının (dövlətin iqtisadi həyata aktiv müdaxiləsi) 1970- ci illərdə süqutu nəticəsində dövlətin səlahiyyətlərinin azaldılması zərurətidir. Yəni dövlət sadəcə güvənlik və ədalət xidmətlərini həyata keçirməli, iqtisadi həyata müdaxilə etməməlidir. Bu həm qloballaşmanın, həm də yeni postmodern demokratiyanın əsas inkişaf amilidir.

Demokratiyanın inkişafında yerli özünüidarəetmə orqanlarının rolu inkar edilməzdir. Görkəmli Fransız alimi A. De Tokvil hələ 1835- ci ildə nəşr olunan «Amerikada demokratiya» adlı məcmuəsində qeyd edir ki, «Yerli özünüidarəetmə institutları olmadan millət azad hökumət yarada bilər, lakin o, əsl azadlıq ruhunu duya bilməz» (1, s. 225). Bəzi qarşı fikirlərə rəğmən (2, s. 25 - 34) müasir yerli özünüidarə ilə aralarında birəbir əlaqələr qurulmasa da Ortaçağ komünlərindən bu yana yerli özünüidarəetmə orqanları bərabərlik, müstəqillik, təmsil etmə, qərarların hazırlanmasında iştirak etmə kimi əsas demokratik prinsipləri yaşadan qurumlardır (3, s. 67). Eyni zamanda yerli özünüidarənin demokratik inkişaf prosesindəki əsas rolu dövlətin mərkəzi idarəsinin gücünə qarşı balans yaratma nöqtəsində ortaya çıxmaqdadır (4, s. 344-348). Yəni yerli özünüidarə dövlət gücünü vətəndaşın lehinə məhdudlaşdırma vəzifəsi daşıyır. Bu aspektdən baxdığımız zaman dövlətin mərkəzi aparatına sadəcə güvənlik və ədalət xidmətlərini həyata keçirməkdən başqa bir iş qalmır. Xalqa veriləcək digər dövlət xidmətlərini isə yerlərdəki yerli özünüidarəetmə orqanları həyata keçirəcəkdir. Bu gün Avropa Birliyi başda olmaqla IMF və Dünya Bangının müxtəlif ölkələr üçün hazırladıqları sosial-iqtisadi inkişaf proqramlarında da, desantralizasiya (mərkəzdən uzaqlaşma) əsas şərt kimi qəbul edilməkdədir. Bunun həm xalq, həm də dövlət üçün müsbət təsiri olacağı vurğulanmaqdadır. Avropa Birliyinin Maastricht anlaşmasında Subsidiarity (xidmətdə xalqa yaxınlıq) prinsipinin mənimsənməsi məhz buna xidmət edir. Xalqın ehtiyac və problemləri ilə ona ən yaxın orqan olan yerli özünüidarəetmə orqanlarının məşğul olması daha məqsədə uyğundur.

Bütün bu dediklərimizdən aydın olur ki, dövlət idarəçiliyində mərkəzi dövlət orqanları ilə yerli özünüidarəetmə orqanları arasında münasibətlər səlahiyyətlərin düzgün şəkildə və demokratik prinsiplərə uyğun olaraq bölüşdürül-

məsi ilə tənzimlənir. Təbii ki, bu səlahiyyət bölgüsü ölkədən-ölkəyə fərqlilik göstərir. Bunun da səbəbi hər ölkənin özünəməxsus idarəetmə sisteminin olmasıdır. Xüsusilə demokratikləşmə prosesinə yeni qədəm qoyan ölkələrdə mərkəziyyətçiliyin güclü olduğu, yerli özünüidarə anlayışının isə zəif inkişaf etdiyi bir həqiqətdir. Bunun əsas səbəbi isə inkişaf etməkdə olan ölkələrin xalqlarında yerli özünüidarə anlayışı haqqında lazımi səviyyədə məlumatın olmamasıdır.

1991-ci ildə müstəqillik əldə edən Azərbaycan Respublikasının Konstitusiyasının 142-ci maddəsinin I hissəsində qeyd olunur ki, «yerli özünüidarəetməni bələdiyyələr həyata keçirir». «Bələdiyyələrin statusu haqqında» qanunun 14-cü maddəsinə görə, bələdiyyələr və onların orqanları dövlət hakimiyyəti orqanları sisteminə daxil deyildir. Amma qanunun bu hökmü, bələdiyyələrin tamamilə müstəqil olduğunu göstərməz. Bələdiyyə orqanları mərkəzi dövlət orqanları ilə siyasi, hüquqi, sosial-iqtisadi və digər bir çox sahələrdə əlaqələr qurar. Bu əlaqələr əslində, bələdiyyə seçimlərinin həyata keçirildiyi gündən etibarən başlayır. «Bələdiyyələrin statusu haqqında» qanunun 27-ci maddəsində deyilir ki, «Azərbaycan Respublikasının dövlət orqanları bələdiyyələrə seçkilərin demokratik əsasda keçirilməsinə təminat verir». Eyni qanunun 9- cu maddəsində isə «Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları bələdiyyələrin təşəkkülü və inkişafı üçün zəruri hüquqi, təşkilati və maddi-maliyyə şəraiti yaradır və yerli özünüidarə hüququnu həyata keçirməkdə əhaliyə kömək göstərirlər» hökmü yer alır.

Dövlət və bələdiyyə orqanları arasında olan hüquqi əlaqələr də, qanunlarda öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi bələdiyyə orqanları və onların səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına riayət edilməsinə inzibati nəzarəti həyata keçirir (maddə 52). Yəni bələdiyyə orqanları və onların səlahiyyətli nümayəndələri, qanuna

uyğun olmayan qərar və hərəkətlərinə görə məsuliyyət daşıyırlar. Bələdiyyələrin fəaliyyətində qanuna uyğunsuzluq müəyyən edilərsə məhkəmə orqanlarına şikayət edilə bilər. Göründüyü kimi mərkəzi idarəyə, bələdiyyələr üzərində inzibati nəzarət üçün yalnız məhkəmə orqanlarını fəaliyyətə keçirmək və qanuna uyğunsuzluğun ləğv edilməsini istəmə səlahiyyəti tanınmışdır. Bələdiyyələrin qərarları və onların orqanları üzərində başqa nəzarət növlərinə qanun icazə vermir. Eyni zamanda bələdiyyələr də onlara yönəldilmiş və səlahiyyətlərinin həyata keçirilməsinə mane olan qanuna uyğunsuzluqlara qarşı məhkəmə orqanlarına müraciət edə bilərlər. Bu qısa informasiya Azərbaycan Respublikası qanunvericilik aktlarında mərkəzi idarə ilə yerli özünüidarə arasında əlaqələrin hüquqi cəhətdən tənzimlənməsini göstərir.

Azərbaycanda yerli özünüidarəetmə institutunun inkişafı ilə bağlı ən mühüm məsələ yerli icra hakimiyyəti ilə bələdiyyələr arasında səlahiyyət bölgüsünün sərhədləri ilə bağlıdır. Ekspertlər hazırkı şəraitdə bələdiyyələrin səlahiyyətlərinin kifayət qədər məhdud olduğu qənaətindədir. Eyni zamanda yerli icra hakimiyyətlərinin bələdiyyələrin fəaliyyətinə müdaxiləsi də ciddi narahatlıqlar doğurur. Hesab edilir ki, hazırkı vəziyyətdə yerlərdə icra hakimiyyətlərinin daha üstün səlahiyyətlərə malik olması vətəndaşların etimad göstərdiyi bələdiyyə institutunun formalaşmasına mane olur. Vətəndaşlar praktik olaraq hər şeyə qadir olan yerli hakimiyyət kimi bələdiyyələri yox, icra hakimiyyətlərini görürlər.

Bütövlükdə götürdükdə, bələdiyyələrin nəzəri cəhətdən ictimai xidmət sahəsində fəaliyyət göstərməsi üçün geniş səlahiyyətləri var. Amma maliyyə çatışmamazlığı səbəbindən bələdiyyələr çox az sayda xidmətlər həyata keçirirlər.

Ümumiyyətlə, idarəetmə sahəsindəki islahatların sona çatmaması, desantralizasiyanın tam həyata keçirilməməsi, qanunlardakı müəyyən ziddiyyətlər bələdiyyələr və icra hakimiyyətləri arasında səlahiyyətlərin sərhədlərini müəyyən-

ləşdirməkdə bəzi çətinliklər yaradır. Eyni zamanda paralel strukturların mövcudluğu, səlahiyyətlərin bir- birini təkrar etməsi bələdiyyələrin effektiv fəaliyyətinə mane olan səbəblərdəndir.

Ədəbiyyat:

1. Əsgərov Z., Nəsirov E., İsmayılov M., Məmmədov X., Azərbaycanın Dövlət və Hüququnun əsasları. Bakı, 2003
2. Langrod G. Local Goverment and Democracy. «Public Administration Review, Vol. 31
3. Görmez K. Yerel demokrasi və Türkiye. Vadi Yayınları, Ankara, 1997
4. Lipson L. Politika Biliminin Temel Sorunları. Ankara, 1978
5. Azərbaycan Respublikası Konstitusiyası.
6. Bələdiyyələrin Statusu Haqqında Azərbaycan Respublikası Qanunu.
7. Abdullayev E., Həsənova S. Bələdiyyə Hüququ. Bakı, 2002

NOVRUZƏLİ RƏHİMOV

Naxçıvan Dövlət Universiteti

QLOBALLAŞMA PROSESİNİN MAHİYYƏTİ VƏ BU PROSESDƏ AZƏRBAYCANIN ROLU

İndiki dövrdə dünyada baş verən geniş və əhatəli proseslərdən biri qloballaşma prosesidir. Son vaxtlar demək olar ki, bütün dillərdə nəşr olunan ədəbiyyatlarda qloballaşmaya geniş yer verilir. Bu problemin diqqət mərkəzinə keçməsi xüsusilə XX əsrin 90-cı illərindən başlanır.

Qloballaşma prosesi çoxşaxəli proses olaraq ictimai həyatın bütün sahələrini əhatə edir və bunun üçün də ciddi maraq doğurur.

Qloballaşma dünya miqyasında siyasi, iqtisadi, mədəni və s. əlaqələrin daha da yaxınlaşmasıdır.

Qloballaşma prosesinə münasibət müxtəlifdir. Bu prosesin bir çox filosoflar tərəfindən həm müsbət həm də mənfi cəhətləri göstərilir. Bir sıra tədqiqatçıların fikrincə qloballaşma Milli iqtisadiyyatların vahid ümumdünya sistemində birləşməsidir. Dünya bazarının siyasi fəaliyyəti sıxışdırması və yaxud dəyişdirməsidir (2, s.333). Bəzən də onu dünya ağalıqlarının ideologiyası adlandırırlar, inkişaf etmiş ölkələrin geridə qalmış ölkələri istismar etmək üçün vasitə olduğunu göstərirlər.

Qloballaşma «Soyuq müharibə»dən sonra milli iqtisadiyyatların yaxınlaşması nəticəsində yaranmış beynəlxalq sistemdir və kapitalın maneəsiz yerdəyişməsinə əsaslanır, dünyanın informasiya baxımından açıq olmasını tələb edir, kommunikasiya yaxınlaşmasının, ümumbəşəri elmi inqilabın zəruriliyini irəli sürür(1, s.46.). Sürətli texnoloji yeniləşmə, beynəlxalq təşkilatların rolunun artması, yeni nəqliyyat növləri, telekomunikasiya texnologiyasının reallaşması, təhsilin beynəlmiləlləşməsi də bura aiddir.

Amerikalı tədqiqatçı T.Fridmanın fikrincə qloballaşma bazarın, millətlərin, dövlətlərin və texnologiyaların qarşısıalınmaz inteqrasiyasıdır. Onun fikrincə hər hansı ölkə qloballaşma sisteminə daxil olarsa onun elitası inteqrasiyanın perspektivlərini təhlil etməyə başlayır və qlobal səviyyədə öz yerini müəyyənləşdirməyə çalışır.

Qloballaşma prosesi dünyanın bütün ölkələrində azad bazarın yayılmasına gətirib çıxarır. Banklar, firmalar, sənaye şirkətləri Milli hökumətlərin təsiri altından çıxmış kimi özlərini aparır. Xarici firmalar daha tez iş yerləri aça bilir.

Qloballaşma insanların sosial-mədəni əlaqələrinin coğrafi cəhətdən məhdudiyyətlərini aradan qaldırır və onların birgə fəaliyyətinə şərait yaradır ki, bu da inkişafa səbəb olur. Sözsüz ki, cəmiyyət özünün tarixi inkişafında hər bir yeni mərhələyə çatdıqca bir-birindən coğrafi mənada uzaqda olan insanlar arasında müəyyən qədər yaxınlaşmaya səbəb olmuşdur. Bu baxımdan müasir dövrdə elmi-texniki tərəqqi

ilə əlaqədar olaraq bu yaxınlaşma özünün yeni mərhələsinə keçməkdədir.

Qloballaşma prosesi cəmiyyətimizdə artıq insanların şüurunda və gündəlik davranışında müəyyən dəyişikliklər edə bilmişdir.

Qloballaşmanı tarixi inkişafın həm məhsulu, həm də tələbi kimi qiymətləndirmək olar. Qloballaşma prosesini sürətləndirən əsas səbəblərdən biri də müəyyən problemlərin daha geniş miqyas almasıdır. Bu cəhətdən bəşəriyyətin məhvinə aparıb çıxaran müharibə problemi, insanların yaşayış şəraitinin məhvinə səbəb olan ekoloji problemlər, müxtəlif qorxulu xəstəliklərin artması müasir şəraitdə artıq çoxlarını narahat etməkdədir. Nəzərə almaq lazımdır ki, bütün bu problemlərin həllinə hamılıqla, qlobal şəkildə yanaşılarsa müəyyən nəticələr əldə etmək olar. Bu baxımdan artıq insanlar öz fəaliyyətlərini əlaqələndirməyə çalışırlar. Həm də bu sahədə bir sıra beynəlxalq təşkilatlar fəaliyyət göstərirlər. Bu da qloballaşma prosesinin sürətlənməsinə səbəb olur.

Beynəlxalq istehsal və ticarət sahəsində müqavilələrin genişlənməsi, məlumatlandırılma və əlaqələndirmə texnologiyasının inkişafı, mədəni əlaqələrin artması, beynəlxalq təşkilatların rolunun artması və s. kimi proseslər cəmiyyətin qlobal idarəolunması istiqamətinə doğru aparır.

Qloballaşma sıx qarşılıqlı fəaliyyətdə olan kompleks sistemin yaranması kimi xarakterizə oluna bilər. Qloballaşma təkcə dünyanın iqtisadi prosesləri dəyişmir, həmçinin onun strukturunu dəyişir. Bəşəriyyətə ağlasığmaz təsirlər edir, tronsnontinental və regionlararası proseslər gedir ki, bunlar da öz növbəsində miqyasına görə qlobal qarşılıqlı asılılıq münasibətlərini formalaşdırır (3,s.55).

Qloballaşma prosesinin getdikcə gücləndiyi bir şəraitdə hər bir ölkə, hər bir millət özünün taleyi və bu prosesdə yeri haqqında düşünməlidir. Daha dəqiq desək öz

iqtisadiyyatının, mədəniyyətinin müdafiə olunması üçün çıxış yolları axtarmalı və tədbirlər görməlidir.

Qloballaşma prosesi geniş və əhatəli bir proses olduğundan bütün dünya ölkələrini, o cümlədən Azərbaycanı da əhatə edir. Azərbaycan Respublikası indi müxtəlif problemlərlə bağlı bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, müxtəlif layihələrdə iştirak edir.

Həmçinin Azərbaycan bir çox ölkələrlə istehsal və ticarət əlaqələri saxlayır. Digər tərəfdən isə İnternet xidmətləri digər xalqlarla əlaqələrin artmasına geniş imkanlar yaradır.

Hələ 2000-ci ilin 7 sentyabrında Azərbaycan Respublikasının prezidenti Nyu-York şəhərində Minilliyin zirvə toplantısındakı çıxışında demişdir ki, Azərbaycan qloballaşmanın inkişafına müsbət mənada öz töhvəsini verir. Mənim ölkəm dünya miqyasında geostrateji əhəmiyyətə malik öz coğrafi mövqeyindən, ehtiyatlarından və potensialından istifadə edərək, şərq ilə Qərb arasında zəngin tarixi keçmişdən başlanan və gələcəyə istiqamətlənən körpü rolunu səmərəli surətdə həyata keçirir. Biz böyük ipək yolunun bərpası, Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün çox böyük səylər göstəririk. Dünyanın bir çox regionunun dövlətlərinin azad və mükəmməl inkişafı üçün bu layihələrin həlledici əhəmiyyəti var, bunlar fövqəlmilli əməkdaşlığa təkan verəcək və qlobal şəraitin inkişafına müəyyən təsir göstərəcəkdir.

Qloballaşma prosesində yaranan imkanlar milli iqtisadiyyatların və milli-mənəvi dəyərlərin inkişafını və müasir dövrə uyğun formalaşmasını təmin edə bilər. Bu prosesdə milli- mənəvi dəyərlərin saxlanması və inkişaf etdirilməsi mümkündür, lakin bunun üçün mükəmməl modelin yaradılması lazımdır.

Qloballaşmanı özünə bir bəşəri dəyər kimi yanaşaraq onun imkanlarından bütün bəşəriyyətin xeyrinə istifadə

edilərsə cəmiyyəti hədələyən müharibə, ekoloji problemlər, beynəlxalq terrorizm və s. kimi qlobal bəlalardan xilas olmaq mümkündür.

Beləliklə, qloballaşma dedikdə məkan və zaman çərçivəsində sosial əlaqə və təsisatların elə formada genişlənməsi və dərinləşməsi başa düşülür ki, bir tərəfdən insanların gündəlik fəaliyyətinə Yer kürəsinin digər hissələrində baş verən hadisələr daha çox təsir edir, digər tərəfdən isə məhəlli hadisələr vacib qlobal nəticələr doğurur.

Ə d ə b i y y a t:

1. Allahyarova T. Qloballaşma dünyanın sosial energetikası kimi. Qloballaşma və Azərbaycan Respublikası elmi-praktiki konfransı. Bakı, «Adiloğlu», 2002, s.46.
2. Şükürov A.M. Fəlsəfə və qloballaşma. Bakı, «Adiloğlu», s.333.
3. Şükürov A.M. Qloballaşma: mahiyyəti və perspektivləri. Bakı, «Adiloğlu», 2001, s.55.

AGARZA RUSTƏMOV
Naxçıvan Dövlət Universiteti.

BAZAR MÜNASİBƏTLƏRİ ŞƏRAİTİNDƏ KƏND ƏHALİSİNİN SOSİAL MÜDAFİƏSİNİN İQTİSADİ MEXANİZMİNİN MAHİYYƏTİ VƏ ONUN ƏSAS PRİNSİPLƏRİ

Əhalinin maddi rifah halının formalaşması qarşılıqlı əlaqələrin və xüsusiyyətlərini özündə əks etdirir. Bu baxımdan rifah halı öz göstəriciləri ilə meydana çıxır. Regional iqtisadi şəraiti, istehsalın ixtisaslaşması, inkişaf səviyyəsi, məhsuldar qüvvələrin yerləşməsi, demoqratik inkişaf xüsusiyyətləri, əhalinin maddi rifah halının yüksəldirməsi yollarının xüsusiyyətlərini yaratmış olur.

Əhalinin yaşayış həyat səviyyəsi rifah halı kateqoriyasının məzmununa daxildir.

Lakin bunlar mahiyyətcə üst-üsə düşmür. Əhalinin maddi rifah halının maddi əsasını istehsal olunmuş milli gəlir, region daxilində istehsal olunan milli gəlir, tam mənada onun istehlak fonduna ayrılan hissəsi təşkil edir. Əhalinin yaşayış həyat səviyyəsini, onların rifah halını müəyyən edərək hər hansı bir göstəricidən istifadə olunması kifayət eləmir burada kompleks göstəricilər sistemindən istifadə edilməsi məqsədəuyğundur.

Fikirimizcə respublikamızın ayrı-ayrı bölgələrinin əhalisinin həyat səviyyəsi həmin regionun mənsub olduğu kompleks şəraitdən asılı olaraq formalaşır.

Bu şəraitin müxtəlifliyi əhalinin həyat səviyyəsinin fərqlənməsinə səbəb olur. Buna görə də hər hansı bölgənin həyat səviyyəsinin kompleks tədqiqi aşağıdakı göstəricilər sistemi ilə müəyyən olunur:

1. Əhalinin gəlir və istehlakının səviyyəsini və quruluşunu əks etdirən region göstəriciləri, istehsalın həcmi, sahə quruluşu, ictimai əmək bölgüsü, respublika iqtisadiyyatında onun rolu, əhalinin məşğuliyyət səviyyəsi və quruluşu, istehsal mallarının və xidmətlərin qiymətləri, təbii-iqlim şəraiti, regionlararası iqtisadi əlaqələrin səviyyəsi, sosial-iqtisadi inkişaf üçün ayrılan fondların miqdarı;
2. Respublika üzrə və onun təbii-iqtisadi bölgələrində əhalinin həyat səviyyəsinin, ayrı-ayrı cəhətlərini xarakterizə edən göstəricilər: əmək haqqının normal səviyyəsi, istehlak üçün ehtiyatların həcmi, ictimai istehlak fondlarının və şəxsi yardımçı təsərrüfatlardan və s. mənbələrdən gələn gəlirlər, sosial transferlər, pərakəndə əmtəə dövriyyəsinin həcmi, sosial infrastrukturun inkişafı;
3. Sosial qrumlar və onların daxilində ailələrin maddi təminatına görə bölünən həyat səviyyəsi göstəriciləri.

Əhalinin həyat səviyyəsinin göstəricilərini iki qrupa bölmək olar. Birinci qrupa istehsalın səviyyəsi və strukturunu

dəyişən və istehlak prosesindən kənarda olan şəraiti xarakterizə edən göstəricilər; ikinci qrupa istehsalın faktiki səviyyəsini və strukturunu xarkterizə edən göstəricilər daxildir. Birinci qrup göstəriciləri respublika iqtisadiyyatının sahə quruluşu, məhsuldar qüvvələrin yerləşməsi və inkişafı xüsusiyyətlərindən asılı olaraq dəyişilir. İkinci qrup göstəriciləri əhalinin özünün ailə tərkibindən, tələbatın quruluşundan və istehlak siferasında əhalinin bu və ya başqa əmtəəyə üstünlük verməsindən asıl olur.

Müasir dövrdə əhalinin sosial müdafiəsinin obyektiv zəruriliyi bazar münasibətlərinə keçidin qanunauyğunluqlarından irəli gəlir. Planlı iqtisadiyyat şəraitində əhalinin gəlirləri istelak büdcəsini təmin edirdi və bir çox hallarda yığım üçün vəsait ayrılırdı. Az təminatlı əhali kateqoriyalarının sosial müdafiəsi isə dövlətin sosial təminatı ilə həyata keçirilirdi.

Bazar iqtisadiyyatına keçid şəraitində gəlirlərin formalaşması problemləri çoxdur. Gəlirlərin formalaşmasının həqiqi obyektiv mənbələri ilə subyektiv mənbələr arasında ziddiyət meydana çıxır. Əhalinin ayrı-ayrı quruplarının gəlirləri arasında fərqlər bunun əsasında əmələ gəlir, sosial təbəqələşmə güclənir. Normal inkişaf etmiş bazar iqtisadiyyatı sistemi olan ölkələrdə dövlət bu prosesi tənzimləyir. Qeyd etmək lazımdır ki, bizim respublikamızda da dövlət əhalinin gəlirlərinin tənzimlənməsi sahəsində xeyli işlər görmüşdür.

Şəhərdə fəhlə və qulluqçuların gəlir mənbələrindən fərqli olaraq kənd əhalisinin məcmuu gəlirlərinin tərkib hissəsində əmək gəlirləri ilə yanaşı həm də şəxsi yardımçı təsərrüfatlardan əldə edilən gəlir, dövlət müavinətləri və digər mənbələrdən gələn gəlirlər də mühüm rol oynayır(2, səh43).

Kənd istehsalçılarının təsərrüfat-maliyyə fəaliyyətinin və sosial vəziyyətinin təhlili göstərir ki, dövlət dəstəklənməsi həyata keçirməyən, xidmətlərə olan ehtiyacı ödəməyən, gəlirləri artırmadan bu sahədə əsaslı dönüş və

inkişaf əldə etmək mümkün deyildir. Odur ki, aqrar bölmənin prespektiv inkişafı üçün üç mərhələdə - qısa, orta və uzunmüddətli proqramların hazırlanması vacib məsələ kimi qarşıda durur(1).

Aqrar bölmədə iqtisadi islahatların dərinləşdirilməsi və yeni mülkiyyətçilərin yaranması, sahibkarlığın inkişaf etdirilməsi, emal müəsisələrinin özəlləşdirilməsi və ya səlımdar cəmiyyətlərə çevrilməsi, müxtəlif aqroserviz müəsisələrinin yaradılması, istehsal, emal, satış və xidmət müəsisələri arasında istehsal – iqtisadi əlaqələrin formalaşması, idarəetmə sisteminin yeniləşməsi, daxili bazarın qorunması, bang, maliyyə, kredit, vergi, qiymət, sığorta siyasətinin formalaşması, elmi-texniki tərəqi və qabaqcıl təcrübənin tətbiqinin genişləndirilməsi müxtəlif regionlarda xeyli iş yerlərinin açılması və məşğulluğun təmin edilməsi respublikamızın dövlət büdcəsinin formalaşması əhalinin maddi rifah halında mühüm dəyişiklik baş versin(5, səh 79).

Azərbaycan dövlətinin iqtisadi gücünü artırmağa, büdcə gəlirləri yüksəldikcə əsas məqsəd aztəminatlı əhali təbəqəsinin güzəranının yüksəldilməsinə yönəldilir. Respublikamızda 2004-cü ildə ÜDM-nun artım tempi 10% təşkil etmişdir ki, bu artım 2005-ci ildə 14 % nəzərdə tutulmuşdur. Bunun da müqabilində 2004-cü ildə minimum əmək haqqı 100 min manat olduğu halda Respublika prezidenti İlham Əliyevin sərəncamı ilə 2005-ci ilin yanvar ayının 1-dən minimum əmək haqqının 125,5 min manata qaldırılacaqdır. Bu da əhalinin xeyli hissəsinin yaşayış səviyyəsinə öz müsbət təsirini göstərəcəkdir.

Ədəbiyyat:

1. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramı», Respublika qəzeti, Xüsusi buraxılıq, 13 fevral 2004.
2. Heydər Əliyev və dövlətin aqrar siyasəti. «Gənclik» 2003.
3. Həsənli M. - «Vergilər» Bakı, 1998.
4. Xankişiyev A.Ə. - «Bazar münasibətləri şəraitində dövlət büdcəsi və vergilər» Bakı, 1999.
5. Əliyev A.Ə., Qasımov Ə.Ş., Qasımov N.Ə.- «Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu», Azərnəşr, Bakı, 1998.

ƏRƏSTÜ HƏBİBBƏYLİ
AMEA-nın İqtisadiyyat İnstitutu

AZƏRBAYCANIN ENERJİ RESURSLARININ İSTİFADƏSİNDƏ BÖYÜK BRİTANİYA ŞİRKƏTLƏRİ ARASINDA TARİXİ RƏQABƏT

Azərbaycan nefti daim iri dövlətlərin maraq dairəsində olmuşdur. Təsadüfi deyildir ki, orta əsrlərdən mühüm sənaye əhəmiyyəti olan bu təbii sərvət uğrunda əsrlər boyunca böyük imperiyalar arasında gərgin mübarizə getmişdir. Azərbaycan neftinə Rusiya, İngiltərə, Amerika Birləşmiş Ştatları, Almaniya kimi dövlətlər dünyanın nüfuz dairələrinə bölüşdürülməsi yolunda mühüm vasitə kimi göz dikmişlər.

Hələ XIX əsrin sonlarında Çar Rusiyasının tərkibində olarkən Azərbaycan bu təbii sərvətinə görə bütün dünyada məşhur idi. Belə ki, 1891-ci ildə dünyada çıxarılan 22,5 milyon ton neftin 9,5 milyonu Amerika Birləşmiş Ştatlarının, 11,4 milyonu isə Rusiyanın payına düşürdü ki, bunun da 95%-ni Azərbaycan hasil etmişdir.[1] 1898-ci ildə isə Azərbaycanın, daha dəqiq desək Bakının dünya neft hasilatında birinci yer tutması ölkənin dünyanın iri neft

şirkətlərinin əsas prioritet istiqamətinə çevrilməsinə səbəb olmuşdur. Bu dövrdə dünyanın əsas neftçıxarma rayonu olan Şimali Azərbaycan Böyük Britaniyanın da marağını cəlb etmişdir. Həmin dövrdə ingilis kapitalı ölkəmizə fəal daxil olaraq onun neft sənayesində möhkəm yer tutmuşdur.

Eyni zamanda, 1872-ci ildə Bakıda neft sənayesinə kapital axınına mane olan iltizam sistemi ləğv olunmuş və neft verən torpaqlar qruplara bölünüb, ayrı-ayrı kapital sahiblərinə uzun müddətli icarəyə verilmişdir. Bunun nəticəsində 1873- cü ildə Bakı rayonunda cəmi 12 şirkət fəaliyyət göstərdiyi halda, əsrin sonlarında onların sayı 140-a çatmışdır.

Neft verən torpaqların icarəyə verildiyi vaxt və ondan bir neçə il sonra neft sənayesində aparıcı qüvvə əsasən yerli kapital nümayəndələri idi. Tezliklə neft sənayesinə xarici kapital axını başlandı. Belə ki, 1880-cı il mayın 1-də Çar Hökumətinin Xüsusi İclasında xaricilərin Bakı rayonunun neft yataqlarının işlədilməsinə dəvət edilməsinin təşviqi ilə bağlı qəbul etdiyi qərar bu axının əsas hərəkətverici qüvvəsi olmuşdur.[2] Xarici sərmayəçilərin arasında fransız və onun ardınca ingilis kapitalı mühüm yer tuturdu. Artıq 1901-ci ildə xarici sərmayə Bakı neftinin hasilatında və satışında aparıcı mövqeyə yiyələnmişdi. Belə ki, həmin ildə ingilis şirkətlərinin yataqlarında neft hasilatının ümumi həcminin 11 faizi yerləşirdi. 1903-cü ildə isə Bakı rayonunda 60 milyon rubl kapitala malik 12 ingilis cəmiyyəti mövcud idi. Bu şirkətlər arasında maliyyə idarəsi Londonda yerləşən və kapitalının ümumi məbləği 33,5 milyon rubl təşkil edən «The Shibaeff Petroleum», «Baku Russian Company» və «Russian Petroleum Company» xüsusilə aktiv fəaliyyət göstərirdi.[3] Onlar başlıca olaraq çətin maliyyə vəziyyətində olan köhnə müəssisələrin aksiyalarının əldə edilməsi yolu ilə fəaliyyətə başlayırdılar. Bundan əlavə, Bakıda fəaliyyət göstərən ingilis-holland «Royal Dutch/Shell» qrupu «Xəzər- Qara dəniz», «Mazut», «Şibayev», «Qafqaz» cəmiyyətlərinin səhmlərinin

xeyli hissəsinin sahibinə çevrilmişdir. 1917-ci ildə isə Bakı neft rayonunda 112,6 milyon rubl xarici səhmlər kapitalının 54,3 milyon rublu (48 faizi) ingilislərin payına düşürdü.

Ümumilikdə XX əsrin əvvəllərində ingilis neft şirkətləri Azərbaycanda H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev kimi neft maqnatlarının timsalında yerli neft kompaniyaları ilə, eləcə də xarici investorlardan Nobel Qardaşları Neft Şirkəti, Rokfeller sindikatı, Rotşildlərlə rəqabət aparırdı. Bunun göstəricisidir ki, 1914-cü il üçün Rusiyanın neft hasilatı başlıca olaraq üç şirkət – "Neft" (Oil) (28%), "Şell" (20%), "Nobel Qardaşları" (14%) arasında bölünmüşdür. Bu şirkətlər həmin dövr üçün dünya neft istehsalının 62 faizini hasil edirdi.[4] Rusiya neft sənayesində "Şell" şirkətinin başlıca rəqibi Nobel Qardaşları idisə, dünya miqyasında əsas rəqib ABŞ- ın "Standart Oil" sindikatı idi.

Bakı neft yataqlarının ilk ingilis alıcısı məşhur neft taciri Alfred Stüart olmuşdur. İri neft ticarəti şirkəti olan "Alfred Stüart və Ko" şirkətinə rəhbərlik edən və böyük kommersiya əlaqələri olan bu şəxs 1896-cı ildə Bakı neft sənayeçisi Çaturovun neft quyularını almışdır. A.Stüart həmin neft quyularının əsasında, eləcə də Qalisiya və Rumıniyada daha əvvəl əldə edilən neft torpaqları sayəsində 1896-cı ilin iyulunda ümumi kapitalı 1 mln. funt sterlinq olan "Avropa neft kompaniyası"nın əsasını qoymuşdur.[5]

XIX əsrin sonlarında zəifləyən Çar Rus imperiyası digər müstəmləkəçi imperiyaların iri neft şirkətləri üçün əsl mübarizə meydanına çevrilir. Belə ki, rus neft ticarətinin ələ keçirilməsi uğrunda mübarizədə bir sıra ingilis şirkətləri liderliyi ələ alırlar. "Semyuel and Co" adlı ingilis şirkəti Rotşildlərlə saziş imzalayaraq rus neftinin ticarəti ilə məşğul olmaq barədə razılığa gəlir. Həmin sazişə əsasən Markus Semyuelin rəhbərlik etdiyi "Semyuel and Co" şirkəti Rotşildlərin neftinin satışı üzrə inhisarçı hüquqları əldə edir.

1890-cı ildə Markus Semyuel Bakıya səfər etmişdir. O, buradan tanker vasitəsilə Cənub-Şərqi Asiyaya neftin

daşınması haqqında razılığa gəlmişdir. Buradakı fəaliyyəti ilə bağlı M.Semyuel 1897-ci ildə "Şell" şirkətinin əsasını qoymuşdur. Artıq XX əsrin əvvəllərində dünya neft sənayesinin aparıcı fiqurlarından birinə çevrilən "Şell" dünya miqyasında əsas rəqibi ABŞ-ın "Standart Oil" sindikatı ilə rəqabətdə öz qüvvələrini birləşdirmək məqsədilə 1907-ci ildə "Royal Dutch Shell" transmilli korporasiyasını yaratmışdır. Bakı bu transmilli şirkətin fəaliyyət göstərdiyi əsas regionlardan biri idi. Belə ki, 1912-ci il üçün "Royal Dutch Shell"-in bütün dünya bazarları üzrə istehsal etdiyi neftin 1/3 hissəsi Bakı və onun ətrafının payına düşürdü. 1914-cü ildə isə korporasiyaya daxil olan neft şirkətləri Bakı neft yataqlarından 57 milyon pud neft çıxarmışdır ki, bu da həmin il üçün Rusiya neft hasilatının 1/5-ni təşkil edirdi.[6] Hazırda da Xəzər regionunda, xüsusilə Qazaxıstan və Azərbaycanda iri layihələrin iştirakçısı olan bu şirkət 1917-ci ilə qədər Azərbaycanda fəaliyyət göstərmişdir.

Sovet imperiyası dağıldıqdan sonra isə Birləşmiş Krallıq 1991-ci il dekabrın 31-də Azərbaycanın müstəqilliyini tanımış, 1992-ci il martın 11-də isə ölkələrimiz arasında diplomatik əlaqələr qurulmuşdur.

Böyük Britaniya Azərbaycan neftinə maraq göstərmiş ilk Qərb ölkələrindəndir. Hələ 1989-cu ilin mayında Şotlandiyanın Remko şirkətinin Prezidenti Stiv Remp Bakıya səfər etmişdir. 1990-cı ildə "Remko" şirkəti Xəzər dənizindəki "Günəşli" yatağının öyrənilməsinə başlamışdır. 1992-ci ildə "Remko" və Amerikanın "Penzoyl" şirkətləri arasında danışıqlar başlanmış və oktyabrın 1-də iki şirkət ilə layihənin başa çatdırılması üzrə saziş bağlanmışdır.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı üçün Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 1994-cü il fevralın 22-25-də Böyük Britaniyaya ilk rəsmi səfəri mühüm əhəmiyyət daşıyır. Belə ki, məhz bu səfər zamanı imzalanan bir sıra müqavilələr əsasında müxtəlif sahələr üzrə əməkdaşlığın hüquqi bazası qoyulmuşdur.

1994-cü il sentyabrın 20-də Bakıda Azərbaycan hökuməti on əcnəbi neft şirkətinin daxil olduğu konsorsium arasında Xəzər dənizinin Azərbaycan sektorundakı Azəri, Çıraq və dərinsulu Günəşli yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş – "Əsrin müqaviləsi" imzalanmışdır. Bu müqaviləyə əsasən "Bi-Pi" və "Remko" ilkin müqavilənin pay bölgüsündə müvafiq olaraq 17,1 və 2,08 faizə malik olmuşdur.

"Əsrin müqaviləsi" ideyası və onun gerçəkləşdirilməsi görkəmli dövlət xadimi Heydər Əliyevin adı və uzaqgörən məqsədyönlü siyasi fəaliyyəti ilə bağlı olan beynəlxalq əhəmiyyətə malik iqtisadi proqramdır. Bu proqramın uğurla həyata keçirilməsi müstəqil Azərbaycanın iqtisadi inkişafının əsasını təşkil edir. "Əsrin müqaviləsi" həmçinin Azərbaycan dövlətinin dünya birliyindəki yerinin və mövqeyinin müəyyən olunmasında, ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun artmasında mühüm rol oynayır.

1996-cı il iyunun 4-də Bakıda keçirilən "Xəzərneftqaz-96" üçüncü beynəlxalq sərgisi zamanı ARDNŞ ilə xarici neft şirkətləri arasında "Şahdəniz" perspektivli strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş imzalanmışdır. Kontraktda BP şirkəti 25,5 faiz pay almışdır.

Daha sonra Azərbaycan Prezidentinin 1998-ci il iyulun 19-24-dək Böyük Britaniyaya səfəri zamanı "Britiş Petrolium", "Monument Oyl and qaz" və "Remko" şirkətlərinin iştirakı ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Araz", "Alov", "Şərq" və "İnam" perspektivli strukturlarının, quruda yerləşən "Muradxanlı" və "Cəfərli" neft yataqlarının və "Zərdab" perspektivli srukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında üç saziş imzalanmışdır. Araz-Alov-Şərq layihəsində "Bi-Pi"-nin 15%, İnamda isə "Bi-Pi" və "Şell" şirkətlərinin hər birinin 25% pay sahibliyi vardır.

"Bi-Pi" şirkəti Azərbaycanın neft yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında

sazişlərdəki pay bölgüsünə görə aparıcı yer tutur. Bu şirkət həmçinin 3 iri layihənin Azəri, Çıraq və dərinsulu Günəşli yataqlarının tammiqyaslı işlənməsi üzrə və eləcə də Bakı-Tibilisi-Ceyhan (BTC) Neft Boru Kəməri və Şahdəniz layihələrinin operatorudur. Azərbaycanın bu nəhəng şirkət üçün nə qədər əhəmiyyətli olduğunu anlamaqdan ötrü "Bi-Pi" şirkətinin rəhbəri Con Braunun 2003-cü ilin fevralındakı çıxışına nəzər salmaq lazımdır. Cənab Braun BP-nin prioritet istiqamətlərindən danışarkən Azərbaycanın BP-nin fəaliyyət göstərdiyi beş prioritet regiona daxil olduğunu bildirmişdir. Onun sözlərinə görə, şirkət yaxın beş il ərzində öz gəlirlərinin yarıdan çoxunu Meksika körfəzi, Trinidad, Azərbaycan, Anqola və Sakit Okean Asiyasına yönəldəcək və bu regionlara çox sərmayə qoyulacaqdır.[7]

Hazırda Azərbaycanın neft yataqlarının işlənməsi layihələrində Böyük Britaniyanın "BP" və "Şell" şirkətləri iştirak edir. 1999-cu ilin fevralında BP-nin 30 faiz payı olan "Dan ulduzu", "Əşrəfi" perspektiv strukturları üzrə saziş ləğv olunmuşdur. 2000-ci ilin iyulunda isə Remko şirkəti "Əsrin müqaviləsindəki" 2,08 faiz payını ABŞ-ın "Amerada Hess" şirkətinə 150 milyon dollara satması haqqında razılaşmışdır. 2001-ci ilin iyunun 22-də isə Remko şirkəti "Muradxanlı-Cəfərli-Zərdab" bloku üzrə işlərin dayandırılması haqqında ARDNŞ ilə saziş imzalamışdır.

Böyük Britaniyanın "Lazmo" şirkəti "Monument Oyl and Qaz" şirkətini aldıqdan sonra 2000-ci ilin martında "İnam" perspektivli strukturu üzrə bağlanmış müqavilələrdəki 12,5 faiz payını, bunun ardınca isə Rusiyanın "Mərkəzi Yanacaq Şirkəti" həmin layihədəki 12,5 faiz payını "Şell" şirkətinə satmışdır.

Ümumilikdə dünya iqtisadiyyatının neftdən bu dərəcədə asılı olduğu bir zamanda Böyük Britaniyanın Yaxın Şərq neftinə alternativ ola biləcək Xəzər regionunun karbohidrogen ehtiyatlarına olan marağı 2003-cü ilin aprelində Birləşmiş Krallığın energetika üzrə dövlət naziri

Brayan Uilsonun çıxışında tam əks olunmuşdur. Nazir öz ölkəsinin Azərbaycanın neft və qazına, o cümlədən Rusiya və Qazaxıstan da daxil olmaqla digər Xəzəryanı dövlətlərin karbohidrogen ehtiyatlarına ehtiyacı olduğunu bildirmişdir. O, Şimal dənizində hasilatın saxlanılmasına olan bütün cəhdlərə baxmayaraq, ölkənin enerjidaşıyıcıları ilə təminatı vəziyyətinin gərgin olduğunu və Böyük Britaniyanın xaricdən neft və qaz idxalına ciddi ehtiyac hiss etdiyini vurğulamışdır. B.Uilson Birləşmiş Krallığın Şimal dənizindəki yataqların hesabına özünü 2010-cu ilə qədər təmin edə biləcəyini qeyd edərək, bundan sonra Xəzər hövzəsinin B.Britaniyanın enerjidaşıyıcılarına olan ehtiyacının ödənilməsində əsas rol oynayacağını bildirmişdir.[8]

Göründüyü kimi, Böyük Britaniyanın Xəzərin enerji sektoru ilə bağlı siyasətində Azərbaycan xüsusi yer tutur. Azərbaycan dövləti məsələnin bu cəhətini nəzərə alaraq, Böyük Britaniya ilə əməkdaşlığa ciddi əhəmiyyət verir və ölkəmizin real iqtisadi inkişafını təmin etmək məqsədilə Britaniya şirkətləri ilə bağlanan müqavilələrdə respublikanın pay bölgüsünün nəzərə alınmasını daim diqqət mərkəzində saxlayır.

Ədəbiyyat:

1. Aliev N. «The history of oil in Azerbaijan», Azerbaijan İnternational, California, (spring. 1994), p. 22.
2. Mir-Babayev M. «Foreign İnvestment in Azerbaijan's Oil», Azerbaijan İnternational (12.2), (summer, 2004), p. 82.
3. Məmmədli E. Azərbaycan-Böyük Britaniya münasibətləri. Bakı 2003. s.15.
4. Mir-Babayev M. «Foreign İnvestment in Azerbaijan's Oil», Azerbaijan İnternational, (summer, 2004), p. 84.
5. Azərbaycan neftinin dünəni, bu günü və sabahı. Bakı 1997. s. 115-116.
6. Mir-Babayev M. «Foreign İnvestment in Azerbaijan's Oil», Azerbaijan İnternational (12.2), (summer, 2004), p. 85.

7. Гулиева Н., Алиев Н. Приоритеты для БП, Эхо, 2003, 13 февраль.
8. Азербайджанская нефть не потеряла свою потребность, Эхо, 19 апрель, 2003.

CEYHUN MAHMUDOV
Naxçıvan Dövlət Universiteti

İNVESTİSİYA SİYASƏTİ VƏ AZƏRBAYCAN İQTİSADİYYATINDA XARİCİ SƏRMAYƏ

Yeni iqtisadi münasibətlərə keçid şəraitində milli iqtisadiyyatı formalaşdırmağın və dirçəltməyin, struktur dəyişmələrin və iqtisadi artımın əsasını investisiya vəsaitlərinin cəlb edilməsi, onun həcminin artırılması və səmərəliliyinin yüksəldilməsi təşkil edir.

Respublikamızda köklü islahatların həyata keçirilməsi üçün daxili vəsaitlərin azlığı, iri layihələrin işlənməsi və investisiya riskinə uyğun olan ehtiyatların tapılması və s. kimi problemlərin həllinin daha prioritet mənbəsi xarici investisiyaların cəlb edilməsidir. Respublikamızda fiziki və mənəvi cəhətdən tamamilə köhnələn əsas kapitalın yeniləşdirilməsinə, dağılan infrastrukturların yenidən qurulmasına, iqtisadiyyatdakı digər zəruri ehtiyacların ödənilməsinə kəskin ehtiyac xarici investisiyaların axınına maksimal əlverişli mühit yarada bilən iqtisadi siyasətin yeridilməsini zəruri edir.

Amerika iqtisadçısı U.Şarpın qeyd etdiyi kimi, həyata keçirilən bu siyasət ilk növbədə xarici investisiyalara iqtisadiyyatın strukturunun yenidən qurulması, davamlı inkişafın təmin edilməsi, mütərəqqi texnika və texnologiyanın əldə edilməsi, yeni idarəetmə təcrübəsinin mənimsənilməsi, milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasının sürətləndirilməsi vasitəsi kimi baxılması ilə bağlıdır.[5]

Qeyd edək ki, xarici investisiyaların respublikamıza cəlb olunması müəyyən siyasi, hüquqi və iqtisadi amillərlə bağlıdır. Təbii haldır ki, öz strateji maraqlarından çıxış edən xarici investorlar investisiya qoymaq istərkən sərmayə qoyduqları ölkənin investisiya mühitinin əlverişliliyi ilə maraqlanırlar. İnvestisiya mühitinin əlverişliliyi isə ölkənin iqtisadi və siyasi vəziyyəti, investisiya qoyuluşu baxımından cəlbediciliyi, xarici mülkiyyətçilərin hüquqlarının qorunması, sahibkarlıq fəaliyyətinin həvəsləndirilməsi, investisiya qoyuluşlarının risk dərəcəsinin aşağı olması, xarici iqtisadi fəaliyyətin liberallaşdırılması kimi amillərdən asılıdır.

Respublikamızda bir tərəfdən onilliklər ərzində formalaşmış çoxsahəli və çoxşaxəli istehsal-texniki potensialın mövcudluğu, digər tərəfdən bir çox sahələrdə güclü elmi-texniki potensialın və nisbətən ucuz ixtisaslı kadr ehtiyatlarının mövcudluğu onun investisiya qoyuluşu baxımından cəlbediciliyini daha da artırmışdır. Bununla yanaşı, dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması, iqtisadiyyatın ardıcıl olaraq liberallaşdırılması və dünyaya açılması istiqamətində həyata keçirilən tədbirlər investisiya mühitinin yaxşılaşdırılmasına səbəb olmuşdur ki, bu da bir çox beynəlxalq maliyyə-iqtisadi təşkilatların və investorların Azərbaycanla əməkdaşlığa marağının artmasına səbəb olmuşdur.

Beynəlxalq təşkilatların və investorların ölkəmizdə gedən islahatlara münasibətinin bariz nümunəsi iqtisadiyyatımıza yönəldilmiş xarici investisiyaların həcminin artmasıdır. Belə ki, müstəqillik əldə olunandan sonrakı dövr ərzində ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 13,6 mlrd. ABŞ dollarından çox investisiya qoyulmuşdur ki, bunun da 9,7 mlrd. ABŞ dollarını 1994-cü ildən ölkəmizə cəlb olunan xarici investisiyalar təşkil edir. Qeyd edək ki, ölkəmizin iqtisadiyyatına yönəldilmiş xarici investisiyaların 80 %-ni birbaşa xarici investisiyalar təşkil edir və son illərdə neft sektoru ilə yanaşı digər sahələrə, xüsusilə

energetika və neft-kimya sənayesinə, infrastruktur və kənd təsərrüfatı sahələrinə yönələn investisiyaların da payı sürətlə artır. 2002-ci ilin statistik məlumatına əsasən Azərbaycanda qeyri-neft sektoruna qoyulan xarici sərmayə 45,5 mln. ABŞ dolları həcmində olmuşdur. İqtisadiyyatımıza qoyulan xarici investisiyaların ümumi həcmində qeyri-neft sektoruna qoyulan xarici sərmayənin ilbəil artması respublikamızda sahələrarası tarazlı inkişafı və əhalinin məşğulluğunun nisbətlərinin optimallığını təmin edir.

Azərbaycan iqtisadiyyatına xarici sərmayənin axınının mövcud vəziyyəti göstərir ki, ölkə iqtisadiyyatına Türkiyə, İran, Rusiya, ABŞ və s. ölkələrin investorları daha çox maraq göstərirlər. Hər şeydən əvvəl, Türkiyə kompaniyalarının fəaliyyəti diqqəti cəlb edir. Onların iştirakı ilə yaradılan birgə müəssisələr bütünlükdə yaradılan bu tipli müəssisələrin 45%-ni, həmin məqsəd üçün nəzərdə tutulan Türkiyə investisiyası isə ümumi investisiya həcminin 65%-ni təşkil edir. Türkiyə sərmayəsinin tətbiq sahəsi geniş olub əsasən ticarət və xidmət dairəsində, yeyinti və yüngül sənayedə, tikinti və s. sahələrdə cəmləşmişdir.[3]

Bütün bunlarla yanaşı Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə əməkdaşlıq edilir. Azərbaycanda iqtisadi islahatların aparılmasına, makroiqtisadi sabitliyin dəstəklənməsinə Beynəlxalq Valyuta Fondu tərəfindən 800 mln ABŞ dollarından çox, struktur islahatların təhsil, mədəniyyət, infrastruktur və digər sahələrdə müxtəlif layihələrin keçirilməsinə Dünya Bankı tərəfindən 350 mln ABŞ dolları, Avropa Yenidənqurma və İnkişaf Bankı xətti ilə 110 mln ABŞ dolları həcmində yardım göstərilmişdir.[1]

Həmçinin beynəlxalq təşkilatlar, donor ölkələr Azərbaycan Respublikası Prezidentinin neft sənayesi ilə yanaşı qeyri-neft sektorunun inkişafına yönəldilmiş siyasətini dəstəkləyərək yoxsulluğun azaldılması və iqtisadi inkişafın təmin edilməsi üzrə Dövlət Proqramının həyata keçirilməsinə hərtərəfli yardım göstərirlər. Məhz bu baxımdan yaxın 3 ildə

Azərbaycan iqtisadiyyatının inkişafına 10 milyard ABŞ dolları həcmində xarici sərmayə cəlb olunacaqdır.[4]

Son olaraq qeyd etmək olar ki, sərmayə mühitinin daha da yaxşılaşdırılması üçün dünya ölkələrinin qabaqcıl təcrübələrindən istifadə edərək, xarici iş adamlarının təkliflərini öyrənərək təsirli investisiya siyasəti həyata keçirmək olar və fikrimizcə, respublikamızda həyata keçirilən investisiya siyasəti sənaye, kənd təsərrüfatı, elm, texnika, nəqliyyat, xarici iqtisadi fəaliyyəti əhatə etməklə istehsalın texnoloji strukturunun yaxşılaşmasına, dərin emaldan keçmiş məhsulların xüsusi çəkisinin artmasına, iqtisadiyyatın infrastrukturunun inkişafına, əmtəə və kapitalın sərbəst hərəkətinə istiqamətlənməli və investisiya siyasətinin ən mühüm istiqamətləri aşağıdakılardan ibarət olmalıdır:

1. investisiya üçün əlverişli mühitin yaradılması və əmanətlərin investisiyaya çevrilməsi;
2. investisiyaların həcminin və səmərəliliyinin artırılması;
3. xarici investisiyaları cəlb etmək üçün əlverişli şəraitin yaradılması;
4. xarici investisiyaların cəlb edilməsini tənzimləmək üçün sabit və «şəffaf» normativ - hüquqi bazanın formalaşdırılması;
5. Azərbaycanın beynəlxalq investisiya əməkdaşlığında iştirakını təmin etmək üçün müqavilə - hüquqi əsasların inkişafı.

Ədəbiyyat:

1. A.Ə.Əliyev, A.Ş.Şəkərəliyev. Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti. Bakı, 2002,s.66.
2. Kərimli İ.A., Süleymanov N.M.Milli iqtisadiyyatın əsasları. Dərslik, Bakı, 2001, s.206-210.
3. Əlirzayev Ə.Q.Azərbaycanın iqtisadi inkişafının konsepsiyası və proqramı. Bakı, 1999, s. 44-47.
4. « Dialoq » Azərbaycan iş dünyası dərgisi. Haziran, 2003, sayı14.
5. Шарп У., Александр Г., Бейли Дж. Инвестиции. Пер.с англ. М.: Инфра-М., 1999, 1028 стр.

HƏSƏN MƏMMƏDOV
Naxçıvan Dövlət Universiteti

İSTEHSAL İNFRASTRUKTURUNUN FORMALAŞMASI VƏ İNKİŞAFINDA DEMOQRAFİK AMİLLƏRİN ROLU

Bazar münasibətləri şəraitində Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişaf etdirilməsi məqsədi ilə istehsal infrastrukturunun qərarlaşmasına təsir edən demoqrafik amillərin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki istehsal infrastrukturunun formalaşması və inkişafına digər amillərlə yanaşı ölkədə mövcud olan demoqrafik vəziyyət mühüm təsir göstərir.

Bu istiqamətdə apardığımız araşdırmalar göstərir ki, 1995-ci ilədək ölkədə yaranmış sosial-iqtisadi böhranın nəticəsində yaranmış çətinliklər hələlik tam aradan qaldırılmamış, sosial infrastrukturların zəif inkişaf etməsi əhalinin əksər hissəsinin onların xidmətlərindən lazımi səviyyədə istifadə etmək imkanlarını məhdudlaşdırmışdır. Eyni zamanda Ermənistanın işğalçı qüvvələri Rus ordusunun nizami qoşunları ilə birlikdə ölkə ərazisində mövcud olan xeyli istehsal və sosial obyektləri dağıtmış, nəticədə işğal olunmuş ərazilərində yarım milyona yaxın iş yerləri itirilmişdir. Lakin son illər cəmiyyətdə baş verən dərin dəyişikliklər hesabına ölkənin demoqrafik inkişaf prossesində də mühüm dəyişikliklər baş vermişdir. 1990-cı ildən başlayaraq, Azərbaycanda orta ömür uzunluğu aşağı düşməyə başlamışdır. Yalnız 1997-ci ildən yenidən artmışdır. (2).

Həyata keçirilən iqtisadi islahatlar nəticəsində əhalinin məşğulluğunda və əmək bazarında da müəyən dəyişikliklər baş vermişdir. Belə ki, 2003-cü ildə 1990-cı ilə nisbətən sənaye sahələrində məşğul olan əhalinin sayı 212,8 min nəfər və ya 45,4 faiz, tikinti sahəsində 31,7 min nəfər və ya 12,6 faiz,

nəqliyyat və rabitə sahəsində 43,7 min nəfər və ya 20,3 faiz azaldığı halda, kənd və meşə təsərrüfatı sahəsində 359,3 min nəfər və ya 31,4 faiz, ticarət və ictimai-iaşə, maddi-texniki təchizat və satış, tədarük sahəsində 258,4 min nəfər və ya 70,5 faiz, mənzil-kommunal təsərrüfatı və əhaliyə məişət xidməti sahəsində 5 min nəfər və ya 4,0 faiz, səhiyyə, bədən tərbiyyəsi və sosial müdafiə sahəsində 7,7 min nəfər və ya 4,5 faiz artmışdır. İqtisadiyyatın ayrı-ayrı sahələrində məşğul olanların sayının belə dəyişməsi məşğulluğun sahə strukturuna da təsir etmişdir. Əgər 1990-cı ildə sənayedə məşğul olanların sayı iqtisadiyyatın bütün sahələrində məşğul olanların 12,7 faizini, kənd və meşə təsərrüfatında məşğul olanların 30,9 faizini, tikintidə məşğul olanların 6,8 faizini, nəqliyyat və rabitədə məşğul olanların 5,8 faizini, ticarət və ictimai-iaşədə məşğul olanların 9,9 faizini təşkil etmişdirsə, 2003-cü ildə bu göstəricilər müvafiq olaraq 6,8 faiz, 39,9 faiz, 5,8 faiz, 4,6 faiz və 16,6 faiz olmuşdur. Tədqiqatlardan görünür ki, son illərdə maddi istehsal sahələrində çalışanların xüsusi çəkisi aşağı düşmüşdür. Bu müsbət hal kimi dəyərləndirilə bilməz. Çünki ölkə iqtisadiyyatının inkişafı əsasən iqtisadiyyatın real sektorunun inkişafı ilə müəyyən edilir. Ona görə də istehsal sahələrində məşğul olanların xüsusi çəkisinin artırılması üçün tədbirlərin görülməsi ön plana çəkilməlidir. İstehsal sahələrində xüsusən də onun ayrı-ayrı infrastrukturlarında məşğul olan əhalinin xüsusi çəkisinin aşağı düşməsi yalnız o zaman müsbət hal kimi qiymətləndirilə bilər ki, bu vəziyyət istehsal sahələrində əmək məhsuldarlığının səviyyəsinin azalmaması ilə müşayiət olunsun. Azərbaycanda məşğulluq səviyyəsinin aşağı düşməsinin iqtisadi geriləmə ilə müşayiət olunması səbəbindən bu meyli müsbət qiymətləndirmək olmaz (5).

Əhalinin məşğulluğunun xüsusi çəkisnin artırılması sosial-iqtisadi rifahın yüksəldilməsinə gətirib çıxarır, bu isə bazar iqtsadiyyatına keçid şəraitində dövlətin iqtisadi siyasətinin əsas tərkib hissələrindən biri olmalıdır.

Azərbaycan Respublikasında bu sahə son illərdə daim diqqət mərkəzində saxlanılmışdır. Belə ki, 1990-cı illərin əvvələrində iqtisadiyyatın böhran vəziyyətində olması və onun aradan qaldırılması üçün səmərəli tədbirlərin görülməməsi, inflyasiyanın günbəgün artması əhalinin sosial-iqtsadi vəziyyətini daha da pisləşdirmişdir. 1991-1994-cü illərdə əhalinin pul gəlirləri 3,6 dəfə aşağı düşmüş, ilbəil Respublika əhalisinin pul gəlirləri adambaşına orta hesabla 1,4 dəfə azalmışdır. Lakin iqtisadiyyatın inkişaf etdirilməsi və xalqın rifahının yaxşılaşdırılması istiqamətində Ümummilli Lider H.Əliyevin yeritdiyi məqsədyönlü iqtisadi siyasət və tədbirlər hesabına 1995-ci ildən başlayaraq iqtisadiyyatın sabit inkişafı təmin olunmuş, iqtisadi-siyasətin sosial yönümlülüyünün artırılması üçün əlverişli şərait yaranmışdır. 1995-ci ilədən başlayaraq əhalinin real pul gəlirləri 3 dəfə artmışdır. Ölkə əhalisinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasının başlıca istiqamətlərindən biri də son illərdə özəl sektorun və sahibkarlığın inkişaf etdirilməsi sahəsində görülən ardıcıl işlər və əhalinin gəlirlərinin strukturunda sahibkarlıq fəaliyyətindən daxil olmaların xüsusi çəkisinin artması olmuşdur.

Əməyin ödənilməsi sahəsində də son illər aparılmış islahatlar əmək haqqı sistemində yaranmış uyğunsuzluqların aradan qaldırılmasına xidmət etmişdir. Belə ki, xalq təsərrüfatında işləyən fəhlə və qulluqçuların, idarəetmə orqanlarının işçilərinin və hərbi qulluçuların əmyəinin ödənilməsində vahid tarif cədvəlləri hazırlanıb təsdiq edilmişdir.

Respublikada sosial yönümlü bazar iqtsadiyyatının yaradılması məqsədilə və əhalinin, xüsusi ilə az təminatlı ailələrin sosial müdafiəsinin yaxşılaşdırılması ilə əlaqədar bir çox əhəmiyyətli tədbirlər hazırlanmış və həyata keçirilmişdir. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə əlaqədar 1993-cü ilin iyun ayından etibarən 40-a yaxın Qanun qəbul edilmiş, müvafiq Fərman və sərəncamlar imzalanmışdır. Əhalinin sosial müdafiəsinin istiqamətləri genişləndirilmiş,

təqaüdçülərin, şəhid ailələrinin, əlillərin, ailə başçısını itirənlərin, habelə müxtəlif komitələrdə, təşkilatlarda, hüquq-mühafizə orqanlarında çalışan fəhlə və qulluqçuların təqaüd və müavinətlərinin təminatında, əmək haqqlarının artırılmasında ciddi yeniliklər və dönüş baş vermişdir. 1993-cü il 03 sentyabr tarixdə qəbul edilmiş «Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında» Azərbaycan Respublikası Qanununun və «Azərbaycan Respublikası ərazisini erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 26 Avqust 1994-cü il tarixli Fərmanı ilə 20 mindən artıq şəhid ailəsinə və əlillərə müxtəlif güzəştlər verilmiş, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər görülmüşdür (4). Azərbaycan Respublikası Prezidentinin «Hərbi xidmət vəzifələrini yerinə yetirərkən əlil olmuş hərbi qulluqçuların təqaüdünə əlavə aylıq müavinətlərin təyin edilməsi haqqında» 30 may 1998-ci il tarixli 715 saylı fərmanı əsasında respublika ərazisini müdafiə edərkən əlil olmuş 1-ci, 2-ci və 3-cü qrup hərbi qulluqçuların təqaüdlərinə yenidən baxılmış və onların maddi rifah halının xeyli yaxşılaşdırılması təmin edilmişdir. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin «Pedaqoji işçilərin, ahıl vətəndaşların, 1-ci və 2-ci qrup əlillərin, Çernobıl qəzası əlillərinin sosial müdafiəsi haqqında» 17 iyun1997-ci il tarixli fərmanı ilə iqtisadiyyatın inkişafına və müəssisələrin dirçəlməsinə mənfi təsir göstərən bir sıra qeyri-vergi güzəştlərinin ləğv olunması zəruriətini nəzərə alaraq və bu güzəştlərdən istifadə edən pedaqoji işçilərin, əlil vətəndaşların, 1-ci və 2-ci qrup əlillərin, Çernobıl qəzası əlillərinin sosial müdafiəsini təmin etmək üçün 1997-ci il iyul ayının 1-dən pedaqoji işçilərin aylıq vəzifə maaşları 30 faiz, 2003-cü ildən isə 50 faiz artırılması təmin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 13 iyul 1999-cu il

tarixli fərmanı ilə dövlət büdcəsindən maliyyələşdirilən bir qrup komitə və nazirliklərdə çalışan fəhlə və qulluqçuların aylıq vəzifə maaşları 01 avqust 1999-cu ildən etibarən 1,8 dəfə, 2001-ci il 04 yanvar tarixli sərəncamı əsasında isə dövlət büdcəsindən maliyyələşdirilən icra və məhkəmə hakimiyyəti orqanları işçilərinin aylıq vəzifə maaşları 2001-ci il fevral ayının 1-dən 1,5 dəfə, dövlət qulluğu haqqında qanuna görə isə 2004-cü ilin sentyabr ayından etibarən dövlət büdcəsindən maliyyələşən icra orqanları işçilərinin vəzifə maaşları üç dəfədən çox artırılmışdır. «Azərbaycan Respublikası Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008-ci illər)» nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi ölkənin sosial-iqtisadi inkişafında vacib mərhələ olacaqdır. Belə ki, qarşıdan gələn 5 il müddətində ölkədə ümumilikdə 600.000 yeni iş yeri yaradılacaq və əhalinin orta aylıq əmək haqqı 3,1 dəfə artırılacaqdır. Bü isə əhalinin rifah halının yaxşılaşdırılmasında mühüm rol oynayacaqdır (3).

Bütün bunlar əhalinin rifahının daha da yaxşılaşdırılması məsələlərinin ön planda durmasını və əhalinin sosial-iqtisadi təminatının daim dövlətin nəzarətində olmasını göstərir.

İstehal infrastrukturunun formalaşması və inkişafına təsiri baxımından ölkədə mövcud olan demoqrafik vəziyyət tədqiq edilərkən aşağıdakı nəticələr əldə edilmişdir:

1. Makroiqtisadi səviyyədə istehsal infrastrukturunun formalaşması və inkişafına ölkənin demoqrafik vəziyyətinin təsiri müstəsna əhəmiyyətə malikdir;

2. Azərbaycan üçün əhalinin doğum səviyyəsinin aşağı düşməsi, ölüm səviyyəsinin yuxarı olması, əhalinin artım sürətinin azalması, gözlənilən ömür müddətinin aşağı olması, sağlamlığın pisləşməsi, miqrasiya saldosunun mənfi olması, istehsal sahələrində çalışan əhalinin sayının azalması və s. xarakterikdir;

3. Ölkədə demoqrafiya prosesinə təsir göstərmək üçün aparılan dövlət siyasəti tələb olunan səviyyədə deyildir;

4. Miqrasiya proseslərinin tənzimlənməsinə dair dövlət tərəfindən lazımi tədbirlər görülməlidir;

5. Son illər əhalinin maddi rifahının yaxşılaşdırılması ilə əlaqədar görülmüş tədbirlər respublikada həyat səviyyəsinin yüksəldilməsinə xidmət edəcəkdir;

6. Demoqrafik proseslərin səviyyəsinə və dinamikasına təsir edən mənfi amillərin aradan qaldırılması və bu sahədə dövlət proqramlarının hazırlanması isə demoqrafik proseslərə öz müsbət təsirini göstərəcəkdir. Bu isə gələcəkdə istehsal infrastrukturunun formalaşması və inkişafı üçün əlverişli zəmin yaradacaqdır.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının «Əmək miqrasiyası haqqında» Qanunu, 23 mart 2001.
2. Azərbaycanın Statistik göstəriciləri-2003. Bakı, Səda nəşriyyatı, 2003, 773 s.
3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). Bakı, «Nurlar» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2004, 160 s.
4. «Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və İqtisadi İnkişafın Dövlət Proqramı» (2003-2005-ci illər). Bakı, «RN-94», 2003, 296 s.
5. İmanov E.S. Azərbaycan Respublikasında Demoqrafik inkişafın müasir vəziyyəti və qiymətləndirilməsi/ İqtisadi İslahatlar Mərkəzinin elmi əsərlər toplusu. IV buraxılış. Bakı, İqtisadi İslahatlar Mərkəzi, 2003, s. 102-117.

BƏHRAM HƏSƏNOV

Naxçıvan Dövlət Universiteti

AQRAR BÖLMƏYƏ DÖVLƏT HİMAYƏSİ

Mülkiyyət münasibətlərini nəzərdən keçirərkən məlum olur ki, kənd təsərrüfatının əsas istehsal vasitəsi olan torpaq mülkiyyət obyekti rolunu da yerinə yetirir. Bəşəriy-

yətin inkişafının müxtəlif mərhələlərində mülkiyyətin müxtəlif formalarına təsadüf edilmişdir. Torpaq üzərində mülkiyyətlə və torapaqdan istifadə edilməsi ilə əlaqədar olan münasibətlər aqrar münasibətlər adlanır. Bu aqrar münasibətlər ilk növbədə istehsal vasitələri üzərində mülkiyyətin forması ilə müəyyən olunan ictimai istehsal münasibətlərinin tərkib hissəsidir.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq aparılan islahatlar nəticəsində Azərbaycanda torpaq üzərində mülkiyyətin aşağıdakı formaları qərarlaşmışdır.

a) dövlət mülkiyyətində olan torpaqlar; dövlət meşə fondu, su fondu torpaqları, dövlət ehtiyyatında olan torpaqlar və s.

b) bələdiyyə mülkiyyətində olan torpaqlara yaşayış məntəqələrinin yerləşdiyi və onların ətrafında olan torpaqlar aiddir.

ğ) xüsusi mülkiyyətdə olan torpaqlara isə kolxoz və sovxozların ləğv edilməsi nəticəsində kəndlilərin mülkiyyətinə verilmiş torpaq sahələri daxildir.[4]

Torpaq üzərində mülkiyyət müxtəlifliyi ilə yanaşı torpaqdan istifadə edən təsərrüfatların da müxtəlif formalarına rast gəlmək mümkündür. Bunlardan ən geniş yayılmışı fermer təsərrüfatı formasıdır. Fermer təsərrüfatı dedikdə, bazar iqtisadiyyatı şəraitində əmtəəlik kənd təsərrüfatı məhsulları istehsal edən xüsusi kənd təsərrüfatı müəssisəsi nəzərdə tutulur. Fermerlər ya özlərinin mülkiyyətində olan, ya da icarəyə götürülmüş torpaqlarda təsərrüfatçılıq edirlər. Bu təsərrüfatlarda əmək prosesi ya təsərrüfaçıların özləri, ya da muzdlu işçilərin vasitəsilə həyata keçirilir.

Ölkəmizin iqtisadi inkişafı aqrar sahədə istehsal münasibətlərinin düzgün qurulmasından, istehsalı təmin edən iqtisadi alətlərə üstünlük verilməsindən xeyli dərəcədə asılıdır. İqtisadi təhlillər göstərir ki, Azərbaycanın kənd təsərrüfatı məhsulları istehsalında çox böyük potensial

imkanları vardır ki, bu da ölkənin ərzaq təhlükəsizliyini təmin etməklə yanaşı, həm də kənd təsərrüfatı məhsulları ixracının təşkil etmək mümkündür.

Hələ bazar iqtisadiyyatının sərt qanunları ilə üzləşməmişdən əvvəl ümid edilirdi ki, inzibati-amirlik iqtisadiyyatının dayaqları sındırılan kimi ölkənin iqtisadi inkişafını təmin etmək mümkün olacaq, istehsalın artımı üçün daxili stimul yaranacaq, azad iqtisadiyyat bazarını «görünməz əl» vasitəsi ilə tənzimlənəcək və dövlətin təsərrüfat həyatına bir başa müdaxiləsinə ehtiyac qalmayacaq. Lakin bazar münasibətləri Azərbaycanda tam formalaşmadığına görə bazar elementlərinin iqtisadiyyata səmərəli təsirindən danışmaq hələ tezdir.

İqtisadiyyatın normal inkişafı onun dövlət tərəfindən nizamlı şəkildə tənzimlənməsindən çox asılıdır. İqtisadiyyatın maksimum dərəcədə liberallaşdırılması belə yenə də dövlətin iqtisadi proseslərin idarə edilməsində iştirakını inkar etmir. Hər bir dövlətin özünün maraqları və mənafeyinin olması dövlətin ictimai həyatının bütün fəaliyyət dairələrinə müdaxiləsini zəruri edir. Lakin bu müdaxilənin özünün də müəyyən hədləri olmalıdır. Əgər iqtisadiyyat həddən artıq dövlət tərəfindən inhsara alınırsa, bu zaman istər fərdlərin, istərsə də təsərrüfat subyektlərinin məsuliyyət hissi azalır, onların daha yüksək nəticələr əldə etməyə marağı olmur.

Bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdən fərqli olaraq MDB ölkələrində, o cümlədən Azərbaycanda iqtisadiyyatın dövlət tənzimlənməsi tamamilə yeni çalarlara malikdir. Yəni dövlət ilkin funksiya yerinə yetirərək bir tərəfdən iqtisadi prosesləri tənzimləməli; digər tərəfdən də bazar mühütünü formalaşdırmalı və onun ayrı-ayrı elementlərinin fəaliyyətinə şərait yaratmalıdır.

İqtisadiyyatın dövlət tənzimləsinin daha çox inkişaf etmiş mexanzmi əsasən Qərbi Avropa ölkələrində (Fransa, Almaniya, Hollandiya, Skandinaviya ölkələri, Avstriya, İspaniya), Yaponiyada Asiyanın və Latın Amerikasının bir

sıra inkişaf etməkdə olan ölkələrində təşəkkül tapmışdır. Avropa ölkələrindən fərqli olaraq iqtisadiyyata dövlət müdaxiləsi ABŞ, Kanada, Avstraliya kimi ölkələrdə daha məhdud xarakter daşıyır. Çünki Avropadan fərqli olaraq bu ölkələr ikinci dünya müharibəsinin doğurduğu kəskin sosial iqtisadi problemlərlə, sosializm düşərgəsinin bu bölgəyə nüfuz etməsi ilə qarşılaşmamışlar. Bununla belə bu cür ölkələrdə dövlətin iqtisadiyyata müdaxiləsi əsasən işsizlik və infilyasiyasının dərinləşdiyi şəraitdə daha çox nəzərə çarpır.[2]

Bazar münasibətlərinin formalaşmaqda olduğu müasir şəraitdə dövlət iqtisadiyyata müdaxilə etməklə iqtisadi artımın stimullaşdırılması, inhisarçılığın aradan qaldırılması, iqtisadiyyatda mütərəqqi struktur dəyişikliklərinə şərait yaradılması, ixracata yardım göstərilməsi, infilyasiyanın qarşısının alınması, gəlirlərin yenidən bölüşdürülməsi, məşğulluğun tənzimlənməsi və ölkələrin iqtisadi maraqlarının qorunması kimi mühüm vəzifələri həyata keçirməlidir.

Bazar mexanizmi dövlətin iqtisadi fəaliyyəti üçün spesfik və sərt tələblər qoyur. Dünya təcrübəsinə əsasən demək olar ki, heç bir ölkədə iqtisadiyyat dövlət tərəfindən ideal şəkildə tənzimlənmir. Əksər ölkələrdə iqtisadiyyatın idarə edilməsində dövlətin rolu böyükdür. Bu isə həmin ölkələrdə bazarın stimullaşdırıcı potensialından kifayət qədər istifadə olunmasını səciyyələndirir.

Dövlət tərəfindən bazar mexanizminin daxili əlaqələrinin pozulmasına yönəldilən hər cür fəaliyyət prinsipcə yolverilməzdir. Rəqabət münasibətlərinin mövcud olduğu bazar mexanizmi özünütənzimləyən sistem kimi cıxış etdiyinə görə, ona əsasən dolayı, yaxud iqtisadi üsullarla təsir göstərmək lazımdır. Yalnız inzibati üsullara üstünlük verməklə dövlət bazarın tənzimləyici mexanizmini dağıda bilər və iqtisadiyyatın səmərəliliyini, dinamikliyini təmin edə bilməz. Lakin bu heç də bazar təsərrüfatı şəraitində inzibati üsulların tətbiqini istisna etmir. Nəzərə alınmalıdır ki,

inzibati təsir bəzi hallarda nəinki lazımdır, hətta o labüddür.

Aydın olur ki, iqtisadi inkişafın başlıca təminatçısı dövlətdir. Bununla, belə dünya təcrübəsi nəzərə alınmaqla, iqtisadi siyasətdə ölkənin spesfik xüsusiyyətləri də diqqətdən yayılmamalıdır.

Dövlətin aqrar siyasətinin ana xətti əhalinin ərzaqla təminatı, sənayeni isə kənd təsərrüfatı xammalı ilə fasiləsiz təmin etməkdir. Bundan başqa ölkənin kənd təsərrüfatı məhsullarına ehtiyacının təmin olunmasının, xarici ölkələrdən asılılığının maksimum azaldılması əsas məqsədlərdən biridir.

Nəzərə almaq lazımdır ki, aqrar sahənin inkişafı dövlətin mühüm trateji iqtisadi maraqlarının tərkib hissəsidir, bu sahəyə təsir xüsusi elmi yanaşma tələb edir. Belə ki, iqtisadi maraqlarının necə təmin olunmasından asılıdır və aqrar sahə digər sahələrdən fərqli olaraq adətən az gəlirli və yaxud ziyanla işləyən sahələrdən biridir. Onu da qeyd etmək lazımdır ki, kənd təsərrüfatının əksər sahələri qısa müddətdə deyil, xeyli müddətdən sonra xeyir verməyə başlayırlar.

Bu gün Azərbaycanın kənd rayonlarından sənaye rayonu olan Apşeron yarımadasına axın var. Bu ondan irəli cəlir ki, Bakı və onun ətrafı çox gəlir gətirən sənaye sahələri və xidmət sahələrinin inkişafı ilə əlaqdardır. Bu qonşu Türkiyə, Rusiya, Qazaxıstan və bir çox digər ölkələrdə də ağrılı problemlərdən biridir.

Aqrar islahatların əsasları haqqında Azərbaycan Ruspublikasının qanuna əsasən aqrar bölmə iqtisadiyyatın vacib sahələrindən biri kimi dövlət himayəsindədir. Dövlət himayəsi aşağıdakı istiqamətlərdə həyata keçirilir:

- aqrar sahəyə investisiya qoyuluşunun stimullaşdırılması;
- məqsədi dövlət proqramları əsasında meliorasiya və irriqasiya işlərinin aparılması, kənd təsərrüfatı

maşınlarının və digər maddi-texniki vasitələrin istehsal bazasının yaradılması, işğal altından azad edilmiş ərazilərdə aqrar-sənaye kompleksinin bərpası və inkişaf etdirilməsi;

- kənd təsərrüfatının yoluxucu xəstəliklərə və zərərvericilərə qarşı karantin və müalicə tədbirlərinin aparılmasına, kadr hazırlığına və elmi təminata, istehsal və sosial infrastrukturun yaradılmasına dövlət vəsaitinin ayrılması;
- mühüm kənd təsərrüfatı məhsullarının qiymətləri ilə onların istehsalında istifadə olunan maşın mexanizmlərin, yanacaq-sürtgü materiallarının, mineral gübrələrin, zəhərli kimyəvi maddələrin qiymətləri arasında mütənasibliyin təmin edilməsi;
- differensial kreditləşmə və vergi tətbiqi;[5]

Qanun eyni zamanda aqrar sahədə kənd əhalisinin sosial müdafiəsinin təmin olunmasını nəzərdə tutur. Bununla əlaqədar olaraq mülkiyyət münasibətlərinin dəyişməsi ilə əhalinin sosial müdafiəsinin uzlaşdırılması, kənddə səhiyyə, mədəni-məişət və digər sosial xidmət sahələrinin üstün inkişafının təmin edilməsi və s. tədbirlərin həyata keçirilməsinə Qanun təminat verir.

Hələ SSRİ dövründə qanunvericilikdə belə bir maddə vardı ki, istifadə olunmayan sahələri yararlı hala salan vətəndaşlar həmin torpaqlardan istifadəyə görə 5 il müddətinə bütün vergilərdən azad olunurdular. Fikrimizcə indiki şəraitdə uyğun bu tip qanunvericiliyə ehtiyac var və aqrar sahənin inkişafına stimul verə bilər.

Bəzi mütəxəssislər aqrar sahəyə silsilə güzəştlərin tətbiqini ön plana çəkirlər ki, bunların içərisində yanacaq-sürtgü materiallarının, maşın və avadanlıqların fermerlərə ucuz qiymətə satılmasını özündə etiva edir. Bu fikri müdafiə edənlər İran dövlətinin aqrar sahəyə yanaşmasını əsas gətirərək, qeyd edirlər ki, kənd təsərrüfatı məhsullarının ucuz

başa gəlməsi üçün bu siyasətə arxalanmaq lazımdır. Əvvəla onu qeyd etmək lazımdır ki, Azərbaycanla İran dövlətinin iqtisadi sistemləri bir-birindən köklü sürətdə fərqlənir. İkincisi qiymətlərin süni şəkildə aşağı salınması azad bazar iqtisadiyyatının prinsiplərinə ziddir və bu iqtisadiyyatda subyektiv amillərin rolunu artırır.

Belə yanaşma aqrar sahdə neqativ hallara şərait yaradır, istehsalçıları dövlətdən asılı edir, kənd əhalisini ələbaxın edir.

Avropanın inkişaf etmiş ölkələrindən biri olan Hollandiyada bu məsələ daha uğurla həll edilmişdir. Belə ki, bu ölkədə zəruri kənd təsərrüfatı məhsullarının ən böyük sifarişçisi dövlətdir və dövlət öz fermerlərindən aldığı kənd təsərrüfatı məhsullarını dünya bazarı qiymətlərindən 25-30% baha qiymətə alır. Bu insanların təşəbbüskarlıq fəaliyyətinə geniş imkanlar açır.

Sadalananlar aqrar sahənin inkişafına, ölkədə məşğulluğun yüksəldilməsinə, ölkədən valyuta axınının qarşısının xeyli alınmasına gətirib çıxarar. Dövriyyədən çıxarılmış əkin sahələrinin dövriyyə qaytarılmasına çox kömək etmiş olardı ki, bu da regionların dinamik inkişafını stimul yaradardı.

Fikrimizcə aqrar sahəyə dövlət himayəsi və qayğısının daha çox olması, ölkəmizin iqtisadi strategiyasının optimal hədəflərə nail olmasının əsas şərtlərindən biridir.

Ədəbiyyat:

1. Səfərov S. İqtisadi siyasət strategiyası. Bakı,2000.
2. Əmiraslanov A.. Azərbaycan iqtisadiyyatı və bazar münasibətləri. Bakı,1998.
3. Axundov M. Müəssisə iqtisadı. Bakı,2002.
4. İqtisadi nəzəriyyə. Dərslik. Bakı,2002.
5. Rəhimov M. Azərbaycan Respublikasının iqtisadi inkişafını tənzimləyən qanunlar. Bakı,1996.

6. Allahverdiyev H.B. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı,2002.
7. Müxtəlif mətbuat materialları.

ASƏF QƏRİBOV
Naxçıvan Dövlət Universiteti

AZƏRBAYCANIN DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYASININ ZƏRURİLİYİ VƏ ƏHƏMİYYƏTİ

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra qarşılaşdığı əsas problemlərdən biri bu müstəqilliyi qoruyub yaşatmaq və möhkəmləndirmək imkanlarına malik olan bütöv iqtisadi sistemin yaradılması zərurəti olmuşdur. Beynəlxalq iqtisadi münasibətlərin təhlili və dünya təcrübəsi göstərir ki, müasir dövrdə milli iqtisadiyyatın təşəkkülü və inkişafı prosesində meydana gələn çətinliklərin, problemlərin müvəffəqiyyətli həlli əksər hallarda və əhəmiyyətli dərəcədə xarici iqtisadi əlaqələrin inkişafı hesabına ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin edilməsindən asılı olur. Bu onunla izah olunur ki, müasir dövrdə dünyada baş verən köklü keyfiyyət dəyişikləri beynəlxalq iqtisadi inteqrasiyanı, milli iqtisadi inkişafın zəruri şərtinə çevrmişdir. Bunun nəticəsidir ki, hazırda dünyada tədricən iqtisadi sərhədlərinin aradan qaldırılması, beynəlxalq aləmdə ölkələr üçün eyni qanunlara tabe olan qlobal iqtisadi sistemin-dünya təssərrüfat sisteminin təşkili, formalaşması prosesinə daha çox diqqət yetirilir.

Ümumiyyətlə, belə şəraitdə sosial-iqtisadi inkişaf səviyyəsindən və milli xüsusiyyətlərdən asılı olmayaraq hər hansı bir ölkənin iqtisadi siyasəti o vaxt səmərəli ola bilər ki, o digər ölkələrin iqtisadi strategiyaları ilə uzlaşdırılmış olsun. Başqa sözlə, ölkənin iqtisadi siyasəti beynəlxalq qanunlar nəzərə alınmaqla hazırlansın və həyata keçirilsin (1). Məhz

belə siyasətin nəticəsində dünya təsərrüfat sisteminə fəal surətdə qoşulmaqla dövlətlər bir tərəfdən özlərinin müvafiq ehtiyatları olmadıqları halda belə, cəmiyyətin tələbatını daha dolğun ödəmək, iqtisadiyyatın səmərəli strukturunu formalaşdırmaq və s. bu kimi digər problemləri həll etmək, digər tərəfdən isə özlərinin beynəlxalq əmək bölgüsündə malik olduqları üstünlükləri reallaşdırmaq imkan əldə etmiş olurlar. Təsadüfi deyildir ki, müasir dünya iqtisadiyyatında inkişaf səviyyəsinə görə təbii ehtiyatları baxımından özündən dəfələrlə artıq dərəcədə zəngin olan ölkələri geridə buraxan ölkələrin müvəffəqiyyətlərinin başlıca səbəbi, onların dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiya olunmalıdır.

Xüsusi ilə XX əsrin sonunda XXI əsrin əvvələrində dünya ölkələri arasında gedən inteqrasiya prosesləri iqtisadi əlaqələrin dünya dövlətləri arasında daha da intensivləşməsinə zəmin yaratmışdır (2).

Bütün bunların təhlilindən bu nəticəyə gəlmək olur ki, müasir dövrdə milli inkişafın təmin olunması yalnız xarici və daxili iqtisadi amillərin dialektik vəhdəti bazasında mümkündür. Məhz buna görə də xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsi və bu əsasda iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin olunması, son dövrlərdə özünün dövlət müstəqilliyini əldə etmiş ölkələrin sosial-iqtisadi siyasətinin strateji istiqamətlərindən birini təşkil edir.

Bu ölkələr üçün dünya təsərrüfat sisteminə inteqrasiya həm də ona görə əhəmiyyətlidir ki, ölkə iqtisadiyyatını xarici dövlətin və beynəlxalq təşkilatların üzünə açmadan və onlarla qarşılıqlı faydalı əlaqələr yaratmadan nə onların maliyyə imkanlarına arxalanmaq, nə mütərəqqi idarəçilik və təsərrüfatçılıq təcrübəsi qazanmaq, nə də ki, müasir texnika və texnologiya əldə etmək yolu ilə ümumi tərəqqiyə çatmaq olar (3).

İqtisadiyyatın bünya təsərrüfat sisteminə inteqrasiyasının Azərbaycan üçün əhəmiyyəti isə daha da böyükdür. Belə ki, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikası iqtisadiyyat sahəsində iki fundamental problemi eyni zamanda həll etmək zərurəti qarşısında qalmışdır. Bunlardan birincisi və ən mühümü dövlət müstəqilliyini qoruyub yaşatmaq və iqtisadiyyatı daha da gücləndirmək imkanına malik olan bütöv milli iqtisadi sistemin formalaşmasıdır(4).

Bu problemin həlli milli mənafe baxımından iqtisadi sistemin yenidən qurulmasını, ölkənin iqtisadi potensialının millətin iqtisadi və sosial inkişafına yönəldilməsini tələb edir ki, bu da öz növbəsində xalq təsərrüfatının struktrunun iqtisadi potensiala, daxili tələbata və ölkənin beynəlxalq əmək bölgüsündə malik olduğu üstünlüklərə uyğun olaraq təkmilləşdirilməsini, məhsuldar qüvvələrin optimal inkişafının təmin olunmasını, mükəmməl iqtisadi təhlükəsizlik sisteminin yaradılmasını və s. nəzərdə tutur.

İkinci mühüm məsələ isə real bazar münasibətlərinə keçidlə əlaqədar olaraq iqtisadi münasibətlərin əsasılı şəkildə yenidən qurulması zərurətidir.

Bu problemlərin həlli isə, bazar intrastrukturunun formalaşdırılmasını, mülkiyyət çoxnövçülüyünün yaradılmasını, istehsalçı və istehlaçıların sərbəstliyinin təmin olunmasını, azad rəqabət üçün şərait yaradılmasını və s. nəzərdə tutur (5).

Dünya təsərrüfat sistemində inkişaf etmiş ölkələrin təcrübələrini tədqiq edərək bu nəticəyə gəlmək olur ki, müasir dövrdə hər hansı bir ölkənin xarici iqtisadi fəaliyyəti aşağıdakı ümumi prinsiplər nəzərə alınmaqla formalaşdırılmalı və həyata keçirilməlidir:

- milli iqtisadiyyat açıq sistem olmalıdır;
- ölkədə iqtisadi fəaliyyətin tənzimlənməsi mexanizmi beynəlxalq hüquq normalarına və dünya praktikasına uyğun olmalıdır;

- iqtisadiyyatın və xarici ticarət əlaqələrinin strukturu ölkənin iqtisadi potensialına daxili tələbatına və beynəlxalq əmək bölgüsündə malik olduğu üstünlüklərə uyğun olaraq formalaşdırılmalıdır;
- xarici iqtisadi əlaqələrin mütərəqqi formalarının tətbiqi üçün əlverişli şərait yaradılmalıdır;
- xarici iqtisadi əlaqələr, siyasi psixoloji-etnik amillərlə deyil, iqtisadi səmərəlilik və zərurilik məntiqi ilə şərtlənməlidir;
- ölkənin milli mənafelərinə cavab verən beynəlxalq və regional iqtisadi birliklərə və təşkilatlara daxil olmalı və onların işində fəal iştirak etməlidir;
- xarici iqtisadi əlaqələr həmişə strateji məqsədləri və elmi texniki tərəqqinin nailiyyətlərini nəzərə almalı və ehtiyatlardan qənaətlə istifadə olunmasına xidmət etməlidir;
- ölkənin iqtisadi təhlükəsizliyi təmin olunmalıdır.

Təhlil göstərir ki, iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası üçün Azərbaycanda real imkanlar vardır və bu imkanlardan bacarıqla istifadə olunması ölkə qarşısında duran bir çox aktual sosial-iqtisadi problemlərin həllində mühüm rol olmaqla yanaşı perspektivdə Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri sırasına çıxmasını təmin edə bilər.

Ədəbiyyat:

1. D.Vəliyev Beynəlxalq iqtisadiyyat. Bakı, 1998, s. 276.
2. Z.Məmmədov Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri. Bakı, 2004, s.27.
3. R.Həsənov. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı, 1998, s. 331.
4. C.Kərimov, G.Gənciyev. Dünya iqtisadiyyatı. Bakı, 2001, s. 408.
5. A.Əliyev. Azərbaycanın xarici siyasəti. Bakı, 2003, s. 214.

ƏLİ SƏFƏRLİ
AMEA Naxçıvan Bölməsi
Təbii Ehtiyatlar İnstitutu

BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ KƏND TƏSƏRRÜFATININ SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ MƏSƏLƏLƏRİ

Bazar münasibətləri şəraitində Müstəqil Azərbaycan Respublikasının aqrar sahəsinin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Müstəqillik qazanmış respublikamızın iqtisadi cəhətdən möhkəmləndirilməsi və müstəqilliyin qorunub saxlanması birinci növbədə onun iqtisadi gücündən xeyli dərəcədə asılıdır. Ölkənin iqtisadi qüdrətinin artırılması isə xalq təsərrüfatının bütün sahələrinin inkişafından, xüsusi ilə aqrar bölmənin inkişaf etdirilməsindən xeyli dərəcədə asılıdır.

Bazar münasibətləri şəraitində müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatını inkişaf etdirmək və yüksəltmək aqrar sahədə kompleks tədbirlərin həyata keçirilməsini tələb edir. Bu tədbirlər kompleksi sistemində özəl qurumların təşkili və inkişaf etdirilməsi problemi böyük əhəmiyyət kəsb edir ki, bu da sistemli proqram və əsaslandırılmış iqtisadi mexanizm olmadan ardıcıl və səmərəli həll edilə bilməz.

İqtisadiyyatın aqrar bölməsində islahatlar aparmaq üçün qəbul edilən qanunlar və xüsusilə «Torpaq islahatı haqqında» qanun kənddə aqrar münasibətləri tamamilə yenidən qurmağa imkan verən mühüm qanunvericilik sənədi kimi diqqəti cəlb etmişdir.

Heç də təsadüfi deyil ki, bu qanunda qarşıya qoyulan tələblərin yerinə yetirilməsi nəticəsində 1 yanvar 2003-cü ilə olan məlumata görə respublikada 257,6 min kəndli ailəsi torpaq mülkiyyətçisinə çevrilmişdir.

Dövlət mülkiyyətinin özəlləşdirilməsi, ənənəvi kolxoz

və sovxozların (dövlət müəssisələri) məhv edilməsi, kənd təsərrüfatına yararlı torpaq sahələrini kənd əhalisinin xüsusi mülkiyyətinə verməklə yeni iqtisadi sistemdə fəaliyyət göstərmək üçün onlara ilkin bərabər şəraitin yaradılması, kənd təsərrüfatı sferasında müxtəlif mülkiyyət formasına əsaslanan yeni istehsal subyektlərinin yaradılması və s. cəmiyyətin köhnə istehsal münasibətlərinə dözməzliyinə tam təminat erir.

Bütün bunların nəticəsidir ki, son dövrlərdə kənd təsərrüfatında istər əkinçilikdə, istərsə də maldarlıqda respublika üzrə məhsul istehsalı xeyli dərəcədə artmışdır.

Qeyd etmək lazımdır ki, muxtar respublikada kənd təsərrüfatı məhsullarının 99%-dən çoxu özəl bölmənin payına düşür. Bu isə aqrar bölmədə birinci mərhələdə keçirilən islahatların nəticəsidir. Kənd təsərrüfatında məhsul istehsalının artmasına baxmayaraq, göstərmək lazımdır ki, bu sahədə hələ də məhsuldarlıq aşağıdır. Ona görə də artıq ikinci mərhələnin, yəni bu sahədə istehsalın səmərəliliyinin artırılması kimi mühüm vəzifə qarşıya qoyulur.

Bütövlükdə maddi istehsalın, o cümlədən də kənd təsərrüfatı istehsalının səmərəliliyi mürəkkəb iqtisadi kateqoriyadır. Odur ki, müasir şəraitdə kənd təsərrüfatının gələcək inkişafının təmin olunmasının ən aktual problemlərindən biri bu sahənin səmərəliliyini yüksəldilməsidir.

Kənd təsərrüfatı məhsulları istehsalının səmərəliliyin artırılması və maya dəyərinin aşağı salınması, fikrimizcə, aşağıdakı tədbirlərin həyata keçirilməsindən asılıdır:

- kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, yəni onun müasir texnika ilə təmin olunmasına köməklik göstərilməsi;
- kənd təsərrüfatı, bitkiçilik sahəsində istifadə edilən kimyəvi gübrələr və ziyanvericilərə qarşı pereparatların respublikada istehsalını təşkil etmək və istehsalçılara aşağı qiymətlə satılmasını təmin etmək;

- aqrar bölməni ixtisaslı kadrlarla təmin etmək;
- cins mal-qaranın sayını çoxaltmaq və baytarlıq idarələrinin işini gücləndirmək.

ELÇİN İBRAHİMOV
Naxçıvan Dövlət Universiteti

SAHİBKARLIQ MÜNASİBƏTLƏRİNİN MAHİYYƏTİ VƏ İQTİSADİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ YERİ

Sahibkarlıq istehsal münasibətlərinin konkret təzahür forması olub, cəmiyyətin maddi və mənəvi potensialının artmasına zəmin yaradır, hər bir fərdin qabiliyyət və istedadının həyata keçirilməsini şərtləndirir.

Bazar iqtisadiyyatından irəli gələn sərbəst təsərrüfatçılıq olan sahibkarlıq, yaxud sahibkarlıq fəaliyyəti iqtisad elminin mühüm tədqiqat obyektlərindən biridir.

Sahibkarlıq fəaliyyəti (sahibkarlıq) fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi mqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından qanunvericilikdə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir.(1) Qanunvericilik baxımından sahibkarlığa verilən bu tərifdə bəlkə də razılaşmaq olar. Nəzəri və elmi metodik baxımdan sahibkarlıq anlayışının məzmunu dəqiqləşdirilməlidir.

Sahibkarlıq fəaliyyətinin nəzəri əsasları hələ əsrlərlə qoyulmuş və onun ilk yaradıcıları F.Kene, A.Smit, C.Sey, sonralar həmin işin davamçıları R.Kantilon, Y.Şümpeter, S.Mizes, F.Xayer və başqaları olmuşdur. Lakin sahibkarlıq fəaliyyətinin müəyyənləşdirilməsində müxtəlif iqtisadçıların verdikləri tərifl ər fərqlidir. Bəzi iqtisadçılara görə sahibkar

mənfəət əldə etmək naminə istehsal üçün maddi amillərə yiyələnən, digərlərinə görə istehsal amillərini kombinələşdirən və idarəedən, müasir Qərb iqtisadçılarına görə isə istehsalı yaradan, onun təşəbbüskarıdır.

Sahibkarlıq fəaliyyətini ayrı-ayrı adamlar, kollektivlər, dövlət və digər subyektlər həyata keçirir, iqtisadi məsuliyyət və risk etməklə ümumi gəlir və mənfəət əldə etmək istiqamətində fəaliyyət göstərirlər.

Bazar iqtisadiyyatının əsasını sahibkarlıq fəaliyyəti, bazar təsərrüfatının mühüm aparıcı şəxsi sahibkarıdır. Sahibkarlığın mahiyyətini bir çox cəhətdən müəyyənləşdirmək olar:

-Sahibkarlıq fəaliyyətinin məqsədi ən az istehsal amilləri sərf etməklə yüksək mənfəət götürməkdir və ya başqa sözlə desək istehsal və təklif əsasında bazarın tələbini ödəmək və sahibkar mənfəəti əldə etməkdir;

-Sahibkarlıq fəaliyyətinin məzmunu sərəncamında olan resursların elə səmərəli istifadəsini təmin etməkdir ki, qarşıda duran məqsədə çatmaq mümkün olsun;

-Sahibkarlıq gəliri yenilikdən, istehsalın təşkilində, idarəçilikdə yeni metodlar nəticəsində əldə edilir.

Yuxarıda qeyd edilənlərlə yanaşı onu da vurğulamaq olar ki, sahibkarlıq fəaliyyətinin və mülkiyyəti ilə münasibətlərin xarakterindən asılı olaraq sahibkarlıq fəaliyyəti ilə həm mülkiyyətçinin özü, həm də onun müəyyən etdiyi digər subyekt məşğul ola bilər.

Sahibkarlıq fəaliyyətinin iqtisadi şərtlərinə ilk növbədə əmtəə təşkili və həmin əmtəələrə olan tələb, əmtəələrin növləri, pul vəsaitlərinin həcmi, işçi qüvvəsinin və iş yerlərinin artıqlığı və çatışmazlığı, işçilərin əmək haqqının səviyyəsinə təsir edən amillər və s. aid edilir.

Ümumi şəkildə desək Sahibkarlıq fəaliyyəti (sahibkarlıq) cəmiyyət üzvlərinin şəxsi gəlir və ya mənfəət əldə etməyə yönəldilən, öz riski və öz əmlak cavabdehliyi ilə həyata keçirilən müstəqil təşəbbüskar iqtisadi fəaliyyətdir.

Sahibkarlıq fəaliyyəti gəlir, mənfəət əldə edilməsini təmin etmək üçün mühüm təsərrüfat qərarları qəbul olunması, fəaliyyətinin nəticələrinə görə məsuliyyətlə bağlıdır.

Sahibkarlıqda istehsal amillərinin düzgün əlaqələndirilməsi, yeni məhsul (əmtəə) istehsalına, yeni elementlərin tətbiqinə keçilməsi, istehlakçıların marağına uyğun məhsul istehsalının və xidmətlər göstərilməsinin istiqamətləndirilməsi tələb olunur.

Sahibkarlıq iqtisadi fəallığın xüsusi bir növü kimi çıxış etməklə ilkin mərhələdə bir ideya, sonra isə maddiləşmiş formadır. Sahibkarlıq ideyası istehsalçının müəyyən bir formada öz marağını bildirməsidir.

Sahibkarlıq fəaliyyətinin ümumi sxemi:



Sahibkarlıq fəaliyyətinin müvəffəqiyyəti öncə qəbul olunan təsərrüfat-idarəetmə qərarlarının düzgünlüyündən asılıdır. Qərar qəbul etmək həmişə sahibkar funksiyasını yerinə yetirən şəxsin və ya şəxslər qrupunun öhdəsinə düşür.(3,s.11)

İqtisadi münasibətlər sistemi və quruluşu mürəkkəb və çoxcəhətli olub iki əsas subyektin-istehsalçı və istehlakçıların qarşılıqlı münasibətindən ibarətdir. Həm istehsalçı, həm də istehsal sərbəst hərəkət edə bilmir. Hər iki subyekt bir-

birindən asılıdır. Deməli sahibkar qərar qəbul etdikdə aşağıdrkı suallara özü özlüyündə cavab verməlidir:

-Xammal əldə oluna biləcəkmi?

-Proses üçün yarımfabrikatlar və digər dövriyyə vəsaitləri varmı?

-Tələb olunan əsas vəsaitlər (texnika, texnologiya, avadanlıq) almaq imkanı varmı?

-İstehsal olunan əmtəəyə tələbatın səviyyəsi necədir?

-Sahibkarın bu hərəkətinə dövlətin baxışı (vergi, qadağan, maliyyə köməyi və s.) necə ola bilər?

Sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün əsas şərtlərdən biri də müəyyən ictimai şəraitin sahibkarlıq mühitinin mövcud olmasıdır. Burada hər şeydən əvvəl bazar, bazar münasibətləri sistemi, sahibkarın şəxsən müstəqil (sərbəst) olması (qərar qəbulunda) nəzərdə tutulur. (2,s.12)

Sahibkarın hərəkətinin 3 əsas istiqaməti qeyd edə bilərik:

1. İstehsalın (xidmətlərin göstərilməsinin) idarə edilməsi (onun menecer fəaliyyəti);
2. Bazarın təhlil edilməsi: Sahibkar istehsalı istehlakçı xatirinə təşkil edir. Bazarı təhlil etmədən faydalı sahibkarlıq fəaliyyəti yaratmaq olmaz (marketinq fəaliyyəti);
3. Əməkdaşlıq (tərəf müqabili) əlaqələrinin təşkili.

Bazar iqtisadiyyatının əsas hərəkətverici qüvvəsi olan sahibkar mövcud iqtisadi resurslardan qənaətlə, səmərəli istifadə edərək dünya standartlarına uyğun məhsul istehsalının artırılmasına çalışır. Məhz bu sahədə sahibkarlar tərəfindən göstərilən təşəbbüskarlıq və dövlət tərəfindən həyata keçirilən məqsədyönlü iqtisadi islahatlar sahibkarlığın inkişafına şərait yaradır. Sahibkarlığın inkişafı daxili bazarın kifayət qədər məhsulla təmin olunmasına, işsizliyin aradan qaldırılmasına əhalinin sosial halının yüksəldilməsinə şərait yaradır. Deməli, respublikamızın iqtisadiyyatını sağlam təməllər üzərində inkişaf etdirmək üçün sahibkarlıq mühitinin yaradılması və sahibkarlıq fəaliyyətinin öncül inkişaf

istiqamətlərinin müəyyənləşdirilməsi daima öz aktuallığını saxlayacaqdadır.


Ədəbiyyat:

1. Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu.
2. G.Gənciyev, C.Kərimov. Sahibkarlığın əsasları (Mühazirələr toplusu). Bakı,"Elm", 1999
3. F.Abbasov, R.Quliyev, S. Əbdürrəhmanova. Sahibkarlıq fəaliyyətinin əsasları. Bakı, 1996

RƏHMAN MƏMMƏDOV
Naxçıvan Dövlət Universiteti

AQRAR SEKTORDA MƏHSULUN KEYFİYYƏTİNİN VƏ RƏQABƏT QABİLİYYƏTİNİN ARTIRILMASI YOLLARI

Hal-hazırda Naxçıvan Muxtar Respublikasında aqrar sahibkarlığın geniş inkişaf etdrilməsi dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.Qeyd edək ki,Muxtar Respublikamızda həyata kezirilən aqrar sahibkarlıq siyasətinin fundamental elmi-nəzəri və elmi-praktiki əsasları vardır.Bu ilk növbədə ölkə rəhbərliyinin fərmanlarından və göstərişlərindən,Milli Məclisin qəbul etdiyi qanunlardan,Nazirlər Kabinetinin qərar və sərəncamlarından və həm də inkişaf etmiş ölkələrdən uzun illərdən bəri toplanmış zəngin təcrübədən ibarətdir.



	taxıl	şəker	kartof		bostan	
■ 2000	54,4	45,5	13,5	42,7	33,6	28,4
□ 2003	81,4	129	14,2	53,4	41,7	28,6

Məlumdur ki, Naxçıvan Muxtar Respublikasında aqrar sahədə sahibkarlığın formalaşması və inkişaf etdirilməsi bir qədər mürəkkəb prosesdir.Bu baxımdan aqrar sahədə sahibkarlıq faliyyətinin inkiəafını təmin etmək məqsədilə bir sıra vacibliyi ilə seçilən işlər görülməlidir. Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, dövlət müəssisələrinin transformasiyası,yeni təsərrüfat formalarının yaradılması xüsusi bölmədə məhsul istehsalının nisbətən artmasına, ümumi istehsalda onların xüsusi çəkisinin yüksəlməsinə səbəb olmuşdur. Əgər 2000-ci ildə Naxçıvan Muxtar Respublikasında istehsal olunan taxıl 54,4 min ton,şəkər çuğunduru 45,5 min ton,kartof 13,5 min ton, tərəvəz 42,7 min ton, bostan məhsulları 33,6 min ton,meyvə və giləmeyvə 28,4 min ton təşkil edirdisə, 2003-cü ildə bu göstəricilər artaraq müvafiq surətdə 81,4;129, 0;14,2;53,4; 41,7;28,6 min ton təşkil etmişdir (1,s.112).

Müqayisə olunan illərdə mal-qaranın baş sayı 74,0 min başdan 81,2 min başa qədər artmışdır (1,s.117). Bu onu göstərir ki,aqrar islahatların gedişinin sürətləndirilməsi, təsərrüfatların dövlət inhisarından çıxarılması və onların xüsusi mülkiyyətə verilməsi aqrar sahibkarlığın inkişafına real şərait yaratmışdır.

Lakin günümüzdə aqrar sahədə artım olmasına baxmayaraq yüksək səviyyəli inkişafdan söhbət açmaq qeyri

mümkündür. Baxmayaraq ki, taxıl, şəkər çuğunduru, kartof, tərəvəz və s. bu kimi məhsulların istehsalında artım müşahidə olunmuşdur, bu gün respublikamızın kənd təsərrüfatı məhsullarının nəinki dünya bazarına çıxışı, hətta lokal şəraitdə idxal olunmuş məhsullarla rəqabətə tabb gətirmə qabiliyyəti belə çox aşağı səviyyədədir.

Aqrar məhsulların dünya bazarına çıxarıla bilməməsi səbəblərindən biri həmin məhsulların müvafiq standartlara cavab verməməsidir. Məlumdur ki,aqrar sektorda əksər işlərin və məhsulların keyfiyyətini tənzim edən standartlar mövcuddur. Qeyd edək ki, istehsalçıların, dövlətin və təsərrüfat subyektlərinin maraqlarının müdafiəsi " Standartlaşdırma haqqında" 16 aprel 1996-cı ildə qəbul edilmiş Azərbaycan Respublikasının Qanunu ilə tənzim edilir (2,s.13). Nəzərə alaq ki,aqrar məhsulun keyfiyyətinin yüksəldilməsində standartların rolu əvəzedilməzdir. Belə hesab edirik ki, yeni iqtisadi şəraitdə aqrar sektorda standartların tətbiqi və onların tələblərinə ciddi nəzarət edilməsi iqtisadi mexanizmin əsas şərtlərindən biri olmalıdır.

Aqrar məhsulun rəqabət qabiliyyətinin zəif olması səbəblərindən biri də kənd təsərrüfatı ilə digər sahələr arasındakı kooperasiya əlaqələrinin düzgün qurulmamasıdır.Bazar münasibətlərinə keçid aqrar sahibkarlığın inkişafı şəraitində kənd təsərrüfatında kooperasiya əlaqələrinin formalaşması, onun istehsalın nəticəsinə təsirinin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edən vacib məsələlərdəndir.Çünki çoxnövlü təsərrüfatçılığın formalaşma prosesi getdiyi hazırki şəraitdə təsərrüfatlararası əlaqələrin yeni tələblər,yeni prinsiplər əsasında qurulması aqrar bölmədə böhranlı vəziyyətdən çıxmağa,canlanmaya,yüksəlişə şərait yarada bilər.Ona görə də, respublikada bazar münasibətlərinin formalaşdığı indiki dövrdə kənd təsərrüfatında aqrar sahibkarlığın inkişafına təsərrüfatlararası əlaqələrin yaradılması mövqeyindən yanaşılmalı və bu prosesə birinci dərəcəli əhəmiyyət verilməlidir.

Kənd təsərrüfatında aqrar sahibkarlığın normal fəaliyyətinin təmin olunması,onun sahələri arasında mənafelərin düzgün uzlaşdırılmasından asılıdır. Burada söhbət aqrar sahibkarlığın inkişafı şəraitində kənd təsərrüfatının ayrı-ayrı sahələri ilə təsərrüfatçılıq formaları arasında elə əlaqələrin yaradılmasından gedir ki,o bir tərəfdən aqrar bölmənin inkişafını təmin etməyə,bazarın formalaşdığı dövrdə onun səmərəli fəaliyyətini gücləndirməyə imkan versin,digər tərəfdən isə cəmiyyət üçün zəruri olan hər bir məhsul növünə çəkilən məcmu-ictimai zəruri iş vaxtına qənaət etsin.

Dünyanın əksər inkişaf etmiş ölkələrində kənd təsərrüfatı kooperasiya prinsipləri əsasında fəaliyyət göstərir. Burada kooperasiya münasibətləri bütün sahələrdə kredit, təchizat, servis, emal,maşın və mexanizmlər, meliorasiya, südçülük, ətçilik və s. sahələr üzrə yaradılır və onların inkişafı bir tərəfdən yeni iş yerlərinin yaradılmasına, məşğulluq probleminin nisbətən yaxşılaşdırılmasına səbəb olur,digər tərəfdən isə məhsul itkisinin qarşısı alınır.Ona görə də,bazar münasibətlərinin formalaşdığı indiki dövrdə kənd təsərrüfatında yaranmış böhranlı vəziyyətdən çıxmaq,istehsalın həcmini stabilləşdirmək, aqrar sahibkarlığın inkişafını təmin etmək və istehlak bazarını ərzaq məhsulları ilə doldurmaq məqsədilə kooperasiya əlaqələrinə böyük əhəmiyyət verilməlidir.

Qeyd edək ki, indiyədək respublikamızda kənd təsərrüfatı ilə sənayenin qarşılıqlı əlaqəsi tənzim edilməmiş qalır.Bu səbəbdən də aqrar sahibkarlar təsərrüfat prosesində istifadə olunan bəzi sənaye məhsullarından istifadədə çətinliklərlə üzləşirlər ki,bu da son nəticədə aqrar məhsulun keyfiyyət normalarına mənfi təsir göstərir.Mövcud problemi aradan qaldırmaq üçün görülməsini zəruri hesab etdiyimiz tədbirlər aşağıdakılardan ibarətdir:

Birincisi,ilk mərhələdə kənd təsərrüfatı istehsalı üçün zəruri olan maddi-texniki ehtiyatların siyahısı müəyyənləşdirilməli və həminn siyahıya daxil edilən sənaye məhsullarının

qiymətləri dövlət nəzarətində saxlanılmalıdır. Zəruri hesab edilən məhsullar siyahısına müxtəlif markalı traktorların, yük avtomobillərinin, kombaynların,digər maşın və mexanizmlərin aid edilməsini məqsədəuyğun hesab edirik. Bu qrup məhsulların siyahısına ehtiyat hissələrini, yanacağı və s. daxil etmək olar.

İkincisi,muxtar respublikada dəniz səviyyəsindən 2500-3000 m hündürlükdə, dağ bölgələrində müxtəlif kəndli təsərrüfatları fəaliyyət göstərir.Bu təsərrüfatlarda maddi-texniki baza zəif inkişaf etmişdir, mövcud texnikanın əksəriyyəti ömür müddətini başa çatdırmışdır. Belə bir şəraitdə kənddə yeni təsərrüfat formalarının yaranmasını da nəzərə alsaq, maddi-texniki ehtiyatlar üzrə güzəştli təminatların həyata keçirilməsinə əhmiyyət verilməlidir. Bununla yanaşı,dağ rayonlarındakı (əsasən Ordubad, Şahbuz, Sədərək, Şərur, Culfa rayonlarında) mülkiyyətçilərə texnika, tikinti materialları, ehtiyyat hissələri, yanacaq və sürtkü materialları güzəştli qiymətlərlə satılmalı və respublikanın sərhəd rayonları üçün lazım gəldikdə maddi-texniki ehtiyatların gətirilməsi xərclərinin yerli büdcə vəsaiti hesabına ödənilməsi məqsədəuyğun olardı.

Üçüncüsü,respublikanın sərhəd rayonları üzrə aqrar məhsul istehsalı məqsədilə gətirilən maddi-texniki ehtiyatlardan istifadə üçün vergilər tətbiq edilməsin.Bununla belə,ilk mərhələdə yaxşı olardı ki.yeni yaradılan müxtəlif təsərrəfatçılıq formalarının inkişafına yönəldilən əsaslı vəsait qoyuluşu rayonların və ya respublikanın büdcə vəsaiti hesabına maliyyələşdirilsin.

Dördüncüsü,respublikanın dağ yerlərindəki kənd təsərrüfatı müəssisələrinə texniki xidmət göstərmək üçün aqro-servislər yardılsın.Bu cür servislərin hər bir dağ rayonunda təşkil edilməsi daha məqsədəuyğun olardı.

Beşincisi,muxtar respublikada emal müəssisələrinin dünya standartlarına uyğun formada yeni texnologiyalarla

təmin edilib istifadəyə verilməsidir.Qeyd edək ki,emal müəssisələrinin əksəriyyətinin işləməməsi aqrar məhsul istehsalçılarını çətin vəziyyətdə qoyur.Belə ki,əvvələr respublikamızda istehsal olunan meyvə,tərəvəz və üzümün yarısından çoxu emal müəssisələrinə verilirdi.Lakin indi respublikamızda olan konserv zavodlarının və digər emal müəssisələrinin demək olar ki,fəaliyyət göstərməməsi tonlarla aqrar məhsulun qalıb çürüməsinə səbəb olur.Emal müəssisələrinin mövcud tələblər səviyyəsində yenidən qurulması məhsulların rəqabətə davamlılığını artırmaqla aqrar məhsul istehsalçılarını həvəsləndirmiş olar.

Aqrar məhsulun keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsinə təsir edən amillərə aqrobiznesə xidmət edən sahələrin,informasiya və məsləhət xidmətlərinin, tədris kurslarının təşkilidə daxilidir.Hal-hazırda aqrar sahibkarlar marketinq və menecment sahəsində hələ sərişdəsizdirlər.Onlar biznes ideyalarının formalaşması və layihələrinin tərtibində,kredit alınmasında çətinliklərlə üzləşirlər. Bununla əlaqədar aşağıdakı bir sıra problemlərin həllinin və aqrar sahibkarlara lazımi vərdişlərin verilməsini vacib hesab edirik:

- Rayonlarda aqrar məsləhətçilər şəbəkəsi yaradılmalıdır. Bu şəbəkələrdə yerli məsləhətçi kadrlardan istifadə olunması daha məqsədəuyğundur.Çünki,yerli məsləhətçilər aqrar sahibkarlarla daha tez-tez ünsiyyətdə olmaq imkanına malikdir;
- Aqrar sahibkarların ehtiyacları (aqro-texnikaya,aqro-servisə, aqro-kimyəvi preparatlara və s.) öyrənilməli və qiymətləndirilməlidir;
- Aqrar sahibkarlara yüksək səviyyəli marketinq xidmətlərinin göstərilməsi üçün rayonlarda marketinq məsləhət müəssisələri yaradılmalıdır.

Ədəbiyyat:

1. Naxçıvan Muxtar Respublikası 80 (tarixi-statistik məcmuə). "Səda" nəşriyyatı, 2004, 212 s.

2. Standartlaşdırma haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, Biznesmenin bülleteni. 1996, 57 s.
3. Məmmədov C.C.,Aqrar bölmədə maddi-texniki təminat və xidmət işinin təşkili. Dərs vəsaiti.Bakı, 2004, 530 s. (s.436-453)

WEB saytlar

1. www.economy.gov.az-Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi
2. www.sahibkar.biz - Sahibkarlara yardım saytı
3. www.kitab.az -Azərbaycanda elektron kitabxana
4. www.mnazeri.com -Azərbaycan Respublikasının Elektron Qanunvericilik Bazası

SƏHƏT HƏBİBƏYLİ
Azərbaycan Dövlət İqtisad Universiteti

DAXİLİ BAZARIN TƏNZİMLƏNMƏSİNDƏ GÖMRÜK AMİLİ

Bazar iqtisadiyyatına əsaslanan ölkələrdə daxili bazarın qorunması və tənzimlənməsi iqtisadi siyasətin vacib şərtlərindən biridir. Ölkələrin iqtisadi inkişaf, vergi, maliyyə, kənd təsərrüfatı, staistika ilə məşğul olan nazirikləri, hətta bəzi hallarda inzibati orqanları bu sahəyə müntəzəm olaraq nəzarət edir, tənzimlənmə proseslərinin düzgün təşkilinə nail olmağa çalışırlar. Bunsuz ölkədaxili iqtisadiyyatı, yerli istehsalı inkişaf etdirmək, rəqabətə davamlı məhsulların daxili və xarici bazarda özünə münasib yer tapmasını təmin etmək mümkün deyildir.

Dünyada gedən iqtisadi proseslər göstərir ki, daxili bazarın qorunması və tənzimlənməsində gömrük orqanlarının da üzərinə mühüm vəzifələr düşür. Əslində gömrük orqanları daxili bazarın açarı funksiyasını yerinə yetirir. Ölkəyə daxil olan və ölkədən xaric olan məhsulların düzgün müəyyən olunması daxili bazarın tənzimlənməsində həlledici

faktora malik olduğu üçün bu mühüm və məsul vəzifəni həyata keçirən gömrük orqanları bazar münasibətlərinin tənzimlənməsinin mərkəzində dayanır. Bu məsələdə Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında gömrük orqanlarının həmin sahə üzrə fəaliyyətinin araşdırılıb ümumiləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikasının təcrübəsinə əsaslanaraq demək olar ki, daxili bazarın qorunması və tənzimlənməsi planlı, ardıcıl, məqsədyönlü və əlaqəli şəkildə aparıldıqda daha müsbət nəticələr əldə etmək mümkün olur. Bu münasibətlə daxili bazarın öyrənilməsi zamanı aydın olmuşdur ki, yerli sahibkarlığın inkişafına təsir edən adekvat malların gömrük sərhəddindən keçirilməsinin qarşısı alındıqda artıq yerli istehsalçılara əks təsir göstərən malların gömrük orqanlarından gizlətmə üsulu ilə, yəni qaçaq yolla keçirilməsinə zəmin hazırlanır. Bu zaman da gömrük nəzarətinin daha ciddi və səmərəli həyata keçirilməsində gömrük orqanlarının üzərinə düşən məsuliyyət daha da artır. Bu zaman gömrük sərhəddindən keçən yük və sərnişin avtomaşınlarının gizli saxlanc yerlərinə nəzarətin daha da gücləndirilməsi təmin olunur. Bu tədbirlər öz növbəsində muxtar respublikada daxili bazarın tənzimlənməsinə, yerli istehsalın daha da inkişaf etdirilməsinə, sahibkarlıq fəaliyyətinin meydanının genişləndirilməsinə müsbət təsir göstərmişdir.

Gömrük orqanları daxili bazarda qorunmalı olan malların mühafizəsi üçün Nazirlər Kabinetinə təkliflər verir. Gömrük sərhəddindən keçirilən və yerli sahibkarlığa əks təsir göstərən malların siyahısının tərtib edilməsi və onların gətirilməsinin qarşısının alınmasının daima nəzarətdə saxlanılması da gömrük orqanlarının üzərinə düşür.

Regionda daxili bazarın xarici rəqabətdən qorunması məqsədi ilə gətirilməsi məhdudlaşdırılan mallar əsasən üç qrupa ayrılmışdır:

1. Gətirilməsi tam məhdudlaşdırılan mallar

2. Gətirilməsi qismən məhdudlaşdırılan mallar
3. Gətirilməsi qadağan olunan mallar

Gətirilməsi tam məhdudlaşdırılan mallara – duz, mineral, su, kolbasa, süd məhsulları və sair daxildir. Çünki regionda bu malların istehsalı genişlənmişdir və daxili tələbatı ödəmək gücünə malikdir.

Qismən məhdudlaşdırılan mallara əsasən mövsümi xarakter daşıyan kənd təsərrüfatı malları – xiyar (15 may-30 sentyabr), kartof (15 avqust-15 sentyabr), qarpız-qovun və s. məhsulları aid etmək olar. Hər il bu məhsulların gətirilməsinin müvəqqəti olaraq qarşısının alınması, daxili bazara nəzarət olunmaqla yerli məhsulların becərilmə vaxtına uyğunlaşdırılaraq həyata keçirilməkdədir. Bu da muxtar respublikada kənd təsərrüfatının, əkinçilik mədəniyyətinin, fermer təsərrüfatlarının inkişaf etdirilməsinə müsbət zəmin yaradır.

Gətirilməsi qadağan olunan mallara isə əsasən sağlamlığa və mənəviyyata ziyan vura bilən mallar aiddir. Bir qayda olaraq bu qəbildən olan malların siyahısı əvvəlcədən müəyyən edilir və onların ölkəyə gətirilməsinin qarşısı ciddi surətdə alınır.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının gömrük orqanları həm daxili bazarı qoruyub inkişaf etdirir, yerli istehsala və sahibkarlığın dirçəldilməsinə dəstək olur, həm də əhalinin sağlamlığına dair əhəmiyyətli tədbirlər həyata keçirirlər.

Bütün bunlarla bərabər, daxili bazarın tənzimlənməsi və sahibkarlığın inkiafı naminə aşağıdakı məsələlərin həllinə ciddi fikir verilməlidir:

1. Tam qorunan bəzi malların keyfiyyətini artırmaq və rəqabət qabiliyyətini yüksəltmək məqsədi ilə yerli tələbatın həcmi müəyyənləşdirilməklə bu malların qismən qorunan vəziyyətə gətirmək lazımdır.

2. Muxtar respublikada yerli tələbatın həcmi araşdırılmaqla və müəyyənləşdirilməklə qorunmaya alınan

malların qorunma dərəcəsinin düzgün təyin edilməsinə nail olunmalıdır.

Bütün bunlar regionda daxili bazarın qorunması və tənzimlənməsinə, yerli istehsalın və sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinə, yeni iş yerlərinin açılmasına özünün müsbət töhfəsini verir.

MEHRİBAN QASIMOVA
Naxçıvan Dövlət Universiteti

İQTİSADİ ARTIM VƏ ƏHALİNİN RİFAHI – SOSİAL-İQTİSADİ İNKİŞAFIN ƏSAS AMİLİ KİMİ

İqtisadi artım konsepsiyası sosial-iqtisadi inkişafın ümumiləşməsi və sintetik nüvəsi olub, mövcud iqtisadi imkanları davamlı və tarazlı struktur siyasəti və əhali rifahının daim yüksəlməsi üçün əsas aparıcı rol oynayır. İqtisadi artım və rifah arasında səbəb və nəticə əlaqələri qarşılıqlı təsir və tarazlı inkişaf meylləri, perspektiv keyfiyyət dəyişmələrinin ilkin şərtidir. İlkin növbədə iqtisadi artımın optimal ölçüsü, onun tələbat sisteminə həm temp və struktur baxımından uyğunluğu ilə ölçülür. Artımı təmin edən amillərin məhz artımdan asılı dinamikası bölgü və yenidən bölgü parametrlərinin seçilməsi və onların yenidən artıma təsir gücü ilə qiymətləndirilir

İqtisadi artımın maddi rifahı təsiri və əksinə bir sıra amillərdən və tənzimləmə siyasətinin həcmi və prioritetlərin proqnoz səmərəsindən asılıdır.

İqtisadi artımın dinamikası, əhalinin həyat səviyyəsi və onun sosial inkişafı üçün maddi zəmin resurs təminatı və hüquqi baza yaratmaqla, alternativ və əməli qərar qəbulu üçün zəmin yaradır. Sosial sahələrin əsas tərəfi olan istehlak

üçün ayrılan vəsaitin son istehlak resurslarının və transfert gəlirlərinin formalaşmasına fəal təsir edir.

Sosialyönlü strategiya, əmək haqqı və transfert gəlirləri arasında nisbətlərin tənzimlənməsi, əmək haqqının daima artımı ilə pensiya təminatının və sosial müdafiə məqsədlərinin ödənilməsi yolları arasında tarazlığı təmin edir. Bazar tipli iqtisadiyyatda sosial inkişaf və rifahın tənzimlənməsində əmək haqqından başqa sahibkarlıq və fərdi gəlirlər daha geniş yer tutur.

İqtisadi artım maddi rifah problemləri və onların həlli yolları dövlət siyasətinin bir sıra tənzimləmə xarakterindən və həmçinin onun xüsusiyyətlərindən asılı olaraq formalaşır. İlkin növbədə dövlətin büdcəsi, onun sosial strukturları, təminat sistemli, pul-kredit və gömrük siyasəti iqtisadi artımın və onun sosial nəticələrinin üzvü və fəal təsir momentlərini uyğunlaşdırır. Dövlət büdcəsində sahələrin və ərazilərin ayrı-ayrı funksional məqsəd və vəzifələrin maliyyələşdirilməsi texnologiyası işlənib hazırlanır.

Regionun iqtisadi inkişaf səviyyəsi, həmin regionun iqtisadi potensialı, əhalinin rifahı və regionun perspektiv inkişaf istiqamətləri ilə ölçülür. Regionun iqtisadi potensialı ölkə iqtisadiyyatında baş verən qlobal dəyişmələr, iqtisadi sabitlik, dinamik inkişaf aparıcı sahələr olan neft və digər karbohidrogenlərin istehsal həcmi, valyuta gətirən istehsal sahələrin inkişafı və hökumətin təşkilati iqtisadi idarəetmə prinsipləri və metodları ilə formalaşır və inkişaf edir.

Naxçıvan Muxtar Respublikasının regional iqtisadi potensialı başqa inzibati regionlardan fərqli olaraq konstitusion hüquqlar, büdcə vəsaiti və yerli institusion icraetmə mexanizmləri vasitəsilə reallaşır. Regionda inkişaf üçün coğrafi, inteqrasiya sərhəd amilləri mövcud olduğu kimi, onun xarici ölkələr və respublika ilə təsərrüfat əlaqələrinin məhdud səviyyəsi və bir başa nəqliyyat əlaqələrinin olmaması ilə izah olunur.

Bu xüsusiyyətlər Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi nəticələrini və onun ərazisində qərar qəbulunu formalaşdırır. Naxçıvanın iqtisadi artımında prioritet istiqamət olaraq əhalinin rifahını təmin edən istehlak və xidmət sahələrinin yerli resursları əsaslanan inkişaf variantlarını hazırlamaq və inkişaf etdirmək əsas aparıcı rol oynayır.

Naxçıvanda istehsal üçün lazım olan mühüm resursların və istehsal güclərinin həcmi və onun müasir bazar tipli iqtisadi inkişafı üçün uyğun olması, yaxud rəqabət mühitinə uyğun istehsal proqramları ilə bağlıdır. Bu yanaşma baxımından regionda menecer idarəçiliyi strateji planlaşma ilə yerli resurs planlaşması və proqram tədbirlərinin həyata keçirilməsi rifahın artmasına səbəb olur.

Əhali tələbatının ödənilməsinin ilkin şərti, regionda əhalinin rifah göstəricisi olan gəlirlərlə ölçülür. Gəlir maddi rifahın bazar iqtisadiyyatı şəraitində göstəricisi olmaqla, alıcılıq qabiliyyəti və tələb və təklifin tarazlaşmasının maliyyə göstəricisidir.

Dövlət gəlirləri regionda iqtisadi artımın mülkiyyət münasibətləri, təsərrüfat formaları və əhalinin fərdi, həmçinin rifahı üçün lazım olan tədbirlərin həyata keçirilməsi üçün istifadə olunur. Dövlət gəlirlərinin əsas forması olan dövlət büdcəsinin gəlirləri vergilər və rüsamlar yolu ilə tutulur. Ərazidə resursların bir hissəsi yerli büdcənin gəlirləri üçün istifadə olunur.

Naxçıvan region olaraq onun strateji inkişaf meylləri və əsas tədbirləri, iqtisadi əlaqələrin təkmilləşdirilməsi və kapital qoyuluşunun əsas istiqamətlərinin təkmilləşdirilməsi ilə mümkündür. İnvestisiya mənbəyi olaraq əhalinin və sahibkarların xüsusi vəsaitləri, pullu xidmətlərdən olan gəlirlər və mərkəzləşdirilmiş büdcədən ayrılan xərclər, həmçinin bələdiyyə büdcələrinin sosial məqsədlər üçün istifadə edilməsidir.

Əhalinin rifahının Naxçıvan ərazisində əsas maddi maliyyə mənbəyi, istehsal və xidmət sferasıdır; mal dövriyyəsi, kənd təsərrüfatı məhsullarının emalı və ticarəti, həmçinin ev təsərrüfatından alınan gəlirlərin istifadəsi yolu təşkil edir. Bazar infrastrukturaları formalaşdıqca, əhalinin gəlirlərin yenidən bölgüsündə rolu və əsas konsepsiyası artır.

Gəlirlərin dinamikası əsasən ticarət və xidmət sferasından və kənd təsərrüfatı məhsullarının istehlaka və satışından əldə olunan gəlirlərdir. Xüsusi gəlirlər Naxçıvan Muxtar Respublikasında heyvandarlıq və kənd təsərrüfatı məhsullarının naturada istehlakı, yaxud reallaşması yolu ilə əldə edilir. Naxçıvan Muxtar Respublikasında əhalinin rifahı ancaq həmin regionda olan əmtəə xidmət dövriyyəsi ilə məhdudlaşır. Region əhalisinin gəlirləri əhalinin və iş qüvvəsinin başqa regionlarda qazanc gətirməsi və istehlakının bəzi seqmentlərinin digər ölkələrdə ödənilməsi ilə həyata keçirir.

Naxçıvan Muxtar Respublikasının əhalisinin adam başına düşən ümumi daxili məhsulun həcmi, onun sənaye məhsulu kənd təsərrüfatı məhsulları üzrə həcmi respublika səviyyəsinə və istehlak üçün lazım olan səviyyədən nisbətən dəfələrlə aşağıdır. Region əhalisinin rifah problemi, blokada şəraitində yaşayan Naxçıvan əhalisi üçün özünəməxsus spesifik xüsusiyyətlər kəsb edir. Onun ərzaq məhsullarına olan tələbatı, mövsümü xarakterdə olan istehlak qabiliyyəti, fərdi emal kimi qədim tarixi və məhz iqtisadi cəhətdən çətin vəziyyətdən çıxmaq üçün formalaşır. Təbii sərvətlərin ev təsərrüfatında istifadəsi, əl əməyinin daha aparıcı rol oynaması və ev təsərrüfatında qənaət rejimi, həyat səviyyəsinin perspektiv inkişafı və onun qiymətləndirilməsi üçün əsas rol oynayır. Naxçıvanın təbii sərvəti olan balıq istehsalının artması, meyvə və tərəvəz istehsalı, maldarlıq və xüsusi təsərrüfatda yem istehsalı ənənəvi məşğuliyyət növü olmaqla gəlir gətirmək üçün təsərrüfat növüdür.

Naxçıvan Muxtar Respublikasında sahibkarlıq sosial yönlü istiqamətdə və səmərədə özünü daha fəal göstərməlidir. Belə ki, təbii su ehtiyatlarının hasilatı, onun ixracı və satışı sferası olan elmi zavodlar, tara istehsalı, qabları və anbar təsərrüfatı sahələri üzrə bizнes proqramlar öz növbəsində investisiyaların axınına səbəb olur.

Regionun kompleks sosial-iqtisadi inkişafının təşkili və idarə olunması üçün özəlləşdirilən müəssisələrin iqtisadi dövriyyə cəlb edilməsi və özəl müəssisələrin sağlamlaşdırma proqramının effektli təşkili və idarə olunmasıdır. Özəl müəssisə müəyyən dövr üçün rəqabətə dözümlü və iqtisadi artım mənbəyi olmaq üçün onun dövlət himayəsi altında olması vacibdir. Özəlləşdirilən müəssisələrin qiymətinin alıcılıq qabiliyyətinə uyğun müəyyənləşdirilməsi, onun biznes proqramının sosialyönlü və istehlak yönlü istiqamətinin prioritetliyinin təmin olunması ən vacib kriterial əsas kimi qəbul olunur. Regionun ərazisində əmlakın özəlləşdirməsindən gələn gəlirlər, büdcədən sahibkarlıq üçün ayrılan sahibkarlığa kömək fondundan ayırmalar və əhalinin xüsusi vəsaitinin iqtisadi dövriyyə cəlb olunması üçün maliyyə resursları ilə maddi resursların, torpaq və insan amilinin düzgün təşkilati-idarəetmə sisteminin yaradılması ilə mümkündür.

Ədəbiyyat:

1. Həsənov R.T. İqtisadi inkişaf və makroiqtisadi siyasət. Bakı, Yeni nəsil, 2001, 604 səh.
2. Həsənov R.T. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı, 1998.
3. Алирзаев А.Г. ВАзаимосвязб социальных и экономических процессов: методология, модемирования и прогнозирования. Баку, Элм ,1986,132 стр.
4. Райцин В.Я. Математические методы и модели планирования уровня жизни. Москва, Экономика, 1970, 272 стр.

MƏMMƏDCƏFƏR SADIQOV
Naxçıvan Dövlət Universiteti

HAZIRLIQ İCLASININ NƏTİCƏLƏRİNƏ DAİR ÇIXARILMIŞ XÜSUSİ QƏRAR

Məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticəsində hakim (hakimlər kollegiyası) başqa qərarla yanaşı xüsusi qərar çıxarmaq hüququna malikdir.

Cinayət mühakimə icraatının əvvəlki mərhələlərində cinayət prosesini həyata keçirən orqan tərəfindən araşdırılmış işlə əlaqədar olaraq cinayət prosesi iştirakçılarının cinayət prosessual qanunvericilikdə təsbit edilmiş hüquqlarının əhəmiyyətli dərəcədə pozulmasına yol verildiyi hallarda hakim (hakimlər kollegiyası) tərəfindən əsaslandırılmış qərar qəbul edilir.

Məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticəsində hakim (hakimlər kollegiyası) tərəfindən xüsusi qərarın qəbul edilməsində məqsəd cinayət mühakimə icraatının əvvəlki mərhələsində şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüququnun pozulmasına, əməliyyat-axtarış tədbirləri zamanı yol verilmiş kobud pozuntulara, sübutların saxtalaşdırılmasına, iş üzrə icraat zamanı süründürməçiliyə yol verilməsinə, məlumatların, sənədlərin və digər əşyaların cinayət prosessual qanunvericilikdə nəzərdə tutulmuş qaydalara zidd olaraq əldə edilməsinə, həyata keçirilən prosessual hərəkətlər və qəbul olunan prosessual qərarlar zamanı yol verilmiş kobud qanun pozuntularına və s. bu kimi qanunsuz hərəkətlərə diqqəti cəlb etmək, həmin pozuntuların bundan sonra təkrarlanmaması üçün tədbirlər görmək, həmçinin belə pozuntulara yol vermiş vəzifəli şəxslər barəsində müvafiq hüquqi məsuliyyət tədbirlərinin müvafiq orqan tərəfindən tətbiq edilməsini təmin etməkdir (1).

Cinayət-Prosessual Məcəlləsinin 307.1-ci maddəsinin tələblərinə əsasən məhkəmənin hazırlıq iclasının nəticələrinə dair cinayət prosessual qanunvericiliyin müvafiq normalarının tələblərinin kobud surətdə pozulmasına yol vermiş müvafiq şəxslər barəsində xüsusi qərar yalnız aşağıda göstərilən iki əsas qərarın çıxarılması ilə yanaşı çıxarıla bilər:

1. cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya
prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması haqqında qərar;

2. cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi haqqında qərar.

Məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticəsində hakim (hakimlər kollegiyası) tərəfindən yuxarıda qeyd edilən 1-ci bənddəki qərarın çıxarılması üçün əsas olan prosessual xarakteri dissertasiyanın III fəslinin 3.1-ci bəndində nəzərdə tutulmuşdur.

Yuxarıda qeyd edilən 2-ci bənddə göstərilən qərarın məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticəsində hakim (hakimlər kollegiyası) tərəfindən çıxarılması üçün əsas olan prosessual xarakterli kobud qanun pozuntuları cinayət prosessual qanunvericilikdə konkret olaraq nəzərdə tutulmamışdır. Həmin pozuntulara şəxsin əsassız olaraq cinayət məsuliyyətinə cəlb edilməsi, onun barəsində əsassız olaraq cinayət təqibinin həyata keçirilməsi, cinayət təqibini istisna edən halların mövcud olmasına baxmayaraq icraata vaxtında xitam verilməməsi və s. bu kimi qanuna zidd əməllər aiddir. Cinayət-Prosessual Məcəlləsinin 37.5-ci maddəsində imperativ qaydada göstərilən aşağıdakı hallar olmadan ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən ictimai-xüsusi ittiham qaydasında cinayət təqibi üzrə icaatın başlanması kobud qanun pozuntusu hesab edilir:

1. törədilmiş cinayət dövlətin və ya cəmiyyətin mənafeyinə toxunduqda;

2. cinayət hakimyyət nümayəndəsi və ya dövlət orqanlarının digər vəzifəli şəxsləri tərəfindən, yaxud onlara qarşı törədildikdə;

3. cinayət hamilə vəziyyətdə olan qadın, qoca və köməksiz vəziyyətdə olan şəxs barəsində törədildikdə;

4. cinayət hədə-qorxu, məcburiyyət təsiri altında və ya onu törətmiş şəxsdən
asılı vəziyyətdə olan digər şəxs barəsində törədildikdə;

5. cinayət fəaliyyət qabiliyyəti olmayan və ya cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs tərəifndən və ya ona qarşı törədildikdə.

Məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticəsində hakim (hakimlər kollegiyası) tərəfindən çıxarılmış xüsusi qərarda onun çıxarıldığı yer və vaxt, hansı cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə və kim tərəfindən çıxarıldığı qeyd edilməlidir. Qərarda cinayət prosesini həyata keçirən orqanın müvafiq əməkdaşı tərəfindən konkret olaraq cinayət prosessual qanunvericiliyinin hansı normasının pozulduğu əsaslandırılmış formada göstərilməli, işin mahiyyəti əsaslı surətdə əks etdirilməli, yol verilmiş pozuntunun iş üzrə icraatın sonrakı gedişinə necə təsir etdiyi dəqiq göstərilməlidir (2).

Prosessual xarakterli pozuntuya cinayət prosesini həyata keçirən orqanın bir neçə müvafiq əməkdaşı tərəfindən yol verildikdə, onların hər biri barəsində ayrıca əsaslandırılmış qərar çıxarılmalıdır (3).

Əgər prosessual xarakterli pozuntuya yol vermiş şəxsi müəyyən etmək mümkün olmadıqda kobud pozuntu ilə keçirilmiş istintaq və prosessual hərəkətə, yaxud prosessual qərara görə kimin məsuliyyət daşıdığı çıxarılmış qərarda göstərilməlidir. Lakin heç bir halda qanunvericiliyin tələblərini kobud surətdə pozmuş şəxs tərəfindən törədilmiş əmələ (hərəkət və ya hərəkətsizliyə) hüquqi qiymət vermək

olmaz. Ona görə ki, bu təsir tədbirlərinin görülməsi üçün xüsusi qərarın göndərildiyi vəzifəli şəxsin və ya yuxarı orqanın səlahiyyətinə aiddir.

Cinayət-Prosessual Məcəlləsinin 307-ci maddəsinin tələblərinə əsasən xüsusi qərar müəyyən prosessual səlahiyyətlərə malik aşağıdakı vəzifəli şəxslər barəsində çıxarıla bilər:

1. təhqiqatçı;
2. təhqiqat orqanının rəhbəri;
3. müstəntiq (istintaq qrupunun rəhbəri);
4. istintaq şöbəsinin rəisi;
5. müvəqqəti saxlama yerinin və ya həbsdə saxlama yerlərinin rəhbəri (rəisi);
6. ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror, habelə ona birbaşa göstərişlər vermək hüququ olan yuxarı prokuror;
7. birinci instansiya məhkəməsinin hakimi (hakim barəsində xüsusi qərar əsasən məhkəmə nəzarətinin həyata keçirilməsi zamanı yol verilmiş pozuntularla bağlı olacaqdır) (4, səh. 364).

Məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticəsində hakim (hakimlər kollegiyası) tərəfindən əsaslandırılmış surətdə çıxarılmış xüsusi qərar cinayət prosessual qanunvericiliyin normalarının tələblərini kobud surətdə pozmuş şəxsin məsuliyyətinin dərəcəsini müəyyən etmək və onun barəsində müvafiq hüquqi təsir tədbirlərinin görülməsi üçün aşağıda göstərilən şəxslərə göndərilməlidir:

1. müstəntiq, təhqiqatçı və təhqiqat orqanının əməkdaşı barəsində – tabeçiliyindən asılı olaraq Azərbaycan Respublikası müvafiq mərkəzi icra hakimiyyəti orqanının rəhbərinə;
2. ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və prokurorluğun müstəntiqi barəsində – Azərbaycan Respublikasının Baş Prokuroruna;

3. birinci instansiya məhkəmələrinin hakimləri barəsində – Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə.

Yuxarıda göstərilən vəzifəli şəxslər xüsusi qərarı aldıqdan sonra, yəni xüsusi qərarın müvafiq dövlət orqanına daxil olduğu vaxtdan 30 gündən gec olmayan müddətdə müvafiq prosessual xarakterli pozuntu barədə araşdırma aparmalı, Azərbaycan Respublikasının qanunvericiliyinin müvafiq normalarının tələblərinə əsasən kobud qanun pozuntularına yol vermiş şəxs (şəxslər) tərəfindən törədilmiş əməlin (hərəkət və ya hərəkətsizliyin) xarakterini və ictimai təhlükəlilik dərəcəsini müəyyən etməli, həmin şəxsin (şəxslərin) məsuliyyətini müəyyən edərək onun (onların) barəsində tədbir görülməli və görülmüş tədbirlər barədə məhkəməyə məlumat verməlidirlər.

Cinayət prosesini həyata keçirən orqanın müvafiq əməkdaşı (əməkdaşları), yəni vəzifəli şəxsi (şəxsləri) tərəfindən cinayət mühakimə icraatı zamanı kobud prosessual xarakterli qanun pozuntularına yol verildiyinə görə həmin şəxs (şəxslər) törətdiyi əməlin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə görə yuxarıda sadalanan müvafiq vəzifəli şəxslər tərəfindən cinayət, inzibati, intizam və ya mülki-hüquqi məsuliyyətə cəlb edilməlidirlər.

Ə d ə b i y y a t:

1. C.H. Sovet cinayət prosesi. Dərslik, Bakı, "Maarif"-1989, s.312
2. Комментарий к уголовно-процессуальному кодексу РСФСР. М-1989, с. 684
3. Комментарий к уголовно-процессуальному кодексу РСФСР. М-2000, с.758
4. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin Kommentariyası II cild (xüsusi hissə) hüquq elmləri doktoru, professor Cəfər Hacı Həsən oğlu Mövsümovun redaktəsi ilə "Digesta" nəşriyyatı, Bakı-2003, s.872

III. FİLOLOJİ ELMLƏR VƏ İNCƏSƏNƏT

MƏHƏRRƏM CƏFƏRLİ
AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu

MƏHƏBBƏT DASTANLARINDA ŞƏRT AMILI

Azərbaycanın məhəbbət dastanlarının bədii strukturunda əsas yerlərdən birini şərt amili tutur. Bu amil, ümumiyyətlə, folklor yaradıcılığı, xüsusən də şifahi xalq ədəbiyyatının iri həcmli janrları üçün səciyyəvi olmaqla bərabər, məhəbbət dastanlarının süjet və kompozisiyasında tutduğu mövqeyə görə müxtəlif funksiyalar daşıyır.

Məhəbbət dastanlarında müəyyən bir tərəfin, yəni istər müsbət qəhrəmanların, istər mənfi obrazların, istərsə də yardımçı surətlərin irəli sürdüyü şərt bilavasitə aid olduğu dastanın taktikası ilə bağlı məsələdir. Hətta həmin faktların geniş və hərtərəfli öyrənilməsi, bədii mətndəki yerinin düzgün müəyyənləşdirilməsi həmin dastanların spesifik cəhətlərini, ideya xüsusiyyətlərini, dastanın yazıya alındığı zaman toplama qaydalarına nə dərəcədə əməl olunub olunmamasını da aşkara çıxarır.

Bütün bunların izahı üçün ən düzgün yol Azərbaycan məhəbbət dastanlarına aid faktlara müraciət etməkdir. Məsələn, «Aşıq Qərib» dastanının bir yerində dastanın qəhrəmanı Qərib gəlib çıxdığı Tiflis şəhərində hamını bir növ valeh edən və aşıqlıqda ad çıxaran Güloğlana deyir:

« - Güloğlan, dörd yarpaq söz deyəcəyəm, cavabın verə bilsən, mən burdan birbaş Təbrizə qayıdacağam və aşiqlik sözünü üstümdən götürəcəyəm» (1-174).

Dastandakı hadisələrdən məlum olur ki, Aşıq Qərib Təbrizdən Tiflisə öz butası -- Şahsənəmin arxasınca gəlib.

Onun böyük eşqi yolunda ilkin qarşılaşdığı adam Güloğlandır. Bu qarşılaşmada Aşıq Qərib iki ciddi keyfiyyəti ilə riskə gedir. Belə ki,Aşıq Qərib Güloğlana məğlub olsa, birincisi, el adətincə sazını məğlub olduğu aşığa verməlidir, ikincisi, o, ən böyük amalı olan aşiqliyindən də imtina edəcəyinə söz verir. Buradan tam aydındır ki, dastanın əsas qəhrəmanlarından biri olan Aşıq Qərib onun şəxsiyyətini təyin edən və tamamilə aşıqlığını və aşiqliyini son dərəcə çətin, ciddi bir imtahan qarşısında qoyur.

Əslində bu dava söz davasıdır. Həmin söz davasında Aşıq Qəribin söylədiyi poetik bəndlər məna və məzmunca öyrənilməyə daha çox layiqdir:

Xəbər söylə mənə, ay ustadbaşı,
Əlindəki sazı necə çalırsan?
Əzəl mənə ulduzların sayın de,
Ver cavabın, qalsın başın ağrısız.

O necə şeydir ki, dolar boşalar,
Ruzigar əsdikcə yerində durar.
Geyibsən yaşılı, gələr boşalar,
Ver cavabın, qalsın başın ağrısız.

Qəribəm, sualım eşit, döz indi,
Qəvvas isən dəryalarda üz indi.
O nədir ki, baş yox, əli yüz indi.
Ver cavabın, qalsın başın ağrısız (1-174, 175).

Təbii ki, bu bəndlərin söz sənətimiz üçün ciddi əhəmiyyəti vardır. Dastanın qəhrəmanı Aşıq Qərib üçün isə belə bir məqamın əhəmiyyəti ondadır ki, o, bu qələbə ilə amalına yaxınlaşmaq yolunda ən böyük və həlledici addım atır. Ev yiyəsi Dəli Mahmud Aşıq Qəribin əhvalatından hali olub, onu Şahsənəmin atası Xacəgilə gətirir və beləliklə, dastanın süjeti öz axarına düşür. Lakin şərt amili davam edir.

Aşıq Qəribin məqsədini bildikdə isə Xacə müəyyən qədər fikirləşdikdən sonra onunla özünəməxsus tərzdə tamamilə başqa bir şərt kəsir, Qəribin anasına deyir:

« - Nə eybi var, razıyam, ancaq oğlun otuz kisə qızıl başlıq verməlidir» (1-179).

Lotuların hiyləsiylə bütün malı və mülkü dağılan, kasıblığın bəlasını hiss edən, yalnız aşıqlıq və aşiqliyini özünün güvənc yeri bilən Aşıq Qərib bu çətinliyi də dəf edəcəyinə arxayın olub, Hələb şəhərinə yola düşür.

Hələb şəhərində də Aşıq Qəribin nicatı yenə dediyi, söylədiyi sözündə olur:

«Söz tamam oldu, Hələb paşası dedi:

- Mən bilirəm sən qəribsən və bu ölkədə kimsən yoxdur, ancaq deyirlər ki, sən çox zor aşıqsan. Əgər bizim aşıqla döş-döşə gəlib onu bağlaya bilsən, səni azad edərəm, yox, bağlaya bilməsən boynun vurulacaq» (1-194, 195).

Bu, daha ağır bir şərt idi. Başqa sözlə, Aşıq Qərib «olum və ölüm» qarşısında qalır. Əslində, onun başqa çarəsi də yox idi.

Burada yenə sözün gücü qalib gəlir.

Maraqlıdır ki, başqa bir məhəbbət dastanında - «Qurbani» dastanında da Mahmud bəyin Qurbani ilə şərti söz üstündədir. Ancaq burada «Pəri» sözünün şerdə işlənməməsi əsas şərt kimi qoyulur.

Mahmud bəy Qurbaniyə deyir:

- İndi mən səni evə aparacağam. Ancaq sənlə bir şərt kəsirəm. Mənim evimdə oxuyanda gərək elə şey oxuyasan ki, içərisində Pəri sözü olmaya. Əgər Pəri adı çəksən, Qara vəzir səni öldürər, mənim də nəslimi kəsər.

Qurbani dedi:

-Yaxşı, şərtlərinə əməl edərəm.

Mahmud bəy dedi:

- Mən deyən kimi oxusan, altımdakı kəhər atı da, bir yaxşı saz da sənə verib, səni dünya malına qəni edəcəyəm».

Bütün bunlarla bərabər, Qurbani söylədiyi qoşmaların iki bəndində «pərzad» və «mələyik» sözlərini işlədir.

Qurbaninin istəyinə və amalına uyğun gəldiyi üçün o, həmin sözlərdən qaça bilməzdi. Yəni Qurbani müəyyən şərti pozur. Ancaq bu, aşığın bacarıqsızlığı deyildir. O Mahmud bəyə bildirir ki, heç vaxt öz eşq məsləkindən dönməyəcəkdir.

Dastandakı ikinci bir şərt də söz və saz üstündədir.

Qurbani dedi:

«- Usta, niyə acığın tutur? Bax, o sazı çala bilmir, indi sən çalacaqsan? Get, hələ ağzının qatığını sil.

Qurbani dedi:

-Sən o sazı mana ver, gerisi ilə işin yoxdur.

Usta Bədəl sazı alıb acıqlı-acıqlı Qurbaniyə verib dedi:

-Al, əgər bu sazı dindirə bilsən, pulsuz sənə bağışlayıram, dindirə bilməsən, vay sənin gününə».

Dastanda deyildiyi kimi, Qurbani sazın zilini zil, bəmini bəm eylədi. Şərti udub sazı pulsuz götürdü.

«Tahir və Zöhrə» dastanının bir yerində gözəllik amili əsas şərt kimi irəli sürülür. Həştərxan paşasının qızı Sona buraya gəlib çıxan Tahirə vurulur. Lakin Tahir qəti şəkildə öz sevgilisi Zöhrənin dalısınca gedəcəyini bildirir. Zöhrəyə vurulan Tahirə, Sona xanım o şərtlə güzəştə gedəcəyini bildirir ki, Zöhrə ondan gözəl olsun. Bu şərtin nəticəsi Sona xanımın Zöhrə ilə münasibətinə ciddi əsas olur. Belə ki, Sona xanım Zöhrə ilə qarşılaşdıqdan sonra, doğrudan da güzəştə gedir.

Bəzən də məhəbbət dastanlarında şər işlər üçün yönəlmiş şərtlərlə rastlaşırıq. Şübhəsiz bu şərtlər baş qəhrəmanların öz aralarında deyil, onlara qarşı yönəlmiş bəd əməlli və fikirli mənfi obrazların düşüncəsi ilə bağlıdır. Başqa sözlə, dastanların təhlili belə nəticə çıxarmağa əsas verir ki, müsbət qəhrəmanların irəli sürdüyü şərtlər mənfi ideyalarla əlaqədardır.

Məsələn, «Aşıq Qərib» dastanının başlanğıcında lotubaşı ilə keçəl arasındakı söhbət və keçəlin irəli sürdüyü şərt bu fikri təsdiq edə bilər:

«Lotubaşı keçəli tutub qovunu əlindən aldı. Keçəl ha ağladı ki, qovunu ver, lotubaşı vermədi, axırda keçəl dedi:

- Lotubaşı, sən qovun ver, mən sənə bir xeyirli yer deyim.

Lotubaşı dedi:

- O necə yerdir?

Keçəl dedi:

- Təbriz şəhərində Məmməd söydəgər deyilən biri vardı. O, bu günlərdə vəfat edibdir. Oğlu Rəsul atasının var-yoxunu ehsan verib, fəqir-füqəraya paylayır.

Lotubaşı keçəlin qovununu verdi və yoldaşlarına dedi:

-Uşaqlar, padşahın xəzinəsindən bizə bir şey çıxmaz, kim bilir, bəlkə birimiz tutularıq,amma Təbrizə gedib Rəsulu aldadıb, onun var-yoxunu hiylə ilə ələ keçirə bilərik» (1-167, 168).

Göründüyü kimi, keçəlin öz qovununun qaytarılması üçün irəli sürdüyü şərt bəd əməl törətməyə yönəlmişdir. Keçəl öz psixologiyasına və təbiətinə tamamilə uyğun olan, nağıllardan və dastanlardan tanıdığımız bəzi keçəllərin gördüyü əməllərlə üst-üstə düşən bir addım atır. Beləliklə, keçəlin şərti ödənilir, lakin Aşıq Qərib ciddi bir ziyan çəkir. Var- yoxu lotubaşı və onun yoldaşları tərəfindən əlindən alınır.

«Tahir-Zöhrə» dastanında əsas hadisələrin ciddi axara düşüb hərəkət etdiyi bir məqamda isə ölümlə bağlı şərt irəli sürülür:

«Hatəm Sultan o saat bir car çəkdirdi ki, hər kəs Tahir Mirzənin başını mənə gətirsə, onu dünya malına qəni eliyəcəyəm» (1-36).

Aydın olur ki, baş qəhrəmana qarşı yönəldilmiş şərt onun başını, yəni ölümünü tələb edir. Hatəm Sultan öz xislətinə, cəlladlıq təbiətinə uyğun olan şərt irəli sürür. Əslində bu şərt Hatəm Sultanla Tahir Mirzənin xarakterlərinə və əməllərinə görə bir-birlərinə daban-dabana zidd adamlar olduğunu sübuta yetirir. Dastanın sonunda isə Tahir Mirzənin başını istəyən Hatəm Sultanın şərtinin əksinə olaraq, Hatəm Sultan Tahirin xəncəri ilə öldürülür.

Bütün bu deyilənlər göstərir ki, Azərbaycan məhəbbət dastanlarında çox ciddi yer tutan şərt amili dastanların strukturunda əhəmiyyətli bədii fiqur rolunu oynayır. Obrazlar tərəfindən irəli sürülən şərtlər bir tərəfdən dastanın daha oxunaqlı olmasına, oxucu ilə dastan arasında ünsiyyətə şərait yaradırsa, digər tərəfdən də obrazların özlərinin xarakterlərinin açılmasına köməklik göstərir. Bu mənada məhəbbət dastanlarındakı şərt amilinə ikinci dərəcəli fakt kimi baxmaq olmaz.

Şərt amili Azərbaycan məhəbbət dastanlarının poetika sisteminin mühüm cəhətlərindən biridir. Onlar bu dastanların spesifikliyini sübut edir, dastan poetikasının daha geniş planda öyrənilməsinə şərait yaradır.

Ədəbiyyat:

1. Azərbaycan məhəbbət dastanları. Bakı, «Elm», 1979.

RAFİQ BABAYEV
AMEA Naxçıvan Bölməsi İncəsənət,
Dil və Ədəbiyyat İnstitutu

BƏDİİ DÜNYANIN BUTALI ŞEYX SƏNANI

"Şəbi – hicran" naləsindən, "yanar canın", "qan tökən çeşmi giryanın" əfqanından keçən sevda yolları "Feyləsüfanə ruhlu" aşiqləri adi dünyadan bədii dünyaya gətirib: başlarında eşq havası, dillərində yanıqlı bir eşq duası: " Səni mənə buta verdi yaradan"...

Məhəbbət dastanlarının "alın yazısı" kimi yaradanın əli ilə verilib aşiqlərin dünyasını "həqq nurunda" sehrləyən butanın, milli mədəniyyətin, milli eposun öz faktı olaraq, folklor stixiyasından görünən missiyasını, elə deyəsən, dərgahın qanunları müəyyənləşdirib.

"Haqqa aşiqlik butadan başlanır. Nə qədər ki, buta yoxdur, haqq aşiqi yoxdur" (1, s.58). Butadan – haqq aşiqliyi statusundan sonra bədii dünyada "güli ruxsarə qarşı

gözündən qanlı su axanların" cövri – cəfa adlı dövranı başlanır – dövranın əzəməti aşiqin çəkdiyi dərdin siqlətindən görünür, dərd böyüdükcə ucalıq aliləşir.

"Abbasın Gülgəzə çatmaq üçün şaha, Kərəmin Əsliyə çatmaq üçün keşiş və keşişlərə, Qurbaninin vəzirə, xana, hətta Pərinin öz qardaşı Tapdığa, Tahirin öz əmisi Hatəm Sultana, Şah İsmayılın öz doğma atası Aslan şaha qarşı mübarizəsi fərdi, şəxsi səadət uğrunda aparılan mübarizə çərçivəsindən çıxaraq onlarla, yüzlərlə Kərəmin, Abbasın və başqalarının mübarizəsi kimi səslənməkdədir" (2,s.64-65).

Hüseyn Cavidin Şeyx Sənanı "mənəvi eşqin, qüdsi məhəbbətin canlı heykəli olan Xumara" (3, s.112) "uçalım, haqqa doğru, gəl uçalım" – deyəndə, Abbas, Kərəm kimi canında, ruhunda butalı aləmin əhvalı vardı, "eşq üçün əvət bayılan bu əhli – halın" gözləri yazılı ədəbiyyatdan ilkinliyə – dastan dünyasına dikilmişdi.

"Öz poetik duyğuları müstəvisində Cavid əfəndi Şeyx Sənanı peyğəmbər dərəcəsinə qədər ucaldar" (4, s.162) – son vaxtların qənaətlərindən biridir bu; ideoloji tələblərin məngənəsində Şeyx Sənan ədəbi – tənqidin gözünə başqa cür də görünmüşdü: "Əsərin ən güclü tərəfi dinə, müsəlman ehkamına, eşq və məhəbbət əsarətinə qarşı çıxmaqdır" (5, s.292).

"Onu əhatə edən Şeyx Mərvanlar mühitinə sığmazlığından" (6, s.8) Şeyx Sənan mühiti yaranır, məlum səbəblərə görə də bu ağrılı – əzablı doğuluş o dövrün tənqidinin gözünə ancaq "dinə, müsəlman ehkamına qarşı mübarizə" kimi görünür.

Bizcə, Şeyx Sənanı bədii dünyaya gətirib, onun mühitini əbədi bərqərar eləyən məqsədin kökü daha dərindədir.

"Şeyx Sənan" həm də və bəlkə də daha artıq insanın azad sevgi, azad fikir dünyası xüsusundakı romantik arzularını ürəkdən tərənnüm edən şairanə eşq dastanıdır" (3, s. 121-122).

İlahi sevgi, İlahi Talenin – möcüzəli Butanın gücünü Şeyx Sənan sınaqlarından çıxarmaq üçün dastan dünyasındakı yollardan keçib gəlmək lazım idi – "mütləq həqiqət" zirvəsində Seçilmişlərin – "haqq aşiqlərinin" yeri başqadır.

Azad sevgi dərgahda adına İlahi Tale yazılmış Seçilmişlər üçün hər nədirsə, "Əhli ibadətdən" "Əhli mərifətə" olan yol da Şeyx Sənan üçün elə odur.

Səni annan doğurdu Turanda,
Yaşadın bir zaman da İranda.
Kəsbi – ürfan için, fəzilət için
Sonra İranı tərk edib gəldin,
Ərəbistanı ixtiyar etdin. (6, s.168)

"Əhli – mərifətlə" yollar qapansaydı, Şeyx Kəbir Sənana deməzdi ki, ən son yerin olacaq son nəfəsdə Gürcüstan.

"Son yer" – İlahi Tale – Buta yollarında seçilmişliyin ağır, çətin sınağıdır.

M.Cəfərlinin qənaəti maraqlıdır: "Məhəbbət dastan qəhrəmanı üçün başqa tale yoxdur. Bu dastanlarda təqdim olunan tale modeli sevgi taleyidir. Bunun üçün də buta elementinin dominant yükü onun taleyi simvolizə etməsindədir" (1, s.88)

Məhəbbət dastanlarının buta yuxusunun möcüzəsi Cavidin "hali pəjmürdə, sanki bir Məcnun", "müztərib, düşkün", "gözlərində nuri – duha oxunan" Sənanını İlahi Talenin seçdiklərindən biri – Seçilmiş kimi təqdim edir.

Onun taleyini M.H.Təhmasibin məhəbbət dastanı üçün təklif etdiyi süjet strukturu baxımından izlədikdə, elə bilirsən, gümanlar təsdiqlənir.

Yuxuda aşiq olma – buta alma məqamında qəhrəman misilsiz dərəcədə gözəlləşir, buta verəndən nur yayılır, sonra qəhrəman bayılır, dərd – qəm içində əzablı – üzüntülü günlər yaşayır. Şeyx Sənanın da röyasında 'dəmbədəm nəşr edərdi mövceyi - nur"...

"Dərviş iki barmağını onun gözü qabağına tutub dedi:

- Oğul, barmağımın arasından bax, gör, nə görürsən?

Novruz dedi:

- Uzaq, uzaq yollar görürəm" (7, s.176).

Sənan yeganə seçilmişdir ki, yuxusuna müqəddəslər, dərviş yox, üzü niqablı Şeyx gəlir, butanın konkret mənzilini də nişan verir: "İştə son mənzil! İştə Gürcüstan! "

Röyadan sonra Sənan da "Məcnunanə bir hıçqırıqdan sonra bayğın bir halda düşəcək olur".

"Hətta əksər dastanlarımızda qəhrəmanın butadan əvvəlki mənliyi ilə butadan sonrakı mənliyi bir-birinə tam zidd olur"(2,s.72)

Şeyx Sənanın ruhi aləmindəki, hərəkətlərindəki dəyişməni ideoloji tələblərin, necə deyərlər, arşını ilə ölçməkdən öncə ona məhəbbət dastanlarının bu kodlaşmış ölçüsündən yanaşsaq, nələri söyləyə bilərik?

Butadan sonrakı ikinci mərhələni M.H.Təhmasib "yol"adlandırır, bu yola çıxarkən bəzi dastanlarda qəhrəmana nişanlısı, ya da onu sevən qızlar mane olmaq istəyirsə, Ərəbistandan Gürcüstana aparan yolda Şeyx Sənanı sevən Zəhranın missiyasını məhəbbət dastanları qeydə almayıblarmı?

Butanın yurdunda qəhrəman xeyirxah adamlara ("Şeyx Sənan"da Oğuz, Özdəmir), cinayətkarlara (Anton, arxadaşı, Simon) rast gəlir.

Məşuqu isə çox zaman başqa sevənlər də olur (Anton), o, qəhrəmanı öldürmə həddinə çatır.

"Məhəbbət dastanlarında Aşiq – haqq aşıqlarını, yəni haqq aşiqliyi simvollaşdırır. Bu mənada Aşiqin Məşuq obrazına nisbətən fiziki fəallığı da bununla ölçülür" (1, s.254).

Sənanda "övliya sifəti" görüb onu sevən, qəhrəmanın "nuri – haqqın təzahürü" kimi qəbul etdiyi Xumarın da "qeyri fəallığından" ədəbi tənqid bəs deyincə danışmışdır.

Məhəbbət dastanları dərvişlərə həmişə, necə deyərlər, ürəyinin başında, gözünün üstündə yer verib.

"Şeyx Sənan" faciəsində dərviş hadisələrə gec – butadan çox sonra qoşulur. Şeyxlər və müridlər arasında onu da bir "Sənan heyrətlə dinlər" – dərvişin sakral qüvvə kimi onun buta almasına yubandığına mı görə, bəlkə müqəddəs bir aləmdən gəldiyinə görə? Ədəbi tənqidin dərviş "özünü fövqəlbəşər insan hesab edir" (6, s.10) qənaəti də bəlkə, bu anlamdadaır?

Əsərin məhəbbət dastanlarındakı "Cahannamə"ni xatırladan sonluğu ("əlavə') "əsiri – məhəbbət", "şöleyi – hikmət" adlandırılıb "uçuyorlar fəzada sanki mələk" kimi görülən qəhrəmanlar Dərvişin təqdimində düşündürücü, unudulmazdır:

Hər kimin kor deyilsə vicdanı,
Görür əlan Xumarı, Sənanı (6, s.263)

Böyük Cavidin düşüncə müstəvisində özünə yeni – sönməz, əbədi həyat qazanan Sənan bədii dünyanın butalı qəhrəmanı kimi "əlan görünür"...

Ə d ə b i y y a t:

1. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. "Elm", Bakı, 2000
2. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). "Elm", Bakı, 1972
3. Əlioğlu M. Hüseyn Cavidin romantikası Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1975
4. Talıbzadə Aydın. "Üsyan və cəza". Azərbaycan jurnalı, 2004,№6
5. Cəlal M., Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı, "Maarif", Bakı, 1969
6. Cavid H. Seçilmiş əsərləri . Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1958
7. Xalq dastanları. II cild, Bakı, 1961.

MƏHSƏTİ İSMAYIL
AMEA Naxçıvan Bölməsinin İncəsənət,
Dil və Ədəbiyyat İnstitutu

ƏFSANƏLƏRDƏ MİFİK İNAMIN TƏZAHÜRÜ

Uzaq məsafə və ayrılıqda yaşayan türk topluluqlarının ümumi bir fikir, yaradıcılıq anlayışında birləşməsi onu göstərir ki, zaman və məkan insanın mənsub olduğu genetik əlaqələri poza bilmir. Bizi keçmişimizdən ayıran illər və əsrlərdir. Yaxud uzun illərin zaman ayrılığında vətənin bir parçasından qopmuşuq deyə bilərik. Bu qopmalar, parçalanmalar soy yaddaşını silmir, əksinə nəinki ümumxalq yaradıcılığında, həmçinin şəxsi anlayışda da formalaşa bilir. Yaşanan müasirlik keçmişlə bu gün arasında mümkün olmayan keçilməzlik görüntüsü, bir ilğım kimi görünür. Amma zaman və məkanlar fərqli olsa da yaşayan və var olan köklü mədəniyyətdir. Bu mədəniyyət xalqın adi həyat tərzi, günlük yaşayışında əks olunur və ailələrdə kök salaraq cəmiyyətin yaşayış özülünü təşkil edir. Gen yaddaşından hazırda yaşadığı müasirliyə, sabaha daşınır.

Məlum olunduğu kimi inancda qurd müqəddəsdir. Yəni xilasedici, qurtuluş rəmzi, türk oğlunun hamisi, yol göstərənidir. Qurda müqəddəs simvolik baxışın bariz nümunəsi kimi Azərbaycan folklor nümünələrindən olan əfsanələri göstərə bilərik. Əfsanəyə görə, Nuhun gəmisindən kimsəsiz, tənha cəzirəyə düşən Türk atasının məsləhətilə özü üçün bir qoyun və qoç götürür. Heyvanlar o qədər artıb çoxalır ki, adada yeməyə heç nə tapılmır. Çarəsiz qalan Türkü qurd xilas edir. Heyvanların parçalanaraq yeyildiyini görəndə Türk gecəni yatmayıb güdür və boz qurdla qarşılaşır. Türk baxır ki, bozqurdun getdiyi yolda su heç topuğa da qalxmır. Türk boz qurdu izləməklə adadan çıxış yolu tapır . Əfsanəyə görə, türk öz nəslindən olanlara boz qurd bizim xilaskarımızdır, şəklin bayraqlara çəkin, çətinliyə düşsəniz boz qurdu köməyə çağırın öyüdünü verir (1,s.42,43). B.Ögəl

qurdu türk mifologiyasının ən önəmli müqəddəs simvolu adlandıraraq qeyd edir; «Kurt başlı sancaklar, Göktürk devletinin yıkılışından sonra da unutulmamış ve Çin İmparatorları, mesela Türgeş'ler gibi Türk kavimlerine Kağanlık ünvanları verecekleri zaman, kurt başlı bir bayrakla bir davul vermeği de unutmamışlardı» (3,s.40). Demək əfsanə inanclarla yanaşı Göytürklərin hakimiyyətinin keçmişdə mövcud olan dövlətçilik ənənəsini özündə əks etdirir. Bu baxımdan digər bir əfsanənin də süjet xətti maraq doğurur.

Əfsanədə deyilir ki, bir tayfa varmış və tayfanın başçısı sonsuzmuş. Xeyli nəzir - niyazdan sonra tayfa başçısının bir şikəst oğlu dünyaya gəlir. Günlərin bir günü düşmənlər hücum edir və tayfanın kişilərini öldürür, qalanlarını əsir edib aparırlar. Kimsəsiz qalan uşağı dişi canavar südü ilə bəsləyərək böyüdür. Oğlan, igidliyin sorağını eşidərək onu öldürməyə gələn düşmənlərinə qarşı ana qurdla birlikdə döyüşür və əsir düşmüş tayfasını xilas edərək öz torpağına gəlir və tayfanın başçısı seçilir (2,s.92,93). Ümumiyyətlə, qəhrəmanlığa görə seçilmə sayılma dünya folklor nümunələrində bilinən spesfiklikdir. Əfsanədə seçilən qəhrəman yüksək soya mənsubdur. Bu mənsubluq qəhərəmanlığa aparan yoldur. Başlanğıcda şikəstlik və çarəsizlik qeyri adi qüvvənin köməyi ilə dəf edilir. Bu sadə bir himayədarlıq yox, güclü təlimə əsaslanan sistemlə mümkün olur. Əfsanədə qurd ana – himayəçi rolunu oynayır. Əslində analıq burada rəmzi məna daşıyır. Demək gələcək qəhrəmanın, etnik xilaskarın Kök – Güc qaynağının bəşər deyil, xalqın mifoloji təvəkküründə formalaşdırdığı böri-qurddur. Məlum olduğu kimi Azərbaycan folklor nümünələrinin əkssəriyyətində qəhrəmanın güc qaynağı, dirçəlişi, qeyri-adi güclərlə əlaqələndirilir. Təsadüfi deyil ki, xalq arasında igid qorxmaz pəhləvanlar «şir südü», «aslan südü əmib», cəsarətli cəsur adamlara, «elə bil qurd ürəyi yeyib» ifadələri işlənir. Sadaladıqlarımız vəhşi təbiətin insan ruhunda təzahürü kimi başa düşünülmür. Belə ki, müqəddəs sayılan qurda da ikili baxış mövcuddur.

Folklor nümunələrində qurd donu başına düşən insanlar vəhşiləşir, adam yeyir, yaxud adamcıla çevrilir. Mifik inamlara görə qurd yağı insanlar arasına düşmənçilik, ədavət salır. Bu çevrilmələrdən ən çox xalq arasında yayılan qurd Şərəbanı, qurd Zalxa adı ilə bilinir. Bir baxışa görə isə «qurd kəsən bıçaq qınından çıxmaz. Çünki qurdu kəsmək günahdır»(1,s.159). Bu əski insanın mifoloji yaradıcılığı və dünyanın dərki ilə bağlı məsələdir. Mifoloji əfsanələrdən birində deyilir ki, çoban iki qurdun gəldiyini görüb qorxudan ağaca çıxır. Qurdlar acımış, onlar uluyur, Allah onlara yemək göndərir. Qurdlar yeməyi üç yerə bölür. İkisini yeyib, üçüncünü çobana saxlayıb gedirlər. Əfsanədə bir çox mətləblərlə yanaşı qurdun tanrıya yaxınlığı, insanoğlunun mənəvi yardımçısı ilə kod əlaqə izah olunur. Qeyd etmək yerinə düşərdi ki, Tuba türkləri də göy qurda söylədikləri alqış və dualarında «tanrının xəbərçisi qurd» sözlərini işlədərək deyirlər: «Yücelerdeki (üstü) Tanrıdan emir getirenim (çarlıktım)! Yedi gün yemek yemedim!..Tanrının yakını (kayırazı)! Gök Börü erenim Kayra-Han! Ağzını burnunu yalayan! Boz kurdum (Kuu Pörüm)!..»(4,s.126).

Qurd əfsanələri dastan yaddaşında da öz orijinal üslubunu qoruyub saxlayır. «Boz qurd» dastanına görə qurd yox olmaq təhlükəsinə düşən göy türklərin dirilib çoxalmasına səbəbkar, «Ərgənəkon» dastanında isə xilaskardır. Hər tərəfdən dağlarla çevrəli Ərgənəkonda 400 il qalaraq çoxalan türk yaşadığı bu yerlərə sığmır. Çıxışı üçün yollar arayır və qurdun çıxdığı yerdə dəmir mədəni olduğunu görür. Türk müqəddəs dəmirçilik sənətinin köməyilə dağların arasındakı dəmir mədənini əridərək çıxış yolu açır. Dastanda göy türklərin başçısının adı bozqurd adlanmaqdadır. Dastanda deyilir: «Ərgənəkondan çıxdıqları zaman göy türklərin başçısı Qıyan soyundan Börtə Çönə (monqolca bozqurd) idi» (4,s.124).

«Oğuz xaqan» dastanında göy rəngli qurd Oğuz xaqanın qələbə simvoludur. Göy rəngli qurd Oğuz xaqanın çadrına göydən göy şüanın içində gəlir. Burada qurdun

yerinə yetirəcəyi məqsəd, göründüyü kimi xilaskarlıq funksiyasından daha çox Göy tanrının istəyi ilə Oğuz xaqanı, türk ulusunun yüksəlişi istiqamətinə yönləndirməkdir. Özbəkistanın qədim Əfrasiyab şəhərində bir tapıntı üzərindəki şəkil də bu baxımdan maraqlıdır. Quyruğu buta olan qurd qanadlı təsvir olunmuşdur. Əlbəttə, qanadlı qurd təsviri göylə əlaqə deməkdir. M.Seyidovun fikrincə : « qurd inama görə kainatın yaradıcısı günəşin bəlirtisidir»(4, s.46).

Fikrimizcə, inanclar, ilkin təsəvvürlər, mifik düşüncələr dərin kök salaraq əfsanələşir. Kök qaynaq olan şifahi yaddaş – əfsanələrdən, yazılı tarixin özü olan dastan yaddaşına köçür.

Qurd motivi bədii ədəbiyyatda C.Londonun yaradıcılığında, Ç.Ayıtmatovun «Qiyamət» romanında da geniş təsvir olunmuşdur.

Ə d ə b i y y a t:

1. Azərbaycan mifoloji mətnləri.Bakı, Elm, 1988
2. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı, Sabah,1994
3. Ögəl Bahaəddin.Türk mifologiyası. I- cild. TTKB- Ankara, 1993
4. Ögəl Bahaəddin.Türk mifologiyası.II- cild.TTKB- Ankara,1993
5. Rəfik Özdək. Türkün qızıl kitabı. Bakı. Yazıçı, 1992
6. Seyidov M.M. «Qızıl döyüşçü»nün taleyi. Bakı, Gənclik, 1984

NAZİRƏ ƏSGƏROVA
AMEA Naxçıvan Bölməsi İncəsənət,
Dil və Ədəbiyyat İnstitutu

NAXÇIVAN LƏTİFƏLƏRİ VƏ ONLARIN İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ

Azərbaycan folklorunda lətifə janrı qədim tarixə malikdir. Lətifələr müxtəlif dövrlərdə, müxtəlif şəxslərin adları ilə əlaqələndirilmişdir. Bəzən bir şəxsin adı yaddan çıxmış lətifə, digər bir şəxsin adına bağlanmış və yaşamışdır.

Şifahi xalq ədəbiyyatında lətifəsi olmayan, gülüşsüz ötüşə bilən Xalq təsəvvürə gətirmək mümükün deyil. Bu zərif söz xəzinəsinin zənginləşməsi, iki istiqamətlə bağlıdır. Birincisi, adsız, yəni qəhrəmanı tanınmayan lətifələrdir. Bu sıraya daxil olan lətifələr çoxdur. Belə lətifələr bəzən «günlük lətifələr» də adlanır. Çünki belə lətifələr xalq həyatı, içtimai- siyasi proseslər, şəxsi münasibətlər çevrəsində yaranır, yaşayır və zaman-zaman ümumiləşir. İkinci qurupa daxil olan lətifələr isə daha çox tanınan şəxs adlarıyla bağlıdır. Belə lətifə yaradıcıları Azərbaycanda, onun hər bölgəsində olub, indi də vardır. Naxçıvan regionunun Əlincə çay bölgəsində Qəssaboğlunun, Naxçıvanda Mirabdulla ağanın adları ilə bağlı lətifələr məlumdur.Bəzən lətifələrdəki adlandırmalar simvolik xarakter daşıyır.

Məlum olduğu kimi lətifələr atalar sözlərindən və zərbi – məsəllərdən və əksinə, atalar sözləri və zərbi –məsəllər lətifələrdən yaranır. Lətifələrdən əmələ gələn atalar sözləri və məsələlər lətifənin mətnindən çıxan nəticədən ibarətdir. Başqa sözlə lətifənin sonluğu aforizim kimi yekunlaşır, atalar sözü və zərbi- məsələ çevrilir.

Aşağıdakı lətifəni nəzərdən keçirək:

Bir xəsisin evinə qonaq gəlir. Bu qonaq ev sahibini çox yaxşı tanıyırdı. Bilirdi ki, o təkdi. Nə arvadı var, nə də uşağı. Ancaq çoxlu pulu vardı. Qonaq da borc pul almaq məqsədilə onlara gəlir. Ev sahibi qonağı gülərüzlə qarşılayır. Uzun qış gecəsi xeyli söhbət edirlər. Söhbət əsnasında ev sahibi dolana bilmədiyindən, güzəranının yaxşı olmadığından gileylənir. O qədər sızıldayır ki, qonaq ondan pul istəmədən xudahafizləşib gedir.

Evdə arvadı soruşur:

- Nə oldu, pul aldınmı?

Kişi ah çəkərək deyir:

- Yox, evi tikilmişin balası elə bil, yeddi yetimlə bir dərədə qalıb.[1]

Başqa bir lətifədə: Mərdan kişi Naxçıvana gedirmiş. Bazarlıq edib, böyük bağın içində yadına düşür ki, papiros

almayıb. Əlindəki zənbili Leninin heykəli yanında yerə qoyub deyir ki, ağsaqqal, zənbildə gözün olsun, lotu-potu aparar. Papiros alıb qayıdıram. Mərdan kişi papirosu alıb, geri qayıdır və görür ki, zənbilini oğurlayıblar. Üzünü heykələ tutub deyir: «Ay ağsaqqal, zənbili sənə əmanət etmişdim. Mərdan onun cavab vermədiyini görüb, əlini onun yaxasına atır və görür ki, bu daşdır. Mərdan kişini təəccüb bürüyür, təskinlik tapmış kimi deyir:

- Xəyanət edən belə daşa dönər ha».[2]

Məlumdur ki, «yeddi yetimlə bir dərədə qalıb», «xəyanət edən belə daşa dönər» və s. atalar sözləri və zərbi – məsəllərdən lətifələr yaranmışdır.

Mərhum folkloşünas İdris İbrahimov bu prosesi, yəni bir sıra atalar sözləri və zərbi- məsələlərin yaranmasında lətifənin və əksinə lətifənin əmələ gəlməsində atalar sözləri və zərbi- məsəllərin rolu məsələsini belə aydınlaşdırmışdır: "Bu janr (Atalar sözləri və məsəllər) lətifələrdən, xüsusilə Molla Nəsrəddin adı ilə bağlı olan lətifələrdən də çox istifadə etmişdir. Lətifələrin fəal surətdə atalar sözləri sırasına keçməsinin başlıca səbəbi onların dərin tənqidi. təlimi, məzmunundan başqa, bir də həcmcə çox yığcam olması ilə bağlıdır.[3]

Nəzərdən keçirilən bu və digər lətifələrin məzmun və bədii forma xüsusiyyətlərini nəzərdən keçirəndə məlum olur ki, burada gülüş, əyləncə, məzəli əhvalatlar əsas yer tutur. Satira, gülüş də lətifələrin əsas xüsusiyyətlərindən biridir.

Lətifələrin əsas predmeti insan olduğuna görə birinci növbədə onlardakı insan surətləri silsiləsinə nəzər salınmalıdır. İnsan obrazları lətifələrdə çoxdur və müxtəlifdir. Bunların hər biri real, həyati və təbiidir, onlar xalq tərəfindən ümumiləşdirilmiş tipik obrazlarıdır. Onlar cəmiyyətin müxtəlif təbəqələrini təmsil edir. Tiplərin biri həmişə müsbət, digəri isə mənfi göstərilir.

Lətifələrin xeyli hissəsi dindən istismar aləti, gəlir mənbəyi kimi istifadə edən ruhanilərin ifşasına həsr olunmuşdur. Aşağıdakı lətifəni nəzərdən keçirək:

Kəndin mollası bir dəfə Məhərrəm əminin qabağını kəsib deyir:

- Məhərrəm kişi , üç manat ver, dədənə quran oxuyum, göndərim cənnətə.

Məhərrəm əmi dinməz- söyləməz pulu çıxarıb verir. Bir müddət keçəndən sonra Molla yenə Məhərrəm əmidən üç manat istəyir ki, yasin oxuyub atasını cənnətə göndərsin.

Məhərrəm əmi özünü saxlaya bilməyib, bu dəfə gülə-gülə deyir:

- Molla, dədəm cənnətdə nə günah işlətdi ki, oradan çıxardırlar ? [4]

Nəzərdən keçirilən lətifələrdə dini ehkamlara qarşı çıxmış, mürtəce din xadimlərinə, rühanilərə xas səciyyəvi keyfiyyətlər də sənətkarlıqla ifşa olunmuşdur.

Lətifələr quruluş, kompozisiya cəhətdən tezis, antitezis, nəticədən və ya sübutdan ibarət olur. Lətifələrdə irəli sürülən tezis və onun əksi olan antitezis nəticəni doğurur, estetik idealı sübuta yetirir.

Bu baxımdan təzad lətifə janrının meyarıdır. Təzadsız lətifə yoxdur. Lətifə janrında konkretlik, yığcamlıq, az sözlə geniş mənalı fikir söyləmək və məqsədəuyğun hərəkət etmək əsas şərtlərdəndir. Lətifələrin dili sadə ümumxalq dilidir. Şifahi ədəbiyyatımızın digər növləri kimi onun da əsasını canlı xalq danışığı təşkil edir. Lətifələrdə uzunçuluq, sözçülük, artıq ifadə yoxdur. Bədiilik, canlılıq, səlislik, yığcamlılıq, aydınlıq, konkretlik, şirinlik lətifə dilinin əsas xüsusiyyətlərindəndir. Lətifələrin dili obrazlıdır. Bu dil vasitəsilə hər bir tipin daxili aləmi, psixologiyası aşkara çıxır. Xalq dilinin bütün incəlikləri lətifələrdə özünə yer tapır. Lətifələrdə poetik güc, incə yumor, hikmətli fikir, məntiqi nəticə və tənqidlə səciyyələnir.

Ə d ə b i y y a t:

1. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı, "Sabah", 1994, s.256-257

2. Nümunə 2004-cü ildə Ordubad rayonunun Əylis kənd sakini Əliyeva Zərifə Hüseyn qızından qeyd alınıb.
3. İbrahimov İ. Atalar sözü və məsəllər. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Bakı, Azərbaycan Elmlər Akademiyası nəşriyyatı, 1961, s.141
4. Azərbaycan folkloru antolgiyası. Naxçıvan folkloru. Bakı, "Sabah", 1994, s.259

YUSİF SƏFƏROV
Naxçıvan Muxtar Respublika Kitabxanası

BƏZİ NAĞILLARIN TARİXİ KÖKLƏRİ

Toplama və çap materialları göstərir ki, nağıl Naxçıvan regionunda yayılmış şifahi xalq yaradıcılığı nümunələrindən biridir. Bunlar arasında tarixi köklərə mAlik olan nağıllar az deyil. Xalq belə nağıllarda, bir çox məşhur hökmdarların adlarını çəkmiş, onların həyat və fəaliyyətinə dair özünəməxsus mülahizələrini bədii formAda ifadə etməyə çalışmışdır (1, s. 121). Belələrinə Şah Abbasla bağlı nağıllar daha yaxşı nümunədir. «Şah Abbasla kəndçi qızı» nağılı da bu qəbildəndir (2, s. 197-202).

Nağılın qısa süjetinə görə, kəndli qızı atasının rast gəldiyi dərvişlərin- Şah Abbasla vəzir Allahverdi xanın ağıllı adamlar olduğunu hiss edib onları evə qonaq dəvət edir. Qızın da ağıllı olduğunu görən Şah Abbas kəbin kəsdirib onunla evlənir. Az sonra şah, adı üstündə yazılmış bazubəndini qıza verib İsfahana dönür. Şah Abbasın qızdan olan oğlu 18 yaşına çatdıqda İsfahana gedir, bir dükan açıb işləyir. Allahverdi xanın qızı oğlanı sevir, gizli yolla onunla görüşür. Məsələdən xəbər tutan Şah Abbas şahlığı üç günlüyə Allahverdi xana verir. Vəzir qızı da, oğlanı da ölümə məhkum edir. Oğlanın qolundakı bazubənddən onun şahın oğlu olduğu məlum olduqda hökm ləğv edilib, hər iki gənc evləndirilir.

«Qızıl təsbeh» (2, s. 98-103) nağılında da Şah Abbas rəiyyət qayğısına qalan şah kimi təsvir olunur. Şah qızıl təsbehini pul və azuqə ilə birlikdə bir ailəyə bağışlayır. Qızıl təsbehi zorla bir cühud həmin ailənin əlindən aldıqda şah təqsirkar yəhudini cəzalandırır.

Hər iki nağılda xalqın Şah Abbasa dərin hüsn-rəğbəti ifadə olunur.

«Şahın tədbiri» nağılında da Şah Abbas müsbət təsvir olunur. Şahın qonaq qaldığı evdə bir oğlan uşağı dünyaya gəlir. Bəxt və tale yazan mələklərin söhbətindən məlum olur ki, uşağı 15 yaşında ilan çalıb öldürəcək. Bundan narahat olan şah uşağı ailəsilə birlikdə saraya köçürüb mühafizə şəraitində saxladır. Lakin deyilmiş anda ananın saçları ilan olub uşağı çalıb öldürür. Nəticədə məyus olmuş şah «olacağa çarə yoxdur», «ölüm və qəza- qədərin qarşısını almaq olmaz» qənaətinə gəlir.

Naxçıvan regionunda belə nağıllara az təsadüf olunmur. Bunların hamısından bir yazıda danışmaq imkan xaricindədir. Sonuncu nağılla bağlı onu qeyd edək ki, nağıldakı «ölümə qarşı çıxmaq» , yəni ölməzlik uğrunda mübarizə arxaik motiv olmaqla din, şəriətlə yox, şifahi xalq yaradıcılığı ilə bağlıdır. Məlum olduğu kimi, Makedoniyalı İsgəndər də bir çox nağıl və əfsanələrdə «abi-həyat» suyunu içmək məqsədilə qaranlıq dünyaya səfər etsə də, məqsədinə nail ola bilmir. Çünki xalq ədəbiyyatında yaşayan motivə görə, ölməzlik adi insanlara yox, tanrı və ərənlərə məxsusdur.

Ölümün çarəsizliyi tarixən insanları düşündürən məsələ olub. Sehirli nağıllarda olduğu kimi, tarixi nağıllarda da bu motivə tez-tez təsadüf olunur. «Şahın tədbiri» nağılında buna qismən orta əsrlər şəraitinə uyğunlaşdırılmış şəkildə rast gəlirik.

«Birinə 100 tümən, birinə 100 çubuq», «Ağıllı gəlin» nağıllarında da demək olar ki, Şah Abbas müsbət planda verilmişdir. Qeyd edək ki, Şah Abbas nağıllarda

ən çox iştirak edən, bəzən də ziddiyətli təsvir olunan tarixi şəxsiyyətlərdəndir. Çox nağıllarda bu tarixi şəxsiyyət ədalətinə görə «cənnətməkan» adlandırılsa da, bəzi nağıllarda zülmkar, ədalətsiz şah kimi verilmişdir.

Xatırlayaq ki, «bu adamın Azərbaycan-İran tarixində oynamış olduğu rol məlumdur. Səfəvi dövlətinin ikinci mərhələsinin ilk hökmdarı olan Şah Abbasın Azərbaycana münasibəti və bu münasibətin aqibəti də bəllidir. Şifahi ədəbiyyatımızda çox geniş yer tutan bu adam gah tamamilə mənfi, gah tamamilə müsbət bir şah kimi təsvir edilib. Onlarca nağıl, əfsanə və rəvayətlərdə o, xeyirxah, ədalətli bir şah, mürşid, cənnətməkan kimi tərənnüm edilir» (3, s. 247). Bəzi nağıllarda isə «Şah Abbas cənnətməkan, tərəziyə vurdu təkan,iki qoz,bir girdəkan» deyə lağa-məsxərəyə qoyulursa da,«lakin ehtiraf etmək lazımdır ki, onun adilliyi, xeyirxahlığı daha üstün, daha qüvvətlidir» (3,s.247). «Ümumiyyətlə, nağıllardakı Şah Abbas surətinə daha çox xalqın arzu və istəklərinin təcəssümü kimi baxırıq» (4, s. 264).

Deyilənləri ümumiləşdirsək, bir daha qənaətə gəlirik ki, nağıllarda Şah Abbasa münasibət daha çox müsbətdir. Bu, həm də xalqın «ədalətli şah» arzusundan irəli gəlib. Eləcə də bu müsbət münasibətin orta əsrlər şəraitilə səsləşən tarixi kökləri, məqamları da az deyil. Bunlar aşağıdakı məsələlərlə daha çox bağlıdır.

1. İran-Osmanlı müharibələrində Şah Abbasın siyasi məqsədlər üçün «quruculuq» işləri aparmaqla xalqı öz tərəfinə çəkə bilməsi, əhalinin kasıb təbəqəsinə müəyyən dərəcədə diqqət yetirməsi.

2. Şah Abbasın xalq kütlələri arasında şiəliyi təbliğ etməsi.

Bizcə, bunlarla yanaşı ordubadlı Hatəm bəyin Şah Abbas sarayında baş vəzir vəzifəsini tutması da, bu məsələyə müsbət təsirini göstərmişdir.

Bunun üçün tarixə bir də nəzər salmaq kifayətdir.

Səfəvilər hakimiyyəti illərində şiəliyin təbliğ olunduğu yerlərdən biri Naxçıvan regionu, xüsusən onun Ordubad şəhəri olmuşdur. Şah Abbas 1606-1607-ci illərdə Azərbaycanı Osmanlı dövlətindən geri aldıqdan sonra Ordubad şəhərinin şiəlik tərəfdarı olduğunu və Səfəviləri müdafiə etdiyini nəzərə alaraq, onu «xəzinəyə verilən bütün vergilərdən azad etmişdir. Belə görünür ki, Hatəmbəy Ordubadinin o zaman şahın birinci naziri olması burada az rol oynamamışdır» (5, s.291). Göstərilən bu tarixi şərait xalq yaradıcılığına təsir göstərmiş, öz növbəsində müəyyən motiv və süjetlərin yaranmasına zəmin yaratmışdır. Bəzi tarixi izlər isə nağıl süjetləri daxilində əримiş və dəyişmişdir.

Şah Abbasla bağlı nağıllarda vəzir Allahverdi xan da çox iştirak edən surətdir. «O, çox zaman Şah Abbasla birlikdə rəiyyətin «qeydinə qalan», «dərdinə şərik olan» bir adam kimi təsvir edilir. Onlarca nağıl göstərmək olar ki, şah və vəzir hər həftə şəhərbəşəhər ölkəni gəzir, əhalinin necə yaşadığını, nə ilə məşğul olduğunu öyrənirlər»(6,s.84).

Nağıllara görə, Allahverdi xan xalq kütlələri arasından çıxmış bir adamdır. Bunu «Həsən Qaranın nağılı» da göstərir (7, s. 95). Lakin onun tarixi sima oluğunu tək nağıllar deyil, tarixi mənbələr də təsdiq edir. Mərhum folklorşünas alim N.Seyidov belə mənbələrə əsaslanıb yazırdı ki, Şah Abbas yaxşı xidmət göstərən aşağı təbəqəyə mənsub insanlardan əmirlər təyin edirdi. Bələlərindən biri də şahın ən yaxşı sərkərdələrindən Allahverdi xan idi (6, s. 92).

Göründüyü kimi, nağıllarda sevilən və tərifl ənən vəzir Allahverdi xanın folklorumuzda geniş yer tutması əsassız deyildir. Bu obraz da tarixi mühitdəki xeyirxah işlərinə görə, nağıllarda öz müsbət bədii formasını tapmışdır. Vəzir Allahverdi xanın iştirak etdiyi nağıllar xalqımızın yüksək əxlaqi-mənəvi dəyərlərinə söykənməsilə də fərqlənir.

Beləliklə, demək olar ki, haqqında bəhs olunan nağılların kökləri Səfəvilər dövrü, daha çox isə Şah Abbas hakimiyyəti illərilə bağlıdır. Təbii ki, bu nağıllarda tarixi mühitin izləri olduğu kimi yox, daha çox bədii dona bürünmüş şəkildə yaşayır.

Ədəbiyyat:

1. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, Maarif, 1981.
2. Azərbaycan folkloru antologiyası, Naxçıvan folkloru, Bakı, Sabah, 1994.
3. Təhmasib M. Azərbaycan xalq dastanları (orta əsrlər), Bakı, Elm, 1972.
4. Vəliyev V. Azərbaycan folkloru, Bakı, Maarif, 1985.
5. Azərbaycan tarixi, 1 cild. Bakı, Azərb.SSR EA nəşriyyatı, 1961.
6. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, Bakı, Azərb.SSR EA nəşriyyatı, 1961.
7. Azərbaycan nağılları, III cild. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1949

FİRUDİN RZAYEV
AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu

NAXÇIVAN VƏ ONUN ƏTRAF BÖLGƏLƏRİNDƏ QƏDİM SAK TÜRKLƏRİ

Hələ e.ə. birinci əsrdə yəhudi İosif Flavi qədim əfsanə və əsatirlərə istinadən,[1] əski qaynaqların məlumatlarına əsaslanaraq Naxçıvan ərazisini bəşər nəslinin ilk beşiyi adalandırırdı.[2] Ərazidə aparılmış çoxsaylı qazıntıların elmi nəticələri, tədqiqat işlərinin yekunu ilk insan məskənlərindən olan bu ərazinin dövlətçilik tarixini haqlı olaraq e.ə. III min illiyə aid edir.

Bəs bu ərazidəki kurqan abidələrin maddi-mədəniyyət qalıqlarının yaradıcıları kimlər idi, onlar hansı kökdən, soydan gəlirdi, hansı xalqın uluları, hansı xalqın təşəkkülünün, dilinin təkamülünün iştirakçıları idi?

Bütün bu suallara cavab vermək üçün ən etibarlı mənbə hesab olunan yer adlarının tədqiqi, etimologiyası və bu adlarda olan qədim etnosların izi tədqiqat obyekti kimi çox qiymətli tarixi materiallar hesab olunur.

Məlumat üçün qeyd edək ki, Azərbaycan xalqının təşəkkültapma prosesində kas, manq, kimmer, savir, şirak kimi türkdilli tayfaların iştirakı olmuş və bu izləri bu günümüzə qədər oykonimlər qorumuşdur. Belə türk tayfalarından biri də e.ə. I minillikdə Orta Asiya, Qazaxıstan əraziləri ilə ilişgili tarixə düşən, e.ə. VII əsrdə qədim türk yazılı abidəsi «Avesta»da, e.ə. 520-ci ildə Bisütun qaya yazılarında və bir çox tarixi mənbələrdə adı çəkilən sak etnoslarıdır.[3] Naxçıvan ərazisinin etnik tərkibi haqqında digər qiymətli məlumatlar İ.Hacıyev və Ş.Məmmədovun, İ.Hacıyev və Ə.Amanoğlunun birgə Naxçıvanla bağlı işlədiyi kitablarında da öz geniş əksini tapmışdır.[4]

Diqqətimizi daha çox çəkən sak etnoslarının Naxçıvanda, vətənimizin qərb bölgəsində (qondarama Ermənistan) və Cənub bölgəmiz Azərbaycanda məskunlaşma tarixi, onlarının izlərinin aşkarlanması, e.ə. VIII əsrdə bu ərazilərə köçetmə məsələləridir. Bəri başdan qeyd etmək istərdik ki, biz gəlmə məsələsi ilə razılaşmırıq, çünki sakların ərazidə yerli – avtoxton sakinlər olduğunu qeyd- şərtsiz sübut edən xeyli faktlar mövcuddur.

Yunan səyyahı Strabon «Coğrafiya» əsərində iki Şakaşena və bir Sisakan ərazisinin olduğunu qeyd edir və ərazi olaraq Azərbaycanı göstərir.[5]

Naxçıvan və İrəvarı əyalətlərimizin osmanlılar tərəfindən işğalından sonra tərtib olunmuş 1590-cı il tarixli « İravan əyalətinin müfəssəl dəftəri sənədində[6] yer adlarındakı sak etnosları bu fikri və məlumatı təsdiq edir və adlara

qoşulmuş küllü miqdarda arxaik türk-Azərbaycan leksik vahidlərininin işlənilməsi də məlumatla uyğun gəlir.

İrəvan nahiyəsində Zak, Zakevəng, Caqerşin, Saki, Sisaqgird, Sənqovit, o dövr alaybəyi və onun adamlarının yayladığı Saqraq yaylağı, Karbi nahiyəsində Aseçak, Osakan, Sakuni, Sərkuni, Saqazgird, Naxçıvan qəzasının Naxçıvan nahiyəsində Qaraçuq, Qarabağ nahiyəsində Səng, Sükar, Zoq, Bazarçay nahiyəsində Siqad, Vedi nahiyəsində Çiqin, Çiqindər, Çaqlı, Gənzək, Abaran nahiyəsində Səkni, Əlincə, Ağsaq, Şorlut nahiyəsində Gənzək, Əlincə nahiyəsində Əlincə, Əlincəqala, Böyük Ərəfsaq, Kiçik Ərəfsaq, Sisiyan nahiyəsində Sənkar, Şəki, Ərəfsəcik (Ərəfsaq), Sisəcan, Pişək (Kisək yazılışı da var), Məzrə nahiyəsində Sanqur, Dərələyəz nahiyəsində 2 Gənzək kəndi, Caqazur, Danzik, Göyçə nahiyəsində Kənzək, Abaran nahiyəsində Şiqşaq və Gənzək belə adlardan[7] olub tarixi sübutların canlı daşıyıcılarıdır.

İstanbul Başkanlığı Arşivinin 1727-28-ci illərinə aid sənədlərindəki məlumatlarda bu adların bir qismi müəyyən fonetik dəyişikliyə uğramış, (Danzik-Danzit, Kənzək-Kənzə, Şaqşaq-Çaqçaq (2 kənd), Ərəfsaq- Ərəfsə- Ərəfsəcik və s.) , lakin sak etnos adı tərkiblərdə özünü qismən qoruya bilmişdir.[8]

Yüzillərlə davam edən tarixi proseslər yer adlarına müəyyən qədər təsir etsə də xanlıqların Rusiya tərəfindən işğalından sonra (1828) və 1920-ci ildə Rusiyanın Azərbaycanı yenidən işğalı ilə əlaqədar yer adlarımıza məqsədyönlü siyasət istiqamətlənmiş, etnoslarla bağlı etnooykonimlər ya tamamilə dəyişdirilmiş, ya da ərazi erməni, gürcü, rus torpaqlarına qatılaraq ilkin adlar bu millətlərin yer adlarına uyğunlaşdırılmışdır.[8] Nəticə etibarı ilə qədim türk etnoslarının izi silinmiş və erməni, gürcü, fars, rus qondarma konsepsiyaları ədəbiyyatlara, tədqiqat əsərlərinə yol almışdır. Biz yalnız hazırda fəaliyyət göstərən etnooykonimlərə sahib dura bilirik və qondarma konsepsiyalardan öz tariximizin izlərini üzə çıxarmağa çalışırıq.

Yuxarıda qeyd olunan Naxçıvan və İrəvan əyalətlərimizdəki sak etnosu ilə bağlı 43 yer və 3 mahal adlarının (Ağsaqlı, Əlincə, Sisakan və b.)qədim sak türklərinə mənsubluğu Azərbaycanın cənubunda da özünü təsdiq edir. Meşkində Şəkərli, Yaşılbaş Gəncəli. Təbriz və Miyanda Ərşaq, Arsaq, Sulduzda Qazzaq kimi yüzlərlə yaşayış məntəqə adları[10] bu etnosların Azərbaycanımızın şimal, cənub, qərb bölgələrində çox geniş məskunlaşdığından xəbər verir.

Sak etnoslarının türk etnosu olduğunu Orxon-Yenisey abidələrində Sakiş toponimi[11], qazaxlarda saqa, özbəklərdə sakay, qırğızlarda saka, türkmənlərdə saklar, naqoylarda sankay, xakaslarda saqay etnonimləri[12] qeyd- şərtsiz sübut edir.

Yüzillər boyu fəaliyyət göstərərək mühüm sənədlərdə bu günümüzə gəlib çatan oykonimlərin tərkibindəki türk-azərbaycan dilinə məxsus komponentlər də sakların türk etnosu olduğunu təsdiq edən təkzibolunmaz dil faktorlardır.

Türk dilləri ailəsinin özünəməxsus z ≈ c, ç ≈ ş, s ≈ ş fonetik səsəvəzlənmələrinin səciyyəvi xüsusiyyətlərini özündə cəmləşdirən[13] bu yer adlarının 20-dən çoxunun ilk komponenti birbaşa sak etnosunun adını bildirməklə (Zak, Zakevəng, Çaqerşin, Çaqazur, Saki, Sənqovit, Saqraq, Saqazgird, Şükar, Sənq Çiqin, Çaqlı-çaklı, Cəkni, Sənkar, Şəki və s.) qədim türk arxaik komponentləri ilə oykonim kimi formalaşıb. Burada müasir leksikonumuza daxil olan –ər «kişi, igid»[14], komponenti sak etnos adına qoşularaq (Çaq-ər-şin, Saq –ər- aq, Şuk-ar, Sərk-ar və s.) «sak kişiləri», «sak igidləri» mənalarını verməklə kimmer, xəzər, subər kimi qədim türk etnoslarının quruluşunu təkrarlayır. Bir çox oykonimlərdə oğuz dillərində çox işlənən səğir nuni (nq) diftonq səsi[15] (Sənq, sənq-ovit, sanq-ur və s.) bu günümüzə qədər qorunub saxlanılmışdır. Oykonimlərdə sak etnosuna qoşulan-vəng arxaik komponeti də bu gün şivə və ləhcələrimizdə v ≈ b fonetik hadisəsi ilə müşahidə olunur və

«öyün banı uçub» ifadəsi ayrı-ayrı bölgələrimizdə hələ də işlənilir. «Uca» mənalı -ban komponenti «Kitabi-Dədə Qorqud» dastanında «... Altun başlı ban ev vergil»...[16] ifadəsində də öz məna çalarında söylənilmişdir. Deməli -vəng komponenti fonetik paralellə işlənilən van/ban leksik vahidinin səğir nuni (nq) diftonqu ilə yazılış formasıdır.

Biz oykonimlərin tərkibində- ovit arxaik leksik söz tərkibi ilə də (Sinqovit) qarşılaşırıq. Bu komponent Alban toponimlərində Pisuauvat yer adının son –auvat tərkibi ilə müqayisə oluna bilər. Tərkib ovat /obat/ bat formasında Ordubad, Aşqabad kimi toponimlərdə də işlənərək «yer», «məkan»[17] bildirir. O zaman Şenqovit «Sak yurdu», «Sak məkanı» anlamını verir. Əgər diqqət etsək yer adları əsasən II növ ismi birləşmə şəklində formalaşıblar. Bu üslub Saqazgird sözündə də özünü göstərir. Burada sak etnos adı,- az /as/ es «zəkalı», «ağıllı».- qit/get isə «möhkəm», «qüvvətli»[18] mənalarında arxaik sözləridir. Müasir dilimizdə «ürəyində qut yoxdur-qüvvə yoxdur» ifadəsi şübhəsiz bu qədim kökdən gələn sözdür və oykonim burada I növ ismi birləşmə formasında «ağıllı, qüvvətli saklar» mənasını daşıyır. Oykonimin tərkibindəki –r hərfi sonradan artırılmadır. Deməli Azərbaycan dilinin ismi birləşmə növləri hələ e.ə. türkdilli etnoslarımız arasında dilin qrammatik ünsürü kimi mövcud olmuşdur. II növ ismi birləşmə şəklində olan Saqaraq («Uca-aq/ağ[19], ər «kişi») «Uca sak kişiləri» oykonimi də dediklərimizi təsdiq edən oykonimik formalaşma üslubudur və bütün bu birləşmələrdə dilimizin uzun təkamül prosesi özünü saxlayıb günümüzə qədər gətirmişdir.

Sadalanan oykonimlərdə -in məxsusluq şəkilçisinə (an)[20],-ni «verdi bağışladı»[21],-il «el, yurd» qədim türk komponentlərinə də rast gəlirik. F.Rəşidəddinin «Oğuznamə» əsərində –il komponenti dönə-dönə «el», «yurd» anlamında «il arasında», «il oldu» ifadələri ilə işlədilmişdir[22], Göstərilən komponentləri tərkibində daşıyan Çiqin yer adı «Saklara

məxsus», Çəkni «Sakların verdiyi, bağışladığı» Çaklı isə (burada dilimizin metateza hadisəsi
-səslərin yerdəyişməsi prosesi il-li vağzal- vazğal izlənilir[23]) Sakil tərkibindən ibarət olub «Sak eli» mənalarını özündə cəmləşdirir.

Ərazidə saklarla bağlı adı çəkilən oykonimlər içində 2 Əlincə (Əlincə Aralıq nahiyələrində), 3 Ərəfsaq (Əlincə, Sisiyan nahiyələrində) yer adlarına da təsadüf edirik. Burada Əlincə «Qüvvətli saklar», Ərəfsaq isə, «Sak ərlərinin evi» mənalarında olub[24] arxaik türk sözləri ilə oykonimləri formalaşdırmışlar.

Sakların Naxçıvan və qərb bölgəmiz İrəvan əyalətində yerli sakinlər olduğunu, türk- azərbaycanlı etnosu olduğunu təsdiq edən digər bir məqama diqqətinizi çəkmək istərdik.

1728-ci ilə aid adı çəkilən icmal dəftərində, 46-47-ci səhifələrdə belə bir məlumatla da qarşılaşırıq : «Korlavəng, Kəngənə, Ağsaqlı, İrmələi, Ağrılı və Qışlaq kəndlərinin əhalisi özlərini Saqiabat camatı hesab edirlər». Deməli saketnos adını özündə daşımayan, lakin türk leksik vahidlərindən olan bu kəndlərin əhalisi hələ XVIII əsrə qədər özlərinin sak soyundan olduqlarını bilir və bir türk-azərbaycanlı olmaqları ilə öyünürdülər (F.R). Kəndlərin daxil olduğu Xınzirək mahalı isə başabaş azərbaycanlı kəndlərindən ibarət idi.

Digər bir məsələni diqqətinizə çatdırmağı da lazımlı hesab edirik. Naxçıvan və onun ətrafı bölgələrdə qaynaq sənədlərinin verdiyi məlumatlara əsasən 6 nahiyədə (Vedi, Ağsaqlı, Şorlut, Dərələyəz, Göyçə, Abaran) 7 Gənzə, Gənzək, Gənizək eyniadlı müxtəlif yazılışlı kənd adları da fəaliyyət göstərmişdir[25]. Tarixi qaynaqlar gənzəklərin türkdilli etnos olduqlarını, saklarla birgə yaşayaraq onların bir qolunu təşkil etdiklərini təsdiqləyir[26].

E.ə. Orta Asiya, Atropatena, Albaniya Arran ərazilərində Gənzə, Gənzək kimi yer adlarının tarixi məlumatlarda əks olunması,[27] sakların yaşadığı türk xalqları qazax, qırğız, başqırd, türkmən ərazilərində – türk

torpaqlarında gənzə, gənzək türk etnoslarının yaşaması[28] bütöv sak- gənzək etnos birliyindən xəbər verir. Deməli Naxçıvan və İrəvan əyalətlərində çoxsaylı .sak, gənzək etnosları ilə adlanan yer adları türk- azərbaycanlılara məxsus idi və buradakı mahallar belə (Ağsaqlı, Əlincə, Sisakan) sak mahaları və digər türk tayfa birliklərinin (kas, manq, şirak və s.[29]) yaşadığı ərazilər idi.

Sak etnoslarının yaşam tərzindən və geyim adətlərindən bəhs edən Herodot onların şişuclu papaqlar gəzdirdiyini və bu adəti Orta Asiya ərazilərində müşahidə etdiyini söyləyir[30].

Bu məsələni diqqətlə öyrənən Levina L.M.Aralətrafı bölgələrdə bu baş geyimindən istifadə olunduğunu söyləyərək onu sivri uslu təsvir edir. Bu sahənin digər tədqiqatçısı Trofimov T.A. isə onu (sivriuclu papağı) Ceti-asar mədəniyyətinə aid edərək Altay türklərindən gəldiyini söyləyirdi[31]. Bu məsələdə daha geniş tədqiqat aparan E.E.Kuzmina isə istər Altayda, istər Aralətrafı bölgələrdə istərsə də Orta Asiyada istifadə olunmuş şişuclu, sivriuclu baş geyimini konkret olaraq saklarla bağlayır və onlara aid edirdi.[32]

XIX əsrdə Gəncə ətrafında, Şəki, Şamaxı zonalarında bu baş geyiminin geniş yayıldığını, görkəməli filosof şair M.Ş.Vazehin də istifadə etdiyini bildiyimizdən belə bir fikir söyləyə bilərik ki, e.ə. I minillikdə ərazilərimizdə yaşayan sak, gənzək tayfaları da bu baş geyimindən istifadə etmiş və XIX əsrə qədər bu adət davam etmişdir. (F.R.)

Eramızdan əvvəl ikinci minilliyin axırlarına (bu tarixə diqqət edin) aid olan, Naxçıvnın Qızılvəng ərazisindən tapılmış insan heykəlinin başında uzun şişuclu papaq əynində çuxaya bənzər geyim və belində qurşaq var idi. 1895-ci ildə N.V.Fedorov tərəfindən aşkarlanan bu kişi heykəlinin hündürlüyü 20sm, idi və (Diqqətlə baxsaq XX əsrin əvvəllərinin geyimi ilə eyni və milli geyim nümunəsidir. F.R.). tədqiqatçılar bunu bütpərəstliklə əlaqələndirdilər.[33]

Əgər diqqət etsək e.ə. II minilliyə aid bu tapıntı eramızın II minilliyinin sonrlarına qədər istifadə etdiyimiz milli geyimlərimizlə eynilik daşıyır və bu sak geyimidir. O zaman cəsarətlə demək olar ki, ***Herodot, İosif Flavi, Ptolomey, Strabon kimi qədim tarixçilərin e.ə. I minilliyə aid etdikləri sak etnosları onların yazdığı kimi deyil, e.ə. II minillikdə fəaliyyət göstərmişlər (F.R.)***

Haqlı olaraq belə bir sual ortalığa çıxa bilər. Əgər saklar e.ə II minillikdən Naxçıvan və qərb bölgəmiz İrəvan ərazilərində eramızın XX əsrinə qədər yaşamışlarsa(4 min il), 50-dən yuxarı kənd adı, 3 mahal (Əlincək, Sisakan, Ağsaklı) onların adını daşımışsa və bu ərazidə yüzlərlə marıq, kimmer, şirak, kas, xəzər, kəngər və s. türk etnosları ilə bağlı yer adları mövcuddursa, bəs onda e.ə. VII əsrdə «Böyük Ermənistan» olan dövlət[34] harada yaranmış və hansı xalqa məxsus olmuşdur? Əgər, doğrudan da, bu belədirsə o zaman özlərini «hayasa» adlandıran xalq nəyə görə adlarını dəyişib «erməni» qoymuş, nəhayət nəyə görə onların ilk çarı Paruyr türk idi, Skaordonun- Sakın oğlu idi və türk Midiya çarı Varbak (Börü «qurd»-bak «bəy» –Bayqurd F.R.) tərəfindən təyin olunmuşdur.[35]

Bu sualların sayını istənilən qədər artırmaq olar və tədqiqatların tarixi faktların nəticələrindən gəldiyimiz qənaət budur ki, adını ər «kişi», mən I şəxs əvəzliyndən götürmüş «Ermənistan» dövləti olmuşsa da, bu türk dövləti idi, buradakı mədəniyyət abidələri də bu türk etnoslarına mənsub idi. Ermənistanın e.ə. və sonra apardığı müharibələrə gəldikdə isə bu xristianlaşmış- qriqorianlaşmış türklərlə başqa dində qalmış və yaxud eyni dində olan türklərin tarixdə qarşılaşdığımız Əmir Teymurla İldırım Bəyazid, Şah İsmayıla Sultan Səlim və b. bu kimi fatehlik iddialı türklərin, dövlətlərin biri-biri ilə vuruşmasından özgə bir şey deyildi.

Sak tayfalarına gəldikdə isə bu etnoslar Naxçıvan və onun ətrafı bölgələrin yerli-avtoxton sakinləri olmaqla öz mədəniyyət abidələrini elə bu torpaqda yaşayaraq türk dilində yaratmışlar.

Ə d ə b i y y a t:

1. R.Məmmədov. Naxçıvan şəhərinin tarixi oçerki.Bakı,1977, s. 18-19
2. Флави Иосиф. Иудейские древности, СПб.1900, том 1,с.66
3. Литвинский Б.А. Древние кочевники «Крыши мира», Москва.,1972, с.156
4. Hacıyev İ.,Məmmdov Ş. Naxçıvan və naxçıvanlılar. Bakı, 2001,s.10-12
5. Hacıyev İ, Amanoğlu Ə. Tarihdc və günümüzde Nahçıvan. Ankara-1998,s.6-11
6. Qeybullayev Q., Qarabağ (Etnik və siyasi tarixinə dair) Bakı,1990, s.60-61
7. Bünyadov Z., Məmmədov H.İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.159
8. Yenə orada. s.160-164
9. Bünyadov Z., H.Məmmədov. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı,1997, s.36-38
10. Qeybullayev Q.Qədm türklər və Ermənistan. Bakı, 1992,s.66-73
11. Hacıyev Q. NDA.Bakı,2000, s.18-19
12. Əliyeva S. NDA.Bakı, 2002, s.14
13. Долгих Б.О.Родовой и племенной состав народов Сибирии в XVII век. Москва 1960, с.106
14. Şirəliyev M.Ş.Azərbaycan diclektologiyasının əsasları. Bakı, 1968, s.46-54
15. Əhmədov T.Azərbaycan toponimikasının əsasları. Bakı, 1991, s.279
16. Seyidov M.Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, 1989, s.88
17. Kitbi-Dədə Qorqud.Bakı,1962,s.20
18. Алиев И. История Мидии. Баку, 1960, с.94
19. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994,s.146-147
20. Axundov A. Ümumi dilçilik. Bakı, 1979,s.227
21. Əhmədov T. Göstərilən əsəri. s.160-161
22. Qeybulllayev Q.Göstərilən II əsəri . s.80
23. Rəşiddədin F., Oğuznamə. Bakı, 1992, s.13,64
24. Babayev A. Dilçiliyə giriş. Bakı, 1992, s.225
25. Rzayev F. NDA.Naxçıvan,2003, s. 9-11
26. Bünyadov Z., Məmmədov H. Göstərilən II əsər. s.35-48

27.Гейбуллаев Т. К этногенезе азербайджанцев. Баку, 1991, том I, с.86-92
28.Yenə orada, s.94
29.Гейбуллаев Г. Топонимия Азербайджана. Баку,1986, с.135
30.Qeybullayev Q.Göstərilən II əsəri. s.109-129
31.Геродот. История. Москва.1971,с.64
32.Трофимов Т.А. Приаральские саки. «Материалы хорезмской экспедиции», вып. 6/12.том II, Москва., 1963,с.233
33.Кузмина Е.Е.Бронзовый шлем из Самарканда. Сов. Археология. Москва., 1958, №4, с.120-126
34.Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerkləri. Bakı, 1977,s.17-18
35.Капанцян Т.А. Хаяса- колыбель армян. Ереван, 1946, с.163
36.Дьяконов И.М. Предыстория армянского народа. Ереван, 1968, с. 235-240

KƏMALƏ İSMAYILLI
AMEA Naxçıvan Bölməsi
İncəsənət, Dil və Ədəbiyyat İnstitutu

NAXÇIVAN TOPONİMLƏRİNİN TƏDQİQİ TARİXİNDƏN

Toponimika yunan dilində «topos» - yer, məskən, «onim» - ad sözlərinin birləşməsindən əmələ gəlib, coğrafi adları öyrənən elm sahəsidir.

Toponimlərdə incə, tarixi və milli xüsusiyyətlər özlərini göstərir. Hər bir tarixi dövrdə toponimlər millilik, tarixilik və müasirlik prinsipləri əsasında təşəkkül tapmışdır. Çünki hər bir toponim istər dilçilik, istərsə də toponimik vahid kimi onu yaradan xalqın milli təfəkkürü, dünyagörüşü, mənəvi zövqü, tarixi və mədəni inkişaf səviyyəsi ilə yaxından bağlıdır. Elə xalqın mədəniyyətinin ilkin xüsusiyyətləri də özünü xüsusi adlarda biruzə verir. Bu mənada toponimlər xalqımızın qədim mədəni səviyyəsini göstərən ilk ictimai nişanədir, xalqın tarixi yaradıcılığının məhsulu və canlı tarixi əsərdir. Hər bir toponim xalqın milli ünvanıdır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan çox qədim tarixə malikdir. Arxeoloji qazıntılar bir daha sübut edir ki, hələ eramızdan əvvəl burada yaşayış mövcud olmuşdur.

Toponimlər uzun tarixi inkişaf yolu keçmiş müxtəlif dövrlərdə və müxtəlif şəraitdə formalaşmışdır. Odur ki, toponimlərin yaradılması tarixini Azərbaycan dilinin tarixi leksikasından ayrılıqda düşünmək olmaz.

Tarixi, mədəniyyəti özündə əks etdirən Naxçıvan toponimləri haqqında ilk məlumatlara antik Yunan və Roma mənbələrində rast gəlmək olar. Məsələn, e.ə. VI-V əsrlərdə yaşamış Hekatey Miletski «Zemleopisanie» əsərində miki və dondar etnonimləri ilə yanaşı Araz və Girkan dənizi hidronimlərinin (5, s.13) adını çəkir. V əsr erməni tarixçiləri Eqişe və Moisey Xorenası Alban toponimləri haqqında məlumat verərkən Naxçavan (Naxçıvan), Şərur düzü və s. kimi toponimlərin də adını qeyd edirlər (6, s.211).

Naxçıvan toponimlərinin adı müəyyən mənbələrdə müxtəlif variantlarda qeyd olunur. Qevondda Naxçavan, K.Qandzaketsidə Naxiçevan, Y. Həməvi (XII-XIII əsr) və Həmdullah Qəzvinidə (XIII-XIV əsr) Naxçuvan, gürcü mənbələrində isə Naxiçevan variantlarında işlənir.

Azərbaycan, onun tarixi, coğrafi relyefi, əhalisi və xüsusilə toponimləri haqqında ən geniş məlumatı ərəb mənbələri verir. IX-XIII əsr ərəb mənbələrində Nəşəva (Naxçıvan), Əlincə, Xalxal toponimlərinə rast gəlinir. Bunlar Naxçıvan toponimlərinin tədqiqinin ilkin rüşeymləridir.

Azərbaycan toponimiyası üçün əsas tarixi mənbələrdən biri də Abbasqulu ağa Bakıxanovun (1794-1848) «Gülüstani-İrəm» əsəridir. Burada Azərbaycanın tarixi və toponimləri haqqında xeyli məlumat verilməklə yanaşı, Dağıstan xalqının da etnik tərkibi, tarixi, toponimləri barəsində məlumat tapmaq mümkündür
(4, s.18-46). Çox təəssüf hissi ilə demək istərdim ki, belə dəyərli bir əsərdə Naxçıvanla bağlı ətraflı məlumata rast gəlinmir.

Ümumiyyətlə, toponimlər də daxil olmaqla onomastika sahəsi Azərbaycan dilçiliyində 60-70-ci illərdən öyrənilməyə başlamışdır. Azərbaycan onomologiyası problemlərinə həsr olunmuş Respublika Elmi nəzəri konfransları da (1986, 1988, 1990, 1992, 1994 və s.) bu illərdən sonraya təsadüf edir. 60-70-ci illərdə Azərbaycan toponimikası öz inkişafına yeni qədəm qoymuş və bu sahədə yeni-yeni məqalələr yazılaraq Naxçıvan toponimləri haqqında müəyyən məlumatlar verilmişdir. Belə ki, toponimika sahəsinin istiqamətləndirilməsində xüsusi xidməti olan A.Həsənov «Coğrafi adlarda tarixi izlər», «Dərəşam toponimi haqqında», Q.Qeybullayevlə birgə işlədiyi «Naxçıvan MSSR-in bəzi oykonimləri haqqında» adlı məqalələrində Naxçıvanla bağlı toponimlərin tədqiqinin bünövrəsini qoymuş və bəzi yer adlarının linqvistik təhlilləri də verilmişdir.

Azərbaycan tarixinin, dilinin yazıyaqədərki dövrü haqqında məqalə və monoqrafiyalar yazmış, toponimlərin, etnonimlərin öyrənilməsində xüsusi rolu olan etnoqraf-toponimist Q.Qeybullayev bu sahənin elmi əsaslarla öyrənilməsində əvəzsizdir. Onun «Naxçıvanın bəzi oykonimləri» məqaləsi, rus dilində yazdığı «К этногенезу азербайджанцев», «Топонимия Азербайджана» adla kitabları Naxçıvan toponimlərinin də elmi şəkildə tədqiqində olduqca maraqlı və qiymətli mənbədir. Bu kitablarda toponimlərin təhlili ilə yanaşı, onların yarandığı zaman və məkan, yayıldığı ərazi, dil mənsubluğu və s. ali səviyyədə öz əksini tapmışdır.

Toponimika son dövrlərdə bir sıra elmlərin, xüsusilə tarix, coğrafiya və dilçiliyin kəsişdiyi nöqtədə yaranan yeni bir elm sahəsi kimi çox tez inkişaf etdi və layiqli tədqiqatçılarını yetişdirdi. Bu baxımdan A.Qurbanovun, M.V.Baharlının, A.Axundovun və s. adlarını qeyd edə bilərik. Afat Qurbanovun «Azərbaycan dilinin onomalo-giyası» adlı kitabı onomastikanın elmi-nəzəri problemlərinin şərhilə yanaşı, toponimləri, hidronimləri və s. sistemləşdirən

qiymətli bir tədqiqat əsəridir. Burada Naxçıvan MR-sı ərazisində mövcud olan onomastik vahidlərin bir qrupu da tədqiq olunmuşdur.

A.Axundovun «Torpağın köksündə tarixin izləri», T.Əhmədovun «Azərbaycan toponimikasının əsasları» kitabları, Q.Məşədiyevin, R.İsrafilovun, Q.Cəfərovun elmi əsərləri Naxçıvan toponimlərinin tədqiqi üçün əsas mənbələrdən sayıla bilər.

Azərbaycan - oğuz türklərinin dəyərli xəzinəsi sayılan «Kitabi - Dədə Qorqud» dastanı toponimlərlə zəngin tarixi bir mənbədir. Bir çox alimlər bu dastanı tədqiq edərək araşdırmalar aparmışlar. Naxçıvan toponimiyası üçün bu araşdırmalardan ən əhəmiyyətlisi S.Babayevin «Naxçıvanda «Kitabi - Dədə Qorqud» toponimləri» adlı monoqrafiyasıdır. Alim burada olan toponimləri araşdıraraq dastanda yazılan hadisələrin Naxçıvan ərazisi ilə sıx surətdə bağlı olduğunu sübuta yetirmişdir. S.Babayev «Salur Qazanın evinin yağmalandığı boy» hissəsində Naxçıvanla bağlı Qaraçuğ, Qara Dərə - (Culfa), Qapılı Dərbənd (Şərur), Altuntaxt (Babək) toponimlərini «Bamsı Beyrək boyu» bölməsində Dana Sazı (Şərur) (2, s.43) sonra isə bir çox toponim (Dərəşam, Əlincə, Köksü gözəl, Salaxan qayası və s.) haqqında geniş mülahizələr vermişdir. Xüsusilə qeyd etmək istərdim ki, mənfur qonşuların ərazi iddialarını puça çıxarmaq üçün ən gözəl vasitələrdən biri, məncə, bu kitabla tanış olmaqdır. Çünki alim buradakı toponimlərin coğrafi xəritəsini elə gözəl izah etmişdir ki, Naxçıvanın oğuz türklərinin yaşayış məskəni olmalarına şübhə etmək qeyri-mümkündür.

Qeyd etmək lazımdır ki, son dövrlərdə Naxçıvan toponimləri haqqında elmi əsər və məqalələrin sayı getdikcə artmışdır. Bu sahədə aparılan tədqiqat işləri Q.Budaqovanın, Ş.Cəmşidovun, V.Əliyevin, A.Qasımovun, A.Rəhimovun, İ.Hüseynovun, A.Bağırovun, İ.Bayramovun, Q. Mahmudovun, Ü.Mirzəyevanın, F.Rzayevin elmi məqalələrində öz əksini tapmışdır. Q.Budaqovanın «Naxçıvan MR

toponimləri» adlı kitabında Naxçıvan toponimlərini özündə birləşdirməklə yanaşı linqvistik təhlili də əsas götürərək, bir sıra oykonimi, oronimi və s. təhlilə cəlb etmişdir.

A.Bağırovun yazdığı «Naxçıvan toponimlərinin linqvistik təhlili» kitabı hər bir toponimist üçün stolüstü kitablardan biri ola biləcək dəyərdədir. Kitabda Naxçıvan MR-də olan oykonimlərin, xoronimlərin, urbanonimlərin, dromonimlərin linqvistik xüsusiyyətləri, toponimlərin qrammatik xüsusiyyətləri izah edilmiş, sözlərin etimologiyası verilmişdir. Təqdirə layiq bir haldır ki, kitabın sonunda Naxçıvan toponimləri sözlüyündə doğma yurdumuzla bağlı yer adları öz əksini tapa bilmişdir. Tədqiqatçı alim giriş hissədə Naxçıvan MR ərazisindəki coğrafi adları dil mənsubiyyətinə görə dörd qrupa bölmüşdür: (3, s.18)

1. Türk mənşəli toponimlər
2. İran mənşəli toponimlər
3. Ərəb mənşəli toponimlər
4. Monqol mənşəli toponimlər.

Son zamanlar bu sahədə F.Rzayevin də əməyi xüsusi diqqətə layiqdir. Onun bir sıra məqalələrində (6; 7; 8; 9; 10; 11) Naxçıvan toponimlərinin etimologiyası, leksik-semantik xüsusiyyətləri, mənşəyi və s. kimi məsələləri əsas yer tutur.

F.Rzayev «Əlincə çayı vadisi toponimlərində türk layı" adlı dissertasiyasında bu vadidəki yer adlarını sistemli şəkildə tədqiq etmişdir.

Son zamanlar A.İmanlının Şərur rayonu toponimlərinə dair tədqiqatları, Siyaqut yer adının etimologiyası, N.Əsgərovun «Xələc etnoniminə dair» fikirləri İ.Bayramovun «Qərb bölgəmiz İrəvan əyalətinin oronimlərinə dair» məqaləsi, İ.Hüseynovun «Unus etnotoponimi haqqında» fikirləri bu sahədə yeni-yeni tədqiqat işlərinin aparılmasından xəbər verir (1, s.52,61,94, 96, 101)

Bununla bərabər son dövrlər arxiv sənədlərinə əsasən 1509-cu ildən 2004-cü ilə qədər bir tarixdə fəaliyyət göstərmiş Şərur rayon oykonimlərinin toplanıb sistemləşdirilməsi

məsələsində F.Rzayevin tədqiqat işi bu tədqiqatların davamı kimi aktual məsələlərdəndir.

Naxçıvan toponimik sisteminin öyrənilməsi bu gün də davam edir və bu sahədə dilimizin tarixi, etnik təşəkkülümüz haqqında yeni-yeni elmi nəticələr Naxçıvan tarixinin qaranlıq səhifələrinin işıqlandırılmasında mühüm elmi əhəmiyyət kəsb edir.

Ə d ə b i y y a t:

1. Azərbaycan onomastikası problemləri. Bakı, 2002, №10.
2. Babayev S. Naxçıvanda «Kitabi-Dədə Qorqud» toponimləri. Bakı, 2002.
3. Bağırov A. Naxçıvan toponimlərinin liqvistik xüsusiyyətləri.Bakı, 2002.
4. Бакыханов А. Глюстани-Ирем Бакы, 1991.
5. Гейбуллаев Г. Топонимия Азербайджана Бакы, 1986.
6. Мамедов Т. Албания и Атропатена по древнеармянским источникам (IV-VII вв) Баку, 1971.
7. Rzayev F. Əlincə vadisi toponimlərində qədim leksik və fonetik türk elementləri «Filologiya məsələlərinə dair tematik toplu». Bakı, 2002, №1-7
8. Rzayev F. Ərəb, fars, erməni mənşəli hesab edilmiş bəzi türk toponimləri. «Azərbaycan onomastikası problemləri» Bakı, 2002, №10.
9. Rzayev F. Bir daha Xanağa toponimii haqqında. «Filologiya məsələlərinə dair tematik toplu» Bakı, 2001, №1-2.
10. Rzayev F. Naxçıvan ərazisində kass və sak etnosları ilə bağlı yer adları «Elmi əsərlər» №9, ARTN. NDU, 2002.
11. Rzayev F. Onomastik vahidlər «Böyük Ermənistanın mövcudluğunu təkzib edir. «Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyətinin, təbii sərvətlərinin öyrənilməsi» Bakı, 2004.

ADİL BAĞIROV
Naxçıvan Özəl Universiteti

NAXÇIVAN ƏRAZİSİNDƏKİ BƏZİ OYKONİMLƏRİN MƏNŞƏYİ HAQQINDA

Naxçıvan Muxtar Respublikasının oykonimləri dil mənsubiyyəti və leksik tərkibinə görə zəngin xüsusiyyətlərə malikdir.Bu oykonimlər tarixin müəyyən zamanlarında yaranaraq maddi mədəniyyət abidələri kimi zəmanəmizə qədər gəlib çatmışdır.

Ancaq uzun illər qaniçən hökmdarların işğalçılıq siyasəti, bədnam qonşularımızın məkrli niyyətləri nəticəsində xalqımızın yaratdığı maddi mədəniyyət abidələri-milli adlarımızın bir qismi zaman-zaman məhv olmuş, unudulmuş və daş yaddaşımızdan silinmişdir. Bir qisim adlarımız isə minilliklər boyu xalqımızın qanı ilə yoğrularaq dağlara, qayalara hopmuş, hər döngədə, hər cığırda xalqımızın dil yaddaşı kimi yaşamışdır. Ona görə də bu gün dilimiz, tariximiz və gələcəyimiz üçün çox qiymətli olan bu adları toplayıb sistemə salmaq, onları müasir toponimik səviyyədə öyrənib, gələcək nəslə çatdırmaq hər birimizin mənəvi borcudur.

Dil materialları sübut edir ki, Naxçıvan oykonimləri əsasən şəxs, nəsil, qəbilə, tayfa,tirə su obyekti və s. adları əsasında yaranmışdır.Bu adların bəzilərinin məna açımına diqqət edək.

Yamxana. Babək rayonunda kənd adıdır.T. Əhmədov bu adın iki komponentdən ibarət olub, birinci komponentinin uyğur, osmanlı və cığatay ləhcələrində «poçt stansiyası», «poçt atları» mənasında işləndiyini və qədim türk leksik vahidlərindən biri olan **yam** sözündən yarandığını qeyd edir [5,s.257].

XVIII əsrə aid mənbələrdə bu ad ***Yemxana*** şəklində işlədilir [10,s.29]. Fikrimizcə, sözün *yem* hissəsi *yam* sözünün

fonetik dəyişikliyə uğramış formasıdır. Bu sözün *yem* şəklində işlənməsi isə Naxçıvan şivələrinə məxsus **a** səsinin **e** səsinə keçməsi hadisəsi ilə bağlıdır.

Məlumdur ki, qədim zamanlarda şəhərlər və dövlətlər arasında rabitə əlaqəsi yaratmaq üçün əsas karvan və ticarət yolları üzərində poçt məntəqələri yaradılırmış. Hələ Hülakilər hakimiyyəti dövründə Qazan xanın fərmanına əsasən, bütün əsas yollarda hər 3 fərsəxdən bir (21 km) rabitə dayanacaqları-**yam**lar yaradıldı. Yamlara əmirlər təyin olundu və onlar lazımi qədər qulluqçularla və atlarla təmin olundu. Mühüm dövlət sənədləri və məktublar bir yamdan digərinə ötürülməklə ünvana çatdırılırdı [2,s.343]. Hazırda dilimizdə *yam* sözü qasid anlamında işlənir. Qasid sözü «atla bir yerə məktub, əmr, xəbər aparıb gətirən şəxs; qasid, yamçı mə'nasındadır» [1,s.416]. Çox ehtimal ki, Araz çayı boyunca uzanan karvan yolu üzərində *yam* kimi fəaliyyət göstərən belə rabitə məntəqəsi sonralar daimi yaşayış məskəninə çevrilmiş və nəticədə Yamxana adı əmələ gəlmişdir. Yamxana yaşayış məntəqəsi kimi 1969-cu ilə qədər fəaliyyət göstərmiş və Araz su qovşağının tikintisi zamanı kənd başqa əraziyə köçürülmüşdür.

Çeşməbasar. Babək rayonunda kənd adıdır. Bu adın **Çeşmasara** variantına ilk dəfə XIX əsr mənbələrində rast gəlinir [7,s.184]. Ehtimal edirik ki, kəndin əsası da XVIII əsrin axırları və ya XIX əsrin əvvəllərində qoyulub, çünki XVIII əsrin əvvəllərində bu ada təsadüf olunmur. XIX əsrin əvvəllərində isə kənddə yaşayış olmayıb. «Bura Küznüt kəndinin əkin sahələri imiş» [7,s.184].

Xalq yozumuna görə, Çeşməbasar «su basan yer» deməkdir. Ancaq bizim fikrimizcə, bu yozum özünə haqq qazandırmır, çünki kəndin ilkin adı ***Çeşməsara*** olub və sonra tədricən bu adda **sara** sözü ***basar*** komponenti ilə əvəzlənib. Düzdür, ifadənin ***basar*** hissəsini qədim ***bazar*** tayfa adı ilə əlaqələndirmək mümkündür. Yəni, 1930-cu illərdə kəndin Çeşməbasar adı ilə yanaşı, həm də Çeşməbazar kimi

adlandırılması [12, s. 204] və kəndə yaxın ərazidə Qarğabazar yer adının olması da bu fikrə dəstək olur.Ancaq Çeşməbasar birləşməsinin tərəfləri arasında məna və məntiqi əlaqənin zəif olması bizdə belə güman yaradır ki, kənd adının düzgün variantı Çeşməsaradır.

Çeşməsara fars mənşəli *çeşmə* və *sara* sözlərinin birləşməsindən əmələ gəlib. Burada *çeşmə* «bulaq, dirilik bulağı, həyat bulağı, göz bəbəyi», *sara* isə çoxmənalı söz olub «xalis, saf», «dəvə», «sığırçın» mənalarında işlənir [6, s.744, 535].Göründüyü kimi, bu ad "saf su, saf bulaq, çoxlu çeşməsi, təmiz suyu olan yer", "ətrafı dəvə, sığırçın yığnağı olan bulaq" anlamları bildirir və bütün məqamlarda bulaq, su ilə bağlı məna ifadə edir.Elə bu fikrə əsaslanıb güman edirik ki, vaxtilə ətraf zonalarda, xüsusilə də Çeşməbasara yaxın ərazidə "Naxçıvanın 7 verstliyində dağ çayının axarı boyunca "Naxşu- narqiz" adlı karbonat bulaqlara rast gəlinməsi"[10, s.20] və kəndin ərazisindən bulağın çıxması bu adın yaranmasına səbəb olub.Ona görə buraya "həyat bulağı", "saf, göz bəbəyi kimi təmiz suyu olan yer" anlamı bildirən Çeşməsara adı verilib [3, s.71-72].

Bu adla bağlı belə bir ehtimal da inandırıcı görünür ki, kənd yol ayrıcında yerləşdiyindən buradakı bulağın başı daha çox sarbanların dayanacaq yeri olub.Ona görə də buraya Çeşməsara yəni "dəvə yığnağı olan çeşmə", "dəvə bulağı-dəvəli bulaq" adı verilib.

Naxçedəniz. Qədim yaşayış məntəqəsi olan bu kənd Babək rayonunun Pircuvar düzündə Əshabü-kəhf yolunun kənarında yerləşir. «Kənd XVIII əsrin 20-ci illərində Naxçıvan sancağının Sair Məvazi nahiyəsinə daxil olub və ildə 4411 ağca vergi verib» [10,s.98-99]. Hazırda belə kənd yoxdur, ancaq kəndin ərazisi el arasında ***Naxışnərgiz*** kimi tələffüz olunur.

Naxçedəniz adı *Naxç* və *dəniz* komponentlərindən ibarətdir. Bu haqda danışan mərhum akademik Z.Bünyadov yazır ki, **Naxçe–dəniz** yaşayış məntəqəsinin yerini

müəyyənləşdirərkən maraqlı bir faktla qarşılaşdıq. «**Naxçe-dəniz**» adlı yaşayış məntəqəsi bu günkü «Nəqşi-nərgiz» kəndinin ərazisinə təsadüf etdi. Keçən əsrin müəlliflərindən K.A.Nikitinin «Nəqşi-nərgiz» kəndi barəsində olan bir qeydi «**dəniz**» kəlməsinə bir aydınlıq gətirdi. O yazırdı ki, Naxçıvanın 7 verstliyində dağ çayının axarı boyunca «**Naxşu-narqiz**» adlı karbonat bulaqlara rast gəlmək olar. Görünür, osmanlıların «dəniz» kimi yazdıqları kəlimə «bulaq» mə'nasında, «naxçe» (bu sözü açmaqda doğrusu çətinlik çəkirik) sözü isə bəlkə «duzlu», «turş» anlamında işlənmişdir [10,s.20].

Göründüyü kimi, mərhum akademik Z.Bünyadov ***naxçı*** sözünün açılmasında çətinlik olduğunu yazır və, bu adın mənşəyi ilə bağlı konkret fikir söyləmir. Bu da təbiidir, çünki ***naxç*** sözü hələlik şəffaflaşdırılmayıb.bu haqda son söz demək çətindir. Ancaq belə ehtimal edirik ki, **Naxçe-dəniz** adındakı ***naxçı*** sözü ilə Naxçıvan sözündəki ***naxç*** komponenti arasında bir yaxınlıq, eynilük özünü göstərir. Odur ki, hələlik sirrini bizə açmayan ***naxç*** sözünün mənşəyini bu torpaqda, bu ərazidə axtarmaq lazımdır [3, s.87].

Nuhdaban. Ordubad rayonunun indiki Gəmiqaya adlanan dağ zirvəsinin ətəklərində xarabalıqları bilinməyən, ancaq adı hafizələrdə və əfsanələrdə yaşayan qədim kənd adıdır.

Bu ad ***Nuh*** və ***daban*** tərkib hissələrindən ibarətdir. Adın birinci tərəfi əfsanəvi Nuh peyğəmbərin adı ilə bağlıdır, ***daban*** komponenti isə «dağın, qayanın dabanı», «dağ və qaya ayağının aşağı hissəsi», «dağın dibinə yaxın yer» [8,s.52], yakut, tuva, altay, özbək, qırğız [9,s.168] və monqol dillərində isə «dağ aşırımı» anlamlarında işlənir [4.s.105]. Demək, belə güman etmək olar ki, Nuhdaban adı «Nuhun düşdüyü dağın aşağı hissəsi, dağın dibinə yaxın yer, dağ aşırımı» mə'nalarında işlənir ki, bu da ərazinin relyef quruluşu, Gəmiqayanın yüksək zirvədə yerləşməsi ilə uyğun gəlir və

kəndin Gəmiqayanın dibinə yaxın yerdə salındığını təsdiqləyir.

Rəmeşin. Şahbuz rayonunda Aşağı Rəmeşin və Yuxarı Rəmeşin adlı kəndlər mövcuddur. Bu ada ilk dəfə XVII-XIX əsrlərə dair sənədlərdə rast gəlinir. Belə ki, 1654-cü ilə aid sənədlərdə Naxçıvan ərazisinin Şahbuz dərəsində yerləşən *Xurəmeşin* kəndinin bir hissəsinin satılması haqqında məlumat verilir [11,sənəd №-7,3-cü başlıq]. Sənəddən aydın olur ki, hələ bu tarixdən (yə'ni 1654-cü ildən-A.B.) 300 il əvvəl kəndin əsl adı ***Hurrəmeşin*** olub. İndi buraya **İrəmeşin** deyilir. **Hurrəmeşin** – «hure-nişin» sözündəndir, mə'nası «hurilər, gözəl qadınlar yaşyan yer» deməkdir [11,sənəd №-7, 3-cü başlıq] Bu ad 1727-ci ildə müəyyən dəyişikliyə uğrayıb ***Hurceşin*** kimi qeydə alınmış [10,s.108]. XIX əsrdə isə kəndin adı ***Huremeşin*** (Quromeşin) kimi yazılmışdır [7,s.144]. Şübhə etmirik ki, müxtəlif illərdə ***Hürrəmeşin-Xurəmeşin-İrəmeşin-Hurceşin-Huremeşin*** kimi fonetik şəkillərə düşən bu ad indiki Rəmeşin kəndinin əvvəlki adları olub. Rəmeşin adının əvvəlinə artırılan Aşağı və Yuxarı sözləri kəndləri bir-birindən fərqləndirmək məqsədi daşıyır.

Onu da qeyd edək ki, 2003-cü ildə hər iki kəndin adı dəyişdirilmiş, Aşağı Rəmeşen kəndinə Qızıl Qışlaq, Yuxarı Rəmeşen kəndinə isə Güney Qışlaq adları verilmişdir.

Ədəbiyyat:

1. Azərbaycan dilinin izahlı lüğəti, IV cild, Bakı,1987.
2. Azərbaycan tarixi, I cild, Bakı,1994.
3. Bağırov A. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri, Bakı,2002.
4. Budaqov B, Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998.
5. Əhmədov T. Azərbaycan toponimikasının əsasları, Bakı, 1991.
6. Ərəb və fars sözləri lüğəti, Bakı, 1966.
7. Григорев Г. Статистическое описание Нахичеванской провинции, Санкт- Петербург, 1833.
8. Məmmədov N. Azərbaycanın yer adları, Bakı, 1993.

9. Мурзаев Е.М. Словаръ народных географических терминов. Москва, 1984.
10.Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı, 1997.
11.Передняя Азия в документах, кн.1. Нахичеванские рукописные документы XVII - XIX вв.Тифлис,1936.
12. ASŞÇ. Nax. SŞÇ, MDQO inzibatı bölünüşü, Bakı, Azərbaycan Xalq Təssərrüfat uçotu idarəsi nəşriyyatı, 1933.

NURAY ƏLİYEVA
AMEA Naxçıvan Bölməsi
İncəsənət, Dil və Ədəbiyyat İnstitutu

AZƏRBAYCAN DİLİNİN ŞAHBUZ RAYON ŞİVƏLƏRİNDƏ CÜMLƏNİN BAŞ ÜZVLƏRİ

Dialekt və şivə anlayışı dilçilik baxımından ədəbi dildən fonetik, qrammatik və leksik xüsusiyyətləri ilə fərqlənən canlı xalq danışıq dilidir. Şahbuz rayon şivələri Azərbaycan dilinin dialekt və şivələrinin cənub qrupuna aiddir və həm fonetik, həm leksik, həm də qrammatik xüsusiyyətlərinə görə digər qrup dialektlərdən fərqlənir. Eyni zamanda aid olduğu cənub qrupu dialekt və şivələri ilə də oxşar cəhətlərlə yanaşı fərqli cəhətləri də var.

Azərbaycan dili dialekt və şivələrinin hər birinin, o cümlədən Şahbuz rayon şivələrinin də özünəməxsus sintaktik xüsusiyyətləri vardır. Bu şivədə cümlə üzvlərinin tədqiqi onların bir sıra maraqlı və xarakterik cəhətlərini meydana çıxarır. Bu fikir həm cümlənin baş üzvlərinə, həm də ikinci dərəcəli üzvlərinə aiddir. Cümlənin baş üzvləri məlum olduğu kimi, mübtəda və xəbərdir.

Ədəbi dildə mübtəda cümlənin əsas fikir özülünü təşkil edən, adlıq hal formasında substantiv söz və birləşmələrlə ifadə olunan, kim? nə? bəzən də hara? suallarından birinə cavab verən baş üzvdür (3; səh. 102).

Ədəbi dildə olduğu kimi dialekt və şivələrimizdə, o cümlədən Şahbuz şivələrində də mübtəda cümlənin əsas, aparıcı üzvü hesab olunur. Burada mübtədalar ən çox isim, əvəzlik və substantivləşmiş digər nitq hissələri ilə ifadə olunur.

Şahbuz şivələrində mübtədanın isimlə ifadə olunmasına daha çox rast gəlirik. Burada həm sadə, həm düzəltmə, həm də mürəkkəb ismlər mübtəda vəzifəsində işlənir. Bu mübtədalar istər ümumi, istər xüsusi, istər tək, istər cəm, istər konkret, istərsə də mücərrəd ola bilər.

- Abdulla dübara qayıdıp maşının təkərrərini saldı (Şah.); - Bağban ağacı elə yerdə əxməliydi kin, ona gün vırsın, məylim bıra da gün düşmürmüş (Kül.); - Bınnar belə diyən kimi oğlannar dik ayağa durdular (Şah.).

Bununla yanaşı Şahbuz rayon şivələrində şəxs əvəzlikləri ilə və substantivləşmiş digər nitq hissələri ilə ifadə olunan mübtədalı cümlələr də var. Lakin mübtədanın isimlə və əvəzliklə ifadə olunması isimləşmiş nitq hissələri ilə ifadə olunmasına nisbətən daha geniş yayılmışdır. Toplanmış materiallara nəzər salaq.

- Bınnar hammısı bildir qışda soyuxdan olup (Şah.); - O, qorxusunnan pütün gecə gözünü yummadı, boylum səhər durannan sora əhvalatı cəməhətə danışdı (Q.Qış.); - Sən onu hara göndərsən, o, başı üsdə gedəcək (Q.Qış.); - Cəpiyə gedənnər hammısı onda qəyidip gəldilər (Şah.).

Bütün bu deyilənlərlə yanaşı onu da qeyd etmək lazımdır ki, Şahbuz şivələrində mübtədalı cümlələrə nisbətən mübtədası iştirak etməyən cümlələri daha çox müşahidə edirik. Belə ki, burada sadə cümlələrdə mübtədanın, əsasən iştirak etməməsi diqqəti cəlb edir. Belə cümlələrdə xəbərdəki şəxs sonluğu mübtədanın hansı şəxsdən ibarət olduğunu asanlıqla bildirir. Deməli, buradan aydın olur ki, bu cümlələrin mübtədası hər hansı bir şəxs əvəzliyindən ibarətdir. Məhz buna görə də onun cümlədə iştirak etməməsi burada məzmunca heç bir pozğunluq əmələ gətirmir. Belə

cümlələr mübtədası meydanda olan cümlələrə nisbətən daha çoxdur.

-Dünən üş tay un alıp göndərmişəm, əmə, ancax hələ gedip çatmıyıp (Q.Qış.);

- Sər tezdən işıxlaşanda evdən gedirəm, axşam da pütün cəməhət qəyidənnən sora qəyidirəm (Kül.); - Obaşdan durup hammını işə yola salmışdıx (Şah.).

Mübtədası meydanda olmayan cümlələrə vasitəsiz nitqdə də tez-tez rast gəlmək olur. Ümumiyyətlə, Şahbuz şivələrində də Azərbaycan dilinin bir çox dialekt və şivələrində olduğu kimi, vasitəsiz nitqin geniş şəkildə işləndiyini müşahidə etmək olur. Yəni burada vasitəsiz nitq vasitəli nitqə nisbətən daha çox inkişaf etmişdir. Şahbuz şivələrində ədəbi dildə olduğu kimi vasitəsiz nitq iki hissədən - müəllifin sözlərindən və vasitəsiz nitqdən ibarətdir. Burada müəllifin sözləri, yəni danışana aid olan hissədə cümlənin ikinci dərəcəli üzvləri az hallarda işlənir. Bu hissə, əsasən mübtədadan və xəbərdən ibarət olur. Lakin müəllifin sözlərinin yalnız xəbərdən ibarət olduğu cümlələr də geniş yayılmışdır. Belə ki, bu cümlələrin də mübtədası xəbərdəki şəxs sonluğu ilə müəyyənləşir.

- Oğlan dedi: «Nolar vaxt gələr mən də bının əvəzini çıxaram» (Şah.).

- Dedim: «Bıraların hammısı elə bil sənin öz əvindi, nə qədər isdiyirsən qal, irahat gəzginən» (Biç.).

Xəbər cümlənin baş üzvü olub, fikir predmetinin hərəkət və ya əlamətini bildirir. Xəbərin sualları nitq hissələri ilə ifadəsindən və ifadə olunduğu sözün konkret semantikasından asılı olub, mahiyyət etibarilə predmet haqqında nə danışılır? sualından ibarətdir (3; səh.109). Ədəbi dilimizdə və digər dialekt və şivələrimizdə olduğu kimi, Şahbuz şivələrində də xəbər, əsasən fellərlə ifadə olunur, yəni feli xəbər olur. Lakin burada fel olmayan digər nitq hissələri ilə ifadə olunan ismi xəbərlərə də rast gəlirik.

- Onun kətdə bir evi var kin, başıvı qaldırıp baxanda adamın papağı başınnan tüşür (Şah.); - Mənim atam mən üç

aylığ olanda maharbiyə gedip, qayıtmıyıp. Mən ağlım kəsənnən yetimçiliyinən yekəlmişəm (Şah.); - Manaf kişi ağıllı adamdı. Kəndimizin ağsaqqalıdı (Kül.).

Azərbaycan dilində ismi xəbərlər fel olmayan digər nitq hissələrinə xəbər şəkilçisi, yəni -dır, -dir, -dur, -dür şəkilçisi artırmaqla əmələ gəlir. Lakin misallardan da göründüyü kimi, Şahbuz şivələrində xəbər şəkilçisinin sonundakı r sonoru düşür və bu şəkilçi -dı, -di, -du, -dü şəklində tələffüz olunur. Ümumiyyətlə, Naxçıvan qrupu dialekt və şivələrində, adətən, xəbər şəkilçisinin son samiti düşür.

Azərbaycan dilində həmcins üzvlü cümlələrdə, əsasən, xəbər təkrar olunmur. Bir qayda olaraq ikinci həmcins üzvdən əvvəl gəlir və çox vaxt cümlədə da, də bağlayıcıları işlənir. Naxçıvan qrupu dialekt və şivələrində bu xüsusiyyət çox halda pozulur, eyni xəbər həm ikinci həmcins üzvdən əvvəl, həm də cümlənin sonunda işlənir. Bəzən cümlədə sözlərin yerdəyişməsi ilə əlaqədar olaraq, xəbər sonuncu yerdən əvvəl də gələ bilir (1; səh.172). Eyni hal Şahbuz şivələrində də müşahidə olunur. Yəni xəbər cümlədə iki dəfə, həm ikinci həmcins üzvdən əvvəl, həm də cümlənin axırında işlənir.

- Mən pütün nöxsannarı sən də olsan diyərəm, ayrısı da olsa diyərəm (Kül.);
- Kişinin dedixləri patşahın da ağlına batdı, vəzirin də ağlına batdı (Şah.).

Şahbuz şivələrində xəbərin belə bir xüsusiyyəti də diqqəti cəlb edir. Belə ki, görülən işin qətiliyini, dəqiqliyini təsdiq etmək üçün bəzən cümlədə xəbər iki dəfə təkrar olunur.

- Mən bi dəfə söz verdimsə, gələciyəm, gələciyəm (Q.Qış.); - Onun sözünün qabağında söz demək olmaz. Əyər deyirsə bu belə olacax, olacax (Kül.).

Şahbuz şivələrində ədəbi dildə olduğu kimi, əsasən, mübtəda cümlənin əvvəlində, xəbər isə ikinci dərəcəli üzvlərdən sonra - cümlənin sonunda olur. Ədəbi dildə

cümlədə sözlərin bu sırası, demək olar ki, pozulmur. Cox az hallarda söz sırasının pozulmasına rast gəlirik ki, bu da daha çox bədii əsərlərdə özünü göstərir. Şahbuz şivələrində də söz sırasının pozulmasına rast gəlirik. Belə ki, xəbər mübtədadan qabağa, cümlənin əvvəlinə keçir.

- Biliriəm mən bınnarın fırıldaxlarını (Biç.); - Başdıyırıx yaz gələn kimi torpağı əkinə hazırramağa (Şah.).

Qeyd edək ki, Şahbuz şivəsində cümlədə söz sırasının pozulması o qədər də geniş yayılmarnışdır. Lakin xəbər mübtədadan əvvəl gələ bildiyi kimi, cümlənin ortasında, tamamlıqdan, zərflikdən də əvvəl işlənə bilir.

Cümlədə söz sırasının bu cür pozulmasının əsas səbəblərindən biri məntiqi vurğudur (1, səh.184). Belə hallarda cümlədə söz sırasının pozulmasına baxmayaraq, vurğu fikrin düzgün başa düşülməsinə imkan yaradır. Yəni burada yerdəyişmə nəticəsində xəbərin mübtəda, mübtədanın isə xəbər yerində olması onların sintaktik vəzifəsinə təsir etmir. Onların hər biri öz vəzifəsində qalır. Mübtəda yenə də cümlənin fikir predmentini bildirir, şəxs bildirməklə yanaşı bütün digər canlı və cansız varlıqları, mücərrəd anlayışları da ifadə edir (3, səh.102). Xəbər isə bunlar haqqında yeni məlumat verir, onların hərəkət və ya əlamətini bildirir.

Bütün deyilənlərdən də aydın olur ki, Şahbuz rayon şivələrinin özünəməxsus sintaktik xüsusiyyətləri var. Bu xüsusiyyətlərin öyrənilməsi Azərbaycan ədəbi dilinin inkişafına da öz müsbət təsirini göstərir və olduqca əhəmiyyətlidir. Cünki ədəbi dilimizin inkişafında mühüm mənbələrdən biri də dialekt və şivələrimizdir. Onlar keçmişin izlərini özündə qoruyub saxlamaqla dilimizin tarixi inkişafını da aydınlaşdırmağa kömək edir.

Ə d ə b i y y a t:

1. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı, 1962.
2. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 1964.
3. Kazımov Q. Müasir Azərbaycan dili. Bakı, 2000.

4. Əhmədov M. Naxçıvan şivələrinin lüğəti. Bakı, 2001.
5. Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri. Bakı, 2003.
6. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1962.

ŞİRMƏMMƏD QULİYEV
Naxçıvan Özəl Universitieti

DİLÇİLİKDƏ SAHƏ NƏZƏRİYYƏSİNƏ DAİR

Müasir dilçilikdə funksional-semantik tədqiqatların aktuallaşması ilə əlaqədar olaraq sahə nəzəriyyəsinin tətbiqi imkanları xeyli genişlənmişdir. Bu fakt onunla bağlıdır ki, bu perspektivli dilçilik nəzəriyyəsi ənənəvi linqivistik metodlarla şərh olunması mümkün olmayan müxtəlif səviyyəli dil problemlərinin optimal şərhinə imkan verir.

Bu nəzəriyyənin səciyyəvi xüsusiyyətlərinə dair xeyli əsərlər yazılmışdır. Bu yazıda biz sahə nəzəriyyəsi haqqında müxtəlif fikirlər üzərində dayanmadan onun mahiyyətinə dair qısa xülasə ilə kifayətlənəcəyik.

Bu nəzəriyyənin təkamül prosesinin birinci mərhələsində sahə anlayışı insan təcrübəsinin müəyyən sahəsini əhatə edən mənalı vahidlərin məcmusu kimi nəzərdən keçirilmiş və bu metod bir dil səviyyəsi çərçivəsində tətbiq olunmuşdur. İkinci mərəhələdə isə bu metod əsasən səviyyələr arası dil vahidlərinn semantik funksiyasının eyniliyi əsasında birləşmiş müxtəlif səviyyəli ifadə vasitələrinin tədqiqi zamanı tətbiq olunmuşdur (1, s.5).

Qeyd olunmalıdır ki, funksional – semantik kateqoriyalar anlayışı əsası O.Yespersen və İ.İ.Meşşaninov tərəfindən qoyulmuş məfhumi kateqoriyalar anlayışı ilə bağlıdır. O.Yespersenə görə, sintaktik kateqoriyalar hər bir dil üçün səciyyəvi olmaqla müxtəlif dillərdə müxtəlif ola bilər. Lakin məfhumlar linqvistik amillərdən asılı olmayaraq universal kateqoriyalardır, çünki onlar bütün dillərə tətbiq oluna bilir.

O.Yespersen bu kateqoriyaları məfhumi kateqoriyalar adlandırmışdır (2, s.58). Bununla belə, o, məfhumi kateqoriyaları qeyri-dil kateqoriyaları hesab etməsinə baxmayaraq, onun şərhi məhz qrammatik və digər səviyyəli dil vahidləri üzərində qurulmuşdur (3, s.5-6).

İ.İ. Meşsaninov məfhumi kateqoriyaları qeyri-dil kateqoriyaları hesab etməmiş və onların şərhi zamanı dil materialına istinad etməyin zəruriliyini göstərmişdir (4, s. 239-240).

Sonralar bu nəzəriyyəni inkişaf etdirmiş Y.V.Qulıqa və Y.L.Sendelsin əsərlərində (5,s.25) əsasən məfhumi kateqoriyalar nəzəriyyəsi şərh olunmuş, A.V.Bondarko isə, başlıca olaraq, funksional –semantik sahələr nəzəriyyəsini inkişaf etdirmişdir (6, s.73; 7, s.50).

Bu nisbətən yeni dilçilik nəzəriyyəsini tətbiq edərkən tədqiqatçılar onun bütün müsbət məziyyət və anlayışlarından faydalanırlar. Lakin araşdırmaların mövzu, məqsəd və mahiyyətindən asılı olaraq bu və ya digər sahə konsepsiyası tətbiq olunmaq üçün daha münasib olur. Araşdırmalar zamanı biz əsasən funksional –semantik sahə nəzəriyyəsinin prinsiplərindən istifadə edirik.

Bu nəzəriyyəyə görə, linqivistik sahə semantik funksiyaların ümumiliyi əsasında birləşən müxtəlif səviyyəli ifadə vasitələrinin məcmusudur. Başqa sözlə, dilin müxtəlif səviyyəli elementləri- morfoloji, sintaktik, söz yaradıcılığı və leksik vasitələr funksional - semantik ümumilik əsasında birləşərək müəyyən linqvistik sahəni əmələ gətirir.

Bu anlayışın səciyyəvi xüsusiyyətlərindən biri onun məzmun və ifadə planlarına malik olmasıdır. Hər hansı bir sahənin bütün müxtəlif səviyyəli ifadə vasitələrinin məcmusu həmin sahənin ifadə planını təşkid edir. Dilin müxtəlif səviyyələrini təmsil edən eksplisit və implisit linqivistik vasitələrin ifadə etdiyi invariant məna həmin sahənin məzmun planını təşkil edir.

Dilçilik sahələrinin ifadə planından bəhs edərkən mərkəzi və periferik ifadə vasitələri anlayışlarından istifadə

olunur. Belə ki, hər hansı linqivistik sahənin müəyyən bir mərkəzi (dominant) ifadə vasitəsi olur. Həmin dominant vasitə aşağıdakı xüsusiyyətələrlə səciyyələnir:

a) İnvariant mənanın ifadəsi üçün daha mükəmməl şəkildə formalaşmış olur;

b) Həmin mənanı ən yüksək dərəcədə və birmənalı şəkildə ifadə edir;

c) Sistematik olaraq işlənir.

Digər vasitələr dominant ətrafında sıx birləşərək həmin sahənin nüvəsini təşkil edir.

Nəhayət, qeyd edək ki, bu nəzəriyyə hər hansı konkret dilin müxtəlif səviyyəli dil vahidlərinin tədqiqində tətbiq olunmaqla bərabər, müqayisəli-tipoloji araşdırmalarda da mühüm əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

1. Г.С.Щур. Теория поля в лингвистике. Москва, «Наука», 1974. 255 с.
2. О.Есперсен. Философия грамматики. Перевод с английского языка. Москва, 1958, 404 с.
3. А.В.Бондарко. Грамматическая категория и контекст. Ленинград,1971, 205 с.
4. И.И. Мещанинов. Члены предложения и части речи. Ленинград, «Наука», 1964,108 с.
5. Е.В.Гульга., Е.И.Шендельс. Грамматико-лексические поля в современном немецком языке. Москва, «Провещение», 1969,184 с.
6. А.В.Бондарко. Теория морфологических категорий. Ленинград, «Наука», 1976, 255 с.
7. А.В.Бондарко. Функциональная грамматика. Ленинград. «Наука», 1984, 136 с.

SƏDAQƏT HƏSƏNOVA
Naxçıvan Müəllimlər İnstitutu

SÖZ-CÜMLƏ (CAVAB CÜMLƏSİ) VƏ PREDİKATİVLİK

Canlı danışıq dilinin özünəməxsus özəllikləri var. Lakin danışıq dili dedikdə, yalnız məişət dili başa düşülmür, söhbət xalqın dilindən gedir. Əslində, danışıq dilinin çox ciddi normaları var. Bu dil üçün emosional sözlər, ekspressiv ifadələr, modal çalarlığına malik olan dil vahidləri xarakterikdir. Təsadüfi deyil ki, söz-cümlə, yarımçıq cümlə, sual cümləsi, xitablar, vokativ sözlər və s. danışıq nitqində fikrin ifadəsi üçün böyük rol oynayır. Bunların dildə xüsusi üslubi məqamları var.

Azərbaycan dilçiliyində cümlələrin bir növü də söz-cümlədir. Dilçilik ədəbiyyatlarında söz-cümlə haqqında müxtəlif fikirlər mövcuddur. Bu cümlə gah «təktərkibli cümlə», gah da «üzvlənməyən cümlə» hesab edilmişdir. 1962-ci ildə «Azərtədrisnəşr» tərəfindən çap edilmiş «Müasir Azərbaycan dili» (Sintaksis) adlı dərs vəsaitində söz –cümlə təktərkibli cümlələrin qeyri-müəyyən şəxsli, ümumi şəxsli, şəxssiz, adlıq növlərindən sonra beşinci növü hesab edilir: «Müasir dilimizdə olan təktərkibli cümlələrin beşinci növü söz-cümlədir»(1, s.166). Professor Y.Seyidov söz-cümləni üzvlənməyən sadə cümlə və ya «cümlə əvəzləri» adlandırır» (2, s.257). 1981-ci ildə çap edilən «Müasir Azərbaycan dili» kitabında da söz-cümlə təktərkibli cümlələrin bir növü kimi təqdim edilir: «Söz-cümlə təküzvlü olduğu üçün təktərkibli cümlənin bir növüdür» (3, s.28). Bu fikrin tərəfdarı prof.Z.Budaqova söz-cümlələrdə fikrin daha konkret ifadə olunduğunu göstərir. Prof.Q.Kazımov söz-cümlə haqqında yazır: «Onları baş və ikinci dərəcəli üzvlərə ayırmaq mümkün olmadığı kimi, cüttərkibli və ya təktərkibli cümlələrə daxil etmək də qeyri-mümkündür» (4, s.203). Rus dilçiliyində də

söz-cümlə təktərkibli cümlələrə aid edilməyib cümlənin xüsusi bir növü hesab olunur.

«Söz-cümlə» dilçilik elmində maraqlı mövzulardandır. Bu məsələ ilə bağlı tədqiqatların tarixi XX yüzilliyin ikinci yarısından başlanır. Azərbaycan dilçiliyində «söz-cümlə» ilə bağlı müəyyən fikirlər olsa da, bu haqda mülahizələr davam edir və tamamlanmayıb. Belə ki, müxtəlif tədqiqat əsərlərində «söz-cümlə» araşdırmalara cəlb olunsa da, onun əsl mahiyyətini izah edən fikirlər yox dərəcəsindədir. Bu, ondan irəli gəlir ki, tədqiqatçılar onun məzmunundan çox , formal əlamətinə diqqət etmişlər və söz-cümlənin sözdən ibarət olduğu daha çox vurğulanmışdır. Hətta söz-cümlə haqqında həqiqətə uymayan fikirlər də var. Məsələn, dilçilik elmində onların yalnız cümlələrə aid olması və ya belə cümlələrin sual, yaxud nida intonasiyası ilə deyilməsi fikirləri bir qədər yerinə düşmür. Ona görə ki, söz-cümlələr təkcə sadə deyil, mürəkkəb cümlənin də əvəzi kimi çıxış edir. Məsələn:

- Anan indi deyir, görən, qızım haradadır...
- Yəqin ki, ...(5, s.56).

Belə cümlələrin intonasiyasına gəldikdə isə demək lazımdır ki, onlar müxtəlif intonasiyalara malikdir. Bu, onların aid olduğu cümlələrin xarakterindən asılıdır.

Söz-cümləni təktərkibli hesab edənlər onun bir sözdən ibarət olmasını da əsas götürür və belə cümlələrin adını da bununla əlaqələndirirlər. Lakin dilimizdə söz cümlənin funksiyasından fərqli funksiyalı cümlələr də var və onlar da yalnız bir sözdən ibarətdir. Yə'ni, bir sözdən ibarət olduğu üçün onların «söz-cümlə» adlandırılmasına ciddi bir əsas yoxdur. Cümlənin cümlə olması üçün əsas əlamətlər – intonasiya, predikativlik, modallıq içərisində neçə sözdən ibarət olması haqda, heç bir fikir yoxdur və buna ehtiyac da duyulmur. Cümlədə əsas cəhət onun tərtibatı deyil, məqsədi, məzmunu, intonasiyası və s.-dir. Əslində, bütün bunlar nəzərə alınarsa, söz-cümlənin məqsəd və intonasiyaya görə cümlə növləri sırasına daxil edilməsi və «cavab-cümlə» və ya «cavab cümləsi» adlandırılması daha məqsədəuyğundur. Nə

üçün «sual cümləsi» olsun, lakin «cavab-cümləsi» olmasın? Axı belə cümlələrin, demək olar ki, hamısı cavab xarakteri daşıyır. Məsələn:

- İşiniz var idi?
- Bəli.(5, s.63).

«Söz-cümlə» təktərkibli cümlə deyil, o, yalnız forma baxımından belə cümlələrə oxşayır. Təktərkibli cümləni tərkib hissələrə ayırmaq mümkündür, söz-cümlə isə, cümlə üzvlərinə ayrılmır. Təktərkibli cümlədə baş üzvlərdən yalnız biri iştirak edir, ikinci dərəcəli üzvlərin sayı üçün məhdudiyyət yoxdur. Cümlə sözdən və ya söz birləşməsindən, cavab cümlə isə, əsasən, cəmi bir sözdən ibarət olur və bu söz həm baş, həm də ikinci dərəcəli üzvləri özündə birləşdirir, bu birlik onun daxilindədir. Təktərkibli cümlələrdə cümlə üzvləri arasında sintaktik əlaqələr, zaman və şəxs kateqoriyasının əlamətləri göz önündə olduğu halda, söz-cümlədə bunlar zahiri baxımdan bəlli deyil, onların daxili məzmununda birləşir. Yə'ni bu əlamətlər söz-cümlədə qrammatik deyil, sintaktik baxımdan mövcuddur. Doğrudur, dilimizdə elə cümlələr var ki, onlar da söz-cümlə kimi şəxs sonluğu və zaman şəkilçisi qəbul etmir. Məsələn:

Dağda darılar,
Sünbül sarılar,
Qoca qarılar,
Bu balama qurban.

Lakin sözsüz ki, belə cümlələr söz-cümlə deyil, müəyyən hissəsini itirmiş sintaktik vahiddir.

Söz-cümlənin təktərkibli cümlə növü hesab olunması onun adlıq cümlə ilə müqayisə edilməsi bir-birinə bənzədilməsindən irəli gəlir. Lakin bunlar tamamilə fərqli sintaktik vahidlərdir. Adlıq cümlə nominativ (ad bildirmə) xarakter daşıdığı halda, söz-cümlə bu əlamətdən məhrumdur, o münasibət bildirərək özündən əvvəlki cümləyə cavab verir. Adlıq cümlə isimlərdən təşkil olunduğu halda, söz-cümlə «bəli», «hə», «yox», «xeyr», «əlbəttə», «şübhəsiz», «sözsüz», «bəlkə», «təbii», «əsla», «heç vaxt», «qətiyyən», «çox gözəl»,

«çox ə'la» və s. kimi sözlərdən və ya bə'zi modal sözlərdən ibarət olur:

- Uşaqlara nə olacaq. Kortdan yeməyəcək ki.
- Nə ... doğrudan da (5, s.193).

Ola bilər ki, cümlənin digər növləri özündən əvvəlki cümlələrlə əlaqəli olmasın, lakin söz-cümlə özündən əvvəlki cümlə ilə ayrılmaz şəkildə bağlıdır. «...Oğuz qrupu türk dillərinin hamısında söz-cümlələr özündən əvvəlki vahidin ümumi məzmununa aid anlayış ifadə edir» (6, s.75).

Madam ki, belədir, özündən əvvəlki cümlənin cavabını tə'min edən bu cümlələrin «cavab cümləsi» adlandırılmağa haqqı var. Əgər belə cümlələri aid olduğu mətndən uzaqlaşdırsaq, onlar heç bir mə'na ifadə etməyəcək.

Söz-cümləni adlıq cümləyə bənzədənlər belə cümlələrdə baş üzvlərin müəyyənləşdirilə bilməməsini əsas götürürlər. «Mübtəda və ya xəbərinin müəyyənləşdirilə bilməməsi cəhətdən bu tip söyləmlər adlıq cümlələrə bənzəyir» (4). Ona qalsa, belə cümlələrin ikinci dərəcəli üzvlərini də müəyyənləşdirmək olmur. Bu cəhətinə görə, o, üzvlənməyən cümlə hesab edilir.

Üzvlənməyən cümlələr mübtəda və xəbər tərkibinə malik olmayan, üzvlərinə ayrılmayan, özündən əvvəlki cümlənin təsdiq, inkar, habelə modal –cavab vasitələri kimi çıxış edən vahidlərdən ibarətdir» (6).

Beləliklə, təsdiq, inkar, emosionallıq (təəccüb, təəssüf, sevinc, qəzəb və s.) və sual məqamlarının hamısında «söz-cümlə» - cavab məqsədi ilə işlənir. Deməli, məqsədinə görə belə cümlələr cavab cümləsidir. Belə cümlələr nitqdə böyük əhəmiyyətə malikdir. Cavab-cümlələr nitqin ağırlaşmasının qarşısını alaraq, dinləyicilərin diqqətini cəlb edərək, emosionallıq yaradaraq nitqə gözəllik gətirir.

Dilin kommunikativ funksiyası cümlələr vasitəsi ilə reallaşır və cavab cümlələri də belə bir funksiyanı yerinə yetirir. Onlar predikativlik xüsusiyyətinə malikdir. «Təktərkibli cümlələrdə də, hətta üvzlənməyən cümlələrdə də predikativlik və predikativ münasibət olur, lakin onlar belə

cümlələrdə cüttərkibli cümlələrdəki qədər aydın təzahür etmir» (4, s.78). Predikativlik xəbərlik məzmununa malik olmaq deməkdir və cavab-cümlələrdə o, cümləni təşkil edən dil vahidinin semantikasında ifadə olunur. «Predikativlik elə bir kateqoriyadır ki, o, cümləni qeyri-kommunikativ vahidlərdən (sözlərdən, söz birləşmələrindən) fərqləndirir» (4, s.79). Predikativlik nitq prosesində yaranır. Cavab cümləsi predikativlik nəticəsində cümlə olur.

Hər hansı bir fikri təsdiq və ya inkar etmək predikativlik deməkdir. Cavab cümləsində predikativlik məntiqi kateqoriya kimi özünü göstərir. Predikativlik cümlənin əsasıdır, bu əsas cavab cümləsində bir sözdə təzahür edir. «... Xəbərlik... cümlənin məzmununun gerçəkliyə münasibətidir. Düzdür, müəyyən cümlələrdə xəbər bu münasibətin əmələ gəlməsində mühüm bir amil kimi çıxış edir, ancaq bir qrup cümlələrdə (məsələn, adlıq cümlə, söz-cümlədə) xəbər olmadığı halda xəbərlik vardır. Belə cümlələrdə müəyyən sözlər mətn və intonasiya vasitəsilə xəbərlik (predikativlik) münasibətini ifadə edə bilir»(3, s.15).

Çağdaş Azərbaycan dilində müstəqil xəbərlərdən başqa, predikativ sözlər də var. Məsələn, cavab cümləsini ifadə edən sözlər predikativdir, lakin onlar «var» predikativinə nisbətən nisbi predikativdir. Belə ki, onların predikativliyi özündən əvvəlki cümlə ilə az və ya çox dərəcədə bağlıdır.

Cavab cümləsində ədat və modal sözlər predikativ olaraq cümlənin əsasını təşkil edir. Dilimizdə bir neçə funksiyada işlənən sözlər çoxdur. Ədatlar və modal sözlər də hər hansı bir cümlədən ayrıldıqda, yəni tək işləndikdə bütöv bir cümləni əvəz edir və predikativ olur. Belə olduqda, onları artıq «ədat» adlandırmaq düzgün deyil, belə məqamlarda onlar cavab cümləsidir, predikativdir.

Dildə hər bir sözü predikativ adlandırmaq düzgün deyil. Predikativlik cümlənin mayası deməkdir. Xəbərlik şəkilçisi qəbul etmiş sözlər cümlədə «xəbər» adlanır. Lakin cümlədə elə sözlər olur ki, onlar şəxs və xəbər şəkilçiləri qəbul

edə bilmir, lakin xəbərlik məzmunu ifadə edir. Belə sözlər «predikativ» adlanır. Dildəki ədat və modal sözlərin hamısı deyil, yalnız özündən əvvəlki cümlənin davamı və cavabı olaraq çıxış edən sözlər predikativ olur. Bəzi əsərlərdə (məsələn, Ə.Z.Abdullayevin «Predikativlər haqqında» Azərbaycan dili məsələləri, Bakı, «Bakı Universiteti», 1992, s.185) «deyil» inkar sözü ədat hesab olunur. Lakin o, ədat yox, «dır[4]» şəkilçisinin inkarı olaraq işlənir. Məsələn:

Bu kitabdır. Bu kitab deyil.

Belə cümlələrdə «deyil» sözü «dır[4]» şəkilçisinin inkarı olduğundan tək işlənmir və özündən əvvəlki sözlə birlikdə xəbər olur.

Cavab cümlələrində xəbər və mübtədadan və ya digər cümlə üzvlərindən danışmağa dəyməz, çünki onlar maddi baxımdan var olmadıqları üçün buna ehtiyac yoxdur. Belə cümlələr semantik baxımdan cümlə və predikativdir. Belə cümlələr predikativ olaraq məntiqi baxımdan özündən əvvəlki cümlənin cavabı olur və beləliklə, onların «cavab cümləsi» adlandırılması daha düzgündür.

Ədəbiyyat:

1. Müasir Azərbaycan dili (Sintaksis), Bakı, Azərtədrisnəşr, 1962
2. Ə.Z.Abdullayev, Y.M.Seyidov, A.Q.Həsənov – Müasir Azərbaycan dili, Bakı, «Maarif», 1985
3. Müasir Azərbaycan dili, Bakı. «Elm», 1981
4. Q.Ş.Kazımov – Müasir Azərbaycan dili, Bakı, «Ünsiyyət», 2000
5. İ.Əfəndiyev- Seçilmiş əsərləri, Bakı, Azərnəşr, 1971
6. Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası. III hissə, Bakı, BSU, 2002

FƏRQANƏ KAZIMOVA
AMEA Naxçıvan Bölməsi
İncəsənət, Dil və Ədəbiyyat İnstitutu

AKADEMİK MƏMMƏD CƏFƏR CƏFƏROVUN BƏDİİ YARADICILIĞI

Akademik, əməkdar elm xadimi, dövlət mükafatı laureatı, görkəmli ədəbiyyatşünas, tənqidçi, gözəl insan Məmməd Cəfər Cəfərovun adı son 70 ilin ədəbi mühitinin inkişaf yolu, qayğı və problemləri ilə sıx bağlıdır. Onun çoxşaxəli ədəbi-elmi fəaliyyəti ədəbiyyatşünaslıq elmimizdə ayrıca bir məktəb təşkil edir.

Azərbaycan ədəbiyyatşünaslıq tarixinə öz möhürünü vuran Məmməd Cəfər Cəfərovun fəaliyyətində bədii yaradıcılığı da xüsusi mövqeyə malikdir. Həm də bu yaradıcılıq onun tənqidçilik fəaliyyəti ilə birgə inkişaf etmişdir.

M. C. Cəfərovda yüksək bədii zövq uşaq ikən formalaşmış və Naxçıvan mühiti ilə bağlı olmuşdur. Hələ uşaq olarkən "oddan çörək çıxaran" Məmməd Cəfərin ilk peşəsində çətinliklərlə yanaşı bir romantika yaranmışdır. Bu romantika ona xas olan fitri daxili lirizmlə birləşmiş və şeriyyətə çevrilmişdir. Bu şeriyyətin obyekti doğma elinin təbiəti, sadə insanları və bu insanların ağır, məşəqqətli həyatı olmuşdur. Məhz buna görə də bu şerlərdə romantikaya və lirikaya həyatilik, canlılıq xasdır.

Naxçıvanın ən yeni romantizmin, eləcə də ən müasir tənqidi realizmin beşiyi olması aksiomdur. Lakin ulu tanrı bu milli romantizmi bütov, təzadlı və faciəli dünya kimi elmdə ilk dəfə dərk etməyi və öyrənməyi bir vəzifə kimi məhz "Kündəgir" imzası ilə şerlər yazan, yaşadığı acı taleyini qələmə alan Məmməd Cəfər Cəfərovun qismətinə yazmışdı.

"Kündəgir"in şerləri fəlsəfi-müdrik üsluba və yönümə meylli idi. "On üç yaşlı gəlin" şerində körpə, tənha və zavallı bir qızın acı taleyi öz əksini tapmışdır.

Gəlin deyilkən o qız pərəstiş eylərdi
Nidalı qaşlarını, şairanə gözlərini
Görüncə aynada sərdən öz-öz gözəlliyinə,
Görən yaşardı xiyalilə aylar, illərcə,
On üç yaşında onun ərşə qalxdı nalələri,

Siyah bir axşamı andırdı taleyin səhəri
On üç yaşında əvət, o tərlan inləyərək,
Sərdi yerlərə göydən bir axşamın, gülərək
Bir ovçu qəhqəhələrlə "maral vuruldu" dedi
Fəqət nə ovçu olaydı, nə ahunun qəlbi . . . (1)

Bu lirik parçada fəryadı, iztirabı asimana yüksələn məhz şairin özüdür. O, içindəki kədəri, həyəcanı dünyaya hayqırır, fələyin acı gərdişinə üsyan edir.

"Qız və atlı" şeri də bu məzmundadır. Şairin faciəli qəhrəmanı tənhadır. O, özünə mənəvi sirdaş axtarır, xilaskar yolunu gözləyərək tənhalıqdan əzab çəkir. Bu şerdə təkliyə, həmdəmsizliyə, kimsəsizliyə üsyan öz bədii təsvirini tapmışdır:

Baharın ilk ayı, ən nadan çağı,
İlin dörd fəslinin ən cavan çağı
Qaranquşlar qonaq gəlmiş ellərə,
Kəklik, qumru səsi dolmuş çöllərə,
Yellərə naz satır yabanı güllər
Körpə sevincilə gülür çəmənlər
Lal axan xan Araz göz atıb gedir
Ana təbiətdə nə varsa gülür,
Günəş bu cəlala baxıb öyünür.

Bəs nədən qəmlidir bu çoban qızı
Bizim bu yerlərin səyyar ulduzu ?
Otlayan sürünü unutmuş kimi,
Qanadından yaralanmış quş kimi
Axar çayın sahilində uzanmış
Görəsən ürəkdə nə dərdi varmış ?

O taydan bu taya bir atlı keçir,
Atlanıb titrəyir qızın ürəyi
Nədən qızcığaza baxmayıb keçir ?
Atlı da fikirli, nə dərdi varsa,
harasa tələsir.

Qızın dodaqları titrəyir əsir.
O qalxıb yeriyir atlıya sarı :
- "Dayan, tənha yolçu, bir anlıq barı :
Sənincin söz qoşub, söz söyləmişəm,
Mən də insan üçün qəribsəmişəm . . . (1)

Bu şerlər Naxçıvanda qələmə alınmış lirik parçalardır. Lakin, ötən əsrin 20-ci illərinin sonlarında müəllifin Bakıya gəlişi onun həyatında dönüş nöqtəsi oldu. Seyid Hüseyn, Abdulla Şaiq, Əbdürrəhimbəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Əli Nazim, Vəli Xuluflu, Ataxan Musaxanlı kimi müəllimlərdən dərs alan Məmməd Cəfərin ədəbi-nəzəri, elmi hazırlığı daha da artdı, onun ümmansız ədəbi fikir dünyasına yolu başlandı.

Məmməd Cəfərin yaradıcılığında 1941-1946-cı illər xüsusilə fərqlənmişdir. Tənqidçi mənəvi-əxlaqi qüvvəsini, bütün yaradıcılıq potensialını faşizm əleyhinə mübarizəyə səfərbər etmiş, onun ədəbi tənqid qələmi müharibəyə qarşı süngüyə çevrilmişdi. Sonralar ədib, yazırdı : "Böyük Vətən müharibəsinin ilk günündən əməkdaşlıq etdiyim "Ədəbiyyat qəzeti"nə arası kəsilmədən faşizm taununu ifşa edən yazılar gəlirdi Ayrıca satira jurnalımız olmadığından, azğın işğalçılara qarşı xalqın nifrətini, qəzəbini əks etdirən bu yazılara qəzetdə geniş yer vermək vacib idi. Redaksiya heyəti üzvlərinin, o cümlədən Məmməd Səid Ordubadinin məsləhəti ilə qəzetdə "Satira süngüsü" guşəsi yaradıldı" (2)

Publisistika, nəsr və satiradan geniş istifadə edən Məmməd Cəfər Cəfərov ziyalı və vətəndaş kimi üzərinə düşən məsul vəzifəni bütün varlığı ilə dərk edirdi : " Bu gün ədəbiyyatımızın qarşısında çox böyük və şərəfli bir məsələ

durur. Bu da ədəbiyyatın, vətən müharibəsi cəbhəsində gurlayan azadlıq toplarının və bombalarının səsinə öz səsini qata bilməsidir." (3)

Ədəbi şöbə müdiri və redaktor kimi işlədiyi beş il müddətində o, bütünlükdə "Ədəbiyyat qəzeti"ni məhz bu məqsədə istiqamətləndirmək üçün ciddi yaradıcılıq və təşkilatçılıq işi görmüşdür.

Səməd Vurğun, Məmməd Arif, Mehdi Hüseyn, Heydər Hüseynov, Əkbər Ağayev, Hidayət Əfəndiyev və Orucəli Həsənov ilə birlikdə onun ehtiraslı, publisist və fəlsəfi ruhlu tənqidi yazıları Azərbaycanda qüvvətli bir "müharibə ədəbiyyatının" yaranmasında mühüm rol oynayır . (4)

Məmməd Cəfər hər şeydən əvvəl faşizmin ideya-nəzəri əsaslarını ifşa edən silsilə məqalələr yazmışdır. Məqalələrdə o, milli folklorun fəlsəfi pafosunu, klassik irsin humanizm, vətənpərvərlik və qəhrəmanlıq potensialını da bu istiqamətə yönəltmişdir. "Atıcı İlyas", "Səlib yürüşü baş tutmadı", "Vətən qəhrəmanı" kimi publisist yazılarında o, müasir Azərbaycanlı döyüşçünün mənəvi simasını, onun vətəndaşlıq qeyrətini və qəhrəmanlığını, ataların ənənəsini ləyaqətlə daşıdığını tərənnüm etmiş, faşizmi kəskin şəkildə ifşa etmişdir. "Madrid", "İntizar", "Fərhad və Şirin", "İnsan" kimi bilavasitə faşizm, müharibə əleyhinə yazılmış müasir və tarixi mövzuların təhlilində də "müharibə ədəbiyyatını" istiqamətləndirə bilmişdir.

Görkəmli tənqidçi müharibədən sonrakı illərdə də satira ənənəsinə sadiq qalmışdır. Azərbaycanda xüsusi satira jurnalı olmadığı üçün və bu jurnalın yaradılmasına hazırlıq mərhələsi kimi "Satira süngüsü" guşəsini "Molla Nəsrəddin guşəsi" adı ilə davamı etdirmiş və burada məişətdə, şüurlarda aparılan böyük işlərə əngəl olan qalıqları, o cümlədən mənasız "yenilikləri" tənqid edən əsərlərə geniş yer vermişdir. Digər tərəfdən isə onun nəsr yaradıcılığı da məhz satirik üslub və ənənə ilə bağlı olmuşdur. "Molla Nəsrəddin" ənənəsinə, dəsti-xəttinə sadiq qalan Məmməd Cəfər guşədə "M.Zeynaloğlu", "M.Nəsrəddin", "M.Nəsrəddinov", "M.N.",

"Zorən Təbib", "Zurnaçı", "Lağlağı", "Dəmdəməki" imzaları ilə satirik hekayələr yazmışdır.

Romantik şerlərindən sonra Məmməd Cəfər öz həqiqi bədii ənənəsini satirik hekayədə tapmışdır. Cəmiyyətin müflisliyi, milli simasızlıq, cılız əqidəsizlik, rüşvətxorlar və digərləri bu hekayələrin tənqid obyekti olmuşdur.

1946-cı ildə "Zurnaçı" imzası ilə yazdığı "Ədəbi istilahlar lüğətindən bir neçə nümunə göstərmək yerinə düşər:

"Təzad – sənətkarın yaradıcılığı haqqında özünə bir söz deyib, daldada ayrı söz danışmaq.

Pauza – sözün əsli uzadıram deməkdir. Yəni, bir sətirdə ifadə oluna bilən mətləbi darta – darta bir çap listi həcmində uzatmaq.

Stil – farsca kağız torba deməkdir. Ədəbiyyatda söz yığını mənasında işlənir və s." (5)

Məmməd Cəfərin hekayələrinin çoxu xalqın yaxşı və pis ənənələri məsələsinə həsr olunmuşdur. O milli sənətkar idi və buna görə də milli yaddaşımızı, soy kökümüzü qorumağa, milli eposumuzu nəsillərdən – nəsillərə ötürməyə çalışmışdır.

1981-ci ildə onun müxtəlit illərdə qələmə aldığı hekayələrdən ibarət "Əntiqə adamlar" (2) kitabı çapdan çıxmışdır. Kitaba yazdığı ön sözdə Məmməd Cəfər xahiş edir : "Hörmətli oxucu nəzərə alsın ki, bu yazı ların müəllifə özünü "bədii söz ustası" hesab etmir. O, yalnız belə bir həqiqətə əsaslanır ki, fikrin, düşüncənin müxtəlif janrlarda ifadəsi mədəniyyətin söz sənəti üçün yaratdığı gözəl imkanlardan biridir və fikir sahibi olan adamın müəyyən məqsədə görə bu janırlardan hər hansı birinə müraciət etməsi də təzə bir hadisə deyildir." (2)

Kitab 3 bölmədən ibarətdir. "Hekayələr" bölməsində ədibin 18 hekayəsi : "Qayanın dibində", "Çox gözəl, çox yaxşı", "Sehrli palto", "Şalvar", "Qurban və Mansurov", "Qeybalının dostlarına məktubu", "Bir yüngülcə səhv", "Hörmət və artıqlaması ilə", "Fəna", "Nigarançılıq", "Zənbillər", "Metronun əxlaqı", "Dana əti", "Yuxu

bişirənlərin yol söhbəti yaxud Tağı və Nağı" hekayələri və "Atıcı İlyas" sənədli hekayəsi verilmişdir. Bu hekayələrdə şüurlarda, məişətdə, əxlaq və adət-ənənələrdə cəmiyyət işlərinə laqeyidlik, əqidəsizlik, ətalət, mədəniyyətsizlik kimi mənfiliklər tənqid olunmuş, köhnəliklə yeniliyin mübarizəsi, yeniliyin, ağlın və müasirliyin qələbəsi işıqlandırılmışdır.

Kitabın "Molla Nəsrəddin guşəsi"ndə Molla Nəsrəddinin dili ilə cəmiyyətdə olan xüsusən ziyalı, elmi mühitdə olan nöqsanlar tənqidə cəlb olunursa, "Bəhlul və Nəsrəddinin söhbəti" bölməsi Bəhlul Danəndə ilə Molla Nəsrəddinin dialoqları şəkilində verilmiş hekayələrdən ibarətdir. Bu 2 məşhur insanın söhbətlərində məhz ziyalılar arasında baş verən mənasız və məntiqsiz çəkişmələr, elmi-tədqiqat institutlarında baş alıb gedən bürokratçılığın, ağır əməkdən qaçıb ədəbiyyat və sənətdə özünə yer axtaranlar satira atəşinə tutulur. Məmməd Cəfərin bütün hekayələrinə yığcamlıq konkretlik xasdır. Bu hekayələrin əsas leytmotivlərindən biri də Azərbaycan dilinin saflığı, təmizliyi məsələsidir. Məsələn "Dilindən iş gələn" adlı hekayədə müəllif

"- Bədii əsər , məsələn, şer, poema, roman, povest, hekayə və i. a. yazmaq üçün nəyi bilmək, nəyə fikir vermək lazımdır ?"- sualına ironiya ilə belə cavab verir:

"- Çox şeyi bilmək lazımdır, dildən başqa!

- Çox şeyə fikir vermək lazımdır, dildən başqa.

- Çox şeyi öyrənmək lazımdır, dildən başqa."

Bu sözlər öz dilinə xor baxanlara, ədəbi dilimizin qayda – qanunlarını gözləməyənlərə öldürücü bir cavabdır.

Ümumiyyətlə Məmməd Cəfərin satiraları xalqda vətənpərvərlik hisslərinin gücləndirilməsi, öz müstəqilliyinə, öz qüvvəsinə yüksək inam, mübarizə əzmi tərbiyə etməyə xidmət edir.

Ən başlıcası isə sadalanan bütün mənfiliklərə nifrət ruhu, müasirlik Məmməd Cəfərin bədii yaradıcılığının əsas qayəsini təşkil edir.

Ə d ə b i y y a t:

1. Qarayev Y. Ədəbi üfüqlər. Bakı, Gənclik, 1985,s.166-286
2. Cəfərov M.C. Əntiqə adamlar. Bakı, Gənclik, 1981,197s.
3. Cəfərov M.C. Azərbaycanın böyük satirik xadimi // Vətən uğrunda, 1942, №1, s.42-45
4. Nəbiyev B. Elmimizin ağsaqqalı // Bakı qəzeti, 1989-20 iyun
5. Cəfərov M.C. Ədəbi istilahlar lüğəti //Ədəbiyyat qəzeti, 1946 – 4 aprel.

AYNUR CƏLİLOVA
AMEA Naxçıvan Bölməsi İncəsənət,
Dil və Ədəbiyyat İnstitutu

NAXÇIVAN REGİONU ƏFSANƏ VƏ RƏVAYƏTLƏRİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

Şifahi xalq ədəbiyyatının ən qədim janrlarından biri əfsanələrdir. Xalq rəğbət göstərdiyi təbiət qüvvələri, hadisələri, təbiətdə mövcud olan canlı, cansız mühit haqqında əfsanələr yaratmaqla öz bədii təfəkkürünün məhsulunu ortaya qoymuşdur. Bu əfsanələr xalqın özü qədər qədimdir. «Əfsanə» sözü ərəbcə «qeyri- real», «həqiqi olmayan», «fantastik» deməkdir. Doğrudan da, əfsanələr xalq fantaziyasının məhsuludur. Bütün xalqlarda bu belədir. Xalq təbiətə və təbiətdə var olan hər bir şeyə,o cümlədən, el arasından çıxmış qəhrəmanlarına olan məhəbbə-tindən bu əfsanələri yaratmışdır. Buna görə də əfsanələrin əksəriyyətində məhəbbət, xeyirxahlıq, nəciblik təbliğ olunur.

Azərbaycan ərazisi, xüsusən Naxçıvan ən qədim insan məskənlərindən biri olduğuna görə, burada xalqın dünyagörüşünün formalaşmasında qədim inancların mühüm rolu olmuşdur. Bu dünyagörüşü əsasında yaranmış əfsanələr şifahi yolla əsrləri, nəsilləri adlayaraq bugünümüzə gəlib çıxmışdır. Xalqın mifik heyvanlara, dağlara, təbiət

hadisələrinə münasibətini əks etdirən əfsanələr fikrimizcə, daha qədim, dinlə bağlı yaratdığı əfsanələr isə sonrakı mərhələnin məhsuludur. Düzdür, türklər lap əvvəldən monoteist olmuşlar, lakin toplanmış əfsanələrin mahiyyətinə baxılınca, Nuh Nəbi və Əzrayılla bağlı əfsanələrin Azərbaycanda islamiyyətin mövcud olduğu ərəfədə yayıldığını ehtimal etmək olar.Bu əfsanələrin sonralar yaranmasına baxmayaraq, məzmun etibarilə ilkin yaranışa qədər gedib çıxır.Əfsanələrdə Naxçıvan toponiminin Nuh peyğəmbərlə bağlanması, türklərin Nuh(ə)un oğlu Yafətdən (Türkdən) törəməsi, Naxçıvan ərazisində olan Gəmiqayanın, Ağrı, İlanlı və Kəmki dağlarının adlarının Nuh (ə) tərəfindən qoyulması göstərilmişdir. (4, s. 29-39; 1, s. 76). Dini əfsanəyə görə, bütün millətlər, o cümlədən türklər də Nuh(ə)un oğlanlarından törəmişlər. Bəzi tədqiqatçıların fikrincə, Naxçıvanla və Gəmiqaya ilə bağlı əfsanələr qədim şumer əfsanələrinin dəyişilmiş formasıdır (2, s. 30). İlk dəfə qədim şumer əfsanələrində yer almış dünya daşqını əhvalatı sonradan dini kitablarda rast gəlinir. Müəyyən qədər fərqlilik olmasına baxmayaraq mahiyyət etibarilə eyni mövzuya bağlı olan ümumdünya daşqını elm tərəfindən dini əfsanə şəklində qəbul olunur. Eləcə də Naxçıvan toponiminin Nuh (ə) la bağlanması xalq fərziyyəsidir. Əlbəttə ki, türklər və qədim türk yaşayış məskəni olan Naxçıvan torpağı adı çəkilən Nuh(ə) sivilizasiyasından əvvəl də mövcud olmuşdur. Nuh (ə) tufanının adı din kitablarında, o cümlədən Quranda (Hud 37, 38, 40, 41, 42, 43, 44; Fürqan 37, və s.) (5) keçdiyinə görə müəyyən qism müsəlman aləmində əfsanə kimi deyil, real dünya hadisəsi olduğuna inanılır.Hər bir halda Nuh(ə)la bağlı əfsanələrin şumer yazılrından qaynaqlandığı inkarolunmaz faktdır və elm bunu bu şəkildə qəbul etmişdir (6, s.109).

Naxçıvan ərazisindən toplanmış əfsanələr içərisində ilanlar haqqında olan əfsanə və rəvayətlər üstünlük təşkil edir. Qədim xalq mifologiyasında ilan totem olmuşdur. Hətta, Gəmiqaya abidələrində və Naxçıvanın başqa

bölgələrində tapılmış arxeoloji maddi-mədəniyyət nümunələrində ilanın totem olduğunu sübut edən arqumentlərə rast gəlinmişdir (2, s.72). Min illərdən bəri yaranmış inancları xalq təkcə yazıda və əşyalarda deyil, həm də təfəkküründə qoruyub saxlaya bilmişdir. İlan haqqında Naxçıvan MR-nın müxtəlif bölgələrindən bir- birinə yaxın olan əfsanə və rəvayətlər toplanmışdır. Bunların ümumi məzmunu belədir: Bir kişi kənd təsərrüfatı ilə məşğul olarkən, təsadüfən bir ilanla qarşılışır. İlan insan kimi danışaraq ondan süd istəyir, əvəzində hər gün bir qızıl verəcəyini vəd edir. Bu rəvayətin başqa bir variantında isə ilan onu öldürmədiyinə görə kəndliyə hər gün bir qızıl verir. Bu əfsanələrdə ilan öz sözünün üstündə durur, lakin insanın tamahkarlığı həmişə onun faciəsinə gətirib çıxarır. Sonra belə rəvayət olunur ki, kəndlinin hər hansı bir işi çıxdığına görə, öz uşağını qızıl dalınca yollayanda uşaq ilanın yuvasındakı bütün qızılları götürmək məqsədi ilə ilanı öldürmək istəyir. Lakin öldürə bilmir, quyruğunu qırır. İlan da bundan qəzəblənib oğlanı öldürür (3). Beləliklə insan həm qızıldan olur, həm də övladından. Bu rəvayətin bir variantı «Rəvayətli ifadələr» kitabında nəşr olunmuşdur (7, s. 142-143). Bu rəvayət xalq arasında geniş yayıldığından zaman-zaman onun müxtəlif variantları yaranmış və ilanın quyruq yarası xalq arasında aforizmə çevrilmiş, beləliklə də «Rəvayətli ifadələr»ə düşmüşdür. İlan haqqında olan başqa bir rəvayətdə isə ilanın ziyanverici xüsusiyyətləri əsas götürülmüşdür. İlan heç də həmişə qızıl vermir, çox zaman zəhərli dişini işə salır. Belə bir rəvayətə baxaq: Bir naxırçı qurumuş kollara od vuran zaman qaçmağa imkan tapmayan ilanı odun içindən qurtarır. Amma ilan xilas olandan sonra onu çalmaq istəyir. Onlar üç şahid tutmağı qərara alırlar. Şahidlər kimə haqq qazandırsa, o, qalib hesab olunsun. Əvvəl bulağı, sonra ağacı şahid tuturlar, bunlar ilana haqq verir. Üçüncü dəfə onlar qabaqlarına çıxan ovçu əlindən qaçan tülkünü şahid tuturlar. Tülkünün insana yazığı gəlir və kələk işlədərək insanı xilas edir. Tülkü də naxırçıdan bu yaxşılığının

əvəzində onu ovçudan qorumağını xahiş edir. Lakin naxırçı ölməli olduğunu sübut eləmək üçün, tülkünün yerini ovçuya göstərir (3). Düzdür, bu rəvayətdə ilanın qədirbilməz, tərs olduğu ideyası verilmişdir. Lakin bəşər övladı nankorluqda və qədirbilməzlikdə heyvanı arxada qoyur. Xalq təfəkküründən, təxəyyülündən irəli gələn nəticə budur. Xalqın ilan haqqında çoxlu rəvayət və əfsanələr yaratması ilanın qədim mifoloji təfəkkürə görə üç dünyanın - yeraltı, yerüstü və göy aləminin təmsilçisi olması ilə əlaqədardır. İlan yer altındakı sərvətlərin üstündə, susuz səhralarda, dağlarda məskən salır, hətta suda yaşayan növləri də var. Buna görə də xalqın ilan haqqındakı görüşləri spesifiklik təşkil edir.

Naxçıvan ərazisi folklor materialları ilə zəngin olduğu üçün burada bulaq, dağ, gül və quşlarla bağlı müxtəlif əfsanələr dolaşmaqdadır. Eyni zamanda Babək rayonunun Qahab, Didvar, Nəzərabad, Vayxır kəndlərinin yaranması haqqında xalq arasında müxtəlif rəvayətlər mövcuddur (3). Xalq başa düşdüyü məfhumlar haqqında öz biliyi çərçivəsində, özünün fərziyyə elədiyi şəkildə uydurulmuş hekayətlər, rəvayətlər, əfsanələr yaratmaqla öz dünya görüşünü, öz mifik təfəkkürünü zənginləşdirmiş və genişləndirmişdir. Bu əfsanə və rəvayətlər şifahi xalq ədəbiyyatının epik növünü səciyyələndirməklə bərabər, bizim ulu əcdadlarımızın həyata baxışı, təsəvvürləri barədə ümumi biliyə sahib olmağımıza şərait yaradır.

Ədəbiyyat:

1. Azərbaycan folkloru antoloģiyası. Naxçıvan folkloru, Sabah, 1994
2. Baxşəliyev Vəli. Gəmiqaya təsvirləri. Bakı, Elm, 2003
3. Cəfərli Məhərrəmin şəxsi arxivindən
4. Əfsanələr. Bakı, 1986
5. Quran. Bakı, Azərnəşr, 1992
6. Qədim Şərq Ədəbiyyatı. Azərbaycan ensiklopediyası, Bakı, 1999
7. Rəvayətli ifadələr. Bakı, 1961

SURƏ SEYİD
Naxçıvan Dövlət Universiteti

MİRZƏ İBRAHİMOVUN NAXÇIVANDA ƏDƏBİ PROSES VƏ MƏTBUATIN İNKİŞAFINDA ROLU

Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Mirzə İbrahimov çoxcəhətli ədəbi fəaliyyəti ilə ədəbiyyat tariximizdə xüsusi yer tutur. İndiyədək Mirzə İbrahimovun nəsr və dram əsərlərindən kifayət qədər söz açılsa da, onun 1933-35-ci illərdə Naxçıvan Sovet Yazıçılar İttifaqının orqanı olan «Ədəbiyyat» və Naxçıvan Maşın Traktor Stansiyasının orqanı «Sürət» qəzetlərinin baş redaktoru kimi fəaliyyəti haqda az danışılmışdır. Bu qəzetlər haqqında məlumatlara Mirzə İbrahimovun Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivində qorunan fondunda, müxtəlif illərdəki mətbu orqanlar və tədqiqatçıların əsərlərində rast gəlinir. Təqdim etdiyimiz məqalədə pərakəndə halda olan məlumatları toplamaqla yanaşı, bu qəzetlərin Naxçıvanda söz və ədəbi fikir tarixinin inkişafındakı xidmətlərindən bəhs edəcəyik.

Ədibin Naxçıvandakı fəaliyyəti haqda ilkin məlumata onun öz xətti ilə yazılmış tərcümeyi-hal sənədlərində rast gəlinir: «1929-cu ildə Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun 2 illik hazırlıq şöbəsinə daxil olub 1933-cü ildə hazırlıq şöbəsini bitirdiyim zaman, Azərbaycan təşkilatı məni respublikanın zəngin və maraqlı guşələrindən biri olan Naxçıvana, Maşın Traktor Stanısiyası siyasi şöbəsinin «Sürət» adlı qəzetinə redaktor göndərdi. Doğrusu mən bu işə o qədər də həvəslə getmədim. Çünki hələ təhsilimin kifayət olmadığına qane idim. Sinif yoldaşlarımın çoxu kimi aspiranturada oxumaq istəyirdim. Lakin sonralar mən ora getməklə çox şey qazandığıma inandım. Siyasi şöbədəki iş məni xalqın həyatı və mübarizəsi ilə canlı surətdə bağladı.

Mənə elə şey verdi ki, onu heç bir kitabdan öyrənmək olmazdı. Mən canlı insanları, onların gərgin əmək, həyəcan və iztirablarla dolu gündəlik həyatını gördüm, o dövrdə kənddəki qızğın sinfi mübarizənin natural səhnələrini müşahidə etdim» (Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivi, fond № 645, siyahı 2, saxlanma vahidi № 260).



Срок продлен до 193

Подпись

Срок продлен до 193 г.

Подпись

Подпись владельца

НКЗ СССР

ПОЛИТИЧЕСКОЕ УПРАВЛЕНИЕ МТС

г. Москва. 22 декабря 1933 г.

УДОСТОВЕРЕНИЕ № 12967

тов. Ибрагимов Ш. А

редактором газеты Политического Отдела МТС

(край, обл., республ.).

Действительно до 1 июня 1934 г.

Начальник Политуправления МТС

Зам. Наркома Земледелия СССР

Начальник Сектора Кадров ПУМТС

1933–cü ildə Naxçıvanda ciddi siyasi mübarizə getdiyi bir zamanda, kolxozların iqtisadi cəhətdən möhkəmlənməsi, texnika ilə təchiz edilməsi əsas problemlərdən biri idi. Bu problemlərdən ən başlıcası isə sovet rejiminin insanların düşüncə tərzində yaratmaq istədiyi yeni ab-hava idi. Məhz bu faktoru nəzərə alıb mətbuatdan təbliğat vasitəsi kimi yararlarımaq kommunist rəhbərliyinin diqqətindən yayına bilməzdi. Ona görə də, Bakıdan Naxçıvan MTS siyasi şöbəsinə qabiliyyət və bacarığına güvənilən bir şəxsin göndərilməsi, hələ üstəlik mətbu orqanın təsis edilərək ona redaktor təyin edilməsi dediklərimizi bir daha təsdiqləmiş olur.



Пролетарии всех стран, соединяйтесь!

НКЗ — СССР

ПОЛИТИЧЕСКОЕ УПРАВЛЕНИЕ МТС

Москва, „22" декабря 1933 г.

Удостоверение № 180

(к мандату Политуправления МТС № 12967)

Политуправление МТС НКЗ СССР командирует тов. Ибрагимова Ш. А

(фамилия, имя и отчество)

в Политотдел Нахичеванской МТС

(название МТС)

Азербайджанской ССР

(название края, области)

в качестве редактора газеты

(краткое наименование должности)

Срок прибытия к месту назначения: 1/I-34 г.

Нач. сектора кадров

Политуправления МТС НКЗ СССР

ПРИМЕЧАНИЕ: Удостоверение действительно только по предъявлению мандата Политуправления МТС НКЗ СССР.

Naxçıvandakı ədəbi qüvvələrin tanınmış simalarından olan Müzəffər Nəsirli «Azərbaycan gəncləri» qəzetinin 2 dekabr 1971-ci il tarixli nömrəsində yazır: «Mirzə İbrahimov gecə-gündüz kolxozlarda olur, məqalələr yazır, eyni zamanda respublikanın mədəni-siyasi həyatında fəal iştirak edirdi».

Hələ 1928-ci ildə Süleyman Rüstəmin Naxçıvana gəlişi və «Qızıl qələmlər» İttifaqının Naxçıvan şöbəsini təşkil etməsilə Naxçıvandakı ədəbi qüvvələr öz fəaliyyətlərini genişləndirir. Şöbə ətrafına bir çox qələm sahibləri toplanır: «Bu il Azərbaycan «Qızıl qələmlər» İttifaqının təşəbbüsü ilə Naxçıvanda olan «Qızıl qələmlər» yenidən təşkilat altına alınmağa başlayır. Naxçıvan cəmiyyətinin şöbəsini düzəltmək üçün Azərbaycan «Qızıl qələmlər» İttifaqının proletar şairi və cəmiyyətin məsul katibi, yoldaş Süleyman Rüstəmzadəni göndərmişdir. Biz artıq Yazıçılar İttifaqını qurmalı və yeni cəmiyyətin rəhbərliyi altında çalışmalıyıq». («Şərq qapısı», 3 yanvar 1928-ci il).

1934-cü ildə Naxçıvan Vilayət Partiya Komitəsi Azərbaycan Yazıçılarının I qurultayı ərəfəsində Naxçıvandakı gənc yazıçıların konfransını keçirmək və Naxçıvan Yazıçılar İttifaqını yenidən təşkil etmək haqqında qərar qəbul edir. Buna səbəb ÜİG (b) P MK-nın «Ədəbiyyat və incəsənət təşkilatlarının yenidən qurulması haqqında» 1932-ci il 23 aprel tarixli qərarı olur. Vilayət Partiya Komitəsinin 8 maddədən ibarət bu qərarında - ədəbiyyat təşkilatlarına yeni heyətin seçilməsi, təşkilatın maddi bazasının möhkəmləndirilməsi, hər 10 gündən bir «Şərq qapısı» qəzetində yazıçılar üçün ədəbiyyat səhifəsinin ayrılması, yaxın bir zamanda Naxçıvanda pedaqoji-ədəbi məcmuə nəşr olunması və aprel ayında yazıçıların konfransının keçirilməsi göstərilirdi. Qərarın son maddəsində əyalət konfransını keçirmək və yeni heyət seçilməsi üçün Əli Vəliyev və Mirzə İbrahimovdan ibarət partiya komissiyasının yaradılması da qeyd olunurdu. (Qərar «Şərq qapısı» qəzetinin 18 mart 1934-cü il tarixli nömrəsindən götürülüb).

1934-cü ilin aprelin 20-də Naxçıvan maarif evində Naxçıvan İctimai Şura Cümhuriyyətinin şura yazıçılarının birinci tarixi konfransı keçirilir. Bu konfransda Naxçıvan ədəbi mühiti haqqında məruzə etmək və qurultaya nümayəndələrin seçilməsi məsuliyyəti Mirzə İbrahimovun üzərinə düşür. Qocaman müəllim, Naxçıvan mətbuat tarixində öz qələmi və fəaliyyəti ilə seçilən Lətif Hüseynzadə Mirzə İbrahimovun Naxçıvandakı fəaliyyəti haqda belə yazır: «Mirzə İbrahimov Naxçıvanda müxbirlərin, şair, aşıq, nağıl deyənlərin konfranslarını keçirir, ədəbi müsamirələr təşkil edirdi. Texniki səbəblərə görə ədəbi-pedaqoji məcmuə nəşrinə nail ola bilmir. Mirzə İbrahimov bunun əvəzinə Naxçıvanda Azərbaycan sovet mətbuatı tarixində yeni bir səhifə təşkil edən «Ədəbiyyat» qəzetinin nəşrinə nail olur. Onun bu nəcib təşəbbüsu Naxçıvandakı sovet yazıçılarının əsərlərini çap etdirməsi üçün geniş imkan yaratdı. Qəzetin redaktoru da ədibin özü idi. Onun bu qəzetdə bir sıra oçerk və hekayələri dərc edilmişdi. Bu qəzetdə «Dünya qopur» romanı haqqında Mirzənn çox dəyərli bir məqaləsi də dərc edilmişdi. Mirzə İbrahimov Naxçıvanda həm öyrənmiş, həm də yaratmışdı»(«Şərq qapısı», 20 noyabr 1971-ci il, №273).

Lətif müəllimin qeyd etdiyi kimi, Mirzə İbrahimov ədəbi-pedaqoji məcmuə nəşrinə nail ola bilməsə də, Naxçıvanda pedaqoji məcmuə nəşr olunur. Bu mövzuya başqa məqaləmizdə toxunacağıq.

Müzəffər Nəsirli Mirzə İbrahimovun Naxçıvandakı fəaliyyəti və «Ədəbiyyat» qəzeti vasitəsilə ədəbi prosesə təsirini belə dəyərləndirir: «1933-34-cü illərdə Naxçıvanda yaşayarkən Mirzə İbrahimov ədəbi gəncliyin rəhbəri idi. Klassik Azərbaycan və rus ədəbiyyatı, müasir sovet ədəbiyyatında baş verən yenilikləri onlara çatdırırdı, ədəbi gəncliyin inkişafı qayğısına qalaraq «Şərq qapısı» qəzetinin redaktoru Əli Vəliyevlə Naxçıvanda «Ədəbiyyat» qəzetinin bir neçə nömrəsinin nəşrinə nail olmuşdu. Qəzeti Mirzə İbrahimov özü redaktə edirdi, ən qüvvətli ədəbiyyat maraqlılarını da qəzet ətrafına toplamışdı».

Mirzə İbrahimov öz məsul vəzifəsini yerinə yetirməklə yanaşı, qısa müddətdə Naxçıvanda yaradıcı gəncliyin inkişafına böyük təsiri ilə seçilmiş, əhalini təkcə Azərbaycan ədəbiyyatının görkəmli simaları ilə deyil, eyni zamanda dünya və rus klassiklərinin ədəbi fəaliyyəti ilə də tanış etmişdir. O, bu istiqamətdəki təbliğatını təkcə mətbuat vasitəsilə deyil, eyni zamanda müxtəlif yığıncaqlar, oxucularla görüşlər və Naxçıvan Yazıçılarının iclasları vasitəsilə aparırdı. «Şərq qapısı» qəzetinin 5 may 1934-cü il tarixli (№128) sayında oxuyuruq: «Naxçıvan Sovet Yazıçılarının iclası oldu, yazıçılar qurultayına hazırlıq haqqında Mirzə İbrahimov yoldaş məruzədə bulundu. Mirzə İbrahimov yoldaş Mərkəzi Komitənin tarixi qərarından sonra Azərbaycan ədəbiyyatında əmələ gələn dəyişikliklər və müvəffəqiyyətlər üzərində dayanaraq H.Cavid, Kantemir, C.Cabbarlı, S.Rüstəm, S.Vurğun, R.Rza, Əbülhəsən, Hüseyn Mehdi və b. yazıçıların yaradıcılığındakı sosializm realizmi və inqilabi romantizmdən bəhs etdi».

Əhalini maarifləndirməklə, hələ təzə-təzə formalaşan Naxçıvan ədəbi mühitinin inkişafı qayğısına qalan Mirzə İbrahimov yaradıcılığının ciddi uğurlarından sayılan və mövzusu Naxçıvan həyatından götürülən «Həyat» pyesini Naxçıvanda yazmışdır. XX əsrin 30-cu illəri Azərbaycanda kolxoz quruculuğu və sovet hakimiyyətinin qolçomaqlarla mübarizə dövrü kimi xarakterizə olunur. Məhz, həmin dövrdə Naxçıvanın Qoşadizə kəndində kolxoz sədrinin öldürülməsi faktı və cinayətin məhkəmə prosesi böyük əkssəda doğurduğundan, üstəlik bu hadisənin qolçomaq-kolxoz qarşıdurması kimi deyil, namus üstündə baş vermə ehtimalları «Həyat» pyesinin həyata vəsiqə almasına səbəb olur: «Mən hələ 1929-30-cu illərdə fəhlə dram dərnəyi üçün kiçik bir pyes yazmışdım və onu tamaşaya qoymuşdular. Lakin bu pyes özümü də təmin etmədiyindən cırıb atmışdım. Ürəyimdə isə dram yazmaq həvəsi soyumamış, həsrətə çevrilmişdi. Naxçıvan bu həsrəti ovutmaq üçün mənə zəngin material verdi və 1935-ci ilin mart ayında siyasi şöbə işimdən

azad olub Bakıya qayıtdığım zaman «Həyat»ı yazıb yaxşı dram əsəri üçün respublika konkurs komissiyasına verdim» (Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, fond 645, siyahı 2, saxlanma vahidi № 263).

Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 2 il ərzində «Şərq qapısı» qəzetində də mütəmadi olaraq çıxış edən ədib çoxşaxəli yaradıcılığına yeni bir səhifə də əlavə edir. «Şərq qapısı» qəzetinin 5 may 1934-cü il tarixli (№128) sayında bu haqda belə məlumat verilir: «Yazıçılarımızdan yoldaş Mirzə İbrahimov «Alagöz» romanının birinci hissəsini yazıb qurtarmışdır».

Ədibin özü isə fəaliyyətinin Naxçıvan dövründəki digər uğurlarını belə xarakterizə edir: (Qeyd- əlyazmada mətn rus dilindədir) «Naxçıvanda mən 2 il işləmişdim. Bu illər ərzində mənim iki kitabım çapdan çıxmışdı. 1.«Nəhənglər ölkəsi»- SSRİ-də, Dneproqes, Donbasdakı yeni tikintilər haqdadır. Bu tikintilərdə mən 1931-ci ilin yayında Qorkinin Moskvadan çağırışıyla müxtəlif respublikalardan olan gənc yazıçılar briqadası ilə birlikdə olmuşam. 2. «Həyat naminə»- Azərbaycan xalqının yeni həyatı və inqilabi keçmişini əks etdirən hekayələr toplusu» (Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivi, fond №645, siyahı №2, saxlanma vahidi №263).

Beləliklə, Naxçıvan dövrü Mirzə İbrahimovun həyat və fəaliyyətinin qısa mərhələsini təşkil etsə də, onun çoxşaxəli yaradıcılığının yaddaqalan və məhsuldar dövrü sayıla bilər. Qeyd edək ki, onun yerli mətbuatda dərc etdirdiyi, indiyədək tədqiqatçıların diqqətindən kənarda qalan bədii nümunələri gələn məqalələrimizin ayrıca tədqiqat obyekti olacaq. Lakin təəssüflər olsun ki, nə Mirzə İbrahimovun şəxsi fondunda, nə Naxçıvan Dövlət Arxivində, nə də müraciət etdiyimiz digər ünvanlarda «Sürət» və «Ədəbiyyat» qəzetlərinin heç bir nümunəsinə rast gələ bilmədik. Ümid edirik ki, bu sahədəki axtarışlarımız nəticəsiz qalmayacaq və biz iki illik mətbuatımızın qaranlıq səhifəsini işıqlandıra biləcəyik.

AZADƏ ZEYNALOVA
Naxçıvan Özəl Universiteti

GÜLLÜ MƏMMƏDOVANIN «QARABƏKİR ƏFSANƏSİ» ROMANI

Naxçıvanda yaşayıb-yaradan şair və yazıçıların ədəbi irsinin öyrənilməsi, təhlil edilib qiymətləndirilməsi, bu irsin ideya-bədii məziyyətlərinin aşkara çıxarılması təkcə bir bölgənin, bir regionun, bir ədəbi mühitin (konkret olaraq Naxçıvan ədəbi mühitinin) öyrənilməsi baxımından deyil, ümumən Azərbaycan ədəbiyyatının müvafiq mərhələlərinin inkişaf xüsusiyyətlərinin öyrənilməsi baxımından .diqqətəlayiqdir. Bu baxımdan Naxçıvanda yaşayıb yaradan qadın şair və yazıçıların irsinin tədqiq edilib öyrənilməsi də müəyyən əhəmiyyət daşıyır. Bunlardan biri də yazıçı-jurnalist Güllü Məmmədovadır.

Güllü Mehdi qızı Məmmədova 1947-ci ildə Yevlax rayonunda anadan olub. 1964-cü ildə orta məktəbi bitirib. Elə həmin il də ADU-nun jurnalistika ixtixasına daxil olub. 1969-ci ildə universiteti bitirib Şahbuz rayon qəzetində əmək fəaliyyətinə başlayıb. 1985-ci ildən Naxçıvan Teleradio Komitəsində işləyir. G.Məmmədova ədəbi yaradıcılığa 1970-ci ildən başlayıb. İlk hekayəsi 1972-ci ildə «Azərbaycan» jirnalında dərc olunub: «Onlar və biz». Ümumiyyətlə, Güllü Məmmədovanın yaradıcılığında hekayə janrı mühüm yer tutur. Eyni zamanda, bu hekayələri böyük nəsrə keçid üçün bir zəmin hesab etmək olar. Bu hekayələrin əksəriyyəti ailə-məişət və sevgi məsələlərinə həsr olunub.

Sonralar yazıçının müxtəlif qəzet və jurnalarda əsərləri dərc olunub.

«Bağışlaya bilmirəm» adlı ilk kitabı 1979-ci ildə çap edilib. Daha sonra «Yay nağılı» (1988), «Qərənfillər ağlamır» (2001) adlı kitabları işıq üzü görən G.Məmməovanın son kitabı «Qarabəkir əfsanəsi» adlı sənədli-tarixi romandır. Ədib

bu janra təsadüfən müraciət etməmiş, bu romanla xalqımızın qədim tarixini, döyüşkən ruhunu, torpağı və azadlığı uğrunda mübarizəsini, «bir millət, iki dövlət» olan türk xalqlarının arxalanmasını və s. əks etdirməyi qarşısına məqsəd qoymuşdur. Yazıçı əsəri yaradarkən özündən əvvəl də bu janda yazılmış müxtəlif əsərlərdən bəhrələnmiş, janrın nəzəri-estetik prinsiplərini gözləməyi qarşısına məqsəd qoymuşdur. Ədib o illərdəki hadisələri bir daha qələmə almaqla keçmişdən ibrət dərsləri götürməyi vacib sayır.

Onu da qeyd etmək lazımdır ki, yazıçı «Qarabəkir əfsanəsi» əsərini qələmə almamışdan əvvəl təsvir edəcəyi dövrü mükəmməl öyrənmiş, material toplamış, bütün bu hazırlıq işlərdən sonra belə bir ciddi mövzu üzərində işləməyə başlamışdır. Əsər 2001-ci ildə tamamlanmış, elə həmin ildə də çap edilmişdir.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, əsər 1918-ci illərdə Türkiyənin Doğu vilayətlərində və Naxçıvanda baş verən hadisələrdən, türk və azərbaycanlıların soyqırımından, eləcə də həmin dövrdə bu torpaqların erməni faşizmindən azad olunmasında çox böyük şücaətlər göstərmiş, daha doğrusu, bu torpaqları erməni işğalından azad etmiş türk sərkərdəsi Kaşım Qarabəkir paşanın həyat və döyüş yollarından bəhs edir. Müəllif zəngin tarixi sənədlərlə yanaşı, eyni zamanda canlı şahidlərlə, Qarabəkirin ailə üzvləri ilə görüşüb söhbətlər aparmış, həmçinin sənətkar təxəyyülündən də məharətlə istifadə etmişdir. O, həm tarixi, həm də öz təxəyyülünün məhsulu olan surətlər vasitəsilə dövrün müxtəlif surətlərini yaratmağa, zamanın mənzərəsini verməyə müvəffəq olmuşdur.

Yazıçı özü əsərin yaranma səbəbi haqqında «Necə oldu ki, Kazım Qarabəkir haqqında yazdım» adlı giriş söşündə deyir: «Kazım Qarabəkir paşa da tarixdə yaşamış və əbədi yaşayacaq böyük şəxsiyyətdir. Paşa haqqında

tədqiqatlar var. Onun özünün yazmış olduğu əsərləri var. Lakin bədii əsər yoxdur».[1]

Bu əsər Kazım Qarabəkir haqqında ilk bədii əsər olmaqla bərabər, həm də gərgin zəhmətin və yuxusuz gecələrin bəhrəsi olan qiymətli bir əsərdir.

Kitab 6 hissədən ibarətdir. İlk hissə «Paşalığa gedən yol» adlanır. Elə həmin hissənin başlangıcında da Kazım Qarabəkirin özündən gətirilmiş çox gözəl bir sitat verilib: «Hər kəsin həyatı mükəmməl bir kitabdır. Şəxsin əhəmiyyətinə görə belə bir kitab vətən övladlarının da istifadə edə biləcəyi həqiqi bir rəhbər ola bilər. Nə idik, nə olduq? Mütləq bilinməlidir...» Kazım Qarabəkirin öz həyatının bütün uşaqlar və gənclərə örnək olduğu kimi...

İlk səhifələrdə Qarabəkirlər nəslinin tarixi və Kazım Qarabəkirin ailəsi haqqında mə"lumat verilir, bu nəslin tarixinin Şah İsmayıl dövrünə qədər gedib çıxdığı göstərilir. Ümumiyyətlə, bu hissə Kazımın uşaqlıq və gənclik illərindən bəhs edir. Burada körpə Kazımın həyatında baş vermiş bir çox hadisələr qələmə alınmış, paşalığa gedən yolun Kazımın körpə yaşlarından başladığı çox gözəl bədii dillə oxucuya çatdırılır. Kiçik Kazımın rus konsulu ilə görüşünün təsvir edildiyi parçaya nəzər salaq:

«...Onun (rus konsulunun – A.Z.) elə bil fikri oynayanlarda yox, yanında yaşına yaraşmayan bir ədəblə oturmuş, ağıllı gözləri, ciddi sifəti, ən çox da əynindəki kiçik hərbi paltarı ilə diqqəti çəkən Kazımda idi... Sanki sadə bir türk uşağının qürurlu görünüşü onun əsəblərinə toxundu, lakin o, bunu büruzə verməyərək Kazıma tərəf əyildi və pozuq türk dilində soruşdu:

- Bu paltarı niyə geyinirsən?

Kazım rus konsulunu diqqətli, davamlı baxışlarla süzdü və hazırcavablıqla dedi:

- Sevirəm ona görə.

- Bu hansı rütbənin geyimidir?

---

[1] Güllü Məmmədova. Qarabəkir əfsanəsi. Bakı, «Zaman», 2001, səh. 8

- Yüzbaşı yaveri.
- Sən kimin yaverisən?
- Atamın.
- Yaverin vəzifəsinin nə olduğunu bilirsənmi?
- Verilən tapşırığı yerinə yetirər.

Sadə türk uşağının sıxılmadan, çəkinmədən verdiyi ağıllı cavablar göy gözlü, şişman bədənli konsulu özündən çıxardı.»[1]

Yazıçı əsas qəhrəmanın uşaqlıq illərindən bəzi parçaları verməklə sanki hadisələrin sonrakı inkişafı üçün bir növ zəmin hazırlayır, Qarabəkirin mərd bir insan olacağının ilk müjdələrini verir.

Romanın «Türkülər ağladı doğu elində» adlanan II hissəsində erməni basqınlarına mə"ruz qalmış doğu ellərinin - Ərzincanın, Ərzurumun, Xorasanın, Sarıqamışın, Qarsın başına gətirilən müsibətlərdən, törədilən qanlı cinayətlərdən və qəhrəman türk əsgərlərinin bu torpaqları erməni faşizmindən təmizləmək üçün Kazım Qarabəkir paşanın rəhbərliyi altında apardıqları çətin mübarizədən söhbət açılır.

III-VI hissələr Naxçıvanın erməni işğalına mə"ruz qaldığı o ağır günlərdən bəhs edir. Bu hissələrdə əliyalın naxçıvanlıların Kalbalı xanın rəhbərliyi altında evbəev, küçəbəküçə, məhəlləbəməhəllə, kəndbəkənd azğınlara qarşı apardıqları qanlı döyüşlər tarixi sənədlər, şahidlərin ifadələri əsasında təsvir edilmişdir.

Təbiidir ki, romanda müəllifin əsas diqqəti Qarabəkirin surəti ətrafında cəmlənmişdir. Lakin Müəllif Qarabəkirin xarakterini kəskin toqquşmalarda, ən çətin anlarda, insan iradəsi və hisslərinin sınaqdan çıxarılması prosesində açır, onu əyilməz, qorxmaz bir sərkərdə kimi təqdim edir.

Lakin e"tiraf etmək lazımdır ki, Qarabəkir romanın ilk hissələrində cərəyan edən hadisələrlə bağlı daha qabarıq verilmişdir. II–III hissələrdə hadisələrin ümumi dinamikasında qəhrəmanın adı tez – tez çəkilsə, ideyaları,

---

[1] Güllü Məmmədova. Qarabəkir əfsanəsi. Bakı, «Zaman», 2001, səh. 39

göstərişləri tez-tez qeyd edilsə də, özü sanki mövzudan bir qədər uzaqlaşdırılır. Lakin IV–V hissələrdə Qarabəkir tarixi həqiqətlərə uyğun olaraq çox ağıllı, uzaqgörən, cəsur, mərd və qorxmaz bir paşa surəti kimi oxuculara təqdim edilir. Həm də onun Türkiyə tarixində ən gənc və sonuncu paşa olduğu qeyd edilir. Qarabəkirin ən böyük xoşbəxtliyi xalqın ona arxalanmasındadır. Öz qəhrəmanını hərtərəfli təsvir etməyə çalışan müəllif bəzən çətin məqamlarda onun tərəddüd etdiyini, lakin yenə də özağlı və iradəsinə güvəndiyini qeyd edir.

Romanda məhəbbət səhnələrinə, bir sıra ailə-məişət (melodramatik səhnələr) məsələlərinə də yer verilsə də, ictimai-siyasi hadisələr daha qabarıq planda verilmişdir.Bu parçalarda bədii təsvir də, dramatik konflikt də, sujetin inkişafı da, kompozisiyanın şaxələnməsi də, bir-birinə bənzəməyən surətlərin təbii təsviri də səmimi və inandırıcıdır.

Əsər dil, üslub bxımından da maraqlı bir nəsr əsəridir. Əsərin dili sadədir. Bəzən dialoqlarda Türkiyə türkcəsindən istifadə olunub. Ayrı-ayrı surətlərin dili də təbiiliyi və fərdiliyi ilə diqqəti cəlb edir.

«Qarabəkir əfsanəsi» sənədli romanı sənətkarlıq xüsusiyyətləri cəhətdən də janrın tələblərinə uyğundur. Qələmə alınan dövrün ruhunu saxlamaq və tarixi həqiqətləri olduğu kimi vermək üçün müəllif rəsmi sənədlərdən ustalıqla istifadə etmiş, süjetin inkişafışda yeri gəldikcə onlara istinad etmişdir. Şübhə yoxdur ki, Naxçıvanda 1918–1921-ci illərdə baş vermiş hadisələri qələmə aldıqda olduqca məsul, çətin, lakin şərəfli bir iş idi. G.Məmmədovanın bu əsəri yaradıcılıq üçün müəyyən hazırlıq görmüş, arxiv sənədlərini, xatirələri və s. öyrəşmişdir.

Bu kitabı oxuyanda bir daha düşünürsən ki, xalqımız başımıza gətirilən bu müsibətləri unutmamalı, bu qanlı səhifələri bir daha nəzərdən keçirməli və bir daha dərk etməlidir: «Türkün türkdən başqa dostu yoxdur.»

Ədəbiyyat:
1. Axundlu Y. Məmməd Səid Ordubadi. Bakı, «Sabah», 1997
2. Tarixi roman yeni mərhələdə. Bakı, «Maarif», 1998
3. Məmmədova G. Qarabəkir əfsanəsi. Bakı, «Zaman», 2001

AYPARA BEHBUDOVA
Naxçıvan Dövlət Universiteti

ADİL BABAYEVİN LİRİKASI VƏ ONUN ƏSAS XÜSUSİYYƏTLƏRİ

XX əsr Azərbaycan ədəbiyyatna, poeziyasına yeni nəfəs, yeni ahəng, bədii ovqat gətirən şairlərimiz olub ki, onlardan biri də öz dəstt-xətti ilə seçilən şair, dramaturq, teatrşünas, tərcüməçi Adil Babayevdir. Şairin sevə -sevə yazıb yaratdığı şerlərini bir küllü halında nəzərdən keçirdikdə görörük ki, vətən torpağının gözəlliyi, dünyada baş verən fərəhli və nisgilli hadisələr, fəsillərin özünəməxsus çalarları, insanlar, onların taleyi, mənəvi aləmi bu kövrək qəlbli şairi ehtizaza gətirmişdir. Yaradıcılığının ayrı-ayrı dövrlərində bədii ədəbiyyatın müxtəlif növlərinə müraciət etməsinə baxmayaraq o, özünü ən çox lirik-fəlsəfi poeziyada tanıdıb. Adil Babayevin çoxcəhətli şer yaradıcılığının aparıcı qolunu vətənpərvərlik lirikası təşkil edir. Şair vətəni qarış-qarış gəzib ürəyinin məhəbbətini,qəlbinin hərarətini, nəhayətsiz arzularını"ana yurdun gül nəfəsli torpağına qatmaq istəyir"O, vətəndən uzaqda olanda da xəyalən ana torpaqdan ayrılmır. Şair bunu bədii dillə belə ifadə edir:

Gəzib dolansam da bütün dünyanı,
Bir an unutmaram Azərbaycanı.
Qoy vətən sevgisi şerimin canı
Kağızım ellərin ürəyi olsun (2, s.42).

A.Babayevin lirikasında müharibə mövzusu ayrıca yer tutur.O, Böyük Vətən müharibəsi iştirakcısı olmuşdur. Şubhəsiz ki, odlar-alovlar içindən kecən, müharibənin dəhşətlərini öz gözlərilə görən şair bu mövzuya biganə qala

bilməzdi. "Ağır illər silsiləsindən" olan "İtən uşaqlığım", "Mənim günahım", "Üzüm salxımı", "Atasız atalar", "Toy" və başqa şerləri bu silsilənin ən yaxşı incilərindəndir. Bu şerlərin hər biri müharibənin törətdiyi dəhşətli faciələri bizim gözlərimiz qarşısında canlandırır. Məsələn, "Əsgər çəkmələri" adlı şerində şair ürək yandıran bir hekayə danışır. Şerdə ağır illərin sınaqlarına məruz qalan uşaq bazardan özünə ayaqqabı axtaran zaman gözləri təzə bir cüt əsgər çəkməsinə zillənir. O, uşaq sevinci ilə çəkmələrə doğru getdikdə dəhşətli bir mənzərə ilə qarşılaşır.Çəkməni satan Əsgərin ayaqları yox idi:

Çəkmələr özününmüş... ayaqları kəsilmiş,
Gərəksiz çəkməsini indi satmağa gəlmiş(1,s. 116).

Bu adi bir şer deyil,ayağı kəsilmiş əsgərin dərdi və bu dərddən od alan bir ürəyin fəryadıdır. Şair əsgərin ürək ağrısını öz qəlbində yaşamış və bütün sətirləri ürəyinin odu ilə isidib vərəqlərə köçürmüşdür.

A.Babayevin lirikasında ictimai-siyasi mövzulara da tez-tez rast gəlirik. Şairin siyasi mövzulara həsr etdiyi şerlər "Kosmik düşüncələr" silsiləsi adı altında toplanmışdır. Böyük türk şairi Nazim Hikmətə həsr olunmuş "Ümidsiz deyiləm" şeri . "Neruda dəfn olundu", "Alimlər düşünür", "Pirosmani", "Bir cavanın yadigarı", "Rəngli yuxular"və s. siyasi lirikanın qiymətli incilərindəndir. A. Babayevin siyasi mövzuda yazdığı əsərlərin səciyyəvi xüsusiyyəti ondadır ki, burada insanlığa fəlakət gətirən imperializm, maddi və mənəvi əsarət hərisləri ifşa olunur. Məsələn, "Rəngli yuxular" şerində yazır:

Yuxuya verib daşıdılar neçə yurdun varını;
Yandırdılar meşələrini, qurutdular çaylarını
Yuxuda cənnət vəd eyləyib boğazından
çıxartdılar tikəsini
Zərli saraylara qonaq çağırıb kəsdilər
haqq deyən səsini (3, s. 35).

Təbiəti sevən, onun ən adi mənzərəsini şerə çevirən hər gül yarpağında, bulaq səsində, çinar kölgəsində, ana şəfqətində, hər dağında, düzündə hikmət arayan şairin təbiət haqqındakı şerlərini üç hissəyə ayırmaq olar. Birincisi, təbiət mənzərələrinin təsviridir ki, şair "Naxçıvan", "Kaş bir də", "Dəniz sahilində", "Ceyran"və s.şerlərində vətənin gözəl, təkrarsız mənzərələrini özünəməxsus bədii boyalarla, rəssam həssaslığı ilə gözlərimizin qarşısında canlandırır. Azərbaycanın, doğulduğu Naxçıvan torpağının, sözlə rəsmini çəkir, xeyli coğrafi adlar sadalayır.İkincisi, şair təbiət lövhələrini təsvir edərkən onu xalqla, xalqın tarixi keçmişi ilə bağlayır. Üçüncüsü, şair təbiətə insan həyatına təsir edən bir vasitə kimi baxır. "Qartal", "Yenə gəldi payız", "Dağlara qar yağıb", "Çiçəklərdən iltimas" və s. şerləri ilk baxışdan elə görünür ki, bunlar yalnız təbiət haqqında şerlərdir. Lakin bir qədər dərinliyə varanda görursən ki, insanın mənəvi zənginliyi, həssaslığı, təmizliyi barədə yazılmış, təbiətin və insanın vəhdətindən yaranmış gözəl poetik nümunələrdir.

A. Babayevin lirik şerləri arasında məhəbbət lirikası öz təbiiliyi, səmimiliyi, poetik hisslərin saflığı ilə diqqəti cəlb edir. Bu lirika şairin həyatının, öz hiss və həyacanlarının əksidir desəm - yanılmaram. Çünki şerlərinin əksəriyyətində lirik qəhrəman şairin özüdür.

A. Babayevin lirikasında sənət korifeylərinin, əmək adamlarının, xalq yolunda fədakarlıqla vuruşan qəhrəmanların da bədii surətini görürük. Lirika onun vətənə və təbiətə həsr olunmuş şerlərində, balladlarında, sonetlərində daha güclüdür. Adil Babayev Azərbaycan ədəbiyyatında sonet ustası kimi tanınmış, bu janrın gözəl nümunələrini yaratmışdır.O, lirik şairdir, ancaq sonetlərində lirik şairi müdrik şair əvəz edir. Çünki o, sonetlərində həyat, insanlar, kainatın sirləri haqqında daha dərin, düşündürücü, fəlsəfi mühakimələr irəli sürür.

A. Babayevin lirikasından söz açarkən şairin sənətkarlıq axtarışlarından, dil və üslub xüsusiyyətlərindən danışmamaq mümkün deyil. Şair bədii təsvir vasitələrindən,

təzadlardan, bədii sual və xitablardan məharətlə istifadə etmişdir ki, bu da onun əsərlərinə xüsusi bir ifadə gözəlliyi, poetik hərarət vermişdir:

Bir yanda titrədir ərzi mərmilər,
Bir yanda beşikdə körpələr gülər (1, s.153).

* * *

Birinin çöhrəsindən çəkilib təbəssümü,
Biri gülüş paylayır, hamıya tanrı kimi (1,s.49).

A. Babayevin lirikasının tükənməz həyat qüvvəsi xalq həyatı ilə sıx təmasda, xalqın arzularına,düşüncələrinə qırılmaz tellərlə bağlı olmasındadır. Şair dastanlara, əfsanələrə,rəvayətlərə, nağıllara, atalar sözlərinə maraq göstərir, onlardan nümunələr gətirir. Bu silsilədən onun "Göyçək Fatma", "İnanıram", "Əfsanədən gələn qonaq", "Çılpaq şahzadə", " İkarın qanadları" və s. şerləri maraq doğurur.

A. Babayevin lirikasının əsas xüsusiyyətlərindən biri də özündən əvvəlki sənətkarlar tərəfindən işlənmiş mövzulara müraciət etməsidir. O, həmin mövzuya yeni məzmun, yeni məna verir,başqa sözlə, o mövzunu öz nəfəsilə isidir, özününküləşdirir. Ənənəvi mövzuya müraciətdə şairin fərdi yaradıcılıq keyfiyyəti özünü açıq şəkildə hiss etdirir. Məsələn, tənhalıq haqqında çox yazılıb, insan həmişə təklikdən, tənhalıqdan qacır.Burada xalq şairi Bəxtiyar Vahabzadənin iki misrasını xatırlatmaq yerinə düşərdi :

Yığılın,yığılın başıma dostlar,
Mənim bir günüm də sizsiz olmasın,

ancaq şair Adil Babayev bu mövzuya yeni məna verir :

Toxunma şairin tənhalığına,
Onun təkliyində bir ülviyyət var (2,s. 84).

Şair ilk baxışdan çox sadə görünən predmet və əşyanın poetik mənasını oxucuya müvəffəqiyyətlə çatdırmağı bacarır.Məsələn, "Bəlkə" şerində o, misralarının gah coşqun,

gah da dalğın olmasını Araz və Kğr sahilində yaşaması ilə əlaqələndirir, şerə ictimai- siyasi məna verir.Elə mətləblər var ki, onun bədii ifadəsinə yüzlərlə misra həsr etmək mümkündür.Lakin əsl sənətkarlıq odur ki,həmin mətləbi yığcam şəkildə oxucuya çatdıra bilsin.Bu cəhətdən A. Babayevin şer yaradıcılığı sadə və konkretdir:

İnsan gəlir dünyaya yaşayır, bir gün köçür,
Sağ ikən öləndə var,ölüb sağ qalanda var (1, s.136).

***

Büyüklərin günahı da böyük olur.
Böyüklərin hər günahı tarix üçün
Bağışlanmaz bir yük olur (1,s.220).

A. Babayevin şerlərində son bəndin məna yükü, təsir gücü xüsusi nəzərə çarpır. Əvvəlki bəndlərdə adi, həyati bir əhvalat şerin sonunda birdən-birə dolğunlaşır,geniş bədiilik kəşf edir. Məsələn,"Sınıq körpü" şerində üstünü ot -ələf basmış,unudulmuş taxta körpü təsvir olunur. Lakin şerin sonunda bu körpü insan həyatı ilə müqayisə olunur və şer misradan-misraya mənalanır, oxucunu da təsirləndirir. A.Babayevin lirikasında sərbəst şerlərlə yanaşı, süjetli şer növünə də tez- tez rast gəlirik.Şair xarakterlərin daxili aləmini açmaq üçün süjetli şer yaradıcılığına Şairin "Tikanlı sətirlər" silsiləsindən olan "Stolbaz","Avara","Arvad alanda", "Əl tulası" və s. şerləri bu cəhətdən daha cox səciyyəvidir. Şairin süjetli şerlərində fikir sual-cavab şəklində də verilir. Bu onun şerlərinin poetikliyinin, bədiiliyinin əlamətlərindən biridir.

Şair poeziyamıza yeni üslub, yeni mövzu, yeni xarakterlər gətirmiş, şer dilimizi daha da zənginləşdirmişdir. Məhz bunun nəticəsidir ki, şairin 100-dən çox şerinə musiqi bəstələnmişdir.

A. Babayevin lirikası poetik forma etibarilə də həyati, nikbin, novator lirikadır.Ana torpağa bağlılıq, həyatı

sevmək, insanlara tükənməz məhəbbət, sədaqət və vəfanın ülvi tərənnümü bu lirikanın əsas xüsusiyyətlərindəndir.

Əlbəttə ki,A,Babayevin lirikasında bəzi dil qüsurlarına, deyilmiş fikirlərə, tərənnümçliyə də rast gəlirik.Lakin daim axtarışda olan şair bu zəif cəhətlərinə həmişə, xüsusilə yaradıcılığının son dövürlərində daha tələbkar yanaşmışdır. Ümumiyyətlə, Adil Babayev sənət möhürlü lirik şerlərilə Azərbaycan poeziyasında layiqli mövqe qazanmış, yaddaşlarda dərin izlər qoymuşdur.

Ədəbiyyat:

1.Babayev A.Yolda görüş. Bakı, Gənclik, 1974
2.Babayev A.Mənim abidəm. Bakı, Gənclik, 1979
3 .Babayev A. Ümid sərvləri.Bakı, Azərnəşr,1977

LÜTVÜYYƏ ƏSGƏRZADƏ
Heydər Əliyev muzeyi

"İBLİS"-ŞƏRQ MİFOLOGİYASININ TİPOLOJİ HƏLLİ

Cavid fəlsəfi poetik düşüncə tərzi ilə faciələr yaradan faciələr şairdir. Faciə dedikdə gözümüzün önündə humanizmin yoxluğundan cəmiyyətdə baş verən iztirab və fəlakətlər canlanır. Cavid öz faciələrində insan və cəmiyyət həyatının ən əsas problem-lərinə toxunmuş və bəşər tarixinin mürəkkəb, cavabsız suallarına cavab tapmaq istə-mişdir. Cavid yaradıcılığında cəmiyyətin özü faciədir. Məhz bu, cəmiyyətin və bəşər tarixinin mürəkkəb suallarına cavab tapmaq istəyi -Cavidə "İblis"i yazdırdı.

"İblis" Cavidin ən çox sensassiyalara səbəb olan, ətrafında mübahisələr doğu-ran faciələrindəndir. İblis mifik, mücərrəd bir obrazdır, lakin bu mifik obraz Cavidin qələmində bir başqa hal alır. Şərq mifologiyasında İblis

obrazı dərin kök salmışdır. Ə. İbadoğlu bu surət haqqında fikirlərni açıqlayarkən deyir: "İblis obrazı hələ yazılı ədəbiyyatın meydana çıxdığı vaxtdan xeyli əvvəllər də şifahi xalq ədəbiyyatında möv-cud idi və İblis surəti də şifahi xalq ədəbiyyatından alınmış, zaman keçərək for-malaşmış, hətta öz əksini dini kitablarda belə tapmışdır."[1]

H.Cavid də bu əsəri simvolik səpkidə yazıb. Ədəbiyyatda İblis obrazları əsasən zülmət və fəlakət rəmzi kimi səciyyələndirilib, lakin Cavidin İblisi bir başqa missiy-yaya-insanları zülmətdən aydınlığa çıxarmağa, onlara həqiqəti göstərməyə çalışır.

Filologiya elmlər doktoru, prof. Ə. İsmayılov İblis surətini səciyyələndirərkən bu qənaətə gəlir: "Bütün İblis obrazları mifologiyaya rəğmən fəlakət və faciə səbəbkarı olan bir qüvvə kimi verilirsə də, bəzən Şər rəmzində bununla yanaşı, işiq və nur əlamətləri də görən sənətkarlara rast gəlirik. Bu xüsusiyyət Şərq təfəkkür qaynaqları və klassik dünya romantizminin nəzəri estetik sənət ocağı ilə bağlı olan Cavid kimi mütəfəkkir şairlərin demonik aləmində özünü biruzə verir."[2] Bu əsərin iki əsas surəti var; Arif və İblis. Bunlar insan qəlbindəki iki mühim tendensiyanın; Arif Xeyirin, İblis isə Şərin rəmzidir. Bu iki rəmz; Xeyir və Şər, Cavid tərəfindən çox qeyri-adi, dahiyanə bir şəkildə verilmişdir. Arif ağıl, zəka və vicdan rəmzi kimi mənəvi təkamülə nail olmaqla, qəlbində mərhəmət kimi xoş və ülvi bir hissə yer verməklə hər cür pislik və fənalıqlara qalib gəlməyin mümkün olduğunu təsdiq etməyə çalışır. İblis isə tamamilə onun əksidir. O məğlubedilməzdir, hər zaman insanla vəhdətdədir. İblisi yaşadan, onu ölməyə qoymayan isə insandır. "İblis"də müharibə dəhşətləri bütün çılpaqlığı ilə əks olunur. Cavidin bu əsəri yazmaqda məqsədi müharibə dəhşətlərini açıb güstərmək ol-muşdur. "Cavidi imperialist müharibəsinin törətdiyi dəhşətlər həyəcanlandırır, ləkə-lənən ədalət və əxlaq həqiqətlərini ittiham edirdi"[3]-deyən M. Əlioğlu nə qədər haqlıdır.

Lu - Sin" Sərsəmin gündəliyi" əsərində Konfusi etika-sının mürtəce mahiyyətini belə açıqlayır: "Mən tarix kitabını

açdım. Hər səhifəsi "insanpərvərlik," "əxlaq," "fəzilət" sözləri ilə doludur. Birdən sətirlər arasından oxudum ki, bütün dünya bir sözdən "insanı əti yemək" sözündən ibarətdir."[4] Cavid də "İblis"də dünyanı qana çalxalayan, müharibə ocaqları yaradan, bəşər tarixini müharibə dəhşətləri ilə dolduranların əlehinə yazmış, müharibənin insanlara hansı dəhşətləri gətirdiyini, müharibə tərəfdarlarının mənfur simalarını; gah Şərqdə abid, gah Qərbdə zahid olan Qərb im-perialistlərinin və onların casuslarının əsl simalarını açıb göstərmişdir. Əsərdə İblis Arifin əlindən tutaraq, sanki onu həyat yolları ilə aparır, ona həyatda olan haqsız-lıqları, insanların mənəvi əzab-əziyyətini, bir sözlə, "inləyən yer üzünü" göstərməyə çalışır. Arifdə sarsıntılı hallar, təlatümlər baş qaldırır. Buradan da Arifin faciəsi baş-layır ki, bu da əqlin və idrakın faciəsi idi. Sarsıntılar və təlatümlər içərisində çırpınan Arif ulu, qüvvəti, göyləri köməyə çağırır, çünki əql ilə hissin arasında çırpınır, öyrən-dikləri onun əqlinə, idrakina ziya salmır. Onun qəlbində bir şübhəçilik, inkarçılıq var, son çarəni "ulu, qüvvəti", göyləri köməyə çağırmaqda görür:

Ey varlığı yox, yoxluğu vardan daha dilbər!
Ruhum səni izlər.
Lütf et, o gözəl çöhrəni bir an mana göstər,
Könlüm sən özlər!-[5]

Arif mənən çox gücsüzdür, maddi varlığı dərk etməkdə acizdir, buna görə də ,o, özü-nü mənəvi boşluqda görür. Onun bu mənəvi boşluğunu görən İblis ona "həyat həqiqətlərini" görmək və dərk etmək üçün kömək edir. Arifin qəlbinə şübhə toxumu səpir. Ona sağır göylərin onu duymayacağını, köməyi olmayacağını söyləyir. Arif tərəddüdlər içərisində çırpınır, bunu İblis görür. Arifin ruhuna hakim olmaq istəyir, bu istəyin-də israrlıdır. Arif İblisin bu israrı qarşısında İblisin sözləri ilə desək;

Şərqin əsəbi yavrusu bilməz ki, nə yapsın,
Bilməz ki, sağır göylərə, yaxud mana tapsın,

deyə tərəddüdlər keçirsə də, o, İblisə təslim olmaq istəmir;" Mən nura fəqət talibəm, atəş nəmə lazım!"-deyərək onu rədd

edir. Lakin İblis məğlubedilməzdir!. Məhv olsa da həp mənliyim uymam sana"- deyərək İblisi rədd edən Arifi özünə təslim etməkdə İblis daha israrlidir. Əvvəlki fitnələrinin baş tutmadığını görən İblis Arifin qarşısına Rənanı çıxarır. Rənaya aşiq olan Arif ona yetişmək üçün çırpınır, onun atasının qati-lini axtarmağa başlayır. Arifdəki dəyişikliyi görən İblis ona silah və pul verir. Arifə "həqiqəti" başa salan İblis "həqiqətə gedən yolda" ən real vasitənin altun və silah ol-duğunu göstərir. Artıq İblis onun qəlbinə hakimdir və Arifin ruhuna hakim kəsilən İb-lisin təhriki ilə o, qardaş qatilinə çevrilir. Arif mühitin təsirinə düşərək vaxtı ilə imtina etdiyi silaha əl atır. Bu dəfə İblis Arifin gözünə abid qiyafəsində görünür, özünü "piri hikmət" kimi göstərir. Ruhunu İblisə satmış Arif onun ayaqlarına qapanır, onu mələk adlandırır və əlindən öpür. Artıq meydan Şərindir. Şərə-İblisə uymuş Arif çılğın vəziyyətdə arvadı Xavəri boğub oldürür.

İblis böyük Şərdir ki, insanın əməllərində təzahür edərək özünü göstərir, insanla onun əməllərinə şəriklik edir. Böyüklük isə İblisə uymamaq, Şəri özündən kənarlaş-dırmaq, qəlbini Şərə, atəşə deyil, nura, işığa satmaqdır. Cavidin:

İblis nədir? Cümlə xəyanətlərə bais,
Ya hər şeyə xain olan insan nədir?-İblis!

dediyi İblisi harada axtarmaq lazımdır? Sözsüz ki, göylərdə, mistik aləmdə Şəri axtarmaq düzgün deyil. İstər-istəməz düşünürsən,bəs onda İblisi harada axtarmalı?

Şəri-İblisi ikinci dünyamız olan mənəviyyatımızda, mənəvi dünyamızda axtar-malıyıq. İnsan olan kəs, hər zaman əqlinə və nəfsinə hakim olmalı, məkrə, Şərə-İblisə uymamalıdır. Əsərdə də gördüyümüz kimi, Arif də əvvəllər İblisi lənətləyir, onu rədd edir. O, nicatı İblisdə deyil göylərdə axtarır. "Nə eşq olaydı, nə aşiq, nə nazlı afət olaydı"- deyən Arifin fəryadı yeri - göyü lərzəyə salır. Arifin fəryadı yeri də, göyü də dəhşətə salan, bəşəriyyəti qan çanağında üzdürən dünyəvi iblislərin əməllərindən dəhşətə gəlmiş qoca Şərqin səsidir. Əzilən, qəhr olan, insan yenə Allaha şükür edir. Bəs insanı əzən, məhv edən kimdir? İnsanı yaradan. İnsanların dünyada çəkdikləri, qəhr

olmaları da, məhz hər şeyə qadir olan Yaradanın, əlindədir. Və hər şeyə qadir olan yaradanın məsləhəti ilə qəhr olan insanların Allaha şükr etməsinə İblis qəhqəhə ilə gülür;

Əvət, əzsən də, əzilsən də, əvət,
Yenə adildir, o müdhiş qüvvət.

Əsər boyu İblis göylərə meydan oxuyur. A. Şaiq Cavidin İblisini xarakterizə edərək yazır: "Cavidin İblisi bildiyimiz əsatiri İblis deyildir, o, "atəşli müəmma", insanlara hər cürə fənalıq yapdıran, vəhşətlərə sürükləyən maddi ehtirasın simvoludur."[2] Ə. İs-mayılova görə isə "Cavidin İblisi daha nəhəng, daha azmandır. O xırda-para işlərə vaxt itirmir. Onun fəaliyyət dairəsi yalnız bir dövlətin, bir vilayətin coğrafi hüdud-larına sığmır, bütün yer üzü, bütün bəşəriyyət İblisin amansız pəncəsində sıxılaraq, fəryad edir. İblis bu yerdə minillik cövhəri ilə yoğrularaq, ümumbəşəri Şər məbudu əzəmətinə ucalır." [6]

Bu Şər məbudu ilə mübarizədə insanın ən güclü dostu onun saf və təmiz mənə-viyyatıdır. Haqsızlıqlar ədalətlə, pisliklər yaxşılıqlarla əvəzlənəndə insanlıq daha gözəl olur; bunların əksi insanlarda vəhşət törədir. Məsələn, Dünya müharibəsi və ya hər hansı bir müharibə, Xeyr və Şər mübarizəsi deyilmi? İblisin də dediyi kimi, yerlərdə bu qədər İblis varkən İblisə hacət varmı? Bir-biri ilə didişməyi, qan tökməyi insanlığa bəla hesab edən Arif:

Bir fəzilətsə öldürüb -ölmək,

Canavar bundan əşrəf olsa gərək - deyərək Şəri lənətləmirmi? İblis yer üzündə artıq öz missiyasını yerinə yetirib, İblisə hacət yoxdur. Çünki yer üzü artıq İblisə belə dərs verən, qan püskürən, atəş sovuran kinli krallarla, şahlar ulu xaqanlar, o çılğın dərəbəklərlə, altun və qadın düşkünü divanə bəbəklər"lə doludur.

"İblis"də Şəri lənətləyən Cavid özü dəfələrlə həyatda İblislə üz-üzə qalmışdir. Filosof şair böyük bir ustalıqla insanların taleyini deyil, onların taleyində rol oynayan

müxtəlif ideyaların, müharibənin dəhşətlərinin, Şərin böyük rolunun olduğunu göstə-rir, insanları mənəvi yüksəkliyə, mənəvi paklığa, saflığa çağırır. Çünki İblislə müba-rizədə ən güclü silah insanın pak və təmiz qəlbi, saf mənəviyyatıdır. Cavidin "İblis" faciəsindəki hadisələr Şərq aləmində baş versə də, bu əsəri təkcə Şərq aləminə aid etmək olmaz, çünki bu əsərdə ümumbəşəri ideyalar əks olunmuşdur. Əsərin qəhrə-manı İblis təkcə Şərqin yaratdığı İblis deyil, bu İblis ümumbəşəri bir İblisdir. Bu İblis hər dona girə bilir. O gah Şərqdə abiddir, gah Qərbdə rahib.

Bu əsərin yüksək sənətkarlıqla yazıldığını vurğulayan M. Əlioğlu yazır: "İblis"fa-ciəsində böyük sənətkarlıq qüdrəti ilə və xüsusi ardıcıllıqla təbliğ olunan "ümumi məhəbbət", "qardaşlıq", "vicdan və mərhəmət" fəlsəfəsi , əslində, Hüseyin Cavid romantizminin humanist təbiətini aşkar edən amillərdən biridir. "İblis"in sənət əsəri kimi əsas əhəmiyyəti də, elə onun bəşəri mahiyyət kəsb edən həmin məzmunu, huma-nizmə məxsus keyfiyyətləri təbliğ etməsində və parlaq boyalarla canlandırılmasında-dır. H. Cavidin o dövrdəki dünyagörüşündən çıxış edərək, İblisə qiymət verdikdə, onun ideya və bədii vəziyyətləri daha aydın şəkildə meydana çıxır."

Həqiqətən də, "İblis" əsəri bəşəri ideyalar təbliğ edən, insanları mənəvi yük- səkliyə çağıran, düşündürən zamanın əsəridir, bu günümüzlə müasirdir. Hələ 1918-ci ildə Cavid özü İblislə, Böyük Şərlə üz-üzə gəlmişdir. Mart qırğınları zamanı Cavid altmış nəfərlə əsir götürülmüş və altmış nəfər Cavidin gözü qarşısında güllələnmişdir. Cavid isə bir təsadüf nəticəsində sağ qalmışdır. Bunu A. Şaiq də öz xatirələrində qeyd edir. Sonralar Cavid dəfələrlə İblislə rastlaşır; Cavidi yerli-yersiz tənqid edən dayaz-larla, Cavidin uzaq Tayşetə sürgün qərarını imzalayanlarla, bir sözlə Cavid qədər həyatda Şərlə rastlaşan olmayıb. İblisə uymuş bəşəriyyəti gözləri ilə görən, onların vəhşətindən dəhşətə gələrək sarsılan, lakin heç vaxt böyüklüyündən enməyən, sınma-yan, bəşəriyyətin düşdüyü bu hala ürəyi sızıldayan Cavid, görən

həyatda neçə dəfə öz-özünə sual verməli olmuşdur; "İblisəmi uymuş bəşəriyyət"!?

Ədəbiyyat:

1. İbadoğlu. Ə. Hüseyn Cavidin "İblis" faciəsi, Bakı, -Azər SSR EA nəşriyyatı, 1969, s. 17.
2. İsmayılov. Ə. Dünya romantizmi ənənələri Bakı, 1983, s. 155,158.
3. Əlioğlu M. Hüseyn Cavidin romantizmi, Bakı, Azərnəşr,1975, s. 160,169.
4. Лу – Синь. Собрание сочинений т. Ы, М, 1954, с. 64,65.
5. Hüseyn Cavid, Əsərləri, II cild. Bakı, Yazıçı, 1982, s. 255, 342, 59, 73, 78.
6. Cavid. M. Cavidi xatırlarkən, A.Şaiq, İblisin ham hailəsi haqqında duyğularım, Bakı, Gənclik, 1982, s. 53.

NƏZAKƏT İSMAYILOVA
Naxçıvan Dövlət Universiteti

MƏDƏNİ İRSİMİZİN GÜNEY QOLU İSTİQAMƏTİNDƏ ÖYRƏNİLMƏSİ

Türk etnik mədəni sisteminin tarixi-estetik mahiyyətini biz bütöv halında ortaya çıxarmaq üçün onun müxtəlif axarlardakı əsas daşıyıcılarının yaranmış biçimlənmə dəyişmə və dəyişilmə prosesləri dərindən öyrənilməlidir. Hər hansı bir istiqamət obyektiv tarixi-coğrafi kontekst daxilində araşdırılmadıqca gerçək mənzərənin əldə olunması imkan xaricində qalır.

Azərbaycan folklorunun tarixi nə qədər qədimdirsə, onun janrlarının əhatə dairəsi nə qədər genişdirsə, nümunələrdə ifadə olunan ideyalar nə qədər müasirdirsə, onların araşdırılması da bir o qədər vaxt və zaman tələb edir. Qeyd etmək lazımdır ki, hər yeni dövr, yeni ictimai-siyasi münasibətlər folklor abidəsinə, bütövlukdə xalq yaradıcılığına yeni düşüncə tərzi ilə yanaşmağı bir çox zəruri məsələlərə yeni istiqamətdə baxmağı tələb edir.

Əlbəttə, imperiyanın dağılması ilə ədəbiyyata mətbuata münasibətdə 70-ildən bəri hökm sürməkdə olan ənənəvi baxış tərzi uçulub dağılmış, ədəbiyyatımızda, folklorumuzda milli məfkurəyə söykənən yeni bir konsepsiyanın bərqərar olması üçün zəmin yaranmışdı.

Mövzunun adı ilə bağlı öncə bunu qeyd etməliyəm ki, Vahid Azərbaycan xalqının əsrlərdən bəri yaratdığı müştərək folklor nümunələrini heç vəçhlə güneyə və qüzeyə aid etmək olmaz. Yalnız bu bölgü sırf tədqiqat məqsədi ilə şərti olaraq toplandığı məkana görə toplayıcının yaşayş yerinə görə epik folklor nümunələrindəki konkret tarixi surətlərə görə aparılmışdır. Bu tədqiqat işində çox əsirlik tarixə malik olan tarixi mənəvi irsimizin güney qolu istiqamətində öyrənilməsi əsas götürülmüşdür.

Son yarım əsrdə xalqın bütövlük yaddaşını öz mənində öz əməli işində əks etdirən bir sıra folklorşunas tədqiqatçılar yalnız ədəbiyyatımızı və folklorumuzu bu yöndə araşdırmış və tədqiq etmişlər (5, s. 2). Belə tədqiqatçılardan güney Azərbaycanda yazıb yaratmış S.Cavid, M.Xamneyi, M.Niqabi, Elsevən, X.Dizəc, C.Heyət, M.Fərzanə, Faruk Səfizadə, Əli Kəmali, S.Behrəngi, Səhənd, Savalan, Q.Bəydili, Hüseyn Feyzullahi, Nəcib, Murtəza, Məszidfər, Məhvəş xanım, Cövdət və başqaları xalqımızın mənəviyyatını əks etdirməklə, ruhunu yüksəldən inciləri üzə çıxarmaqla folklor nümunələrini toplayıb çap etdirərək itib - batmaqdan qoruyub saxlamışdılar.

Doktor S.Cavid və Əbdülkərim Mənzuri Xamneyi ilə birlikdə 1277 tapmacaları 38 yanıltmacaları və 72 aşıq bağlamalarını «tapmacalar» adı ilə (7, s. 2) 1980- cı ildə çap etmişlər. Bütün həyatı boyu xalqına xidmət edən dok. S.Cavid topladığı folklor nümunələrinin birinci cildini 1966-cı ildən nəşr etdirmiş, bu kitabın ikinci cildini Azərbaycan folklorunda nümunələr adı ilə 1980- cı ildə yəni İran İslam inqilabından sonra nəşr olunmuşdur.

Pəhləvi rejimi dövründə dilimizə olan yasaq və təzyiqlər daha da artdı. Ana dilimizdə olan bütün kitablar

xalqın gözü qarşısında yandırılaraq məhv oldu. Bu zaman fəaliyyət göstərən Tərbiyət kitabxanasındakı kitablarla birlikdə « Kitabi Dədə Qorqud Dastanı» da anbara verilərək qapısı möhürləndi. İkinci dünya savaşından sonra kitabxana fəaliyyətini bərpa edə bildi.

İranda «Kitabi Dədə Qorqud» dastanı kitabı haqqında ilk söz deyən Dok.M.Fərzanə olmuşdur.O, «Azərbaycanın milli dastanları» adı ilə dastanın xeyli hissəsini çap etdirərək İranda tanınmasına səbəb olmuşdur (8, s. 33). Ümumiyyətlə, Dok.M.Fərzanə el ədəbiyyatının toplanmasının qayğısına qalaraq illər boyu topladığı bayatıları ilk dəfə 1964- cü ildə, ikinci dəfə isə 1981- ci ildə nəşr etdirir. O,Yaqub Qütsdə neçə illik zəhmətinin məhsulu olan 6000 atalar sözünün birinci cildini farsca qarşılığı və izahı ilə birlikdə 1981- ci ildə nəşr etdirmişdir. O zaman Azərbaycanı dilində nəşr olunan «Azərbaycan» qəzetində də el ədəbiyyatından nümunələr nəşr olunurdu.

Azərbaycan folklorunun toplanmasında S.Behrənginin və B.Dehqaninin də xidmətləri böyük olmuşdur(6, s. 2). Xalq içərisindən çıxmış Behrəngi Azərbaycanın kənd və qəsəbələrində müəllimlik etməklə bərabər folklorumuzla bağlı araşdırma aparmış və bir çox material toplamışdır.Behrəngi Dehqani ilə birgə «Məsələlər və tapmacalar» adlı kitabın çapına müvəffəq olmuşlar (2, s. 2). Hər iki müəllif Pəhləvi rejiminin qurbanı olmuşdur. S.Behrəngi Arazda boynuna daş bağlanaraq boğulmuş, B.Dehqani isə işgəncə ilə öldürülmüşdür. Onların yazdıqları dəyərli əsərlər ölümlərindən sonra qiymətlərini almışdır. S. Behrəngi uşaqlar üçün yazdığı nağılların mayasını da folklorumuzdan götürmüşdür.

Əli Kəmali də güney Azərbaycanda son zamanlara qədər yazıb yaradan folklorşunas alim kimi tanınırmış. O, öz xalqının dilini və tarixini sevərək Orta İran türklərinin folklor nümunələrini ilk dəfə olaraq ortaya çıxarmışdı. Böyük ümmanı göstərərək bu ərazinin bir türk yurdu olduğunu göstərirdi.

Kəmali doğulduğu yerin, Həmədanın, Zərəndə də yaşayan türklərin, başlıca olaraq Xələj türklərinin el ədəbiyyatını toplayıb təbliğ edərək göstərdi ki, «Gilmqamış dastanı» ilə Orta İran türklərinin dili və mədəniyyəti arasında sıx bağlılıq var. 90 yaxın el və obada yaşayan iki milyon yarımdan çox Qaşqay türklərinin böyük mədəniyyətini də Ə.Kəmali ortaya çıxardı (3, s. 2). O, güney Azərbaycandan kənarda olan türklərin yaşadığı obaları qarış-qarış gəzərək, müasir və keçmişdə yazıb yaratmış şairlərin əsərini türk elinin folklorunu, yer adlarını toplayıb öyrənməklə məşğul olmuşdur (7, s. 2). Onun topladığı el ədəbiyyatı folklorumuz üçün dəyərli material verdi. Güney Azərbaycanda yaşayan, Savalan təxəllüsü ilə tanınan, milli ruhlu şair yazdığı poemaların mayasını əsasən xalq rəvayətlərindən götürmüşdür. «Dinlə, gəlin qayası», «Apardı sellər Saranı», «Bahar bayramı» və s.poemalarını böyük ustalıqla və yaradıcı bir ilhamla yazılmış xalq rəvayəti əsasında şirin ana dilimizdə gözəl sənət əsəri yaratmışdır. O, Azərbaycan mahnı və bayatılarını «Türki tərənələr» adı ilə iki ci ildə 1963 və 1969- cu illərdə çap etmişdir (2, s. 2).

1981- ci ildə güney Azərbaycanda Ağa Ələsgər Xürrəm adlı mütərəqqi fikirli bir ziyalı tərəfindən «Ədəb xəzinəsi» və yaxud «Tahirəyə abidə» adlı 380 səhifəlik kitab hazırlamış, prof. Q.Bəydilinin redaktorluğu ilə çap olunmuşdur. Bu kitaba mühüm mətləblər ifadə edən mənalı bir ön söz yazılmışdır. Kitabın birinci bölməsində yüzə yaxın şairin yaradıcılığından «Seçmə nümunələr» daxil edilmişdir.

Kitabın ikinci bölməsi «Aşıq sözlərindən nümunələr» adlanır. Bildiyimiz kimi Azərbaycan şerinin ən qədim və zəngin qollarından olan aşıq poeziasının yaranma tarixi indiyədək dəqiq müəyyənləşdirilməmişdir. Amma bununla belə, kitaba daxil edilmiş Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər, Növrəst İmran və başqa sənətkarların yaratdıqları qiymətli poeziya incilərini bu yolla açmaq mümkündür (1, s. 2).

«Ədəb xəzinəsi» kitabında dörd mindən çox atalar sözü və məsəllər toplanmışdır. İslam inqilabından sonra ana dilimizdə nəşr olunan bu dəyərli kitabın müəllifi Ələsgər Xürrəm zəngin mənəvi xəzinəmizi böyük zəhmətlə toplayaraq onlara yenidən həyat vermiş xalqa qaytarmışdır.Bunu da qeyd etmək yerinə düşər ki, vətənpərvər ruhlu ziyalının qızı Tahirə xalqının azadlığı yolunda qurban getmiş, şah rejiminə qarşı döyüşən partizanların sırasında rəşadət göstərib qəhrəmancasına həlak olmuşdur və buna görə kitabın adı «Ədəb xəzinəsi» yaxud «Tahirəyə abidə» adlandırılmışdır.

1954- cü ildə Əli Təbrizi «Əsli Kərəm» dastanının çapına müvəffəq olmuş sonra isə Kazım Sədrudi ilə birlikdə «Aşıq Qərib və Şahsənəm» dastanını müqəddimə ilə çap etdirmişdir (4, s. 2).

Son illərdə folklorşunas alim Hüseyn Feyzullahi Vəhid və Niqabi ayrıca bayatılar məcmuəsi nəşr etdirmişlər. 1990- cı ildə dok. C.Heyətin Azərbaycan şifahi xalq ədəbiyyatı adlı kitabında folklorun ideya-fəlsəfi zənginliyi, forma-üslub xüsusiyyətləri və poetik sənətkarlıq kamilliyi ilə vəhdətdə təhlil olunur. Ən qədim folklor irsimiz, xüsusən əfsanələr, əsatir və mərasimlər vahid türk soykökünün tarixi inkişafı bu kitabda öz əksini tapmışdır. Bundan sonra İlyas Muşeqin «nəğmələr kitabı» haqqında danışarkən demək lazımdır ki, Muşeq 1721-ji ildə Təbrizdən Rusiyaya gedərkən həbsxanaya salınmış var yoxu əlindən alınmışdır.Onun günahsız olduğunun bilindikdən sonra buraxılmış «Nəğmələr adlı» kitabı özünə qaytarılmamışdır.Bu kitab Moskvaya göndərilmişdir. Burada əsasən miladdan iki yüz il qabaq Çin qaynaqlarında qorunmuş nəğməli kitaba daxil edilmiş, eyni zamanda (8, s.42) müəllifin Koroğlu haqqındakı araşdırması Azərbaycan Koroğluşünaslığı üçün mühüm əhəmiyyət daşıyır.

Bu gün fəxrlə deyə bilərik ki, Güney eli ağır və dözülməz təzyiqlərə məruz qalmasına baxmayaraq öz milli qürurlarını, ana dilimizi saxlamaq üçün həmişə mübarizəyə hazırdırlar. Onlar folklorumuzu el- el, oba-oba gəzərək

toplayıb mətbuatda və ayrı-ayrı kitab halında nəşr etdirməklə bizləri ürəkdən sevindirir. Biz əminik ki, gələcəkdə Güneydə xalq dühasının məhsulu olan sənət nümunələrinə maraq daha da artacaq və onlar xalq tərəfindən toplanaraq ayrıca kitab şəklində nəşr olunacaqdır.

Ədəbiyyat:

1. Abdullayev B. Ədəb xəzinəsi yaxud Tahirəyə abidə. Azərbaycan müəllimi qəzeti, 16 fevral 1983
2. Abdullayev B. Güney sovqatı. Azərbaycan müəllimi qəzeti, 22 avqust 1990
3. Babaxanlı G. Cənubi Azərbaycan mətbuatında folklor nümunələri Azərbaycan müəllimi qəzeti, 19 oktyabr 1983
4. Zamanov A. Nəbiyev A. Şifahi xalq yaradıcılığımız yeni tədqiqatda. Ədəbiyyat və incəsənət qəzeti, 8 dekabr 1989
5. Cavad Heyət. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Azərnəşr, 1990 s.3-7
6. Cəfərzadə Ə. Varlıq dərgisi və folklor. Azərbaycan müəllimi qəzeti, 18 aprel. 1991
7. Hacıyev İ. Kazımlı C. Mənəvi körpü yaradanlar. İki sahil qəzeti, 15 mart 1994
8. İsmayılova N. Varlıq dərgisində Şimali Azərbaycan ədəbiyyatı (Dissertasiya), 1999

ƏLİ QƏHRƏMANOV
AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu

RZA TƏHMASİBİN TEATR, KİNO VƏ PEDAQOJİ FƏALİYYƏTİ

Azərbaycan teatr sənətinin qüdrətli nümayəndələrindən biri, mənalı və ibrətamiz ömründə – həm teatrda, həm də kinoda, onlarla obraz yaradan və zəngin mənəviyyatlı obrazlarıyla tamaşaçıların qəlbinə köçən görkəmli pedaqoq, Respublikanın xalq artisti, professor, SSRİ Dövlət mükafatı laureatı Rza Abbasqulu oğlu Təhmasib mənalı bir ömür

yaşadı(1894-1980). Onun pedaqoq, teatr və kino ömrünü göz önünə gətirəndə, fikrimizin fövqündə neçə-neçə obrazlar silsiləsi canlanır. Romantik, dramatik yönümlü bu obrazlar dərin emosionallığı, yüksək intellektuallığı ilə fərqlənir. Bu qüdrətli sənətkarın yaratdığı ölməz surətlər tamaşaçıların qəlbini riqqətə gətirir, ona görünməmiş uğurlar qazandırır. Onun adı və sənəti Azərbaycan mədəniyyətinin tarixində dərin hörmətlə yad edilir.

Rza Abbasqulu oğlu Təhmasib 1894-cü ilin aprel ayının 20-də Naxçıvan şəhərində anadan olmuşdur. O, ilk təhsilini görkəmli Azərbaycan maarifçisi Məhəmməd Tağı Sidqinin«Məktəbi tərbiyə»sində almışdır. Naxçıvan ziyalılarından Əziz Şərif, Ələkbər Qərib, Rza Təhmasib, Xəlil Hacılarov, Məhəmməd və Əli Xəlilovlar, Heydər Vəzirov, Əsəd Şeyxov, Məhəmməd Həsən və Rüfət Cəfərovlar, Hüseyn Cavid, Qasım Camalbəyov, Məhəmmədəli Sidqi, Rzaqulu Nəcəfov bu məktəbin ilk məzunlarından olmuşlar. Sənət aləminə maraq R. Təhmasibdə məktəbdə oxuduğu illərdən başlanmışdır. Bu haqda görkəmli aktyor belə yazırdı: «1907-ci ildə həmin məktəbdə oxuyarkən Puşkinin ölümünə həsr olunmuş gecədə Qoqolun «Ölü canlar» əsərində Çiçikovun Nazdryovun evinə gəlməsi səhnəsini göstərirdik. Mən Çiçikov rolunu oynayırdım, özü də rusca. Bu mənim ilk rolum idi. Ümumiyyətlə, Naxçıvan mühitinin mənim yaradıcılıq həyatımda müstəsna rolu olub. Mən həmin illərdə Naxçıvanın həvəskar aktyorlar dərnəyində fəal iştirak edirdim. Rejissorumuz böyük istedad sahibi, komik aktyor Böyükxan Naxçıvanski idi»[1].

Rza Təhmasib hələ ibtidai məktəbdə oxuduğu illərdə şerə, sənətə, Azərbaycan, rus, dünya ədəbiyyatına maraq göstərir, gənclik illərində Naxçıvanda, Tiflisdə və Bakıda təhsil aldığı vaxt isə o, dram dərnəklərində özünün səhnəyə olan həvəsini durmadan inkişaf etdirirdi. O günlər gənc Rzanın teatrı böyük bir məhəbbətlə sevdiyi hamıya məlum idi. Onun gələcəyə böyük ümidlər verən bir istedad sahibi olduğu da aşkarlanırdı.

1909-cu ilin may ayında Azərbaycanın böyük aktyoru Hüseyn Ərəblinski 12 nəfər artistlə Naxçıvana qastrola gəlir. O, burada yerli dram dərnəyinin üzvləri ilə birlikdə Ə.B. Haqverdiyevin «Bəxtsiz cavan» əsərinin tamaşasını (29 may) göstərir.[2] Onun böyük aktyorluq məktəbinin təsiri altında. Rza Təhmasib, Əliqulu Qəmküsar, Həsən Səfərli, Rza İsfəndiyarlı, Mirhəsən Mirişli və bir çox başqaları həyatlarını teatra bağlayırlar.

XX əsrin 10-cu illərində Naxçıvanda teatr o qədər şöhrətlənir ki, məktəblərdə müsəlman qızları tərəfindən də tamaşalar hazırlanıb nümayiş etdirilirdi. İnqilabdan əvvəlki Azərbaycan teatrlarında aktrisalar yox idi. Qadın rollarını ya kişilər, ya da başqa millətlərdən olub. Azərbaycan dilini bilən aktrisalar ifa edirdilər. Buna görə də Naxçıvandakı qadın truppasının tamaşası böyük ictimai əhəmiyyətə malik idi. 1912-ci ilin fevralında Naxçıvan Rus – tatar (müsəlman) məktəbində müsəlman qızları tərəfindən qadınlara məxsus Z.Hacıbəyovun ruscadan tərcümə etdiyi «Qırmızı araçqın» [3] tamaşası fevral ayının 1-də Z. Hacıbəyovun «Evlikən subay» operettası və Böyükxan Naxçıvanskinin nəzarəti altında Ə.B. Haqverdiyevin «Dağılan tifaq» faciəsi, «Kəbləyi güzəməli» məzhəkəsi oynanılır və bunlarla yanaşı N.B. Vəzirovun «Pəhləvanani zəmanə» əsəri yoxsul şagirdlərin xeyrinə olaraq tamaşaya qoyulur . Səhnə evlərdən gətirilmiş cecim, xalçalar, miz və səndəllər, lampa və şamdanlarla bəzədilir. Bu tamaşa haqqında H. Səfərli xatirələrində yazır: «Tamaşadan 182 manat 50 qəpik pul toplanıldı. Bu tamaşadan toplanılan pulu əvvəlki tamaşalardan toplanılan pulla müqayisə etdikdə tamaşaçıların da artdığı nəzərə çarpır»[4].

1917-ci ilin axırlarında Rəşid bəy Əfəndiyev Naxçıvanda qızlar məktəbinin müdiri olarkən, həmin məktəbin müəlliməsi Nazlı xanım Nəcəfova və Rza Təhmasibin köməkliyi ilə məktəbli qızlardan ibarət dram dərnəyi təşkil edilir. Bütün aktyorlar və qabaqcıl fikirli ziyalılar dram dərnəyinə kömək edirdilər. Məşqlər həm dram dərnəyində, həm də Nazlı xanımın mənzilində aparılır.

1917-ci ilin noyabr ayının 12-də yalnız qadınlar üçün Ü. Hacıbəyovun «Arşın mal alan» musiqili komediyası R. Təhmasibin rejissorluğu ilə tamaşaya qoyulur. Həmin tamaşanın iştirakçıları Nazlı xanım Nəcəfova (1890-1976) və Süsən xanım Səfərova qeyd edirdilər ki, tamaşa zamanı zal tamaşaçı qadınlarla dolu idi. Tamaşada iştirak edən həvəskarlar öz rollarını yaxşı oynayırdılar. Həmin bu qadınlar truppasına aktyorlar rəhbərlik edirdilər. Rolları aşağıdakı qadınlar və qızlar; Soltanbəy – Süsən Sultanova, Cahan xala – Gövhər Kəngərli, Süleyman – Asya Məmmədəliyeva, Vəli – Xanım Vəzirova, Gülçöhrə – Dilbər Sultanova, Telli – Fatma Şeyxova ifa edirdilər.[5]

1917-ci ildə şair Əliqulu Nəcəfov (Qəmküsar) (1880-1919) Rza Təhmasiblə birlikdə gənc teatr həvəskarlarını ətrafına toplayaraq «El güzgüsü» adlı bir dram cəmiyyəti təşkil edir. Müharibə şəraitində irticaçı qüvvələrin müxtəlif partiyalar adından çıxış etdiyi bir dövrdə «El güzgüsü» dram cəmiyyəti siyasətdən kənarda qalmayıb günün daha aktual və siyasi məsələlərini nümayiş etdirir və «Rüşdiyyə» məktəbinin müəllimləri də bu dram cəmiyyətində daha fəal iştirak edirlər.

Naxçıvan teatrının ən maraqlı hadisələrindən biri də «El güzgüsü» dram cəmiyyəti tərəfindən C.Məmmədquluzadənin «Ölülər» komediyasının tamaşaya qoyulması idi. Ə.Qəmküsar və R. Təhmasib Naxçıvanda olduğu müddətdə təşkil etdiyi «El güzgüsü» dram cəmiyyətinin üzvləri ilə birlikdə 1917-ci il iyul ayının əvvəllərində C. Məmmədquluzadənin «Ölülər» pyesini, bunun ardınca M.F. Axundovun «Molla İbrahim Xəlil Kimyagər», Ə.B. Haqverdiyevin «Bəxtsiz cavan», N.B. Vəzirovun «Müsibəti – Fəxrəddin» əsərlərini də tamaşaya qoyurlar.[6]

1918-ci ilin mart ayının 26-da Naxçıvanda «İmdad» cəmiyyəti tərəfindən «Ölülər» əsəri yenidən tamaşaya qoyulur və R.Təhmasib bu tamaşanın təşəbüskarlarından biri olur. Tamaşadan sonra ruhanilərin təhriki ilə bir dəstə nadan «İmdad»ın əşyası saxlanılan otağın qapısını açaraq teatra aid bütün əşyalara od vurub yandırmış, stolun üstündə isə belə

bir məktub qoyub getmişlər. Orada deyilir: «Bir daha «Ölülər» əsərini tamaşaya qoysanız, özünüzü ölmüş bilin».[7]

«İmdad» cəmiyyətinin çıxışları daşnaqların tör-töküntülərini bərk narahat etdiyindən bu cəmiyyəti dağıtmağa və tamaşaların göstərilməsinə mane olmağa başlayırlar. Onlar Kərim xana şikayət edirlər. Bu hadisədən sonra Naxçıvan şəhərinin hakimi Kərim xan «İmdad» dram cəmiyətini bağlatmağa məcbur olur. O dövrdə aktyorlar təqib olunurlar və buna görə də Naxçıvanın bir çox ziyalıları - Əkbər Abbasov, Əkbər Namazov, Hacı Nəsirov, Teymur Qasımov, Rza Təhmasib, Əli Xəlilov, Rza İsfəndiyarlı, Həmid Mahmudov və başqaları zülm və zorakılığa dözə bilməyib Zaqafqaziyanın başqa şəhərlərinə köçüb gedirlər.

Görkəmli sənətkar R. Təhmasıb 1917-ci illərədək Tiflis, İrəvan, Naxçıvan teatrlarında aktyorluq edir. Təhmasibin yaradıcılığı əsasən M. Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrı ilə bağlıdır. O, burada 1920-ci ildən aktyor və rejissor, direktor və bədii rəhbər (1922-1924), (1937-1938), (1953-1958) işləmişdir. Təhmasib Azərbaycan Dövlət Dram Teatrında çalışdığı müddətdə də Naxçıvan teatrı ilə yaradıcılıq əlaqəsi saxlamış, vaxtaşırı qastrola gəlmişdir.

1931-ci ildə Azərbaycan Dövlət Bədae Teatrı (M. Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrı) Naxçıvana qastrola gəlir. Truppanın tərkibində Tuqanov, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Rza Təhmasib, Hidayətzadə, Mirzəağa Əliyev, Rza Darablı, Mərziyə xanım, Qəmər xanım, Rza Əfqanlı, Məcid Şamxalov, Məmmədli Vəlixanlı, Mustafa Mərdanov, Əli Qurbanov və başqaları var idi. Onların bu qastrol zamanı göstərdikləri «Hamlet», «Şeyx Sənan», «Dəli Knyaz», «Aydın», «1905-ci ildə», «Od gəlini» kimi tamaşalar[8] hamını heyran qoymuşdur.

R. Təhmasib hər bir rolun şah damarını, həyat mayasını, fəlsəfi qayəsini tapmağı və inkişaf etdirməyi gözəl bacarırdı. Onun ifa etdiyi obrazların xarakteri niyyətlərdə, əməllərdə, hərəkətlərdə öz təzahürünü tapırdı. O, bütün qüvvəsiylə Azərbaycan teatr sənətini inkişaf etdirməyə

çalışırdı. Günəşin mülayim şüaları böyüdücü şüşədən keçərkən yandırmaq dərəcəsinə çatan kimi, Təhmasib yaradıcılığı da tamaşaçıların, sənətsevərlərin qəlbinə, şüuruna od salır və bu odun gücündə o, Lunaçarskinin «Şahın bərbəri» əsərində adi bir rəiyyət olan Aristid obrazında haqqın adından danışır, ədalət mücahidinə, insan xilaskarına çevrilir.

R.Təhmasib böyük miqyaslı, monumental yaradıcılığa malik idi, lakin o, eyni zamanda təfərrüat ustası idi. Kiçik bir əşyaya ani bir baxış, güclə seçilən və sezilən ifadə qüvvəsi kəsb edə bilirdi. Hacı Əhmədin çubuğunu, Imamyarın müştüyünü, yaxud dindirilərkən onun kibriti necə söndürdüyünü yada salın. Bu xırdalıqlar aktyor tərəfindən, əlbəttə, böyük məqsəd üçün- xarakter yaratmaq üçün fikri, ideyanı əyaniləşdirmək xatirinə edilirdi.

Görkəmli sənətkarın rejissorluq və müəllimlik fəaliyyətinə gəlincə, onların xüsusiyyətini, ləyaqətini, həyatiliyini görmək daha münasib idi. R. Təhmasib M.Əzizbəyov adına Dövlət Dram Teatrında tamaşaya qoyulmuş «Hacı Qara», «Madrid», «Özgə uşağı», «Sevil», «Almaz» kimi tamaşaların rejissoru olmuşdur. O, Moskvada S. Eynşteyn və M. Kedrov kimi görkəmli sənət xadimlərinin rəhbərliyi altında kinematoqraf təhsili və ixtisası aldıqdan sonra «Azərbaycanfilm» studiyasında bir sıra bədii filmlər yaratmışdır. «Səbuhi» (1943), «Arşın mal alan» (1945), «Bakının işıqları» (1950), «Mahnı belə yaranır» (1959). «Onu bağışlamaq olarmı?» (1960), kino-filmləri R. Təhmasibin bacarıqlı bir kino xadimi olduğunu xarakterizə edən sənət əsərləridir.

Ü.Hacıbəyovun fikrinə müvafiq səmimi lövhələrlə çəkilmiş «Arşın mal alan» filmi kino xəzinəmizin ən parlaq incilərindəndir. R. Təhmasibin bu filmdə əsl sənət ustası kimi bütün fikir və bacarığı aktyor sənətinin parlamasına yönəldilmişdir. Ü.Hacıbəyovun təsvir etdiyi surətlər üçün münasib aktyorlar seçməklə rejissor filmin müvəffəqiyyətini daha da zinətləndirmişdir. O, filmdə Hacıbəyov əsərinin kaloritini, sadə dilini, ruhundakı xəlqiliyi ustalıqla təcəssüm etdirə bilmişdir. Elə buna görə də film daim xarici ölkələrin

ekranlarında da ardı-arası kəsilmədən nümayiş etdirilir. «Arşın mal alan» Rza Təhmasibin sənət bioqrafiyasına əlvanlıq, cazibədarlıq və zənginlik gətirmişdir. 1946-cı ildə o, «Arşın mal alan» filminin rejissoru kimi SSRİ Dövlət Mükafatı laureatı adına layiq görülmüşdür.

Unudulmaz sənətkar «Fətəli xan» (1947), «Qanun naminə» (1969) və s. filmlərdə aktyor kimi çəkilmişdir. Bu görkəmli sənətkarın aktyor məharəti, həm rejissorluq, həm də müəllimlik sahəsində ona gərək olur, böyük kömək göstərirdi. Özü aktyor olduğu üçün o, aktyorlarla işləməyi, onların dilini tapmağı yaxşı bacarırdı. O, aktyor sənətinin həm təcrübəsini, həm də nəzəriyyəsini mükəmməl bildiyi üçün, gənc aktyorları gözəl tərbiyə edirdi. Onun yetirdiyi aktyorlardan bir çoxu dövlət mükafatına layiq görülmüş respublikanın adlı-sanlı sənətkarlarıdır.

R.Təhmasib tərcümə işi ilə də məşğul olmuşdur. O, K.Stanislavskinin «İncəsənət mənim həyatımda», A.Ostrovskinin «Günahsız müqəssirlər», D.Furmanovun «Çapayev» əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Gənclik illərində Rza Təhmasib Bakı Teatr Texnikumunda, 1946-cı ildən isə Azərbaycan İncəsənət İnstitutunda pedaqoji fəaliyyət göstərmişdir.

Respublikanın xalq artisti, professor, SSRİ Dövlət mükafatı laureatı Rza Təhmasibin hər üç sahədə çəkdiyi əmək, göstərdiyi qızğın fəaliyyət öz səmərəsini vermişdir. Tamaşaçılar, sənətsevərlər və müdrik xalqımız onun böyük fəaliyyətini yüksək qiymətləndirmiş və haqqında neçə-neçə monoqrafiya yazılmış və yenə də yazılacaqdır.

Görkəmli sənətkarın həyat və fəaliyyətinin hərtərəfli, genişliyiylə araşdırılıb gələcək nəsillərə ərmağan etmək, bu günkü sənətşünasların vətəndaşlıq borcudur.

Ədəbiyyat:

1. Məmmədov C. Rza Təhmasib. Bakı, Azərnəşr, 1966. s. 5
2. Azərbaycan teatrının salnaməsi. II cilddə, 1-ci cild, Bakı, Azərnəşr, 1975, s. 190

3. «Bakı» qəzeti, 16 fevral, 1912-ci il
4. «İncəsənət» almanaxı, III cild, Bakı, Azərbaycan SSR EA nəşri, 1950, s. 203
5. Qəhrəmanov Ə. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Bakı, «Min bir mahnı» nəşriyyatı, 2004, s.29
6. Naxçıvan Bazasının əsərləri, Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1949, s.46
7. Xəlilov Ə. Naxçıvan teatrının tarixi, Bakı, Azərbaycan Teatr Cəmiyyəti, 1964, s. 42
8. «Şərq qapısı» qəzeti, 20 may 1927-ci il

CƏLİL VƏZİROV
AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu

«VAQİF », «FƏRHAD VƏ ŞİRİN» PYESLƏRİ NAXÇIVAN SƏHNƏSİNDƏ

Milli dramaturgiyamızın və teatrımızın əlvan səhifələrinə parlaq sətirlər nəqş edən «Vaqif», Fərhad və Şirin», «Xanlar», «İnsan» kimi monumental səhnə əsərləri bir neçə aktyor-rejissor nəslinin mənəvi təkamülündə, formalaşmasında danılmaz xidmətlər göstərmişdir.

Dramaturgiyamızda mənzum tarixi pyeslərin içərisində Səməd Vurğunun əsərləri xüsusi əhəmiyyət kəsb edir. Xüsusən də «Vaqif» tarixi dramı özünün orijinal dramaturji siqlətinə, zəngin problematikasına, yüksək poetik vüsətinə görə daima nəzərlərdə diqqətlənmişdir.

S.Vurğunun dərin mündəricəli, yüksək romantik pafoslu səhnə əsərləri qədim Naxçıvan teatrının səhnəsində də dəfələrlə böyük uğurla tamaşaya qoyulmuşdur. Naxçıvan teatrı ilk dəfə «Vaqif» mənzum tarixi dramına müraciət etmişdir. İlk premyerası 1939-cu ilin sentyabr ayının 22-də göstərilən bu pyesin Naxçıvanda oynanılması şəhərin mədəni

həyatında mühüm hadisəyə çevrilmişdir. Əsərin tamaşaya qoyulduğu gün teatr tərəfindən ayrıca olaraq «Vaqif» adlı qəzet buraxılmışdır. Qəzet bütünlüklə «Vaqif» pyesinə həsr olunmuşdur. «Bu il mövsüm «Vaqif» pyesilə açılır», «Böyük vətənpərvər» adlı məqalələrər özünün yazılış tərzilə xüsusi diqqət çəkirdi. Məqalələrin birində deyilirdi: «Biz «Vaqif» pyesinə tamaşa edərkən Azərbaycan xalqının böyük şairi, hümanist, Vətənpərvər Vaqif obrazını görəcəyik. «Vaqif» pyesi vətənpərvər duyğuları tərbiyə edir. O teatrda Vətənə sədaqət hisslərini qüvvətləndirir».[1] İlk tamaşa günü (22 sentyabr 1939) Səməd Vurğun Naxçıvan teatrının kollektivinə aşağıdakı məzmunda belə bir teleqram göndərmişdir: «Kollektivinizin yaradıcı qələbələrini təbrik edirəm. Tamaşada şəxsən iştirak edə bilməyəcəyimə təəssüf edirəm Səməd Vurğun».

İlk tamaşada Vidadi rolunu oynayan, Azərbaycanın xalq artisti, müqtədir sənətkarımız Səməd Mövləvi öz xatirələrində yazır: «Bu mövsümdə (1939) teatr öz üzərinə «Vaqif» dramasını tamaşaya qoymaq kimi məsuliyyətli bir vəzifə götürmüşdür. Əsərin repertuara salınması teatrımız üçün əlamətdar bir hadisə idi. Tamaşaya quruluş verməyi bacarıqlı rejissorlardan biri olan Həsən Əliyevə (Bakıdan dəvət olunmuşdur) həvalə etdilər. O, ciddi yaradıcılıq işinə girişdi. Əvvəlcə dramın məzmunu və ideya xüsusiyyətləri, M.P.Vaqifin həyat və yaradıcılığı, dövrü, saray mühiti barədə aktyorlarla söhbətlər apardı. Rejissor Həsən Əliyev keyfiyyətli tamaşa yaratmaq üçün bütün imkanlardan istifadə etməyə çalışdı.

Rəssam Şəmil Qazıyev də (uzun illər Naxçıvan teatrında baş rəssam işləmişdir) tərtibatı son dərəcə gözəl apar-mışdı. Xüsusilə saray pərdələri daha çox diqqəti cəlb edirdi.

Tamaşada rollar belə paylanmışdı: Vaqif-İbrahim Həmzəyev, Xuraman – Rüxsarə Ağayeva, Xədicə Qazıyeva, Vidadi- Səməd Mövləvi, Gülnar- Füruzə Əlixanova, Naibə Rzayeva, Əli bəy- Nadir Rzayev, Tükəzban- Lala xanım, İbrahim xan-Mirhəsən Mirişli, Şeyx - Rza İsfəndiyarlı, Təl-

xək- Əliheydər Həsənzadə, Gürcü qızı- Telli Ələkbərova (Əkbərova oxunmalıdır C.B), Eldar-İsa Musayev, Kürd Musa- Əyyub Haqverdiyev, Qacar – Sadıq Həsənzadə, Vəzir- Abbas Quliyev (sonradan Sovet İttifaqı Qəhrəmanı olmuşdur).

Rejissor Həsən Əliyevin böyük məharətlə yaratdığı bu tamaşa yüksək qiymət aldı və uzun illər teatrın repertuarında yaşadı. Bu tamaşaya görə o Naxçıvan Muxtar Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edildi».[2]

«Vaqif» tamaşasında güclü aktyor ansamblı bütün quruluşlarda nəzər diqqəti cəlb etmişdir. Görkəmli sənətkarımız, xalq artsti İbrahim Həmzəyev qədim sənət ocağının ilk Vaqifi olmuşdur. Onun istedad və ustalıqla yaratdığı Vaqif Azərbaycan xalqının böyük oğludur. O, qüdrətli şair olmaqla bərabər, həm də doğma yurdunu göz bəbəyi kimi qoruyan, cəsur, qeyrətli, namuslu xalq qəhrəmanı, ağıllı, düşüncəli bir dövlət xadimidir.

«Ümumiyyətlə» 850 dəfədən çox oynanılan Vaqif obrazı istedadlı sənətkarımızın 50 illik zəngin yaradıcılıq tərcümeyi- halında unudulmaz və orijinal səhifələrindən biri kimi diqqəti cəlb edir. Vaqif obrazı İbrahim Həmzəyevə böyük şöhrət qazandırmışdır. Gürcüstanda, Dağıstanda, Azərbaycanın bütün güşələrində- Şirvanda, Muğanda, Mildə, Qazaxda, Qarabağda, Lənkəranda... onun ustalıqla yaratdığı Vaqifi dəfələrlə alqışlayıblar.

1976-cı ilin may ayında Səməd Vurğunun anadan olmasının 70 illiyilə əlaqədar olaraq Naxçıvan teatrı «Vaqif»i yeni quruluşda tamaşaçılara təqdim etdi. Tamaşanın quruluşçu rejissoru, xalq artisti İbrahim Həmzəyev, quruluşçu rəssamı, Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənən xadimi Məmməd Qasımov idi». [3]

Bunu qətiyyətlə demək olar ki, «Vaqif» Naxçıvan teatrının ən uzun ömürlü tamaşasıdır. 850 dəfədən çox oynanılan bu tamaşa naxçıvanlı aktyorların mənəvi inkişafında, sənətkar kimi yüksəlməsində müstəsna əhəmiyyətə malik olmuşdur. Həsən Əliyevin, Məcid Zeynalovun, Baxşı Qələndər-

linin, İbrahim Həmzəyevin quruluşlarında tamaşaya hazırlanan «Vaqif» hər dəfə yeni ifaçılarla bir daha zənginləşmişdir. İlk quruluşda (1939) Eldar rolunu ustalıqla rəsm edən İsa Musayev (sonradan xalq artisti olmuşdur. C.B) sonrakı quruluşlarda baş rolun-Vaqifin mahir ifaçısı olmuşdur. İsa Musayevin məharətlə yaratdığı Vaqif hər şeydən öncə böyük dövlət xadimi, ağıllı, düşüncəli, iradəli, mətin bir sərkərdədir. Aktyorun ifa təqdimində Vaqif son dərəcə məğrur və əyilməzdir. Xalqın arxasında dayanan, onun arzu və düşüncələrini həyata keçirən Vətənpərvər bir şəxsiyyətdir.

1969-cu ildə Azərbaycanın xalq artisti Zəroş xanım Həmzəyeva Azərbaycan Milli Akademik Dram Teatrında «Vaqif» tamaşasında Xuraman rolunu ifa etmişdir. Vaqif rolunda qüdrətli ustad, xalq artisti İsmayıl Dağıstanlı çıxış etmişdir. Belə tarixi faktlardan çox misal gətirmək olar. Bu cür yaradıcılıq əlaqələri Naxçıvan teatrının aktyorlarının potensial imkanlarını aşkarar çıxarırdı. Elə buradaca maraqlı bir məqamı yada salmaq istərdim. Azərbaycanın xalq artisti, mərhum sənətkarımız Əyyub Haqverdiyev (1911-1996) «Vaqif» tamaşasının ilk premyerasında (1939) Kürd Musa rolunu ifa etmişdir. Və sonrakı illərdə, Məcid Zeynalovun, Baxşı Qələndərlinin, İbrahim Həmzəyevin quruluşlarında yenə də Kürd Musanı oynamaq məhz ona nəsib olmuşdur. Düz 40 il fasiləsiz olaraq Əyyub Haqqverdiyev Kürd Musa rolunda 800 dəfədən çox səhnəyə çıxmışdır. Elə bu faktın özü «Vaqif»in ictimai dəyərini, yüksək bədii məziyyətlərini, vüsətli romantik pafosunu aydınlığıyla sübut edir.

«Azərbaycan Respublikasının xalq artisti Zəroş xanım Həmzəyevanın məharətlə yaratdığı Xuraman obrazı həmişə diqqət mərkəzində olmuşdur. O, Naxçıvan teatrında ayrı-ayrı illərdə yeddi Vaqif rolunun ifaçısıyla- İbrahim Həmzəyevlə, İsa Musayevlə, Kazım Ziyayla, Ələsgər Ələkbərovla, Mürşid Haşımlıyla, İsmayıl Dağıstanlıyla, Həsənağa Salayevlə qarşılaşmışdır».[4]

Ölməz Səməd Vurğunun «Fərhad və Şirin» mənzum draması yüksək romantik pafosuyla, zəngin xarakterləriylə

diqqəti cəlb edir. 1941-ci ildən başlayaraq bu əsər çox-çox adlı-sanlı teatrların repertuarını bəzəyib. Bu romantik ideyalı, qəhrəmanlıq pyesi müxtəlif illərdə, ayrı-ayrı rejissorlar tərəfindən Naxçıvan teatrında tamaşaya qoyulmuşdur.

«Fərhad və Şirin» tamaşası ilk dəfə naxçıvanlı sənətsevərlərə 1942-ci ilin oktyabr ayının 18-də təqdim olunmuşudur. Tamaşaya quruluş verən Məcid Zeynalov Moskva Teatr İnstitutunun məzunu idi. Yeri gəlmişkən qeyd elmək istərdim ki, Məcid Zeynalov iki il Naxçıvan teatrında bədii rəhbər və direktor işləmişdir. 1940-1941-ci teatr mövsümündə xalq şairi Süleyman Rüstəmin «Qaçaq Nəbi» məzum tarixi pyesinə maraqlı quruluş vermişdir. Görkəmli teatr xadimi İbrahim Həmzəyev Qaçaq Nəbi, Rüxsarə Ağayeva Həcər rollarında uğurlu ifalarıyla diqqətdə olmuşdular. Məcid Zeynalov Naxçıvan teatrında «Vaqif», «Fərhad və Şirin» (S.Vurğun), «Şöhrət» (M.Hüseyn), «Babək» (O. Sarıvəlli), «İki qardaş» (M.Lermantov) tamaşalarının da quruluşçu rejissoru olmuşdur.

«Fərhad və Şirin» Məcid Zeynalovun quruluşunda özünün layiqli səhnə şərhini tapmışdır. Tamaşanın quruluşçu rəssamı Şəmil Qazıyev idi. İlk tamaşada İbrahim Həmzəyev- Fərhad, Firuzə Əlixanova- Şirin, Səməd Mövləvi- Şapur, Əyyub Haqverdiyev- Xosrov, Zəroş Həmzəyeva- Məryəm, Kazım Hüseynov- Vəzir, Lala xanım- Fitnə, Məmmədrza Əliyev (xalq artisti Zəroş Həmzəyevanın qardaşı) Şiruyyə rollarında çıxış etmişlər.

«Fərhad – İbrahim Həmzəyevin Böyük Vətən müharibəsi illərində yaratdığı ən maraqlı və yaddaqalımlı rollarından biri olmuşdur. Yaratdığı obrazın ümumi xarakteristikasını dərindən duyan, müəllifdən gələn lirik-psixoloji, məzmunlu bir səhnə surətini ustalıqla rəsmi etməyə nail olmuşdur. Aktyor igid, cəngavər, eşq yolunda əzab və əziyyətə qatlaşan Fərhadın mənəvi saflıq dünyasını təbii ifa yozumunda tamaşaçıya təqdim edirdi».[5]

«Fərhad və Şirin» tamaşasında müqtədir sənətkarımız, xalq artisti Səməd Mövləvinin rəsm etdiyi Şapur obrazı

özünün təbii və emosionallığıyla yadda qalırdı. Aktyor Şapurun mənəviyyatsız xarakterini, rəzilliyini, xain xislətini dolğunluğuyla açıb tamaşaçıya təqdim edirdi. Onun yaratdığı Şapur əsl xarakter səviyyəsinə qalxırdı. Tamaşanın sonrakı quruluşlarında da S. Mövləvi bu rolu məharətlə yaratmışdır.

«Vaqif» kimi, «Fərhad və Şirin» tamaşasının da səhnə taleyi çox uğurlu olmuşdur. Naxçıvanlı sənətsevərlər ayrı-ayrı illərdə bu yüksək, bədii vüsətli, romantik pafoslu tamaşa ilə qarşılaşmış və hər quruluşda yeni-yeni ifaçılar meydana gəlmişdir. İlk quruluşdan fərqli olaraq sonrakı quruluşlarda (rejissor İbrahim Həmzəyev) Fərhad rolunun iki ifaçısı (İsa Musayev və Məmməd Quliyev) nəzərlərdə diqqətlənmişdir. İsa Musayevin ifa təqdimində Fərhad Vətəni sevən, doğma el-obanı qoruyan, igid cəngavərdirsə, Məmməd Quliyevin ifa yozumunda Fərhd eşq yolunda min cür əzab-əziyyətə tablaşan, cəsur, məğrur bir insandır.

Məcid Zeynalovdan sonra rejissor İbrahim Həmzəyev bir neçə dəfə «Fərhad və Şirin» mənzum pyesinə müraciət etmişdir. Təbii ki, hər yeni quruluşda təzə ifaçılar nəzərdə diqqətlənirdi. Bu da tamaşanın estetik və poetik istiqamətini gücləndirirdi. Digər tərəfdən də yeni aktyor nəslinin potensial yaradıcılıq imkanları aşkar edilirdi.

1962-ci ildə İbrahim Həmzəyevin hazırladığı «Fərhad və Şirin» tamaşasında yeni ifaçılar diqqətdən yayınmadı. İstedadlı aktrisa Roza Cəfərxanovanın (sonradan xalq artisti olmuşdur) Şirin rolundakı məlahətli ifası onun sənətkar imkanlarını büsbütün üzə çıxartdı. Məmməd Quliyevin Fərhadı, Əyyub Məmmədovun Xosrovu, Əkbər Qardaşbəyovun Azər babası, Pakizə Məmmədovanın Fitnəsi, Əkrəm Əliyevin və Lətif Niftəliyevin Şiruyyəsi, Zəroş Həmzəyevanın Məryəmi (əvvələr Şirin oynamışdır) sənətsevərlər tərəfindən rəğbətlə qarşılarıdı.

Ümumiyyətlə, S.Vurğunun «Vaqif», «Fərhad və Şirin» mənzum pyeslərinin Naxçıvan teatrındakı səhnə təcəssümü orijinallığı, poetik və romantik vüsətilə qədim sənət ocağına əbədi şöhrət qazandırdı. Hər iki tamaşa özünün yüksək peşə-

kar rejissor həlli, yadda qalımlı aktyor, rəssam, bəstəkar işiylə teatrın salnaməsinə xüsusi cazibədarlıq, yaşarlılıq qazandırdı.

Ə d ə b i y y a t:

1. «Qobustan» jurnalı I, 1991,s. 68
2. «Səhnədən keçən yollar». Bakı, Yazıçı, 1983, s.252-253
3. Qazıbəyov R., Vəzirov C. «İbrahim Həmzəyev». Bakı, İşıq, 1982, s. 17
4. «İki sahil» qəzeti, 13 iyul 1996-cı il
5. Qazıbəyov R., Vəzirov C. «İbrahim Həmzəyev». Bakı, İşıq, 1982, s. 24-25

RÜXSARƏ HÜSEYNOVA
Naxçıvan Dövlət Universiteti

AZƏRBAYCAN XALQ TEATRINDA MUSİQİNİN ROLU

Azərbaycan xalqının mədəniyyət və incəsənəti çoxəsrlik, zəngin bir tarixə malikdir. Bu mədəniyyətin mühüm sahəsi olan teatr sənəti xalqımızın mənəvi sərvətinin əsas və ayrılmaz hissələrindən birini təşkil edir. Azərbaycanda xalq teatrı öz kökləri etibarilə xalqın düha və təfəkkürünün, kədər və iztirablarının, arzu və ideallarının ifadəsi olan qədim adət-ənənələr, mərasim, ayinlər, əyləncə və oyunlarla bağlı olmuşdur. Əsrlərin sınağından keçib bu günkü dövrümüzə qədər gəlib çıxmış bu adət-ənənə, mərasim və oyunlarda xalq dramatik sənətinin izlərini görmək olar.

Azərbaycan xalq teatrı son dərəcə müxtəlif janr və formalara malik olaraq, qədim və orta əsr Şərq ölkələrinin teatrı ilə özünəməxsus yaxınlığa malikdir. Bu, xüsusilə, kukla teatrı ənənəsində, mövsüm mərasimlərinin keçirilməsi xüsusiyyətlərində, idman yarışlarında, teatr səhnəsindən dini təbliğ vasitəsilə istifadə edilməsində və s. özünü göstərir.

Azərbaycanda xalq teatr sənəti rəngarəng mövzu və məzmununa, aydın və konkret xüsusiyyətlərinə görə bir-birindən fərnlənir. Bu baxımdan onu bir neçə qrupa bölmək olar:

1. Mövsüm mərasimləri – oyun və tamaşalar;
2. Kukla teatrı;
3. Xalq dramatik tamaşaları: dini-misterial, qaravəlli;
4. Meydan tamaşaları (kəndirbazlıq, zorxana və s.)

El tamaşalarını musiqisiz təsəvvür etmək mümkün deyildir. İstər kukla teatrı, istər xalq faciə tamaşaları, istərsə də mövsüm mərasimlərində bu tamaşaların əsas, ayrılmaz hissəsini təşkil etmiş və onun məzmununu dolğunlaşdırmışdır. Müxtəlif xarakterli mahnılar, rəqs melodiyaları, təsnif və muğamlar tamaşaları daha da parlaq, zəngin etmişdir. Belə ki, musiqi sənəti xalq teatrı sənətilə əsrlər boyu sıx bağlı olmuşdur.

Xalq mövsüm mərasimlərinə daxil olan tamaşalara bahar bayramında oynanılan «Kos-kosa», «Xan-xan», «İsfənd» mərasimində keçirilən əkinçiliklə bağlı «Cütçü şumu», qışı təmsil edən «Azərgan» mərasimində oynanılan «Kəvsəc» tamaşalarını misal göstərmək olar. Bu tamaşalarda milli musiqi alətlərinin müşayətilə müxtəlif rəqs və xalq havaları ifa edilmişdir. Tamaşalarda həmçinin yallı oynanılmış, elimizin sevimli aşıqları tamaşadarı müşayiət etmiş, bir sıra xalq mahnıları bəzən xor halında oxunmuşdur.

İncəsənətin ən qədim növlərindən biri kukla teatrıdır. Bu olyunlar fasiləsiz musiqinin müşayiəti altında mimika və əl-qol hərəkətilə göstərilmişdir. Tamaşada musiqi ilə səhnə hərəkətləri bir-biri ilə sıx bağlıdır. Musiqi tamaşada şən əhval-ruhiyyə yaradaraq tamaşanın məzmununun anlaşılmasına kömək etmişdir.

Azərbaycan xalq teatrının bir qolunu xalq faciə tamaşaları təşkil edir. Bu tamaşanın ən bitkin nümunəsi «Şəbeh» meydan teatrı olmuşdur. Bu tamaşada musiqinin rolu çox böyükdür. Burada bütün ifaçılar bir-birinə musiqili-deklomasiya və avazla oxuyaraq müraciət edirlər. Rövzəxan

və dərvişlər tərəfindən muğam dəstgahı üzərində oxunan qəmli xarakterli növhə və mərsiyələr insanların ürəyində mərhəmət hissi oyatmış, tamaşanın daha da təsirli alınmasına səbəb olmuşdur.

Xalq dramatik tamaşasının bir növü də qaravəllilərdir. Qaravəllilərdə də musiqi əhəmiyyətli rol oynamış, aşıqlar dastan deyib, xanəndələr mahnı oxumuşdular.

El içində yayılan kütləvi oyun növlərindən biri kəndirbazlıq olmuşdur. Tamaşa yalnız musiqinin müşayiəti altında keçmiş və onun özünəməxsus musiqi nümunələri olmuşdur. Xüsusilə, burada zurna tərəfindən «Kəndirhəngi», «Qaytağı», «Təkçalma» kimi rəqslər ifa edilmişdir.

Meydan tamaşalarından biri də zorxanaçılıq idi. Burada pəhləvanlar zurna, dumbul və dəfin müşayiəti altında öz qüvvə və güclərini nümayiş etdirmişdir.

Yuxarıda deyilənlərdən belə qənaətə gəlmək olar ki, Azərbaycanın xalq tamaşalarında əsasən oyun havaları, «el havaları» Adı ilə tanınan musiqi istifadə olunmuşdur. Bu musiqi folklorumuzun böyük bir hissəsini təşkil edərək həm geniş kütlələr, həm də tədqiqatçılara məlumdur. Lakin külli miqdarda mövcud olan instrumental və rəqs havalarının niyə bəziləri tamaşalarda istifadə olunur, bəziləri isə yox? Bu məsələdə bir qanunauyğunluq varmı? Suallara cavab vermək üçün rəqs oyun havalarını 3 qrupa bölmək olar:

1. balaman və sazəndələr dəstəsi tərəfindən ifa olunan xalq rəqsləri;
2. zurnada ifa edilən və tamaşasız çalınmayan el havaları;
3. xüsusi tamaşalarda istifadə olunan (məs: «Xan-xan», «Kilimarası» və s.) və müxtəlif alətlərin səslənməsində verilən instrumental oyun havaları.

Birinci qrupa daxil olan rəqslərin təhlili üçün T.Quliyevin topladığı bir neçə xalq rəqsini nümunə götürək: «Brilyant», «Qızılgül», «Yüzbir», «Əsgərani» və s. Bu rəqslər özünün melodik zənginliyi, şən, canlı xarakteri, lad cəhətdən rəngarəngliyi ilə diqqəti cəlb edir. Rəqslərdə melodiya ön

planda verilir. Onlara tədricən inkişaf, sekvensiya metodu, diapazon müxtəlifliyi xasdır. Rəqslər variant prinsipi üzrə inkişaf edərək melodik cəhətdən çox zəngindirlər. Xüsusilə, bu rəqs melodiyalarındakı bəzək işarələri onları daha təravətli və yumşaq edir.

İkinci qrupa daxil olan, tamaşalarda ifa edilən el havaları bu xalq rəqslərindən fərqlənirlər. El tamaşalarında istifadə edilən rəqslərin musiqisi öz həcminə görə çox da böyük olmayan, təkrar edilən cəld, gümrah və bəzən də mübariz xarakterli qısa melodiyalardan ibarətdir. Onlarda axıcı melodiya arxa plana keçir. Onların hər biri intrada – giriş kimi çağırış xarakterli eyni motivin təkrarı ilə başlanır və bu, sanki tamaşaçıların diqqətini olacaq tamaşaya cəlb etməyə çağırır. Bundan başqa, tamaşada baş verən gözlənilməz dönüşlər, əhəmiyyətli anlar da musiqidə öz ifadəsini tapır. (Məs, «Pəhləvani», «Cəngi», «Kəndirbaz rəqsi», «Misri» və s.)

Qeyd etmək lazımdır ki, lirik rəqslərin quruluşunda ön planda lad hərəkəti, ladın inkişafı verilir. Belə ki, melodiya lada tabedir. Burada isə tamaşa əsas, rəhbəredici faktoru öz üzərinə götürür. Odur ki, təkrarlar, melodiyanın daxilində hiss olunan təzadlıq, hətta laddan kənara çıxmaq prinsipi – hamısı tamaşa ilə uyğunlaşmaqdan irəli gəlir. Beləliklə, axıcı, melodik xalq rəqsləri öz incəliyi, zərifliyilə diqqəti cəlb edir. Təbiidir ki, bu cür rəqslər zorxana və kəndirbaz kimi tamaşaları müşayiət edə bilməzdi. Çünki bu tamaşalar mübariz, qəhrəmani xarakter daşıyaraq özünə xas da musiqi nümunələri tələb edirdi. Tamaşalarda istifadə edilən rəqslərdə melodik zənginlik, zəriflik qeyd etdiyimiz kimi arxa plana keçir. Çünki burada əsas diqqət tamaşaya, aktyorun hərəkətlərinə yönəlir, musiqi isə əsasən müşayiətedici rol oynayır. Lakin istər xalq rəqsləri, istərsə də el tamaşalarında istifadə edilən musiqi psixoloji bir funksiya yerinə yetirir. Belə ki, xalq rəqslərində əllərin və bədənin plastik hərəkəti vasitəsilə rəqslərdə təcəssüm olunan şuxluq, oynaqlıq, liriklik, qəmginlik və s. əks etdirilir. El

tamaşalarında isə musiqi sanki tamaşaya yeni bir ruh gətirir və tamaşaçını səhnədəki və meydandakı hadisələrin təsiri altına alır. Ona görə də bu tamaşaları musiqisiz təsəvvür etmək olmaz. Çünki musiqi olmasaydı tamaşa o qədər də maraqlı olmaz, sönük alınardı.

Üçüncü qrupa daxil olan instrumental oyun havalarının istifadə edilməsinə «Xan-xan» oyun-tamaşasını misal göstərmək olar. Bu tamaşada xalq arasında geniş yayılmış musiqi nümunələri səslənir. Bu, təsadüfi deyildir. Çünki hamıya tanış olan musiqi tamaşanı dinləyicilərə, tamaşaçılara daha yaxın edir. Tamaşaçılar özlərini meydanda sərbəst hiss etməlidirlər ki, xüsusi teatr forması – improvizasiyalı teatrda lazımi dərəcədə çıxış edərək, bu tamaşanın daha şux, zəngin və maraqlı keçməsinə kömək etsinlər. Musiqinin səslənməsi meydançada xüsusi teatr mühitini, teatr-tamaşa, şənlik atmosferini yaradır. Bu baxımdan məhz tanış musiqi tamaşaçıları adilikdən şənliyə tərəf yönəldir, onlarda xüsusi şənlik ruhu oyadır, onları «sərbəstləşdirir».

Kukla tamaşalarında hər hansı bir hava yox, məhz səhnə şərtlərinə, onun bədii tələblərinə uyğun musiqi nümunələri seçilməlidir. Bu tamaşalarda rejissor funksiyası məhz musiqinin üzərinə düşür. Belə ki, kuklaların hərəkəti musiqi ilə ifadə olunur, musiqi quruluşu tamaşanın həcminə, ümumi planına və mizanlara həlledici təsir göstərir.

Qeyd etdiyimiz kimi, «Şəbeh» tamaşasında da musiqinin rolu çox böyük olmuşdur. Burada muğam, mahnıvari oxumalar və instrumental musiqi istifadə edilmişdir. «Şəbeh»də musiqi sözlə vəhdət təşkil edir, lakin onun tamaşada oynadığı rolu böyük psixoloji təsirə malik olan ifadə vasitəsi kimi qiymətləndirmək olar. «Şəbeh»də faciəvi əhval-ruhiyyə əsas etibarilə musiqi və sonra dekorasiyalar və geyimlər vasitəsilə yaranır. Məhz musiqinin xarakteri bu xalq dram tamaşasına xüsusi ahəng verir və onu insan, şəxsiyyət dramına çevirir.

Beləliklə, göründüyü kimi, müxtəlif xalq tamaşalarında musiqi müşayiəti böyük əhəmiyyət kəsb edərək, bir sıra funksiyalar yerinə yetirir. Onlarda xüsusi teatr mühitini, əhval-ruhiyyəni yaratmaq, meydan tamaşalarını qurmaq. dram tamaşalarının mənası və xarakterini həssaslıqla açmaq kimi vəzifələr məhz musiqinin üzərinə düşür.

MEHRİBAN SULTAN
Naxçıvan Dövlət Universiteti

«YENİ YOL» QƏZETİNDƏ TEATRŞÜNASLIQ MƏSƏLƏLƏRİ

Latın qrafikası ilə çıxan ilk türk qəzeti - "Yeni yol" (1922- 1939) Azərbaycan xalqının milli-mənəvi tərəqqisində böyük rol oynamışdır. Qəzet Azərbaycan dili və ədəbiyyatının yorulmaz təbliğatçısı olmaqla yanaşı milli mədəniyyət və incəsənətimizin inkişafına da xüsusi diqqət yetirmişdir. Qəzetin «Teatr və musiqi» rubrikası altında gedən yazılar Azərbaycan teatrının inkişaf tarixi, səciyyəvi cəhətləri, yaradıcılıq yolu, əməli və nəzəri problemləri haqqında zəngin məlumat əldə etmək imkanı verir.

Qəzetin nəşrinin ilk illəri (1922-1923) Azərbaycan teatrının təşəkkül dövrünə təsadüf edir. Bu dövrdə Azərbaycan səhnə sənətinin qədim tarixə malik dəyərli irsini, gözəl ənənələrini yaşadan milli teatrımız həvəskarlıq səviyyəsindən təmizlənərək kortəbii, primitiv səhnə nümayişlərindən dünya mədəniyyəti ilə bir sırada dura biləcək professional teatra doğru yeni inkişaf mərhələsinə qədəm qoymuşdu. 1920-ci ilin əvvəllərindən fəaliyyətə başlayan Türk Dövlət Dram Teatrı (indiki Akademik Dram Teatr - M. S.) Azərbaycan mədəniyyətinin və incəsənətinin inkişafında öndə gedirdi. Teatrın repertuarı haqqındakı xəbərdən (14 oktyabr 1922, № 4) məlum olur ki, təkcə 1922-ci ildə bu teatrın səhnəsini «Uçurum», «Müfəttiş», «Lakme»,

«Dinçilər», «Həyatbəzər», «O olmasın, bu olsun», «Gaveyi-ahəngər» («Dəmirçi Gavə»), «Əsli və Kərəm», «Əntərə», «Leyli və Məcnun» kimi sənət əsərləri rövnəqləndirmişdir. Milli teatr və dramaturgiyamızın bu mükəmməl nümunələri realist və romantik üslub, mövzu və janr cəhətdən də (komediya, faciə və dram, opera) rəngarəng idi.

1923-cü ildə isə teatrın repertuarına «Hacı Qara», «Ölülər», «Anamın kitabı», «Nadir şah», «Səyavuş», «Şeyx Sənan», «İblis», «Pəri cadu», «Dağılan tifaq», «Otello», «Hamlet», «Qaçaqlar», «Vilhelm Tel», «Şahın bərbəri» və s. yeni pyeslərlə yanaşı, «Leyli və Məcnun», «Aşıq Qərib», «Əsli və Kərəm», «Şah İsmayıl» kimi operalarımızın, həmçinin M. Maqomayevin yenicə bəstələmiş «İblis» operasının daxil edilməsi haqqında da məlumat verilir (18 oktyabr 1923, № 32).

«Yeni yol» qəzetindəki məqalələrdən də göründüyü kimi, xalqın milli şüur səviyyəsinin inkişafı ilə əlaqədar olaraq artıq teatra ümumxalq münasibəti də xeyli dəyişmişdi. Fevralın 7-də Azərbaycan səhnəsinin klassiklərindən H. Sarablının səhnə fəaliyyətinin iyirmi illik yubileyindən bəhs edən məqalədə (10 fevral 1923, № 6) yubileyin ümumxalq və dövlət səviyyəsində, təntənəli şəkildə keçirilməsi haqqında məlumat verilir. Bununla yanaşı, xalq arasında teatra olan sevgi və marağın hədsiz dərəcədə artdığı böyük iftixar hissi ilə qeyd olunur, teatr böyük və müqəddəs həyat məktəbi kimi dəyərləndirilir. Müəllif fikirlərini yubilyarı hökumət adından təbrik edən N. Nərimanovun çıxışından gətirdiyi bu sitatla tamamlayır:

«Vaxtilə türk teatrı (Azərbaycan teatrı – M. S.) qara fikirli mühafizəkarlar tərəfindən təkfir və təhqir edilirdi, teatrı «oyunbaz yuvası» hesab edirdilər. Amma bu gün teatr bu qara fikirlərin hamısına qələbə çalıb böyük aktyorun 20 illiyini bayram etdi».

H. İmanov isə Hökumət Türk Dram Teatrının bir illik yubileyindən danışaraq bu hadisəni «bütün şərqlilər üçün böyük bir gün» adlandırır (27 yanvar 1923, № 4).

«Yeni yol» qəzetində gedən yeni tamaşalar haqqındakı resenziyalar içərisində aprelin 27-də Türk Hökumət Teatrında teatrın direktoru Rza Təhmasibin şərəfinə oynanılan «Kralın bərbəri» (Lunaçarski) əsəri haqqında məqalə (12 may 1923, № 15) xüsusi maraq doğurur. Burada Bakı rus səhnəsinin tanınmış artistlərindən olan Tabenskinin mütəxəssis-rejissor işi yüksək qiymətləndirilir. Aktyorların ifasındakı mütəşəkkillik və peşəkarlıqla yanaşı, baş rolların ifalarındakı bəzi nöqsanlar da gözdən yayınmır. Belə ki, Kral obrazının bənzərsiz və mahir ifaçısı A. M. Şərifzadə bəzən yersiz səs və qışqırıqlar edir, Rza Təhmasibin (Bərbər) göz mimikası azlıq edir, Kralın başını kəsdiyi səhnəni etinasız və qeyri-təbii oynayır. M. Davudova (Blanka) öz rolunu mükəmməl ifa etsə də, atasına qarşı davranışında daha çox incə və qadınsayağı olmalı idi. Tərcüməyə gəldikdə, əsərin dilindəki bəzi anlaşılmazlıqlar olsa da, H. S. Qasımovun işi uğurlu sayılır. Məqalədə bəzi nöqsanları tənqid olunsa da, səhnəmizdə ilk dəfə oynanılan bu tamaşa sənət aləmində «böyük bir triumf» kimi qiymətləndirilir.

Qəzetdə 1921-ci il noyabrın 18-də Bakıda yaradılan yeni bir teatrın - Azad Türk Tənqid-Təbliğ (Satir-Agit) Teatrının fəaliyyəti və yeni tamaşaları haqqında da silsilə yazılar getmişdir. Bu teatr keçmişin qalıqlarını, köhnə quruluşun eybəcərliklərini, yenicə yaranmış sovet cəmiyyətindəki nöqsanları kəskin tənqid, milli mədəni tərəqqi yoluna aparan mütərəqqi ideyaları isə təbliğ edirdi. Qəzetdə teatrın «Dəmir yol qurdları» adlı yeni tamaşası haqqında resenziyada (18 noyabr, 1922, № 9) aktyorların ifasındakı şirinlikdən, ustalıqdan danışılır, teatrın müdiri H.Abbasovun xüsusi xidmətləri qeyd olunur. Məqalədən də göründüyü kimi, bir ay repertuardan düşməyən bu tamaşada dəmir yol işçiləri arasında baş alıb gedən rüşvətxorluğun, qanunsuzluğun tənqidi artıq tənqidi-realist səhnə əsərlərinin yaranmasından soraq verirdi.

Bu teatrın «Ölülər» (C. Məmmədquluzadə) tamaşası da yüksək qiymətləndirilmişdir (19 aprel 1923, № 14).

Resenziyada M. A. Əliyev (kefli İsgəndər) kimi korifey sənətkarın təkrarsız ifa tərzindən danışılır, Kəmərlinin (Hacı Həsən) ağlamağındakı həddindən artıq bayağılığın onun tərəf müqabilləri Mir Bağır və Hacı Baxşəli rollarının ifaçılarına mənfi təsir etdiyi göstərilir.

Teatrın repertuarı haqqında digər xəbərdə (17 dekabr 1923, № 38.) M. S. Ordubadi kimi görkəmli yazıçının «İşsizlər» adlı bir pərdəli pyesi ilə yanaşı, teatrın direktoru H. Abbasovun «Rur macərası» və aktrisa Məryəm xanım Sarabskayanın «Çəyirtkə» pyeslərinin oynanılması haqqında da məlumat verilir ki, bu da teatrın profilinə, ruhuna, tamaşaçı səviyyəsinə uyğun, əsasən komediya janrında yazılacaq yeni birpərdəli pyeslərə tələbatdan irəli gəlirdi.

Azərbaycan teatrındakı mövcud çətinliklər və problemlər də «Yeni yol» qəzetinin səhifələrində öz əksini tapırdı. Həmin vaxtlarda aktyor və rejissorlar özüöyrənmə və özfəaliyyət yolu ilə gedir, səhnədə professional teatr təhsili görmüş milli aktoyr və rejissor kadrları, xüsusilə də qadın aktrisaları çatışmırdı. Bunun üçün kişi aktyorları çox zaman qadın rollarında çıxış edirdilər. Məhz buna görədir ki, «Yeni yol» qəzeti milli teatrımızın ən əsas problemi - Azərbaycan qadınının səhnəyə gəlişi məsələsinə dəfələrlə müraciət etmişdir. Qəzetdə Fatma Xanım Muxtarovanın - rus operasının səhnəsində Aida («Aida») və Karmen («Karmen») rolları ilə dünya şöhrəti qazanmış bir azərbaycanlı qızının Tiflisdən Bakıya qastrola gəlməsi haqqında verilən xəbərdə (9 dekabr 1922, № 12) onun gələcəkdə türk romanslarını öyrənib bu romanslardan ibarət konsert vermək arzusu alqışlansa da, «uşaqlıqdan millətindən hər bir barədə uzaqlaşmış bir zəif qız»ın belə bir arzunu həyata keçirməsi real sayılmırdı.

Qəzetin səhifələrində Azərbaycan ziyalılarından bir qismi qadın aktrisaların səhnəyə gəlişini alqışlayan və bunun Azərbaycan teatr həyatı üçün zəruriliyi ideyasından çıxış edən yazılar dərc edirdilər. Qəzetin əsas müəlliflərindən olan Fərhad Ağazadə («Şərqli») «Vaxt çatıbdır» adlı məqaləsində

(10 fevral 1923, № 6) yazırdı: «Qadınlarsız teatr kağızdan qayrılmış yalançıq güllər kimidir». Müəllif Azərbaycan qadınını səhnəyə gətirmək üçün mühüm şərtlər irəli sürür və yazırdı ki, səhnəyə çıxan Azərbaycan qadınına səhnə mədəniyyəti, ifaçılıq vərdiş və bacarıqları öyrədilməli, onlara bu sənətin ülviliyi aşılanmalı; teatrda çalışan kişi sənətçilərimiz qadınlara yüksək ehtiram və qardaşlıq məhəbbəti ilə yanaşmalı; tamaşaçılarımız qadın sənətkarlarımızın adını uca və hörmətli tutmalıdırlar.

Qəzetin elə həmin sayında «Qur»* imzalı müəllif «Lap yerindədir» adlı məqaləsində Azərbaycan MİK-in sədri S. Ağamalıoğlunun kişilərin qadın rollarını oynamasını qadağan etməsini alqışlayır. Müəllif Azərbaycan qadınını kişilərin qadın paltarı geyinib səhnədə oynamalarına razı olmamağa səsləyir. Bu çağırışları ilə gənc qızların, qadınların teatra gəlməsində digər mətbu orqanlarımız kimi «Yeni yol» qəzetinin də xüsusi rolu olmuşdur.

O zaman bəzən «səhnədə səbəbsiz yerə əcnəbi millətin dilində» (V. Xuluflu. «Türk qadını» gecəsində». 20 yanvar 1923, № 3) danışmaq, dilimizdəki sözləri düzgün tələffüz etməmək kimi bəzi nöqsanlara baxmayaraq qadınların səhnəyə cəlb olunması böyük hadisə idi. Qəzet Türk Satir-agit teatrının «Dəmi yol qurdları» tamaşasında Azərbaycan qadınının ilk dəfə səhnəyə çıxması (18 noyabr 1922, № 9), azərbaycanlı qızlar tərəfindən təşki olunan «türk qadını» gecəsi barədə (27 yanvar 1923, № 3) iftixar hisi ilə xəbər verirdi. Türk Dram Teatrının «Kralın bərbəri» tamaşasında Mərziyyə Davudovanın (Blanka) məsum qız obrazını yüksək ustalıqla yaratması, Azad Türk Tənqid-Təbliğ Teatrının «Ölülər» tamaşasında (19 aprel, 2003, № 14.) Əzizə Məmmədova (Kərbalayi-Fatma) və Sona Hacıyevanın (Nazlı) özünəməxsus ifa tərzləri və səhnə davranışları qadınlarımızın səhnəyə gəlişindən xəbər verirdi.

---

* Hələlik bu imzanın kimə məxsus olduğu aydınlaşdırılmamışdır.

«Yadigar» felyetonunda (31 mart 1923, №11.) isə C. Məmmədquluzadə milli teatrımızın maliyyə problemlərindən danışır, teatrda müdirlik və rejissorluq üstündə gedən çəkişmələri, sənətə gəlir mənbəyi kimi baxanları tənqid hədəfinə çevirir, teatrı belələrindən təmizləməyə çağırır. Müəllif məqalədə teatrların əcnəbilərə icarəyə verilməsini tənqid edir və «Ağacı qurd içindən yeyər» deyə imkanlı həmvətənlərini teatrdan qazanc güdməməyə, əksinə, xeyriyyəçilik yolu ilə Azərbaycan teatr sənətini inkişaf etdirməyə səsləyirdi.

Lakin C. Məmmədquluzadə bu mütərəqqi fikirlərinə baxmayaraq maliyyə vəsaiti tələb edən balet dəstəsini lüzumsuz sayır və onu teatrdan uzaqlaşdırmağı təklif edir. C. Məmmədquluzadənin bu təklifi opera və balet səhnə mədəniyyətinin inkişaf etdirilməsi baxımından məqbul sayıla bilməz. C. Məmmədquluzadə qələminin məhsulu kimi ilk dəfə tədqiqata cəlb etdiyimiz «Köhnə müəllim» imzası ilə dərc olunan «Uşaqlarımız» (27 yanvar-3 fevral 1923, № 4-5.) və «Uşaq teatrı» (17 fevral 1923, № 7) felyetonlarında isə ədib uşaqlar və yeniyetmə gənclər üçün teatrın yoxluğundan söz açır. Bu gün də öz əhəmiyyətini itirməyən və qiymətli pedaqoji fikirlərlə zəngin olan bu felyetonlar bir-birinin məntiqi davamıdır Müəllif «Uşaqlarımız» felyetonunda uşaqlarımızın təlim-tərbiyəsində, onların asudə vaxtlarının səmərəli keçirmələrində uşaq teatrlarının əhəmiyyətindən danışır. «Uşaq teatrı» felyetonunda isə C. Məmmədquluzadə bir daha uşaq teatrı mövzusuna qayıdır. 1894-cü ildə Naxçıvanda rejissoru və baş rolun ifaçısı olduğu «Molla İbrahimxəlil kimyagər» (M. F. Axundov) tamaşasının yoxsul uşaqların nəfinə oynandığını və böyük müvəffəqiyyət qazandığını xatırladır, uşaq teatrlarının olmamasını böyük təəssüf hissi ilə qeyd edirdi.

Deyilənlər təsdiq edir ki, «Yeni yol» qəzeti özünün nəşri müddətində Azərbaycan incəsənəti və mədəniyyəti problemlərinə böyük qayğı ilə yanaşmış, öz səhifələrində bu problmləri demokratik mövqedən işıqlandırmışdır.

GÜLNARƏ QƏNBƏROVA
Naxçıvan Dövlət Universiteti

MEMARLIQ VƏ XALÇAÇILIQDA NAXIŞ YARADICILIĞININ ORTAQ PRİNSİPLƏRİ

Memarlıq abidələrində ornament sənətinin geniş yayılması və onların səthlərinin xalçaya oxşaması bu iki sənəti estetik və funksional cəhətdən bir-birinə yaxınlaşdırırdı. Memarlıq xalça ornamentlərindən bəhrələndiyi kimi, xalça da memarlıq elementlərindən iqtibaslar edir. Onun naxışları sırasına həndəsi fiqurlarla yanaşı tağlar, baştağlar, sütun və günbəzlər, pəncərə və qəndillər və s. daxil olur. Bəzi xalçalarda Şərqin məşhur memarlıq abidələri təsvir olunmuşdur. Balaca namazlıq xalçalar üzərində isə mütləq memarlıq elementləri olan mehrab və tağ şəkli işlənirdi.

Memarlıq elementləri xalçalar, xalça ornamentləri isə memarlıqda öz əksini tapırdı. İki sənət arasında əlaqələrin yaranması incəsənətin bir növünün digəri üçün materiala çevrilməsinə səbəb olurdu.

Memarlıq abidələri və xalçalar üzərində bəzək xarakterli bir çox ornament motivi vardır ki, bunlar da uzaq keçmişdə rəmzi (simvolik) məna kəsb etmiş, xalqın həyatında xüsusi rol oynamışdır. Əsrlər boyu bu iki sənət nümunələri üzərində işlənən və bu iki sənəti bir-birinə yaxınlaşdıran ornamentlərin bir neçəsinin simvolik mənasını araşdıraq:

- Həndəsi ornamentlər çox qədimdən inkişaf edərək, orta yüzillikdə yüksək inkişaf mərhələsinə çatmışdır. Həndəsi formalar xüsusi məna kəsb etməklə, həyat və məişətdə rast gəlinən bir çox real canlı və cansız obrazları əks etdirirdi. Bəzi həndəsi naxışlar isə uzaq keçmişdə ilk yazı, izahat forması da olmuşdur. Bu ornamentlərdən dünyanın rəmzi olan – dairə, romb, ilahi kamillik, müdriklik, insan həyatının dörd ünsürü – kvadrat; kainat rəmzi – altıbucaq; işıq (cənnətin işığı) kimi – səkkizbucaq; ilahi iradənin ideyası, qaranlıqla mübarizə

aparan göy cismi, ilahi od, əbədi xoşbəxtlik, təmizlik rəmzi kimi – ulduz; (6) tanrı, od rəmzi kimi – günəş, yaradıcı ilahə, yaradıcı başlanğıc, tanrı, insan yaradan – ay və s. göstərə bilərik.

Memarlıq abidələri və xalçalar üzərində rast gəlinən həndəsi ornamentlər quru, statik üsulda, özü də əksər hallarda o biri bəzək növləri ilə az əlaqədə işlənsə də, orijinallığı və bədii obrazlığı ilə həmişə incəsənətimizin və o cümlədən də dekorativ sənətin ayrılmaz tərkib hissəsi olmuşdur (1).

İslamiyyətdən öncə sadə həndəsi ornamentlər çox işlənirdisə, islamiyyət dövrü memarlıq abidələrinin bədii tərtibatında mürəkkəb həndəsi ornamentlər geniş yayılmışdır. Bunların bir neçə nümunəsi Naxçıvan MR-in ərazisində bu günümüzə qədər qalmaqdadır. Yusif Küseyir oğlu türbəsi (1162), Mömінə Xatun türbəsi (1186), Gülüstan türbəsi (XIII əsr) buna gözəl misaldır. Həndəsi ornamentlər xalçalar üzərində də üstünlük təşkil edir. Xovlu xalçaların kənarə, orta sahə və göl hissəsində işlənən həndəsi ornamentlər, xovsuz xalçaların səthlərinin əsasını təşkil edirdi.

Azərbaycan memarlıq abidələri və xalçaları üzərində həndəsi ornamentlərlə yanaşı nəbati ornamentlər də genış yayılmışdır. Bədii ornament sənətində bitkinin aparıcı motiv olmasının başlıca səbəblərindən biri bitkinin hələ ilk çağlardan insanın həyatında böyük rol oynamasıdır. İnsan formalaşdıqca bitki haqqında düşünmüş, onu ilk ibtidai çağlardan tutmuş, son çağlaradək öz bədii təfəkkürünün əsas motivlərindən birinə çevirmişdir. Bitki ornamentlərinin memarlıq abidələri, xalçalarda tətbiq olunması və inkişafı Atropatenlərin, Arar-Albanların, qədim türkdilli xalqların kökündə iştirak edən qəbilə birləşmələrinin mifik dünya görünüşü ilə bağlıdır.

Bitki ornamentlərindən ən çox işlənəni Qədim Avropa və rus ədəbiyyatında "islimi", "arabeska" kimi tanınmışdır. Mütəxəssislər arabeskadan danışarkən bunu bitki naxışları kimi qeyd edirlər. Xüsusi ədəbiyyatda bu elementin adına

çoxlu izahatlar verilir. Müsəlman ölkələrinin incəsənətində "islimi" islam dininin adından götürüldüyü bildirilir. Hətta islam incəsənətində bu elementin yaranması haqqında əfsanə də var: "Bir dəfə İmam Əli rəssamları öz yanına çağırıb dedi: "Canlı cisimləri təsvir etmək, şəklini çəkmək – Allahnan yarışa girmək deməkdir. O, (Əli) özü əyri budaqlara oxşar dalğalı xətlərlə dairə çəkdi və bu islimi forması idi". Bu islimi ornamenti müsəlman rəssamlarının yaradıcılığının əsasını təşkil etdi (5. s. 53). Əslində isə yuxarıda qeyd etdik ki, "islimi" elementinin yaranmasının kökləri qədimdir.

Əski türklərdə "islimi" şivil, yeni şiv – yaşıl, təzə, nəm ağac deməkdir. Bu da meşə (ağac), su (göl) mifik, kultu ilə bağlıdır. Yaşıllığın, suyun orqonlarının mifik səciyyələri birləşərək, yaşıllıq, su, gənclik ilahəsinə çevrilmişdir. Bu ilahənin adı "Öləng"dir. "Öləng" ilahəsi – bitkinin göylərdən, istiliyi – yazı qoruyan qadın və kişi başlanğıcıdır. "Öləng" həm də yaşıllıq, gənclik, ailə ilahəsinin adıdır (2).

Yuxarıda qeyd etdik ki, bitki ilk çağlardan insanın əbədi həyat mənbəyi olmuşdur.

Z.Y. Renipel hesab edir ki, Şərqin, Orta Asiyanın, Altayın incəsənətində bu formanın yerli kökləri var. Profildən burulmuş yarpağı təsvir edən spiral və yaxud dalğalı xətlərin kompozisiyalarını eramızdan əvvəl I minillikdən başlayaraq incəsənət əsərlərində rast gəlmək olar. Belə nəticəyə gəlmək olar ki, "islimi" elementi islamiyyətdən öncə də islamiyyət dövrü də yaşıllıq, bitki ilahəsinin rəmzi olmuş, haqqın gözəlliyini özündə cəmləşdirmişdir.

"İslimi" element kimi kompozisiyanın əsasını təşkil etməklə spiral formasında verilir. "İslimi" quruluşuna görə sadə, qanadlı, haçalı, butalı islimiyyə çevrilir (3. s. 75-78). Ən geniş işlənəni butalı islimidir ki, bildiyimiz kimi "buta" elementinin özü də bitki mifi ilə bağlıdır. Buta həm də istiliklə, odla bağlıdır. Bu da yenə bitki yazın istiliyini qoruyan ilahənin ("Öləng") adı ilə bağlıdır. Kompazisiyada islimi elementi əfsanəvi təsvirlərlə, həndəsi ornamentlərlə "kufi" yazılarla və müstəqil işlənir.

"İslimi" memarlıq abidələrinin – məscidlərin günbəzlərində, minarələrin səthlərində, giriş baştağlarında, mehrablarda, abidələrin daxili və xarici səthlərində, yaşayış evlərinin eyvanlarında, xalçalarda isə kənarələrdə, orta sahədə, göldə çox işlənən naxış növüdür.

İslamiyyətdən öncə və islamiyyət dövrü "islimi" elementinin bu cür geniş yayılması və memarlıq abidələri, xalçalar üzərində işlənilməsi məhz bitki ilahəsinin adı ilə bağlıdır. Bu ornament özündə ilahənin gözəlliyini cəmləşdirir (5. s. 53).

Əskidə Orta Asiyada, Yaxın Şərqdə eləcə də Azərbaycanda suya həyatın ən lazımlı şərtlərindən qəbul edir, onu balıq, quş, ördək formasında təsvir edirdilər. Axar suyu isə düz və ya dalğalı xətlərlə göstərirdilər. Bu naxış zolağı "S" şəkilli elementlərdən yığılmış və elmi ədəbiyyatda "miandra" adlandırılır. Bu ornament Azərbaycanın tətbiqi sənətində, memarlığında işləndiyi kimi bir sıra dünya xalqlarının Çin, Türküstan, Yunanıstan, Roma, Assuriya və İranın da tətbiqi sənətində geniş yayılmışdır. Naxçıvanda Mömünə Xatun türbəsinin sütunları üzərində "miandr"a və yağış damcıları təsvir olunmuşdur. Hər iki ornament su mifi ilə bağlıdır. Bu ornament Gülüstan türbəsində kürsülük hissəsi ilə oniki üzlü gövdə hissəsi arasında keçid yaradır. Ornament qurşağı yaxşı işlənilmiş miandradan ibarətdir. Ornamentin türbənin bu hissəsində verilməsi özü də simvolik məna daşımışdır. Bu da o dünyanın əbədi olmasına işarədir. Miandra memarlıq abidəsi kimi xalçalar üzərində də "qarmaq", "çəngəl" adı ilə işlənilir. "S" elementi əsasən xalçalarda təsvir olunan heyvanların boynunda, quyruqlarında işlənir. Bu element həm buludun, həm də sonsuzluğun işarəsidir.

Miandra xalçaların kənarələrin də bəzək elementi kimi çox işlənən ornamentlərdəndir. Bəzi hallarda "su", "miandra" elementi bitki elementi ilə birlikdə işlənir ki, bu da əskidə insanların və həyatın onlardan yaranması anlamına gəlir. "Miandra" müxtəlif təsvirlərlə, ornametlərlə birlikdə işləndiyi

kimi xalçalarda da tək işlənən ornamentlərdəndir. Bu ornamentin ucları bəzi hallarda haçalı (üç hissəli) verilir ki, bu da dünya modeli – göy, yer, yeraltı dünyanın və bunun əbədi olmasına işarədir.

Memarlıqda tağlar çox yüksək bədii estetik və kompazisiya keyfiyyətlər daşıyır. Son dərəcə rahatlıq və tarazlıq əqidəsini ifadə edən tağlar Azərbaycan memarlıq və xalçaçılığında çox işlənən elementlərdəndir.

Tağların quruluş forması və texnikası minillik ənənələrin xüsusiyyətlərini özündə saxlayırdı. Azərbaycan memarlıq və incəsənətində tağ texnikası və forması türk çadırlarının quruluşundan götürülmüşdür. Ona görə də qədimdə tağlar – etibar, koma, qala rəmzi mənasını daşıyırdı (6. s. 6).

Memarlıq abidələrində işlənən tağ konstruksiyası tikintinin möhkəmliyini artırır, ona monumentallıq, əzəmət və yaraşıq verməklə yanaşı gözəlliyə də xidmət edirdi.

Azərbaycan memarlığında çatma tağ formasından əmələ gəlmiş dekorativ tağlar, dekorativ incəsənətdə də özünə geniş yer tutmuşdur. Dekorativ tağlar naxışlar arasında ahəngdarlıq, bir motivdən başqa motivə keçmək imkanı yaradır.

Memarlıqda tağ adı daşıyan bu gözəl formalar dekorativ incəsənətdə, xüsusilə "namazlıq" adlanan xalçalarda "Ləçəkturunc" adı ilə geniş işlədilmişdir. Müəyyən müddətdən sonra bu tağ elementləri daha geniş həcmdə müxtəlif növ naxışlarla inkişaf edib zənginləşməyə başladı (3. s. 109).

Tağlar həm də dini mövzuda yazıların saxlandığı yer, sandıqça adlanır (6. s. 7-8). Ona görə də qurandan götürülmüş mətnlər memarlıq abidələrinin giriş baştağlarında və xalçalarda təsvir olunmuş tağların üzərində müxtəlif xətli kitabələrlə verilirdi.

"Namazlıq" adlanan kiçik həcmli xalçaların orta sahəsinin yuxarı hissəsində kitabə yerləşir və orada "Allah böyükdür" sözləri həkk olunur. Bu yer müqəddəs yerdir,

onun qarşısında diz üstə çöküb, alını möhürə vurursan. Bu isə "səcdəgah" adlanır (5. s. 103). "Namazlıq" xalçalarının üstündə xalq sənətkarları tərəfindən işlənmiş naxış kompazisiyası həm də insan siluetinə bənzəyirdi. Bəzi hallarda isə namazlıqda insan sifəti və əlləri də naxış dili ilə təsvir edilirdi.

XVIII-XX əsrlərin namazlıq xalçalarında insan fiqurları itir və onu müxtəlif formalı dekorativ tağlar əvəz edir. Qurandan götürülmüş ayələrin də yazılışı aradan gedir (5. s. 105).

Tağların orta sahəsində müxtəlif növ rəmzi məna daşıyan həndəsi elementlər – səkkiz, on, onikibucaqlı günəş; beşguşəli, altıbucaqlı, səkkizbucaqlı ulduz; romb; üçbucaq; kvadrat; nəbati ornametlərdən "Dünya ağacı", "islimi", "buta"; vazda gül-çiçək, quş, lampa təsvirləri ilə yanaşı tağların üzərində qoşa tovuz quşu, ay-ulduz, əl təsvirləri də verilirdi. Bu ornamentlər də hər biri özlüyündə müəyyən bir rəmzi məna daşıyırdı.

Epiqrafik ornamentlər Azərbaycan, Orta Asiya və İran memarlıq abidələrinin və xalçaların bəzədilməsində böyük yer tutur.

İslam dini dilləri, mədəniyyətləri, həyat tərzi, ayrı olan bir sıra xalqları vahid mədəniyyət və incəsənət telləri ilə birbirinə bağladı. Təkallahlılıq ideyalarını təbliğ edən, insanlara yüksək əxlaq normaları aşılayan islam ehkamları müxtəlif xonçalar (medalyon) haşiyyələr şəklində dini məbədlərin, kilsələrin səthlərində dəyişikliklər etməklə məscidlərə çevrilirdi. Qədim memarlıq əsərlərinin baştağlarına Quran ayələrindən kitabələr yazılır, künclərinə minarələr tikilirdi. Memarlıq abidələri üzərindəki tikinti tarixindən bəhs edən lövhələr və xatirə abidələri üzərindəki kitabələr bir qayda olaraq ərəb dilində yazılır və hər binanın təyinatına görə müqəddəs ayə və hadisələrlə tamamlanırdı. Ərəb yazısının kufi, nəsx xətləri müxtəlif təyinatlı memarlıq abidələrinin və xalçaların bəzədilməsində istifadə olunurdu.

Epiqrafik yazıların bir neçə üslublaşdırılmış forması vardır. Məsələn, medalyon formalarının həndəsi və nəbati

ornamentlərlə, divarın üzləmə səthinin naxışla bəzədilməsi və s. (4).

Epiqrafik yazılar Azərbaycan memarlığında XI-XII əsrlərdən inkişaf etməyə başlayır. Bu da binaların dekorunda üstün yer tutan həndəsi ornamentlərin inkişafı ilə sıx əlaqədardır. XIII-XIV əsrlərdə memarlıq abidələrində kufi yazılardan quraşdırılmış iri naxışların hazırlanması üsuluna təsadüf edilir. Lakin XIV əsrdən bitki ornamentinin quruluşuna oxşar nəsx xətti geniş tətbiq olunmağa başlayır. Müxtəlif epqrafik naxışların quruluşu hərflərin yazılışı, yeri və miqyası ilə əlaqədardır. Buna misal olaraq Mömünə Xatun türbəsini göstərmək olar. Burada ilk dəfə olaraq on üzün və iti tillərində Qurandan götürülmüş məna təkrar olunur. Bərdə türbəsində başdan-başa naxışlanmış səth üzərində firuzəyi şirlə örtülmüş qırmızı bişmiş kərpiclə 200 dəfə "allah" sözü təkrar olunur.

Qarabağlar türbəsinin səthi də həmin üsulla naxışlanmışdır. Burada naxışlanmış dioqonal kvadrat şəbəkənin daxilində təkrar olunan dini mətn verilmişdir.

Memarlıq abidələrində olduğu kimi, xalçalar üstündə də yazılar geniş yayılıb. Bu əsasən ərəb əlifbası ilə nəsx və nəstəliq yazılır və Allahı, Məhəmmədi tərifləyən Qurandan ayələrdir.

Yazılar əsasən "Namazlıq" xalçaların mehrab arkasının üstündə, namazlığın orta sahəsinin yuxarı hissəsində yerləşdirilirdi. Yazı stili bitki, gül ornamentlərinin stili ilə harmoniya təşkil edirdi (5. s. 60).

Memarlıqda və xalçaçılıqda işlənən bu yazılar informasiya xarakteri də daşıyırdı. Belə yazılara Azərbaycan memarlıq abidələrində və xalçalarında rast gəlirik.

Xalçalarda yazılara kartuşlarda da yer verilirdi. Belə hallarda yazılar bordürün sağ tərəfindən başlayırdı və bütün perimetr boyu gedirdi. Bordürlərdə kartuş olan xalçalar "turundlu" kompozisiyaları, orta sahədə isə iri mərkəzi medalyon işlənirdi (5. s. 62).

Xalça və memarlıq abidələrini bir-birinə yaxınlaşdıran təkcə onlar üzərində salınmış ornamentlər deyil, bu iki sənət xalqın estetik meyllərinin, gözəllik və mütənasiblik meyarlarının ən başlıcası isə milli təfəkkürünün daha mücərrəd fəlsəfi kateqoriyalarının ifadəçisi olmuşdur.

Ə d ə b i y y a t:

1. Rasim Əfəndi, Toğrul Əfəndi. "Azərbaycan bəzək sənəti". Bakı, 2002, s. 12-13
2. Mirəli Seyidov. "Azərbaycan mifik təfəkkürünün qaynaqları". Bakı, Yazıçı, 1983, s. 40-43
3. Lətif Kərimov. III cild. "Azərbaycan xalçaları". II cild. Bakı, Gənclik, 1983, 241 s.
4. Məmmədov K.M. "Azərbaycanda inşaat sənəti". Bakı, Elm nəşriyyat, 1978, s. 106-107
5. Кюбра Алиева. "Тебризская ковровая школа XVI-XVII вв". Баку, Элм, 1999, 194 с.
6. Владислав Копалинский . "Словарь символос", Янтар, Сказ, 2003, 263 с.

IV. TƏBİƏT ELMLƏRİ

TARİYEL TALIBOV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

ABBAS DƏMƏNABİ
Naxçıvan Dövlət Universiteti

CƏNUBİ AZƏRBAYCANIN KİYAMƏKİ ƏRAZİSİNİN ENDEMİK VƏ NADİR BİTKİLƏRİ

Hər bir ölkənin canlılar aləminin təkamül istiqamətinin müəyyənləşdirilməsində, həmin ərazinin endemik növlərinin öyrənilməsi əsas şərtlərdən biridir. Endem sözü yunancadan "endemos" – "yerli" kimi tərcümə olunur. Endemləri iki istiqamətdə fərqləndirirlər: paleoendemiklər – məhv olmaq təhlükəsi altında olan relikt növlər; neoendemiklər – yaxın tarixi keçmişdə xüsusi təcrid hesabına yaranmış proqressiv cavan növlər. Endemiklər içərisində relikt (lat. "relictum - qalıq") növlərin çoxu üçlük dövrünün yadigarıdır.

İran florası özünün əmələgəlmə və formalaşmasına görə çox qədimdir. Burada başlıca olaraq İran-Turan, Saharo-Sindian vilayəti və Hirkan əyaləti elementləri cəm olmuşdur. Ədəbiyyat analizindən məlum olur ki, İran ərazisində 8000 bitki növü mövcuddur ki, onun da 1810 növü (22,6 %-i) endemiklərə aiddir (6). İran – Turan vilayəti ərazidə ən böyük vilayət olmaqla, mövcud endemlərin 1452 növü burada bitir, bu isə ümumi endemlərin 80,2 %-ni təşkil edir (7).

Kiyaməki ərazisi İran – Turan vilayətinə daxil olmaqla Naxçıvan MR ilə şimal tərəfdən sərhədlənərək sahəsi 96952 ha-dır. Burada ən hündür zirvə Kiyaməki dağı olub, 3347 m d.s.h. yerləşir. Bu ərazidə Kəntal və Dərədiz xüsusi qoruqları

yerləşir ki, bu iki mühafizə sahəsində nadir, endem bitkilərlə yanaşı bəbir, muflon, dağ keçisi və s. qorunur.

Aparılan araşdırmalara görə (6) Kiyaməki və ona yaxın ərazilərdə aşağıdakı bitkilər endem növlər hesab edilmişdir:

0. Campanula propinqua Fisch. et C.A. Mey.
0. Dianthus orientalis Adams in Weber et Mohr, Beitr.
0. Centaurea ustulata DC.
0. Arabis ottonis – schulzii Bornm. et Gauba
0. Nepeta scrophularioides Rech.
0. Satureia sahandica Bornm.
0. Alcea flavovirens (Boiss. et Buhse) İljin
0. Astragalus (Onobrychoidei) effusus Bunge
0. Colutea porphyrogramma Rech.
0. Onobrychis szovitsii Boiss.
0. Acantholimon scorpius (Jaub. et Spach) Boiss.
0. Acantholimon tragacanthinum (Jaub. et Spach) Boiss.
0. Atraphaxis suaedifolia Jaub. et Spach.
0. Delphinium tuberosum Auch. ex Boiss.
0. Cerasus microcarpa (C.A. Mey.) Boiss. subsp diffusa
0. Echinophora platyloba DC.
0. Stenotaenia nudicaulis Boiss.

Qeyd edilən endem bitkilərin təhlili zamanı onlardan bəzilərinin Azərbaycan florasında olduğu aşkar edildi: Dianthus orientalis (5. c. 3. s. 382); Alcea flavovirens (5. c.6. s. 229); Cerasus microcarpa (5. c.5. s. 192), ona görə də bu növlər endem sayıla bilməz.

Ədəbiyyat məlumatlarına görə (4,5) aşağıdakı bitkilər İran Şərqi Azərbaycanının Kiyaməki (Kəmki dağı) ekoloji bölgəsindən "Qırmızı kitab"a daxil edilmişdir.

0. Campanula propinqua Fisch. et C.A. Mey.
0. Dianthus orientalis Adams in Weber et Mohr
0. İris iberica Hoffm.
0. Astragalus (Onobrychium) onobrychis L.
0. Astragalus (Oxyglottis) oxyglottis Stev. et Bieb.

6. Lotus gebelia Vent.
7. Onobrychis szovitsii Boiss.
8. Asperula arvensis L.
9. Thesium compressum Boiss. et Helder in Boiss.
10. Tribulus terrestris L.

Qeyd edilən 10 növdən bəziləri Azərbaycan Respublikasının da "Qırmızı Kitab"ına daxil edilmiş (1) və ya daxil edilməsi məqsədəuyğun sayılmışdır. İris iberica Hoffm. növünün yeni nomenklaturaya görə yarımnövü hesab edilən və Azərbaycanın "Qırmızı Kitab"ına daxil olan İ. elegantissima Sosn. Naxçıvan MR ərazisində yayılmışdır. Lakin maraqlı fakt odur ki, Azərbaycan Respublikası ərazisində alaq və ya zərərli bitki kimi hesab edilən Tribulus terrestris L. var. inermis Boiss. – sərilən (yatağan) dəmirtikanın bir variasiyası "Qırmızı Kitab"a daxil edilmişdir. Həmin ərazidə yayılan tülpan, soğan, gəvən və s. cinslərə daxil olan onlarca növlərin nadir bitkilər statusuna daxil edilməklə "Qırmızı Kitab"a salınması üçün tədqiqatlarımızı davam etdiririk. Fikrimizcə Kiyaməki ərazisində Naxçıvan MR ərazisində yayılmış bəzi endem bitkilərin də (Colutea comarovii) tapılması mümkündür.

Ə d ə b i y y a t:

1. Azərbaycan SSR-in "Qırmızı Kitab"ı. İşıq nəşriyyatı, Bakı, 1989, 544 s.
2. Talıbov T.H. Naxçıvan MR-in flora biomüxtəlifliyinin əmələ gəlməsi və formalaşması. Az. Res. "Təhsil" cəmiyyəti. "Bilgi" dərgisi. Kimya, Biologiya, Tibb. Bakı, 2002, № 1, s. 71-76
3. Talıbov T.H. Naxçıvan MR-in flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması. Elm nəşriyyatı,Bakı, 2001, 192 s.
4. Talıbov T.H. Naxçıvan MR-in flora biomüxtəlifliyinin endemik bitkiləri. NDU-nın Elmi Əsərlər. "Qeyrət", Naxçıvan, 2003, № 10, s. 55-61
5. Флора Азербайджана. Изд. АН Азерб. ССР. Баку, 1950-1961, тт. 1-8
6. Biodiversity of Plant Species in İran. The vegetation of İran. Plant species. Red Data of İran. Endemic species. Rore species.

Species threotened by extinction. A.Ghahreman, F.Attar. Tehran University Publications. Tehran. 1999. Vol. 1, 1176 s.
0. Jalili A., Jamzad Z. Red Data Book of İran. Research İnstitute of Forestis and Rangelands P.O. Box 13185-116, Tehran, İran, 1999, 748 p.

VARİS QULİYEV
AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutu

HİBRİDLƏŞMƏ YOLU İLƏ YENİ ÜZÜM FORMALARININ ALINMASI

Üzümçülüyün seleksiyasında klassik hibridləşmə kombinativ dəyişkənliyə malik yeni formaların alınması üçün geniş istifadə olunan genetik üsullardan biridir. Bu üsulla şaxtaya (2,1), mildiyu və oidium xəstəliklərinə qarşı davamlı (7), tezyetişən (5), yüksək muskat dada malik (3), müxtəlif istiqamətli hetrozis xəttlər (2,8), həmçinin ayrı-ayrı genom quruluşuna malik olan çoxlu hibrid sort və formalar alınmışdır. Yeni, kompleks davamlı üzüm sortlarının yaradılmasında, həm növdaxili, növlərarası, həm də poliploid səviyyədə hibridləşmə işlərindən istifadə olunur (1,4). Həmçinin bu üsulla baş verən kombinativ dəyişkənlikləri, ayrı-ayrı irsi əlamətlərin nəslə ötürülməsini və onlar arasında korelyativ əlaqələri müəyyən qədər öyrənmək mümkün olmuşdur (2,6).

Naxçıvan MR-də üzümün zəngin genefondunda təsərrüfat əhəmiyyətli bir sıra genetik xüsusiyyətlər mövcuddur. Belə irsi əlamətlərdən ən tez yetişkənlik (Ağ və Qara kürdəş, Xəlili, Naxçıvan Hüseynisi və s.), nisbətən şaxtaya davamlı (Ağ və Sarı kişmişi), xəstəliklərə dözümlü (Ağ və Qara aldərə, Naxçıvan qara üzümü, Pişik üzümü), iri giləli (Qızıl üzüm, Sahibi, Tayfı), həmçinin müxtəlif formaya, rəngə malik olan salxım və gilələrə, şəkərliliyə, turşuluğa, biokimyəvi tərkibinə görə geniş dəyişiklik spektrinə malik olan üzüm sortları mövcuddur. Bu irsi əlamətlərə malik üzüm

sortlarından hibridləşmə işlərində başlanğıc material kimi istifadə etməklə məqsədyönlü yeni formaların yaradılması elmi-praktik əhəmiyyət kəsb edir. Ona görə də 2004-cü ildə də müxtəlif kombinasiyalı hibridləşmə işləri aparılmış, nəticədə müvafiq hibrid toxumlar əldə olunmuşdur (Cədvəl 1). Onu da qeyd edək ki, əvvəlki illərdə aparılmış hibridləşmə işləri nəticəsində alınmış hibrid bitkilər üzərində ayrı-ayrı irsi əlamətlərin irsən ötürülməsinə də diqqət yetirilmişdir.

Cədvəl 1.

Müxtəlif kombinasiyalı hibridləşmə işlərinin nəticələri

S№	Hibrid kombinasiyalar	Genom kombina-siyalar	Salxımda axtarılmış çiçəklərin sayı (ədəd)	Normal gilələrin sayı (ədəd)	Gilə - tutma faizi (%-lə)	Toplan-mış hibrid toxumlar (ədəd)
1	Qırmızı kişmişi x Qızıl üzüm	2nx2n	250	40	16,0	150
2	Sarı kişmişi x Ordubadi	2nx2n	250	51	24,0	130
3	Muxtarı x Hərnəqırma	2nx2n	200	47	23,5	170
4	Qırmızı kişmişi x Muxtarı	2nx2n	250	45	18,0	80
5	H-80-9/6 x Hüseyni	4nx2n	150	50	33,4	110
6	Muxtarı x H-80-9/6	2nx4n	150	40	26,7	75
7	Qırmızı kişmişi x H-80-8/37	2nx4n	150	45	30,0	91
8	Ağ kişmişi x H-80-9/6	2nx4n	200	42	21,0	86
9	Muskatı x Hərnəqırma	2nx2n	200	56	28,0	210
10	Qızıl üzüm x Muxtarı	2nx2n	200	45	22,5	140

Nəticədə, Qırmızı kişmişi X Azərbaycan muskatı, Sarı kişmişi X Azərbaycan muskatı kombinasiyalarından alınmış hibrid bitkilər üzərində muskat dadın və qırmızı rəngin irsən ötürülməsi təhlil edilərək, bu irsi əlamətlərin istər homoziqot, istərsə də hetroziqot halda dominant əlamət olduğu müəyyən edilmişdir.

Aşağıda müvafiq kombinasiyalar üzrə alınan hibrid bitkilər içərisindən seçiləri, hazırda məhsul verən iki üzüm formasının əsas aqrobioloji göstəriciləri verilmişdir:

H.89-1: - Hibridləşmə üsulu ilə 1989-cu ildə Qırmızı kişmişi X Azərbaycan muskatı kombinasiyasından əldə olunmuşdur. Yarpaqları orta irilikdə olmaqla əsasən dairəvi, bəzən ovalşəkillidir. Çiçəkləri ikicinslidir. Tozcuqlarının fertiliyi 95-98%-ə çatır. Salxımları qanadlı konusvari formada, gilələri orta sıxlıqdadır. Gilələri dairəvi formalı, qırmızı rənglidir. Məhsulu xoşagəlim muskat ətirlidir. Çiçəklərinin forması və rəngi Qırmızı kişmişiyə, şirə çıxımı, muskat dadı, toxumunun forması və s. isə Azərbaycan muskatı sortuna oxşayır. Məhsulu avqustun ikinci yarısında tam yetişir. Məhsuldarlıq əmsalı K_1=0,74, K_2=1,30, şirədə şəkərliliyi 20-21,5%, turşuluğu 5,6-6,0 q/l-ə çatır. Salxımın orta çəkisi 350-380 q. bir koldan məhsuldarlıq 8-11 kq. olur. Təbii fonda mildiyu və oidium xəstəliklərinə qarşı davamlılığı 1,5 baldan yuxarı olmur. Nisbətən şaxtaya da davamlıdır. Payızda zoğlarda mumyetişmə 85-90%-ə çatır.

Süfrə istiqamətli üzüm formasıdır.

H.89-2: - Hibridləşmə nəticəsində Sarı kişmişi X Azərbaycan muskatı kombinasiyası üzrə əldə olunan hibrid bitkilər içərisindən seçmə yolu ilə 1989-cu ildə alınmışdır.

Yarpaqları tünd yaşıl, əsasən oval formalıdır. Çiçəkləri ikicinslidir. Tozcuqlarının fertilliyi 93-95%-ə çatır. Salxımları konusvari formada, gilələri orta sıxlıqdadır. Gilələr əsasən oval formalı, açıq mavi rəngdədir. Məhsulu muskat ətirlidir, sentyabr ayının birinci ongünlüyündə yetişir. Məhsuldarlıq əmsalı K_1=0,68, K_2=1,35 olur. Şirədə şəkərliliyi 19,5-21,0%, turşuluğu 5,8-6,5q/l-ə çatır. Salxımlarının çəkisi

350-420q olur. Təbii fonda mildiyu və oidium xəstəliyinə qarşı davamlılığı 1,6 ball həddindədir. Payızda zoğlarda mumyetişmə 81-88% olur. Bir koldan faktiki məhsuldarlıq 8-10 kq-a çatır.

Süfrə istiqamətli yeni perspektivli hibrid üzüm formasıdır.

Ə d ə b i y y a t:

0. Quliyev V.M. Naxçıvan MR-də üzümçülüyün genetikası və seleksiyasının bəzi problemləri. Naxçıvan Elm mərkəzinin əsərləri. VI b. 2001, s.51-60
0. Голдрига П.Я., Драновский В.А. Выведение новых сортов с повышенной морозоустойчивостью путем внутривидовой (Vitis vinifera L.) гибридизачии. В кн. Селекция винограда. Ереван. 1974, с.46-55
0. Губин Е.Н. Изменчивость показателей фенологии у гибридных форм и сортов винограда с мускатным ароматом, Докл. Моск. с-х. акад. им. К.А.Тимирязева, №261, 1980, с.33-36
0. Киреева Л.К., Новикова В.М. Полиплоидия и искусственный мутагенез - действенные методы обогащения генефонда вида V.Vinifera L. Из кн. Повышение урожайности винограда и улучшение качества виноградо - винодельческой прдукции. Труды ВНИИВ и В Магарач Т.XVIII К. Урожай, 1976, с.76-84
0. Мальчиков Ю.А., Голдрига П.Я. Генетика-селекционных исследования по созданию новых сортов винограда раннего срока созревания. Мат. 4-й Сьезд гени селек. Украины. Одесса 1981. Тез. докл. Киев 1981, с.93-95
0. Трошин Л.П., Фролова Л.И. Селекционно – статистический анализ гибридных популяции и элитных форм винограда. Труды ВНИИВ и В Магарач Т. XVIII Уражай 1976, с.59-69
0. Тулаева М.И., Чебаненко Е. П., Тарахиний М.И. Селекция винограда на морозо и мильдьюустойчивость. IV Съезд ген. и селек. Украины. Одесса 1981. Тез. Докл. ч.4, Киев. 1981, с.112-114
0. Филиппенко И.М., Истутин Л.Т. Получение болезнеустойчивых искодных форм винограда путем межвидовой гибридизации. V. vinifera X V. amurensus Rupr. Бюл. науч. информ центр генет. лаб. №33, 1979, с.29-30

TEYYUB PAŞAYEV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

NAXÇIVAN MR LİXENOFLORASI ÜÇÜN YENİ ŞİBYƏ NÖVLƏRİ

Son illərdə Naxçıvan MR-in müxtəlif zonalarından toplanılmış şibyə nümunələrinin təyini zamanı region üçün yeni taksonlar müəyyən edilmişdir. Lixenofloranın zəngin növ müxtəlifliyi yüksəklik qurşaqlarından, iqlim amillərindən, yamacların ekspozisiyasından, ekoloji şəraitdən, antropogen təsirlərdən və s. asılıdır (1,2,3).

Arazboyu düzənlik və alçaq dağlıq qurşaqlarda, nazik talloma malik qazmaqvari epigey və epilitlərin üstünlüyü müşahidə olunur. Orta dağlıqla yüksək dağlıqda isə yarpaqvari və kol səkilli epifitlərlə epilitlər dominantlıq təşkil edirlər. Rejionda talalar şəklində olan kiçik meşə sahələrində, meyvə bağlarında rast gəlinən növlərin əksəriyyəti isə yarpaqvari və kolşəkilli epifitlərdən ibarətdir.

Aşağıda Naxçıvan MR-in müxtəlif bölgələrindən toplanılmış, həyati formaları və yayılma yerləri göstərilmiş 28 növ haqqında məlumat verilir:

Sıra: ARTHONİALES

Fəsilə: *Arthoniaceae*

Cins: *Arthonia Ach.*

0. *Arthonia didyma Koerb. (= A. pineti Koerb.)* – İkili artoniya

Müxtəlif növlü ağacların qabığında, Ordubad Nürgüt 2200 m.

2. *A. dispersa (Schrad.) Nyl. (= Opegrapha dispersa Schrad., O. epipasta Ach., Arthonia minutula)* – Dağınıq artoniya

Palıd ağacı gövdəsində Batabat meşəsi, 1800 m.

2. *A. dispuncta Nyl. (= Arthonia exilis var. dispuncta Vain.)* – Nöqtəvi artoniya

Palıd ağacı gövdəsində Batabat meşəsi, 1800 m.
2. *A. lurida Ach. (= Coniangium vulgare Fr.)* – Sarımtıl artoniya
Müxtəlif ağacların gövdəsində, Culfa, Ərəfsə, 2000 m.
2. *A. punctiformis Ach. (= Arthonia populina Mass.)* – Nöqtəli artoniya
Qaya üzərində Babək Çalxanqala kəndi ətrafı 1600 m.
2. *A. radiata (Pers.) Ach. (= Opegrapha radiata Pers., Arthonia swartziana Ach.)* – Şüavi artoniya
Qaya üzərində Ordubad Biləv kəndi ətrafı 1600 m.
Fəsilə: *Opegraphaceae*
Cins: *Opegrapha Ach.*
2. *Opegrapha atra Pers. (= Lichen denigratus Ach., Opegrapha bullata Pers., Graphis atra Spreng.)* – Qara opeqraf
Hamar gövdəli ağac qabığı, Culfa, Paradaş 1600 m.
Sıra: PYRENULALES
Fəsilə: *Pyrenulaceae*
Cins: *Pyrenula Ach.*
2. *Pyrenula nitida (Weig.) Ach. (= Sphaeria nitida Weig.)* – Parlaq pirenula
Geniş yayılmış növdür. Qovaq gövdəsi Culfa ətrafı
Sıra: CALİCİALES
Fəsilə: **Caliciaceae**
Cins: *Chaenotheca Th. Fr.*
2. *Chaenotheca chrysocephale (Turn.) Th. Fr. (= Lichen chrysocephalus Turn., Calicium chrysocephalum Ach., Coniocybe chrysocephale Rabenh.)* – Qızılbaşlı xenoteka
Ağac qabığı üzərində Culfa ətrafı.
Sıra: GRAPHİDALES
Fəsilə: *Graphidaceae*
Cins: *Graphis Adans*
2. *Graphis scripta (L.) Ach. (= Lichen scriptus L., Opegrapha scripta Ach.,* – Cizgili qrafis
Şahbuz Batabat meşəsi 1800 m.

Sıra: LECANORALES
Fəsilə: *Placynthiaceae*
Cins: *Peltigera Pers.*
2. *Peltigera canina (L.) Wigg. (= Lichen caninus L.)* – İt peltigerası
Torpaq üzərində Babək Uzunoba gölü ətrafın 1000 m.
2. *P. venosa (L.) Baumg. (= Lichen venosus L.)* – Damarlı peltigera
Qaya üzərində Culfa İlandağ 2200 m.
Fəsilə: *Nephromiaceae*
Cins: *Nephroma Ach.*
2. *Nephroma helveticum Ach.* – İsveçrə nefroması
Ordubad Xurs kəndi ətrafı 2300 m.
Fəsilə: *Collemataceae*
Cins: *Collema Web.*
2. *Collema fragrans (Sm.) Ach. et Degel. (= Lichen fragrans Sm., Collema microphyllum Ach., Leptogium microphyllum Leig.)* – İyli kollema
Meyvə ağacları üzərində Ordubad ətrafı 900 m.
2. *C. furfuraceum (Ach.) DR. et Degel. (= Collemodiopsis nigrescens B. de Lesd.)* – Pulcuqlu kollema
Qayalar üzərində Ordubad Ağdərə 2100 m.
2. *C. nigrescens (Huds.) DC. (= Lichen nigricans Huds.)* – Qaramtıl kollema
Ağaclar üzərində Batabat meşəsi 1800 m.
2. *C. tenax (Sw.) Ach. (= Lichen tenax Sw.)* – İlişkən kollena
Torpaq üzərində Arazboyu düzənlik 1000 m.
Fəsilə: *Lecideaceae*
Cins: *Lecidella Koerb. et Hertel et Leuckert*
2. *Lecidella euphorea (Flk.) Hertel (= Lecidea glomerulosa (DC.) Steud., Patellaria glomerulosa DC.)* – Ziyilli lesidella
Geniş yayılmış növdür 600-2400 m.
Cins: *Lecidea Ach. et Hertel*

2. *Lecidea convexa (Fr.) Zahlbr.* – Şişkin lesidea
Silikatlı daşlar üzərində Naxçıvan şəhəri ətrafı 910 m.
2. *L. exigna Chayb. (= Biatora exigua (Chayb.) Fr.)* - İncə lesideya
Silikatlı qayalar Culfa İlandağ 2200 m.
2. *L. fuscoatra (L.) Ach. (= Lichen fuscoatra L.)* – Qonuru-qara lesideya
Qaya üzərində Ordubad Ağdərə 2100 m.
22. *L. lactea Flk. ex Schaer. (= Lecidea lapicida var. Pantherina Ach., L. pantherina Th. Fr., L. cyahea (Ach.) Röhl.)* – Südü-ağ lesideya
Qaya üzərində Babək Çalxanqala 1600 m.
22. *L. lapicida Ach. (= Lichen lapicida Ach.)* – Daş lesideyası
Qayalar üzərində Ordubad Nürgüt 2100 m.
22. *L. mosigii (Hepp.) Anzi (= Biatora mosigii Hepp., Lecidea fuscoatra var. mosigii Ach., Lecidella mosigii Koerb., Lecidea grisella f. mosigii (Ach.) Zahlbr.)* – Mamır lesideyası
Qayalar üzərində Culfa Ərəfsə kəndi ətrafı 2000 m.
Fəsilə: *Aspiciliaceae*
Cins: *Aspicilia Mass.*
22. *Aspicilia caesiocinerea (Nyl.) Arn. (= Lecanora caesiocinerea Nyl. in Malb., L. gibbosa auct. div.)* – Göyümtül-boz aspisilia
Silikatlı qayalar üzərində Culfa İlandağ 2200 m.
Fəsilə: *Parmeliaceae*
Cins: *Parmelia Ach.*
22. *Parmelia caperata (L.) Ach. (= Lichen caperatus L., Parmelia cylispora)* – Keçi parmeliyası
Yemişan ağacı gövdəsində Batabat meşəsi 1800 m.
Fəsilə: *Candelariaceae*
Cins: *Candelaria Mass.*
27. *Candelaria concolor (Dicks.) Stein. ap Kohn. (= Lichen concolor Dicks.)* – Birrəngli kandelariya
Yabanı alma ağacı gövdəsində Batabat meşəsi 1800 m.

Fəsilə: *Physciaceae*
Cins: *Physcia (Schreb.) Michx.*
28. *Physcia orbicularis (Neck.) DR. (= Lichen orbicularis Neck.)* – Dəyirmi fiscia
Yabanı alça ağacı gövdəsində Batabat meşəsi 1800 m.

Ə d ə b i y y a t:

0. Бархалов Ш.О. Листоватые и кустистые лишайники Азербайджана. Баку, Элм,1969,307 с.
0. Бархалов Ш.О. Флора лишайников Кавказа. Баку, Элм, 1983, 338 с.
0. Новрузов В.С. Флорогенетический анализ лишайников Большого Кавказа и вопросы их охраны. Баку, Элм, 1990, 323 с.

ƏNVƏR İBRAHİMOV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

NAXÇIVAN MR ƏRAZİSİNDƏ YAYILAN YABANI ARMUD NÖVLƏRİNİN FENOLOJİ XÜSUSİYYƏTLƏRİ

Yabanı armud növlərində fenoloji proseslərin gedişatının, onların inkişafına təsir edən amillərin izlənilməsi növlərin biologiyası və digər xüsusiyyətləri haqqında düzgün məlumat əldə etməyə imkan verir.

Tərtib edilmiş plan və metodikaya uyğun olaraq mart-noyabr aylarında Muxtar Respublikanın Ərəfsə (1800-2000 m), Ləkətağ (1800-2200 m), Biçənək (1800-2300 m), Sirab (1200-1400 m), Badamlı (1400-1600 m), Qızıl Qışlaq (1800-2000 m), Güney Qışlaq (2000-2200 m), Kükü (2200-2300 m), Aşağı və Yuxarı Qışlaq (1800-2200 m), Camaldın-Darıdağ (1100-1400 m), Şurud-Paradaş (1400-1600 m), Tivi, Bist, Ağdərə, Nəsirvaz, Nürgüt (2000-2400 m), Qazançı, Milax, Göynük (1400-1800 m), Gecəzur (1800-2000 m), Axura, Havuş (1600-2200 m) kəndləri ərazilərinə, həmçinin Qaraquş dağı (Lizbirt dərəsi) (2200-2600 m) ətəklərinə ekspedisiyalar

edilmiş və bu ərazilərdə yayılmış yabanı armudun müxtəlif növləri üzərində fenoloji müşahidələr aparılmış, biomorfoloji və botaniki xüsusiyyətlərinin bəzi aspektləri dəqiqləşdirilmişdir. Bu zaman əsas diqqət növ və formaların yayıldığı ərazilərin müəyyənləşdirilməsi, pomoloji təsvirlərin aparılması (tumurcuqların şişməsi, butonizasiya, çiçəkləmə, meyvələrin formalaşması və yetişməsi) və digər biomorfoloji əlamətlərin öyrənilməsinə yönəldilmişdir.

Ərazidə aparılan fenoloji müşahidələr haqqında məlumatlara A.A. Qrossheymin (5), "Флора Азербайджана" (7), K.S. Əsədov, Ə.K. Əsədovun (4), T.H. Talıbovun (2,3) kitab və məqalələrində rast gəlirik. Ədəbiyyat məlumatlarında (4,5,7) Muxtar Respublika ərazisində 10 növ armudun qeyd edilməsinə baxmayaraq, bizim tədqiqatlarımızda növ sayının 6-ya (P. salicifolia Pall., P. syriaca Boiss., P. medvedevii Rubtz., P. nutans Rubtz., P. caucasica Fed., P. acutiserrata Gladkova) çatdığını göstərmişik (3).

Aparılan tədqiqat işləri zamanı müəyyən olunmuşdur ki, armudun vegetasiyası $5,4^0$ C temperaturda başlayır və 24-37 gün sonra gündəlik daimi orta temperatur $9,3^0$ C olduqda çiçəkləyir. Bu əlamət ərik bitkisi üzərində fenoloji müşanidə apararan T.H.Talıbovun (1,6) tədqiqatları ilə də üst-üstə düşür. Muxtar Respublikanın dağətəyi və orta dağlıq qurşaqlarında yabanı armud növlərinin kütləvi çiçəkləməsi 20-25 mayda başlayır və 8-12 gün davam edir. Ekoloji şəraitdən (temperatur, ekspozisiya və s.) və hündürlükdən (1200-2300 m d.s.h.) asılı olaraq tumurcuqlanma, çiçəkləmə müddəti arasındakı fərq 10-15 gün çəkir. Anoloji qanunauyğunluqlar yarpaqlanmanın gedişində, meyvələrin formalaşması və yetişməsində də müşahidə edilir (Cədvəl).

Müşahidələr zamanı müəyyən olunmuşdur ki, yabanı armudun çiçəkləri qönçə vaxtı çəhrayı, tam açılan zaman isə ağ rəngdə olub, xoşagəlməz, üfunətli iylidir və yarpaqlarla bir yerdə qalxanlarda toplanmışdır. Erkəkcikləri 15-20, bəzən 25 ədəd olur, tozsuq kisəciüi qırmızı-bənövşəyi rəngdədir.

Yumurtalıq 2-5 sütunsuqlu olub, alt yumurtalıqlıdır. Çiçəklərin verdiyi çürüntü iyinə gələn sərtqanadlı böcəklər vasitəsilə tozlanır. Meyvələri müxtəlif formada olub qaidədən saplağa keçəndir. Meyvələrin lətli hissəsi daşlaşmış və bərk olur. Meyvəsi beşyuvalı olub hər yuvada 2 ədəd toxum yerləşir. Toxumları boz, açıq qəhvəyi, bəzən parlaq qaramtıl rəngdədir və ucları şiş qurtarır. Meyvəsi yalançı olduğundan kasacığın hissələri meyvənin üzərində qalır. Meyvələri sentyabr-oktyabr aylarında yetişir. Müxtəlif ölçü və formada olan yarpaqları bəzən qısa saplaqlı, kənarları tam, mişardişli və ya dişli olur. Yarpaqlar çılpaq, zəif tüklü və ya tüklü olur.

Ədəbiyyat:

0. Talıbov T.H., Babayeva S. Ərik. "Elm", Bakı, 1997, s. 15-26
0. Talıbov T.H. Naxçıvan MR-in flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması (Cormobionta üzrə). "Elm", Bakı, 2001, 192 s.
0. Talıbov T.H., İbrahimov Ə.M. Naxçıvan MR florasının yabanı armud növləri. "Bilgi" dərgisi, Kimya, Biologiya, Tibb, № 2 (18), Bakı, 2004, s. 53-56
0. Асадов К.С., Асадов А.К. Дикорастущие плодовые растения Азербайджана. Из-во "Азербайджан Милли Энсиклопедиясы", Баку, 2001, с. 26-38
0. Гроссгейм А.А. Флора Кавказа. Из-во АН СССР. М. - Л., 1952, т. 5, с. 14-27
0. Талыбов Т.Г. О сроках цветения и созревания плодов абрикоса в условиях Нахичеванской АССР. Респуб. Науч. Конф. аспирантов. Баку, 1982, с. 62-64
0. Флора Азербайджана.Из-во АН Азерб., Баку, 1954, т. 5. с. 37-49

Naxçıvan MR ərazisində yayılmış yabanı armud növləri üzərində aparılan fenoloji müşahidələrin göstəriciləri

Cədvəl 1

XXXXX - Tumurcuqların şişməsi (butanizasiya)
////////////// - Çiçəkləmə
|||||||||||||||||| - Meyvələrin formalaşması
\\\\\\\\\\\\\ - Meyvələrin yetişməsi

Növün adı	Hündürlüklər	Aylar və dekadaları																																								
		I			II			III			IV			V			VI			VII			VIII			IX			X			XI			XII		
		1	2	3	1	2	3	1	2	3	1	2	3	1	2	3	1	2	3	1	2	3	1	2	3	1	2	3	1	2	3	1	2	3	1	2	3	1	2	3	1	2	3
Yabanı armud növləri	1000-1500							XXX	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\
	1500-2000								XXX	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\
	2000-2500									XXX	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	///////	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\	\\\\\\\

SEYFƏLİ QƏHRƏMANOV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

NAXÇIVAN MR-də YAYILMIŞ BİR SIRA YAŞIL YOSUNLAR

Yaşıl yosunlar su mənbələrinin həyatında mühüm rol oynamaqla, suda üzvü maddələrin əsas yaradıcılarıdır. Bunlardan pediastrum, diktiospherum, senedesmus, binucularia, mikrasterias və s. suda yaşayan heyvanlar aləminin qida zəncirində fitoplankton-zooplankton balıq sxemi üzrə iştirak edirlər. Aktinotaenium, staurodesmus, staurastrum, cosmarium, desmidium, cocmo-cladium cinslərindən olan

yosunlar balıqların qidasını təşkil edən su onurğasızlarının əsas qidalarındandır.

Azərbaycanın müxtəlif bölgələrində yaşıl yosunların hərtərəfli tədqiqinə baxmayaraq, Naxçıvan MR-də onların biomüxtəlifliklәri öyrənilməmişdir. Bunları nəzərə alaraq onların hərtərəfli tədqiqi və flora spektrlərinin hazırlanması işi başlanmışdır.

Tədqiqat obyekti olaraq naxçıvan MR-in sututarları, süni yaradılmış su anbarları, ərazidən axan çaylar, onların qolları, çayətrafı bataqlaşmış yerlər və s. seçilmişdir. Ekspedisiyalar yolu ilə Araz su anbarından, Naxçıvançay, Kükü, Külüs, Biçənək çaylarından və onların qollarından, Gilançaydan, Ərəfsə - «Xəzinədərə»dən, Kükü - «Dərəboğaz»dan, Batabat, Uzunoba göllərindən və s. yerlərdən makroskopik və mikroskopik (fitoplankton) yosun nümunələri toplanaraq onların növləri təyinedicilər vasitəsilə öyrənilmişdir (1,2).

Tədqiqat zamanı aşağıdakı yaşıl yosunlar aşkar edilmiş və onların biomorfoloji əlamətləri qeyd olunmuşdur:

Cins: *Ulotrix*

Növ: *Ulotrix pseudoflaeca Tuffet vest.*

Sapşəkilli, birnüvəli, yaşıl yosun olub, bir-birindən aydın görünən arakəsmələrlə ayrılan qısa silindir formalı hüceyrələrdən təşkil olunmuşdur. Hüceyrələrin hamısı eyni quruluşdadır. Suyun içərisindəki substrata birləşən hissəsində xloroplastlar olmadığından rəngsizdir. Qalan hissələri yaşıldır. Xromotoforları hüceyrənin qılafına tərəf çəkilərək, qapalı formada düzülmüşdür. Ulotriks sapında hüceyrə qlafı xaricdən daxilə doğru azca çökmüşdür ki, bu da hər bir hüceyrənin aydın seçilməsini təmin etmişdir.

Naxçıvan çayının aşağı axarlarında, Vayxır su anbarından çıxan sularda, Kükü, Külüs çaylarının Naxçıvançaya qovuşan həssələrindən toplanmış nümunələrdə tapıldı.

Cins: Cosmarium Corda (1834) - Kosmarium

Növ: Cosmarium Subreniforme Nordst. - Böyrəkşəkilli kosmarium.

Hüceyrələrinin qlafı çox və ya azsaylı kiçik dənəciklərdən təşkil olunmuşdur. Yarımhüceyrələrin mərkəzində, boyuncuq üzərində hər birində 7, bəzən 8 ədəd dənəcik olmaqla 5 uzunsov sırada yerləşmiş şişkin dənəciklər müşahidə olundu Yarımhüceyrələri böyrək formasındadır. Yanlarının əsasından, 7-8 yerdən çıxıntı şəkilində şişkinləşmiş, üst tərəfdə və qurtaracaqda genişlənmişdir. Yarımhüceyrələrin enli çökək hissəsi yanlardan yumurtavari olub, üst səthi hamardır. Qalan yerlərdə üst tərəf qısa qövsvari olmaqla, üzərləri kiçik dənəciklərlə örtülmüşdür. Hüceyrənin ümumi quruluşu altıbucaqlı ellipsvaridir. Ölçüləri 34-38 mkm uzunluqda, 30-32 mkm enindədir.

Batabat gölü sahillərindən toplanmış torf nümunələrinin yuyulması ilə alınmış çəkintinin içərisində təsadüf olundu. Bu növ yosun Azərbaycanın bataqlaşmış gölməçələrində, Orta Asiyada, Ukraynada, Altayda və s. yerlərdə də tapılmışdır. Bunlara, əsasən dağlıq ərazilərdəki çürüntülü torpaqlarda, torflarda və mamırlar arasında rast gəlmək olur.

Cins: Cosmoastrum Pal. - Mordv (1976)

(= Staurastrum Meyen pr.p.) - kosmoastrum

növ: Cosmoastrum turgescens (De Not,) Pal.

- Mordv (= Staurastrum turgescens De Not.) Pal.

- Şişkinləşmiş kosmoastrum. - Bu növ yaşıl yosunlar çox hallarda kövrək saplarla birləşmiş formada olub, əsasən oval şəkillidir. Uzunluğu 26-43 mkm, eni 25-32 mkm-dir. Orta hissədə dərin çökəklik əmələ gətirməklə aydın görünən iki yarım hüceyrə quruluşundadır. Yarımhüceyrələri oval və ya uzunsov ovaldır. Hüceyrənin üst hissəsi 3-4 bucaqlı olub, burularaq çıxıntılı kənarlarla qurtarır.

Bu növ Naxçıvançay hövzəsindən, Uzunoba gölü və ondan çıxan kanallarda, Araz su anbarında tapıldı.

Qeyd olunan bu yaşıl yosunlar aşağıdakı sistematikaya daxildirlər.

bölmə: CHlorophyta - yaşıl yosunlar.
sinif : CHlorophyceae - bərabərqamçılılar.
fəsilə: Ulvaceae - ulvakimilər.
y/sıra: Chaetophorinae - xaetoforinasiya
sıra: Ulotrichales - ulotrikslər
cins: Ulotrix - ulotriks
növ: Ulotrix pseudoflaeca Tuffet rest.
Sinif: Conyucatophycea - konyuqatlar
sıra: Desmidiales - desmidilər
fəsilə: Desmidiaceae - desmidiasiya
cins: Cosmarium Corda (1834) - Kosmarium
növ: Cosmarium Subreniforme –
Böyrəkşəkilli kosmarium
cins: Cosmoastrum Pal-Mordv. (1976).
(=Staurastrum Meyn pr.p.) - kosmoastrum.
növ: Cosmoastrum turcescens (De Not.) Pal. - Mordv
(=Staurastrum turcescens De Not.) –
Şişkinləşmiş kosmoastrum

Bu yaşıl yosunlar müxtəlif bölgələrdən ilin müxtəlif vaxtlarında tapıldılar və Naxçıvan MR-in alqoflorası üçün yenidirlər.

Ə d ə b i y y a t:

0. Новости систематики низших растений. АН СССР, Бот-ий ин-т. Им В.Л.Комарова, том 21, Л., «Наука», 1984, с.3-51
0. Определитель пресноводных водорослей СССР, (зеленные водоросли) вып. 11(2), Паламарь – Мордвинцева Г.М.Л., «Наука», 1982, 620 с.

AYDIN QƏNBƏRLİ
RÜSTƏM RƏHİMOV
AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutu

SƏNAYE ƏHƏMİYYƏTLİ BƏZİ BİTKİLƏRDƏ EFİR YAĞLARININ TOPLANILMA DİNAMİKASININ VƏ YAĞ ÇIXIMININ TƏYİNİ

Naxçıvan MR-in bitki örtüyünü və mövcud faydalı növləri öyrənmək məqsədilə tədqiqatçılar tərəfindən çoxsaylı tədqiqat işləri aparılmış və bir çox dərman , efir yağlı ,aşı maddəli, rəngləyici, vitaminli bitkilər aşkar edilmişdir (1). Öz faydalı xüsusiyyətləri ilə geniş surətdə tanınan bu bitkilərin yayılma zonalarını, ehtiyatını müəyyən etməklə yanaşı, onların tərkibindəki bioloji aktiv maddələrin toplanılma dinamikasını öyrənmək qarşımızda qoyulan ən aktual məsələlərdən biridir. Son illər bitkilərdən bir çox yüksək keyfiyyətli yeni dərman preparatları, vitaminlər, antibiotiklər, bəzi alkaloidlər və alınmışdır. Bu birləşmələr kimyəvi cəhətdən çox mürəkkəb olmaqla bərabər ,əksərən yüksək biologi fəallığa malik olur. Belə mürəkkəb kimyəvi birləşmələrdən biri də tərkiblərində fenollar olan efir yağlarıdır(3).

Bitki mənşəli, uçucu xassəli (buradan da efirli sözü götürülmüşdür), həll olmalarına görə yağlara bənzəyən maddələr efirli yağlar adlanır. Efirli yağlar piylərdə və üzvi həlledicilərdə (xloroform, efir və s.) yaxşı, suda isə çətin həll olurlar.

Efirli yağların fiziki - kimyəvi cəhətdən piylərə bənzəmələrinə baxmayaraq kimyəvi quruluşlarına görə , onların piylərlə heç bir əlaqəsi yoxdur və onlar qliserinin mürəkkəb efirləri deyildir. Efirli yağların çox böyük qismi terpenlər adlanan hidroaromatik birləşmələrdən ibarətdir.

Efir yağlarının yeyinti, səhiyyə və kosmetika sənayesində əhəmiyyəti əsasən onların antiseptik xassəyə malik olmaları ilə əlaqədardır. Naxçıvan MR ərazisində

geniş yayılmış sənaye əhəmiyyətli, qiymətli bir çox efir - yağlı bitkilər (kəklikotu, boymadərən, istiot nanəsi , poruq, məzrə, yovşan, dağ nanəsi, birəotu və s.) mövcuddur ki, onlarında elmi əsaslarla tədqiq olunması vacib məsələlərdən biridir . Bu məqsədlə dəniz səviyyəsindən 700, 950 , 1450 metr hündürlüklərdə yerləşən ərazilərdə 200 m ^{2} sahələrdə təcrübə sahələri ayrılmış və həmin ərazidə efir – yağlı dominant bitkilər üzərində tədqiqat işlərinə başlanılmışdır.

Ayrılmış təcrübə sahələrindən koçi kəklikotu və acı yovşan bitkilərinin yaz və yay aylarında yaş halda nümunələri toplanmış , onlarda efir yağlarının toplanılma dinamikası öyrənilmişdir. Sahələrdən toplanılmış bitki kütləri bir saatdan artıq saxlanılmadan qovma aparatında distilyat yoluilə Ginzburq tutucusu vasitəsilə bitkilərdən efir yağları ayrılmışdır .

Bitkilərdə efir yağlarının toplanma dinamikası

Cədvəl 1

Bitkinin adı	Dəniz səviyyəsindən hündürlük (m-lə)	Nümunənin nəmliyi %-lə	Yağ çıxımı (quru kütləyə görə % -lə)	
			Çiçəkləməyə qədər	Çiçəkləmə fazası
Koçi kəklikotu	700	10,4	0,65-0,94	0,80-1,14
	950	10,45	0,64-0,92	0,78-1,10
	1450	10,72	0,60-086	0,76-1,02
Acı yovşan	700	10,51	0,72-1,13	0,87-1,22
	950	10,57	0,71-1,10	0,85-1,19
	1450	10,81	0,66-097	0,81-1,08

Təcrübələrdən aydın olmuşdur ki, efir yağları ən çox bitkilərin çiçəkləmə fazasında (1,14 %) , ən az isə bitkinin birillik zoğlarında (0,94 %) əmələ gəlir. Dəniz səviyyəsindən

hündürlüyə qalxdıqca bitkilərdə efir yağlarının toplanması azalır ki , bu da iqlim və torpaq şəraiti ilə əlaqədardır.

Bütün bunlarla yanaşı bitkilərdə ekstraksiya yolu ilə efir yağlarının çıxım miqdarı öyrənilmişdir. Bildiyimiz kimi efir yağları üzvi həlledicilərdə yaxşı, suda isə çətin həll olurlar. Ona görədə toplanılmış bitki nümunələri bəzi ekstraqentlərdə (benzol , petroleyn efir və izopropil spirti) müxtəlif vaxtlarda saxlanılmaqla onlarda toplanılmış efir yağlarının çıxım miqdarı müəyyənləşdirilmişdir. Apardığımız tədqiqatlardan məlum olmuşdur ki , bitkilərdə efir yağlarının çıxım miqdarı distilyat üsuluna nisbətən ekstraksiya yolu ilə daha yüksək olur (Cədvəl 2).

Bitkilərdə ekstraksiya yolu ilə efir yağlarının çıxımı
(% - lə)

Cədvəl 2

Bitkinin adı	Nümunə götürülüb (dəniz səviyyəsindən 750 m hünd)	Bitki kütləsinin nəmliyi %-lə	Bitkinin inkişaf fazası	İstifadə olunan ekstraqent	Qarışdırılmaq şərtilə ekstraksiya müddəti (otaq temperaturası 20°s)				
					10 dəq	20 dəq	30 dəq	1 saat	2 saat
Koçi kəklikotu Thymus kotshyanus	14 / v// - 2004	10,41	Çiçəkləmə fazası	Petroleyn efir. (40-60°s)	1,07	1,13	1,15	1,17	1,17
				Benzol	1,06	1,09	1,11	1,13	1,15
				İzopropil spirti	1,04	1,06	1,07	1,11	1,13
Acı yovşan Artemisia fraqrans	25 / v// -2004	10,54	Çiçəkləmə fazası	Petroleyn efir	1,08	1,17	1,25	1,25	1,27
				Benzol	1,07	1,11	1,20	1,23	1,25
				İzopropil spirti	1,04	1,09	1,17	1,21	1,23

Cədvəldən göründüyü kimi petroleyn efirlə ekstraksiya olunan bitki kütləsində efir yağlarının çıxım faizi, benzol və izopropilə nisbətən çoxdur. Eyni zamanda bitkilərdən yağ çıxımı prosesi əsasən iki saat müddətində maksimum həddə çatır. Lakin onu da qeyd etmək lazımdır ki, alınan efir yağlarının keyfiyyəti ekstraqentdə saxlama müddətindən asılıdır. Belə ki bitki kütləsinin ekstraksiya müddəti artdıqca onun keyfiyyət əmsalı düşür.

Son illər tərkibində efir yağı olan bitkilər o cümlədən kəklikotu və yovşan geniş öyrənilməkdədir. Aparılmış çoxsaylı tədqiqatlar göstərir ki, tərkiblərində timol, karvakrol, cineol, borneol, kapillen, kapillin, axillin, sitosterin, siqmasterin, xolesterin, evqenol və başqa mürəkkəb kimyəvi birləşmələrə tibbdə, kosmetikada, böyük ehtiyac vardır. Bu baxımdan Naxçıvan ərazisində geniş yayılmış böyük iqtisadi potensiala malik kəklikotu və yovşan bitkilərini hər tərəfli öyrənmək vacib məsələlərdən biridir.

NƏTİCƏ

Naxçıvan respublikası ərazisində geniş yayılmış sənaye əhəmiyyətli qiymətli bir çox efir-yağlı bitkilər (kəklikotu,boymadaran,istot nanəsi, poruq, məzrə, yovşan, dağnanəsi, birəotu və s.) mövcuddur ki, onların elmi əsaslarla tədqiq olunması vacib məsələlərdən biridir. Bu məqsədlə dəniz səviyyəsindən müxtəlif hündürlüklərdə yayılmış kəklikotu və acı yovşan bitkiləri üzərində təcrübə aparılmış və onlarda inkişaf fazalarından asılı olaraq efir yağlarının toplanma dinamikası öyrənilmişdir. Aparılmış tədqiqatlar göstərir ki, efir yağları ən çox bitkilərin çiçəkləmə fazasında toplanır. Dəniz səviyyəsindən hündürlüyə qalxdıqca bitkilərdə efir yağlarının toplanması azalır ki, buda iqlim və torpaq şəraiti ilə əlaqədardır.

Tədqiqatlar göstərir ki, bitkilərdə efir yağlarının çıxım miqdarı distiliyat üsuluna nisbətən ekstraksiya yolu ilə

daha yüksək olur. Eyni zamanda məlum olmuşdur ki, ekstraksiya müddətindən asılı olaraq bitkilərdə yağın çıxım miqdarı dəyişilir.

Müxtəlif ekstraqentlərlə (petroleyn efir, benzol, heksan, izopropilen) aparılmış təcrübələr göstərir ki, petroleyn efir (q.t..40-60^{0}s) ən yaxşı həlledicidir.

Ə d ə b i y y a t:

1.Qənbərli A.Ə. Ordubad rayonunun friqana örtüyü. Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyətinin,təbii sərvətlərinin öyrənilməsi. Bakı, "Elm", 2004, s.197-199

2. Quliyev V.S. Naxsıvan MSSR –nin florası, bitki örtüyü və faydalı bitkiləri .Bakı, 1981, s.145-147

2.Talıbov T.N. Naxçıvan MR –in flora müxtəlifliyi və onun nadir növlərinin qorunması. Bakı, "Elm", 2001, s. 11-15

RAMİZ ƏLƏKBƏROV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

NAXÇIVAN MR BRİOFLORASININ SİSTEMATİK TƏHLİLİ

Zəngin flora və bitki örtüyünə malik Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR ərazisinin relyefi, sərt kontinental iqlim şəraiti burada özünəməxsus bitki örtüyünün yaranmasına səbəb olmuşdur. Ərazi mütləq hündürlüyü 600 m-lə (Kotam vadisi), 3904 m (Qapıcıq) arasında dəyişən mürəkkəb quruluşa malik səhra, yarımsəhra, bozqır, dağ kserofit, friqanoid, az miqdarda meşələri, eroziyaya uğramış dərə və yarğanları olan bölgədir. Regionun iqliminin mürəkkəbliyi, oroqrafik quruluşunun müxtəlifliyi burada yayılmış mamırların növ tərkibinin zəngin olmasına səbəb olmuşdur. Bu bölgədə mamırların eko-senotik, coğrafi, yayılma qanunauyğunluqları, fitocoğrafiiyası, sistematik strukturu, flora

spektrinin əsaslı tədqiqatı və sistemli öyrənilməsi əsas məqsədlərdən biridir (2).

Tədqiqat 2003- cü ildən başlanılmışdır. Marşrutlar Babək rayonu Uzunoba gölü (950 m d.s.h.) ətrafından başlanılaraq, ardıcıl olaraq Nəcəfalıdizə (1000 m d.s.h.), Əshabi- Kəhv (1600 m d.s.h.), Nəhəcir (1800 m d.s.h.), Ərəfsə (2000 m d.s.h.), Paradaş (1600 m d.s.h.), Bist (1600 m d.s.h.), Xurs (1800 m d.h.), Nürgüt (2000 m d.s.h.), Ağdərə (2200 m d.s.h.) kəndləri ərazilərində aparılmış və 350- dən çox nümunə toplanılmışdır.

Tədqiqata başlayanda Naxçıvan MR briofloresında 16 fəsilə 24 cins və 34 növ mamırın olduğu qeyd edilirdi (2). İki illik tədqiqatın nəticəsində əlavə olaraq 6 fəsilə 17 cins və 34 növ mamır aşkar edilmişdir (1). Tədqiq olunan fəsilələrdən - Dicranaceae, Grimmiaceae, Amblystegiaceae, Trochostomaceae cinslərinin sayına görə çoxluq təşkil edirlər (13 cins - 52%).

NAXÇIVAN MR BRİOFLORASININ FLORİSTİK VƏZİYYƏTİ

I. Fəsilə: Andreaceae
1. Cins: Andreaea Hedw.
1. (1) A. rupestris Hedw.- epilit
II. Fəsilə: Dicranaceae
2. Cins: Dicranella (G. Muell) Schimpr.
2. (1) D. scoparium Hedw.- epigey
3. (2) D. heteromalla (Hedw.) Schimp. - epilit
3. Cins: Dicranium Hedw.
4. (1) D. polysetum Sw. - epigey
5. (2) D. congestum Brid.- epigey
4. Cins: Orthodicranum B.S.G. Loeske
6. (1) O. montanum (Hedw.) Loeske - epilit
III. Fəsilə: Fissidentaceae
5. Cins: Fissidens Hedw.
7. (1) F. taxifolius Hedw.- epigey
8. (2) F. streptocarpa Hedw.- epilit

9. (3) F. adiontoides Hedw.- epigey
10. (4) F. qrandifrons Hedw.- epilit

IV. Fəsilə: Encalyptaceae

9. Cins: Encalypta Hedw.

11. (1) E. streptocarpa Hedw.- epilit

V. Fəsilə: Trichostomaceae

7. Cins: Eucladium B.S.G.

12. (1) E. verticillatum (Brid.) B.S.G.- epifit
8. Cins: Tortella (Lindb.) Limpr.
13. (1) T. inclimata (Hedw.) f. Limpr. - epigey

9. Cins: Barbula Hedw.

14. (1) B. convoluta Hedw.- epigey
10. Cins: Trichostomum Hedw.
15. (1) T. crispulum Bruch- epigey

VI. Fəsilə: Grimmiaceae

11. Cins: Schistidium Brid.

16. (1) S. apocarpum (Hedw.) B.S.G. - epigey

12. Cins: Grimmia Hedw.

18. (1) G. ovalis (Hedw.) Lindb.- epilit
19. (2) G. ovalis (Hedw.) Brid. - epilit
13. Cins: Racomitrium Brid.
20. (1) R. microcarpum (Hedw.) Brid.- epilit
21. (2) R. canescens (Hedw.) Brid.- epilit

VII. Fəsilə: Funariaceae

14. Cins: Funaria Hedw.

21. (1) F. hygrometrica Hedw.- epigey

VIII. Fəsilə: Bryaceae

15. Cins: Pohlia Hedw.
22. (1) P. cruda (Hedw.) Lindb.- epigey
23. (2) P. nutans (Hedw.) Lindb.- epigey

16. Cins: Bryum Hedw.

24. (1) B. turbinatum (Hedw.) Schwaegr.- epilit
25. (2) B. pallens Sw.- epigey

IX. Fəsilə: Mniaceae

17. Cins: Mnium Hedw.

26. (1) M. marginatum (With.) P. Beauv.- epigey

X. Fəsilə: Orthotrichaceae
18. Cins: Orthotrichum Hedw.
27. (1) O. speciosum Nees- epilit
XI. Fəsilə: Neckeraceae
19. Cins: Neckera Hedw.
28. (1) N. oligocarpa Bruch.- epilit
XII. Fəsilə: Amblystegiaceae
20. Cins: Leptodictyum Warnst.
29. (1) L. riparium (Hedw.) Warnst.- epilit
21. Cins: Amblyustegium B.S.G.
30. (1) A. compactum (G. Muell.) Aust.- epigey
22. Cins: Callergonella Loeske
31. (1) C. stramineum (Brid.) Kindb.- epifit
XIII. Fəsilə: Brachytheciaceae
23. Cins: Brachythecium B.S.G.
32. (1) B. mildeanum (Schimp.) Schimp.- epifit
XIV. Fəsilə: Polytrichaceae
24. Cins: Pogonatum Beauv
33. (1) P. aloides (Hedw.) Beauv.- epigey
25. Cins: Polytrichum Hedw.
34. (1) P. piliferum Hedw.- epigey

Polytrichaceae, Bryaceae (cəmi 4 cins, 16%), Andreaea, Fissidentaceae, Funariaceae, Orthotrichaceae, Mniaceae, Neckeraceae, Brachyteciaeae, Encalyptaceae fəsilələrinin hər biri 1 cins - 4% təşkil edir. Növlərin sayına görə Grimmiaceae, Dicranaceae hər biri 5 növ - 14,70%, Fissidentaceae, Bryaceae, Trichostomaceae hər biri 4 növ - 11,76%, Amblyustegiaceae 3 növ - 8,82%, Polytrichaceae 2 növ - 5,88%, Andreaea, Funariaceae, Orthotrichaceae, Neckeraceae, Mniaceae, Brachyteciaeae hər biri 1 növ - 2,92% təşkil edir (1).

Mamırların substrat üzərində yayılmalarına görə təhlil göstərir ki, epigeylər 17 növ – 50%, epilitlər 14 növ – 41,17%, epifitlər 3 növ – 8,82% təşkil edir. Bu istiqamətdə tədqiqat işləri davam edir.

2004 cü ildə aparılan tədqiqatlar nəticəsində ərazidə 6 fəsilə 17 cins və 34 yeni mamır növü aşkar edilmişdir. Bunlardan 1 cins və 16 növ Azərbaycan brioflorası üçün ilk dəfə göstərilir. Fəsilələr içərisində Dicranaceae, Grimmiaceae, Amblystegiaceae, Trichostomaceae cinslərinin sayına görə, Grimmiaceae, Fissidentaceae isə növlərinin sayına görə üstünlük təşkil edirlər. Hazırda yekun olaraq 22 fəsilə 41 cins və 68 növ mamır Naxçıvan MR-in brioflora spektrini təşkil edir.

Ədəbiyyat:

0. Novruzov V.S., Ələkbərov R.Ə. Naxçıvan MR-dən Azərbaycan üçün yeni mamırlar. Aqronomluq və Texnologiya fakültəsinin elmi əsərlər toplusu, Bakı, 2003, s.34-36.
2. Talıbov T.H., Ələkbərov R.Ə. Naxçıvan MR-in mamırkimilərinin tədqiqinə dair. Azərbaycan Milli Elmlər Akademiyası Botanika İnstitutunun Elmi əsərləri. XXV cild. Bakı, 2004, s.78-94

ARZU MƏMMƏDOV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

H.Ə. ƏLİYEV ADINA ORDUBAD MİLLİ PARKININ ORNİTOFAUNASI

Genetik fondun qorunub saxlanması üçün orqanizmi volyerdə, zooparkda və bu kimi süni şəraitdə yetişdirmək kömək edə bildiyinə baxmayaraq, biomüxtəlifliyi saxlamaq üçün rejimlə qorunan ərazilər əvəzedilməzdir. İndiyə qədər Azərbaycanda 11 dövlət qoruğu, 20 dövlət yasaqlığı, 5 Milli Park təşkil edilmiş və 52 MOƏ (Mühüm Ornitoloji Ərazi) müəyyən olunmuşdur (1,2). Bu ərazilərdə faunanın, ümumilikdə təbii konpleksin qorunub saxlanmasının strategiyası "Azərbaycan Respublikasının heyvanlar aləmi haqqında qanunu"nda (1998), BMT-nin "Bioloji müxtəliflik haqqında" konvensiyasında (2000) və Azərbaycan

Respublikasının Milli Ekoloji Proqramında (2003) öz əksini tapmışdır.

Mövzunun aktuallığı: Ümummilli liderimiz H.Ə. Əliyevin 16 iyun 2003-cü il tarixli Sərəncamı ilə təşkil edilmiş və sahəsi 12131 ha olan Ordubad Milli Parkının ornitofaunası müasir ekoloji tələblər səviyyəsində öyrənilməmiş və ya çox az öyrənilmişdir. Belə bir vəziyyət Parkın qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsinə mane olur. Burada nadir və nəsli kəsilmək qorxusu yaranmış quşların optimal sayının bərpasına mane olan əsas səbəblərdən biri də parkın reprezentativliyinin zəifliyidir. Bu problemlərin həlli Ordubad Milli Parkında təbii kompleksin ayrı-ayrı komponentlərinin, o cümlədən ornitofaunasının müasir tələblərə cavab verə bilən səviyyədə tədqiq edilməsini tələb edir.

Parkın ərazisində müşahidələr vizual və optik cihazların köməyi ilə aparılmışdır. Əraziyə edilən ekspedisiyalar parkın cənubdan-şimala bütün ərazisini əhatə etmişdir. Parkın ərazisində marşrutun uzunluğu kolluq və dik yamaclarda 5-7 km, açıq və dağətəyi zonalarda 9-11 km, hərəkətin surəti isə 1,7-2 km/saat, diklərdə isə 1-1,5 km/saat olmuşdur. Çöl tədqiqatları zamanı növlərin təsnifatdakı adları B.Q. Tuayev (4), "Животный мир Азербайджана" (6) və T.H. Talıbova (3) görə verilmişdir. Növlər Lars Jonsson (8), K.M. Qənbərov (7) və A.İ. İvanov, B.K. Ştegmanın (5) ədəbiyyatlara istinad olunaraq təyin edilmişdir.

Tədqiqat zamanı parkın ornitofaunasının kompleks təyininə 6 parametr daxil edilmişdir, məqalədə isə yalnız bunlardan biri – quşların növ və taksonomik tərkibi haqqında məlumat veririk.

Ordubad Milli Parkının ornitofaunası

0. Tetraçalan – Accipiter gentilus L.
0. Bildirçinçalan – A. nisus L.
0. Tuvik – A. badius Gmel.
0. Çöl sarı – Buteo rifinus Cretz.
0. Adi sar – B. buteo L.

0. Bərqud – Aquila chrysaetus L.
0. Qara çalağan – Milvus migrans Bood.
0. Leşyeyən qartal – Neophron perochopterus L.
0. Saqqallı qartal – Gypaetus barbatus L.
0. Qara kərkəs – Aegypius monachus L. *
0. Ağbaş kərkəs – Cyps fulvus Habl.
0. İlanyeyən – Circaetus ferox Gm.
0. Çöl belibağlısı – Circus macrourus Gm. *
0. Çöl muymulu – Falco naumanni Fleisch. *
0. Adi muymul – F. tinnunculus L.
0. Şahin, laçın – F. peregrinus Tunst.
0. Xəzər uları – Tetragallus caspius Gm.
0. Gözəl kəklik – Alektoris çhukar Gray.
0. Çil kəklik – Perdix perdix L.
0. Bildirçin – Coturnix coturnix L.
0. Çöl göyərçini – Columba livia Gm.
0. Meşə göyərçini – C. oenas L.
0. İri meşə göyərçini –C. palumbus L.
0. Qur-qur – Streptopelia turtur L.
0. Qaraqarın bağrıqara – Pterocles orientalis L.
0. Ququ quşu – Cuculus conorus L.
0. Meşə bayquşu – Otus scops L.
0. Dam bayquşu – Athene noctua Scop.
0. Boz yapalaqca – Strix aluca L.
0. Keçisağan – Coprimulgus europaeus L.
0. Qara uzunqanad – Apus apus L.
0. Balıqcıl – Alcedo atthis L.
0. Qızılı qızlarqusu – Merops apiaster L.
0. Göycəqarğa – Coracias garrulus L.
0. Şanapipik – Upupa epops L.
0. İri ağacdələn – Dendrocops major L.
0. Suriya ağacdələni – D. suriacus Hempet. Ehr.
0. Çöl torağayı – Melanocorypha colandra L.
0. Xırda torağay – Calandrella cinerea Gm.
0. Kəkilli torağay – Galerida cristata L.
0. Meşə torağayı – Lullula arborea L.

0. Tarla torağayı – Alauda arvensis L.
0. Sahil qaranquşu – Riparia riparia L.
0. Dağ qaranquşu – Ptyonoprogne rupestris Scop.
0. Şəhər qaranquşu – Delichop urbica L.
0. Dağ çaydaçapanı – Motacilla cinerea Tunst.
0. Çöl antı – Anthus compestris L.
0. Meşə antı – A. trivialis L.
0. Dağ antı – A. spinoletta L.
0. Alacöhrə – Lanius cristatus L.
0. Qaraalın alacöhrə – L. minor Gm.
0. Su sərçəsi – Cinclus cinclus L.
0. Bilibitdan – Troglodytes troglodytes L.
0. Alp çərənçisi – Prunella collaris Scop.
0. Meşə çərənçisi – P. modularis L.
0. Şəfəq bülbülü – Erithacus rubecula L.
0. Cənub seyrə bülbülü – Luscinia megarhynchos B.
0. Ağboğaz bülbül – İrania gutturalis Guerin.
0. Qaraca odquyruq – Phoenicurus oehruros Gm.
0. Çəmən çəkçəkəsi – Saxicola rubetra L.
0. Oynaq çaxraqcıl – Oenanthe isabelina Temm.
0. Qızılquyruq çaxraqcıl – O. xanthoprymno Hempr.
0. Keçəl çaxraqcıl – O. hispanica Lepechin
0. Çaxraqcıl – O. oenanthe L.
0. Tuğay bülbülü – Erythropygia galactotes Temm.
0. Qaya qaratoyuğu – Monticola saxatilis L.
0. Göy qaya qaratoyuğu – M. solitarius L.
0. Ağdöş qaratoyuq – Turdus torquatus L.
0. Qara qaratoyuq – T. merula L.
0. Oxuyan qaratoyuq – T. philomelos Brehm.
0. Nazikdimdik qamışcıl – Lusciniola melanopogon Temm.
0. Qırğı silvi – Silvia nisoria Bechst.
0. Qarabaş silvi – S. atricapilla L.
0. Kölgəlik yarpaqgüdəni – Phylloscopus collybitus Vieill.
0. Xırda milçəkqapan – Muscicapa parva Bechst.
0. Pəsnək quşu – Remiz pendulinus L.
0. İri arıquşu – Parus major L.

78. Kiçik qayalıq sittası – Sitta neuniyer Mich.
79. Böyük qayalıq sittası – S. tephronoto Shorpe.
80. Qırmızıqanad tixodrom – Tichodroma muraria L.
81. Tarla vələmirquşu – Emberiza calandra L.
82. Dağ vələmirquşu – E. cia L.
83. Bağ vələmirquşu – E. hortulana L.
84. Meşə sərçəsi – Fringilla coelebs L.
85. Yurok – F. montifringilla L.
86. Meşə konereykası – Chloris chloris L.
87. Payız bülbülü – Cardullis carduelis L.
88. Dağ kətanquşu – Cannabina flavirostris L.
89. Səhra qar quşu – Bucanetes qithagineus Licht.
90. Qırmızıqanad roderxi – Phodoperhys sanguinea Gould
91. Dam sərçəsi – Passer domesticus L.
92. Qaradöş sərçə – P. hispaniolensis Temm.
93. Çöl sərçəsi – P. montanus L.
94. Qısabarmaq sərçə – Carpospiza brachydactyla Br.
95. Qaya sərçəsi – Petronia petronia L.
96. Sığırçın – Sturnus vulgaris L.
97. Zığ-zığ – Garullus glandarius L.
98. Sağsağan – Pica pica L.
99. Sarıdimdik – Graculus graculus L.
100. Boz qarğa – Corvus corone L.
101. Qırmızıdimdik – Pyrrhocorax pyrrhocorax L.
102. Quzğun, qarğa – Corvus corax L.

Qeyd: * - qlobal statuslu növlər

Cədvəldən göründüyü kimi ilk dəfə müəyyən edildi ki, Ordubad Milli Parkının ornitofaunasına 102 növ quş daxildir.

Ornitofaunanın taksonomik spektri

Cədvəl 2

S №№	DƏSTƏLƏR	Fəsilənin sayı	Cinsin sayı	Növ sayı
1.	Qızılquşkimilər - Faliconiformes	2	11	16
2.	Toyuqkimilər - Galliformes	1	4	4
3.	Göyərçinkimilər - Columbiformes	2	3	5
4.	Qugugquşukimilər - Cuculiformes	1	1	1

5.	Bayquşkimilər - Strigiformes	1	3	3
0.	Keçisağankimilər - Caprimulgiformes	1	1	1
0.	Uzunqanadlılar - Apodiformes	1	1	1
0.	Göycəqarğakimilər - Coraciiformes	4	4	4
0.	Ağacdələnkimilər - Piciformes	1	1	2
0.	Sərçəkimilər - Passeriformes	19	48	65
0.	C ə m i :	33	77	102

Taksonomik spektrin təhlilindən göründüyü kimi sərçəkimilər parkda yayılmış quşların yarısından çoxunu təşkil edir (63,1%). İkinci yeri parkda qızılquşkimilər tutur – (15,5%). Bu da parkın ərazisinin əsasən dağlıq və qayalıq olması ilə əlaqədardır. Qalan növlər isə 21,4 % təşkil edir.

Tədqiqatın nəticələrinə görə Ordubad Milli Parkında 10 dəstə, 33 fəsilə, 77 cins və 102 növ quş müəyyənləşdirilmişdir. Bunlardan 3 növ *Aegypius monachus, Circus marcrourus və Falco naumanni* qlobal qorunma statusuna malik quşlardır.

Ədəbiyyat:

0. İsmayılova T.P. İsmayıllı Dövlət Qoruğunun ornitofaunası. Biol. elm. nam. diss. avtoref. Bakı, 2003, 25 s.
0. Sultanov E.H., Məmmədov A.F. Naxçıvan MR-in mühüm ornitoloji əraziləri. Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyətinin, təbii sərvətlərinin öyrənilməsi. Konfrans materialları. Bakı, Elm, 2004, s. 237-240
0. Talıbov T.H. Naxçıvan Muxtar Respublikasında nadir heyvan növləri və onların genofondunun qorunması. Bakı, Elm, 1999, s. 40-62
0. Tuayev D.Q. Azərbaycan quşlarının katoloqu. Bakı, Elm, 2000, 239 s.
0. Иванов А.И., Штегман Б.К. Краткий определитель птиц СССР, Л, 1978, 559 s.
0. Животный мир Азербайджана. Том III. Позвоночные Баку, Элм, 2000, с. 261-426
0. Гамбаров К.М. Католог птиц Азербайджана (отряд воробьиных) Баку, 1941, с. 38-54
0. Lars Jonsson Birds of Europe with North Africa and Middle East christopher Helm (Publishers), a subsidiary of A and C Black (Publishers) Limited, London, 1992, 559 p.

LOĞMAN BAYRAMOV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

NAXÇIVAN MR ƏRAZİSİNDƏ YAYILMIŞ BƏZİ YERLİ ALMA SORTLARININ BİOMORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

Naxçıvan MR ərazisində meyvəçilik qədim zamanlardan geniş inkişaf etdirilir. Naxçıvan MR-in torpaq-iqlim şəraiti meyvə bitkilərinin böyüməsi, inkişafı, bol və yüksək keyfiyyətli məhsul verməsi üçün olduqca əlverişlidir. Naxçıvan MR-in torpaqlarının əsas xüsusiyyətləri onların dağ-meşə tipinə daxil olmamasıdır. Zonanın yuxarı hissəsində dağ-qonur, yarımsəhra-çöl, daha yuxarılarda dağ-şabalıdı, dağ-qəhvəyi, dağ-çəmən çöl torpaqları yayılmışdır. Naxçıvanda meyvə ağaclarının ən geniş yayıldığı ərazilər də göstərilən torpaq tipləri olan sahələri əhatə edir.

Muxtar Respublika ərazisinin dağ və dağətəyi bölgələrində ən geniş yayılanı alma bitkisidir.

Naxçıvan MR ərazisində alma bitkiləri arasında bir çox sort və sortmüxtəlifliklərinə rast gəlmək olur. Bu sortmüxtəlifliklər uzun dövr ərzində öz-özünə tozlanmaların, həvəskar bağçılar tərəfindən calaqetmə və süni seçmənin, təbii faktorların təsiri, parçalanma nəticəsində resessiv və ya yeni dominant əlamətlərin üzə çıxması, eləcə də əks dəyişmələrin getməsi nəticəsində baş vermişdir. Ədəbiyyatlarda Naxçıvan ərazisində becərilən əsas meyvə bitkilərinin sortmüxtəlifliklər göstərilmişdir ki, onlardan da çoxu almanın payına düşür. Məhz buna görə də, Naxçıvan ərazisi qədim zamanlardan almadan hazırlanan yeyinti məhsulları ilə məşhur olmuşdur. MR ərazisində yayılan almanın sortmüxtəlifliklər haqqında məlumatlara C.Əliyev (1974), F.P.Xudaverdiyev (1984), M.P.Maksimova (1966), T.H.Talıbov (1991; 1997; 2001), T.Tağıyev (1969), Ə.C.Rəcəbli (1966) və başqalarının da əsərlərində rast gəlinir.

Beləliklə, alma *Rosoceae* fəsiləsinin *Pomidae* yarım fəsiləsinin *Malus* cinsinə aiddir. Bu cinsin dünyada iyirmi beşədək tanınmış növü və on mindən artıq sortu olmasına baxmayaraq, onlardan ancaq bəziləri meyvə ağacı kimi istifadə olunur.

Naxçıvan MR ərazisində bioloji xüsusiyyətlərinə görə bir-birindən fərqlənən və müxtəlif vaxtlarda yetişən çoxlu alma sortları vardır ki, bunlar da təsərrüfat və selleksiya nöqteyi nəzərindən böyük əhəmiyyət kəsb edir.

Tədqiqat zamanı Naxçıvan MR ərazisində yayılmış qiymətli alma sortları müəyyənləşdirilmiş və aşağıdakı qiymətli sortların biomorfoloji xüsusiyyətləri öyrənilmişdir.

Sarı belflör - Şahbuz rayonu ərazisində, o cümlədən Badamlı kəndində geniş yayılmışdır. Ağacının hündürlüyü 5-6 metr, çətirinin forması piramida şəkilli olub, çox şaxəlidir. Yarpağının kənarı dişlidir. Meyvəsinin rəngi sarı, üzəri nöqtəlidir. Qabığı qalın, ləti ağ və dadı şirindir. Meyvəsinin ümumi orta kütləsi 155 qramdır. Saplağının uzunluğu 10 mm, qalınlığı isə 2 mm-dir. Saplağı çılpaq, yetişmiş meyvəyə bitişməsi möhkəmdir. Meyvəsi kəsildikdə havada qaralır. Bu da onun tərkibində dəmirin çox olmasını göstərir. Kütləvi yetişmə vaxtı sentyabrın 25-dən oktyabrın 10-a qədər davam edir.

Cirhacı - qədim sortlardan biridir. Naxçıvan MR ərazisində, o cümlədən Şahbuz rayonunun Kükü kəndində geniş becərilir.

Ağacının hündürlüyü 9 metrə çatır, çətiri geniş-girdə və qüvvətlidir. Yarpaqları enli, kənarları seyrək mişardişlidir. Meyvələri ağacdan asanlıqla tökülür. Meyvəsi yastı-yumrudur, ağırlığı 100-150 qram olur. Meyvəsinin qabığı qalın və bərkdir. Tam yetişdikdə tünd sarı olur. Ləti ağ, orta dərəcədə sulu, ətirli, bərk və şirindir.

Saplağının uzunluğu 15 mm, qalınlığı 1,8 mm olub, yetişmiş meyvələrə bitişməsi möhkəmdir. Kütləvi yetişmə dövrü oktyabrın ikinci yarısında olur. May ayının axırına qədər saxlamaq olur.

Toz alma - Naxçıvan MR ərazisində, o cümlədən Şahbuz rayonunun Qızıl Qışlaq kəndində geniş yayılmışdır. Ağacının hündürlüyü 8-10 metr, çətiri hündür və geniş formadadır. Yarpaqlarının kənarları mişardişlidir Meyvəsinin iriliyi ortadır, ümumi orta kütləsi 125 qramdır. Zirvəsi dartılmış, forması yumurudur. Saplağının uzunluğu 9 mm, qalınlığı 2 mm, üzəri tükcüklü, yetişmiş meyvəyə birləşməsi ortadır. Meyvəsinin rəngi sarımtıl - çəhrayı, üzəri az ləkəlidir. Yerli adı toz alma kimi adlandırılır. Kütləvi yetişmə dövrü oktyabrın 20-dən noyabrın 5-ə qədər davam edir. Meyvələrini soyuq şəraitdə may-iyun ayına kimi xarab olmadan saxlamaq mümkündür.

Yay alması - Naxçıvan MR-in yerli sortu olub Şahbuz rayonunun Badamlı qəsəbəsində və digər kəndlərdə çox az qaldığından itib getmək təhlükəsi vardır. Bu sortun çoxaldılması və yayılması əsas məsələlərdən biridir. Ağacının hündürlüyü 8-9 metr, çətiri düz piramida formadadır. Yarpaqları balaca olub, kənarları mişar dişlidir. Zoğ üzərində düzülüşü növbəlidir. Meyvəsi çox da iri olmur, təxminən 70-80 qrama çatır. Meyvənin forması yumuru, zirvəsi batıq, rəngi qırmızı yanaqlıdır.

Saplağının uzunluğu 28 mm, meyvəyə birləşmə möhkəmliyi ortadır. Meyvəsini yığdıqdan sonra 2 ay saxlamaq mümkündür. Kütləvi yetişmə dövrü iyunun 25-dən iyulun 10-a qədər davam edir.

Qəndil Sinap - Muxtar Respublika ərazisinə Quba rayonundan gətirilmişdir. Yerli adı «Stəkan alma»dır. Şahbuz rayonunun Keçili kəndində geniş yayılmışdır. Ağacın hündürlüyü 5-6 metr, çətiri hündür piramida formadadır. Yarpaqları ensiz uzunsov, kənarları mişardişli və növbəli düzülüşlüdür Meyvəsi orta böyüklükdə olub, orta kütləsi 115-120 qramdır. Forması uzun, zirvəsi batıq, günəş tutan tərəfin rəngi qırmızı və zolaqlıdır.

Saplağının uzunluğu 20 mm, qalınlığı 1,2 mm-ə bərabərdir. Meyvəyə birləşməsi möhkəmdir.

Qırmızı bəlləör - Yerli əhali tərəfindən içi şirəli alma adı ilə tanınmışdır. Lakin bu sorta fərdi heyvanyam sahələrdə tək-tək təsadüf olunur. Ağacın hündürlüyü 5-6 metr, çətiri çox şaxəli və aşağıya doğru əyilmişdir Yarpaqları çox enli, uzun, növbəli

düzülüşlü və kənarları mişardişlidir. Meyvəsi orta böyüklükdə olub, təxminən 90-95 qramdır. Meyvəsinin rəngi parlaq qırmızı, üzəri ağ nöqtəlidir. Ləti də meyvəsi kimi qırmızı və içi şirəlidir. Saplağının uzunluğu 9 mm, qalınlığı 1mm, yetişmiş meyvəyə bitişməsi möhkəmdir. Meyvələrin kütləvi yetişmə dövrü oktyabrın 10-dan 25-ə qədər davam edir. Yanvar-fevral, bəzən mart ayına kimi ümumi çəkisinin 10%-ni itirməklə saxlamaq olur. Bu sortun itmə təhlükəsini aradan qaldırmaq məqsədilə «Nəbatat bağı»nda artırılıb çoxaldılması nəzərdə tutulur. Şahbuz rayonunun Güney Qışlaq kəndində becərilən və ən az yayılan sortlardandır.

Bütün bunlardan belə nəticəyə gəlmək olur ki, Naxçıvan MR ərazisində geniş spektrdə yayılmış alma sort və sortmüxtəlifliklərinin hərtərəfli tədqiqi, onların seleksiya işlərinə cəlb olunması ilə yeni, məhsuldar, xəstəliklərə, soyuğa, quraqlığa və s. davamlı sortların və formaların yaradılması gələcək tədqiqatların əsas istiqamətlərindən biridir. Bundan əlavə Naxçıvan MR ərazisində yayılmış bir çox qiymətli alma sortlarının itib getmə təhlükəsinin qarşısını almaq, onların saylarının çoxaldılıb yayılmasını təmin etmək də tədqiqatın əsas məqsədlərdəndir.

Ə d ə b i y y a t:

0. Əliyev C. Meyvəçilik. «Maarif», Bakı, 1974, s.305.
0. Xudaverdiyev F.P. Naxçıvan MSSR-in tumlu meyvə sortları və onların becərilməsinə dair tövsiyələr. Bakı, 1984, s.16.
0. Maksimov M.P. Azərbaycan SSR üçün tumlu meyvələrin standart sortları, «Azərnəşr». Bakı, 1966, s.32.
0. Talıbov T.H. Naxçıvanda bağçılıq, tarixi təcrübə, mövcud vəziyyət və müasir problemlər. Elmi-praktiki konfransın materialları. Bakı Dövlət Universiteti nəşriyyatı. 1991, s.34.
0. Talıbov T.H. Ərik. Bakı, Elm, 1997, s.92.
0. Rəcəbli S.Ə. Azərbaycanın meyvə bitkiləri. «Azərnəşr». Bakı, 1966, s.248.

ABBAS İSMAYILOV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

GİLANÇAY HÖVZƏSİNİN SƏHRA VƏ YARIMSƏHRA BİTKİLİYİ

Gilançay Ordubad rayonunda yerləşib, uzunluğu 53 km, hövzəsinin sahəsi isə 426 km² olmaqla ən sulu çaylardandır. Çay öz mənbəyini Zəngəzur silsiləsinin cənub-qərb yamacından, dəniz səviyyəsindən təqribən 2700 m yüksəklikdən alaraq üç botaniki-coğrafi rayon - Naxçıvan yüksək dağlıq, Naxçıvan dağlıq və Naxçıvan düzənlik ərazilərindən keçərək 678 m yüksəklikdə Araz çayına tökülür. Çayın başlıca qolları Saqqarsu (3065 m), Nəsirvazçay (3906 m), Xırdaçay (3167 m) və Parağaçaydır (3827 m). Çayın dərəsi yuxarı və orta axında dar, aşağı axında isə genişdir (1,2,8).

Gilançay hövzəsi şərqdən Qaravulxana (1442 m), Gəvək (1718 m) dağla, şimaldan Nabatdağ (3375 m), Dəvəboynu dağı (3563 m), qərbdən isə Qazangöldağ (3829 m), Qapıcıq dağ (3904 m), Səfərdərə dağ (3826 m) və Daşbası dağla (1708 m) sərhədlənmişdir (8).

Bitkiliyin şaquli yayılma qanunauyğunluğuna əsasən Gilançay hövzəsində alp və subalp çəmənlik, su - bataqlıq, dağ-kserofit, friqanoid, bozqır, tala şəkilli meşəlik, yarımsəhra və səhra bitkilik tipləri yayılmışdır.

Naxçıvan düzənlik botaniki-coğrafi rayonu səhra və yarımsəhra bitkilik tipləri ilə təmsil olunmuşdur (2).

Coğrafi nöqteyi-nəzərdən səhra və yarımsəhralar həddindən artıq quru iqlimə, qumlu, gilli, daşlı və şoranlaşmış torpaq örtüyünə malikdir. Qumun miqları torpağın tərkibində üstünlük təşkil edir. Yağıntıların illik miqdarının orta göstəricisi (səhralarda 100-200 mm-ə, yarımsəhralarda isə 200-220mm) çox aşağı, havanın orta

temperatur göstəricisi isə yüksəkdir (yarımsəhralarda 22-25^{0}C).

Əksər hallarda bəzi botaniklər səhra və yaramsəhranı Yer kürəsinin elə hissəsinə aid edirlər ki, həmin ərazilərdə həyati formaların təbii seçimi quraqlığa davamlılıq istiqamətində gedir.

Akademik A.A.Qrossheym göstərir ki, səhra bitkiliyi dedikdə, quraqlıq ərazilərdə tək-tək rast gəlinən nə yerüstü, nə də yeraltı hissələrinin bir-biri ilə qarşılıqlı əlaqəsi olmayan bitkilik tipi nəzərdə tutulur. O, göstərir ki, bu cür bitkilik tipi Qafqaz ərazisində, Aralıq dənizi və Orta Asiya səhralarında olduğu kimi zonal xarakter daşımasa da, lokal şəkildə böyük və ya kiçik ərazilərdə tez-tez rast gəlinir (4). Yarımsəhra bitkilik tipinə Naxçıvan MR ərazisində Arazboyu düzənlikdə rast gəlinir.

Yarımsəhra bitkilik tipini A.A.Qrossheym arid iqlim qurşağında yarıqapalı (və ya mövsümü - qapalı) qruplar halında yayılmış və kserofitlərdən təşkil olunmuş bir bitkilik tipi kimi təsvir etmişdir (4).

Səhralardan fərqli olaraq yarımsəhralarda senoloji moment bitkilərin yerüstü və yeraltı orqanlarının ilin fəsillərindən asılı olaraq bir-birinə təsiri müşahidə olunur. Bu cür sahələrdə çoxillik bitkilər üstünlük təşkil edirlər. Yarımsəhralarda həmişə az və ya çox dərəcədə inkişaf etmiş mikrorelyefə təsadüf olunur. Yarımsəhra substratlarda ətraf mühit amillərinə fərqli reaksiya göstərən və uyğunlaşan 4 əsas bitki qrupu müəyyən edilmişdir.

0. Çoxilliklərin və ya kolların edifikator qrupları
0. Yay və payız birillikləri
0. Fuqitivlər
0. İbtidai bitkilər (səpələnmiş) qrupu (yosunlar, şibyələr)

Yarımsəhranın xarakterik xüsusiyyətlərindən biri də onun sinuziyalarının bir-biri ilə zəif əlaqəli olmasıdır. Bu əlamət A.A.Qrossheym tərəfindən ətraflı şəkildə öyrənilmişdir (4).

Yuxarıda göstərdiyimiz bitki qrupları yarımsəhralarda əksər hallarda kompleks şəkildə müşahidə edilir. Lakin bəzi hallarda bu qruplardan biri istisnalıq təşkil edir və ya sərbəst şəkildə rast gəlinir.

Səhra biomüxtəlifliyin T.H.Talıbov, Ə.Ş.İbrahimov və F.Q.Mövsümova da öyrənmişlər. Onlar Naxçıvan MR-in səhra biomüxtəlifliyini tədqiq etməklə müəyyən etmişlər ki, Arazboyu düzənliyin qumlu, çox şorlaşmış sahələrində halofit bitkilər (yoğunlaşmış sarsazan, tüklü frangeniya, Xəzər saksaulu, Xəzər sarıbaşı, çiçəkli şoravçə, iyli yovşan, yarpaqsız öldürgən və s.) üstünlüyə malikdirlər. Bunlar da səhra bitkiliyində edifikator və dominant kimi iştirak etməklə, fitosenozun əsas kütləsini təşkil edirlər. Tədqiqatçılar səhra landşaftlarında 650-yə yaxın bitki növünün (230 növ tipik səhra elementidir) və 110 müxtəlif səhra fitosenozunu qeydə almaqla yanaşı, səhra bitkiliyi üçün yeni formasiya və səhra qruplaşmaları da vermişlər (3, 6).

Gilançay hövzəsinin yarımsəhra qurşağı Araz çayı yanındakı ensiz bir zolaqdan ibarətdir. Relyefi düz olmayıb, başlıca düzənliklər ləpəyəbənzər təpələrlə ayrılır (Senon) (7).

Aparılan tədqiqatlardan belə nəticəyə gəlmək olur ki, bu bitkilik tipinə aşağıdakı bitki formasiyalarını aid etmək olar:

0. Efemerli - Yovşanlıq — *Ephemereto - Artemisietum*
0. Gəngizli - Yovşanlıq — *Salsoleto - Artemisietum*
0. Taxıllı - Yovşanlıq — *Bothriochloeto - Artemisietum*
0. Yovşanlı - Şorəngəlik —*Artemisieto - Salsoletum*

Efemerli - Yovşanlıq formasiyası. Tipik yovşan fitosenozlarında efemerli sinuziyalardan *Poa bulbosa* üstünlük təşkil edir. Taxıllardan ibarət birillik efemerlər, xaççiçəklilər, mürəkkəbçiçəklilər və qaymaqçiçəklilər fəsiləsinə aid olan bitkilər otlaqda mühüm rol oynayır.

Bu formasiya kənd təsərrüfatı heyvanlarının qiymətli qış otlağı hesab edilir. İlin meteroloji şəraitindən asılı olaraq

formasiyanın məhsuldarlığı dəyişir. Formasiyanın yayıldığı sahələrin böyük bir hissəsində kənd təsərrüfatı bitkiləri becərilir.

Bu senozların flora tərkibi yamacın mailliyinin dəyişməsi ilə sıx əlaqədardır. Az maili və maili yamaclar növ tərkibinə görə çox zəngindir. Dik yamaclarda isə bitki örtüyü əhəmiyyətli dərəcədə seyrəkləşir. Xüsusilə, bu eroziya prosesinin güclü inkişaf etdiyi yamaclarda daha çox nəzərə çarpır ki, burada yalnız güclü kök sistemli bitkilərin inikşaf etmə qabiliyyəti artır.

Gəngizli - yovşanlıq formasiyası. Bu formasiyanın fon əmələ gətirən növləri yovşan (Artemisia fragrans Willd.) və gəngizdir (Salsola nodulosa (Moq.) İljin). Qış otlağı kimi yazda kafi, payız və qış dövrlərində isə yaxşı qiymətləndirilir. Çünki yovşan və gəngiz otluğun əsas hissəsini təşkil edir ki, bunlar payızdan başlayaraq heyvanlar tərəfindən yeyilir. E.M.Qurbanov Naxçıvançay hövzəsinin səhra və yarımsəhra bitkilik tipinin tərkibində bu formasiyanın 5 assosiasiyanı göstərmişdir (5).

Taxıllı - Yovşanlıq formasiyası. Bu formasiyaya hövzənin səhra və yarımsəhra bitkilik tipinin tərkibində ayrı-ayrı talalar şəklində rast gəlinir. Formasiyanın növ tərkibi çox zəngin deyil. Belə ki, burada *Poaceae, Fabaceae* fəsiləsinin nümayəndələrinə və müxtəlif otlara rast gəlinir.

Yovşanlı - Şorangəlik formasiyası. Bu formasiyaya da Gilançay hövzəsində ayrı-ayrı talalar şəklində rast gəlinir. Formasiyanın növ tərkibində taxıllara, paxlalılara və müxtəlif otlara rast gəlinir. Bu formasiya da yem keyfiyyətinə görə yaxşı qış otlağı hesab edilir.

Ə d ə b i y y a t:

1. Babayev S.Y. Naxçıvan MR-in coğrafiyası. Bakı, Elm, 1999, s. 23-56
2. Hacıyev V.C. Azərbaycanın bitki örtüyü xəritəsi. Bakı, 1992
3. İbrahimov Ə.Ş., Talıbov T.H. Naxçıvan MR-in səhra biomüxtəlifliyi və onun nadir növlərinin mühavizəsi. Naxçıvan

Regional Elm mərkəzinin əsərləri, VI buraxılış, Naxçıvan, 2001, s.84-87
0. Гроссгейм А.А. Растительный покров Кавказа М., МОИП, 1948, 267 с.
0. Гурбанов Э.М. Растительный мир бассейна реки Нахичеванчая. Баку, БГУ им. М.А. Расулзаде, 1996, с.75-92
0. Мовсумова Ф.К. Солянковые пустыни Нахичеванской АССР и их кормовое значение. Автореферат дисс. канд. биол. наук. Баку, 1990, 25 с.
0. Прилипко Л.И. Растительные отношения в Нахичеванской АССР. Изд. Аз. ФАН, Баку, 1939, 196 с.
0. Рустамов С.Г. Водные ресурсы Нахичеванской АССР. - Тр. ИНАН Азерб. ССР, 1959, т.2, с.81-85

PƏRVİZ FƏTULLAYEV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

NAXÇIVAN MR ŞƏRAİTİNDƏ BUĞDA BİTKİSİNİN MÜXTƏLİF SORT VƏ FORMALARININ ÖYRƏNİLMƏSİ

Buğda insan orqanizminə lazımlı, əsas qida maddələri ilə zəngin olan, insanlar tərəfindən ən qədimdən becərilən mədəni bitkilərdən biridir. Əhalinin buğda məhsullarına olan tələbatını daha yaxşı təmin etmək üçün Respublikanın suvarılan torpaqlarında yeni məhsuldar, xəstəlik və ziyanvericilərə, şaxtaya qarşı davamlı, quraqlığa dözümlü, torpağa az tələbkar sortların yaradılması hazırkı dövrün ən aktual problemlərindən biridir.

Muxtar Respublikanın ərazisində həm yabanı növlərin, həm becərilməkdə olan sortların öyrənilməsi, genofondun toplanılması, yeni, yüksək keyfiyyətli, məhsuldar, xəstəlik və ziyanvericilərə qarşı davamlı sortların yaradılması və istehsalata yönəldilməsi əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

Zaqafqaziyada buğdanın 4-5min il bundan əvvəl becərilməsinə dair arxeoloji tapıntılar əldə olunmuşdur. Hələ lap qədimdən buğda bitkisi üzərində xalq seleksiyası işi aparılmışdır. Azərbaycan özünün xalq seleksiyası yolu ilə alınmış «Gürgənə», «Qırmızı buğda», «Xırda buğda», «Qaraqılçıq» və s. sortları ilə məşhurdur.

Yeni buğda sortlarının alınması işinə Azərbaycanda 1925-ci ildə Gəncə seleksiya stansiyasında başlanılmışdır. Bu işlərə ilk əvvəllər V.N.Qromerevski rəhbərlik etmişdir. Burada yerli populyasiyalardan istifadə etməklə seçmə yolu ilə yeni payızlıq bərk buğda - Arandəni, Xoranka və payızlıq yumşaq buğda sortları - Araz buğdası və Ferruqeneum 9704/2 alınmışdır. Hibridləşdirmə yolu ilə isə Şərq (Apulikum 82/1 x Xoranka), Azərbaycan - 1, Azərbaycan - 2 (Kooperatorka 963 x Kleyn 33), Ağ buğda 13 (Apulikum 82/1 x Xoranka) sortları alınmışdır (3).

Q.Mendelin irsiyyət qanunlarının kəşfi kənd təsərrüfatı elminin müxtəlif sahələrində, xüsusilə də bitkilərin seleksiyası və toxumçuluqda yeni metodların axtarılması işlərini sürətləndirdi (4).

Müasir seleksiya işlərində kənd təsərrüfatı bitkilərinin yeni sortlarını yaratmaq üçün seçmə, hibridləşdirmə, mutagenez, haploidiya, poliploidiya, gen və xromosom mühəndisliyi və s. metodlarından geniş istifadə edilir. Qeyd etmək lazımdır ki, seleksiya prosesində bu metodlardan ayrı-ayrılıqda deyil, kombina edilmiş formada istifadə olunduqda daha yaxşı nəticələr alınır.

Taxıl seleksiyasında ən geniş yayılmış metodlar seçmə və hibridləşdirmədir. Buğdanın hibridləşdirilməsinə aid ilk məlumata T.H.Kniqhtin 1817-1823-cü illərdə dərc edilmiş işlərində rast gəlinir. O, spontan hibridlər haqqında məlumat verərək qeyd edirdi ki, onlardan bəziləri becərilən sortlardan daha məhsuldardır (5).

Buğda bitkisinin davamlı və yüksək məhsuldar sortlarının yaradılması və formalaşdırılması üçün tədqiqat işlərində istifadə olunan ilkin materialın düzgün seçilməsi

vacibdir. Burada coğrafi nöqteyi-nəzərdən uzaq olan hibridləşdirmənin də mühüm əhəmiyyəti vardır. Yeni taxıl sortlarının yaradılmasında dünya alimləri ilə yanaşı Azərbaycanın seleksiyaçı alimləri də geniş tədqiqat işləri aparmışlar. Ölkə alimləri uzun illər apardıqları tədqiqatlarla müəyyən etmişlər ki, Azərbaycan bərk buğdanın vətənidir.

Akademik C.Ə.Əliyevin rəhbərliyi ilə yaradılmış Qaraqılçıq-2, Şiraslan - 23, Vüqar, Tərtər, Mirbəşir - 50, Bərəkətli - 95, Turan, Qarabağ - 7 və başqa sortlar Respublikamızın əkin sahələrində uğurla becərilir. Yeni sortların intensiv texnologiya ilə becərilməsi sayəsində məhsuldarlıq xeyli artmışdır. Onun araşdırmasına görə bir sıra ölkələrdə, orta hesabla, 60-70 sen/h buğda alınır. Buğdadan ən yüksək məhsul 140 sen/h ABŞ-da alınmışdır (1).

Akademik C.Ə.Əliyevin rəhbərliyi ilə bərk (Triticum durum) və yumşaq (Triticum aestivum) buğdanın bir neçə min genotipi tarlada normal su təchizatı və kəskin su qıtlığı şəraitində becərilmişdir. T.durum genotipləri T.aestivuma nisbətən su çatışmazlığına yüksək davamlılığı ilə fərqlənmişlər (2).

Yuxarıda qeyd etdiyimiz kimi hibridlər bir-birindən genetik cəhətdən fərqlənən 2 valideyn formaların çarpazlaşdırılmasından alınır. Hibridləşdirmə 3 cür aparılır: növdaxili, növlərarası və cinslərarası. Yeni taxıl sortları kolleksiya, hibrid, seleksiya və nəzarət pitomnikləri, seleksiya sort sınağı, müsabiqəli sort sınağı, qabaqcadan çoxaltma, dövlət sort sınağı kimi seleksiya mərhələləri üzrə öyrənilir.

Tədqiqat materialı kimi Bioresurslar İnstitutunun təcrübə sahəsində 250-yə yaxın buğda bitkisinin sort və formalarından istifadə olunmuşdur. Təcrübələrin qoyulmasında seleksiya və toxumçuluq işlərində qəbul edilmiş ümumi metodlardan istifadə edilmişdir. Buğdanın müxtəlif sort və formaları üzərindəki müşahidələr sahəsi 1m² olan təcrübə sahələrində əkilən nümunələrdə aparılmışdır. Kolleksiya pitomnikində eyni şəraitdə genetik cəhətdən müxtəlif olan sort və formalar müqayisə edilmiş, ekoloji

amillərin bitkilərin aqro-bioloji göstəricilərinə təsirinin qiymətləndirilməsi üçün sort sınağı üzrə təcrübələr qoyulmuşdur. Təcrübələr əsasında daha məhsuldar, dəninin keyfiyyətinə görə qiymətli, xəstəlik və yatmağa davamlı sort və formalar seçilmişdir. Təcrübə obyektləri üzərində fenoloji müşahidələr aparılmış, sort və formaların torpaq-iqlim amillərinə münasibəti müəyyənləşdirilmişdir.

Kolleksiya pitomnikində tədqiq olunan 250 sort və formalardan öz müsbət xüsusiyyətlərinə (yatmağa, xəstəlik və ziyanvericilərə qarşı davamlılığı, tezyetişkənlik və s. göstəricilər) görə aşağıdakı sort və formalar fərqləndirilmişlər: Vüqar, Tərtər. Əkinçi, Pərzivan, Qırmızı gül, Şirvan, Uğur, Nurlu, Qiymətli, 1/11, 2/3, 2/7, 4/4, 5/2, 6/5, 6/8, 7/6, 8/16, 10/10, 12/5, 14/2, 18/3, 20/8, 21/3, 22/4, 22/13, 23/4, 23/4, 23/7, 23/11, 23/12, 24/2, 25/1.

Naxçıvan MR şəraitində davamlı və yüksək məhsuldar sortlar almaq üçün, yuxarıda göstərilən sort və formalardan gələcəkdə seleksiya işlərində ilkin material kimi istifadə ediləcəkdir.

Ədəbiyyat:

1. Əliyev C.Ə., Qazıbəyova E.H., Səfərov S.A. Azərbaycan Seleksiya mərkəzinin (Azərbaycan E.- T. Əkinçilik İnstitutu) yaratdığı yeni intensiv bərk, yumşaq buğda və tritikalе sortlarının bioloji və aqraonomik xüsusiyyətləri. Azərb. SSR EA. Xəbərləri, biol. elmləri seriyası, Bakı, Elm, 1989, №6, s.110-127
2. Əliyev C.Ə. Su stresinə davamlı buğda sortlarının seleksiyasının fizioloji əsasları. AMEA xəbərləri, biol. elmləri seriyası, Bakı, Elm, 2002, № 1-6, s.30-40
3. Пшеницы мира. Л., Колос, 1976, с.149-150
4. Семеноводство и семенной контроль. М., Колос, 1981, с.9-10
5. Федин М.А. Генетика пшеницы и гетерозис. М., Колсс, 1979, с.56-61

SƏYYARƏ İBADULLAYEVA
AMEA Botanika İnstitutu

TAMAŞA NƏZƏRƏLİYEVA
Naxçıvan Dövlət Universiteti

KƏRƏVÜZKİMİLƏRİN BƏZİ YABANI ƏDVİYYAT BİTKİLƏRİ HAQQINDA

Demokratik dövlətimizin iqtisadi və sosial quruculuğunun inkişaf etdirilməsi yollarından biri də təbii sərvətlərdən və o cümlədən, faydalı bitkilərdən səmərəli və düzgün istifadə olunmasıdır.

Bu baxımdan Kərəvüzkimilər fəsiləsinin faydalı növləri tərəfimizdən araşdırılmış və tədqiqatlar nəticəsində məlum olmuşdur ki, onlar içərisində dərman, efir yağlı, texniki, yem bitkiləri ilə bərabər ədviyyəli və qida üçün yararlı bitkilər də çoxdur. Məsələn: Daucus sativus, Petroselinum crispum, Coriandrum sativum, Apium graveolens kimi mədəni ədviyyat bitkiləri ilə yanaşı yabanı halda tez-tez rast gələn Carum carvi, Prangos ferulaceae, Chaerophyllum aureum, Pastinaca sylvestris və s. də geniş yayılmışdır. Onlar əsasən yeyinti sənayesində qatqı kimi xüsusi əhəmiyyət kəsb edir. Qatqılar, əlavə olunduğu məhsulların dad və keyfiyyətini yaxşılaşdırır, onlara xoş ətir verməklə yanaşı, həmin məhsulların tərkibini bioloji fəal maddələrlə zənginləşdirir və uzun müddət saxlandıqda xarab olmamasına kömək edir. Bitkilərin əksərriyyəti özünün kök, gövdə, yarpaq, çiçək və meyvələrinin xoş ətiri və ədviyyə xüsusiyyətinə malik olması ilə seçilir. Bu baxımdan fəsilənin bəzi növlərindən qurudulmuş və yaş halda yeməklərə əlavə edilir, bəzilərindən isə iştahlandırıcı şorabalar hazırlanır. Bunların içərisində ədviyyə bitkisi kimi yaxşı tanınan qiymətli bitkilərdən biri də zirədir.

Zirə-Carum L. cinsinin Azərbaycan florasında 3 növü, - Carum carvi L., C. cauacasicum (Bieb.) Boiss, C.

komarovii Karjag. və 1 yarımnövü - C.rosellum Woronow ssp. (1) yayılmışdır.

Carum carvi L. -Adi zirə xalq arasında ən çox işlədilən növdür. Buna yerli əhali çöl cirəsi, keçi otu, kəlikotu, qara çörəkotu və s. də deyir. Dərman, ədviyyat və qida bitkisi kimi Ukraynada, Qafqazda, Belarusiyada, Şərqi Sibirdə, Uzaq Şərqdə və Orta Asiyada becərilir. Bitkinin Hollandiya, Macarıstan, Polşa, Danimarka, Norveç, ABŞ- da sənaye əhəmiyyətli böyük plantasiyaları vardır (2). Zirə toxumlar vasitəsilə əkilir. Toxum səpin qabağı stratifikasiya etdikdən sonra səpilir. Zirənin, taxıl, qarğıdalı, kartof, pomidor məhsullarını toplayandan sonra həmin torpaqları şumlayıb, mineral gübrələrlə qidalandırıb əkilməsi daha məqsədə müvafiq sayılır. Səpin qabağı hər hektar sahəyə 60-80 kq kalium, 200-250 kq superfosfat, 20-25 ton peyin verilir. Cərgələr arasn 45-60 sm, dərinliyi 2-2,5 sm olmaqla hər hektara 8-10 kq toxum səpilir. Vegetasiya dövrü ərzində 4-5 dəfə kultivasiya işləri, 2-3 dəfə cərgələr arası alaq otlarnndan təmizləmə aparılır və 150-200 kq superfosfat və 120-150 kq kalium gübrəsi səpilir.

Zirə toxumlarının toplanmasına çətirin mərkəzində olan toxumlarin 40-50%-i qonurlaşan zaman başlamaq lazımdır. Məhsulun qalan hissəsi biçindən sonra döyülür. Hər hektar sahədən 0,6-1 tona qədər məhsul toplamaq olur.

Zirə toxumları qiymətli ədviyyə xüsusiyyətinə malik olduğundan, ondan çörək bulka, qənnadı, ətriyyat kosmetika, əczaçılıq və sabun bişirmədə tətbiq edilir. Toxumlarından ət, quş, balıq və tərəvəz məhsullarından hazırlanan xörəklərə xoş ətir və keyfiyyətli tam vermək üçün ədviyyat qatqısı kimi geniş istifadə edilir. Zirə toxumları sərinləşdiricilərin, likör-araq növlərinin eləcə də tütünçülükdə ətirləyici kimi işlədilir. Bununla yanaşı, pendir məhsullarına da qatılır. Zirənin un kimi döyülmüş toxumları cüd məhsullarının tərkibinə qatıldıqda ona xoşa gələn iy verir və uzun müddət saxlanılmasına şərait yaradır. Toxumun tərkibindəki yağ çox qiymətli keyfiyyətlərə malikdir və kakao

yağını əvəz edə bilər. Orta əsrlərdə toxumlardan hazırlanan undan çörək hazırlanarmış.

Yalançı Cirə - Pimpinella L. ədviyyat xammalı kimi Rusiya mətbəxinin sevimli xammalı sayılır. Bitkini ilk dəfə 1830-cu ildə Rusiyada əkib becərməyə başlamışlar. Bitki Ukrayna, Şimali Qafqaz, Orta Asiya və s. yerlərdə geniş surətdə əkilib becərilir. Azərbaycanda 13 növü vardır, onlardan 9-u Naxçıvan MR florasında yayılmışdır (1, 4). Ən maraqlısı Daşdələn yalançı cirədir (Pimpinella saxifraga L.). Buna çəmənliklərdə, meşə kənarlarında, yamaclarda, yolların kənarlarında və s. yerlərdə rast gəlmək olar.

Yalançı cirənin cavan təzə yarpaqlarından məişətdə salat, vineqret, həftəbecər, sup, və s. məhsulları hazırlayırlar. Kokümsovunun təpkibində xoş iyli, ətirli maddələr vardır ki, bundan da ət, balıq xörəklərində ədviyyət kimi istifadə olunur. Bu bitkinin vegetasiya dövrü uzun olduğu üçün ilk yazdan başlayıb, payızın son dövrünə kimi toplayıb, qida məqsəd ilə istifadə edilir. Ehtiyat üçün bitkinin yarpaq və kökü qurudulub saxlanılır.

Anis yalançı cirəsi (Pimpinella anisum L.). Meyvəsi bozumtul- qəhvəyi və ya yaşılımtıl qəhvəyi rəngdə olub, qoşa meyvəlidir. 1000 ədəd toxumunun çəkisi 2-3,6 qramdır. Ədviyyə kimi bitkinin bütün hissələri istifadə edilir. Toxumundan qənnadı və çörək-bulka sənayesində xəmirmaya hazırlanır. Çiçək hissəsindən qızılı rəngli, xoş ətirli, lətif tama malik ekstrakt hazırlanır. Qurudulmuş kökündən zəif kəskin iyə və kəskin acımtıl dada malik qatqı xammalı alınır. Bir sıra Avropa ölkələri mətbəxində xörəklərin tərkibinə qatılır. Bundan əlavə ondan salatların hazırlanmasında və konservləşdirmədə ətirli ədviyyət kimi geniş istifadə edilir. Qafqaz əhalisi ondan plovun, ev şəraitində hazırlanmış kolbasanın və pitinin tərkibinə qatır.

Üçdilim dağrazyanası (Laser trilobum (L.) Borkh.) Azərbaycanın Böyük Qafqaz ərazisinin Quba zonasında, Kiçik Qafqazın Şərq və cənub ərazilərində, Şahbuz rayonunun dağlıq sahələrində yayılmışdır. Buna ən çox orta

dağlıq zonalarda, meşəliklərdə və kolluqlarda rast gəlmək olur.

Qiymətli ədviyyat bitkisi hesab olunur. Hələ çox qədim dövrdən Krım əhalisi dağrazyanasının toxumlarından xörəklərə qatqı kimi əlavə edib, onların xoş iyə və əla dad verməsinə nail oldular. Krım əhalisi bu bitkiyə Zaman adı vermişdir. Yerli əhali bitkinin toxumlarını toplayıb, od üzərində qurutduqdan sonra, üyüdüb sucuq deyilən kolbasanın tərkibinə qatırlar. Ondan ət məhsullarından hazırlanan yeməklərin tərkibinə ədviyyat kimi əlavə edirlər. Belə xörəklər çox dadlı olur. Bundan başqa ondan xoş ətirli sərinləşdirici içkilər də hazırlayırlar. Toxumundan alınan efir yağından ətriyyat sənayesində işlədilir və meyvə essensiyalarının tərkibinə qatılır.

Meşə xımısı (Pastinaca sylvestris Mill.) Meşə xımısı hələ eramızdan çox - çox əvvəl yaşıl tərəvəz və ədviyyat kimi geniş istifadə olunmuşdur. Aparılan arxeoloji qazıntılar nəticəsində aşkar olunan toxumlara əsasən belə bir fikir irəli sürülür ki, meşə xımısı neolit dövrünün bitkisidir. Avropa və Asiyanın əksər xalqları arasında ədviyyat və qida bitkisi kimi geniş istifadə edilmişdir. Vaxtilə meşə xımısı kartof bitkisi kimi Avropa xalqlarının əsas qidasını təşkil etmişdir. Ədviyyat bitkisi kimi kartof, tərəvəz yeməklərinə, xiyar və kələmin duza və sirkəyə qoyulmasında, balıq məhsullarının konservləşdirilməsində qatqı kimi istifadə edilir. Meşə xımısından haznrlanan ədviyyat iştahgətirici, həzmedici xüsusiyyətlərə malikdir. Bu bitkidən alnnan efir yağı cirə, zirə və razyana bitkilərinin efir yağı ilə çox oxşardır. Kökümsov gövdəsi qida məqsədilə payızın sonunda, soyuqlar düşən zaman torpaqdan çıxarılır. Yarpaq hissələrinin saf yerləri doğranılıb, qurudulur və yeri gəldikdə ədva kimi işlədilir.

Cacıx - Chaerophyllum L. cinsin Avropa, Asiya və Şimali Amerika ərazilərində 40, Qafqazda 18, o cümlədən Azərbaycanda 10 növü yayılmışdır (1).

Qızılı cacıq (Chaerophyllum aureum L.) Quba və Nax.MR-nın düzən və dağlıq sahələrində, meşələrdə, dağ çəmənliklərində, əkin sahələrində yayılmışdır.

Cacığı cavan halda toplayıb, qabığını soyduqdan sonra yeməklərə qatırlar. Qabığı soyulmuş cacıq çiy halda da yeyilir. Çiçək və gövdəsinin yuxarı hissəsini qurudub və döydükdən sonra ədva kimi yeməklərə qatmaq olar.

Soğanaq cacıq (Chaerophyllum bulbosum L.) respublikamızın bütün rayonlarında yayılmışdır. Buna ən çox dəniz səviyyəsindən 650-1800m hündürlükdə, orta və yuxarı dağ qurşaqlarında təsadüf etmək olur (5).

Cacıq xoş ətirinə və ləzzətli tamnıa görə tərəvəz bitkisi kimi xörəklərin tərkibinə əlavə edilir. Yerli əhali bitkini kalla, ağca, şoşan, adlarla tanıyırlar. Maraqlı haldır ki, yerli əhali bu bitkinin bütün hissələrindən, hətta tam yetişməmiş toxumlarından da istifadə edirlər ki, bu da gələcəkdə onun nəslinin kəsilməsinə səbəb ola bilər.

Çaşır - Prangos Lmndl. Dünya bitki aləmində çaşırın 25-ə qədər növü yayılmışdır. Bu növlər içərisində ən faydalısı İlankölgəsi çaşırıdır. (P. ferulaceae (L). Lindl.). O, respublikamızın Kiçik Qafqazın şimal, mərkəz və cənub hissələrində geniş yayılmışdır. Naxçıvan MR –nın orta dağlıq zonalarında, dəniz səviyyəsindən 2000 metrə qədər yüksəklikdə rast gəlmək olar. Bitkiyə daşlı, çınqıllı yamaclarda və kolluqlar arasında təsadüf edilir. Xoş tama malik olduğundan yerli əhali tərəfindən tədarük olunaraq duza və turşuya qoyulur. Çaşırdan hazırlanmış ədviyyat məhsulları vitaminlərlə zəngin olmaqla yanşı həm də həzmyaxşılaşdırıcı xüsusiyyətə malikdir. Çaşırın digər növlərindən də ədviyyat kimi istifadə etmək olar. Onu da qeyd etmək lazımdır ki, çaşırı yazın əvvələrində, bitkinin cavan vaxtı tədarük etmək lazımdır.

Silindrik bunçətri (Bunium cylindricum (Boiss.et Hohen.) Drude – Bitkidə bioloji fəal maddələr çoxdur, ona görə də onun ekstraktından Özbəkstanda alkoqolsuz içkilər istehsal edirlər, toxumlarnıdan isə ət və tərəvəz məhsullarının

konservləşdirilməsində ədva kimi istifadə edilir. Bu ədva, konservlərin uzun müddət, xarab olmamasının qarşısını alır. Bitkidən ekstrakt almaq üçün onun toxumlarını 20-30% yetişən zaman toplamaq lazımdır. Naxzıvan MR-nın Şahbuz rayonundan bitkinin toxumlarının tədarük ehtiyatı, ədviyyat kimi, hər hektardan 3, 5 - 8 kq-a qədərdir.

Ədəbiyyat:

0. İbadullayeva S.C. Azərbaycan florasının Kərəvüzkimiləri. Bakı, Elm, 2004, 321s.
0. www.ag.ohiostate.edu./~seedbio/seed_id(apiaceae)carum_carvi .html
0. Ибни Сина Абу Али. Канон врачебной науки (Авиценнна). Ташкент, 1956, кн.: 2, 821 с.
0. Мехтиева Н. П. Ресурсоведческое исследования видов Pimpinella L. флоры Азербайджана. / 1-я Всероссийская конф. По ботаническому ресурсоведению, Санкт- Петербург, 1996, с. 134.
0. Мамедова С.А. Биоэкологические особенности и эфирномасличность видов рода Chaerophyllum L. (Бутень) флоры Азербайджана. Автореф. кнд. диссер., Баку, 1994, 23 с.

ORXAN BAĞIROV
AMEA Naxçıvan Bölməsi

NAXÇIVAN MR ƏRAZİSİNDƏ GİLAS VƏ GİLƏNARIN SORT MÜXTƏLİFLİYİNİN TƏDQİQİNƏ DAİR

Kənd təsərrüfatının ən qədim sahələrindən olan meyvəçilik Naxçıvan MR ərazisində əsas fəaliyyət obyektlərindən biridur. Hələ XII əsrdə fars dilində yazılmış «Əcayib-əd-dünya» adlı coğrafiya əsərində qeyd edilir ki, Naxçıvan, Ordubad və bir sıra başqa şəhərlərdə çoxlu bağlar vardır və bağlarda rəngarəng, çox lətif, dadlı meyvələr yetişdirilir.

Akademik Həsən Əliyev Muxtar Respublikamızın florasından bəhs edərək göstərirdi ki, 1918-1920-cu illərdə

Naxçıvan çayı vadisi Araza qədər yamyaşıl bağlıq idi və may ayından başlamış yanvaradək ağaclarda müxtəlif meyvələr olurdu. Görkəmli alimin fikrincə Muxtar Respublikanın iqtisadiyyatını yüksəltmək üçün geniş ərazidə torpaq və su sərvətlərindən səmərəli istifadə etməklə bitkiçiliyin inkişafı zəruridir (6).

Toplanmış materiallardan göründüyü kimi, Respublikanın mütəxəssisləri, alimləri intensiv tipli yeni bağlar yaradılmasını qarşıya bir məqsəd kimi qoymuşlar. Lakin bu vəzifəni müvəffəqiyyətlə yerinə yetirmək üçün hər şeydən əvəl məhsuldar sortların və meyvəçilikdə yeni mütərəqqi metodların tətbiqi lazımdır.

Qeyd edildiyi kimi, tutduğu sahəyə, biokütləsinin miqdarı və əhəmiyyətinə görə meyvəçilik Muxtar Respublikada önəmli yer tutur. Ərazi torpaqlarının seolitlə, vulkanik mənşəli maddələrlə zənginliyi Naxçıvan zonası, ilk növbədə Ordubad rayonu meyvələrinin gözəl görünüşlü, ətirli, iri və məhsuldar olmasına təsir göstərmişdir (5).

Statistikadan məlumdur ki, Böyük Vətən müharibəsindən sonra Naxçıvanda-Araz çayı sahillərindən başlamış dəniz səthindən 1600, hətta 2000 m hündürlüyə qədər olan bütün ərazinin suvarıla bilən yerlərində bağlar salınmışdır. Meyvə bağlarının sahəsinə görə birinci yeri Ordubad rayonu tutur. O dövürdə Naxçıvanın bütün meyvə bağları sahəsinin 72,6 %-nin bu rayona aidliyi göstərilr. Ümumiyyətlə, Müharibədən sonra meyvə bağlarının miqdarına görə Naxçıvan Azərbaycan üzrə ikinci yeri tutmuşdur (2). O cümlədən Ordubad rayonunda mey- vəçilik geniş inkişaf etdirildiyindən bir çox meyvə bitkiləri burada öz ikinci vətənini tapmış, xalq seleksiyaçıları tərəfindən böyük zəhmət bahasına onların yeni-yeni sortları yaradılmışdır. Bu baxımdan Muxtar Respublikamızda yetişdirilən gilas və gilənar sortlarından xüsusi bəhs etmək olar.

Çəyirdəkli meyvələr olan gilas və gilənarın ağacları üzərində apardığımız tədqiqatlar və ədəbiyyat məlumatlarından aydın olur ki, Naxçıvan MR ərazisində meyvəçiliyin

bir hissəsini təşkil edən bu bitkilərin aşağıdakı başlıca yerli sortları mövcuddur: Sarı gilas, Öküzürəyi, Əbrəş, Şirin qara, Qırmızı növrəst, Ordubad gilənarı, Zeynəddin gilənarı, Dırnıs gilənarı və s. (3, 4).

Lakin 1988-1992-ci illərdə ölkəmizin düşdüyü ağır sosial-iqtisadi durum bütün sahələrə təsiri liə bərabər, kənd təsərrüfatına da güclü zərər vurdu. Min hektarlarla məhsuldar meyvə bağları, sadəcə, baxımsızlıqdan məhv oldu. Beləliklə, çox az müddət ərzində «Naxçıvan sortları» adı ilə məşhur olan sort və formaların yox olmaq təhlükəsi yarandı.

Məlum olduğu kimi, hər bir sortun özünün tozlayıcıları vardır və o tozlayıcılar olmadıqda sort öz potensial imkanından istifadə edə bilməyərək az məhsuldar olur. Təcrübədən aydındır ki, məhsuldarlığı az olan bəzi sortların digər üstünlükləri vardır, məsələn, şaxtaya, xəstəliyə, zərərvericilərə, quraqlığa və s. davamlığı. Bütün qeyd edilən xüsusiyyətlər göstərir ki, sort müxtəliflikləri genofondu tam olaraq qorunmalı və seleksiya yolu ilə sortlar təkmilləşdirilməlidir. Beləliklə, meyvə bağı yaradılan zaman əhalinin təzə meyvəyə olan tələbatını ödəmək üçün mütləq müxtəlif müddətlərdə yetişən və istifadə məqsədinə uyğun, şaxtaya, xəstəliktörədici və zərərvericilərə qarşı davamlı sortların əkilməsi nəzərdə tutulmalıdır.

Ədəbiyyatlardan məlum olur ki, tarixən gilənar və gilas adlı bitki olmayıb. Keçmişdə albalı bitkisinin meyvələrini dadına görə ayırmışlar. Birinci qrupa meyvələri turş olan albalıları, ikinci qrupa isə meyvələri şirin olan albalıları daxil etmişlər. Albalı bitkisinin cinsi qeyd olunduğu kimi- Cerasus Juss-dur. Tədricən elmin inkişafı nəticəsində botaniklər bu cinsi növlərə bölmüşlər.

Tarixi mənbələrdən aydın olduğu kimi, albalı b.e.ə. IV əsrdən mədəni halda becərilibdir. Bu bitki haqqında ilk məlumatı yunan alimi Teofrast vermişdir. O, albalı bitkisinin yabanı halda Yunanıstanda çay sahillərində bitməsini göstərir. Albalı bitkisi haqqında qeyd olunan tarixi məlumat eyni zamanda gilas və gilənar bitkilərinə də aiddir (8).

Gilas və gilənar Gülçiçəklilər (*Rosaceae Juss*) fəsiləsinə mənsubdur. Gilasın tərkibində 12-17 % şəkər və azacıq miqdarda (0,9 %-ə qədər) turşu maddəsi vardır. Gilənarda isə gilasa nisbətən şəkər maddəsi az 7,5-13 %, turşu maddəsi isə çox 0,9-2,3 % olur. Bunlardan başqa gilas və gilənarda selliloza, aşı maddəsi, C, B, PP vitaminləri, toxumlarında amiqdalinqlükozid var. Gilas və gilənar bağlarının hər hektarından arılar 30-140 kq yüksək keyfiyyətli bal götürür. Gilas və Gilənarın oduncağı olduqca gözəl tekusturalı, xüsusi rəngli, fərdi çalarlıdır. Oduncağından ev əşyalarının hazırlanmasının 2500 il yaşı var (7). Tərkibində kumarinin miqdarına görə o, qırmızı qarağatdan, moruq və nardan sonra dördüncü yeri tutur. Meyvəsində 1-2 mq faiz dəmir olur ki, bu da miqdarına görə almadakından çoxluq təşkil edir (1). Gilas və gilənar ağacları bütün vegetasiya dövründə dəyişən rənglər silsiləsi yaratdığına görə ondan yaşıllaşdırmada geniş istifadə edilmişdir.

Naxçıvan MR- də təzə meyvəyə olan tələbat ilk olaraq Naxçıvan göycəsi ilə başlayır, sonra ikinci olaraq gilas və gilənarın növrəst sortları gəlir. Tədqiqat aparılarkən material olaraq Muxtar Respublikanın Ordubad rayonu üzrə kəndlərdə sorğularla, müşahidələrlə müəyyənləşdirilən və qeyd edilən gilas və gilənar ağacları götürülmüşdür. Toplanılan materiallar əsasında meyvələrin dadı (5 ballı sistemdə), forması, hündürlüyü, eni, uzunu, saplağın uzunluğu, rəngi, ətri və s. xüsusi vərəqədə qeyd edilmişdir. Ərazidə gilənarın Dırnıs, Ordubad, Əndəmic, Külüs, gilasın Şirin qara, Acı qara, Növrəst, Ağ gilas, Əbrəş yerli sortları, eləcədə onlarca introduksiya edilmiş sortlar müəyyənləşdirildi. Ədəbiyyatlarda qeyd olunur ki, orta hesabla, gilas və gilənar may ayının ikinci yarısından yetişməyə başlayır. Ordubad rayonunda apardığımız müşahidə zamanı müəyyənləşdi ki, tədqiq olunan ərazidə gilasın adətən yetişmə müddəti dağ kəndlərində (Ordubad rayonunun Nüsnüs, Pəzməri və Unus kəndlərində) iyul ayının ortasına kimi davam edə bilir. Yetişmə müddəti bu rayonda

ilk olaraq Kotam kəndində (600 m d.s.h.) başlayır. Nüs-nüs kəndi liə Kotam kəndi arasında yetişmə müddətinə görə 10-15 gün fərq ola bilər. Bu da əhalinin təzə meyvəyə olan tələbatını yeni meyvələr yetişənə qədər ödəyir.

Naxçıvan MR-də meyvəçiliyin mərkəzi olan Ordubad rayonunda meyvələrin yetişməsi üzrə müşahidə aparılarkən məhz ilk olaraq Kotam kəndində gilasın yetişməsi qeydə alınıb. T.Tağıyevin qeyd etdiyi kimi, qədim Ordubad sortu olan Qırmızı növrəstə məhz ilk olaraq yetişən meyvə sortlarındandır. Gilasın, həmçinin gilənarın Muxtar Respublikada yayılan bir neçə sortları haqqında T.Tağıyev (4), eləcə də Ə.İ.Abdinov və başqaları (1) məlumat vermiş, meyvəsi və ağacının əlamətlərini göstərmişlər. Kotam kəndində aşkar etdiyimiz gilas sortu Qırmızı növrəstə sortundan bəzi xüsusiyyətlərinə görə fərqlənir. Aşkar edilən bu formanı Kotam-1 adlandıraraq onun üzərində fenoloji müşahidələri aparırıq. Rayonun Əndəmic və Nüsnüs kəndləri demək olar ki, gilas və gilənarın başlıca sortlarını özlərində cəm ediblər. Bu kəndlərdə Ordubad gilənarı, Nüsnüs gilənarı, Anadolu, Şponka və bir çox formaları qeydə aldıq. Bundan başqa, həmçinin burada gilasın Sarı gilas, Öküz ürəyi, Çəhrayı Napaleon, Sarı droqan və bir çox formaları mövcuddur.

Gilas və gilənarın seçilərək xüsusi vərəqədə qeyd edilən formaları növbəti ildə fenoloji işlərin aparılması üçün istifadə ediləcəkdir.

Ədəbiyyat:

1. Abdinov Ə.İ., Talıbov T.H., Əmrahov H.M. Naxçıvan albalısı. Naxçıvanda bağçılıq, tarixi təcrübə, mövcud vəziyyət və müasir problemlər. Elmi –praktiki konfransın materialları, Bakı, 1991, s. 23
2. Nərimanov Ə.S. Azərbaycan meyvəçiliyinin inkişafı haqqında. Bakı, Azərnəşr, 1966, s.22
3. Rəcəbli Ə. Azərbaycan meyvə bitkiləri. Bakı, Azərnəşr, 1966, s.120

4. Tağıyev T. Naxçıvan MSSR-də qiymətli meyvə sortlarının morfoloji-bioloji xüsusiyyətləri. Naxçıvan Kompleks Zonal Təcrübə Stansiyasının Elmi Əsərləri. IV Buraxılış. Bakı, 1969, s.33-48
1. Talıbov T.H. Naxçıvan Muxtar Respublikası ərazisində bağçılığın inkişafı. Naxçıvanda bağçılıq, tarixi təcrübə, mövcud vəziyyət və müassir problemlər. Elmi –praktiki konfransın materiaları, Bakı, 1991, s. 11
1. Əliyev H. Həyəcan təbili. Bakı, Azərnəşr, 1976, s.130
1. Əsədov K.S. Böyuk Qafqazın yabanı meyvə bitkiləri. Bakı, Elm, 1981, s.44
1. Əliyev C.M. Xüsusi meyvəçilik. Kirovabad, 1974, s.115

ŞƏFİQƏ ALLAHYAROVA
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

TÜLPAN CİNSİNƏ DAXİL OLAN NÖVLƏRİN NƏBATAT BAĞINDA TOPLA NILMASI VƏ BİOMORFOLOJİ XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ

Zanbaqkimilər fəsiləsinin tülpan cinsinin dünyada 120-dən çox növü vardır ki, onlardan da Qafqazda 12, Azərbaycanda 8, Naxçıvanda isə 7 növü yayılmışdır(1).

Naxçıvan MR ərazisində yayılmış tülpanların öyrənilməsində A. A. Qrossheymin (2) böyük rolu olmuşdur. O, Naxçıvanda- *Tulipa julia, Tulipa florenskyi, Tulipa polychroma* tülpan növlərinin yayıldığını qeyd etmişdir.

Azərbaycan florasında (3) Naxçıvan MR ərazisində 4 növ tülpan yayıldığı qeyd edilmişdir: *tulipa julia, t. florenskyi, t. polychroma, t. confusa Gabr.*

T.H.Talıbov (1) ərazi üçün ilk dəfə olaraq əlavə 3 növ tülpanı: *t. eicheri, t. gesneriana, t. schmidtii* Naxçıvan MR florasına daxil etmişdir.

T.H.Talıbov cinsin və növlərin dağlaləsi adlarını haqlı olaraq dəyişdirərək tülpan adlandırmışdır, çünki cinsin vətəni Cənubi Azərbaycan olmaqla, latın və Azərbaycan dilində tülpan adlanır.Tülpan "türban" sözündən götürülərək baş örtüyü deməkdir.

S.K.Çerepanov (4) tərəfindən *Tulipa L.* cinsində ciddi dəyişikliklər aparılmışdır. *Tulipa biflora Pall.* növünə *T.polychroma Stapf* növü birləşdirilmişdir. *Tulipa confusa Gabr. (T. karabachensis Gross p.p. excl typo)və T.florenskyi Woronow (T.karabachensis Grossh. p.p. inel typo),* həmçinin *T. julia C. Koch* növünə *T. montana Auct* növü birləşdirilmişdir. *T. schrenkii* növü *T. gesneriana L.* növünə aid edilmişdir.

Tülpanların yayılmasını, fenologiyasını öyrənmək məqsədilə Naxçıvan MR-in müxtəlif yerlərinə təşkil olunmuş ekspedisiyalarda iştirak etmişik. Tədqiqat işi ilə əlaqədar olaraq Ordubad rayonunun Nüs-nüs , Kotam, Kilit kəndlərinin daşli- qayalı ərazilərinə, Şahbuz rayonunun Kükü dağına, Batabat, Duzdağ və Culfa rayonunun Dərəşam ərazisindən müxtəlif tülpan növləri toplanılmış, onlar üzərində müşahidələr aparılmışdır.

Ordubad rayonunun Nüs-nüs kəndi istiqamətində olan Sarı yarğanlar ərazisindən Yuliya tülpanı toplanılmışdır. Çiçəkləri sərbəst ləçəkli olub, uzunluğu 4 sm-ə bərabərdir.Rəngi parlaq moruğu-qırmızıdır. Gövdəsində bir və ya iki çiçək olur. Aprel-may aylarında çiçəkləyir və may-iyun aylarında toxum verir. Çoxillik bitkidir. Nəbatat bağında əkilmişdir. 13.04.2004 tarixində çiçək açmışdır, 23.04.2004 tarixdə isə çiçəkləri solmuşdur. Çiçəklərini 10 gün üzərində saxlamışdır.

Culfa rayonunun Xəzinədərə, Şahbuz rayonunun Dərəboğaz adlanan ərazilərində çoxlu sayda Florenski tülpanına rast gəlmək olur.Bunlarda soğanağın diametri 2 sm olub, uzunsov yumurtavaridir, 3-4 yarpaqlıdır. Yarpaqlar oraqvari formada olub, aşağıya doğru əyilmişdir. Aşağıda yerləşən yarpaqlar enli, yuxarıdakılar isə ensiz lansetşəkillidir. Çiçəkləri tək-təkdir və tünd qırmızı rənglidir. Ləçəklərin daxili

tərəfində qara ləkəsi vardır. Həmin bitkilər "Nəbatat bağı"nda əkilərək üzərində fenoloji müşahidələr aparılmışdır. Əkilən florenski tülpanı 03.04.2004 və 10.04.2004 tarixlərində çiçək açmış, 17.04.2004 və 19.04.2004 tarixində çiçəkləri solmuşdur.

Diyaq çayı ilə Fəhlə dərəsi çayının birləşib Dübəndi çayının əmələ gətirdiyi vadinin ətrafında yayılan Florenski tülpanının çox böyük ölçüsü ilə fərqlənən yeni variasiyası *Tulipa florenskyi var. grandifolia* aşkar edilmişdir.

Nadir tülpanların ən çox yayıldığı Ordubad rayonunun Diyaqçay kənarındakı Sarı yarğanlar sahəsi ciddi nəzarətə götürülmüşdür. Bütün növ tülpanlar əhali tərəfindən kütləvi surətdə toplanıldığından 6 növü nadir hesab edilir.Həmin növlərdən Şmidt, Eyxler və Şrenk tülpanları məhv olmaq təhlükəsi altında olan, Floenski, Yuliya və Qarabağ tülpanı isə nadir növ kimi qeyd edilir.

Ə d ə b i y y a t:

0. Talıbov T.H. Naxçıvan MR-in flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması. Bakı, Elm, 2001, s. 47-52
0. Гроссгейм А.А. Флора Кавказа, 1939-1967, тт-1-7
0. Флора азербайджана Ред. И.И. Карягин Изд. АН Азерб. ССР, Баку, 1950-1961, т.т. 18-8
0. Черепанов С.К. Сосудистые растения России и сопределъных государств (в пределах бывшего СССР), Мир и семъя-95, С. Петербург, 1995, 588-589 с.

GÜNAY RÜSTƏMOVA
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

NAXÇIVAN MR-in SƏHLƏBKİMİLƏR FƏSİLƏSİ BİTKİLƏRİ

Naxçıvan MR-in əsas təbii sərvətlərindən biri onun bitki örtüyü və zəngin florasıdır. Muxtar respublika öz floristik tərkibinin zənginliyinə görə Azərbaycanın digər coğrafi-botaniki rayonlarından kəskin surətdə fərqlənir.

Naxçıvan MR-in zəngin flora və bitkiliyə malik olması Qafqaz bərzəxinin Ön Asiya ilə birləşməsindən sonra floranın intensiv miqrasiyası, bu regionda güclü təbii hibridləşmə proseslərinin getməsi, ərazinin özünəməxsus torpaq-iqlim şəraiti və s. ilə əlaqədardır.

Son dövrlərdə Naxçıvan MR-in flora biomüxtəlifliyi T.H.Talıbov tərəfindən ciddi araşdırılmış və ərazidə 2799 növ ali bitkinin yayıldığı göstərilmişdir (1). Bu bitkilər içərisində 110 növün nadir və ya məhv olmaq təhlükəsi altında olduğu müəyyən olunmuşdur. Muxtar respublika florasında rast gəlinən nadir, nəsli kəsilməkdə olan bitkilər içərisində səhləblər xüsusi yer tuturlar.

Naxçıvan MR florasında səhləbkimilər fəsiləsi 4 cins və 10 növlə təmsil olunur (2,3). Səhləbkimilər çiçəklərinin gözəl, parlaq rənginə, qeyri-adi formasına, xoşagələn iylərinə görə diqqəti cəlb edir. Bu xüsusiyyətləri ilə bərabər, səhləblərin bəzi növləri qiymətli dərman bitkiləri hesab olunur.

Muxtar respublikada yayılmış səhləb növlərinin dəqiqləşdirilməsi və yayılma zonalarının müəyyənləşdirilməsi üçün Naxçıvan MR-in müxtəlif rayonlarına ekspedisiya marşrutları təşkil olunmuşdur. Ekspedisiyalar zamanı Şahbuz rayonunun Dərəboğaz, Güney Qışlaq və Qızıl Qışlaq, Keçili kəndi əraziləri, Batabat zonası, Culfa rayonunun Xəzinədərə, Ordubad rayonunun Ağdərə ərazisi və Parağaçayın sağ sahilində tədqiqatlar aparılmış və materiallar toplanılmışdır.

Culfa rayonunun Xəzinədərə ərazisində erkək səhləb - Orchis mascula (L.)L. və sarımtıl səhləb otu - *Dactylorhiza flavescens (C.Koch) Holub* növləri qeydə alınmışdır. Hər iki növ Xəzinədərə ərazisində Ərəci dağının cənub-qərb tərəfində 2200m yüksəklikdən toplanmışdır.

Erkək səhləb Ordubad rayonunun Ağdərə ərazisi və Parağaçayın sağ sahilində, Şahbuz rayonunun Dərəboğaz ərazisi, Keçili kəndinin cənub-şərq, şimal-şərq istiqamətlərindəki çınqıllı torpaqlarda yayılmışdır. Batabat zonasına ekspedisiya zamanı Batabat gölünün ətrafından üçyarpaq

səhləb otu - *Dactylorhiza triphylla (C.Koch) Czer.* növü toplanılmışdır. Batabat ərazisində erkək səhləb otu və sarımtıl səhləb növlərinin də yayıldığı qeyd olunmuşdur.

Şahbuz rayonunun Güney Qışlaq və Qızıl Qışlaq əraziləri tədqiq olunarkən üçyarpaq səhləb otu və sanasunit səhləb - *Dactylorhiza sanasunitensis (Fleischm.)* növü toplanılmışdır. Şahbuz rayonunun Dərəboğaz ərazisində bulaqların ətrafındakı rütubətli torpaqlarda, Xəzinədərə ərazisində, Batabat zonasında bataqlıqlaşmış ərazilərdə bataqlıq səhləbi - *Orchis palustris Jacq.* və seyrəkçiçək səhləb - *Orchis laxiflora Lam.* növlərinə tək-tək nümunələr şəklində rast gəlindi. Ekspedisiyalar nəticəsində Naxçıvan MR-də səhləbkimilər fəsiləsi bitkilərindən erkək səhləb və sarımtıl səhləb otu növlərinin digər səhləblərlə müqayisədə daha çox yayıldığı müəyyən olunmuşdur. Bataqlıq səhləbi, seyrəkçiçək səhləb və sanasunit səhləbi isə məhdud ərazilərdə qalmış növlərdir.

Nadir və məhv olmaq təhlükəsi altında olan səhləblərin sayca azalmasına antropogen faktorlar və digər amillər böyük təsir göstərmişdir. Son illərdəki təbii quraqlıq, səhləblərin yayıldığı ərazidə erroziya nəticəsində kök yumrularının quruması, bulaqların əhali tərəfindən kəndlərə çəkilib gətirilməsi, səhləblərin dekorativ və dərman bitkisi kimi toplanması bu bitkilərin sayca azalmasına səbəb olmuşdur. Bundan əlavə, bəzi səhləblər yalnız bir və ya eyni cinsə daxil olan bir neçə növ həşərat tərəfindən tozlanılır. Bu növ səhləblərin tozlandırıcı həşəratlarının yox olması tozlanma prosesinin dayanması və bu səhləblərin sayının azalması ilə nəticələnir.

Məhdud ərazilərdə yayılmasını və azsaylı olmasını nəzərə alaraq *Orchis palustris Jacq.; Orchis laxiflora Lam.; Dactylorhiza sanasunitensis (Fleischm.)* növlərinin Naxçıvan MR-in «Qırmızı Kitab»ına salınmasını məqsədəuyğun hesab edirik.

Ə d ə b i y y a t:

l. Talıbov T.H. Naxçıvan Mr-in flora biomüxtəlifliyini və onun nadir növlərinin qorunması. Elm, Bakı, 2001, 192s.
l. Гроссгейм А.А. Флора Кавказа. Труды Ботанического Института. Из-во Аз. ФАН. Баку. 1940. Т.2. с.220-250
l. Флора Азербайджана. Из-во АН Азерб. ССР. Баку, 1952. Т.2.с.240-270

AYTƏN VƏLİSOY
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

NAXÇIVAN MR-də YAYILMIŞ ARDIC NÖVLƏRİNİN BİOMORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

Ardıc (Juniperus L.) cinsi sərvkimilər fəsiləsinə (Cupressaceae Bartl.) daxil olub, həmişəyaşıl bitkidir. Şimal yarımkürəsində Arktikadan Azor və Kanar adalarınadək yerləşən ərazidə, Şimali Afrikada, Həbəşistanda, Şərqi Afrikada, Himalay dağlarında, Çində, Tayvan adasında, Meksikada və Qərbi Hindistanda yayılmış 70 ardıc növündən MDB-də yabanı halda 21, Qafqazda və Azərbaycanda isə 7 növ bitir. Naxçıvan MR-də 4 növü yayılmışdır.

Muxtar Respublikada yayılmış ardıc növləri A.A.Qrossheym (4), L.İ.Prilipko (2), A.M.Əsgərov (1), T.H.Talıbov (3) və başqaları tərəfindən öyrənilmişdir.

Ardıc növlərinin biomorfoloji xüsusiyyətlərini öyrənmək məqsədilə Muxtar Respublikanın rayonlarında müxtəlif istiqamətlərdə planauyğyn təşkil olunmuş ekspedisiyalarda iştirak etmişik. Bu məqsədlə Culfa rayonunun İlanlıdağ (2415 m),Dərəşam (1677 m),Xəzinədərə (1950), Şahbuz rayonunun Batabat (2100 m),Güney Qışlaq(1420 m),Dərəboğaz (2600 m), Ordıbad rayonunun Soyuqdağ, Tiviçay vadisində yayılmış ardıc kollarına rast gəlinir. Bitkinin hündürlüyü 1,5 m-ə qədərdir.3-3,5m enində ətrafa budaqlanmışdır.Üzərində həm iri ,həm də çox kiçik

meyvələrə rast gəlmək olur.Meyvələri tünd göy rəngdədir, üç pulcuqludur. İri meyvələrdə pulcuq az nəzərə çarpır. Onların diametri 0,8-1 sm-dir.Diametri 2-3 mm olan uzunsov meyvələrdə isə pulcuqlar təpə hissədə aydın nəzərə çarpır. Kolun üzərində kiçik meyvələr çoxluq təşkil edir. Belə ki ,aprelin axırları ,may ayının əvvəllərində tozlanma gedir. Kütləvi çiçək açması mart ayının ortalarından başlayır.

Batabat meşəliyində 1750-2100m-dən yuxarı geniş bir sahədə seyrək ardıc meşəliyi vardır.Bu ərazilərdə uzunsov və alçaqboylu ardıc növləri geniş yayılmışdır.Uzunsov ardıc 3-4 metr hündürlükdə olan koldur.Meyvələrində 3 ədəd pulcuq vardır.Pulcuqlar yuxarı hissədə üçbucaq əmələ gətirərək , ucları geri qatlanmışdır.Bu hissədə toxumlar aydın görünür.Belə xüsusiyyət həm yetişmiş, həm də yetişməmiş meyvələrə aiddir.May ayının əvvəlində meyvələrin diametri 7-8 mm-dir.Meyvələr qısa ayaqcıqlar üzərində qarşı-qarşıya yerləşir.

Çoxmeyvəli ardıc külək vasitəsilə tozlanır.Kütləvi çiçəklənməsi martda başlayıb aprelin axırlarında qurtarır. Meyvələrin eni aprelin ortalarında 2-4mm,rəngləri isə göyümtül-yaşıl olur. Avqustun ortalarında 5-8 mm-ə çatır. Noyabr-dekabr aylarında 10-12 mm böyüklükdə olur və rəngləri qonurlaşmağa başlayır.Bu kolların üzərində qonur və göy rəngli meyvələrə rast gəlmək mümkündür.

Ağ:riyli ardıc növünə İlanlıdağ,Paradaş,Kotam,Darıdağ ərazisində seyrək meşəlik əmələ gətirir.Qaraquş ərazisində isə tək-tək rast olunur. Kütləvi çiçək açması mart ayında başlayıb, aprelin axırında qurtarır. Aprelin axırlarında ağıriyli ardıca xırda meyvələr görünməyə başlayır.Bir muddət sonra isə eni 5-10 mm-ə çatır.

Ordubad rayonu Tivi kəndi ətrafında seyrək halda yamaclarda kol şəkilli hündürlüyü 1-1,5metr olan ağıriyli ardıca rast gəlinmişdir. Bu bitki bəzi xüsusiyyətlərinə görə adi ardıcdan fərqlənir. Yarpaqları tünd yaşıl rəngdədir. Əksəriyyəti budaqlarından ayrılmış vəziyyətdədir. Bəzilə-

rinin isə budaqlar yarımsıxılmış haldadır.İyun ayının əvvəllərində meyvəsi tünd göy rəngdə olmuşdur.Üzəri ağ ləkəlidir. Meyvələrinin diametri 0,9-1 sm-dir.4 yarımsferik toxumu vardır.Toxumlarının diametri 3-4 mm-dir.Kiçik meyvələri isə aprelin sonu, mayın əvvəllərində müşahidə etmək olar.Kütləvi çiçək açması mart-aprel aylarında baş verir.Bu xüsusiyyətləri nəzərə alaraq belə bir qənaətə gəlmək olar ki, rast olunan bitki ağıriyli ardıcın variasiyası olan *J. foetidissima var. squarrosa Medw.* – kilkəşli ağıriyli ardıcıdır. Bütün bu məlumatları nəzərə alaraq qeyd etmək olar ki, Naxçıvan MR-də yayılmış ardıc növləri mart ayının sonu, aprelin əvvəllərində iqlim faktorlarından aslı olaraq kütləvi çiçəkləyir,aprelin sonu may ayının əvvəlində isə meyvə əmələ gətirir.

Ədəbiyyat:

1. Əsgərov A.M Naxçıvan MSSR-in qıjıkimiləri və çılpaqtoxumluları, Naxçıvan MSSR-in florası,bitki örtüyü və faydalı bitkiləri,Elm,Bakı,1981,s. 48-59
1. Prilipko L.I. Azərbaycanın ağac və kolları , Azərb SSR EA nəşriyyatı,Bakı,1961, c.1. s.9-124
1. Talıbov T.H. Naxçıvan MR-in flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması ,Elm.Bakı,2001, s.40-44
1. Гроссгейм А.А. Флора Кавказа, Изд-во Аз ФАН, Баку, 1934, Т.1.с. 56-70

ZÜLFİYYƏ SALAYEVA
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

NAXÇIVAN MR-in NAXÇIVAN DÜZƏNLİYİ BOTANİKİ-COĞRAFİ RAYONUNUN SÜSƏNLƏRİ

Azərbaycan Respublikasının tərkibinə daxil olan Naxçıvan Muxtar Respublikası özünün coğrafi mövqeyi, relyefi və flora biomüxtəlifliyinə görə Azərbaycanın digər bölgələrindən fərqlənir.

Naxçıvan MR-in iqtisadi və sosial inkişafı, sənayenin xalq təsərrüfatının müxtəlif sahələrindən, o cümlədən onun bitki örtüyünün faydalı xüsusiyyətlərinin düzgün öyrənilməsindən və səmərəli istifadə edilməsindən asılıdır. Muxtar Respublikanın əsas təbii sərvətlərindən biri onun bitki örtüyü və zəngin florasıdır. Ərazidə yayılmış faydalı bitki qrupları içərisində süsənlər xüsusi yer tutur.

Süsənlər eyni adlı fəsiləyə (İridaceae Juss.) mənsub olan çoxillik bitkilərdir. Yeraltı hissələri sürünən kökümsov, soğanaqlıyumurulu, soğanaqlıdır. Gövdənin qaidəsində və aşağı hissəsində yerləşən yarpaqları qılıncşəkilli və ya uzunsov xətvaridir. Çiçəkləri müntəzəmdir, iridir, tək-tək yerləşir və ya bir neçə çiçəyin yığılaraq əmələ gətirdiyi çiçəkqrupundan ibarətdir. Çiçəkqrupunun qaidəsində 1-3 ədəd enli pərdə şəklində örtücü yarpaq olur. Çiçəkyanlığı bir-birilə yapışmış 6 ədəd yarpaqdan təşkil olunmaqla, tacvaridir. Müxtəlif növlərdə çiçəkyanlığındakı xarici yarpaqlar daxili yarpaqlardan forması, böyüklüyü və çox vaxt rənginə görə fərqlənirlər. Yumurtalığı altdır. Sütuncuğu 3 bölümlü, onun hissəcikləri isə enli ləçəkvari olub, erkəkciklərinin üzərini örtür. Erkəkcikləri 3-dür, tozcuqları xətvaridir. Yarpaqları gövdəsinin qaidəsində yerləşir. Süsən cinsinin dünyada 200, Qafqazda 33, Azərbaycanda 26 növü yayılmışdır. Naxçıvan MR florası üçün 13 süsən növü verilmişdir (4).

Tədqiqat ilində Naxçıvan düzənliyi botaniki-coğrafi rayonunun süsənlərini öyrənmək üçün aşağıdakı marşurutlar üzrə ekspedisiyalara gedilmişdir: Babək rayonunun Duzdağ, Böyükdüz ərazisi, Ordubad rayonunun Aza, Kotam, Gilançay ərazisi, Culfa rayonunun Darıdağ ərazisi, Şərur rayonunun Sədərək, Arpaçay ərazisi və s. Qeyd etmək lazımdır ki, Naxçıvan düzənliyi botaniki-coğrafi rayonunun bitki fitosenozları Şərqi Zaqafqaziyanın bitki örtüyünə oxşar olsa da öz xüsusiyyətlərinə görə onlardan xeyli fərqlənir (2). Ərazinin bitki örtüyünün yaranmasında və inkişafında Ön Asiya və Şimali İran floragenetik elementlərinin böyük əhəmiyyəti olmuşdur. Tədqiqat aparılan ərazidə yovşanlıq,

üzərlik, gəngizlik, qarağanlıq formasiyaları müəyyənləşdirilmişdir. Bunların əksəriyyəti halofit, halokserofit, kserofit, kol və yarımkol bitkilərindən ibarətdir. Müəyyən olmüşdür ki, ilk yaz aylarında yağıntılardan sonra efemer və efemeroidlərin intensiv inkişafı hesabına düzən hissədə açıq fitosenozlar qapalı bitki örtüyünə çevrilir.

Naxçıvan düzənliyi botaniki-cöğrafi zonasında aparılan tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, ərazinin bitki örtüyündə yovşanlıq və halofitli senozlar daha çox yayılmışdır. Ordubad rayonunun Aza və Kotam ərazisində süsənlər azşoran, qonur və açıq torpaqlarda xarakterik formasiyalar əmələ gətirirlər. Yovşanlıq formasiyasının əmələ gəlməsində sünbülvari və İsayev yovşanlarını, şeytan qarpızı, qarğa soğanı, süsənləri və s. göstərmək olar (3). Yovşanlıq formasiyasında yovşanlı, gəngizli-yovşanlı, efemeroidli-yovşanlı assosiasiyaları müəyyənləşdirilmişdir. Yovşanlıq formasiyasının tərkibində proyektiv örtülmə, dolğunluq, fenofaza və hündürlük öyrənilmişdir. Aparılmış tədqiqatın nəticələri aşağıdakı cədvəldə verilmişdir:

Cədvəl

Assosasiyalar	a) yovşanlıq			b) efemeroidli-yovşanlı		
Proyektiv örtülmə %-lə	40-65			25-40		
Bitkinin növləri	Dolğunluq	Fenofaza	Hündürlük	Dolğunluq	Fenofaza	Hündürlük
Kolcuqlar:						
Salsola nodulasa	Cop^2	veg	18	-	-	-
Yarımkollar:						
Noaea mucronata	Sol	veg	15	sol	veg	21
Kochia prostrata	-	-	-	sol	veg	8
Capparis spinosa	sol	veg	17	-	-	-
Atriplex turcomanica	-	-	-	sol	veg	14
Uzun vegetasiyalı çoxillik otlar:						
Scorzonera cana	sol	veg	10	-	-	-

Scorzonera parviflora	sol	veg	14	sol	veg	14
Cichorium intybus	sol	veg	12	-	-	-
Cirsium arvense	sol	veg	18	-	-	-
Cardaria draba	-	-	-	sp	veg	23
Taraxacum desertorum	sol	veg	6	-	-	-
Toruliniurn ferax	sol	veg	14	sp	veg	12
Peganum harmala	sol	veg	25	sol	ved	19
Achillea tenuifolia	sol	veg	20	sol	veg	23
Dodartia orientalis	sol	veg	20	-	-	-
Zygophyllum fabago	-	-	-	sp	veg	19
Salvia sclarea	sp	veg	16	sp	veg	10
Nepeta cataria	sol	veg	16	sp	veg	9
Efemeroidlər:						
Poa bulbosa	sp	mey	17	sol	mey	15
Muscari leucostomum	sol	veg	6	sol	veg	10
Allium dictyoprasum	sol	veg	11	sp	veg	13
Gladiolus atroviolaceus	sp	veg	35	sp	veg	40
Gagea bulbifera	sol	veg	20	sp	veg	25
Bellevalia longistyla	sol	veg	25	sp	veg	20
Muscari atropatanum	sp	veg	35	sp	veg	40
İris musulmanica	sol	veg	40	sol	veg	35
İris lycotis	sol	veg	10	sol	veg	15
İris elegantissima	sol	veg	20	sol	veg	25
Uzun vegetasiyalı birillik bitkilər:						
Salvia nutans	sp	veg	8	sol	veg	10
Atriplex tatarica	sp	veg	19	-	-	-

Ceratocarpus arenarius	-	-	-	sol	veg	6
Efemerlər:						
Ceratocephala falcata	-	-	-	Cop²	mey	5
Hordeum leporinum	sol	mey	10	-	-	-
Eremopyrum orientale	sol	mey	8	sol	mey	6
Colpodium humile	sp	mey	8	Cop²	mey	6
Medicago minima	sol	mey	11	-	-	-
Zizihpora tenuior	sol	mey	6	-	-	-

Beləliklə, Naxçıvan MR-in Naxçıvan düzənliyi botaniki-coğrafi rayonundan toplanan süsənlərin qısa xarakteristikasını veririk:

Qurdqulağı süsən – *İris lycotis Woronow*

Çoxillik kökümsovlu bitkidir. Zoğunun hündürlüyü 10-20 sm olub, böyük çiçəklə qurtarır. Yarpaqları bozumtul yaşıl, qismən tutqun uzunsovdur. Ləçəkləri 5-6 sm uzunluqda qırmızı-qəhvəyi rəngli olub, arasında məxmər kimi ləkəsi vardır. Bu bitki məhdud areallı nadir növdür və yüksək dekorativ görünüşə malikdir. Toxum və vegetativ yolla çoxalır. Ehtiyatının dəyişməsi səbəbi, əsasən antropogen faktorlardır. Babək rayonun Nehrəm kəndi ətrafındakı alçaq təpəliklərdən və Culfa rayonunun Darıdağ ərazisindən toplanmışdır. Qurdqulağı süsən əsasən yovşanlı-gəngizli formasiyalarda yayılmışdır. 2003-cü ildə aparılmış ekspedisiyalar zamanı Culfa rayonu ərazisindən toplanmış qurdqulağı süsən İnstitutun "Nəbatat bağı"nda introduksiya edilmişdir. Bu ilki tədqiqat müddətində isə keçən il təcrübə sahəsində əkilmiş qurdqulağı süsənin üzərində fenoloji müşahidələr aparılmışdır. Fenofaza müddəti 15.04. 2004-cü ildən başlayıb, 14.05.2004-cü ildə bitmişdir.

Qəşəng süsən – *İris elegantissima Sosn.*

Çoxillik kökümsovlu bitkidir. Hündürlüyü 20 sm-dir. Çiçəkləri tək-tək, daxili üç ləçəyi ağımtıl sarı tüstü rəngində

olub, bənövşəyi damarlıdır. Sədərək qəsəbəsinin düzən sahələrindən başlayaraq, Araz çayının sahillərinə kimi yayılmışdır. Yovşanlı-süsənli formasiyalar əmələ gətirir. Cənubi Zaqafqaziyanın nadir endemik növüdür. Ermənistan-İran areal tipinə daxildir.

Müsəlman süsəni – *İris musulmanica Fomin*

Çoxillik kökümsovlu bitkidir. Hündürlüyü 50 sm-dir. Yarpaqlarının eni 10-15 mm olub xətvaridir. Culfa, Şərur və Şahbuz rayonunun düzən sahələrindən toplanmışdır. Nəmli çəmənlərdə yayılmışdır. Ön Asiya coğrafi areal tipinə daxil olmaqla, Qafqaz endemidir.

Paradoksal süsən – *İris paradoxa Stev.*

Çoxillik olub, kokümsov gövdəsi qısa sürünəndir. Zoğunun hündürlüyü 7-18 sm olub, böyük çiçəklə qurtarır. Yarpaqları 3-5 mm, ensiz xətvaridir. Çiçəkyanlığının borusu yumurtacıqdan bir qədər qısadır. Çiçək yanlığının xarici hissəsinin çox qısa dırnaqcığı vardır. Bu çiçəkyanlığının xarici hissəsi tünd mürəkkəb rəngli olub, yuxarı hissəsində isə nisbətən açıq rəngli eninə zolaqlar var. İran Qafqaz areal tipinə daxil olmaqla, Qafqaz endemidir.

Süsənlərin əksəriyyəti bəzək, dərman, boyaq bitkiləridir. Bu bitkilərin əksəriyyəti çiçəklərinin gözəl, parlaq rənginə, formasına, eləcə də xoş iyinə görə diqqəti cəlb edirlər. Gözəlliyinə görə *İris lycotis Woronow, İ. elegantissima Sosn., İ. musulmanica Fomin* xüsusi yer tutur.

Vaxtı ilə akademik A. Qrossheym Azərbaycan və Qafqaz süsənlərinin gözəlliyinə böyük əhəmiyyət verərək yazırdı: "Şübhəsiz indi bəzək bağçılığı tarixində yeni səhifələr açmaq olar, süsənlərin bioloji xüsusiyyətlərinin dərindən öyrənilməsi əsasında onların yeni gözəl hibridlərinin alınması, bəzək bitkisi kimi istifadə olunması, yerli şəraitlə əlaqədar kimyəvi tərkibinin öyrənilməsi vacib məsələlərdən biridir " (1).

Süsənlərin əksəriyyəti bəzək bitkiləri olduqları üçün əhali tərəfindən toplanılır. Otlaqların otarılması zamanı bu bitkilərin yerüstü hissəsi mal-qara tərəfindən yeyilir ki, bu da

onların toxum verməsinin qarşısını alır. Ona görə də Muxtar Respublikanın bu incilərini qorumalı, hətta bəzi növlərinin becərilərək bərpa və istifadə edilməsi vacib məsələlərdən biridir.

Məhdud ərazidə yayılmasını, azsaylı olmasını və insan fəaliyyəti və ya digər abiotik amillərin təsirindən öz arealının qısalmasını nəzərə alaraq aşağıdakı növlərin Naxçıvan MR-in "Qırmızı kitab"ına salınması məqsədəuyğun hesab edilmişdir: *İris lycotis Woronow, İris musulmanica Fomin, İris paradoxa Stev.*

Ədəbiyyat:

0. Hacıyev V.S., İbrahimov Ə.Ş. Naxçıvan MR-in süsən bitkiləri haqqında bəzi məlumatlar. Naxçıvan MR-in florası, bitki örtüyü və faydalı bitkiləri. Elm, Bakı, 1981, s. 35-39
0. Talıbov T.H. Naxçıvan MR-in flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması. Elm, Bakı, 2001, s. 56-60
0. Ибрагимов А.Ш., Салаева З.К. Геофиты лугов в субальпийском поясе Нахичеванской АССР и хозяйственное значение. Док. АН Азерб. ССР. Из-во Элм, Баку, 1988, том XLIV, № 11, s. 65-67
0. Флора Азербайджана. Из-во АН Азерб. ССР, Баку, 1952, т.2, с. 215-235

GÜLTƏKİN ƏLİYEVA,
İLHAMƏ MUSTAFAYEVA
Naxçıvan Respublika xəstəxanası

DƏRMAN TƏYİN EDİLMƏSİNİN BƏZİ ƏSAS XÜSUSİYYƏTLƏRİNƏ DAİR

İki hüceyrədən başlanğıc götürüb, doqquz ayda mürrəkəb orqanizmə çevrilən insan övladının yaranmasında iki faktor əsas rol oynayır:

0. Valideynlərdən alınan genetik proqram;
0. Bu genetik proqramın həyata keçirilməsi və dölün xarici mühitin aqressiv şəraitindən qorunması üçün qadın orqanizminin vəziyyəti.

Göstərilən faktorlardan bir və ya hər ikisində pozğunluqlar olarsa, hamiləliyin pozulması, az həyat qabiliyyətli, ölüm, şikəst uşaqların doğulması ilə nəticələnir. Ana dölü əhatə edən xarici mühit olmaqla yanaşı, özü də xarici mühitin təsiri altındadır. Ana bətnində inkişaf edən dölə xarici mühitin təmiz olmayan ekoloji şəraitinin, ana xəstəlikləri, hamiləlik toksikozları ilə yanaşı, daha bir amil – xəstəliklərin müalicəsi üçün təyin olunan dərmanlar da təsir edir. 80-92% qadınlar hamiləliyin müxtəlif dövrlərində hər hansı bir dərman preparatları və ya müalicə kursları alırlar. 2-7% anadan gəlmə eybəcərliyə səbəb dərman alan analardan doğulan uşaqların ½ hissəsinin həssaslığının artdığı göstərilir.

Hamilə qadınlarda dərman mübadiləsi digər qadınlardan fərqlidir. Çünki, bu mübadilədə fetoplasentar sistem xüsusi rol oynayır. Hamilələrin birinci trimestrində praktik olaraq bütün dərmanlar onun qanından dölə keçir. Sürətlə inkişaf edən döl hüceyrələri ananın hüceyrələrinə nisbətən dərmanların təsirinə daha həssasdır. Yalnız orqanogenezin sonuna yaxın dölün hüceyrələri daha davamlılıq qazanır. Mayalanmadan bir-iki həftə sonra dərmanların təsirindən qadının özünün belə bilmədiyi hamiləliyi pozulur.

Tədqiqatlar göstərir ki, baş vermiş mayalanmanın 70 %-i belə bitir. Bu səbəbdən də hamilə qadına dərman təyini xüsusi bilik və məsuliyyət tələb edir. Bəzən yüksək dozada, yersiz təyin edilən dərmanlar çox zərərli – ətraf mühit faktorlarından da zərərli olur.

Ana-cift-döl triadasında uşaqlıq-cift-qan dövriyyəsi 9-cu ayda 3-cü aydakına nisbətən 10 dəfə artır. Bu qan dövriyyəsi ilə iki yolla qida maddələri, xəstəlik törədiciləri, toksinləri anadan dölə, dölün həyat məhsulu isə döldən anaya verilir. Bu ötürülmə iki yolla baş verir:

1. Diaplasentar yol – ciftin funksional aktiv sahəsi ilə;

2. Paraplasentar yol – amnion xarici qişaları dölyanı maye, dölün dərisi, ağciyəri, bağırsaq və böyrəkləri vasitəsilə.

Hamilə qadınlara dərman təyini zamanı aşağıdakıları nəzərə almaq lazımdır:

- hamilə qadının orqanizmində dərman maddələrinin metabolizm xüsusiyyətlərini;
- dərman mübadilələrin transplasentar keçidi – ciftə metabolizmini;
- dərmanların embriotoksik təsirini;
- dərman mübadilələrin dölyanı mayeyə diffuziyasını.

Aşağıdakı cədvəldə bir - neçə dərman preparatlarının plasentar baryeri keçmə dərəcəsi və dölə təsiri göstərilmişdir.

Cədvəl 1.

Sıra №	Dərman maddələrinin adı	Plasentar baryerdən keçmə və dölyanı mayedə tapılma dərəcəsi	Teratogen təsiri	Sonrakı fəsadlar	Hamilələrə təyin etmək olar, olmaz?
1.	Ampilisin	60 % plasentar baryerdən keçir	yoxdur	-	olar
2.	Oksatsilin	10% plasentar baryerdən keçir	yoxdur	-	olar
3.	Streptomisin	80% plasentar baryerdən keçir	var	eşitmə funksiyasına və koxlear aparata	olmaz
4.	Kanamisin	50% plasentar baryerdən keçir	var	ototoksik	olmaz
5	Gentamisin	30-50% plasentar baryerdən keçir	teratoksik təsir	-	olmaz
6	Tetraskilin	75% plasentar baryerdən keçir	«boz sindrorn» ağciyər funk. çatm.	-	olmaz

7	Levomisin	20-40% plasentar baryerdən keçir	-	-	olmaz
8	Lerkomisin	25-50% baryer. keçir, 10% d/yanı mayedə tapılır	-	-	olmaz
9	Eritromisin	10-25% baryer. keçir, d/yanı mayeyə keçmir	yoxdur	yoxdur	olar
10	Qlükokortikoidlər	-	yoxdur	yoxdur	olar
11	Rifampisin	30% plasentar baryerdən keçir	az təsir edir	-	olar

Cədvəldən göründüyü kimi, dərman maddələrinin bəziləri plasentar baryerdən 80%, bəziləri isə 10% keçir.

Qlükokortikoidlər – dölə teratogen təsir etmir. Çünki, hormonlardan estrogen-progesteron dölə teratogen təsir etmir, yalnız hamiləliyin müddətinə uyğun təyin edilməlidir.

Androgenlər hamilələrə təyin edilə bilməz! Pireostatik dərmanlar dölün qalxanabənzər vəzində tiroksin sintezini ləngidir. Bu ləngimədən hipofizdən tireotrop hormonun sintezi artır. Nəticədə döldə qalxanabənzər vəzi böyüyür (anadangəlmə zob). Dölün qalxanabənzər vəzinin hipofunksiyası dölün mərkəzi sinir sisteminə təsir edərək ağıl zəifliyi yaradır. Deməli, hamilə qadınlarda diffuz toksiki zobu müalicə etmək olmaz!

Antikoaqulyantlardan heparin-molekulyar kütləsi çox olduğundan, plasentar baryeri keçmədiyindən dölə təsiri yoxdur. Neodikumarin, Sinkumar, fenilin – plasentar baryeri keçərək, dölə təsir edir, dölün beyninə qan sızması ilə təhlükəlidir.

Antihipertenziv dərmanlardan Rezerpin, Raunatin yeni doğulmuşun ürək tonlarının bradikardiyasına, yuxuluğuna və tənəffüs yollarının selikli qişalarının ödeminə səbəb olur.

Bizə müraciət edən 102 toksoplazmozlu FMA (fəsadlaşmış mamalıq anamnezi) olan qadınlardan 36 nəfərində (35,4%) ABO qrup konflikti, 7 nəfərdə (6,8%) isə rezus konflikti olmuşdur. Bu qadınların içərisində
1 düşük olanlar – 15 nəfər (14,3%)
2 düşük olanlar – 23 nəfər (22,5%)
3 düşük olanlar – 8 nəfər (37, 5%)
4-dən yuxarı düşük olanlar 11 nəfər (10,8%)
ölü doğuş və düşük olanlar 17 nəfər (16,7%)
ölü doğuş – 17 nəfər (16,7%)
uşaq ölümü – 13 nəfər (1 nəfərdə 4, 2 nəfərdə 2 dəfə) – (2,7%) olmuşdur.

Təkrar-təkrar ölü doğuşlar, düşüklər və uşaq ölümü göstərir ki, hamiləlik vaxtı aparılan müalicə taktikası düzgün qurulmamışdır. Araşdırmamızı hamiləlik müddətində aparılan müalicənin rasionallığını öyrənmək üçün sorğuya yönəltdik. Məlum oldu ki, toksoplazmozla müalicə alan qadınların 80%-i hamiləlik müddəti 10-12, 22-24, 32-34 həftəliklərdə hər dəfə 10 günlük yarımkurs olmaqla 90 gün müalicə almışlar. Yəni 280 gün davam edən hamiləliyin 90 gününü döl paraplasentar və diaplasentar sistemdə dölyanı mayedə həll olmuş və ciftdən keçən dərmanların təsirində olur. Bu səbəbdən də rus alimi Nikiforovun "toksoplazmozu müalicə etsən də, etməsən də ölü və şikəst uşaqlar doğulur" sözləri toksoplazmozlu hamilə qadınların müalicəsinə dərman preparatlarının orqanizmdəki biomexanizmini, fetoplasentar sistemdə uğradığı dəyişikliyi, dölün qaraciyərinə və beyin toxumasına təsirinə müasir baxışlara müraciət etməmizə səbəb oldu.

Müayinə zamanı aydın oldu ki, yoxlanılan qadınların nigah yaşı 1 ildən 18 ilə qədərdir. Hamiləlik müddətində USM-monitorinqinə əsasən 65 (63,7%) qadında cift ön divarda, 15 (14,3%)-də yan divarda, 20 (19,6%)-də isə arxa divarda yerləşmişdir. 7 (6,8%)-də ciftə qansızma, 8 (37,5%)-də ön divarda hipertonus, 2 qadında (1,9%) ciftin ödemləşməsi müşahidə

olunub. 7 qadını (6,8%) nəzarətdən kənarda qaldığı üçün USM-monitorinqindən keçirə bilməmişik. Müalicəsinə fərdi yanaşdığımız hər bir qadında ciftin orqanik və funksional çatışmazlığını korrektə etmişik. Bu zaman riboksin, kurantil-75, trental, askorutin, «Evax», Materna təyin edilmişdir. Qadınların hamısı hamiləlikdən əvvəl müayinə olunmuş, antiparazitar, desensibilizəedici, immunomöhkəmləndirici müalicə almışlar. Ərləri isə müayinə olunaraq müvafiq müalicələr almışlar.

Araşdırma zamanı bizə aydın oldu ki, bəzi müalicə sxemlərində toksoplazmozlu hamilə qadına zooinfeksiyaya yoluxmuş qadın kimi yanaşaraq müalicə taktikasını hamiləlikdən kənar qadın orqanizmi kimi qurular. Lakin nəzərə almaq lazımdır ki, qadını elə bu hamiləliyin başa çatması və dölün normal inkişafı üçün optimal şərait yaratmaq lazımdır. Bütün sağlamlaşdırıcı tədbirləri planlaşdırılmış arzuolunan hamiləlikdən öncə aparmaq lazımdır. Biz 102 toksoplazmozlu FMA-lı qadının müalicəsində spesifik terapiyasının müddətini 30 günən 15-21 günə endirərək xroniki, kəskin və funksional cift çatışmazlıqlarını müalicə etməklə hamiləliyin başa çatmasına, həyat qabiliyyətli, normal çəkili uşaqların doğulmasına, doğulan uşaqların 1 yaşa çatmasına nail olmuşduq. Beləliklə yuxarıdakı sitatı təkzib edərək qeyd edirik ki, toksoplazmozlu xəstələri müalicə etməsən və qeyri-rasional müalicə tətbiq etsən, ölü və şikəst uşaqlar doğularlar.

Bir qədər də hamilələr səxavətlə təyin olunan vitaminlər haqda:

Tədqiqatlar göstərir ki, vitaminlərin çatmazlığı kimi yüksək dozada təyini də ana bətnindəki dölə zərər verir.

Bizə müraciət edən xəstə Kərimova S.R. 1960-cı il təvəllüdlü, Şərur rayonunun Xok kənd sakini 42 yaşında ərə gedib. Birinci hamiləlik 36-37 həftəlikdə ölü döl doğuşla nəticələnib. Sonsuzluq 2 il, qalaktorcya II dərəcə, FMA-toksoplazmoz diaqnozu ilə ambulator alaraq qadına müalicə, mühafizə rejimi təyin edildi.

Anamnez toplanarkən qadının əlindəki reseptdən aydın oldu ki, I hamiləliyi müddətində qadın 3 kurs:

ATF – 30 amp., vit B_6 – 30 amp., vit B_{12} – 30 amp., vit B_1 – 20 amp., kokarboksiloza – 20 fl., qentamisin – 20 amp., ampisilin – 40 fl., qlükoza 40%-li – 20 amp., sulfadimezin 0,5 – 70 tab., nistatin – 60 tab., fal tsu – 60 tab., biseptol – 60 tab., adonis-brom - 30 tab., aminoxinol – 20 tab. müalicə almışdır. Qadın hamiləlik boyu cəmi 170 amp. vitaminlər, 40 fl., pensilin və 300 tab. dərman atmışdır.

Kərimova S. hamiləlikdən əvvəl müayinə və müalicə alaraq, hamiləlik alındıqdan sonra müşahidədə saxlanıldı və 02.02.2003-cü il tarixdə dünyaya sağlam qız uşağı gətirdi.

Qadının birinci hamiləliyinə toksoplazmoz xəstəliyinin təsiri ilə yanaşı, qeyri-rasional səxavətlə təyin olunmuş dərman preparatlarının təsiri yox deyildir.

Nəzərə alsaq ki, dərman maddələri dölyanı mayeyə diffuziya edərək, həftələrlə qalır, paraplasentar ötürmədə dölün zəhərlənməsinə, sarılığına, ağciyərlərin yetərsizliyinə, az həyat qabiliyyətli və ölü uşaqların doğulmasına səbəb olar.

Beləliklə, aşağıdakı nəticələrə gəlirik:

0. Hamilə qadınlara dərman təyin etdikdə hamiləliyin müddətinə fikir verilməkdir. Orqanogenez dövründə sürətlə bölünüb, orqanlarının əsasını qoyan embrion hüceyrələri dərmanların embriotoksik təsirinə çox həssasdırlar.
0. Dərmanların ana-cift-döl triadasında ciftdən keçmə sürəti, dölyanı mayeyə diffuziyası, lipidlər, zülallarla münasibəti, ionizasiya qabilliyyəti öyrənilmişdir.
0. Dölə teratogen təsiri olan dərmanlar təyin olunmamalıdır.
0. Uzun müddətli, yüksək dozalı, təkrar-təkrar kurslarla hamilə qadını hər hansı xəstəlikdən elə bu hamiləlik müddətində qurtarmağa səy göstərilməməlidir.
0. Qadının xəstəliyinin residiv verməməsi, dölə mənfi təsiri olmaması üçün qoruyucu terapiyadan istifadə olunmalıdır.
0. Hamilə qadına orat terapevtik dərman təyini zamanı «minimal orta terapevtik doza» prinsipinə əməl olunmalıdır.
0. Bütün hallarda ciftin orqanik və funksional çatmazlığı aşkar olunmalı, kompensasiya edilməlidir.

Ədəbiyyat:

0. Кирющенков А.П., Тараховский М.Л. Влияние лекарственных средств на плод. М., «Медицина», 1990, с.19-23, 136-182.
0. Кьюмерл Х.П., Брендел К. Клиническая фармакология при беременности. с.38-17
0. Потекаев Н.С., Потекаева Н.Н. Кларитромиссии в терапии урогенитального хламидиоза. Кремлевская медицина. «Клинический вестник», 1998, №1.
0. Савельева Г.М., Федорова М.В. Плацентарная недостаточность. М., «Медицина», 1991, с.93, 253.
0. Федорова М.В., Калашникова Е.П. Плацента и ее роль при беременности.
0. VI сьезд педиатров Эстонской ССР, 12 тезис. докладов. Таллин, 1985, т.2, с.12.

FƏRMAN XUDAVERDİYEV
Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN MR-də BECƏRİLƏN YERLİ VƏ GƏTİRİLMƏ GAVALI SORTLARI

Naxçıvan Muxtar Respublikası qədimdən özünün keyfiyyətli və çoxsaylı meyvə sortları ilə məşhurdur. Burada xalq seleksiyası yolu ilə çoxlu tumlu, çəyirdəkli, qərzəkli və b. meyvə sortları yetişdirilmişdir ki, onlar da özünün dadı, ətri və başqa xüsusiyyətlərinə görə digər regionlarda yayılmış sortlardan nəinki geri qalmışlar, hətta bəzi cəhətdən üstündürlər. Lakin, çox təəssüf ki, bu qiymətli sortların çoxu sıradan çıxmaq üzərədir.

Əhalinin günü-gündən müxtəlif meyvə məhsullarına olan tələbatının maksimum ödənilməsi həmişə diqqət mərkəzində olmuşdur. Bu mühüm vəzifənin yerinə yetirilməsi meyvə bağları sahəsinin daha da genişləndirilməsi ilə yanaşı eyni zamanda məhsuldar və keyfiyyətli sortların ayrı-ayrı zonalarda seçilib yerləşdirilməsini və onların artırılmasını tələb edir. Tədqiqatın aparılmasında məqsəd muxtar respublikanın ərazisində yayılmış yerli və gətirilmə gavalı sortlarını aşkar edib, onların bioloji-təsərrüfat xüsusiyyətlə-

rini öyrənməklə ən yaxşılarını seçib istehsalata tövsiyyə etməkdir.

Muxtar Respublikada yayılmış gavalı sortları bəzi tədqiqatçılar(1,2) tərəfindən öyrənilmişdir.Bu sortlar aşağıdakılardır:

Xurmayi. Ağacı orta boylu, cavan hissələri sallaq və nazik, çətiri girdə, budaqları seyrəkdir. Meyvəsi uzunsov-xurma şəklindədir, qabığı açıq-bənövşəyi rəngdə, üzəri ağ mumlu toz təbəqəsi ilə örtülüdür. Əti sarımtıl-yaşıl, bərk, ətirli və şirəlidir. Çəyirdəyi olduqca xırda, yastı və uzunsov ovaldır. Əti çəyirdəyindən asan ayrılır. Qurutmaq üçün çox yararlıdır. Muxtar respublikanın aran və dağətəyi rayonlarında geniş yayılmışdır (1).

Vəziri. Ordubad rayonunun qədim sortu olub Naxçıvan MR-in bütün zonalarında yayılmışdır. Ağacı uca boylu, çətri girdə, ətrafa geniş yayılandır. Meyvəsi yumurta şəklində, açıq bənövşəyi rəngdə. qabığı bərkdir. Əti yaşıl-sarı, şirəli, ətirli, dadı turşa-şirindir. Çəyirdəyi ətindən ayrılır. Avqustun birnci ongünlüyündə yetişir. Məhsuldar sortdur. Meyvəsi süfrə və kompot üçün əlverişlidir (1).

İtaliya vengerkası: Ağacı qüvvətli, girdə və sallaq çətirlidir. Çox məhsuldardır. Meyvəsi oval şəklindədir, qarın yivi üzdə, qabığı bərk, tünd sürməyi rənglidir. Üzəri ağ mum tozu ilə örtülü olur. Əti bərk, sarımtıl, şirin, ətirli və şirəlidir. Çəyirdəyi xırda, ətindən ayrılandır. Saxlanmağa və nəqliyyata davamlıdır. Ordubad, Şahbuz, Babək rayonlarının fərdi təsərrüfatlarında yayılmışdır (1).

Adi vengerka. Ağacı hündür boylu, çətiri girdə formadadır. Meyvəsi oval yumurta şəklində, qabığı tünd-bənövşəyi rəngdə olub, üzəri qalın mumlu toz ilə örtülüdür. Əti yaşıl-sarımtıl, bərk, şirin, Sulu və çox ətirlidir. Çəyirdəyi ətindən asan ayrılır. Qurutmaq və təzə halda istifadə etmək üçün qiymətli sortlardandır (1).

Yaşıl Renklod. Çətiri girdə, budaqları bir qədər sallaqdır. Meyvəsi girdə, sarı-yaşılımtıl, əti kövrək, sulu və yüksək keyfiyyətlidir. Çəyirdəyi xırda, yumru yastıdır.

Ətindən sərbəst ayrılır. Yemək və komport hazırlanması üçün qiymətlidir.

Gavalı Ordubad, Babək və Şərur rayonlarının fərdi təsərrüfatlarında geniş inkişaf etdirildiyi halda fermer təsərrüfatlarında bir hektar da olsun belə gavalı bağı yoxdur. Halbuki həmin rayonların torpaq iqlim şəraitində gavalı bitkisindən bol və yüksək keyfiyyətli məhsul götürmək olar.Göstərilən rayonların ərazilərində yeni gavalı bağı salmaq üçün Naxçıvan Araz Elm İstehsalat Birliyində baza yaradılmalı və ayrı-ayrı sortlardan ibarət anaclıq bağı salınmışdır ki, onlardan göz hazırlamaq mümkün olsun.Aran zonada İtaliya vengerkası, Vəziri, Adi Vengerka, dağətəyi zonada isə - Yaşıl Renklod, Xurmayi, Vəziri sortları əkilməlidir. Həmin sortlar göstərilən zonalarda daha məhsuldar olurlar.

Ə d ə b i y y a t:

0. Rəcəbli Ə.S. Azərbaycanın meyvə bitkiləri, Bakı, «Azərnəşr», 1966, s.108-112.
0. Тагийев Т.М.Морфология и биологических особенности ценных плодовых сортов Нахичеванской АССР. Тр. КЗОС, Вып. 6. 1969, с.33-48

İSMAYIL SADİQOV
Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN FLORASININ YENİ TAXIL NÖVLƏRİ

Azərbaycan MEA Botanika İnstitutunun herbarisində olan taxıllar fəsiləsinə aid növləri, həmçinin 2000-2004-cü illərdə Naxçıvan MR-in müxtəlif zonalarından topladığımız çoxsaylı herbari materiallarını təhlil edərkən regional flora üçün bir sıra yeni növlər və soğanaqlı qırtıcın yeni coğrafi yayılma sahələri müəyyən edilmişdir.

Bütün ədəbiyyat materiallarına əsasən (Фл.Азерб. I. 1950 müstəsna olmaqla) soğanaqlı qırtıc düzənlikdən

başlamış orta dağ qurşaqlarına kimi yayılmışdır. Lakin apardığımız tədqiqatlardan məlum olmuşdur ki, soğanaqlı qırtıc növünə nəinki orta dağ qurşaqlarında, hətta alp çəmənliklərində də rast gəlmək olur. Belə bir paradoksal hadisəni biz Culfa rayonunun Dəmirli dağda (3200 m dəniz səviyyəsindən yuxarı) və Ordubad rayonunun Göy-göl ətrafında müşahidə etmişik. Soğanaqlı qırtıcın alp çəmənliklərində yayılmasını həmin rayonların təbii-coğrafi şəraiti ilə yanaşı, onun hələ də aşağı zonalara tam uyğunlaşa bilməməsi kimi baxmaq olar.

Örtülü toxumlu bitkilərin dağlıq şəraitdə əmələ gəlməsi (Rojevis, 1947) fərziyyəsinə görə çiçəkli bitkilər o, cümlədən taxılların keçmiş prototipləri, mezofil şəraitdə yüksək dağlıq sahələrdə əmələ gəlmiş və sonrakı geoloji dövrlərdə aşağı zonalara yayılmağa başlamışlar. Görünür ki, soğanaqlı qırtıc növü hələ də aşağı zonalara tam uyğunlaşa bilmir və alp çəmənliklərində geniş yayılaraq bəzən cəngəlliklər əmələ gətirirlər. Burada soğanaqlı qırtıc növünün aşağı və orta dağ qurşaqlarından yüksək dağlıq sahələrə miqrasiya etməsi inkar edilmir.

Naxçıvan MR-in özünə məxsus flora və bitki zənginliyi vardır. Burada taxılların 88 cinsinə aid 235 növünə rast gəlinir. Naxçıvan florası üçün ilk dəfə 5 taxıl cinsi (Anthoxanthum L., Deschampsia Beauv., Lerchenteldia Schur., Chrysopogon Beauv İmperata Cyr.) eyni zamanda 45-ə qədər. bu rayon üçün yeni taxıl növləri (onlardan bir qrupu bu məqalədə göstərilmir.) toplanmışdır.

Aşağıda adları qeyd edilən növlər Naxçıvan florası üçün (Fl. Azerb. I, 1950) məlum olmayan səbəblərə görə göstərilməmişdir.

I. Aegilops L.,

1. A.biuncialis Vis. 1842, Fl, Dalm. I, 2.

Culfa rayonu, Ərəfsə kəndinin ətrafı, Harami dağın quru, daşlı yamaclarında 28, VII 2000. İ.Ə.Sadiqov.

2. A. columnaris Zhuk. Culfa rayonu Ərəfsə kəndi ətrafından 28 VII 2000-ci il. İ.Ə.Sadiqov.

2.Secale L.

3. S.anatolicum Boiss.(S.daralagesi Thun.) 1938, İn Sovetskaya Botan.

Dərələyəz çovdarı növü keçmiş SSRİ florası üçün qeyd edilmədiyi halda A.A.Qrossheym tərəfindən (Опред, раст. Кавк. 1939;716) bu növün yalnız Dərələyəz silsiləsində yayıldığı göstərilmişdir. Bu çovdar növü bir çox morfoloji xüsusiyyətlərinə görə S. kuprijanovii növündən sümbülcüyün çətin qırılması, tökülməsi, yarpaq qınının tükcüksüz olması ilə fərqlənir. Dərələyəz çovdarı növü ola bilsin ki, Secale kuprijanovii növündən təbii seçmə yolu ilə əmələ gəlmişdir (Rojevin, 1947).

Specimina examinata:

1. Naxçıvan, Nehrəm - Dərəşam ətrafı, 31. V 1931, Qaryagin, 2. Transcaucasia, Urmus, İnrup-lapidosis sccisca 1600-1900 mt. 4 VIII 1933, Karyaqin et. J. İsayev; 3. Nachrespublica, prore r. Urmus, in pratis subalpinis siccis 13.VIII 1933., Karyagin; 4. Transcaucasia, Nachrespublica inter r Arafsa et Arazhon, in faucibus 29.VIII 1933, J.Gadzhiev, G.Gurvitsh, U.Ulihavoy;

Naxçıvan, Culfa rayonu, Ərəfsə kəndinin ətrafı, Dəmirli dağın otlu yamaclarında, 15 VII 2001. İ.Ə.Sadiqov.

III. A v e n a L.,

4. Avena eriantha Durieu. 1855, in Ducharte, Rev. Bot.I: 360 Babək rayonu, Qahab kəndinin ətrafı, quru daşlı yamaclarda, 22.VI 1978, S.H.Musayev. Qaraqala ərazisində 17.VII.2002. İ.Ə.Sadiqov.

IV. Helictotrichon Bess.

5. Helictotrichon pratense (L.) Bess. 1827. in Schuit. Maht. veget. 2 Abb., I:52

Şahbuz rayonu, Kükü kəndinin ətrafı (Dərəboğazı), quru otlu yamaclarda 17.VII 2002. İ.Ə.Sadiqov.

V. Deschampsia Beauv.

6.Deschampsia cespitosa (L.) Beauv. 1812. Agrost; 165.

Qaryagin İ.İ. (Fl. Azerb. 1950, I:196) çimli çəmənlicənin yalnız Böyük Qafqaz və Lənkəran qrupu rayonlarında rast gəldiyini göstərdiyi halda, bu növ eyni zamanda Naxçıvan MR-in Qapıcıq dağı ətrafı ərazilərində yayılmışdır.

VI. Milium L.

7. Milium effusum L. 1753, Sp.Pl.:62

Şahbuz rayonu, Biçənək kəndinin ətrafı meşədə 23.VII 1972, S.H.Musayev, Keçili kəndi ətrafında 18.VIII 2003. İ.Ə.Sadiqov.

VII. Anthoxanthum L.

8. Anthoxanthum odoratum L. 1753. Sp. Pl.:28

Ordubad rayonunun. Göy-gölün şimal-şərq sahilində, müxtəlif otluqlarda 27.VII. 2003. İ.Ə.Sadiqov.

VIII. Festuca L.

9.Festuca airoides Lam.(F. supina Schur.) 1866, Enum, Pl. Trans.:784.

Ordubad rayonu, Nəsirvaz kəndi yaxınlığında Gəmiqayanın cənub yamaclarında 4 VII 2001 İ.Ə.Sadiqov.

IX. Poa L.

I0. Poa longifolia Trin. 1836, in Bull. Seient. Pubi. Acad. Sit. Petersb. I:69.

Ordubad rayonu, Göy-gölün şərq sahilində, müxtəlif otluq sahələrdə, 21 VII 2003. İ.Ə.Sadiqov.

X. Stipa L.

11. Stipa arabica Trin. et Rupr. 1842. Sp. Gran. Stip. 77.

Babək rayonunun Çalxanqala ətrafı, quru otlu yamaclarda 18. VI 1974; Buzqov kəndi ətrafında 1980. S.H.Musayev və İ.Ə.Sadiqov.

XI Imperata Cyr.

12. İmerata cylindrica (L)Raeusch. 1912 Aqros.: 165.

Bu növ respublikamızın əksər botaniki-coğrafi rayonlarında geniş yayıldığı halda, Naxçıvan florası üçün qeyd edilmir. Lakin silindirvari hülpə növü Muxtar Respublikanın bir çox ərazilərində rast gəlinir.

Ordubad rayonu, Biləv kəndinin ətrafı, arx kənarında 20.VII.2001. İ.Ə.Sadiqov.

Şərur rayonu, Qarabağlar kəndinin ətrafı, quru daşlı yamaclarda, 23 VIII 2002, İ.Ə.Sadiqov.

Ə d ə b i y y a t:

1. Гроссгейм А.А. Флора Кавказа,Т. I, Баку. 1939
1. Мусайев С.Г. 1974. О распространении некоторых видов злаков в Азербайджане .«ДАН Азерб, ССР», т. 30, №12.
1. Мусайев С.Г. Злаки Азербайджана. Баку, 1991, 420 с.
1. Флоара Азербайджана. Изд-во АН Азерб. Баку, 1950-1961 (тт, I-VIII)
1. Флора СССР. т. 2. Л. 1934
1. Садыгов И.А. 1984, Конспект злаков Нахичеванской АССР. Баку. УДК 582. 52/59/479.24/

XANBALA RÜSTƏMOV,
NAİBƏ ƏLİYEVA
Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN MR – də OTLAQ VƏ BİÇƏNƏKLƏRİN MÜHAFIZƏSINƏ DAIR

Otyeyən heyvanların əhilləşdirilməsi və əkinçilik mədəniyyətinin meydana gəlməsi insanları zülal və karbohidratlarla zəngin qida resursları ilə təmin etmək imkanını yaratmışdır. İnsanların təsərrüfat fəaliyyətinin inkişafı ilə paralel olaraq planetimizdə insanların fasiləsiz və ardıcıl say artımı müşahidə olunmuşdur.Bu proseslər, xüsusəni son yüzilliklər əkinçilik və heyvandarlığın intensivləşdirilməsi və tibb elminin nəaliyyətləri nəticəsində daha da güclənmişdir.

Ötən XX əsrdə və müasir dövrümüzdə insanların say artımının kəskin yüksəlməsi «demoqrafik partlayış» xarakteri daşıyır.Əsrin əvvəlində Yerdə 1,6 mld., 1960 – cı ildə – 3 mld., 1985 – ci ildə demək olar ki, 5 mld. əhali yaşayırdı. Əsrin sonunda əhalinin sayı 6 mld. -a çatmış və elmi proqnozlara əsasən 2016 – cı ildə 8 mld. olacaqdır (6).

Dövlətin iqtisadi inkişafı ənənəvi olaraq adam başına düşən ərzaq və sənaye məhsullarının miqdarı ilə ölçülür. Əhalinin say artımı həmişə enerji istehlakının sürətlə artması, təbii xammal emalının miqyasının yüksəlməsi, aqrofitosenozların genişlənməsi ilə müşayət olunmuşdur. Bəşəriyyətin təbii yaşayış mühitinə təzyiqinin yüksəlməsi əsasən istehsalın həcminin artması ilə əlaqədardır. XX əsrin əvvəllərində ildə istehsal olunan məhsul bəşəriyyətin bütün tarixi boyu yaratdığı istehsala bərabər idi. Əsrin sonunda dünya iqtisadiyyatı cəmi bir gündə yuxarıdakına bərabər məhsul istehsal etmişdir. Bu onu göstərir ki, təsərrüfat fəaliyyətinin həcmi yüz dəfələrlə artmış və intensiv olaraq artmaqda davam edir (4, 6).

İnsanın təsərrüfat fəaliyyətinin təbiətə təsiri cəmiyyətin sosial-iqtisadi inkişafında inqilabi dəyişkənlik dövrlərində kəskin dəyişir. XX əsrin axırlarını Respublikamız müharibə, kəskin siyasi, iqtisadi, sosial və ekoloji problemlərlə qarşıladı. Ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bu problemlərin çözülməsi, planauyğun həlli başlandı. Təbiəti mühafizə qanunvericiliyi, təbii sərvətlərdən səmərəli istifadə və təbiətin mühafizəsinin idarə edilməsi, monitorinqi, ekoloji təhsil və tərbiyənin təməli qoyuldu. Təhsil ocaqlarında və mətbuatda təbiəti mühafizə ideyalarının elmi – populyar izahı, təbliğatı gücləndirildi. 22 may 2004-cü il tarixdə möhtərəm prezidentimiz İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərinin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı" qəbul edilmişdir.

Naxçıvan MR – də keçid dövrü ilə əlaqədar sənaye müəssisələrinin fəaliyyətinin məhdudlaşdırılmasına baxmayaraq ekoloji tarazlıq qənaətbəxş deyil. Son dövrlərdə sərt quraqlıq, k/t heyvanlarının sayının çoxalması, irriqasiya və meliorasiya sistemlərinin primitivliyi, monokultura bölgədə torpaq eroziyasına, səhralaşma, şoranlaşma proseslərinə, biosenozları təşkil edən növlərin sayının azalmasına və ya nəslinin kəsilməsinə səbəb olmuşdur (1, 2).

Naxçıvan MR-də kənd təsərrüfatına yararlı torpaqların, o cümlədən otlaq və biçənək sahələrinin, habelə heyvandarlıqda istifadə olunan yemin strukturunda sənaye üsulu ilə hazırlanmış yüksək qidalı konsentrantların az olması təbii yem sahələrinin normadan artıq yüklənməsinə, onların nəzarətsiz istismarı nəticəsində torpaqların eroziyaya uğramasına və şoranlaşmasına səbəb olur. Muxtar Respublikanın meşə fonduna, su ehtiyatlarına və bütövlükdə ətraf mühitə ciddi ziyan vurur. Heyvandarlığı daha mütərəqqi üsullarla inkişaf etdirmək yolu ilə məhsuldarlığı yüksəltmək, yay-qış otlaqlarının və biçənəklərin mühafizəsini gücləndirmək, onlardan istifadənin səmərəsinin artırmaq və biomüxtəlifliyin qorunub saxlanılmasını təmin etmək məqsədi ilə 27 may 2004-cü ildə Naxçıvan MR Ali Məclisi tərəfindən "Naxçıvan Muxtar Respublikasında yay-qış otlaqlarının, biçənəklərinin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı" qəbul edilmişdir.

Respublikamızda əsrlər boyu əkinçilik və heyvandarlıq ənənəvi təsərrüfat forması olmuşdur. Buna görə də otlaqlarda heyvanların optimal sıxlığının nizamlanması, biçənəklərdən səmərəli istifadə yollarının öyrənilməsi aktual və vacibdir.

Otlaqların tutumunun müəyyən edilməsində 2 parametrin böyük əhəmiyyəti vardır : 1) otlaqların ilkin məhsuldarlığı ; 2) xalis məhsulun miqdarı. İlkin məhsuldarlıq yağıntıların miqdarından xətti asılıdır. Biosenozda, xüsusən əlverişsiz iqlim şəraitində yüksək məhsuldarlığı təmin etmək üçün sərf olunan xalis məhsulun illik miqdarı tənzimlənməlidir. Məlumdur ki, heyvanlar müxtəlif növ bitkiləri yeməkdə seçicilik göstərirlər. Ona görə də, otlaqların düzgün istismar olunmasını təyin etmək üçün indikator növlərdən istifadə etmək lazımdır. Xüsusən, sayının azalması otlaqların həddindən çox otarılmasında siqnal rolunu oynayan bitkilərin uçotu daha səmərəlidir. Əgər bu siqnala diqqət yetirilməzsə, qısa müddətdə otlaqlarda yeyilməyən birillik alaq otları və səhralar üçün xarakterik olan yovşan,

dəvətikanı, saksaul və s. bitkilər üstünlük təşkil edirlər. Əgər həddən artıq otarılma davam edərsə nəticədə səhralaşma prosesi başlanır və ərazidə gəmirici və çəyirtkəkimilərin miqdarı yüksəlir (3, 4, 5, 6,).

Həddindən çox otarılma nəticəsində torpağın münbitliyinin azalması, üst qatının tapdalanması, sıxlaşması müşahidə olunur. Tapdalanmanın nəticəsində ekosistemin bir hissəsi olan və biogen maddələri regenerasiya edən orqanizmlərin normal fəaliyyəti pozulur. Bu isə öz növbəsində ekosistemlərin ümumi məhsuldarlığının aşağı düşməsinə səbəb olur. Otlaqlarda yeyilməyən, zəhərli bitkilərlə mübarizədə yanğınlardan istifadə nəticəsində biosenozda mikroorqanizm və faydalı həşaratların fəaliyyəti pisləşir (3, 4).

Heyvandarlığın yem bazasını təmin etməkdə təbii biçənəklərin rolu böyükdür. Bu sahələrin uzun müddət toxumların fizioloji yetişməsindən əvvəl biçilməsi torpaqda toxum ehtiyatının azalmasına, bitkilərin növ tərkibinin kasıblaşmasına gətirib çıxarır. Təbiət boşluğu sevmir. Qiymətli, yüksək yem keyfiyyətinə malik taxıl və paxlalı bitkilərin yerini yeyilməyən, aşağı yem keyfiyyətinə malik evribiont alaq otları tutur. Ərazilərin yazda otlaq, sonra biçənək kimi istifadə olunması da məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Konkret ərazinin uzun müddət və fasiləsiz biçənək kimi istifadə olunması torpaq münbitliyinin azalmasına və eroziyalara səbəb olur (3, 4).

Naxçıvan MR – də otlaq və biçənəklərdən səmərəli istifadə olunması və optimal məhsuldarlığın saxlanılması üçün aşağıdakı tədbirləri həyata keçirmək məqsədəuyğundur:

1. Otlaqlarda ilkin məhsuldarlığı və xalis məhsulun payını təmin etmək üçün k/t heyvanlarının optimal sıxlığı konkret ekoloji şəraitə uyğun olmalıdır.

2. Yerli özünüidarə orqanları və mütəxəssislərin köməkliyi ilə ərazilərin növbə ilə yaz, yay, qış otlaqları və biçənək kimi istifadəsini təmin etmək lazımdır. Belə növbələşmə ərazidə bitkilərin növmüxtəlifliyinin –

genofondunun, torpağın münbitliyinin qorunub saxlanması üçün əvəz edilməzdir.

3. Suvarılan otlaq və biçənəklərdə torpağın şoranlaşmasına, bataqlığa çevrilməsinə və yanğınlara qarşı mühafizə tədbirləri aparılmalıdır.

4. K/t heyvanlarının tövlə şəraitində bəslənilməsi üçün dənli – paxlalı bitkilərdən istifadə etməklə (yaşıl konveyer) yem bazasını gücləndirməli ; yem rasionunda kombinə edilmiş, şirəli yemlərdən daha çox istifadə olunmalıdır.

5. Orta və ali təhsil ocaqlarında ekologiya və təbiətin mühafizəsi fənlərinin tədris proqramları optimallaşdırılmalı, əhaliyə ekoloji mədəniyyət və təbiətin qorunması ideyalarının aşılanması üçün elmi – populyar seminar və digər tədbirlər həyata keçirilməlidir.

İnsan ona lazım olan hər cür neməti, istehlak mallarını təbiətdən alır. Buna görə də o, əməyinin, gəlirinin müəyyən bir hissəsini həmişə təbii sərvətlərin bərpasına sərf etməli və ondan şüurlu surətdə və səmərəli istifadə etməlidir.

Ədəbiyyat:

0. İbrahimov Ə.Ş. İbrahimov B.Ş. Naxçıvan MR – də mezofil subalp çəmənlərinin növ tərkibinə və məhsuldarlığına antropogen faktorların təsiri. Naxçıvan MR – də ekoloji tarazlıq və onun mühafizəsi. Naxçıvan, «Qeyrət», 1999, s. 52-56
0. Talıbov T.H. Naxçıvan MR – in flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması Bakı, «Elm» , 2001, 191 s.
0. Воронов А.Г. Геоботаника. М., «Высшая школа», 1973, 383 с.
0. Одум Ю. Основы экологии. М., «Мир», 1975, 740 с.
0. Основы общей биологии /Под ред. Э. Либерта. М., «Мир», 1982, 437с.
0. Розанов С.И. Обшая экология. СПб., «Лань», 2001, 288 с.

MUSA PİRİYEV
Naxçıvan Dövlət Universiteti

ANDIZ BİTKİSİNİN BİOLOGİYASI VƏ ƏHƏMİYYƏTİ

Ədəbiyyat materiallarına əsasən Asterkimilər Asteraceae Dumort. fəsiləsinə daxil olan andız İnula L. cinsinin Yer kürəsində 120, Qafqazda 19, Aəzərbaycanda 13 növü yayılmışdır(2). Bunlara aşağıdakı növlər daxildir:

0. İnula acaulis Schott et Kotschy ex Boiss. – Gövdəsiz andız
0. İ.aspera Poir. – Dağınıq a.
0. İ.auriculata Boiss. et Bal. -- Qulaqvari a.
0. İ.britanica L. – Britaniya a..
0. İ.caspica Blum ex Ledeb. -- Xəzər a.
0. İ. conyza DC. (İ.vulgaris Trevis.) – Adi a.
0. İ.germanica L. – Alman a.
0. İ. grandiflora Willd. -- İriçiçək a.
0. İ.helenium L. – Uca a.
0. İ.mariae Bordz. – Maria a.
0. İ. montbretiana DC. – Mənbirə a.
0. İ. oculus – christi L. – Gözvari a.
0. İ. orientalis Lam. – Şərq a.

Adi, iriçiçək, Şərq və Xəzər andızından başqa qalan növlərə Naxçıvan Muxtar
Respublikasında rast gəlinir. Bu növlərdən uca andızı mədəni kulturada becərərək fenoloji müşahidələr aparmışıq. Təcrübə iki yerdə Şahbuz kəndində həyətyanı sahədə və Naxçıvan Dövlət Universitetinin tədris-təcrübə sahəsində aparılmışdır.

Andız xalq təbabətində çox qədimdən istifadə edilməyə başlanmışdır. Bu bitkinin əhəmiyyəti haqqında məlumatlara eramızdan 460 il əvvəlki yazılı mənbələrə rast gəlmək olur. Tarixi məlumatlarda bu bitkidə doqquz dəvənin gücü olduğu qeyd edilir. Buna görə də ruslar bu bitkini «Devyasil» adlandırırlar. Qədim Romada andızın

köklərindən həm qida kimi, həm də müalicə məqsədi üçün istifadə etmişlər. Qiymətli bitki olduğundan üçün bir sıra ölkələrdə mədəni kulturada becərilir. Torpağın münbitliyinə çox da tələbkar deyil. Lakin qida mühitini zənginləşdirdikdə böyümə və inkişaf daha sürətli gedir. Şahbuz kənddə payızda və yazda torpağa peyin verildikdə bitkinin hündürlüyü 2,3 m, yarpaq ayasının uzunluğu 80 sm-ə çatır. Yüksək kollanma əmələ gətirir, üzərində olan tükcüklərin miqdarı azalır, rəngi yaşıllaşır, fotosintez qabiliyyəti yüksəlir. Bunun nəticəsində birillik bitki 1,2 kq kökümsov gövdə əmələ gətirir. Uca andız çoxillik ot bitkisi olub,ətli kökümsov gövdəyə və yoğun kökə malikdir. Kökləri bozumtul – qonur rənglidir. Dərman məqsədilə və qida kimi köklərindən istifadə edilir.

Köklərinin tərkibində 1-3 % efir yağı vardır. Köklərində müəyyən miqdarda saponinin də olduğu müəyyən edilmişdir. Andızdakı əsas qiymətli maddə inulindir ki, qurudulmuş köklərdə bunun miqdarı 40 % - ə çatır. İnulin 1804 – cü ildə ilk dəfə andız bitkisinin köklərindən alınmışdır (1). Andızda olan efir yağları və onda olan alantolakton maddəsi bakterisid və qurdqovucu təsirə malikdir. Köklərindən müasir təbabətdə tənəffüs yollarının iltihabında yumşaldıcı və bəlğəmgətirici kimi istifadə edilir. Bundan əlavə ödqovucu çayın tərkibinə də daxil edilir.

Xalq təbabətində yarpaqlarından dəri xəstəliklərinin müalicəsində və yaraların sağaldılmasında istifadə edilir. Andızın köklərindən dəmləmə kimi istifadə etdikdə maddələr mübadiləsi yaxşılaşır, mədədə turşuluğun miqdarı azalır.

Uca andız toxum və kökümsov gövdə vasitəsilə artırıla bilər. İlk dəfə biz 2001 – ci ilin oktyabr ayının 10 – da toxumları və kökümsov gövdələri əkdik, lakin, toxumlardan cücərti ala bilmədik. Bəzi aqrotexniki dəyişiklikdən sonra 2002 – ci ildə əkinlər toxumlardan 50 % cücərti alındı. Toxumla artırılması çətin olduğundan, kökümsov gövdələrlə artırılmasını tövsiyyə edirik. Yuxarıda göstərilən vaxt kökümsov gövdələr torpağa bastırılmış və inkişaf dinamikası izlənmişdir. Aydın olmuşdur ki, kökümsov gövdədən ilk

çıxan sərbəst yarpaqlardır. Bunlar burulmuş şəkildə olub, üzəri sıx tüklərlə örtülü olur. Aprel ayının birinci ongünlüyündə sərbəst yarpaqların kütləvi açılışı, 12 - si apreldə isə ilk gövdə əmələ gəlməyə başlanır. 2003 – cü ildə qış çox sərt keçdiyindən 10 mayda gövdə əmələ gəlmə başlandı. Göründüyü kimi temperaturdan asılı olaraq, gövdə əmələ gəlmə 12 aprel – 10 may arasında dəyişə bilər. Gövdə yarpaqları uca andızda sərbəstdir, yəni gövdəni qucaqlamır. Buna görə də enli yarpaqlar aşağıya doğru getdikcə ensizləşir və nəhayət gövdəyə çatmağa 10 – 15 sm qalmış ətli saplaq əmələ gətirir. Bu saplaqların eni 1 – 1,5 sm - ə bərabər olur. İlk yazda qısa müddət ərzində güclü yaşıl kütlə əmələ gətirmə müşahidə olunur. Gövdə inkişaf etdikdən sonra yarpaqların inkişafı zəifləyir, yoğun ətli hündür boylu (2-2,3 m ucalığında) gövdələr əmələ gəlir və sarı çiçək açaraq toxum verir. Məhsulun toplanması toxum əmələ gələnə qədər başa çatdırıla bilər. Çıxarılan kökümsov gövdələrdən əkin materialı götürüldükdən sonra qalanları emal üçün hazırlanır. Kökümsov gövdəni torpağa bastırılmış ilk yazda çıxardaraq üzərindəki tumurcuqları nəzərdən keçirilmişdir. Məlum olmuşdur ki bir gövdə üzərində 16 gözcük inkişaf edir. Deməli bir kökümsov gövdəni əkin zamanı onlarla hissəyə bölmək mümkündür. Məhz buna görə də iqtisadi baxımdan toxumla yox kökümsovla artırılması məqsədəuyğundur.

Andızın kökümsov gövdəsindən başqa yoğun kökü vardır. Kökləri bozumtul-qonur, daxildən isə qonur rəngli nöqtələrlə örtülmüş sarımtıl ağ rənglidir. Kökləri xoş qoxu verir. Köklərin inkişaf dinamikası da izlənilmiş, məlum olmuşdur ki, Şahbuzda əkilmiş bitkilərin köklərinin çəkisi Naxçıvan şəhərində əkilmiş bitkilərin köklərinin çəkisindən 1,5 dəfə artıqdır. Bitkilər suya yüksək dərəcədə tələbkardır. Bol su verdikdə köklərlə yanaşı yaşıl kütlənin də çəkisi artır.Suvarma suyunu azaltdıqda bitkilərin demiyə yaşayışa uyğunlaşma əlaməti surətlə işə düşür, sərbəst yarpaqlar tez bir zamanda saralır. yeni əmələ gələn yarpaqlarda

tükcüklərin miqdarı artır, çiçəkləmə sürətlənir. Normal su ilə təmin etdikdə sərbəst yarpaqların uzunluğu 80 sm - ə çatır, bunun yarısını saplaq təşkil edir Gövdə yarapqları isə qismən qısa 50 – 55 sm olur. Bunlarda saplaqların qısa olmasına baxmayaraq, yarpağın eni bəzən sərbəst yarpağın enindən artıq olur. İlk yazda inkişaf sürəti başqa gövdələrə nisbətən artıq olur. Bu onu göstərir ki, yabanı və demiyyə şəraitdə uzun illər yaşadığından uyğunlaşma əldə etmişdir ki, yaz yağışlarından maksimum faydalansın. Halbuki uzun illər mədəni şəraitdə becərilən digər bitkilərdə bu əlamət yox dərəcəsindədir.

Tempratura qarşı çox da tələbkar deyil. Vegetasiya prosesini müqayisəli şəkildə öyrənmək məqsədilə, eyni vaxtda Şahbuzda və Naxçıvan şəhərində kökümsovər əkilmişdir. Naxçıvanda əkilən bitkilərdə gövdə əmələ gəlmə, Şahbuzdan erkən başlamışdır. Sonra Naxçıvanda havaların isti olması bitkinin inkişafına mənfi təsir göstərmişdir. Naxçıvanda su problemi olmadığı halda boyları çox da hündürə qalxmayaraq çiçəkləyib toxum verdi. Şahbuzda isə daha yoğun gövdəli və hündürboylu bitkilər əmələ gəlmişdir. Tövsiyyə edilir ki, bu bitkinin dağlıq zonada becərilməsi vacibdir. Təbii olaraq andız geniş yayılmış bitki hesab edilir. Lakin sənayedə istifadə edilərsə bu yetərli deyil. Aşağıda göstərilən müsbət keyfiyyətlərinə görə sənayedə istifadə olunması tövsiyyə edilir.

Andızın köklərində çox miqdarda inulin vardır. Andız köklərində makroelementlərdən kalium - 14,5, kalsium - 7,4, maqnezium -1,9, dəmir - 0,5 mq/q, mikroelementlərdən manqan – 0,11, mis – 0,38, sink – 0,27, molibden – 0,011, xrom – 0,04, alminium – 0,4, vanadium – 0,15, selen – 10, nikkel – 0,14,stronsium – 0,15, qurğuşun – 0,05, yod – 0,013, brom – 14,4 mkq / q – dır (3).

Yaşıl kütləsindən də müxtəlif məqsədlər üçün kiplənərək yanacaq, siloslaşdıraraq yem, emal edərək kağız və s. kimi istifadə etmək olar.

Ədəbiyyat:

0. Dəmirov İ., Şükürov C. Azərbaycanın dərman bitkiləri. Bakı,Azərnəşr, 1976, 124 s.
0. Talıbov T.H. Naxçıvan MR – in flora biomüxtəlifliyi, onun səmərəli istifadəsi və qorunması. Bio. elm. dok. almaq üçün təqdim edilən diss. Avtoreferat. Elm, Bakı, 2003, 63 s.
1. Гончарова Т.А. Енциклопедия лекарственных растений. Медицина М, 1997, 529 с.

ƏLİ MƏMMƏDOV
Naxçıvan Dövlət Universiteti

NALBƏND AĞACI NAXÇIVANIN GÖZƏL BƏZƏK BİTKİSİDİR

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarı üçün yaşıllıqların artırılması daha çox əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi, müxtəlif iqlim və torpaq şəraiti burada özünəməxsus bitki növlərinin yayılmasına səbəb olmuşdur.

Yerli ağac bitkisi növlərindən biri Naxçıvanın nadir, orijinal və gözəl bəzək bitkisi olan Nalbənd ağacıdır. Nalbənd ağacı növü (Ulmus densa) Qaraağac fəsiləsinin (Ulmaceae) Qaraağac cinsinə (Ulmus) aiddir. Bu ağac sıx kürə (şar) şəkilli çətirə malik gözəl dekorativ bitkidir, hündürlüyü 15-20 metrə qədər çatır. Yarpaqları çətirin kənar səthində daha sıx yerləşirlər. Onlar hətta eyni bir zoğda ölçüsünə və hüdudlarına görə kəskin fərqlənə bilirlər. Bu onlara işığa görə daha əlverişli yerləşməyə və bütöv yarpaq mozaikası örtüyü əmələ gətirməyə imkan verir. Yarpaq ayası sıx ətli, dərivari olmaqla uzunsov-yumurtaşəkilli və ya uzunsov-lansetşəkillidir.

Ayanın qaidə hissəsi dairəvi-pazşəkilli, təpəsi itiləşmiş, kənarları ikiqat mişarvari dişli, alt və üst tərəfləri çılpaq olur. Onun üst səthi tutqun yaşıl, alt səthi isə açıq yaşıl rəngli olur. Yarpaq asimmetrikdir, çünki onun mərkəz damarı yarpaq

ayasını iki simmetrik hissəyə ayıra bilmir. Ayanın bir yarısı saplağa doğru, digər yarısı isə yarpağın ucuna doğru dartılmış kimi görünür. Yaxşı inkişaf edən zoğlarda yarpaq ayasının uzunluğu orta hesabla 12,6 sm, eni 7,4 sın, yarpaq saplağının ölçüsü isə 1-2 sm olur. Yarpaqların belə forma və ölçülərə malik olması ağacın çətrinin yarpaqlarla örtülü səthində çox zəif hava cərəyanında və hətta belə durğun havada yarpaqların dalğavari ləpənməsinə səbəb olur. Yarpaq ayasının damarlanması tipik lələkvaridir. Orta damar güclü, yan damarlar isə qısa olub adətən yarpaq dişciklərində qurtarırlar. Damarlar üzərində sadə tükcüklər olur. Yarpağın alt dəricik qatı 4-5 künclü parenxim hüceyrələrdən ibarətdir. Ağızcıqlar sıx yerləşir. Qonşu ağızcıqlar arasında 2-3 ədəd parenxim tipli adi dəricik hüceyrələri yerləşir. Bəzi yarpaqların əsas ayasının saplağa keçən qaidə hissəsinin yanında uzunu 2,5 sm, eni 1,5 sm ölçüdə ayası olan kiçik yarpaq da əmələ gəlir. bundan başqa zoğda yarpaqaltlıqları da inkişaf etmişdir. Yarpaqlar zoğ üzərində ikicərgəli növbəli yerləşir. Nalbənd ağacının yarpaqları qışqabağı tökülür.

Ağacın çətrində zoğ əmələ gətirmə intensiv gedir. Bəzən bir nöqtədən 2-4 zoğ çıxır. Buna görə çətir sıx şar şəklini alır.

Çiçəkləri ikicinslidir, 4-8 bölümlüdür. Erkəkciklər 4-dür. Dişicik üst yumurtalıqlıdır, 2 ağızcığı vardır. Qanadlı meyvəsi yastıdır, uzunsov-tərsinə yumurtaşəkillidir, uzunu 20, eni 12 mm olur, ayaqcıqlıdır.

Calaq edilməklə vegetativ yolla artırılmış Nalbənd ağacında əmələ gələn qanadlı meyvələrin toxumları adətən cücərmə qabiliyyətinə malik olmur və buna görə də Nalbənd ağacının toxumlarla çoxaldılması mümkün deyil.

Nalbənd ağacının çətrinin təbii olaraq şar şəklində olması ona gözəl dekorativ görünüş verir. Küçə və meydança ətrafında belə şar şəkilli çətirli ağacların cərgələnməsi diqqəti cəlb edən mənzərə yaradır. Çətri sıx budaqlanıb və sıx yarpaqlandığından ağac yerə yaxşı kölgə salır. Günəş şüaları onun sıx çətrindən keçə bilmir. İsti yay vaxtı belə kölgə

olduqca sərin olur. İri Nalbənd ağaclarının kölgəsindən təbii tarla düşərgəsi kimi istifadə etmək çox əlverişlidir. Çətir sıx olduğundan və yarpaqların çətrin xarici səthi üzərində örtük kimi yerləşməsi nəticəsində şiddətli yağış suları da ağacın dibinə, çətrin tutduğu sahəyə çox az düşə bilir. Belə təbii daldalanacaq isə tarla şəraitində çalışanlar üçün yağış, dolu yağan zaman çox gərəkli olur. Balaca quşlar öz təbii düşmənlərindən bu ağacın sıx çətrinə girib gizlənməklə mühafizə olunurlar.

Nalbənd ağacı quraqlığa, şaxtaya davamlı və torpağa az tələbkardır. Ona görə quraq rayonlarda bu ağacın əkilib becərilməsi və yaşıllaşdırma işlərində tətbiqi olduqca əlverişlidir. Ağac uzun ömürlüdür. Ümumiyyətlə, qaraağac 300 ilə qədər yaşaya bilir.

Naxçıvan diyarında bu ağaca Nalbənd ağacı, həm də Narbənd ağacı deyənlər vardır. Birinci ad rəvayətə görə onunla əlaqədardır ki, Nalbənd, yəni minik, qoşqu və yük heyvanlarını nallayan usta adətən həmin heyvanları qızmar aylarda bu ağacın geniş və sərin kölgəsində nallayarmış. Ağacın latın dilindəki Ulmus densa adı isə sıxçətir qaraağac mənasını ifadə edir. Azərbaycan florası kitabının üçüncü cildində də (1952-ci il) növün adı Nalbənd ağacı kimi verilmişdir. Biz də onun adının Nalbənd ağacı kimi göstərilməsini lazım bildik.

Nalbənd ağacının Naxçıvan Muxtar Respublikası üçün gözəl dekorativ bitki olduğunu nəzərə alaraq biz 1972-ci ildən başlayaraq bu bitkinin Naxçıvn Dövlət Universitetinin ərazisində artırılıb becərilməsi üzrə müəyyən təcrübə və muşahidə işləri aparmışıq.

Nalbənd ağacını qaraağac bitkisinə calaq etməklə artırmaq olur. Qaraağac bitkisi toxumları, kök və kötük pöhrələri ilə artır. Nalbənd ağacı yetişdirmək üçün kök pöhrələrindən əmələ gələn cavan qaraağac tinglərini bir sahədə əkməklə biz cırlardan ibarət tinglik yaratdıq. Nalbənd ağacının yazdan başlayaraq yaya qədər formalaşmış yeni zoğlarında əmələ gələn qoltuq tumurcuqları ilə iyul ayı ərzində qaraağacın cır

tingləri üzərində göz calağı apardıq. Sağlam, gövdə qabığı hamar, diametri 0,5-1,5 sm olan calaqaltılar göz calağı vurmağa yararlı olur. Calaqaltıda qabıq oduncaqdan asanlıqla ayrılan dövrdə göz calağına başlamalıdır. İyulun əvvəlindən avqustun birinci yarısına qədərki dövr ən yaxşı vaxt hesab olunur. Qabıq oduncaqdan çətin ayrılsa o zaman calaqaltılar becərilən sahəni boluca suvarmaq lazım gəlir. Yayda göz calağı vurulduqdan 2-3 həftə sonra calanmış gözlərin tutub-tutmamasını yoxlamaq lazımdır. Bunun üçün calanmış gözün yarpaq saplağına barmaqla toxunurlar. Əgər saplaq asanca düşərsə, calaq tutmuşdur. Əksinə olaraq saplaq düşməyib quruyub qalarsa calaq tutmamış olur. Vurulan göz tutmamış calaqaltılara yenidən calaq vurulur. Adətən, yayda calanıb tutmuş gözlər gələn ilin yazınadək yatmış halda saxlanılır. Lakin yaxşı becərilmə və sürətli inkişaf şəraitində göz calağı edilmiş yerdən 10-15 sm yuxarıdan cır zoğ hissəsinin kəsilib atılması ilə gözləri elə həmin yaydaca ayıltmaq olur.

Erkən yazda qaraağacın cır tinglərinə qələm calağı edilməklə də Nalbənd ağacını artırmaq yaxşı nəticə verir. Calaq edilmiş tinglərə sonralar yaxşı qulluq edilməklə onlara həm də düzgün forma verilməlidir. Elə etmək lazımdır ki, şar şəkilli çətir yer səthindən 1,7-2 m hündürlüyü olan ştamb üzərində əmələ gəlsin. Belə olduqda ağaclar daha yaraşıqlı və onun kölgəsindən istifadə rahat olur. Nalbənd ağacı tinglərini daimi yerlərinə cərgə ilə əkərkən 10 metrdən bir ting əkilməlidir. Bitki arası bundan az saxlandıqda çətirlər bir-birinə qovuşur və çətir şar şəklini ala bilmir. Universitet həyətində 30 il bundan əvvəl yetişdirdiyimiz Nalbənd ağacları gözəl forma almış, gövdə dairəsinin ölçüsü 60 sm, çətrin diametri isə 6-8 metrə çatmışdır.

Nalbənd ağacının gözəl dekorativ bitki olduğunu nəzərə alaraq, onun Naxçıvan şəhərinin, rayon mərkəzlərinin və digər yaşayış məntəqələrinin ərazilərində xüsusilə, Naxçıvan Hava Limanının müvafiq yerlərində əkilməsi daha vacibdir.

Ədəbiyyat:

1. Еленевский А.Г., Соловева М.П., Тихомиров Б.Н. – Семейство вйазовые, или Ильмовые (Ulmaceae) – Ботаника. Систематика высших, или наземных растений. М. 2001.
0. Жилин С.Г. – Семейство Ильмовые – Жизнь растений т. 5 (Ы). М. 1980.
0. Жуковский П.М. – Прививки (трансплантация) – Ботаника. М. 1982.
0. Прилипко Л.И. –Семейство Ильмовые. Вяз густой – Nalbənd.– Флора Азербайджана, Т. 3, Б. 1952.

DAŞQIN QƏNBƏROV
Naxçıvan Dövlət Universiteti

ARAZBOYU DÜZƏNLİK ZONASININ EPİGEY ŞİBYƏLƏRİN İNDİKATORLUQ XÜSUSİYYƏTLƏRİ

Son illərdə respublikamızda ekologiyanın effektivliyinin, bioloji müxtəlifliyinin, davamlılığının və ekoloji sistemlərin strukturlarının mühafizəsinə xüsusi diqqət və qayğı göstərilir. Antropogen fəaliyyətlə ətraf mühitin sıx əlaqəsi nəticəsində landşaftın, atmosferin, suların, torpaq və bitki örtüyünün təbii vəziyyəti xeyli dəyişmişdir.

Hələ çox qədim dövrlərdən bu və ya digər ərazinin torpaq-iqlim şəraitinin, bitki örtüyünün və heyvanlar aləminin ümumi vəziyyətinin müəyyən edilməsi, öyrənilməsi məqsədilə müxtəlif üsullardan istifadə olunmuşdur. Bu sahədə bəzi yabanı bitkilərdən indikator kimi istifadə edilməsi təcrübəsi elmə çoxdan məlumdur.

Şibyələr ətraf mühit faktorlarına tələbkar deyil, lakin ekoloji cəhətdən təmiz olmayan ərazilərdə bu bitkilərə rast gəlmək də qeyri mümkündür. Bütün en dairələrində, səhralardan başlayaraq yüksək dağ zirvələrinədək, ekvatordan qütblərə qədər digər bitkilərin yaşaya bilmədikləri çılpaq qayalarda, ağacların üzərində, dam örtüklərində və s. bu kimi

müxtəlif yerlərdə yaşamaq yalnız şibyələrə məxsusdur. İri sənaye mərkəzlərində zavod və fabriklərin ətrafında şibyələrə rast gəlinmir, lakin bu ərazilərdən uzaqlaşdıqca ekoloji cəhətdən təmiz yerlərdə, qayalar üzərində çox müxtəlif rəng çalarlarına malik fon əmələ gətirirlər. Atmosferin az çirklənməsi digər bitki qruplarına təsir etmədiyi halda, şibyələrin kütləvi məhvinə səbəb olur.

Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, havanın çirklənməsi zamanı ilk olaraq kolşəkilli, sonra yarpaqşəkilli və nəhayət qazmaqvari növlər məhv olurlar. Bu da ayrı-ayrılıqda növlərin çirklənmə dərəcəsinə verdiyi cavab reaksiyasıdır. Şibyələrin tolerantlığını (dözümlülük) həmçinin onların yayılma areallarının genişliyi ilə də müəyyən etmək mümkündür (5).

Bitkilərdən indikator kimi istifadə etmək məqsədilə əvvəlcədən indikasiya
nişanələrini müəyyən etmək lazımdır. Hər bir zona və zona daxilində ayrı-ayrı bitki qruplaşmaları üçün nişanələr öyrənilməlidir.

Naxçıvan MR ərazisində Arazboyu düzənlikdə geniş yayılmış şoran torpaqların indikator şibyələri *Diploschistes seruposus* və *Fulgensia fulgens* növləridir. Tallom və meyvə cismi üzərindəki ağımtıl işartıya görə şoranlaşmış ərazilərin sərhəddini təyin etmək mümkündür. Şoranlaşma dərəcəsi azaldıqca ağ işartılı şibyələr qara meyvə cismi olan növlərlə əvəz olunur (1,2,3).

Naxçıvan MR ərazisində aparılan tədqiqatlar zamanı məlum olmuşdur ki, müəyyən şibyə növləri ayrı-ayrı bitki assosasiyaları üçün səciyyəvidir. İndikator göstəriciləri müxtəlif ola bilər. Kserokontinental şəraitdə kolvari şibyələrin tallom lövhəcikləri boru şəklində daxilə doğru bükülərək qıvrımlaşır. Şoranlaşmış torpaqlarda qaraşoranlı formasiyalarda qazmaqvari və pulcuq formalı həyati formalar, taxıllı-şiyavlı az şoranlaşmış ərazilər üçün qazmaqvari növlər səciyyəvidir. Kolşəkilli növlərin olduğu yerlərdə şoranlaşma səviyyəsi aşağı olur.

Torpaq tiplərinin müəyyən edilməsində şibyələr ən mükəmməl indikator sayıla bilər. Gilli, gilqarışıqlı zəif qələvili torpaqlarda əsasən mavi-qara toniniya *Toninia coeruleonigricans* əsas göstəricidir. Əhəngli və karbonatlı torpaqların indikator növü qızılı kondelariyella *Candelariella aurella*-dır, gipsli torpaqların göstəricisi kimi batıq telosşistesi *Teloschistes lacunosus*-u göstərmək olar. *Parmelia vaqans və P.russolea* isə gilli karbonatlı torpaqların indikatorlarıdır. Tədqiqatlar zamanı müəyyən edilmişdir ki, zəif şoranlaşmış boz-qonur torpaqlarda əsasən ciyər endopireniumu *Endopyrenium hepaticum*-a rast gəlinir.

Tədqiqatlar zamanı müəyyən edilmişdir ki, Naxçıvan şəhəri və ona yaxın ərazilərdə olan alçaq təpəlik və düzənliklərdə tez-tez rast gəlinən əsasən tolerant epigeyləridir. Bunlardan *Collema crispum, Psora decipiens, Toninia coeruleonigricans, Lecanora muralis* və s. göstərmək olar. Bu zona üçün xarakterik olan kiçik daşlar üzərində yayılmış, nazik talloma malik qazmaqvari epilitlərdən *Lecidea immersa, Lecanora cenisea, L.rupicola; Aspicilia desertorum, Acorospora oligospora* növlərini qeyd etmək lazımdır.

Yuxarıda qeyd edilmiş növlərin əksəriyyəti kalsium karbonatla zəngin olan torpaqların yayıldığı ərazilərdə rast gəlindiyindən bu növləri həmin torpaqların indikatorları hesab etmək olar.

İlin fəsillərindən asılı olmayaraq şibyələrdə rəng dəyişgənliyi müəyyən edilmir. Buna görə də bu bitkilərdən indikator kimi ilin bütün fəsillərində istifadə etmək mümkündür.

Ə d ə b i y y a t:

1. Бархалов Ш.О. Флора лишайников Кавказа. Баку, Элм, 1983,с.338.
2. Новрузов В.С. Флорогенетический анализ лишайников Большого Кавказа и вопросы их охраны. Баку, Элм 1990, с.323.
3. Novruzov E.A. Qarayazı Dövlət qoruğu ərazisində təbii və aqroekosistemlərin epifit sinuziyaları, onların ekoloji

monitorinqdə istifadə olunması. Avtoreferat b.e.n. Bakı, 2004, s.30.
0. Paşayev T.Y., Qənbərov D.Ş. Naxçıvan MR-in yeni şibyə növləri. Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyətinin, təbii sərvətlərinin öyrənilməsi. Bakı, Elm, 2004, s.189-193.
0. Закутнова В.И. Эпифитные лишайники как индикаторы загрязнения атмосферного воздуха. Изв. АН Аз ССР, Сер. Биол. 1988, №4, с.122-128.

HAMLET NƏZƏROV
Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN MR-DA QOZ BİTKİSİNİN BƏZİ BİOLOJİ XÜSUSİYYƏTLƏRİ

Naxçıvanın kənd əhalisi qədim dövrdən meyvəçiliklə məşğul olmağa başlamışdır. O dövrdə bu sahə kənd təsərrüfatında daha əhəmiyyətli bir yer tutmuşdur. Naxçıvanda aparılan qazıntılar nəticəsində müəyyən edilmişdir ki, burada qədim əsrlərdən (500-600 il eramızdan əvvəl) meyvə bitkiləri artırılmağa başlamışdır. Qiymətli meyvə bitkilərindən biri olan qoz bitkisi də Naxçıvanın ərazisində geniş yayılmışdır. Ordubad, Culfa və Şahbuz rayonlarında qozun bütün dünyada məşhur olan nazik qabıqlı, ağ doluləpəli, yağ faizi yüksək olan sort-formaları vardır.

Qozun meyvələrindən, yaşıl yarpağından, çiçəklərindən, oduncağından, meyvəsinin yağından, göy meyvəsindən konserv sənayesində, təbabətdə, şirniyyat məmulatlarının istehsalında, mebel sənayesində istifadə edilir.

Muxtar respublikada qoz ağacları dağ ətəklərində, çay vadilərində, sulu dərələrdə, yolların kənarında bağların ətrafında, həyatyani sahələrdə ən çox Ordubad rayonunun Gənzə, Anabat, Dırnıs, Vənənd, Üstupu, Nüs-nüs, Çənnəb, Biləv, Əndəmic, Bist, Nəsirvaz, Əylis, Parağaçay, Şahbuz rayonunun Kükü, Külüs, Keçili, Aşağı Qışlaq, Yuxarı Qışlaq,

Remeşin, Kolanı, Culfa rayonunun Ərəfsə, Qazançı, Xanağa, Əbrəqunus, Babək rayonunun Badamlı, Buzqov, Çalxanqala, Payız, Şərur rayonunun Axura, Yaycı, Tənənəm və s. kəndlərində geniş yayılmışdır. Azərbaycanda artırılan qoz sortlarının ən qiymətlisi Ordubad qozu hesab edilir. Ədəbiyyatda olan məlumata görə Amerikada geniş yayılmış «Evrika» və «Kağızı» qoz sortları vaxtı ilə Ordubaddan aparılmış Amerikada artırılaraq orada və oradan da Avropaya yayılmışdır (1,4). Naxçıvanda olan qoz ağaclarının hündürlüyü 5-30 metrə, ştampın diametri 1-2,5 metrə çatır, 100-500 yaşda olan ağaclar az deyildir. Hər ağacdan 200 - 500 kq-dək meyvə alınır. Bir kq-da 80-150-yə qədər meyvə olur. Qoz çiçəklilər sırasına, qoz kimilər fəsiləsinə, adi qoz – Juqlans qeqia növünə məhsub olan çoxillik ağac bitkisidir. Ağacının hündürlüyü 20-40 m, diametri 1-2,5 m olur. Çox dərinə, yanlara gedən qüvvətli kökləri vardır. Budaqları iri olub, ətrafa yayılır. Yarpaqları iri, lələkşəkilli, kənarları bütövdür, uzunsov oval şəklindədir, rəngi tutqun-yaşıl, sırğalıdır, 5-9 ədədi bir saplaqda yerləşir.

Qoz birevli ağacdır erkək və dişi çiçəkləri ağacda ayrı-ayrı olur. Erkək çiçəkləri uzun sığallıdır. Üzərindəki erkəkciklər yaşıl rənglidir. Dişi çiçəklər tək və ya toplu halda çıxır. Qoz ağacları çarpaz tozlanır. Külək çiçəklərin tozlanmasına müsbət təsir göstərir (5). Qoz meyvəsi yumuru və ya oval şəkildə olur. Üzəri yaşıl qərzəklə örtülür. Qədzək yetişdikdə qaralır, partlayır və içərisindən oduncaqlaşmış qabıqlı qoz çıxır. Qabığın içərisində iki hissədən ibarət olan ləpə vardır. Bunlardan hər biri iki qanadlıdır. Qoz ləpəsində 55-70 % -dən artıq quruyan yağ olur ki, onun da yeyinti əhəmiyyətindən başqa texniki əhəmiyyəti də vardır. Ləpə çiy və bişmiş halda yeyilir. Həmçinin ondan sənaye əhəmiyyətli bir çox qənnadı məhsulları hazırlanır. Qoz ləpəsinin tərkibində 20 % zülal, 16 % karbohidrat, müxtəlif vitaminlər və asan həll olan minerallar vardır. Qozun yaşıl meyvələrindən konserv sənayesində daha geniş istifadə edilir.

Daha maraqlısı odur ki, qozun qərzəyindən və yarpa-

ğından hasil edilən tünd qəhvəyi boyaqdan xalçaçılıqda və ipək sənayesində geniş istifadə edilir. Yarpaqlarından, habelə budaq və kök qabığından alınan açıq qonur boyaq sapı rəngləmək üçün işlədilir. Qozun yaşıl yarpaqları yun parçaların mühafizəsində naftalini əvəz edir. Qoz taxtasından hazırlanan mebellər hələ qədimdən özünə şöhrət qazandırmışdır.

Qoz ağacları 7-8 yaşından bar verməyə başlayır. Onun barvermə dövrü 250-300 il davam edir. Əgər yaxşı qayğı göstərilsə qoz ağacları min ilə qədər yaşayır.

Naxçıvan diyarı nazik qabıqlı, yağlı, ağ ləpəli, qabıqdan bütöv və hasand çıxan qiymətli qoz sortları ilə çoxdan məşhurdur. Dövlət Sort Sınaq Komissiyası «Seyfi», «Suğra», «Əkbəri», «Ordubad» və «Növrəst» sortlarını təsdiq edib rayonlaşdırılması na icazə vermişdir.

Naxçıvan özünün olduqca keyfiyyətli qoz meyvələrinin növlərinə görə Zaqafqaziya respublikaları içərisində fərqlənir. Həmin qiymətli qoz sortlarını artırmaq üçün həyatyanı sahələrdə olan tək-tək ağaclar qiymətli toxum vəsaitidir.

Lakin, uzun müddət baxımsızlıq üzündən, yanacaq materialı kimi istifadə edildiyindən yaşlı ağacların sıradan çıxması nəticəsində ən yaxşı sort-formalar tədricən itib sıradan çıxmışdır, kökü kəsilməkdədir (1,2).

1973-cü ildən Naxçıvarı Elm mərkəzində və hazırda da bizim tərəfimizdən kökü kəsilməkdə olan qiymətli sort-formaları tapıb bərpa etmək, onların biologiyasını, çoxaldılma və becərilmə xüsusiyyətlərini öyrənmək üçün tədqiqatlar aparılır. 150-dən artıq sort-forma tapılmışdır. Onların əksəriyyətinin qabığı nazikdir. Hələlik onların 18-i təsərrüfat üçün məsləhət görülüb, 5 hektar sahədə əkilib canlı kolleksiya yaradılmışdır (3).

Qoz bitkisinin artırılması sadədir, ən çox toxumla çoxaldılır. Dəyərli qoz sortlarındarı olan tək-tək ağaclar öz-özünü tozladığından əkilən toxum öz nəslinə bənzəyir. Toxumla artırıldıqda hər hektara 600 kq qoz meyvəsi tələb olunur. Yaxşı inkişaf etmiş məhsullar, quraqlığa, şaxtaya, xəstəliklərə davamlı olan ana ağacdan iri, sağlam toxumlar seçilir. Səpin üçün ən

əlverişli vaxt payızdır. Əgər səpin payızda aparılmazsa, yaz səpini üçün toxumlar stratifikasiya (yazlaşdırma) edilir (6). Bunun üçün toxumlar bir hissə nəm və saf qum qatmaq hesabı ilə qarışdırılır. Qumla qarışdırılmış toxumlar 10-15 sm təbəqə ilə 30-35 sm hündürlüyündə olan yeşiklərə və ya emallı qablara yığılır və təmiz, nəmlik olmayan binada müsbət 3-5^0 temperaturda saxlanır. Həftədə bir dəfədən az olmayaraq toxumlar qumla birlikdə qarışdırılır və nəmliyi tənzim edilir. Stratifikasiya üçün ən yaxşı müddət 70-90 gündür.

Səpin vaxtı meyvənin torpağa qoyulmuş vəziyyəti kök və gövdənin düzgün böyüməsində mühim əhəmiyyətə malikdir (3). Təcrübə göstərir ki, meyvənin təpə hissəsi torpağa yanaki, şovları isə yanlara qoyulduqda alınmış cücərtidə kök və gövdə düz xətt boyuca, müvafiq olaraq aşağı və yuxarı düzgün inkişaf edir və heç bir əyrilik alınmır.

Qoz bitkisinin çoxaldılmasında ən əlverişli üsul toxumun daimi əkin yerinə səpilməsidir. Belə ki, qozu daimi əkin yerinə səpdikdə, toxumlar normal inkişaf etmiş bitkilər verir, qazmaq və başqa yerə əkməklə bitkinin həyat fəaliyyəti pozulmur, bir neçə il tez meyvə verməyə başlayır.

Qoz vegetativ yolla və çiçəklə də çoxalır. Lakin bu üsullar çətindir, hər dəfə yaxşı nəticə alınmır. Qoz sortlarının və qiymətli formaların çoxalması üçün calaq vacibdir. Qozun calağı iki növə ayrılır-qələm calağı (kopuliravka); qoz, tumurcuq calağı (okulirovka). Göz calağı (okulirovka) ən geniş yayılmış calaq üsuludur. Belə calağın üstünlüyü onun tez və asan yerinə yetirilməsidir.

Qoz ağacı münbit və suyu yaxşı hopduran torpaqları sevir. Normal rütubəti olan iqlim şəraiti tələb edir. Quraqlıq şəraitində 1-2 illik tinglərə vegetasiya dövründə 8-9 dəfə, bundan başqa 1-2 mülayim qış suyu verilməlidir. Sonrakı illərdə vegetasiya dövründə 5-7- dəfə suvarılmalı, 1-2 mülayim qış suyu verilməlidir.

Bu sahədə tədqiqat işləri davam etdirilir. Ümidvarıq ki, alınmış nəticələr və görülən işlər meyvəçilik, o cümlədən qoz sahəsində Naxçıvnın əvvəlki şöhrətinin bərpasında müəyyən rol oynayacaqdır.

Ə d ə b i y y a t:

1. Rəcəbli Ə.C. Azərbaycanın meyvə bitkiləri. Bakı, 1966, s. 200-201
1. Nəzərov H.A. Naxçıvanda qoz ağacları. Azərbaycan təbiəti, Bakı, 1977, 8-ci Buraxılış, s. 12.
1. Nəzərov H.A. Qozun becərilməsi, Elm və həyat, Bakı. 1982, №5, s. 34-35
1. Радажабли А.ДЖ. Гречкий орех в Нахичеванской АССР, Сад и огород, том 1. Москва, 1948 г. с. 20-21.
1. Колесников В.А. Частное плодоводство, Москва, «Колос», 1973, с. 160-161
1. Щепотъев Ф.Л. Культура орехоплодных, Москва, «Селъхозгиз», 1957, с. 128-132.

İSMAYIL MƏMMƏDOV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

NAXÇIVAN MR-də XIRDABUYNUZLU HEYVANLARIN SARKOSPORİDİOZU

Sarkosporidilər Apicomplexa tipinin Sporozoa sinfinin Eucoccidiida dəstəsinin Sarcocystidae fəsiləsinin Sarcocystis cinsinə aiddir. Sarkosporidilərin məməlilərdə 109, quşlarda 72, sürünənlərdə isə 11 növü parazitlik edir. Bu ibtidailərin törətdiyi xəstəlik sarkosporidioz və ya sarkosistoz adlanır (1).

Sarkosporidilər kənd təsərrüfatı heyvanlarında, quşlarda, vəhşi heyvanlarda və hətta insanda parazitlik edərək orqanizmin intoksikasiyasına, ətin keyfiyyətinin aşağı düşməsinə, əzələ liflərinin atrofiyasına, bala salmaya, arıqlamağa səbəb olur. Kənd təsərrüfatı heyvanlarının orqanizmində sarkosporidi sistalarına başlıca olaraq əzələlərdə və qida borusunun əzələli qatında, təsadüfi hallarda isə sinir, birləşdirici toxumalarda, daxili orqanlarda rast gəlinir (3).

Elektron mikroskopu ilə sarkosporidilərə baxdıqda onların quruluşca toksoplazmidilərə oxşar olduğu aşkar edilmişdir. Toksoplazmanın (Toxoplasma) cinsi tsikli sarkosporidilərdə olduğu kimi, pişiklərin və itlərin bağırsaq epitelisində izosporlara bənzər oosistaların əmələ gəlməsi ilə müşahidə olunur (2).

Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, sarkosporidilərin inkişaf tsikli iki sahiblidir. Belə ki, pişiklər, itlər və vəhşi ətyeyənlər əsas sahib olub, parazitlər bunların orqanizmində cinsi yetişkənliyə çatırlar. Qoyunlar, iribuynuzlu heyvanlar, donuzlar və quşlar aralıq sahiblər olduğundan, onların orqanizmində qeyri-cinsi inkişaf tsikli baş verir. İnsanlar həm əsas, həm də aralıq sahib rolunu oynayırlar (1,3).

Sarkosporidilər kənd təsərrüfatı heyvanlarında, quşlarda, vəhşi heyvanlarda, itlərdə, pişiklərdə parazitlik edərək, orqanizmə toksiki maddələr buraxmaqla müxtəlif xəstəliklərin baş verməsinə, ət məhsuldarlığının, keyfiyyətinin aşağı düşməsinə, bəzi hallarda isə cəmdəklərin tamamilə yararsızlaşmasına, əzələlərin atrofiyasına və kirəcləşməsinə, bala salmaya səbəb olur. Naxçıvan MR ərazisində bu parazitin hərtərəfli öyrənilmədiyini və onlara qarşı mübarizə tədbirlərinin hazırlanmadığını nəzərə alaraq xırdabuynuzlu heyvanlar üzərində tədqiqat işlərinin aparılması qarşıya məqsəd qoyulmuşdur.

Naxçıvan MR ərazisində xırdabuynuzlu heyvanlarda sarkosporidilərin bioekoloji xüsusiyyətlərini tədqiq etmək üçün müxtəlif ərazilərdəki ət kəsim məntəqələrindən 2004-cü ilin yanvar ayından oktyabra qədər mütəmadi olaraq material götürülmüş və laboratoriyada müayinə edilmişdir. Sarkosistoza diaqnoz ancaq heyvanlarda yarma aparıldıqdan sonra mümkündür. Buna görə də kəsim məntəqələrində, ilk növbədə xırdabuynuzlu heyvan cəmdəkləri diqqətlə nəzərdən keçirilmiş, skelet əzələlərində, dil, ürək və qida borusunun əzələli qatında gözlə görünə bilən sarkosistalar götürülüb 10 %-li neytral formalin məhlulunda fiksə edilərək, laboratoriya

şəraitində mikroskop altında müayinə edilmişdir. Davarların müxtəlif orqanlarında formalaşmış sarkosporidi sistalarının ölçüləri okulyar-mikrometrin köməkliyi ilə təyin edilmişdir.

Bundan başqa kəsilmiş xırdabuynuzlu heyvanların skelet əzələlərində və daxili orqanlarından yaxmalar hazırlanaraq, metil spirti ilə fiksə edildikdən sonra, azur-eozin boyası ilə Romanavski – Qimza metoduna əsasən boyanıb, mikroskopiya edilmişdir.

Aparılan tədqiqat işləri nəticəsində Naxçıvan MR-də xırdabuynuzlu heyvanlarda sarkosporidilərin Sarcocystis tenella (Raillet, 1886) Moule novü ilk dəfə qeyd edilmişdir. Bu parazitin törətdiyi xəstəlik Muxtar Respublika ərazisində geniş yayılmışdır.

S. tenella – xırdabuynuzlu heyvanların əsasən qida borusunun əzələli qatında və skelet əzələlərində tapılmış sarkosistalar paxlayabənzər, oval, ellipsvari və bir qədər əyilmiş formalarda olurlar.

Xırdabuynuzlu heyvanlarda gözlə görünən sarkosporidi sistalarının ölçüləri aşağıdakı cədvəldə verilmişdir.

Qoyunların müxtəlif orqanlarında tapılmış sarkosporidi sistalarının ölçüləri (mm-lə)

Cədvəl

Orqanlar	Uzunluğu		Eni	
	Maksimum	Minimum	Maksimum	Minimum
Ürək	0,256	0,154	0,076	0,049
Dil	0,438	0,325	0,047	0,039
Qida borusu	15,5	0,362	6,069	0,051
Skelet əzələləri	0,825	0,349	0,065	0,057

Cədvəldən göründüyü kimi qida borusunun əzələli qatında əmələ gəlmiş sistalar digər orqanlara nisbətən daha

böyük ölçülərə malikdir. Burada sistaların ölçüləri 10,5-0,326 x 6,069-0,051 mm-dir.

Bu parazit heyvanların ət məhsuldarlığının aşağı düşməsinə, orqanizmin intoksikasiyasına səbəb olduğu üçün təsərrüfatlara çoxlu miqdarda iqtisadi ziyan verir.

Davarlar S. tenella parazitinin aralıq sahibi rolunu oynayırlar. Bu parazitin əsas sahibləri itlər, pişiklər və vəhşi ətyeyən heyvanlardır.

Buna görə də profilaktik tədbir kimi şəxsi və fermer təsərrüfatlarında invaziya mənbəyi olan sahibsiz pişiklərin, itlərin ferma ərazisinə və xüsusən də yem saxlanılan anbarlara, ot tayalarının yanına buraxılmasının qarşısı alınmalıdır.

Ədəbiyyat:

0. Azərbaycan heyvanlar aləmi. I cild. Akad. M.Ə. Musayevin redaksiyası ilə. Bakı. Elm, 2002, s. 36-49
0. Вершинин И.И. Саркоспоридии и изоспоры животных и человека. – В кн.: Токсоплазмиды. Сер. Протозоология. Л., 1979, вып. 4, с. 24-37
0. Мусаев М.А., Суркова А.М., Гаибова Т.Д., Исазаде Д.М. Саркоспоридии овец северо-восточного Азербайджана. Изд-во. АН. Азерб. ССР. Сер. биол. наук. 1985, с. 31-37

ETİBAR MƏMMƏDOV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

ANOPLOSEFALYATOZLARIN İRİBUYNUZLU HEYVANLARDA YAYILMA XÜSUSİYYƏTLƏRİ

Naxçıvan MR-də kənd təsərrüfatı heyvanlarının başlıca helmintozlarından olan anoplosefalyatozlar çox geniş yayılmışdır. Ərazinin əsas coğrafi rayonlarında – Naxçıvan düzənliyi və Naxçıvan dağlıq sahəsində bu helmintlərin törətdikləri xəstəliklər intensiv müşahidə edilir. Yay və qış otlaqlarının əksəriyyəti bu helmintozlara görə qeyri-sağlam

hesab edilir. Bu baxımdan heyvandarlığa böyük zərər vuran anoplosefalyatozların öyrənilməsi və onlara qarşı mübarizə tədbirlərinin aparılması aktual problem kimi qarşıda durur.

Anoplosefalyatlar - sestodlar sinfinin (*Cestoda*) *Cyclophyllidea* dəstəsinin *Avitellinidae* ailəsinə daxil olan *Avitellina, Stilesia* və *Thysaniezia* cinslərini əhatə edir. Bu cinslərin isə müvafiq olaraq *Avitellina centripunctata, Stilesia globipunctata* və *Thysaniezia giardi* növləri vardır ki, hər biri müxtəlif gövşəyən heyvanlarda parazitlik etməyə uyğunlaşmışdır. Bundan əlavə *Cyclophyllidea* dəstəsinə *Anoplocephalidae* ailəsi də daxildir ki, buraya *Moniezia* cinsinə aid olan, iri və xırda buynuzlu heyvanlarda parazitlik edən *Monezia expansa, M. benedeni, M. alba* və s. növləri aid edilir. Hər bir növ morfoloji quruluşuna, ölçülərinə və yumurtalarının formasına görə bir-birindən fərqlənir.

Anoplosefalyatozlar - baytarlıq helmintologiyasının çox az öyrənilən problemlərindəndir. Helmintozların zəif öyrənilməsi, heç də onların az praktik əhəmiyyət daşıdığına dəlalət etmir. Sadəcə olaraq 2 səbəbdən anoplosefalyatozlar zəif öyrənilmişdir. Birincisi, uzun müddət anoplosefalyatların törətdikləri xəstəliklər (avitellinoz, tizaniezioz, stilezioz) sərbəst xəstəlik kimi təfriq edilməmiş, əsasən moniezioz kimi ümumi adla qeyd edilmişdir (2).

İkincisi, bu helmintlər özünəməxsus yaşayış tərzi ilə fərqlənir. Onların müxtəlif aralıq sahiblərinin iştirakı ilə inkişaf etdiyinin qeyd edilməsinə baxmayaraq, bu günə qədər aparılan tədqiqat işlərinin heç birində aralıq sahiblərinin tam dəqiq təsvirinə rast gəlinmir. Anoplosefalyatların bioloji inkişaf zəncirinin bir hissəsini təşkil edən aralıq sahiblərinin qeyrimüəyyənliyi, xəstəliklərin epizootologiyasının öyrənilməsində, eləcə də sistemli, elmi əsaslarla mübarizə tədbirlərinin hazırlanılmasında çətinliklər yaradır.

Naxçıvan MR ərazisində iribuynuzlu heyvanlar arasında anoplosefalyatozların yayılma dərəcəsini öyrənmək məqsədilə bir sıra tədqiqat işləri aparıldı. Tədqiqatın gedişində Muxtar Respublikanın Şərur, Şahbuz, Ordubad,

Culfa və Sədərək rayonlarının şəxsi və fermer təsərrüfatlarında anoplosefalyatozlarla təbii yoluxmuş iribuynuzlu heyvanlardan istifadə edilmişdir. Fülleborn koproloji üsulundan istifadə etməklə yoluxmuş heyvanlar aşkar edildi. Eyni zamanda xüsusi ət kəsim məntəqələrində kəsilmiş heyvanların nazik bağırsağındakı möhtəviyyat ardıcıl yuma üsulu ilə yuyularaq müayinə edildi. Helmint növləri xüsusi helmint təyinedicisinə və tərtib edilmiş perfokart təyinediciyə əsasən müəyyən edildi (1,3).

Tədqiqatın gedişində 800 baş iribuynuzlu heyvanda koproloji müayinə aparılmış, kəsilmiş 59 heyvanın nazik bağırsağı müayinə edilmişdir. Aşkar edilmiş helmint növləri 2 %-li formalin məhlulunda konservləşdirilmişdir. Müxtəlif ərazilərdəki iribuynuzlu heyvanlardan götürülmüş kal nümunələrinin müayinəsi nəticəsində aşkar edilmiş helmint yumurtalarına əsasən anoplosefalyatların növ tərkibi müəyyən edildi. Nəticələr aşağıdakı cədvəldə verilir:

Cədvəl

S №	Rayonlar	Nümunələrin sayı	Helmint növü			
			Monieziya	Avitellina	Tizanieziya	Stileziya
0.	Şərur	310	68	34	18	-
0.	Şahbuz	115	15	10	2	-
0.	Ordubad	145	22	25	4	-
0.	Culfa	83	11	13	9	-
0.	Sədərək	147	46	22	12	-

Cədvəldən göründüyü kimi müayinələrin nəticəsində tapılmış helmint yumurtalarına görə iribuynuzlu heyvanlar arasında anoplosefalyatozların ən çox yayıldığı bölgə Şərur və Sədərək rayonları, helmintlərin nisbətən az müşahidə edildiyi rayonlar isə Culfa və Ordubad rayonları olmuşdur.

Yuxarıda qeyd edilən rayonlar içərisində anoplosefalyatozların ən az yayıldığı bölgə Şahbuz rayonu hesab edilir.

Anoplosefalyatozların növ tərkibini müəyyən etmək üçün ət kəsim məntəqələrində kəsilmiş 59 iribuynuzlu heyvanın nazik bağırsağı ardıcıl yuma üsulu ilə müayinə edildi. Nəticədə 32 helmint aşkar edilmişdir ki, onlardan 16-sı moneziya, 9-u avitellina və 7-si tizanezaya növlərinə aid olmuşdur. İribuynuzlu heyvanlar arasında anoplosefalyatozların yayılma dərəcəsinə görə moneziyalar üstünlük təşkil edir. Ümumiyyətlə, müayinə edilən 59 nazik bağırsaqda 32 helmint tapılması Muxtar Respublikada anoplosefalyatozların kifayət qədər intensiv yayıldığını sübut edir. Ona görə də anoplosefalyatozların öyrənilməsi, onların aralıq sahiblərinin müəyyənləşdirilməsi istiqamətində hərtərəfli tədqiqatlar aparılmasına ehtiyac duyulur.

Ə d ə b i y y a t:

0. Ивашкин В.М., Орипов А.О., Сонин М.Д. Определитель гельминтов мелкого рогатого скота. Москва, Наука, 1989, с. 32-44
0. Потемкина В.А. Мониезиозы жвачных животных. Москва, Колос, 1965, 263 с.
0. Прядко Э.И. Казкенов А.А., Губайдулин Н.А. Гельминты копытных животных. Алма-Ата, Кайнар, 1974, 58 с.

MAHİR MƏHƏRRƏMOV
Azərbaycan MEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

ARAZBOYU MAİLİ DÜZƏNLİYİN ARIKİMİLƏRİNİN (HYMENOPTERA APOİDAE) ÖYRƏNİLMƏSİ

Arıkimilər təbii tozlandırıcıların əsas kütləsini təşkil edərək, çiçəkli bitkilərin həyatında əhəmiyyətli rol oynayırlar. Kənd təsərrüfatı bitkilərinin əksəriyyətinin məhsuldarlığı, xeyli dərəcədə arıkimilərin həyat fəaliyyətindən asılıdır. *Apis*

cinsinə mənsub arılar olduqca qiymətli məhsul olan, geniş müalicəvi xüsusiyyətlərə malik bal məhsulu verməklə xüsusi əhəmiyyətə malikdirlər.

Bir çox arılar örtülütoxumlu bitkilərin ixtisaslaşmış tozlandırıcıları olmaqla, həmin bitkilərin çarpaz tozlanmasını və bitkilər arasında daha dolğun genetik informasiya mübadiləsini təmin edir.

Arıkimilər təbii biosenozlarda olduğu kimi, aqrosenozlarda da mühüm rol oynayırlar. Onların iştirakı olmadığı hallarda mühüm kənd təsərrüfatı bitkiləri olan yonca, soya və s. bitkilərin toxumluq sahələrində məhsuldarlıq nəzərə çarpacaq dərəcədə aşağı düşür. Texniki, meyvə, yem, bəzək və dərman bitkilərinin toxum verməsi və məhsuldarlığının artması arıkimilərlə sıx bağlıdır.

Naxçıvan MR-in faunası onurğasız heyvan növləri ilə zəngindir. Əlverişli coğrafi mühitin olması onurğasız heyvan növlərinin yayılmasına geniş imkan yaratmışdır. Naxçıvan MR faunasında arıkimilər özünə məxsus bir yer tutur. Burada arıkimilərin növ tərkibi tədqiqatçılar tərəfindən az öyrənilmişdir. Göstərilənləri nəzərə alaraq, qarşıda duran aktual problemlərdən biri də Arazboyu maili düzənliyin arıkimilərinin öyrənilməsidir.

Naxçıvan MR faunası üçün İ.A. Sxirtladze 30 növ, X.Ə. Əliyev 41 növ arıkimi haqqında faunistik və ekoloji məlumatlar verilmişlər (1).

Arəkimilərin öyrənilməsi istiqamətində faunistik materialların toplanılması, entomologiyada qəbul olunmuş ümumi metodlarla, o cümlədən V.V. Papovun təklif etdiyi üsulla aparılmışdır. Toplanılmış faunistik materiallarda ayrı-ayrı növlərin rolunu müəyyən etmək üçün D. Panfilovun üsulundan istifadə edilmişdir.

Material əsas etibarı ilə müxtəlif bitki assosiasiyalarından entomoloji torla toplanmışdır. Sonra isə kameral şəraitdə işlənilmişdir. Qida əlaqələrini öyrənmək üçün arıkimilər müxtəlif bitkilər üzərindən toplanılmışdır.

Materialın tədqiqi zamanı SSRİ-nin Avropa hissəsinin təyinediciləriндən (2), Avropa ölkələri, Ukrayna, İran və Türkiyə üzrə müxtəlif bölgə məlumatlarından istifadə olunmuşdur.

2004-cü ilin aprel-avqust aylarında 11 marşurut üzrə Arazboyu düzənliyin bir sıra ərazilərinə ekspedisiyalar təşkil edildi.

İlk ekspedisiya 28 apreldə Naxçıvan düzünə oldu. Toplanılmış materiallar tədqiq edilmək üçün hazırlandı və xüsusi paketlərə qoyuldu. Sonrakı ekspedisiyalar 5 mayda Sədərək, 19 mayda Şərur, 4 iyunda Böyükdüz, 8 iyulda Ordubad, 9 iyulda Dəstə, 27 iyulda Culfa, 5 avqustda Yayıcı, 12 avqustda Ordubad. 20 iyun və 25 avqustda Naxçıvan düzlərində aparıldı. Bu ərazilərdən 120-ə yaxın arıkimi toplanıldı, tədqiq edilmək üçün hazırlanıb xüsusi paketlərə qoyuldu. Materialların təyini AMEA Zoologiya İnstitutunun Araxnologiya laboratoriyasında X.Ə. Əliyevin rəhbərliyi ilə aparıldı. Təyin olunmuş növlər aşağıdakı cədvəldə göstərilmişdir. *-işarələnmiş növlər Naxçıvan MR faunası üçün lk dəfə qeyd olunmuşdur.

Beləliklə, Arazboyu düzənlikdə aparılan tədqiqat zamanı 6 fəsilə üzrə 11 cins və 25 növ təyin edilmişdir. Təyin edilmiş taksonlardan 5 növ: C. hylaciformis Ever., H. eguestris Moraw., A. vernalis Moraw., A. grassipes Lep., A. parietina Fabr. Naxçıvan MR faunası üçün ilk dəfə qeyd edilmişdir.

Arazboyu maili düzənliyin arıkimiləri

Cədvəl

Dəstə: Hymenoptera			Nümunələr toplanılan düzənliklər							
Fəsilətüstlük: Apoidae			Sədərək düzü	Şərur düzü	Böyükdüz	Naxçıvan düzü	Culfa düzü	Yayıcı düzü	Dəstə düzü	Ordubad düzü
Fəsilə	Cins	Növ								
Colletidae	*Colletes*	*hylaciformis Ever.**			+	+				
	Hylaeus	*signatus Fabr.*					+		+	+
		punctuatissimus Smith							+	+
Andrenidae	*Andrena*	*flavipes Panz.*			+	+				+
		scita (Fourer)		+	+					
		vetula Lep.		+			+	+		
		thoracica (F)	+	+						
Halictidae	*Halictus*	*eguestris Morawitz **			+	+				
		varipes F. Mor		+						
	Nomia	*ruficornis Spin*							+	+
Megachilidae	*Anthidium*	*croceum Morawitz*				+				
		florenticum (F.)		+				+		
		diadema Latz.							+	+
	Chalicodoma	*desertorum F. Mor.*	+							
	Megachile	*rotundata (F.)*			+		+			+
Anthophoridae	*Anthophora*	*vernalis Morawitz**				+				
		*grassipes Lep.**				+				
		*parietina Fabr.**					+			
	Eucera	*cinerea Lep.*	+	+						
Apidae	*Bombus*	*zonatus Smith*				+		+		
		dagestanius Rad.								+
		melanurus Lep.					+		+	
		persicus Rad.	+							+
		olagesianus Skor.						+		
		silvarum L.					+		+	

Ədəbiyyat:

0. Məhərrəmov M.M. Naxçıvan MR-in arıkimilərinin (Hymenoptera Apoidae) öyrənilməsinə dair. Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyətinin, təbii sərvətlərinin öyrənilməsi. Elm, Bakı, 2004, 241-244 s.
0. Осычнюк Г.З. и др. Пчелиные Apoidae. В. кн.; Определитель насекомых европ. части СССР ч. 1, 1978. 850 с.

AKİF BAYRAMOV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

NAXÇIVAN SU ANBARINDA ALİ XƏRÇƏNG NÖVLƏRİNİN ÇOXİLLİK İNKİŞAF DİNAMİKASI

Naxçıvan su anbarında formalaşmış hidrofauna zənginliyi ilə seçilir. Əlverişli təbii-coğrafi şərait, suyun oksigen-istilik rejimi, biotop müxtəlifliyi, qida amili və s. bu zənginliyi şərtləndirən əsas amillərdir.

Xərçəngkimilər *(Crustacea)* sinfi bu ekosistemin bioloji həyatında əhəmiyyətli rol oynayan heyvan qrupudur. Su anbarının ətraflı və sistemli tədqiq edilmiş zooplankton faunasında ibtidai xərçəngkimilər *(Entomostraca)* yarımsinfinə mənsub olan 18 növ şaxəbığcıqlı *(Cladocera)* və 16 növ kürəkayaqlı *(Copepoda)* müəyyən edilmişdir. Faunanın biokütləsinin 96-98 %-i bu xərçəngciklərin hesabına formalaşır. Sayına və biokütləsinə görə *Daphnia longispina Müller* populyasiyasının ilboyu üstünlüyü səciyyəvi haldır. Sututarda yayılmış bütün balıq növlərinin sürfə və körpələrinin ilk, başlanğıc yem mənbəyi kimi zooplankton xüsusi əhəmiyyət daşıyır. May, iyun və iyul aylarında xərçəngciklər optimal nəsilvermə və ölçü-yaş xüsusiyyətlərinə malik olur. Faunanın yaz çoxalması əksər balıq növlərinin kürü tökməsi ilə üst-üstə düşür. Aktiv filtrasiya edənlər kimi zooplankton orqanizmlər suyun bioloji özünütəmizləməsində fəal iştirak edirlər. Hesablamalara görə Naxçıvan su

anbarında zooplanktonun illik məhsulu yaş kütlə hesabı ilə 40-50 min tondur (2).

Sututarın zoobentosunda ali xərçəngkimilər *(Malacostraca)* yarımsinfinə mənsub olan 3 növ xərçəng – *Paramysis lacustris (Czern.), Gammarus lacustris Sars* və *Astacus leptodactylus Esch.* müəyyən edilmişdir. Bu xərçənglər ildə bir neçə nəsil verən, nəsil qayğısına qalan, sürətli boy-çəki artımına malik olan, balıqlar tərəfindən asan əldə edilən, yüksək qida keyfiyyətli, antropogen təsirlərin daim gücləndiyi şəraitdə su anbarının sanitar-hidrobioloji rejiminin yaxşılaşmasına xidmət edən onurğasız heyvanlardır. Çay xərçəngi Naxçıvan su anbarının ikinci bioloji məhsulu olub vətəgə əhəmiyyəti daşıyır. Gündəlik ovun miqdarı 300-350 kq-dır (1). Məhsulun hər il 40-60 tonunun İran İslam Respublikasına ixrac ediləcəyi nəzərdə tutulmuşdur (Şərq qapısı, 20 may, 2004).

Məqsədimiz xərçəng növlərinin sayı və biokütlədəsinin çoxillik inkişaf dinamikasını müqayisəli öyrənməkdir.

2000-2004-cü illərin isti aylarında sututarda ekoloji şəraitinə görə fərqlənən 3-yuxarı, orta, aşağı sahələrdən və biotoplardan toplanılmış makrozoobentos nümunələri tədqiqat materialı olmuşdur. Nümunələr müasir hidrobiologiyada qəbul olunmuş metodik göstərişlər əsasında işlənilmişdir. Su qatının dərinliyi, temperaturu, şəffaflığı, pH-ı, qruntun növü, fitoplanktonun və ali su bitkilərinin inkişafı müəyyənləşdirilmişdir (3,4).

Fəal hərəkətli ali xərçənglər su anbarının hər 3 sahəsində geniş yayılmışlar. Hesablamalar göstərdi ki, yuxarı sahənin ali xərçənglər faunası yüksək kəmiyyət göstəricilərinə yazın sonu – yayın əvvəllərində malik olur. Dayaz əraziləri əhatə etdiyindən bu sahənin dib faunası yay aylarında suyun səviyyəsinin enməsinin mənfi təsirinə daha tez məruz qalır.

Orta və aşağı sahələr geniş sahilyanı əraziləri və dərin zonaları (20-30 m) əhatə edir. Hər 2 sahə müxtəlif bentik onurğasız növlərinin inkişafı üçün əlverişli abiotik şəraitə malikdir. Xərçəng populyasiyalarının ümumi biokütləsinə

görə su anbarının orta sahəsi yuxarı sahədən 3,4 , aşağı sahədən 1,8 dəfə üstündür.

Növlər biotoplar üzrə qeyri-bərabər paylanmışdır. *P. lacustris* fərdlərinin sayı və biokütləsinin yüksək qiymətləri sahəsinə (8015 ha) görə ən böyük biotopda – su altındakı torpaqlarda qeyd edilmişdir. 2002-ci ildə növün biosenoz üçün hesablanmış maksimum ortaillik biokütləsi – 0,305 q/m² (sayı – 41 ədəd/m²) olmuşdur. Bu, biosenozda makrozoobentosun ortaillik biokütləsinin 3,3 %-ni təşkil edir. Fitofil və psammo-litofil biosenozlarda mizid populyasiyasının kəmiyyət göstəriciləri əlverişsiz abiotik amillərə görə xeyli aşağıdır.

G. lacustris və *A. leptodactylus* növləri yaşayış üçün daha çox psammo - pelofil və psammo – litofil biotoplara üstünlük verirlər. Qammarid növünün ortaillik biokütləsinin yüksək qiyməti – 0,380 q/m² (sayı – 68 ədəd/m²) 2001-ci ildə psammo – litofil biosenozda, çay xərçənginin maksimum ortaillik biokütləsi – 6,600 q/m² (sayı 3 ədəd/m²) 2000-ci ildə psammo – pelofil biosenozda qeyd edilmişdir.

Müşahidələrimizə görə mizid populyasiyası Naxçıvan su anbarında 4 nəsil verir. Nəsilvermələr əsasən mart – aprel, iyun, avqust və oktyabr aylarına təsadüf edir. Yanüzən və çay xərçənginin çoxalması üzunmüddətli olub, aprel (T_{su} + 12⁰C) – noyabr (T_{su} + 16⁰C + 12⁰C) aylarını əhatə edir (cədvəl 1).

Cədvəl 1

Naxçıvan su anbarında ali xərçəng növlərinin nəsilvermə müddətləri

Növlərin adı	Mart	Aprel	May	İyun	İyul	Avqust	Sentyabr	Oktyabr
P. lacustris	+	+	-	+	-	+	-	+
G. lacustris	-	+	+	+	+	+	+	+
A. leptodactylus	-	+	+	+	+	+	+	+

İntensiv nəsilvermə yaz və yay fəsillərində baş verir.

Sututarın xüsusi hidroloji rejimindən asılı olaraq biotopların sahəsi ilboyu dəyişildiyindən su anbarında xərçəng populyasiyalarının illik biokütləsi biosenozların ortaaylıq mövcud sahələrinə görə hesablanmışdır (cədvəl 2).

Cədvəl 2

Naxçıvan su anbarında ali xərçəng növlərinin illik biokütləsi, kq, %

Növlərin adı		İllər				
		2000	2001	2002	2003	2004
P. lacustris	kq	10002,0	11695,06	20391,3	13279,83	9825,0
	%	4,4	4,8	5,9	5,4	4,4
G. lacustris	kq	4935,66	11827,02	17827,25	8245,59	7592,0
	%	2,2	4,9	5,1	3,4	3,4
A. leptodactylus	kq	213523,6	217174,25	309093,45	222602,92	205875,4
	%	93,4	90,3	89,0	91,2	92,2
İllik biokütlə	kq	228461,26	240696,33	347312,0	244128,34	223292,4
	%	100,0	100,0	100,0	100,0	100,0

2002-ci ildə əlverişli hidrometeoroloji şərait, çayların su axımının yüksək olması, su anbarında suyun səviyyəsinin normaya yaxınlığı dib faunanın paylanmasına və inkişafına müsbət təsir göstərmişdir. Həmin ildə ali xərçəng növlərinin yaratdığı illik biokütlənin miqdarı 2004-cü ildəkinə nisbətən 1,6 dəfə çox olmuşdur. Başqa sözlə, sututarın hidroloji rejimi zoobentosun və onun tərkib hissəsi kimi ali xərçənglərin kəmiyyət göstəricilərinin dəyişilməsinə təsir edin əsas abiotik amildir.

Tədqiqat illərində bu heyvan qrupunun formalaşdırdığı illik biokütlənin qiymətləri dib faunanın ümumi illik biokütləsinin 21,6 – 24,6 %-ni təşkil etmişdir.

Naxçıvan su anbarında vətəgə əhəmiyyətli balıqların qida rastonunda mizid və yarıüzən fərdləri üstünlük təşkil edirlər. Hər 3 xərçəng növü yosun, detrit və digər üzvi qalıqları (xəstə və ölü heyvanları) mənimsəməklə sututarda gedən bioloji özünütəmizləmə proseslərində əhəmiyyətli rol oynayırlar.

Ədəbiyyat:

1. Bayramov A.B. Naxçıvan su anbarının ali xərçəngkimilər faunası. Elmi praktik konfransın materialları, 21-22 may, Naxçıvan. Bakı, Elm, 2004, s. 245-250
1. Мамедов Р.А. Зоопланктон Нахичеванского водохранилища. Автореф. дисс., канд. биол. наук. Минск, 1990, 21 с.
1. Методические рекомендации по сбору и обработке материалов при гидробиологических исследованиях на пресноводных водоемах. Л.: Изд-во. Гос. НИОРХ, 1984, 51 с.
1. Методы мониторинга в Каспийском море. Баку, Qapp – Poliqraf, 2000, c. 35-41

AQİL QASIMOV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

GAVALI MEYVƏYEYƏNİ (*Laspeyresia funebrana Tr.*) ONUN BİOLOJİ XÜSUSİYYƏTLƏRİ VƏ ENTOMOFAQLARI

Meyvəçilik Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatının aparıcı sahələrindən biridir. Qədim bağçılıq ənənələrinə malik bu bölgədə sahənin genişləndirilməsi məqsədi ilə yeni və məhsuldar meyvə bağlarının salınmasına üstünlük verilmişdir. Fərdi təsərrüfat sahibləri xalq seleksiyası yolu ilə yaradılmış qiymətli yerli sortların da ərazidə bərpasını unutmurlar.

Qeyd etmək lazımdır ki, geniş növ tərkibinə malik zərərvericilər meyvə ağaclarına yoluxaraq xeyli miqdarda məhsul itkisinə səbəb olur, məhsulun qida və əmtəə keyfiyyətini aşağı salır. Meyvə ağaclarının zərərvericiləri ilə aparılan kimyəvi mübarizə tədbirləri çox zaman arzuolunmaz nəticəni verir. Belə ki, bu tədbirlər torpağın, suyun, həmçinin meyvənin kimyəvi maddələrlə çirklənməsinə, zərərvericilərdə tolerantlığın yüksəlməsinə səbəb olur, digər tərəfdən isə

insektisidlərin qalıq miqdarı qida zəncirlərində toplanaraq insan və heyvan orqanizmlərində müxtəlif fəsadlar törədə bilirlər (2).

Son zamanlar bütün kənd təsərrüfatı bitkiləri kimi meyvə ağaclarının zərərvericiləri ilə mübarizədə müxtəlif, eyni zamanda səmərəli, effektiv və təhlükəsiz bioloji üsullara üstünlük verilir (1,3).

Tədqiqat işinin məqsədi Muxtar Respublika ərazisində meyvə ağaclarının daha geniş yayılmış zərərvericilərindən biri olan Gavalı meyvəyeyəninin – *Laspeyresia funebrana* – bioloji xüsusiyyətlərini, yoluxdurma dərəcəsini və zərərvericinin entomofaqlarını müəyyən etməkdən ibarət olmuşdur. Qurdun yoluxdurma dərəcəsi Ordubad və Culfa rayonlarının fərdi təsərrüfatlarında gavalı, alça, ərik, şaftalı ağaclarından və yerə tökülmüş meyvələrdən toplanmış tırtılların hesablanması ilə əldə edilmişdir. Zərərvericinin tırtıl və pupları toplanılaraq onun entomofaqları müəyyən edilmişdir.

L. funebrana zəngin növ tərkibinə malik *Tortricidae* fəsiləsinə mənsubdur. Praktik olaraq bütün çəyirdəkli meyvə ağaclarının zərərvericisi hesab edilir. Apardığımız ölçmələr zamanı kəpənəyin açılmış qanadlarının ucları arasındakı məsafənin 1,1-1,6 sm-ə bərabər olduğu aydınlaşdı. Qanadların kənarında dağınıq, kül rəngli - boz ləkə vardır. Ön qanadların üst tərəfi mavi çalarlı, bozumtul qaradır. Gövdənin döş hissəsinə yaxın çətin görünən, düzgün olmayan 3-5 xətt mövcuddur. Arxa qanadlar qonur-boz rənglidir, daxili kənarları uzun saçaqlıdır.

Əldə etdiyimiz bütün yumurtalar fəsillərdən asılı olmayaraq yaşılımtıl-ağ rəngli olmuşdur. Yetkin tırtılların rəngi isə çəhrayı-qırmızıdır, alt qarın hissəsi solğun çəhrayıdır. Tırtılların uzunluğu 9-16 mm və ya orta hesabla 13 mm olmuşdur. Sarımtıl-qonur rəngli pupların ölçüsü 6-8 mm-dir.

Müşahidələrimizə görə Naxçıvan MR şəraitində bu zərərverici 3 nəsil verir. Son nəslin yetkin tırtılları ipəyəoxşar

baramanın içində, ağac qabıqlarının yarıqlarında, koğuşlarında və torpağın üst qatında 3-5 sm dərinlikdə qışlayır. Müəyyən edildi ki, zərərvericinin birinci yaz nəsli aprel ayının sonu, may ayının əvvəlinə təsadüf edir. Meyvə ağaclarının kütləvi çiçəkləməsindən 12-18 gün sonra puplardan kəpənəklər çıxır. Tam formalaşmış kəpənəklər 3-5 gündən sonra kal meyvələrin hər birinin üzərinə adətən 1 ədəd olmaqla 35-55 ədəd yumurta qoyur.

Ədəbiyyat məlumatlarına görə embrional inkişaf mühit amillərindən asılı olaraq 6-8 gün davam edir (2). Tırtıllar meyvəni gəmirərək, onun daxilinə girir, lətlə qidalanırlar. Bu zaman tırtıllar daha çox çəyirdəyin damarlarını yediyindən kal meyvələrin çoxu yerə tökülür. Tökülmüş meyvələrdən çıxan tırtıllar torpağın üst qatında pupa çevrilirlər. Həmin puplardan 15-20 gündən sonra ikinci yay nəslinin kəpənəkləri çıxır. Bu zaman çəyirdəkli meyvələr də böyümüş olur. İkinci nəslin tırtılları həmin meyvələrlə son yaş həddinədək – iyul ayının 3-cü ongünlüyünədək qidalanıb yetkinləşir və puplara çevrilirlər. Puplar torpaqda deyil, daha çox ağacların gövdəsinin yarıqlarında kəpənəklərə çevrilirlər. Zərərvericinin 3-cü nəsli avqust ayının ortalarında müşahidə edildi.

Z.M. Məmmədovun məlumatlarına görə bu növ Azərbaycan şəraitində 2 nəsil verir (2,3). Muxtar Respublika ərazisində əlverişli istilik amili bu zərərvericinin 3 nəsil verməsinə səbəb olan əsas amildir. Yetkin kəpənəklərin kütləvi uçuşu əlverişli istilik rejiminə malik may-oktyabr aylarında qeyd edilmişdir. Ağacların yoluxma dərəcəsi tökülmüş və ağacdan toplanmış meyvələrdən çıxarılmış tırtılların sayına görə hesablanmışdır. Vegetasiya dövrü üçün meyvələrin zədələnmə dərəcəsi 35-55% olmuşdur. Yüksək yoluxma dərəcəsi birinci yaz nəslinin payına düşmüşdür. Tədqiqatlar məhsul yığımının sonunadək aparılmışdır.

Zərərvericinin tırtıl və pupları toplanılmış, onları yoluxdurmuş entomofaq həşaratların 6 əsas növü müəyyən edilmişdir:

0. Pristomerus vulnerator Grav.
0. Habrobracon hebetor Say.
0. Ascogaster quadridentata Wesm.
0. Tetrastichus sp.
0. Trichogramma evanescens Wesm.
0. Apotelia innozia Meig.

Tırtıl və pupların yoluxma dərəcəsinə, faydalı entomofaqların sayına və rastgəlmə tezliyinə görə Gavalı meyvəyeyəninin əsas entomofaqları *H. hebetor, A. quadridentata* və *T. evanescens* parazitləridir.

Zərərvericilərə qarşı kimyəvi mübarizə faydalı həşaratların da məhvinə səbəb olur. Buna görə də isti aylarda bu mübarizə üsulundan imtina etmək, laboratoriya şəraitində çoxaldılmış fəal entomofaqlardan istifadə etmək daha səmərəli nəticə verə bilər.

Ədəbiyyat:

0. Mehdiyev A.M., Talıbov T.H. Naxçıvan MSSR-də zərərvericilərə qarşı mübarizə üsulunun faydalılığı. Az. ETETİM. "Bitki mühafizəsi", № 44, 1976, 4 s.
0. Мамедов З.М. Паразиты вредителей плодовых культур в условиях Нахичеванской АССР. Автореф. дисс. канд. биол. наук. Баку, 1969, 24 с.
1. Мамедов З.М. Паразиты вредных чешуекрылых плодовых культур Азербайджана и пути их использования в биологической защите. Баку, Элм, 2004. с. 19-161
2.

MİRMAHMUD SEYİDLİ
Naxçıvan Dövlət Universiteti.

NAXÇIVAN MR ƏRAZİSİNDƏ BAL ARISININ CİNSLƏRİ VƏ ONLARIN POPULYASİYALARI

Aparılmış uzun müddətli tədqiqat işinin nəticəsində ilk dəfə olaraq Naxçıvan ərazisində bal arılarının (işçi, erkək, ana arılar) bütün əsas əlamətləri öyrənilmişdir. Muxtar Respublikanın müxtəlif bölgələrində arıların eksteryer əlamətləri, keyfiyyətli ana arının yetişdirilməsi, arılarda beçələmə, onların davranışında fenotipik və fərdi xüsusiyyətlər tədqiq edilmişdir. Göstərilənlərlə yanaşı nektarın yuvaya daşınması, arı ailələrinin qışlaması arıların xəstəliklərə qarşı dözümlülüyü və müəyyən fizioloji xassələri haqqında məlumat vermişdir.

Aparılmış təcrübələr nəticəsində Muxtar Respublikanın müxtəlif bölgələrində yayılmış arıların bir çox əlamətləri və xüsusiyyətləri təyin edilmişdir. Onların əsasında Azərbaycanda mövcud olan bal arılarının cinsləri üzrə populyasiyaları müəyyən edilmiş və təsviri verilmişdir (1).

Müəllif Naxçıvan MR şəraitində mövcud arı cinslərinin populyasiyalarını müəyyən etmiş və arıların bölgələr üzrə yayılmasının xarakterik xüsusiyyətlərini açıqlamışdır. Naxçıvan MR ərazisində bal arısının (Apis mellifera L) əsasən, Sarı Qafqaz arı cinsini (Apis mellifera caucasica flova)

Sarı Qafqaz arı cinsinin eyni zamanda aran və subtropik bölgələrdə, yayıldığı aşkar edilmişdir.

Naxçıvan MR ərazisində Sarı Qafqaz arı cinsinin yayıldığı bölgələri və arıların bioloji təsərrüfat xarakterli xüsusiyyətlərini nəzərə alaraq müəllif onu aşağıdakı populyasiyaya ayırmışlar.

Sarı Qafqaz arı cinsinin Naxçıvan arı populyasiyası – Apis mellifera caucasica flova, populatio Naxcivanika M.M. Seyidli.

Naxçıvan arı populyasiyasının arıları respublikanın aran bölgələrində yayılmışdır. Burada Sarı Qafqaz arı cinsinin mənşəyi İranın Cənubi Naxçıvan bölgəsi olduğundan müəlliflər aran bölgəsinin arı qrupunu Azərbaycan arı populyasiyası adlandırmışdır (1).

Naxçıvan arı populyasiyasının arıları Naxçıvan Muxtar Respublikasının bütün ərazisində yayılmışdır. Buraya əsasən, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur və Kəngərli rayonlarının ərazilərinin aran, dağətəyi və dağlıq bölgələri daxildir. Bu arıların Naxçıvan MR ərazisində yayılmasını nəzərə alaraq, bu arı qrupu Naxçıvan arı populyasiyası adlandırılmışdır.

Arı cinslərinin rayonlar üzrə planlaşdırılması aparıldıqda daha diqqətli olmaq lazımdır. Buraxılan bir səhv gələcəkdə çox acınacaqlı vəziyyətin yaranmasına səbəb ola bilər. Ona görə də, bu arı cinsləri yerli şəraitdə diqqətlə yoxlanıldıqdan sonra istifadə edilməlidir (3).

Naxçıvan ərazisində yerli arı cinslərinin və onların populyasiyalarının xüsusiyyətlərindəki müxtəlifliyi nəzərə alaraq, onlar rayonlar üzrə planlaşdırmışdır (4).

Respublikamızda əsas nektar ehtiyatı dağətəyi və dağlıq bölgələrin ərazisində yerləşir. Bozdağ Qafqaz arılarında Sarı Qafqaz arılarına nisbətən bal toplamaq meyli güclü olduğu halda ailənin inkişaf etmə xüsusiyyəti isə əksinə zəifdir. Naxçıvan arı populyasiyasının arıları qonşu İran, Türkiyə və Ermənistan Respublikasında yayılmış bal arıları ilə daim təmasda olur. Müəllif aparılan tədqiqat işinin nəticəsi olaraq respublikamızda arı cinslərini, onların populyasiyalarını aşağıdakı qaydada rayonlaşdırılması lazım bilinmişdir.

Sarı Qafqaz arılarında inkişaf etmə qabiliyyətinin nəsildən-nəsilə keçmə ehtimalı daha çoxdur. Son dövrlərdə

bal məhsuldarlığının bu bölgələrdə artmasının səbəblərindən biri də məhz, yeni arı qruplarının yaranmasıdır. Burada təbii olaraq yeni genetik və irsi xüsusiyyətlərə malik məhsuldar arı qruplarının yaranması, üçüncü qrup ailələrin inkişafına təkan verə bilər (2).

Naxçıvan arı populyasiyasının arılarını uzun müddət Muxtar Respublikanın ərazisi daxilində köçürülməsi təşkil edilmişdir. Buraya başqa bölgələrin arı cinsləri və populyasiyaları gətirilməmişdir. Yalnız professor R. L. Sultanov tərəfindən 1992-ci ildə Naxçıvan ərazisinin Batabat sahəsinə Qabaqtəpə arı populyasiyalarının arıları gətirilmişdir. Naxçıvan arı populyasiyası arıları qonşu dövlətlərin ərazisində yayılmış Sarı Qafqaz arı cinsinin arıları ilə təmasda ola bilirlər. Naxçıvan ərazisinə gətirilmiş uzun xortumlu Qabaqtəpə arıları az miqdarda olduğu üçün yerli arıların genofonduna təsir göstərə bilməmişlər. Ona görə də Naxçıvan arı populyasiyasının Naxçıvan MR ərazisi üçün planlaşdırılması məqsədəuyğundur. Bu bölgəyə tədqiqatçı alimlərin məsləhəti olmadan başqa arı cinsinə məxsus arıların gətirilməsi qadağan edilməlidir (3).

Naxçıvan MR-da Arazboyu düzənlik, Orta dağlıq və Zəngəzur dağlıq əraziyə məxsus bal arılarının eyni oxşar genotipik xüsusiyyətlərə malik olması müəyyənləşdirilmişdir.

Beləliklə, ilk dəfə olaraq elmi tədqiqat işlərinin əsasında Naxçıvan MR-nın ərazisində Sarı Qafqaz bal arısı cinsinin yalnız bir populyasiyasının yayıldığı müəyyən edildi.

Sarı Qafqaz arı cinsinin Naxçıvan populyasiyasının tam təsviri və diaqnostik əlamətləri təyin edildi.

Tədqiqat işinin nəticələri göstərir ki, Naxçıvan MR-nın ərazisində Sarı Qafqaz arı cinsinə məxsus əlamətlərə xas olan bal arısı yayılmışdır. Burada yayılmış Sarı Qafqaz arılarının Azərbaycan Respublikasının digər aran və Lənkəran bölgələrində yayılmış Sarı Qafqaz arı cinsinin arıları ilə müəyyən oxşar əlamətlərə xas olan xüsusiyyətləri vardır.

Naxçıvan MR-nın ərazisində mövcud bal arısının bioloji və təsərrüfat xüsusiyyətlərini nəzərə alaraq yerli təbii şəraitə uyğun arı cinslərinin və populyasiyalarının rayonlaşdırılmasının xüsusi əhəmiyyəti vardır. Naxçıvan MR-nın bütün ərazisində Sarı Qafqaz arı cinsinin Naxçıvan arı populyasiyalarının yayıldığı müəyyən edilmişdir. Ona görə də bal arısının genotipik xüsusiyyətlərini nəzərə alaraq Naxçıvan MR-nın ərazisi üçün Naxçıvan arı populyasiyasının rayonlaşdırılması və həmin arı ailələri mövsümlə əlaqədar respublikanın arzu olunan bütün bölgələrinə köçürülməsi məqsədəuyğun hesab edilmişdir.

Sarı Qafqaz arı cinsinin Naxçıvan populyasiyasının arealına Naxçıvan MR-nın bütün ərazisi daxil edilir.

Aparılan tədqiqat işi nəticəsində Naxçıvan MR üçün müəyyən edilmiş bal
arısı cinsinin bir populyasiyası və onların rayonlaşdırılması, respublikanın elmi-texniki şurası tərəfindən bəyənilmiş, təsdiq edilmiş və tövsiyə olunmuşdur.

Ədəbiyyat:

1. Seyidli M.M. Naxçıvan ərazisində bal arılarının yaşama müddəti. Aspirantların və gənc tədqiqatçıların respublika konfransının materialları. Bakı, 1999, s.92- 93
2. Seyidli M.M. Naxçıvan MR-nın ərazisində yayılmış bal arısının (Apis mellifera L) biokimyəvi və bəzi fizioloji xüsusiyyətləri. Biol. elm. nam. dis. avtorefarat
Bakı, 2001, 30 s.
3. Sultanov R.L. Azərbaycanda bal arısının bioloji xüsusiyyətləri. I hissə, monoqrafiya. Bakı, Azərbaycan EA mətbəəsi, 1993, s.72-74
4. Sultanov R.L. Azərbaycanda bal arısının bioloji xüsusiyyətləri. II hissə, monoqrafiya. Bakı, Azərbaycan EA mətbəəsi, 1993, s. 82-83

ELSEVƏR ƏSƏDOV
Naxcıvan Dövlət Universiteti

VƏRƏMUMUN BİOLOJİ TƏSİR MEXANİZMİNƏ DAİR

Müasir təbabətin qarşısında duran ən mühüm vəzifələrdən biri xəstəliklərin qarşısının alınmasında və müalicəsində daha təsirli vasitələrin tətbiq olunmasından ibarətdir. Bu məqsədlə də təbii qaynaqlar daha cox tədqiq edilir.

Arı məhsulları qədimdən müalicə məqsədləri üçün tətbiq olunur. Ancaq, arıların bu məhsulların toplanılmasında müxtəlif bitki çeşidlərindən istifadə etməsi, onların dəyişkən kimyəvi tərkib və bioloji xüsusiyyətlərə malik olmasına gətirib çıxarır. Bu da arı məhsullarının çox maraqlı bir tədqiqat obyekti olmasına səbəb olan bir faktordur.

Bioloji təsir mexanizminə görə vərəmum çox qiymətli bir arı məhsuludur. Onun insanlar tərəfindən istifadəsi miladdan əvvəl 3-cü yuzilliyə gedib çixir. Hələ insanlar o dövrdən başlayaraq vərəmumdan cəsədlərin və antik əşyaların mumyalanmasında, eləcə də müxtəlif xarakterli xəstəliklərdə istifadə etmişlər.

Hazırda dünyanın müxtəlif ölkələrində vərəmum üzərində cox müxtəlif tədqiqatlar aparılır və tədqiqatçılar ən cox onu tibbin çarəsiz qaldığı xəstəliklərdə tətbiq etməyə çalışırlar. 1991-ci ildə Yapon Xərçəng Tədqiqatı Cəmiyyətinin təşkil etdiyi konfransda tədqiqatçı alim Tetsuya Matsunonun vərəmumun xərçəng xəstəliyində tətbiqi, onun xərçəngəleyhi təsiri ilə əlaqədar apardığı araşdırmalar və bu barədəki fikirləri təbabətin bu sahəsinə marağı daha da artırmışdır (5).

Vərəmum çox mühüm bioioji aktiv xüsusiyyətlərə malik olan bir maddədir ki, bu da vərəmumun kimyəvi tərkibinin zənginliyi və muhum bioloji aktiv maddələrə malik olmasi və fizioloji proseslərdə fəal iştirakı ilə bilavasitə

əlaqədardir. Vərəmumun bioloji aktivliyinin 4 kateqoriyasi müəyyən olunur:

1. Bioloji polimerlərlə birləşmək fəaliyyəti;
2. Ağır metal ionlarına birləşməsi;
3. Elektron keçiriciliyinin sürətləndirməsi;
4. Sərbəst radikalları tutma (təmizləmə) qabiliyyəti (4).

Bu kimi xassələrə malik olması da onun bir sıra bioloji xüsusiyyətlərinin meydana çıxmasına səbəb olur.

Vərəmumun bakteriosid, bakteriostatik, fungisid, antivirus, çürüməəleyhi, mumiyalaşdırıcı, dezodorativ, iltihabəleyhi və s. kimi xüsusiyyətləri müvcuddur. Belə ki, bir sıra mikroorqanizmləri, virusları, göbələkləri öldürür və yaxud onların həyat fəaliyyətlərini dayandırırlar. Vərəmum bir təbii antibiotik kimi 136 patogen virus, göbələk və bakteriyaya qarşı fəaldır. Bu kimi xüsusiyyətlər hər şeydən əvvəl onun tərkibində çoxlu miqdarda fenol birləşmələrinin (flavonoidlərin və fenol turşularının) olması ilə izah edilir. Vərəmumun tərkibində flavonlar (xrizin, tektoxrizin, lyuteolin, apigenin və b.), flavonollar (kverçetin, kemiferol, qalangin, izialpinin, ramoçitin və b.), flavononollar (transkofein, transkumarin, transferulin, darçın turşusu, vanilin turşusu və b.) müvcuddur. Həmçinin, tərkibində terpenoidlərin, a-asetoksibetulenolun, bisaboldun və izovanilinin aromatik aldehidlərinin (4-oksi 3-metoksibenzaldehid) olması müəyyənləşdirilmişdir (2,5).

Vərəmumun flavonoidlərə bənzər şəkildə hidrolaza və alkenenfosfatazaları da tərkibinə alaraq bir çox fermenti dezaktivləşdirməsi kimi xüsusiyyətləri mövcuddur. Bundan başqa streptokokk bakteriyalarının bölünməsini təmin edən qlikoziltransferazaların fəaliyyətini dayandırmaq və iltihabi reaksiyalarda mieloperoksidazanın, ornitin-dekarboksilazanın, lipoksigenazanın, tirozin-proteinkinazanın aktivliyinə mane olmasi kimi xüsusiyyətləri mövcuddur.

Vərəmumun mikrobəleyhi xüsusiyyətləri çoxdan məlumdur. Hələ qədimdə, antibiotiklərin kəşf edilmədiyi

zamanlarda, xüsusilə müharibə dövrlərində yaraların müalicəsi, cərrahiyyə otaqlarının dezinfeksiyası üçün vərəmumdan istifadə edilmişdir. O, vərəmin, salmonellozun, yatalağın törədicilərinə, qrammüsbət floraya, həmçinin ibtidailərə (trixomonada və göbələklərə) öldürücü təsir göstərir. Vərəmumun tərkibində həmçinin mikroorqanizmlərin inkişafı və böyüməsinin qarşısını alan benzoy turşusu mövcuddur. Benzoy turşusu, kofein turşusu, ferula (çaşır) turşusu və b. vərəmumda olan mühüm bioloji aktivliyə malik maddələr sayılır. Xüsusilə ferula (çaşır) turşusu qrammüsbət bakteriyalar kimi qrammənfi bakteriyaların da inkişafının qarşısını alır (2).

Vərəmumun tərkibində olan flavonoidlər kapilliyarların divarını möhkəmləndirir, trofiki və regenerativ funksiyalari stimullaşdırır, faqositozun səviyyəsini yüksəldir, properdinin və komplementin təsirini gücləndirir, qammoqlobulinlərin miqdarını artırmaqla immunitetin saxlanılmasına kömək edir.

Vərəmum hələ çox qədimdən ağrıkəsici kimi istifadə olunur. Nəzərə almaq lazımdır ki, bu təsir orqanizmin ancaq müəyyən hissəsi ilə məhtudlaşır ki, bunun üçün də onu lokal anesteziyaedici (yerli keyləşdirici) adlandırırlar. Bir sıra tədqiqatlarda onun keyləşdirici təsirinin novokainin təsirindən 5-15 dəfə güclü olduğu bildirilir.

Vərəmumun hüceyrələrin animal çoxalmasına mane olmaq (sitostatik təsir), xoşxassəli şişləri əritmək xüsusiyyətləri müvcuddur. Bu sahədə vərəmumun tədqiq olunması göstərir ki, o xərçəng hüceyrələrinin bölünməsinə əngəl olur, həmçinin güclü radioprotektor hesab olunur. Bu da vərəmumun tərkibində antioksidant və şişəleyhi fəallığa malik olan maddələrin (qlikozoidlər, polisaxaridlər, flavonoidlər və s.) olması ilə izah edilir.

Vərəmumun alınma mənbələri əsasən müxtəlif bitki çeşidləri və müxtəlif bal arısı cinslərinin həzm vəzilərinin sekretləri olduğu üçün onun strukturu dəyişkən və çoxkompanentli olur. Buna baxmayaraq müəyyən bir qrup

maddələr vardır ki, bütün vərəmum nümunələrində mövcuddur. Daimi kompanentlərin tərkibinə əsasən turş və doymamış yağ turşuları aid olunur. Vərəmumun tədqiqi zamanı onda bioloji aktivliyə malik olan 19 karbon turşusu müəyyənləşdirilmiş, onların antimikrob və antioksidant aktivliyinə malik fraksiyaları tədqiq olunmuşdur (1,2). Doymamış yağ turşuları hüceyrə membranının strukturuna daxil olan kompanentlərdir. Apardığımız araşdırmalarda Naxçıvan MR şəraitindəki vərəmumda olan yağ turşularının 39-41%-nin doymamış yağ turşularından ibarət olması müəyyənləşdirilmişdir. Doymamış yağ turşularının xolesterinlə və xolesterolla əlaqəyə girərək onları asan həll olan birləşmələrə çevirir, orqanizmdən kənar edirlər. Nəticədə damarlarda aterosklerozun inkişafını zəiflədir, qanın laxtalanmasını aşağı salır, tromb əmələ gəlməsinin qarşısını alırlar. Ürəyin iflicdən və başqa ürək-damar xəstəliklərindən qorunmasında həlledici rol oynayir, həmçinin infeksiyalara qarşı bədən müqavimətini gücləndirirlər.

Vərəmumun regenerativ, dermoplastik, epitelləşdirici kimi mühüm xüsusiyyətləri vardır ki, onun tətbiq olunması nəticəsində zədələnmiş toxumaların sürətli bərpa olunması, epitelləşməsi baş verir (3). Bu səbəblə də yanıq yaraları üzərində vərəmumu tətbiq edərək bu kimi müsbət keyfiyyətlərini araşdırmışıq. Vərəmumun sulu və spirtli məhlullarının yanıq yaralarında tətbiqi onu göstərir ki, yanıqlarda o, yanıq dərmanları qədər effektli təsirə malikdir. Eyni zamanda yanıq dərmanları ilə birgə tətbiq olunduqda daha da yüksək nəticələr əldə etmək mümkündür. Belə ki, ənənəvi müalicə üsulunda yaraların tam sağalması 35-40 gündən sonra başladığı halda, vərəmumun spirtlı məhlulunun tətbiqində isə tam sağalma 28-30 gündən sonra başlamışdır. Nəzarət qrupundakı nümunələrdə tez-tez müşahidə olunan infeksiya yoluxması ilkin yara səthinin böyüməsi ilə və tam sağalmanın gecikməsi ilə özünü göstərdiyi halda, vərəmumun tətbiqində onun mikrobəleyhi, iltihabəleyhi xüsusiyyətləri sağalma prosesinin sürətlənməsində başlıca rol oynamışdır.

Vərəmumun tətbiqində zəhərlənmə əlamətlərinə rast gəlinməmişdir. Aparılan toksikoloji təcrübələrdə LD_{50} dozasının tətbiq olunmasında vərmumun toksikliyinin çox aşağı olması müəyyənləşdirilmişdir (4). Azərbaycan Tibb Universitetinin Mərkəzi Elmi Tədqiqat Laboratoriyasının farmokologiya şöbəsində apardığımız araşdırmalarda Naxçıvan MR-nın müxtəlif zonalarından toplanmış vərəmum nümunələrinin, kəskin toksikliyin parametrləri (LD_0 ,LD_{50} , və LD_{100}) ilə Persin üsulu ilə təyin olunması zamanı vərəmumun sulu məhsullarının Sidorov cədvəlinə əsasən praktiki olaraq toksik olmadığı müəyyənləşdirilmişdir.

Vərəmumun musbət xüsusiyyətlərinin hələ tam olmayan siyahısı onu göstərir ki, o həqiqətən də əvəzolunmaz, nadir təbii məhsullardandır.

Ədəbiyyat:

1. Əsədov E.S. Vərəmumun karbonlu və yağ turşuları Asr.və Gənc. Tədq. IX Resp. konfransının materialları I. B.,2003, s.82-84
2. Колошина Н.А., и др. Живительные бальзамы, эликсиры и екстракты. Мн. Ураджай, 1997, с.239
3. Асадов Э.С., Ибрагимли Ф.И. Влияние прополиса на заживление ожоговой раны в эксперименте. Материалы научно-практические конференции посвящ. 100 летие со дня рождение Б. Махмудбейова. Из-во АМУ. Б., 2002, с. 74
4. Burdock G.A. Review of the biological properties and toxicity of bee propolis. Food and Chemical Toxicology, 1998, vol. 347-363
5. Burda S., Olesek . Antioxidant and antiradical activities of flavonoids. Journal of Agricultural and Food Chemistry, 2001, vol. 2774-2779

SALEH MƏHƏRRƏMOV
Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN MR-İN MÜXTƏLİF ZONALARINDA HELMİNTLƏRİN YAYILMASININ EKOLOJİ XÜSUSİYYƏTLƏRİ

Naxçıvan MR müxtəlif iqlim zonalarına malikdir. Bu müxtəliflik heyvanat aləminə, eyni zamanda helmintfaunaya öz təsirini göstərir.Helmintlərin yayılmasında əsas rol oynayan ekoloji amillər Muxtar Respublikada zonalardan asılı olaraq helmintlərin yayılmasına səbəb olur.

Muxtar Respublikanın ərazisi dağlıq, dağətəyi və aran olmaqla 3 müxtəlif zonaya ayrılır. Həmin zonaların hər birinin özünə məxsus ekoloji amilləri vardır. Zonalarda yağıntının miqdarı, illik temperatur, quraqlıq keçən günlərin sayı bir-birinə yaxın olsa da fərqlidir. Bu göstəricilər şaquli istiqamətdə daha tez nəzərə çarpan dəyişikliyə malikdir (1).

Dəniz səviyyəsindən yüksəkliyə qalxdıqca temperatur, yağıntının miqdarı kəskin dəyişilir ki, bunlar da helmintlərin bioloji inkişaf dövriyyələrinin başa çatmasına təsir edir.

Temperaturun həddən artıq aşağı olması son sahibdən xaricə çıxan yumurtaların inkişaf müddətinin uzanmasına, bəzən isə donma nəticəsində məhv olması ilə nəticələnir. Hər bir canlı kimi helmint yumurtalarının da inkişafı üçün optimal temperatur mövcuddur. Normadan artıq temperatur isə yumurtaların məhv olmasına, hüceyrə daxili mühitin dağılmasına səbəb olur.

Helmintlərin yayılmasında torpaq və ətraf mühitin nəmliyini yaradan yağıntının miqdarı böyük rol oynayır. Helmint yumurtalarının daxilində hüceyrənin inkişaf edib, invazion mərhələyə çatmasında yumurtaların düşdüyü ətraf mühitin nəmliyinin böyük təsiri vardır. Quraqlıq zamanı yumurtanın inkişafı üçün suya olan tələbat ödənilmir, yumurta hüceyrələr suyunu itirərək öz formalarını dəyişirlər.

Helmint yumurtalarının inkişafı və yayılmasında günəş şüalarının intensivliyi də böyük rol oynayır. Dağlıq ərazilərdə bu cəhətdən yumurtaların inkişafı üçün əlverişli şərait aradan qalxır(2).

Bunlardan əlavə digər ekoloji amillər də helmintlərin yayılmasına təsir edir. Ərazinin su təchizatı, torpaqların kimyəvi tərkibi, bitki örtüyü və s.

Torpaq səthində istifadəsiz axma su gölməçələri helmint yumurtaları, yaxud onların aralıq sahiblərinin inkişafı üçün əlverişli şərait yaradır. Buna görə də gölməçələrin üstünlük təşkil etdiyi aran zonalarda helmintlər daha intensiv yayılır.

Əvvəlki illərdə apardığımız tədqiqatlarda şoran və bitki örtüyü zəif, yaxud olmayan çöl və səhra zonalarında helmintin yumurta və sürfələrinin zəif yayıldığını müəyyən etdik. Bunu biz şoran torpaqların tərkibindəki mineral və turş maddələrin yumurtaların inkişafına mənfi təsiri ilə əlaqələndiririk .

Torpağın bitki örtüyü də helmintlərin yayılmağında mühüm əhəmiyyətə malikdir. Bitki torpaqda helmint yumurtasının inkişafı üçün həm nəmlik yaradır, həm də onu günəşin şüalarından qoruyur.

Apardığımız tədqiqatlarda Naxçıvanın aran zonasında helmintfaunanın dağlıq zonaya nisbətən yüksək olduğunu müəyyənləşdirdik. Bu isə aran zonada helmintin yumurta və sürfəsinin inkişafı üçün əlverişli ekoloji amilin olması ilə əlaqədardır.

Aran zonada helmint yumurtasının inkişafını zəiflədən və onun məhvinə səbəb olan yüksək temperatura və quraqlıq mövcuddur. Bu amillər helmintlərin kəskin yayılmasının qarşısını alır. Lakin helmint yumurtalarında bu amillərin müəyyən dərəcədə normadan kənara çıxmalarına qarşı uyğunlaşmalar meydana gəlib. Digər tərəfdən heyvanların helmint yumurtaları ilə yoluxması və yumurtaların ətraf mühitə tökülməsi mövsümlə tənzimlənir. Belə ki, heyvanların

helmintlərlə yoluxması əsasən yaz və payız dövrlərinə təsadüf edliir ki, bu vaxtlarda helmintin inkişafı üçün əlverişli şərait olur(3).

Muxtar Respublikanın aran zonasında ekoloji amillərin dəyişilməsi kəskin olmadığına görə Arazboyu düzənlik ərazilərinin helmintfaunası bir-birindən bir o qədər də fərqlənmir. Apardığımız tədqiqatlarda aran zonaların fermer təsərrüfatlarında helmintlərin yayılma dərəcəsinin yaxın olduğunu müşahidə etdik.

Arazboyu düzənliklərdə yeraltı suların yer səthinə yaxın olması torpağın nəmliyini artırır. Bu bir tərəfdən helmint yumurtasının inkişafı üçün lazım olan nəmliyi yaradır, digər tərəfdən isə bitki örtüyünün zənginləşməsinə səbəb olur.

Əvvəlki tədqiqatlara istinad edərək apardığımız araşdırmalar, aran zonada helmintin inkişafı və yayılması üçün daha yaxşı əlverişli şəraitin olmasını göstərir.

Muxtar Respublikanın dağətəyi və dağlıq zonalarında helmintin inkişafı üçün şərait nisbətən məhdudlaşır. Lakin Şahbuz rayonunun Ağbulaq, Kükü kəndlərindəki fermer təsərrüfatlarında apardığımız helmintovoskopiki və yarma üsullar ilə həmin zonalarda kifayət qədər helmintozların yayıldığını göstərir. Dəniz səviyyəsindən 1700-1800m hündürlükdə olan bu ərazilərdə biohelmintlərin inkişafı üçün ekoloji amillər bir o qədər əlverişli deyil. Buna görə də həmin zonalarda daha çox mədə-bağırsaq nematodlarına təsadüf edilir ki, onların da xaricə tökülmüş yumurtalarının inkişaf edib invazion mərhələyə çatması üçün bir o qədər uzun müddət tələb olunmur. Digər tərəfdən isə heyvanların yoluxması yazın sonu, payızın əvvəlinə təsadüf edir ki, bu da xaricə tökülmüş helmint yumurtalarının məhv olmadan əsas sahiblər tərəfindən udulmasına imkan verir (4).

Dağlıq zonada biohelmintlər də kifayət qədər yayılmışdır. Bu daha çox köçəri qoyunçuluq olan zonalarda təsadüf edilir. Həmin fermer təsərrüfatlarındakı qoyunlar

köçəri formada saxlandıqlarından aran zonada helmintlərlə kütləvi şəkildə yoluxurlar. Bu heyvanlar eyni zamanda köçəri olmayan təsərrüfatların qoyunlarının da yoluxmasına səbəb olur. Bəzən isə aran zonadakı fermer təsərrüfatların qoyunları yayda dağlıq zonanın otlaqlarına köçürülür ki, bu zaman yoluxmuş heyvanlardan ətraf mühitə yayılmış helmint yumurtaları qısa müddətdə invazion mərhələyə çatırlar ki, onları qəbul edən qoyunlar helmintlərlə yoluxurlar (4).

Apardığımız araşdırmalar Naxçıvanın aran, dağətəyi və dağlıq zonalarında helmintlərin inkişafı və yayılması üçün əlverişli ekoloji amillərin olmasını göstərir. Zonanın ekoloji amillərinin fərqli olması helmintfaunanın da müxtəlifliyinə səbəb olur.

Ə d ə b i y y a t:

1. Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı, 1999, s.23-138.
2. Məhərrəmov S.H. Nax. MR-in dağlıq zonasında strongilyatların yayılma xarakteristikası. Konf.mat.Bakı, 2002, s. 226-228.
3. Məhərrəmov S.H. Nax. MR-in aran zonasında qoyunlarda strongilyatların yayılmasının landşaft-ekoloji xarakteristikası. Azər. Zool. cəmiy. qurult. mat. Bakı, 2003, s. 109-112.
4. Məhərrəmov S.H. Nax. MR-də helmintlərin şaquli istiqamətdə yayılması. Ped.univ.xəbər. Bakı, 2003, s. 316-318

TAPDIQ MƏMMƏDOV
Naxçıvan MR Balıqçılıq
Təsərrüfatı İstehsalat Birliyi

NAXÇIVAN MR-in BALIQ SƏRVƏTLƏRİNDƏN SƏMƏRƏLİ İSTİFADƏ YOLLARI

Muxtar Respublika sularının balıq faunası haqqında ilk məlumatlar 1926-cı ildə A.N. Derjavin tərəfindən dərc

olunmuşdur. Tədqiqatçı Qarasu çayında 12 növ balığın yaşadığını müəyyən etmişdir (2).

Keçən əsrin əllinci illərindən başlayaraq kənd təsərrüfatının ehtiyaclarını ödəmək məqsədi ilə yaradılan müxtəlif tutumlu su anbarlarının (Naxçıvan, Arpaçay, Vayxır, Sirab, Uzunoba, Nehrəm, Bənəniyar və s.) yaradılması balıq faunası üçün yeni ekoloji şəraitin meydana çıxmasına səbəb olmuşdur. Əlverişli təbii-coğrafi şəraitə malik sututarlarda ixtiofaunanın formalaşması, balıq sərvətlərinin artırılması və səmərəli istifadə olunması məsələləri kompleks ixtioloji tədqiqatların aparılması tələbatını yaratdı.

Çoxillik tədqiqat işləri nəticəsində Muxtar Respublikanın çay, göl və su anbarlarında 7 fəsiləyə, 20 cinsə mənsub olan 29 növ balıq aşkar edilmişdir. Növlərin ümumi sayının 71%-i *Cyprinidae* fəsiləsinə aiddir. *Salmonidae, Cobitidae, Siluridae, Poecilidae, Percidae* və *Gobiidae* fəsilələri 1-3 növlə təmsil olunmuşdur (1,3).

Naxçıvançay, Arpaçay, Gilançay və Əlincəçayda müvafiq olaraq 17, 16, 17 və 16 balıq növünün yayıldığı müəyyən edilmişdir. *Salmo fario Linne, Scardinius erythrophthalmus L.* və *Cobitis taenia satunini Gladkov* ancaq çaylarımızda yaşayan balıq növləridir. Çoxsulu illərdə Arazdan və Naxçıvan su anbarından kürüləmə üçün balıqların qalxması müşahidə edilir. Yay aylarında su axımının kəskin azalması ilə bağlı olaraq növlərin sayı 4-3-dək aşağı düşür. Çaylarımız balıqçılıq əhəmiyyəti daşımır, kiçik, əhəmiyyətsiz balıqlar faunada üstünlük təşkil edirlər. Xramulya, şirbit, gümüşcə, çəki, qıjovçu çay və su anbarları üçün ümumi növlərdir.

Normal səviyyədə sahəsi – 14500 ha, su tutumu – 1,35 mlrd m^3 olan Naxçıvan su anbarı Muxtar Respublikanın əsas balıqçılıq təsərrüfatı obyektidir. Sututarın ixtiofaunası zəngindir, 25 növ və 2 forma ilə təmsil olunmuşdur (Cədvəl).

Muxtar Respublika su anbarlarının ixtiofaunasının növ tərkibi

№ S	Növlərin adı	Naxçıvan	Arpaçay	Sirab	Uzunoba	Nehrəm	Dəstəgöl	Batabat
	Cyprinidae							
1.	*Rutilus rutilus caspicus Berg*	+	-	-	-	-	-	-
2.	*Leuciscus cephalus orientalis (Nord.)*	+	+	-	-	-	-	-
3.	*Ctenopharyngodon idella (Valen.)*	+	-	-	-	-	-	-
4.	*Aspius aspius (Linne)*	+	-	-	-	-	-	-
5.	*Chondrostoma cyri Kessler*	+	-	-	-	-	-	-
6.	*Gobio persa Günther*	+	+	-	-	-	-	-
7.	*Varicorhinus capoeta sevangi (Filippi)*	+	+	+	+	+	+	-
8.	*Barbus lacerta cyri Filippi*	+	+	+	+	+	+	-
9.	*B. capito (Guldenstadt)*	+	+	-	-	-	-	-
10.	*B. mursa (Guldenstadt)*	-	+	-	-	-	+	+
11.	*Alburnus alburnus hohenackeri Kessler*	+	+	+	+	+	+	-
12.	*A. filippii Kessler*	+	+	+	+	+	+	-
13.	*Acanthalburnus microlepis (Filippi)*	+	-	-	-	-	-	-
14.	*Alburnoides bipunctatus eichwaldi (Filippi)*	+	+	+	+	+	+	-
15.	*Blicca bjoerkna transcaucasica Berg*	+	-	-	-	-	-	-

16.	*Abramis brama orientalis Berg*	+	-	-	-	-	-	-
17.	*Hypophthalmichtys molitrix (Valen.)*	+	-	-	-	-	-	-
18.	*Carassius auratus gibelio (Bloch)*	+	+	-	-	-	-	-
19.	*Cyprinus carpio Linne*	+	+	+	+	+	+	-
	I Karp	+	-	-	-	-	-	-
	II Aynalı karp	+	-	-	-	-	-	-
	Cobitidae							
20.	*Nemachilus angorae Steind.*	-	+	+	+	+	-	-
21.	*N. Brandti Kessler*	+	+	+	-	-	-	-
22.	*Cobitis aurata (Filippi)*	-	+	-	-	-	-	-
	Siluridae							
23.	*Silurus glanis Linne*	+	-	-	-	-	-	-
	Paecilidae							
24.	*Gambusia affinis Baird et Girard*	+	-	-	-	-	-	-
	Percidae							
25.	*Stizostedion lucioperca (Linne)*	+	-	-	-	-	-	-
	Gobiidae							
26.	*Neogobius cephalarger constructor (Nordman)*	+	-	-	-	-	-	-
	C ə m i :	*25*	*14*	*8*	*7*	*7*	*7*	*1*

Su anbarında balıq ovu 1976-cı ildən aparılır. Çəki, dabanbalığı, ağ qalınalın, naxa, sıf, külmə, xəşəm, çapaq, ağ amur, yastıqarın və zərdəpər vətəgə əhəmiyyətli balıq növləridir. Qeyd etmək lazımdır ki, külmə, dabanbalığı, ağ

amur, ağ qalınalın, sıf, xul, çapaq və karp Muxtar Respublika sututarlarında son illərdə qeyd edilmişdir. Batabat su anbarlarında yalnız 1 növün – *B. mursa*-nın yaşadığı müəyyən olunmuşdur.

Naxçıvan su anbarının balıq faunası keçici (xəşəm, zərdəpər), yarımkeçici (külmə, çəki, sıf və b.), göl-çay (dabanbalığı, yastıqarın, xramulya, ağ amur, ağ qalınalın və b.) balıqlarının Araz və digər çaylardan keçməsi hesabına formalaşmışdır. Aparılan morfobioloji əlamətlərin analizi göstərir ki, su anbarında yayılmış balıqların yerli populyasiyaları əmələ gəlmişdir. Bu populyasiyalar bir çox göstəricilərinə görə keçici və yarımkeçici formalardan fərqlənir.

Muxtar Respublika su anbarlarında yayılmış balıqların əksəriyyəti cinsi yetişkənliyə 2-5 yaşında çatır. Çəki və xəşəmin kürü tökməsi aprel-may aylarında (T_{su}+12^{0}C+16^{0}C), naxa, dabanbalığı. çapaq və yastıqarın balıqlarının kürü tökməsi isə aprel ayının ikinci yarısından may ayının sonunadək (T_{su}+18^{0}C+22^{0}C) baş verir.

Naxçıvan su anbarında balıq ovunun əsasını təşkil edən növlər çəki artımına, dolğunluğuna və cinsi məhsuldarlığına görə Rusiya Federasiyasının cənub zonasının və Azərbaycanın digər su anbarlarında yayılmış eyni növlərdən üstündür. Bu, su anbarında balıqların zəngin yem bazasına malik olduğunu göstərir.

Qidalanma xüsusiyyətinə görə Muxtar Respublika sututarlarında yaşayan balıqlar qarışıq qidalanan (çəki, çapaq, yastıqarın, dabanbalığı), yırtıcı (naxa, sıf, xəşəm), bitkilərlə qidalanan (ağ amur və ağ qalınalın) növlərə bölünür.

Tədqiqat işlərinin nəticələrini nəzərə alaraq su anbarlarında vətəgə əhəmiyyətli balıqların ehtiyatını artırmaq və onlardan səmərəli istifadə etmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

1. Əlverişli təbii-coğrafi şəraitə malik olduqlarını nəzərə alaraq su anbarlarının ixtiofaunasının süni şəraitdə

yetişdirilmiş aborigen çəki balığının körpələri ilə zənginləşdirilməsi;

2. Naxçıvan su anbarının dayaz yerlərində fitofil balıqların təbii bərpası üçün münasib kürütökmə yerlərinin yaradılması;

3. "Suyun çiçəklənməsinə", ali su bitkilərinin intensiv inkişafına qarşı mübarizə aparmaq və əlavə balıq məhsulu almaq üçün su anbarlarının mütəmadi olaraq fitofaq ağ amur və ağ qalınalın balıqlarının bir yaşlı fərdləri ilə hər hektara 150-200 ədəd olmaqla zənginləşdirilməsi;

4. Körpələrindən istifadə edərək bu balıq növlərinin Muxtar Respublikada yaradılan polikulturalı nohur balıqçılığı təsərrüfatlarında yetişdirilməsi.

Ə d ə b i y y a t:

1. Talıbov T.H. Naxçıvan Muxtar Respublikasında nadir heyvan növləri və onların genofondunun qorunması. Bakı, Elm, 1999, s. 13-20
2. Державин А.Н. Рыбы реки Карасу. Изв. Бакинской Ихтиол. лаборатории. Баку, 1926, вып. I, 58 с.
3. Мамедов Т.М., Кулиев З.М. Промысловые рыбы Нахичеванской Автономной республики. Баку, Араз – М, 2000, 51 с.

YAVƏR MƏMMƏDOV
Naxçıvan Dövlət Universiteti

AĞQALXANLI SÜMÜRTKƏN (Anisoplia leucaspis Cast)BÖCƏYİ NÖVÜNÜN NAXÇIVAN MR ŞƏRAİTİNDƏ GENERASİYA XÜSUSİYYƏTİ

Ağqalxanlı sümürtkən (Anisoplia leucaspist Cast) böcəyi sərtqanadlılar (Coleoptera) dəstəsinin, lövhəbığcıqlılar (Scarabaeidae) fəsiləsinə mənsubdur.

Sümürtkən böcəklərin dünyada 56 növü, Aralıq dənizi ətrafı vilayətlərində 50 növ (38 növ endemikdir),

Zaqafqaziyada 22 növü, Azərbaycan ərazisində 14 növü yayılmışdır ki, bunlardan 5 növü Naxçıvan MR ərazisi üçün xarakterikdir. Naxçıvan MR ərazisində ağqalxanlı sümürtkən böcəyi geniş yayıldığından və təsərrüfatlara ciddi zərər verdiyindən, həmin növün inkişaf dinamikasının öyrənilməsi təsərrüfat əhəmiyyəti kəsb edir.

A.V. Boqaçev (1) Azərbaycanın aran rayonlarında ağqalxanla sümürtkən böcəyinin may ayının 2-ci ongünlüyündən müşahidə olunması və yetkin fərdlərin bir ay müddətinə yaşamasını qeyd edir. N.H.Səmədov (4), H.Ə.Cəlilov (2) isə Azərbaycanın müxtəlif bölgələrində həmin növün 20-25 gün yaşadığını və bir nəslin inkişafının bir il müddətinə başa çatdığını bildirirlər. Lakin tərəfimizdən aparılan tədqiqatlar və nəticələrimiz Naxçıvan MR ərazisində ağqalxanlı sümürtkən böcəyinin inkişaf dinamikasının 22-24 aya (yəni 2 ilə) başa çatmasını təsdiq edir (3).

Azərbaycanın digər bölgələrindən fərqli olaraq Naxçıvan ərazisində bu növün bir nəslinin inkişayının iki ilə qədər çəkməsinin səbəbi bizim tədqiqatlarımıza əsasən iqlim şəraiti ilə bilavasitə əlaqədardır.

Muxtar Respublikanın iqliminin kontinental olması ilə əlaqədar böcəyin sürfə mərhələsinin inkişafı kəskin sürətdə uzanır. Yay dövrü, əsasən iyul-avqust aylarında kəskin istilər (+30-38°S) nəticəsində sürfələr torpağın daha dərin rütubətli qatlarına keçir (40-60 sm) və zəngin qida mühitindən məhrum olur, onların yay "diapauza"sına getməsi zəruriyyəti yaranır. Eyni zamanda qış dövründə kəskin soyuqlar (-15-22°S) olduqda sürfələr qış "diapauza"sına gedirlər. 2000-2003-cü illərdə tədqiqatımızın nəticələri aşağıdakı kimi olmuşdur.

2000-2003-cü illərdə ağqalxanlı sümürtkən böcəyinin inkişaf fazaları
(Şərur rayon ərazisi)

Cədvəl 1

Böcəyin inkişaf fazaları	**2000-2002-ci illərdə**	**2001-2003-cü illərdə**
	İnkişaf müddətləri (günlə)	İnkişaf müddətləri (günlə)
yumurta	14±2,32	16±3,11
sürfə	658±12,01	664±16,18
pronimfa	13±2,98	15±3,19
pup	15±3,2	18±4,6
I nəslin inkişafı	700±10,60	713±13,96

Cədvəldən göründüyü kimi böcəyin ayrı-ayrı mərhələlərinin inkişafı aşağıdakı kimi olmuşdur.

Yumurtanın inkişafı 14-16 günə, sürfələrin inkişafı 658-664, pronimfa dövrü 13-15, pup isə 15-18 günə başa çatmışdır. Bir nəslin generativ inkişafı 700-713 günə tamamlanmışdır.

2000-2002-ci illərdə böcəyin sürfələrinin ayrı-ayrı yaş dövrlərinin inkişaf müddətləri öyrənilmişdir. Alınan nəticələr 2-saylı cədvəldə göstərilmişdir.

Ağqalxanlı sümürtkən böcəyi sürfələrinin müxtəlif yaş dövrlərinin inkişaf müddəti

Cədvəl 2

sürfələrin yaş dövrləri	**sürfələrinin inkişaf tarixi**	**sürfələrinin inkişaf müddəti (günlə)**
I yaş	15.VI.2000-10. VIII 2000	55±8.12
II yaş	11.VIII 2000-15. X. 2001	65±10.2
III yaş	16.X.2001-16.VI.2002	528±11.3

Sürfələrin birinci qabıqdəyişməsi avqust ayının ortalarında, ikinci qabıqdəyişmə isə həmin ilin oktyabr ayına təsadüf edir. Üçüncü yaşın tamam olması iki qış dövrü keçirdikdən sonra, aprel ayının ikinci ongünlüyündə 528 günə başa çatır. Üçüncü yaş sürfələri, yazda (aprel-may aylarında) 10-12 sm-də yuvacıqlar düzəldərək puplaşırlar.

Puplaşma prosesi havanın temperaturu 16-18°S olduqda baş verir. Belə temperaturda pup fazası 14-18 günədək davam edir. Temperatur aşağı olduqda bu proses 24 günədək uzanır.

Puplardan təzəcə çıxmış böcəklər çox zəif olub 2-3 gün hərəkətsiz şəkildə torpaqda qalır, sonra tədricən qidalanaraq sahələrə yayılırlar. Ağqalxanlı sümürtgən böcəyinin sahələrində müşahidəsi iqlim şəraitindən asılı olaraq may ayının II-III ongünlüyünə təsadüf edir. Böcəklər 4-6 gün qidalandıqdan sonra cütləşmə dövrü başlayır. Onlar yumurtaları bir neçə təkrarda tökürlər.

Bir fərdin məhsuldarlığı,qida rassionundan və əlverişli şəraitdən asılı olaraq 25-40 ədəd ola bilər. Yumurtalar torpağın 6-10 sm dərinliyinə qoyulur yetkin fərdlər iyun ayının axırlarınadək öz inkişaf dinamikasını başa çatdıraraq məhv olurlar.

Apardığımız tədqiqatlar ağqalxanlı sümürtgən böcəyinin inkişafının iqlim şəraitindən asılı olaraq Naxçıvan şəraitində iki ilə başa çatmasını tam təsdiq edir.

Ədəbiyyat:

1. Boqaçev A.V. Azərbaycanda kənd təsərrüfatı bitkilərinin zərərvericiləri və onlara qarşı mübarizə tədbirləri. Azərbaycan EA nəşriyyatı. Bakı, 1953, s. 156-160
2. Cəlilov H.R. Sümürtgən böcəklərinin sürfələrinə (Coleoptera, Scarabaed) nəmliyin təsirinin öyrənilməsinə dair. Azərbaycan SSR EA xəbərləri. 1968, № 3 s. 48-52
3. Məmmədov Y.M. "Naxçıvan MR-də dənli bitkilərin sərtqanadlılar (Coleoptera) faunası, əsas zərərverici növlərə

qarşı kompleks mübarizə tədbirləri" Bio. elm. nam. dis. avtoref. Bakı, 1995, 26 s.
4. Səmədov N.H. "Azərbaycanda kənd təsərrüfatı bitkilərinə ziyan verən böcəklərin fauna və biologiyası" Azərbaycan SSR.E.A. nəşriyyatı. Bakı, 1963, s. 52-53

HƏBİB HÜSEYNOV
Naxçıvan Dövlət Universiteti

AZƏRBAYCANDA ARI XƏSTƏLİKLƏRİNİN ÖYRƏNİLMƏSİ VƏZİYYƏTİ

Respublikamızda arıçılıq çox qədim dövrlərdən mövcud olmuş və onların müxtəlif xəstəliklərinə qarşı arıçılar daim mübarizə aparmağa başlamışlar. Aparılmış mübarizə tədbirləri fərdi xarakterli olmaqla, arıçıların çox illik təcrübəsinə əsaslanmışdır. O dövrdə arı xəstliklərinə qarşı mübarizədə sadə primitiv üsullardan istifadə olunurdu.

Respublikamızda baytarlıq elmi təşəkkül tapdığı bir dövrdə arı xəstəliklərinin öyrənilməsinin də aktuallığı artmışdır.

1950-ci ildə Azərbaycan Elmi-Tədqiqat Baytarlıq institutunun nəzdində R. P. İbrahimovun rəhbərliyi altında arı xəstəliklərini öyrənən şöbə fəaliyyət göstərməyə başlamışdır.

Respblikamızda çürümə xəstəliyinin öyrənilməsi vəziyyəti o dövrün arıçıları üçü ən problem məsələlərdən biri idi. Amerika cüzümə xəstəliyi arıçılığın bəlası hesab olunurdu.

R. P. İbrahimovun (7) apardığı tədqiqat işlərinin nəticəsində məlum olmuşdur ki, Amerika cürüməsi xəstəliyi dağətəyi bölgədə çox, orta bölgədə az, pambıqçılıqla məşğul olan aran bölgəsində isə nadir hallarda yayılır. O, göstərir ki, xəstəliyə qarşı tədbirlər görülmədikdə, o mart ayının ikinci yarısından iyul ayının birinci yarısına qədər ən çox müşahidə

edilir və dağətəyi bölgələrdə isə oktyabrın ortalarına qədər davam edir.

R.P.İbrahimov Amerika cürümə xəstəliyinin müalicəsində bir sıra sulfanilamid preparatlarından və antibiotiklərdən istifadə etmişdir.

Nozematozun öyrənilməsi vəziyyəti. Nozematoz arıların parazitar xəstəliyi olub əsasən yaşlı arılar tutulurlar. Ona görə də bu xəstəliyin öyrənilməsi alimlərimizin diqqət mərkəzində olmuşdur.

R.P. İbrahimov respubikamızın bir sıra rayonlarında nozematoz xəstəliyini öyrənmiş və arıların 28,5%-nin bu xəstəliyə yoluxduğunu göstərmişdir. Onun apardığı tədqiqat işləri göstərir ki, xəstəlik əsasən dekabr ayında inkişaf edir, yanvarda yoluxmuş arı ailələrinin sayı artıq fevral və mart aylarında son həddə çatır.

R. L. Sultanov, H. H. Əliyev (4) respublikamızın müxtəlif bölgələrində arı ailələrində nozematozun epizootologiyasını və ona qarşı aparılan mübarizə tədbirlərini öyrənmişdir. Müəyyən olunmuşdur ki, yuvanın nəcislə çirklənməsi və arıların nozematoza yoluxması dağlıq bölgə ailələrində aran bölgəsində yayılmış ailələrə nisbətən 6,6 və və 1,5 dəfə çox olmuşdur. Zəif ailələrdə qışlama dövründə yuvaların nəcislə çirklənməsi və arıların nozematoza xəstəliyinə yoluxması güclü ailələrə nisbətən 2,8 və 1,7 dəfə çox olmuşdur.

Arı ailələri payızda qışlamaya qoyulduqda onların arxa bağırsağındakı nəcisin yükü dağlıq bölgədə, dağətəyi və aran bölgəsi arılarına nisbətən 55 və 30% çox olmüşdur. Həmin ailələrin arıları yazda hələ təmizlk ucusu etməmişdən əvvəl onların arxa bağırsağındakı nəcisin yükü dağlıq bölgədə 2,2, dağətəyi bölgədə 2,1 və aran bölgəsində isə 1,9 dəfə artıq olmuşdur.

R. L. Sultanov nozematoza yoluxmanın əsas səbəblərindən biri kimi arı ailələrinin zəif gücdə qışlamaya qoyulduğunu bildirir. Ona görə də o, göstərir ki, yaz və payız inkişafını aranda, qışlamanı isə dağətəyi bölgədə keçirən arı

ailələrinin inkişafından güclü olduğundan arıların arxa bağırsağındakı nəcisin yükü (13,4-33,6%) yuvanın çirklənməsi (36,8-89,3%) və nozematozla yoluxması (16,4-32,7%) az olur.

R.L.Sultanov, H.H.Əliyev (4) respublika şəraitində nozematozla yoluxmuş arıları 21 gün müddətində fumagilin peraparatı ilə müalicə etməklə ailələrin sağlamlaşdırılmasına nail olmuşlar.

Varroatozun öyrənilməsinin vəziyyəti. Varroatoz respublikamızda arı ailələrinin kütləvi surətdə tələf olmasına səbəb olan parazitar xəstəlikdir. Yan Sin Xe (4) ilk dəfə Çinin cənub əyalətərində yaşayan bal arılarında Varroa Yakobsoni gənəsini müşahidə etmiş və bu barədə məlumat vermişdir.

R. L. Sultanov (4) respublikamızın Şamaxı və İsmayıllı rayonlarındakı arıxanalarda ilk dəfə varroatozun törədici olan Barroa Yakobsoni gənəsni müşahidə etmişdir.

R. L. Sultanov varroatozun respublikamızda yayılmağa başladığı vaxtı, onun inkişaf dinamikasını, epizootologiyasını, diaqnostikasını və ona qarşı aparılan müalicə proflaktika tədbirlərini öyrənmişdir.

Respublikanın müxtəlif təbii iqlim şəraitində varroatoz gənəsinin inkişaf etmə mexanizmini öyrənərkən R. L. Sultanov (4) göstərir ki, dağətəyi və dağlıq bölgələrdə qışlayan ailələrdə ölmüş arıların üzərində olan gənələr arılarla birlikdə ölürlər. Soyuq şəraitdə gənə olmuş arını tərk edib canlı arının orqanizmasına keçə bilmir.

Aran bölgələrinin arıları qışlamanın isti günlərində fəaliyyət göstərdiyindən ölmüş arılar üzərində olan gənələr yuvadakı canlı arıların bədəninə keçir. Bu respublikamızın aran bölgələrində gənənin inkiafınfının spesifik xüsusiyyətidir və aparılan müalicə proflaktika tədbirlər zamanı nəzərə alınmalıdır.

R.L.Sultanov və başqaları (5) apardıqları tədqiqatlardan müəyyən olunmuşdur ki, respublika şəraitində arı ailələrinin varroatoz gənəsilə yoluxma dərəcəsi yazda fevralın axırında 7,6-8,4%, martın əvvəlində 11,5-16,3%, payızda sentyabrın axırında 20,1-21,3% və oktyabrın ortalarında isə

23,1% olmuşdur. Aran bölgəsinin arı ailələridə varroatoza yoluxma dərəcəsi dağlıq və dəğətəyi bölgə arılarına nisbətən müvafiq olaraq yazda 1,8-2,2%, payızda isə 11,5-28,1% çox olmuşdur. Aran bölgələrində arı ailələrinin daha tez inkişafa başlaması onlarda gənənin tez artmasına şərait yaradır.

Aparılmış tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, arı ailələrinin olduğu bölgədən və şəraitdən asılı olaraq müxtəlif vaxtlarda müalicə aparılmalıdır. Aranvə dağətəyi bölgələrdə fevralın axırında, dağlıq bölgədə isə martın əvvəlində yaz müalicə işləri aparılmalıdır. Payız müalicə işləri aran və dağətəyi bölgələrdə oktyabrın 10-20-si arasında, dağlıq bölgələrdə isə sentyabrın 20-30-u arasında aparılmalıdır.

Arı ailələrinin varroatozu zamanı müalicə məqsədilə folbekst, fenotiozin, quzuqulağı və qarışqa turşusu preaparatlarından istifadə edilməlidir.

Azərbaycanda arı xəstəliklərinin öyrənilməsi vəziyyətini təhlil etdikdə görürük ki, respublikamızda yayılmış arı xəstəlikləri ardıcıl surətdə tədqiq edilməmiş, nozematoz kimi qorxulu və iqtisadi cəhətdən daha çox ziyan vuranxəstəliyin elmi əsaslarının öyrənilməsi çox səthi aparılmışdır.

Naxçıvan MR-in ərazisində isə arı xəstəliklərinin öyrəilməsinə dair heç bir tədqiqat işi aparılmamışdır. Ona görə də ərazidə daha geniş yayılmış, arıçılığa böyük ziyan vuran, nozematozun biologiyasının, epizootologiyasının və ona qarşı müalicə-profilaktik tədbirlərin öyrənilməsinin əhəmiyyətini nəzərə alaraq bu istiqamətdə tədqiqat işlərinin aparılmasının aktuallığı və əhəmiyyəti böyükdür.

H.T.Hüseynov (1) apardığı tədqiqat işi nəticəsində müəyyən etmişdir ki, Naxçıvan MR ərazisində arı ailələrinin nozematozla yoluxma dərəcəsi onların məskunlaşdığı ərazidən asılı olaraq dəyişir. Arazboyu düzənlik ərazidən dağlıq əraziyə qalxdıqca arı ailələrinin nozematozla yoluxma dərəcəsi artır, bal məhsuldarlığı isə azalır. Lakin orta dağlıq ərazi bal bitkiləri ilə zəngin olduğundan bu bölgədə

məskunlaşmış arı ailələrinin bal məhsuldarlığı sağlam arı ailələrində olduğu kimi olmşdur.

R.L.Sultanov, H.T.Hüseynov (5) göstərirlər ki, Naxçıvan MR ərazisində nozematoz geniş yayılmış xəstəliklərdən biridir və arıçılığa küllü miqdarda ziyan vurur. Xəstəlik əsasən fevral-mart aylarında daha çox özünü biruzə verir. Arazboyu düzənlik, orta dağlıq və Zəngəzur dağlıq ərazilərində nozematoza yoluxma dərəcəsi müvafiq olaraq zəif ailələrdə 35,5%, 43,2% və 53,1%, orta gücə malik olan ailələrdə 24,5%, 26,1% və 38,2%, güclü ailələrdə isə 18,1%, 22,1% və 25,1% olmuşdur.

R.H.Sultanov, H.T.Hüseynov (5) müəyyən etmişlər ki, Naxçıvan MR ərazisində nozematozla yoluxmuş 25 günlük arılarda azotun miqdarı 5 günlük arılarla müqayisədə 29,6%, eyni yaşda olan sağlam arılarla müqayisədə isə 34,5% azalır. Bu onu göstərir ki, xəstə arıların orta bağırsağında qidanın qana sorulması prosesi pozulur.

H.T.Hüseynov və başqaları (3) göstəirlər ki, damazlıq məqsədilə xəstəliklərə davamlı və yüksək məhsuldarlıq qabiliyyətinə malik olan arı ailələri seçilməlidir. H.T.Hüseynov (2) Naxçıvan MR arı ailələrinin gücündən asılı olaraq nozematozun epizootologiyasını öyrənərkən müəyyən etmişdir ki, Arazboyu düzənlik, dağətəyi və dağlıq ərazilərdə qışlama dövründə güclü arı ailələri, orta gücə malik arılarla müqayisədə 7-14,5%, zəif gücə malik olanlar isə 16,0-22,4% az yem sərf edirlər.

Ə d ə b i y y a t:

1. Hüseynov H. T. «Nozematoz xəstəliyinin epizootoloji vəziyyətindən asılı olaraq arı ailələrinin bal məhsuldarlığı». Odlar yurdu Universitetinin elmi və pedaqoji xəbərləri. Bakı, 2002, № 7, s. 99-105
2. Hüseynov H. T. «Naxçıvan MR-da arıların nozematozla yoluxmasının epizootoloji vəziyyəti». Azərbaycan Zooloqlar cəmiyyətinin I qurultayının mateialları. Elm, Bakı, 2003, s.183-187

3. Hüseynov H.T., Sutanov R.L., Tahirov Ə. S. Ana arıların yetişdirilməsi üçün məhsuldar və xəstəiklərə davamlı damazlıq arı ailələrinin seçilməsi. XX əsrin sonlarında heyvanlar aləminin öyrənilməsi və qorunmaına dair elmi konfransın materialları. Elm, Bakı, 2001, s. 155-156
4. Sultanov R. L., Hüseynov H.T. «Sağlam arı ailələri gələcək məsuldarlığın təminatçısıdır». Odlar yurdu Universitetinin elmi və pedaqoji xəbərləri.Bakı, 2002. №7, s.106-110
5. Sultanov R. L., Hüseynov H.T. «Naxçıvan MR şəraitində nozematozla yoluxmuş arılarda gedən fizioloji dəyişkənliklər. Azərbaycan Zooloqlar cəmiyyətinin I qurultayının materialları. Elm, Bakı, 2003, s. 262-268
6. Sultanov R. L. Azərbaycanda bal arısının biologi xüsusyyətləri. II c ld. İrşad, Bakı, 1993, s. 64-78
7. İbrahimov R. P. Arı xəstəlikləri və onlarla mübarizə tədbirləri. Elm, Bakı, 1955, s.3-110

HƏMİD FƏRƏCOV
Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN SU ANBARINDA EKOLOJİ AMİLLƏRİN HEYVANAT ALƏMİNƏ TƏSİRİ

Naxçıvan MR ərazisində ümumi sahəsi 20 min hektara, su tutumu 2,0 milyard m^3-ə bərabər olan 20-dən artıq müxtəlif həcmli su anbarları mövcuddur. Bu sututarlar əkin sahələrinin suvarılması üçün mühüm əhəmiyyət kəsb edirlər. Yalnız MR-da ən iri sututar olan Naxçıvan su anbarı (sahəsi 14500 ha, su tumu 1 milyard 350 milyon m^3) suvarma, balıqçılığın inkişafı üçün, eyni zamanda köçəri quşların qışlamaları üçün mühüm əhəmiyyətə malik olan hövzədir.

1973-cü ildən Naxçıvan Elm Mərkəzinin «Daxili suların biologiyası» laboratoriyasının əməkdaşları tərəfindən perspektivliyini nəzərə alaraq Naxçıvan su anbarının hidrofaunası kompleks şəkildə və sistemli tədqiq edilmişdir (2.3). Daha doğrusu, su anbarının ekoloji xüsusiyyətləri, zooplankton, zoobentos və ixtiofaunanın növ tərkibi,

biokütləsi, məhsuldarlığı, mövsümlərlə əlaqədar olaraq mövcud ekoloji faktorların heyvanat aləminə təsiri öyrənilmişdir (4).

Tədqiqat işləri dövründə Naxçıvan və Arpaçay sututarları xüsusi diqqət mərkəzində olmuşdur. 610 hektar sahəyə, 150 milyon m^3 həcmində su tutumuna və suyunun şəffaflığına görə Arpaçay su anbarı balıqçılıq təsərrüfatı üçün tam yararlı sututarıdır. Eyni zamanda digər su anbarlarının tədqiq olunması elmi cəhətdən mühüm əhəmiyyət kəsb edir.

Tədqiqatlar su anbarlarında zooplankton, zoobentos və ixtiofaunanın növ tərkibi, onların məhsuldarlığı öyrənilmiş, ekoloji amillərin heyvanat aləminə təsiri müəyyən edilmişdir.

Naxçıvan su anbarında ekoloji amillərin hidrofaunaya təsiri. Naxçıvan su anbarı sərt kontinental iqlim zonasında yerləşdiyindən qış aylarında suyunun temperaturu $+5^0$ C, isti yay aylarında isə $+25^0$C + 27^0C olur. Suyun illik sərfi, üstəgəl isti aylarda intensiv buxarlanma sututarda səviyyənin təxminən 13 m-ə qədər aşağı düşməsinə səbəb olur. Bu dövrdə litoral zonada 100 km^2-ə qədər sahə quruduğundan, su tutumu 240 milyon m^3-dək azaldığından su anbarında yaşayan orqanizmlər, onların yumurta və kürülərinin xeyli hissəsi quruyub tələf olur. Proses sututarın ümumi bioloji məhsuldarlığının aşağı düşməsinə səbəb olur.

Digər tərəfdən isti yay aylarında göy-yaşıl yosunların sürətli inkişafı, pH-ın 6,4-dən 9-a qədər artması, oksigen rejiminin pozulması, yəni çatışmamazlığı müşahidə edilir. Bu dövrdə xüsusilə iri çəki fərdləri arasında oksigen azlığından tələfat baş verir.

Naxçıvan su anbarının zooplankton faunası. Su anbarında zooplankton orqanizmlərin növ tərkibi və biokütləsinin öyrənilməsi məqsədilə 300-dən artıq keyfiyyət, 800-ə qədər kəmiyyət nümunələri götürülmüşdür, eyni zamanda, həmin orqanizmlərin balıqların qidalanmasında rolunu öyrənmək üçün 300 balıq körpəsinin, 30 iri balıq fərdinin mədələrindəki möhtəviyyat analiz edilmişdir.

Tədqiqatlar dövründə Naxçıvan su anbarında 71 növ zooplankton orqanizmin yaşadığı qeydə alınmışdır. Mövsümlər üzrə növ tərkibində dəyişkənliklər baş verməyə başlayır. Yazda növlərin sayı 71 olduğu halda, yayda – 40, payızda – 34, qışda isə 14 növə qədər dəyişilir. Orqanizmlərin sayının yüksək göstəricisi 110000 əd/m^3, biokütləsi isə 3,1 q/m^3 olmuşdur. 1985-ci ildə sayın ən aşağı göstəricisi -2986 əd/m^3, biokütləsi – 0,136 q/m^3 1986-cı ildə qeyd edilmişdir.

Qeyd etmək lazımdır ki, ekoloji amillərin təsir dərəcəsindən asılı olaraq zooplankton orqanizmlərin növ tərkibi və biokütləsində hər il dəyişiklik baş verir.

Analizlərdən məlum olmuşdur ki, sututarda yaşayan balıqlar içərisində yalnız zooplanktonla qidalanan balıq növü yoxdur. Çəki körpələrini qidalanmasına görə 4 qrupa bölmək olar: - 8,-10,8 mm böyüklüyündə olan sürfələrin qidasının 98%-ni zooplankton, 10-13 mm böyüklüyündə olan süfrələrin qidasının 92%-ni zooplankton, 7,3%-ni isə bentik orqanizmlər təşkil edir.

Naxçıvan su anbarının bentik orqanizmləri. Tədqiqatlar dövründə su anbarında 16 sistematik qrupa aid olan 117 növ və forma dib orqanizmi aşkar edilmişdir. Növlərin tərkibinin çoxluğuna görə xironomidlər birinci yeri (22,2%), ikinci yeri sərtqanadlılar (16,2%), üçüncü yeri oliqoxetlər (6,0%) tutmuşlar. Qalan faizlər isə müxtəlif qruplar arasında bölüşdürülmüşdür. Dib orqanizmləri müxtəlif ekoloji qruplardan – fitofil, daşlı, lilli, qumlu qruntlarda yaşayan növlərdən ibarətdirlər.

Növlər üçün optimal şəraitə malik olan may, iyun, iyul aylarıdır. Bu aylarda sututarda suyun səviyyəsi maksimuma çatmaqla ekoloji şəraitin bərpa olunması, suyun t^0 –nun + 23^0 C-də uzun müddət stabil qalması, çoxalmaq üçün kənardan uçub gələn hava-su orqanizmlərin yumurta, balıqların kürü tökmələri üçün əlverişli şərait yaranmış olur. Bu dövrdə növlərin tərkibi və biokütlələri də artmış olur.

İyun, iyul aylarından başlayaraq su anbarında suyun səviyyəsinin aşağı düşməsi nəticəsində dib orqanizmlərinin

növ tərkibinin və biokütləsinin tədricən aşağı düşməsi prosesi başlayır.

Müxtəlif illərdə dib orqanizmlərin növ tərkibi və biokütlələri fərqli surətdə dəyişmiş olur. 1986-cı ildə bentik orqanizmlərin sayı 3088 əd/m^2, və biokütləsi 6,638q/m^2 olmuşdur.

Lilli biotop böyük sahəni əhatə etdiyindən məhsuldarlığı da yüksəkdir. Belə ki, burada 5 il ərzində növlərin sayı 10-12, fərdlərin sayı isə 5910 əd/m^2-ə bərabər olmuşdur(1).

Çəkinin 13-20 mm böyüklüyündə olan körpələrinin qida rasionunun təxminən 70%-ni dib orqanizmləri təşkil edir. Qeyd etmək lazımdır ki, Çəki balığı (Cyprinus carpio L.) bütün illərdə balıq ovunda mühüm əhəmiyyət kəsb etmişdir.

Hal-hazırda Naxçıvan su anbarında bentik orqanizmlərə aid olan çay xərçəngi (Astacus leptodactylus Esch.) geniş yayılmış, sututarda sanitar vəzifəsini görməklə bərabər sənaye ovunda da mühüm rol oynayır.

Dib orqanizmlərinin Naxçıvan su anbarında sahələr üzrə yayılmaları. Su anbarında hidroloji rejim, biotik və abiotik faktorlar, o cümlədən suyun axını, dərinlik, suyun t^0-u, şəffaflığı və qruntların tərkibi biri-birindən fərqləndiyindən sututarın yatağını şərti olaraq yuxarı, orta və aşağı hissələrə bölmək məqsədyönlüdür. Yuxarı hissə relyefinə görə hündürlüyə malik olduğundan axının güclü olması, isti aylarda suyun səviyyəsinin sürətlə aşağı düşməsi bu zonada orqanizmlərin, balıq kürüsünün, hava-su orqanizmlərinin sürfə və yumurtalarının məhvinə, ekosistemin bioloji məhsuldarlığının aşağı düşməsinə səbəb olur. Bu hissə əsasən pelofil biotopdan ibarət olduğundan xiromomid və oligoxet sürfələri ilə zəngin olur.

Orta hissədə dərinlik 15-16 m olmasına baxmayaraq litoral zonada da yay aylarında quruma prosesi intensiv getdiyindən orqanizmlər arasında tələfat çox olur. Hər iki hissədə suyun şəffaflığı azdır.

Aşağı – 3 cü hissə ən dərin olub 17-35 m-ə çatır və suyun şəffaflığı yüksək olduğundan bentik növlərin sayı 45-ə çatır. Ən çox xironomid, sərtqanadlı, oliqoxet, ostrakod və xərçəngkimilərlə zəngin olur.

Aparılmış tədqiqatların nəticələri göstərir ki, Naxçıvan su anbarı iqtisadi cəhətdən mühüm sututar hesab olunur. Eyni zamanda sututarda yaşayan orqanizmlər keyfiyyət və kəmiyyət cəhətdən qənaətbəxş olmadığından su anbarı hidrobioloji standartlara uyğun olaraq orta məhsuldar (mezatrof) səviyyəlidir.

Hər il təkrarlanan ekoloji faktorların mənfi təsiri orqanizmlərin növ tərkibinin və biokütləsinin aşağı düşməsinə səbəb olur. Naxçıvan su anbarında Ağ amur-(Ctenopharyngodon idella (Valen.) və Ağ qalınalın-Hypopthalmichtys molitrix (Valen.) balıq növlərini balıq ovu zamanı götürməmək, dərhal suya buraxmaq və onların çoxalması üçün bütün imkanlardan istifadə etmək lazımdır.

Hər iki növün çoxalmasına nail olunarsa su anbarında onlar sürətlə çoxalan yosunları yeməklə pH-ın miqdarının aşağı düşməsinə, suda həll olmuş oksigenin miqdarının artmasına səbəb olarlar. Əks təqdirdə hövzədə balıqlar arasında baş verən faciə təkrarlanacaq. İxtiofauna hər iki növün körpələri ilə zənginləşdirilərsə sututarda hidrobioloji rejimin yaxşılaşmasına və əlavə, ucuz balıq məhsulunun əldə edilməsinə şərait yaranar.

Ədəbiyyat:

1.Fərəcov H. R., Bayramov A. B., Məmmədov T. M., Məmmədov R. A. 1986-1990-cı illərdə Naxçıvan su anbarında aparılan elmi-tədqiqat işləri haqqında hesabat. Naxçıvan, 1990

2. Fərəcov H. R. Naxçıvan su anbarının dib orqanizmləri. Naxçıvan Elmi-tədqiqat bazasının əsərləri. I buraxılış, Naxçıvan, Əcəmi, 2002. s. 143-147

3. Байрамов А. Б., Фараджев Г. Р. Хирономиды илистого биотопа Нахичеванского водохранилища. Тезисы докладов респуб. научн. конференции. Нахичевань, 1988. с. 12-13

4. Фараджев Г. Р., Мамедов Р. А., Мамедов Г. М., Байрамов А. Б. Гидробиологический режим Нахичеванского водохранилища. Тезисы докл. респ. научн. конференции. Нахичевань, 1989. с. 31-36

QARA MUSTAFAYEV
Bakı Dövlət Universitieti

HÜSEYN NOVRUZOV
Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN MR-də QUŞLARIN SİNEKOLOGİYASININ ƏSAS GÖSTƏRİCİLƏRİ

Avropa ilə Asiya faunası arasında aralıq mövqe tutan Naxçıvan Muxtar Respublikasının ornitofaunasında bəzi yarımnövlər arasında hibrid formaların müəyyən edilməsi zoocoğrafi ümumiləşdirmələr aparmaqda əhəmiyyətli ola bilər.

Naxçıvan MR-də ornitofaunanın taksonomik tərkibi də göstərir ki, onların zoocoğrafi və ekoloji qrupları müxtəlif olmalıdır. Doğrudan da muxtar respublikanın ərazisinin Azərbaycanın ümumi ərazisinə nisbətən 6,2 faiz təşkil etməsinə baxmayaraq, ölkəmizdə yayılmış quş taksonlarının çoxu Naxçıvan faunasına da daxildir.

Cədvəl 1.

Naxçıvan MR-də ornitofaunanın taksonomik tərkibi

Taksonlar	Azərbaycanda	Naxçıvanda
Dəstələr	17	17
Fəsilələr	56	49
Cinslər	177	130
Növlər	366	217

Quşların əsas sinekoloji göstəricilərindən biri ornitofaunanın mövsüm dinamikasıdır. Naxçıvan Muxtar Respublikasının ornitofaunasında növlərin sayı ən çox olan

ekoloji qrup (93 növ və ya 43,1%) yuvalayan quşlardır. Bu baxımdan oturaq quşlar ikinci yer tutur (73 növ və ya 33,8 %).Qışlayan quşlar azdır-16 növ və ya 7,4%. Bu aydın göstərir ki, Naxçıvanın quraq və kontinental iqlimi, o cümlədən qış ayları sərt şaxtalar və quşların qida bazasının zəifliyi onların kütləvi qışlamasına imkan vermir. Köçəri quşlar da az deyil (11,1%). Ona görə ki, Naxçıvanın ərazisi Avropanın şərq hissəsində olan bir sıra quşların köçmə istiqamətində yerləşir. Bəzi illərdə köçmə vaxtında görünən, yəni stabil görünməyən quşların (təsadüfən olanlar) başqa yerlərə nisbətən çox olması da muxtar respublikanın ərazisinin coğrafi mövqeyi ilə bağlıdır.

Cədvəl 2.

Naxçıvanın ornitofaunasının mövsüm dinamikası

Göstəricilər	Növün sayı	%-lə
Yuvalayan	93	43,1
Oturaq	74	33,8
Qışlayan	16	7,4
Köçəri	24	11,1
Təsadüfi olanlar	10	4,6
Cəmi	217	100

Muxtar respublikada ornitofaunanın biotopa görə ekoloji qrupları onların yerli şəraitə uyğunlaşmasını aydın göstərir. Keyfiyyət baxımından (növlərin sayı) ən çox zəngin olan qrup limnodofildir. Bunlar muxtar respublikada yayılmış 216 növ quşun 63 növ və ya 29,2 %-ni təşkil edir. Şubhə yoxdur ki, limnodofil quşların çox olması Araz, Arpaçay, Vayxır, Qazançı, Sirab su anbarları, onlardan çıxan kanallar, eləcə də Batabat, Göygöl, Salvartı və Qanlıgöl kimi təbii su hövzələri ilə əlaqədardır. Limnodofil qrupdan sonra ikinci yeri dendrofil quşlar tutur (27,3%). Dendrofil quşları cəlb edən Şahbuz və Ərəfsə meşələri, qismən də çay

vadilərində olan kolluqlardır. Antropogen landşaftlardan muxtar respublikada, xüsusən Ordubad rayonunda olan oazis xarakterli meyvə bağları dendrofil quşların steriotip tələblərinə uyğun biotopdur.

Petrofil və oreofil qruplar ikisi birldikdə dendrofil qrup qədər növü birləşdirir (57 növ və ya 26,4%). Bu da təbiidir. Ona görə ki, Naxçıvan MR dağlıq ölkədir və onun ərazisində qayalıqlar və başqa açıq sahələr böyük yer tutur. Qayalıqlar petrofil növlər üçün, qumsal torpaqlı açıq sahələr isə oreofil quşlar üçün əlverişli sığınacaq və nəsilvermə yerləridir.

Naxçıvanın selitep sahələrində bir sıra sinantrop quşlar məskunlaşır. Q.T.Mustafayevin bölgüsünə görə quşlardan ağ leylək, çöl göyərçini, qara uzunqanad, şəhər qaranquşu və adi sığırçın natamam sinantrop, qumru, dam bayquşu, kənd qaranquşu və dam sərçəsi isə tamam sinantrop quşlardır(1).

Cədvəl 3.

Naxçıvanda yayılmış quşların biotopuna görə bölgüsü

Ekoloji qruplar	Növün sayı	%-lə
Limnodofil	63	29,0
Dendrofil	59	27,2
Evritop	35	16,1
Petrofil	28	12,9
Oreofil	28	13,0
Sinantrop	4	1,8
Cəmi:	217	100

Naxçıvan MR-də nəsil verən quşların (166 növ) yuva şəraitinə görə bölgüsü onların əsas biotopları ilə bağlıdır. Açıq şəraitdə (yerdə, qaya üzərində, ağac və kol üzərində, damların üstündə və s.) yuvalayanlar çoxluq təşkil edir– 118

növ və ya 71%. Örtülü şəraitdə (ağac koğuşunda, torpaqda qazılmış yuvalarda və antropogen tikintilərin örtülü yerlərində) yuvalayanlar növün sayına görə ikinci yeri tuturlar- 26 növ və ya 15,7 faiz. Aralıq mövqe tutanlar, yəni eyni populyasiyanın açıq və örtülü şəraitdə yuvalayan fərdləri olan növlər daha da azdır – 22 növ və ya 13,3 faiz. Güman etmək olar ki, örtülü şəraitdə yuvalayan və aralıq mövqe tutanların açıq şəraitdə yuvalayanlara nisbətən azlıq təşkil etməsi muxtar respublikada qayalıqların və yarğanların quşları gizlədici rolu ilə əlaqədardır. Belə şəraitdə quşun özünü və nəslini gizlətməsi asan olur. Ona görə də örtülü şəraitdə yuvalamağa az ehtiyac qalır. Quşların özlərini qoruması üçün təhlükəni uzaqdan görüb qaçmaları onların açıq şəraitdə yuva tikməyə üstünlük verməsi səbəblərindən biri ola bilər (4).

Cədvəl 4.

Naxçıvanda nəsil verən quşların yuva şəraitinə görə bölgüsü

Yuva şəraiti	Növün sayı	%-lə
Açıq şəraitdə yuvalayanlar	118	71,0
Örtülü şəraitdə yuvalayanlar	26	15,7
Aralıq mövqe tutanlar	22	13,3
Cəmi:	166	100

Naxçıvanda nəsil verən quşların (166 növ) sosiologiyası da onların açıq şəraitdə yuvalamağa üstünlük verməsini təsdiq edir. Cüt- cüt yaşayıb nəsil verən, yəni yuva sahəsi olan quşlar çoxdur- 139 növ və ya 83,8 faiz. Bu dəlil Muxtar respublikanın ərazisində qida bazasının kasıblığı və nisbətən bərabər paylanması ilə əlaqədar ola bilər. Təsadüfi deyil ki, koloniya əmələ gətirən quşlar (14 növ və 8,4%) az olub, aralıq mövqe tutan quşların (13 növ və ya 7,8%) sayına

bərabərdir. Bu da təbii ki, ərazinin iri su hövzələrindən uzaqda yerləşməsi ilə bağlı olub, kolonial şəkildə yaşamağa üstünlük verən bəzi növ su- bataqlıq quşları üçün tələb olunan şəraitin məhdudluğunu göstərir (2).

Cədvəl 5.

Naxçıvanda nəsil verən quşların (166 növ) sosiologiyası

Sosioloji qruplar	Növün sayı	%-lə
Yuva sahəsi olanlar	139	83,3
Koloniya əmələ gətirənlər	14	8,4
Aralıq mövqe tutanlar	13	7,8
Cəmi:	166	100

Quşların qida xarakterinə görə bölgüsü yenə də Naxçıvanının təbii şəraiti ilə səciyyələnir. Fitofaq növlər azdır- 15 növ və ya 6,9%. Ona görə ki, qış aylarında qar örtüyü, hətta qalın şeh düşüb donması nəticəsində xırda toxumların üzəri örtülür və quşların onu görməsi çətinləşir. Bu səbəbdən muxtar respublikada zoofaq və qarışıq qida ilə yemlənənlər çoxluq təşkil edir. Həmçinin səciyyəvi bitkiyeyən quşlar da körpə balalarını həşərat ilə bəsləyirlər. Bununla əlaqədar olaraq quşların evrifaq qrupu keyfiyyət baxımından zəngindir (85 növ və ya 39,4 %) (3).

Cədvəl 6.

Naxçıvanda quşların qida xarakterinə görə qrupları

Qida tərkibi	Növün sayı	%-lə
Fitofaqlar	16	7,0
Zoofaqlar	116	53,6
Evrifaqlar	85	39,4
Cəmi:	217	100

Ə d ə b i y y a t:

1. Azərbaycan faunası. IV cild, quşlar. Elm nəşriyyatı. Bakı, 1977, 314 s.
2. H.M.Novruzov, A.M.Mehdiyev. Arazboyu düzənlikdə yayılmış quşların mühafizə problemi. XI elmi konfransın materialları. Naxçıvan, 1990, s. 220-222
3. H.M.Novruzov. Naxçıvan MR-də ornitoloji tədqiqatların qısa tarixi. Bakı,2000, s. 68-70
4. T.H.Talıbov, H.M.Novruzov. Ammoperdix qriseogularis Azərbaycan respublikası üçün yeni növdür. Azərbaycan EA məruzələri, VI cild. № 4-6. Elm nəşriyyatı, Bakı, 2000, s. 205-208
5. Novruzov H.M. Naxçıvanda ağbığ silvinin (silvia mustasea) çoxalma biologiyası. Naxçıvan Muxtar Respublikasının flora və faunasının tədqiqi. Naxçıvan, 2002, s. 112-114

SAHİB HACIYEV
AMEA Naxçıvan Bölməsi
Bioresurslar İnstitutu

SƏDƏRƏK DÜZÜNÜN TORPAQ ÖRTÜYÜ STRUKTUR TƏRKİBİNİN ÖYRƏNİLMƏSİ VƏ ONLARDAN SƏMƏRƏLİ İSTİFADƏ YOLLARI

Muxtar Respublikanın relyef şəraiti ilə əlaqədar olaraq yararlı torpaq sahələrinin azlığı, torpaqlardan kortəbii surətdə düzgün istifadə olunmaması, şorlaşma, şorakətləşmə, eroziya, bataqlıqlaşma və sair səbəblərdən əkin dövriyyəsindən çıxaraq yararsız hala düşmüşdür. Məhz, buna görə də təbii və kənd təsərrüfatı bitkiləri altında olan torpaqlardan səmərəli istifadə etmək üçün ərazidə tədqiqatların aparılması çox aktual və zəruri məsələdir.

Apardığımız tədqiqatlar Muxtar Respublikanın ən ucqar qərb hissəsində yerləşən və mühüm təsərrüfat əhəmiyyəti olan Sədərək rayonunun mərkəz və cənub hissəsinin geniş bir sahəsini əhatə edən eyni adlı düzdə

yayılan torpaqların münbitliyinin yüksəldilməsi və ekoloji tarazlığın bərpası üçün bir neçə dəyərli tövsiyə və təkliflər verməyə imkan yaratmışdır.

Sədərək düzündə təbii və kənd təsərrüfatı bitkiləri altında torpaqlardan səmərəli istifadə etmək üçün elmi əsaslarla ərazidə tədqiqatlar aparmaq zəruridir. Buna müvafiq olaraq mövzunu işləyərkən aşağıdakı məsələlər qarşıya qoyulmuş və yerinə yetirilmişdir.

1. Ərazidə qoyulan torpaq kəsimlərindən götürülmüş torpaq nümunələrinin morfoloji, mexaniki və kimyəvi xassələrinin öyrənilməsi.

2. Tədqiqat obyektində olan sahələrdə təbii və mədəni bitkilərin məhsuldarlığının öyrənilməsi.

3. Torpaq və bitki nümunələrindən alınan məlumatları ümumiləşdirərək nəticələr çıxarmaq və onların xəritələşdirilməsi.

Mövzu yazılarkən əsasən Q,Ş,Məmmədovun ədəbiyyat materialları və metodikasından istifadə olunmuşdur. (3)

Eyni zamanda Q.Ş.Məmmədovun, M.P. Babayevin, M.E. Salayevin və sair alimlərin «Azərbaycan Respublikasında təbii biosenozlar və kənd təsərrüfatı bitkiləri altında torpaqların qiymətləndirilməsi, aqroistehsalat qruplaşdırılması və münbitlik modelləri» adlı metodik vəsaitlərinə istinad edilmişdir.

Sədərək düzənliyi torpaqlarının qiymətləndirilməsində və aqroistehsalat qruplaşdırılmasında ərazinin təbii, iqtisadi-sosial şərait amilləri ilə bərabər, torpaqların morfoloji, fiziki və kimyəvi xüsusiyyətlərinə də xüsusi diqqət verilmişdir.

Məhz, bu məqsədlə Sədərək düzünün ərazisində 8 torpaq kəsimi qoyulmuş və ətrafındakı sahələrdə təbii, mədəni bitkilərin nisbi məhsuldarlığına nəzarət edilmişdir.

Apardığımız tədqiqatlar nəticəsində ərazinin təbii-iqtisadi şərait amilləri öyrənilmiş, toplanılmış materiallar əsasında torpaqların fiziki, kimyəvi və aqrotexniki xassələri təhlil olunaraq növmüxtəlifliklər müəyyən olunmuşdur. Bu torpaqlar müəyyən olunan əlarnətlərinə görə fərqli keyfiyyət

və dəyərlilik əhəmiyyətinə malik olur. Ona görə də ərazidə yayılan torpaqların tam bonitet şkalasını tərtib etmək üçün Q,Ş,Məmmədov və A.B,Cəfərovun "təshih" əmsallarından istifadə olunmuşdur. (2)

Bu baxımdan Sədərək düzündə yayılan əsas və yarım tip - qədimdən suvarılan-boz, açıq-şabalıdı, boz-bataqlıq-çəmən, boz-zəif şorakətləşmiş-bataqlıq-çəmən torpaqları 16 növmüxtəlifliyinə ayırmaqla tam bonitet şkalasına görə maksimum 100, minimum 32 bal almışdır (Cədvəl 1).

Tərtib olunmuş cədvəldən aydın olur ki, Sədərək düzündə yayılan torpaqların təsərrüfat dəyərliliyinə görə ballar müəyyən olunarkən Azərbaycan Respublikasında olduğu kimi 10 sinif və 5 qrupda birləşdirilmişdir. (3)

Tədqiqat obyekti üzrə işlənmiş aqroistehsalat qruplaşdırılması aqromeliorativ tədbirlərə ehtiyacı olan torpaq qruplarını da üzə çıxarmağa imkan vermişdir. Bu qruplaşdırma bütövlükdə Sədərək düzündə yayılmış torpaq tipləri və yarım tiplərini birləşdirir.

Ərazinin landşaft komplekslərindən asılı olaraq onların aparıcı komponenti olan torpaqlar daha kiçik taksonomik vahidlərə bölünürlər. Torpaq tipinin balı və aqroistehsalat qrupunu bilməklə, təbii və kənd təsərrüfatı bitkiləri altında olan torpaqların köklü yaxşılaşdırılması üçün müvafiq tədbirlərin (meliorasiya, gübrələmə, eroziyaya qarşı tədbirlər, suvarma və s.) hansı torpaqda aparılmasını müəyyən etmək olur.

100 ballıq şkalaya görə Sədərək düzü torpaqlarının bonitet cədvəli

Cədvəl 1

№	Torpaqların adı	Bonitet balı	Bal sinfi	Keyfiyyət qrupu
1.	Yüngül gilliciəli, qalın, qədimdən suvarılan boz	100	X	I yüksək
2.	Orta gilliciəli, qalın, zəif şorakətləşmiş suvarılan boz-çəmən	95	X	

3.	Orta gilliclı, orta qalınlıqlı, suvarılan açıq şabalıdı	86	IX	
4.	Ağır gilliclı, qalın, suvarılan boz	82	IX	
5.	Agır gilliclı, qalın, suvarılan, bataqlıq-çəmən	75	VIII	
6.	Orta gilliclı, orta qalınlıqlı, zəif eroziya uğr-ş, açıq-şabalıdı (örüş)	63	VII	II yaxşı
7.	Orta gilliclı bataqlıq-çəmən (örüş)	58	VI	
8.	Ağır gilliclı, qalın bataqlıq çəmən	52	VI	
9.	Orta gilliclı, orta qalınlıqlı, açıq-şabalıdı	47	V	III orta
10	Ağır gilliclı, qalın, zəif şorakətləşmiş bataqlıq-çəmən	46	V	
11	Orta gilliclı, qalın, zəif şorakətləşmiş boz (örüş)	46	V	
12	Ağır gilliclı, qalın, orta eroziyaya uğramış, bataqlıq-çəmən (örüş)	36	IV	
13	Orta gilləcəli, yuxa, orta eroziya uğramış açıq şabalıdı	28	III	II aşağı
14	İfrat dərəcədə bataqlıqlaşmış boz-çəmən torpaqlar	16	II	
15	Şiddətli şorlaşmış boz-çəmən torpaqlar	12	II	I şərti yararsız
16	Şiddətli eroziyaya uğramış quru çay yataqları	8	I	

Düzənlikdə torpaqların morfoloji, fiziki və kimyəvi xassələrinə görə müəyyən olunmuş bonitet şkalası ərazidə yüksək, yaxşı, orta, aşağı və şərti yararsız keyfiyyətli torpaqların yayıldığını göstərir.

2-ci cədvəldə bonitet balları müxtəlif olan torpaqlar məhsulvermə qabiliyyətinə görə də bir-birindən aydın seçilir.

Ayrı-ayrı torpaq sahələrindən yüksək məhsul almaq üçün düzənliyin bonitet . kartoqramından istifadə imkanları ortaya çıxarılmışdır.

Torpaq nümunələri götürülmüş sahələrdə təbii və mədəni bitkilərin məhsuldarlığı (t/ha)

Cədvəl 2

№	Torpaqların adı	Mədəni bitkilər		Təbii bitkilər (yaz dövrü)
		Taxıl	Yonca (1-ci biçim)	
1.	Yüngül gilliçəli, qalın, qədimdən suvarılan bor	30-40	30-35	8-10
2.	Ağır gilliçəli, suvarılan, bataqlıq-çəmən	25-30	22-25	6-8
3.	Ağır gilliçəli, zəif şorakətləşmiş bataqlıq-çəmən	20-25	18-22	4-6
4.	Orta gilliçəli, yuxa, orta eroziyaya uğraımış, açıq-şabalıdı	15-20	12-18	3-4

Sədərək düzündə təbii və mədəni bitkilər altında torpaqlardan maksimum dərəcədə səmərəli istifadə etmək üçün bir neçə tövsiyə və təkliflər verilmişdir.

1. Sədərək düzündə torpaqlardan səmərəli istifadə etmək üçün ilk növbədə ərazidə su ehtiyatlarından düzgün istifadə etmək lazımdır.

2.Yaz və payız aylarında Araza axıdılan qar-yağış suların qarşısını müəyyən qədər almaq üçün ekocoğrafi şərait nəzərə alınmaqla düzənliyin şimal hissəsində süni göl tikmək və regionda vahid su şəbəkəsinin yaradılması vacibdir.

3.Düzənliyin mərkəz hissəsində su ehtiyatlarından səmərəli istifadə etmək, torpaqları şorluqdan və eroziyadan qorumaq üçün ərazidə mikro-iqlim yaradan yağış yağdıran qurğulardan istifadə etmək lazımdır.

4.Sədərək düzünün cənub hissəsində torpaqları bataqlıqdan və şoranlıqdan azad etmək üçün geniş.miqyasda meliorativ tədbirlərin həyata keçirilməsi vacibdir.

5.Fermer və digər təsərrüfat sahələrində torpaqlardan istifadə edərəkən torpaq kartoqramlarına əsaslanmalı və mütəxəssislərdən məsləhətlər alınmalıdır.

6.Torpaqdan istifadəçilər tərəfindən düzənlikdə qış otlaqllarından səmərəli istifadə üçün otlaq yükü ilə heyvanların sayı tənzimlənməklə sistem üzrə otarılma tətbiq olunmalıdır.

7.Ərazinin təbii xususiyyətləri nəzərə alınmaqla yerli şəraitə uyğun daha məhsuldar bitkilərin əkilməsi məsləhət görülür.

Göstərilən tədbirlər Sədərək düzənliyində elmi əsaslarla planlı surətdə həyata keçirməklə ərazidə torpaqlardan maksimum dərəcədə səmərəli istifadəsini təmin etmək mümkündür.

Ə d ə b i y y a t:

1. Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının Coğrafiyası. Bakı, Elm, 1999
2. Məmmədov Q.Ş., Cəfərov A.B. Torpaqların bonitirovkası. Bakı, Elm, 1997, s. 66-87
3. Məmmədov Q.Ş. Azərbaycanda torpaq islahatı. Bakı, Elm, 2002, 411 s.

4. Мамедов Р.Г. Опыт группировки почв Нахичеванской АССР по агрофизическом свойствам. ДАН Аз. ССР, 1968, с. 43-48
5. Мамедов Р.Г. Агрофизическая характеристика почв приараксинской полосы. Баку, Элм, 1970, с. 17-25

BƏHRUZ ŞƏKURİ,
AKİF MƏRDANLI
Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN MUXTAR RESPUBLIKASINDA DAĞ VƏ DAĞƏTƏYİ ZONALARDA EROZİYAYA QARŞI MUBARİZƏ TƏDBİRLƏRİ.

Muxtar Respublikada dağ və dağətəyi zonaların torpaqları eroziya prosesinə məruz qalaraq münbitliyini itirib. Eroziyaya uğramış torpaqların münbitliyini bərpa etmək, ümümiyyətlə, dağ zonası torpaqlarını eroziyadan mühafizə etmək məqsədilə eroziyaya qarşı zonal kompleks mubarizə tədbirləri həyata keçirilməlidir. Mübarizə tədbirlərini tətbiq edərkən təbii zonaların torpaq-bitki, iqlim şəraiti, torpaqların eroziyaya uğrama dərəcəsi, yamacların meylliliyi və ümümiyyətlə, ekoloji şərait nəzərə alınmalıdır.

Azərbaycan Respublikasının o cümlədən Muxtar Respublika ərazisində, eləcədə, Kicik və Böyük Qafqazda dəniz səviyyəsindən yuxarı qalxdıqca torpaq-bitki, ümümiyətlə bioiqlim və s. dəyişir. Buna müvafiq olaraq müxtəlif təbii qurşaqlar ayrılır. Həmin qurşaqlarda torpaq örtüyünü eroziyadan mühafizə etmək üçün aqrotexniki, fitomeliorativ (meşə və çəmən meliorasiya) mubarizə tədbirləri kompleks və bir-birini tamamlamaq şərti ilə tətbiq edilməlidir.

Torpaq eroziyası ilə mubarizə probleminin həllində əsas məsələ onun baş verməsinə səbəb olan amilləri müəyyən edərək aradan qaldırmaqdan ibarətdir.

Təsərrüfat – təşkilat tədbirlərinin həyata keçirilməsində əsas məqsəd eroziyaya uğramış və eroziyaya uğrama təhlükəsi olan torpaqlardan daha səmərəli şəkildə istifadə

etmək, eroziyaya uğramış torpaqların munbitliyini bərpa edərək artırmaq və «yararsız» sahələrin kənd təsərrüfatı dövriyyəsinə qaytarılmasını təmin etməkdən ibarətdir. Ərazinin təşkilində relyefin quruluşu və torpaq şəraitini nəzərə alaraq təsərrüfat sahələrinin, onların sərhədlərinin müəyyənləşdirilməsi, torpaq-qoruyucu növbəli əkin sisteminin, coxillik əkmələrin tətbiqi, meşə zolaqlarının və yolların düzgün yerləşdirilməsi çox böyük əhəmiyyət kəsb edir.

Eroziyaya qarşı mübarizə tədbirlərinin lahiyələşdirilməsi, ərazinin düzgün təşkili və kənd təsərrüfatı bitkilərinin, elmi əsaslarla yerləşdirilməsi məqsədilə ərazidə iri miqyaslı torpaq-eroziya tədqiqatı aparılmalıdır. Tədqiq olunan sahələr uçün eroziya amilləri xəritəsi və eroziyaya qarşı mübarizə tədbirləri xəritəsi tərtib edilməlidir.(1)

1990-cı illərdə Muxtar Respublikanın dağ və dağətəyi rayonlarında bir sıra təsərrüfatlar üçün göstərilən xəritələr ET Eroziya və Suvarma İnstitutu tərəfindən göstərilən xəritələr hazırlanmışdır. Müəyyən edilmişdir ki, maililiyi 5^0 – yə qədər olan yamaclarda, yuyulmamış və zəif yuyulmuş sahələrdə torpaqqoruyucu növbəli əkin sistemi tətbiq edilməli və burada əsas yer cərgəarası becərilən bitkilərə verilməlidir. Bu növbəli əkinlərin 20 % -ni coxillik ot bitkiləri təşkil etməlidir. Son 30 ildə ET Eroziya və Suvarma İnstitutunda aparılan tədqiqatların nəticəsi göstərdi ki, maililiyi $5\text{-}10^0$ olan yamaclarda növbəli əkin sistemində dənli bitkilərə üstünlük verilməli və cərgəarası becərilən bitkilərin tutduğu sahə 20-25 %-dən artıq olmamalıdır. Torpaqqoruyucu növbəli əkinlərdə coxillik ot bitkilərinin əkin sahəsi 25-30% təşkil etməlidir.

Maililiyi $10\text{-}15^0$ olan yamaclarda cərgəarası becərilən bitkilərin əkilməsini tam dayandırmalı, növbəli əkin sistemində çoxillik ot bitkilərinin əkin sahəsi 60%-ə çatdırılmalıdır. Şiddətli dərəcədə eroziyaya uğramış sahələrdə isə dənli bitkilərin əkini tamamilə dayandırılmalıdır. Belə sahələrdə ancaq coxillik ot bitkiləri əkilməlidir. Bu tədbir torpağı həm eroziyadan yaxşı qoruyur və həm də, iqtisadi cəhətdən çox

faydalıdır.Maililiyi 15^0-dən çox olan sahələrdə tarla bitkilərinin əkilməsini dayandırmalı, onlardan təbii biçənək kimi istifadə etmək məqsədə daha uyğundur(2).

Yamaclarda eroziyaya qarşı aqrotexniki mubarizə tədbirləri zamanı şumlama və becərilmə işləri yamacın eninə istiqamətində aparılmalı, su saxlayan şırımlar və bufer zolaqları düzəldilməli, zolaqları dərindən yumşaltmalı və s. Bu tədbirlər torpağın fiziki-mexaniki xassələrini yaxşılaşdırır, səthi axının qarşısını alır və torpaqda rütubət ehtiyyatı yaradır. Belə ki, $8\text{-}10^0$ meyilli yamaclarda şumlama yamacın eni istiqamətində aparıldıqda şumda yuyulan torpağın miqdarı 2,5 dəfə azalır, rutubət 3-4 % , məhsuldarlıq isə 18,0-21,0 % artır.

Qeyd etmək lazımdır ki, meyilli yamaclarda yalnız şumu yamacın eni istiqamətində apardıqda belə eroziya prosesinin qarşısını tamamilə almaq mümkün olmur.Belə yamaclarda eroziyaya qarşı əlavə mübarizə tədbirlərinin aparılması zəruridir. Bu tədbirlərdən biri də herik və dondurma şum edilərkən yamacın eni istiqamətində əlavə olaraq su saxlayan şırımların açılmasıdır. Şırımlar səthi su axımının və yuyulmanın qarşısını alır, torpaqda rutubət ehtiyyatını artırır, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artmasına səbəb olur.

Müəyyən edilmişdir ki, eroziya prosesinin qarşısının alınmasında torpağın zolaqlarla dərindən yumşaldılmasının böyük təsərrüfat əhəmiyyəti vardır.Bu tədbir 75-80 % səthi axımın qarşısını alır, çöküntü torpağa yaxşı hopur və beləliklə torpağın fiziki-mexaniki xasəsi xeyli yaxşılaşır.

Torpaqqoruyucu aqrotexniki tədbirlər içərisində yamaclarda yarıqların açılması böyük əhəmiyyət kəsb edir . Yarıqaçma şum , otlaq, örüş, biçənək və s. sahələrdə tətbiq edilmiş və yaxşı nəticələr əldə edilmişdir.

Çoxillik ot bitkiləri sahəsində yarıqlar payızda torpaq kipləşən zaman, payızlıq taxıl əkin sahələrində isə səpindən əvvəl və yaxud torpaq donan zaman aparılmalıdır. Yarıqaçma torpağın su axımını azaldaraq, onun yuyulmasının

qarşısını alır, torpaqda nəmliyin miqdarını artırır və beləliklə kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını xeyli yüksəldir.

X.M. Mustafayev və B.K. Şəkurinin (1991) verdiyi məlumatlara görə, yay və qış otlaq sahələrində eroziya prosesi daha geniş yayılmışdır. Belə ki, yay otlaqlarının 80 %-dən çox hissəsi , Ceyrançöl qış otlaqlarının isə 60 % -ə qədəri eroziyaya məruz qalmışdır. Ona görə də otlaq və örüşlərdə heyvandarlığın yuksək yemə tələbatını ödəmək , keyfiyyətli yem əldə etmək məqsədilə ot örtüyünün pozulub dağılmaqdan mühafizəsini təmin etmək lazımdır.

Mal- qaranın otarma vaxtına, normasına düzgun riayət edilməsi bitki örtüyü seyrəlmiş və tələf olmuş sahələrdə səthi və əsaslı yaxşılaşdırma işlərininin aparılması təklif olunur.Respublikada meşələrin 90% -i dağlıq ərazilərdə yerləşir. Onların su tənzimedici və torpaqqoruyucu rolu əvəz olunmazdır. Meşələrində su axımının əmələ gəlməsinə imkan vermir və su rejimini nizamlayır. Bundan başqa meşələrin böyuk kurortoloji, səhiyə əhəmiyyəti vardır. Lakin meşənin qırılması və ya orada mal-qaranın otarılması bəzi sahələrdə meşə torpaqlarının pisləşməsinə səbəb olmuşdur. Məhz bu səbəbdən də tədqiq etdiyimiz ərazidə meşələrin təxminən 20-30%-i eroziyaya uğramışdır. Meşə altından çıxmış torpaqların isə 80% - dən çoxu eroziyaya məruz qalmışdır.Buna görə də meşələrin mühafizəsinə xususi fikir verilməli, təbii bərpanın yaxşı getməsinə şərait yaradılmalı və açıq , meşəsiz sahələrdə yeni meşəliklərin salınması kimi tədbirlər həyata keçirilməlidir.

Muxtar Respublika ərazisində yarğan eroziyası da geniş yayılmışdır. Yarğan eroziyasının nəticəsində əkin , örüş və s. sahələr parçalanaraq yararsız hala düşmüşdür . Odurki, yarğan eroziyasına qarşı mubarizə tədbirləri aparmaq mühüm təsərrüfat əhəmiyyətli məsələlərdəndir.

Muxtar Respublikanın dağ və dağətəyi rayonlarında çoxlu sönmüş , yəni inkişafdan qalmış qobulara rast gəlinir. Bu qobuların yamaclarında çoxillik ot bitkilərinin toxumunu səpməklə biçənək sahələri yaratmaq mümkündür

ki, bu tədbir həm də qobulun divarlarını bərkidir.Qobuları bərkitdikdə onun içərisində və ətrafında meşəliklərin salınmasına xüsusi fikir verilməlidir.Suxur qırıntılarından ibarət sahələri bərkitmək üçün ağac və kol bitkiləri əkmək lazımdır.

Dağ yamaclarında sürüşmənin qarşısını almaq üçün səthi su axınının başqa yerə yönəltmək lazımdır. Bu məqsədlə yamacda arxlar düzəldilməlidir(3).

Respublikada olan çayların hövzələrin eroziyadan , sel hadisəsindən qorumaq üçün hidrotexniki tikintilərdən istifadə edilməlidir.Həmin tikintilər çayın sahilin dağılmaqdan qorumaqla , eroziya prosesi nəticəsində əmələ gələn selin gətirdiyi qaba materialları çökdürərək eroziyanın dərinləşməsinin qarşısını alır.

Su eroziyası ilə yanaşı külək eroziyası da Respublika ərazisində yayılmışdır.

Deflyasiya prosesi eroziyaya səbəb olan əsas amillərdən biridir. Ona Culfa – Ordubad dağətəyi düzənliklərində təsadüf olunur. Torpaq örtüyünün və qumların küləklər tərəfindən sovrulub aparılmasının qarşısını almaq üçün kompleks mübarizə tədbirləri hazırlanmalıdır. Torpaq qoruyucu meşə zolaqları saldıqda hakim küləklərin istiqamətləri , gücü və s. şərtlər mütləq nəzərə alınmalıdır.

Qumluqlarda və mexaniki tərkibcə yüngül olan torpaqlarda külək eroziyası yayılan sahələrdə bitki örtüyünün hərtərəfli qorunub saxlanılmasından ötrü meşə zolaqları salmaq təklif olunur. Belə ki, meşə zolaqları külək eroziyasının qarşısını alaraq, əkin sahələrini quru küləklərdən muhafizə edir. Qumluqları bərkitmək üçün hər şeydən əvvəl torpağın sovrulmasına səbəb olan amillər aradan qaldırılmalıdır.

Torpaq örtüyünü eroziyadan muhafizə etmək və torpaqlardan istifadənin səmərəsini artırmaq məqsədilə yuxarıda göstərilən tədbirləri bir-birinə uyğunlaşdırmaqla kompleks şəkildə tətbiq etmək zəruri hesab edilməlidir.Hər bir təsərrüfatda mübarizə tədbirləri düzgün həyata keçirilərsə

, torpaq pozulub dağılmaqdan mühafizə edilər, onun münbitliyi artar, nəticə etibarilə kənd təsərrüfatı bitkilərindən yüksək və sabit məhsul almağa şərait yaranır.

Gələcəkdə eroziya prosesinin qarşısının alınması üçün indiyə kimi hazırlanmış mübarizə tədbirləri , ekoloji muhitə nəzarət (monitorinqi) ilə əlaqəli şəkildə işlənib hazırlanmalıdır. Burada təbii-ekoloji və antropogen dəyişikliklər mütləq nəzərə alınmalıdır.

Ədəbiyyat:

1. Şəkuri. B.Q Azərbaycan Respublikasının düzən və dağətəyi regionlarında səhralaşma prosesinin bəzi nəzəri və təcrübi problemləri. Bakı ,2004. s.119-122
2. Шакури. Б.Г. Биолого-екологическая особенностъ почв системы вертикалъной зоналъности юго-восточной части Болъшого Кафказа. Баку , 2004. с.37-51
3. Шакури. Б.Г. Эколого –генетические и геохимические особенности почв Нахичеванской Автономной Республики и изменение их под влиянием эрозионных процессов. Баку, 2002. с.40-53

FİZZƏ MƏMMƏDOVA,
AYTƏN MƏMMƏDOVA,
ƏLİƏDDİN ABBASOV
AMEA Naxçıvan Bölməsi
Təbii Ehtiyatlar İnstitutu

KU –2 x 8 KATİONİTİ İLƏ Cu^{2+} , Zn^{2+} VƏ Pb^{2+} - İONLARININ SORBSİYASININ TARAZLIQ XÜSUSİYYƏTLƏRİ VƏ KİNETİKASI

Parağaçay molibdenitinin flotasiya vasitəsilə zənginləşdirilmiş nümunəsində əhəmiyyətli miqdarda Cu, Zn və Pb metalları olduğundan, bu metalların ionlarının monofunksional KU- 2 x 8 markalı kationitlə sorbsiyasının tarazlıq xüsusiyyətləri, sorbsiya prosesinə təsir edən amillərin

rolu və proseslərin kinetikası nəzərdən keçirilmişdir. Təcrübələr bu elementlərin duzlarının məhlulları ilə aparılmışdır.

Kationit qəbul edilmiş metodika üzrə (1) H^+ - formaya keçirilmiş, yaş halda ələnməklə fraksiyalara ayrılmış, 0,045- 0,085sm diametrli nümunələrdən istifadə edilmişdir. Təcrübələr statik şəraitdə ionit : məhlul = 1 : 100 nisbəti gözlənil-məklə aparılmışdır. Məhlulda Cu^{2+} və Zn^{2+} ionlarının miqdarı yodometrik, Pb^{2+} ionunun miqdarı isə ksilenol narıncısından indikator kimi istifadə etməklə kompleksonometrik üsulla təyin edilmişdir (2). Kationitlə sorbsiya olunan ion-ların miqdarı onların başlanğıc və sorbsiyadan sonrakı qatılıqları arasındakı fərqə əsasən

$$ST = V(C_0 - C_t)/m,$$

paylanma əmsallarının qiymətləri isə

$$P = ST / C_t$$

formulları ilə hesablanmışdır. Bu formullarda ST- sorbsiya tutumu, mq/q;

V - məhlulun həcmi, ml; C_0 və C_t - məhlulun başlanğıc və tarazlıq qatılıq-ları, q/l ; m- ionitin kütləsidir, q.

Gerçək məhlulda bu elementlərin miqdarının 1,0 – 1,5 q/l –dən artıq olma-yacağını nəzərə alaraq 0,1-1,5 q Me/l qatılıq intervalında proseslərin izotermləri qurulmuşdur. İzotermlər qabarıq olsalar da Cu^{2+} ionunun sorbsiyasında qabarıq-lıq daha aydın seçilir. Bu isə Zn^{2+} və Pb^{2+} -ionlarına nisbətən Cu^{2+} ionunun KU- 2 x 8 kationiti ilə daha seçici sorbsiya olunduğunu göstərir. Alınan nəticələr kationitin Cu^{2+} və Zn^{2+} ionlarına qarşı yaxın sorbsiya tutumları ilə xarakterizə olunduğunu göstərir. Lakin Pb^{2+} ionunun kationitlə sorbsiyası kiçik kəmiy-yətlərlə xarakterizə olunur. Seçilən qatılıq intervalında kationitin Cu^{2+}, Zn^{2+} və Pb^{2+} -ionlarına görə maksimal sorbsiya tutumu uyğun olaraq 72; 66 və 24mq/q –a bərabərdir.

Paylanma əmsalları üçün isə 92,3; 78,57 və 19,05-ə bərabər qiymətlər alınmışdır. Göründüyü kimi kationit Pb^{2+} ionuna qarşı seçiciliyi ilə fərqlənmir.

Alınan nəticələr proseslərin kation dəyişmənin nəzarətində olduğunu göstərir. Belə ki, sorbsiyadan sonra başlanğıc məhlullara nisbətən tarazlıq məhlul-larının turşuluqlarının təxminən 2 vahid azalması bu iddianın təsdiqi kimi təqdim edilə bilər:

$$2R-SO_2OH + Cu^{2+} \leftrightarrow (R-SO_2O)_2Cu + 2H^+$$

Maraqlı fakt Zn^{2+} ionunun sorbsiyasında müşahidə edilmişdir. Belə ki, kationit duz formasında (Na-forma) H-formaya nisbətən Zn^{2+} ionuna qarşı daha yüksək sorbsiya tutumu göstərir: 88mq/q .

Bu ionların üçünün də birgə olduğu məhluldan ($C_{0,\ Mc}$ =1,0q/l) sorbsiyanın mənzərəsi xeyli mürəkkəbləşir. Bu halda Pb^{2+} ionunun sorbsiyası demək olar ki, müşahidə edilmir. Fikrimizcə bunun səbəbini Pb^{2+} ionunun ölçüsündə axtarmaq lazımdır. Zn^{2+} və Cu^{2+} ionlarına nisbətən xeyli böyük və hidratlaşmaya güclü meylli olan bu ion, kiçik ölçülü və sürətli mis və sink ionları ilə sorbsiya zamanı rəqabətə davam gətirə bilmir. Maraqlıdır ki, qarışıq məhluldan da kationit Cu^{2+} və Zn^{2+} ionlarına qarşı sorbsiya qabiliyyətini maksimum istifadə edir.

Kinetik təcrübələr «məhdud həcm» üsulu ilə 25, 45 və 60^0S temperaturlarda aparılmış, təcrübələrdən alınan nəticələr daxili diffuziyanın nəzarətində olan hallar üçün Q.Boyd və həmkarlarının təklif etdiyi tənliklə (3) işlənmişdir:

$$F = ST_t / ST_\infty = 1 - \frac{6}{\pi^2}\sum_{n=1}^{\infty}\frac{1}{n^2}\cdot\exp(-Bt\cdot n^2)$$

Burada F- ionların dəyişmə dərəcəsi, ST_t və $ST_\square$ - müəyyən t və doyma anına uyğun ionitin dəyişmə tutumu; $Bt = D\pi^2 t / r_0^2$ -ölçüsüz parametr və ya Furye homoxronluq kriteriyası, D- daxili diffuziya əmsalı (sm^2/san), r_0 –şişmiş halda ionit dənəsinin radiusu (sm), t-zamandır (san).F –in

müxtəlif qiymətlərinə uyğun Bt –nin dəqiqləşdirilmiş qiymətləri (4) –də verilmişdir.

Göstərilən tənliyin seçimi proseslərin yarımdəyişmə müddətinin hesablan-ması və arakəsmə metoduna əsasən həyata keçirilmişdir. $\tau_{½} = 0{,}03 \cdot r_0^{\,2} / D$ tənliyi ilə kinetik əyrilərin hesablanması bu tənliyin doyma dərəcəsinin 0,75-0,85 qiymətlərinə qədər əyriləri adekvat ödədiyi, kinetik yaddaş və ya arakəsmə metodu ilə aparılan təcrübələrlə ionit və məhlulun arakəsmədən sonrakı təması zamanı bütün hallarda kinetik yaddaşın oyanışının, başqa sözlə sorbsiya proseslərinin sürətinin yüksəlməsi müşahidə edilmişdir. Bunlar isə proseslərin daxili diffuziyanın nəzarətində olduğunun təkzibolunmaz təsdiqi kimi qəbul edilir (5).

Öyrənilən ionların məhluldakı başlanğıc qatılıqlarının yüksəlməsi paralel olaraq $D = Bt \cdot r_0^2 / \pi^2 \cdot t$ tənliyindən hesablanan diffuziya əmsallarının qiymətlərinin artımında da özünü göstərir. Kationitlərdə dəyişmənin sürəti əsasən sorbsiya olunan ionun radiusundan və əks ion –funksional qrup rabitəsinin davamlılığından asılı olduğundan (6), öyrənilən ionların sorbsiya sürətləri üçün müşahidə etdiyimiz $Cu^{2+} \succ Zn^{2+} \succ Pb^{2+}$ liotrop sırası qanunauyğun qəbul edilməlidir. Ümumiyyətlə, Pb^{2+} ionu ilə KU –2 x 8 kationitinin sorbsiya göstəriciləri və kinetik parametrləri qənaətbəxş olmadığından, bu ionun sorbsiyası üçün daha seçici ionitə müraciət etmək lazımdır.

25, 45 və 60^0 S temperaturlarda proseslərin kinetikasının öyrənilməsi göstərilmişdir ki, temperaturun yüksəlməsi proseslərin sürətinə müsbət təsir etməklə, qeyd edilən temperaturlara uyğun hesablanan diffuziya əmsalları Arrenius tənliyinə tabe olur:

$$D = D_0 \exp(-E_a / RT)$$

Cu^{2+}, Zn^{2+} və Pb^{2+} ionları ilə KU –2 x 8 kationitinin göstərilən temperaturlarda qarşılıqlı təsiri zamanı diffuziya əmsalları üçün $30{,}45 \cdot 10^{-9}$; $52{,}50 \cdot 10^{-9}$; $66{,}0 \cdot 10^{-9}$ (Cu^{2+}),

23,10· 10^{-9}; 47,10· 10^{-9}; 63,0· 10^{-9} (Zn^{2+}) və 16,20· 10^{-9}; 39,15· 10^{-9}; 54,80·10^{-9} sm^2/san (Pb^{2+}) kimi qiymətlər alınmışdır. Diffuziya əmsallarının qiymət-ləri də Cu^{2+} ionu ilə sorbsiyanın daha sürətlə getdiyini təsdiq edir.

Diffuziya əmsallarının qiymətlərindən istifadə edərək lgD =f (1/ T) qrafik asılılığına əsasən proseslərin aktivləşmə enerjilərinin qiymətləri hesablanmışdır: 16,0(Cu^{2+}); 20,5 (Zn^{2+}) və 25,75 (Pb^{2+}) kC / mol. Aktivləşmə enerjiləri üçün alınan qiymətlər proseslərin diffuziya oblastında getdiyini təsdiq edir.

Sorbsiya proseslərinin seçiciliyini qiymətləndirmək və termodinamik para-metrləri hesablamaq üçün dəyişmə sabiti həlledici kəmiyyət olduğundan, hər bir ionun kationitlə uyğun qatılıq halı üçün zahiri (qatılıq) dəyişmə sabitinin qiymətləri paylanma əmsallarına əsasən hesablanmışdır. İkivalentli ionun birvalentli iona dəyişməsi zamanı dəyişmə sabiti ilə paylanma əmsalları arasında

$$K_{H^+/Me^{2+}} = P_{Me^{2+}} / P_{H^+}^2$$

nisbəti gözlənildiyindən (7), K-nın hesablanmasında bu formuldan istifadə edilmiş və $K_{Cu^{2+}/H^+} = 7.8$, $K_{Zn^{2+}/H^+} = 4.6$ və $K_{Pb^{2+}/H^+} = 2.2$ qiymətləri alınmışdır.

Proseslərin entalpiyası dəyişmə sabitinin temperaturdan asılılığına əsasən tapılmışdır. Bunun üçün R ln K-nın 1/ T –dən asılılıq qrafiki qurulmuş, alınan düz xətlərin absis oxuna nəzərən tangenslərinin qiymətlərinə əsasən ΔH -ın,

$\Delta G = -2.301RT \ln K$ tənliyindən sərbəst enerjinin,

$\Delta S = (\Delta H - \Delta G)/T$ tənliyindən isə entropiyanın qiymətləri hesablanmışdır. Sürət sabiti B-nin qiymətləri $B = D \cdot \pi^2 / r_0^2$ formulundan d_0 = 0,055 sm olan ionit dənələri üçün hesablanmışdır.Hesablamaların nəticələri cədvəldə verilmişdir.

Proseslər ekzotermik olub, entalpiya amilinin təsiri ilə idarə olunurlar (8). Ayrılan enerji entropiyanın mənfi təsirini əngəlləməklə onu kompensə edir. Pb^{2+} ionunun sorbsiyasında sərbəst enerjinin qiyməti üçün alınan kəmiyyət (-1,95 kC/mol) prosesin termodinamik baxımdan da əlverişsiz olduğunun göstəricisidir. İkivalentli ionların iştirakı ilə gedən iondəyişmə proseslərində seçicliyin özünəməx-sus qanunauyğunluğu müşahidə edilir: sistemin sərbəst enerjisinin azalması entropiyasının artması ilə müşayiət olunur. Cədvəldən göründüyü kimi oxşar vəziyyət araşdırdığımız sistemlər üçün də xarakterikdir.

Cədvəl. KU –2 x8 kationiti ilə Cu^{2+}, Zn^{2+} və Pb^{2+} ionlarının sorbsiyasını xarakterizə edən kinetik və termodinamik kəmiyyətlər

t^0S	$B\cdot10^4$ 1/san	$D\cdot10^9$ sm^2san	$D_0\cdot10^4$ sm^2/san	K	E_{akt}	-H	-S	-G
Cu^{2+} - KU – 2 x 8								
25	3,97	30,45	0,194	7,8	16,0	24.13	63,89	5,09
45	6,84	52,50						
60	8,60	66,0						
Zn^{2+} - KU – 2 x 8								
25	3,01	23,10	0,90	4,6	20,5	19.00	51,09	3,78
45	6,14	47,10						
60	8,21	63,0						
Pb^{2+} -KU - 2 x 8								
25	2,11	16,20	5,28	2,2	25,75	12.80	36,42	1,95
45	5,10	39,15						
60	7,14	54,80						

Alınan nəticələrin ötəri təhlili belə qarşıya qoyulan məqsəd üçün istifadə edilən universal monofunksional KU – 2 x8 kationitinin əlverişsiz olduğunu göstərir.Belə ki, öyrənilən ionların sorbsiyası üçün bu gün daha seçici, yüksək sorbsiya tutumu və kinetik göstəriciləri ilə fərqlənən yeni nəsil ionitlər mövcuddur.

Ə d ə bi y y a t:

1. Полянский Н.Г., Горбунов Г.В., Полянская Н.Л. Методы исследования ионитов. М. : Химия, 1976, 208 с.
2. Аналитическая химия. Химические методы анализа / Под ред. О.М.Петрухина. М. : Химия, 1993, 400 с.
3. Boyd G.E., Adamson A.W., Myers L.S. / J.Amer. Chem. Soc., 1947, vol. 69, p. 2836-2854
4. Стрижко В. С., Кармазина И.В. / Журн. физич. химии, 1989, т.63, № 7, с.1933-1935
5. Иониты в химической технологии / Под ред. Б.П. Никольского и П.Г. Романкова. Л. : Химия , 1982. 416 с.
6. Полещук И.Н., Пимнева Л.А. / Журн. физич. химии, 2002, т. 75, № 2, с. 208-210
7. Васильев В.П. Аналитическая химия. М. : Высшая школа, 1989, ч. 2, 424 с.
8. Васильев В.П. Термодинамические свойства растворов электролитов. М. : Высшая школа, 1982, 320 с.

BAYRAM RZAYEV
RAFİQ QULİYEV
NAİBƏ MƏMMƏDOVA
AMEA Naxçıvan Bölməsi
Təbii Ehtiyatlar İnstitutu

SnS_2 - $AğNO_3$ – H_2O SİSTEMİNDƏN $Ağ_2SnS_3$ TƏRKİBLİ TİOBİRLƏŞMƏNİN ALINMA ŞƏRAİTİNİN ARAŞDIRILMASI

Keçən əsrin ortalarından başlayaraq qeyri-üzvi birləşmələrin alınmasının ampula sintez metodu işlənib hazırlanmışdır. Ampula metodu ikili, üçlü və dördlü birləşmələrin alınmasında aparıcı rol oynayır. Buna baxmayaraq ampula metodu ilə xalkogenidlərin alınmasında bir sıra çətinliklər meydana çıxır. Xalkogenidlərdə xalkogenin buxar təzyiqinin yüksək olması həmişə partlayış qorxusu yaradır. Eyni zamanda metod yüksək temperatur və başlanğıc təmiz maddələr tələb edir. Ona görə də

xalkogenidlərin alınması üçün yeni, sadə yerinə yetirilə bilən me-todların işlənib hazırlanması tələb olunur.

Qeyd olunanları nəzərə alaraq təqdim olunan işdə məqsəd SnS_2 – $AğNO_3$ – H_2O sistemindən $Ağ_2SnS_3$ –ün alınmasından ötrü sadə metod işləməkdir.

SnS_2 –nin üzərinə gümüş-nitrat məhlulu əlavə etdikdə onun sarı rəngi dərhal qəhvəyiyə çevrilir. Gümüş – nitratın artığını əlavə etməklə alınmış çöküntü süzülür, distillə suyu ilə yuyularaq 105^0C- də sabit kütləyə gətirilir. Alınmış çöküntünün kütləsi nəzərdə tutulan tiostannatın kütləsinə uyğun gəlmədi. Əvvəlki işlərimizdən (I) məlumdur ki, sulfidlərə ağır metal duzları ilə təsir edildikdə götürülmüş sulfidin hamısı deyil, reaksiyadan asılı olaraq $\frac{3}{4}, \frac{2}{3}$ - si tiobirləşmənin əmələ gəlməsində iştirak edir. Sulfidin bir hissəsi isə duz şəklində məhlula keçir. SnS_2 ilə gümüş - nitratın qarşılıqlı təsirindən məhlula keçən qalayın miqdarını müəyyən etmək üçün təcrübələr aparılmışdır. Müəyyən edilmişdir ki, 0,472q SnS_2 götürdükdə məhlula 0,316q $Sn(NO_3)_4$ keçir. Bu miqdarda götürülən SnS_2-nin $\frac{1}{3}$-nə müvafiq gəlir. Bunu nəzərə alaraq SnS_2 ilə $AğNO_3$ arasında gedən reaksiyanın tənliyini aşağıdakı kimi yazmaq olar:

$$4AgNO_3 + 3SnS_2 = 2Ag_2SnS_3 + Sn(NO_3)_4$$

Tənlikdən göründüyü kimi reaksiyadan $Sn(NO_3)_4$ ayrılır. Məlumdur ki, bu duz da suda hidroliz edərək $Sn(OH)_4$ əmələ gətirir. Bu da tiostannata qa-rışaraq onun kütləsini artırır. Hidroliz məhsulunu aradan qaldırmaq üçün gü-müş – tiostannat alındıqdan sonra mühitin pH-ı sulfat turşusu ilə 0-a yendirilir. Çöküntü süzülür, yuyulur, qurudulur. Nümunə götürüb I : I durulaşdırılmış nitrat turşusunda parçalanır. Bu zaman gümüş ion şəklində məhlula keçir, sulfid ionları isə sulfat ionlarına oksidləşir. Qalay isə stannat turşusu əmələ gətirərək çöküntü şəklində

məşluldan ayrılır. Çöküntü süzülərək məhluldan ayrılır və qalay metodika (2) üzrə, sulfat ionları $BaCl_2$ –lə çökdürülərək $BaSO_4$ şəklində təyin edilir. Gümüş ionları stannat turşusunun süzüntüsündə çəki və həcmi (3) metodlarla təyin edilirlər. Nəticələr cədvəl I-də verilir.

Cədvəl 1.

Gümüş – tiostannatın kimyəvi analizi

Çöküntü,q	Təyin edilmişdir, q		
	Ağ	Sn	S
0,7210	0,3592	0,2010	0,1600

Alınmış rəqəmlərə görə gümüş – tiostannatın emprik formulu hesablanıb çıxarılmışdı – $Ağ_2SnS_3$.


Çörkməyə sərf olunan $AğNO_3$ məhlulunun miqdarını tapmaq üçün poten-siometrik titrləmə metodundan istifadə edilmişdir. pH-metr, 675 markalı milli-voltmetr və reaksiyanın gedişində potensial dəyişikliyini müəyyən etmək üçün PP –63 –dən istifadə edilmişdir. İndikator elektrodu olaraq gümüş elektrodu, müqayisə elektrodu kimi isə kalomel yarımcütü götürülür. Müəyyən miqdar SnS_2 götürüb üzərinə 40 ml distillə suyu əlavə edilir. Qarışdırmaqla qatılığı məlum gümüş – nitrat məhlulu ilə titrlənir. Titrləmə nəticələri cədvəl 2-də verilir.

Cədvəldəki rəqəmlərə əsasən şəkildəki əyri qurulmuşdur. Təcrübənin şəraiti SnS_2 – 0,452 q, gümüş – nitrat məhlulu $T_{Ağ} = 44,5$ mq/ml, otaq temperaturu.

Cədvəl 2.

Qalay (IV) sulfidin gümüş – nitratla titrlənməsi

B $AьHO_3$, мл	ΔB	E	ΔE	ΔE/ΔB
0	-	22,40	-	-
1	2	22,30	1,9	1,9
1	1	24,00	0,30	0,30
1	1	23,70	0,30	0,30
1	1	24,10	0,40	0,40
1	1	24,30	0,20	0,20
1	1	24,90	0,40	0,40
1	1	26,20	1,30	1,30
1	1	27,10	0,90	0,90
1	1	27,70	0,60	0,60
1	1	28,10	0,40	0,40



Şək. SnS_2-nin $AğNO_3$ –lə titrləmə əyrisi

Şəkildən göründüyü kimi 0,452 q SnS_2-nin titrləməsinə 8,0 ml gümüş –nitrat məhlulu sərf olunur. Bu da $Ağ_2SnS_3$ çöküntüsünün əmələ gəlməsinə müvafiq gəlir.

Nəticə

Qalay (IV) sulfidlə gümüş – nitratın su mühitində qarşılıqlı təsirindən gümüş – tiostannatın alınması reaksiyası araşdırılmışdır. Gümüş –tiostannatın alınmasına amillərin təsiri yoxlanmış, birləşmənin tərkib analizi yerinə yetirilmiş, sadə formulu –$Ağ_2SnS_3$ müəyyənləşdirilmişdir.

Ədəbiyyat:

1. Rzayev B.Z. Arsenin kükürdlü birləşmələri sahəsində yeni tədqiqatlar. Bakı, 2003, s. 29
2. Шарло Г. Методы аналитической химии. М.- Л., Наука , 1965, с.750-753
3. Гиллебранд В. Ф., Лендель Е.В., Брайд Г.А., Гофман Д.И. Практическое руководство по неорганическому анализу. М., Химия, 1966, с. 237-238

ƏHMƏD QARAYEV
AMEA Naxçıvan bölməsi
Təbii Ehtiyatlar İnstitutu

PARAĞAÇAY MOLİBDENİT FİLİZİNİN KOLLEKTİV FLOTASİYASI

Müasir texnikada molibdenin əhəmiyyəti böyükdür. Sənayedə alınan molibdenin miqdarının 80%-i qara metallurgiyada istiyə davamlı, antikorrozion, instrumental, tezkəsən, konstruksion poladların istehsalına sərf olunur. Molibden bu qiymətli xassələrinə görə filizdə miqdarı 0,1-0,07% olduqda belə sənaye əhəmiyyəti daşıyır.

Molibdenin ən çox yayılmış mineralı molibdenitdir (MoS_2). Digər minerallarına povelit ($CaMoO_4$), vulfenit ($PbMoO_4$), molibdit $[Fe_3(MoO_4)_3 \cdot 7H_2O]$ və s. çox az rast gəlinir.

Molibden filizlərinin əsas zənginləşdirmə metodu – flotasiyadır. Molibdenit (MoS_2) yüksək hidrofob xassəyə

malik olduğundan maye karbohidrogenlərlə asan flotasiya olunur. Toplayıcı kimi kerosin və neytral yağlardan (0,5kq/t), köpükəmələgətirici -- şam yağı və əvəzedicilərindən (25–100q/t) istifadə edilir. Boş süxur və piritdən ayırmaq üçün ləngidici kimi natrium - sulfid (Na_2S) , (5– 20 kq/t), maye şüşə (2 –5kq/t) işlədilir [1].

Yeni üsulla – 80-90^{0}C temperaturda mis- molibden filizinin flotasiyasının yarımsənaye qurğuşunda sınağı keçirilmiş, flotasiya rejimi müəyyənləşdirilmişdir. İstifadə edilən filizin tərkibi: 0,48% Cu, 0,017% Mo, 1,94% S, alınan konsentrat 19,17% Cu, çıxım 85,43%, 13,17% Mo, çıxım 58,38%, 46,6% S, çıxım 43% təşkil etmişdir [2].

Parağaçay molibden yatağı Parağaçayın sol qolu üstə Çınqıllı dərədə yerləşir. Bu yataq 1938 –ci ildə «Qlavnaya» adlanan damarın açılması ilə yaranmışdır: 1938-60-cı illərdə 9 kvars – molibden damarı aşkar edilmişdir ki, onlardan dördünün ehtiyatı müyyənləşdirilmişdir. Molibdenin filizdə orta miqdarı 0,2 –1,1% , mis 0,02-2,1%, renium 0,04% , selen 0,006% həddində dəyişir [3].


Parağaçaydan götürülmüş filizdən texnoloji nümunələr hazırlanmış və kimyəvi analizlə filizin tərkibi öyrənilmişdir. Müəyyən edilmişdir ki, filizdə 0,7% Mo, 2,0% CaO, 1,1% MgO, 1,5% $BaSO_4$, 55,0% SiO_2, 10,2% Al_2O_3, 29,3% Fe_2O_3, 0,3% Cu, 0,2% Pb vardır.

Filizin mineraloji tərkibi əsasən pirit, xalkopirit, molibdenit, kvars, xalkozin, kovellin, hematit, kalsit, barit, azurit minerallarından ibarətdir.

Hazırlanmış texnoloji nümunələrdən istifadə edərək filizin kollektiv (əsas) flotasiya şəraiti öyrənilmişdir. Təcrübələr narınlığı 0,15-0,25mm ölçüsündə olan nümunələrlə, bir litrlik laboratoriya flotomaşınında aparılmışdır. Hər təcrübə üçün 200q filiz nümunəsi götürülmüşdür.

Birinci mərhələdə flotasiya prosesi zamanı mühitin pH-nın molibdenin çıxımına təsiri yoxlanılmış və nəticələr

şəkil 1-də verilmişdir.Mühitin pH-nı dəyişmək üçün Na_2CO_3-dan istifadə edilmişdir.



Şəkildən görünür ki, pH-ın 9,5-11 həddində çıxım yüksək olur. Bu da onunla bağlıdır ki, köpükəmələgətirici pH-ın yuxarı qiymətlərində yaxşı köpüklənir və alınan köpük davamlı olur.

Toplayıcı – kerosinin miqdarının molibdenin çıxımına təsiri öyrənilmiş və nəticələr cədvəl 1-də verilmişdir.

Cədvəl 1.

Toplayıcının miq., q.	Filizdə Mo-ın miq., %.	Konsentratda Mo-ın miq. %	Konsent. Kütləsi, q.	Çıxım, %
0,001	0,7	2,8	27	54,11
0,002	«-«	3,5	25	62,52
0,003	«-«	3,8	25	70,57
0,004	«-«	3,7	26	68,87
0,005	«-«	3,0	28	60,31

Alınan rəqəmlərə əsasən toplayıcının miqdarının 100-150 q/t olduğu hesab-lanmışdır. İlk dəfə olaraq köpükəmələgətirici kimi əlif yağından istifadə edilmiş, flotasiya prosesində molibdenin çıxımına təsiri müəyyənləşdirilmişdir (cədvəl 2). Əlif yağı 1:1 –ə nisbətində durulaşdırılmışdır.

Cədvəl 2.

Köpükəmələ-gətiricinin miq., q.	Filizdə Mo-ın miq. %.	Konsentratda Mo-ın miq. %	Konsent. kütləsi, q.	Çıxım
0,017	0,7	2,5	23	41,07
0,034	«-«	3,2	26	59,44
0,051	«-«	4,0	25	71,42
0,068	«-«	3,5	27	67,75

Cədvəldən göründüyü kimi yağın miqdarı 125q/t olduqda çıxım ~70% təşkil edir.

Yağın miqdarını artırdıqda konsentratda molibdenin qatılığı azalır. Opti-mal olaraq yağın miqdarını 100-125 q/t həddində götürmək olar.

Filizdə olan boş süxür (kvars) və dəmir birləşmələrinin flotasiyasının qarşı-sını almaq üçün ləngidici kimi maye şüsədən və natrium -sulfiddən istifadə edilmişdir. Bir seriya təcrübələrlə maye şüşənin miqdarının 0,3-05 kq/t, Na_2S –in isə 5,2-6,5kq/t olduğu müəyyənləşdirilmişdir. Eyni zamanda flotasiya prosesi üçün önəmli olan B:M nisbətinin 1: 3,0- 3,5 və təcrübənin aparılma müddətinin 5-7 dəqiqə həddində olduğu aşkar edilmişdir.

Aparılan tədqiqat nəticəsində Parağaçay molibdenit filizinin kollektiv flotasiya prosesinin optimal şəraiti çıxarılmışdır: nümunə 200q, su 600q, kerosin 100-150q/t, əlif yağı 100-125q/t, Na_2S – 5,5kq/t, maye şüşə 0,4 kq/t, Na_2CO_3 –pH- 9,5-10,5, vaxt 5-7 dəqiqə.

Göstərilən flotasiya rejimində alınan konsentrat komponentlərə görə analiz edilmiş və nəticələr cədvəl 3-də verilmişdir.

Cədvəl 3.

Konsentrat,q	Komponentlər, %						
	Mo	Cu	Fe_2O_3	Al_2O_3	SiO_2	Həll olmayan hissə	Közərmə zamanı itgi
2,000	3,8	1,4	38,6	13,6	9,02	18,8	15,4

Aparılan təcrübələrə nəzarət etmək üçün (molibdenin təyini) ekspres metod seçilmişdir. Flotasiya məhsulu – konsentrat qurudulur, 2q nümünə götürülərək sabit kütləyə gətirilir və 550-600^{0}C temperaturda 1 saat müddətində közərdilir. Sonra nümunə 20ml 8%-li Na_2CO_3 məhlulu ilə qarışdırılaraq 2-3 dəqiqə qay-nadılır və süzülür. Süzüntüdə Mo rodanid kompleksi şəklində kolorimetrik təyin edilir.

N ə t i c ə

Parağaçay molibdenit filizinin kimyəvi və mineraloji tərkibi öyrənilmişdir. Filiz nümunəsinin kollektiv (əsas) flotasiyası üçün optimal şərait seçilmiş miqdarı Mo hesabı ilə 3,8-4,0%, çıxımı isə 70% olan konsentrat alınmışdır.

Ə d ə b i y y a t:

1. Разумов К.А. Флотационный метод обогощения. Л. 1975, с.211-212
2. Тырышкин И.В., Глазунов Л.Н., Мешаннова В.И., Фоминых А.Б., Морозова И.Г. Полупромышленные испытания усовершенственной схемы обогощения сульфидных медномолибденовых руд. Жур. Цветные метал-лы., №2, 1984, с.89-91
3. Rzayev B.Z. Naxçıvan MR-ın mineral sərvətləri və onların istifadə perspektivləri. Naxçıvan 2003, s. 18- 25

GÜNEL MƏMMƏDOVA
AMEA Naxçıvan Bölməsi
Təbii Ehtiyatlar İnstitutu.

İZOBUTİLEN OLİQOMERLƏRİNİN ALINMASI VƏ ONUNLA QATILAŞDIRILMIŞ M-10 YAĞININ ÖZLÜLÜK İNDEKSİNİN TƏYİNİ.

Son dövrlər sintetik yüksək molekullu birləşmələrin kimyası və texnologiyası sürətlə inkişaf edir. Sintetik materiallar içərisində əsas yeri izobutilenin polimer və sopolimerləri tutur, belə ki, onların tətbiq sahələri çox genişdir (1).

Təqdim edilən işin məqsədi sürtkü yağlarına əlavə edilən qiymətli izobutilen oliqomerlərinin alınmasıdır. İzobutilenin oliqomeri konsistent sürtkü sənayesində qatılaşdırıcı, satış bitumlarına əlavə , hidravlik sistem və metalkəsici dərgahlarda isə yağ kimi tətbiq edilir (2).

Poliizobutilen yağları yüksək özlülük indeksinə malikdir və buna görə yaxşı sürtkü yağları hesab edilirlər. Avtomobil yağlarına əlavə edilmiş poliizobutilen onun özlülüyünü artırır, bu halda digər göstəricilər – xüsusi çəki, alovlanma və soyuma temperaturları, rəngi, kokslaşması praktik olaraq dəyişilmirlər. Poliizobutilenin avtola əlavə edilməsi soyuqda mühərrikin hərəkətə düşməsini asanlaşdırır, benzinin, yağın sərfini və şlam əmələgəlməni azaldır (3).

Bu səbəbdən poliizobutilenin müxtəlif katalizatorların iştirakı ilə alınması və onun polimerləşmə prosesinin kinetikasının öyrənilməsi istiqamətində çoxsaylı tədqiqatlar aparılır.


Ədəbiyyatdan məlumdur ki, sürtkü yağlarının xassələrini artırmaq üçün əlavə edilən poliizobutilenin polimerləşməsi alüminium 3-xlorid katalizatorunun iştirakı ilə alkil xlorid mühitində -10^0 - -20^0 C temperaturda aparılır.

P-20 əlavəsi üçün, alınmış məhsullarla qatılaşdırılmış sürtkü yağlarının tətbiqinin nəticələri belədir: mexaniki və termiki davamlılıq müvafiq olaraq 6,04
(29,3) və 10,27 (29,52) %, dağılma əmsalı 18,56 (10,35) (4).


Poliizobutilenin istismar xarakteristikasının yüksəldilməsi üçün polimerləşmə prosesi alüminium 3-xloridin iştirakı ilə alkil xlorid mühitində -10^{0}C temperaturda aparılmış, alınan polimerin M_n 10975, M_w 3980 kimi parametrlərlə xarakterizə olunduğu göstərilmişdir (5).

TƏCRÜBİ HİSSƏ

İzobutilenin oliqomerləşmə prosesi -20^{0}C - +40^{0}C temperatur intervalında „VN – 18" katalizatorunun iştirakı ilə aparılmışdır. İzobutilenin oliqomerinin çıxımı və molekul kütləsinin temperaturdan asılılığı aşağıda göstərilmişdir:



Şəkil 1. Oliqomerin çıxımının temperaturdan asılılığı



Şəkil 2. Oliqomerin molekul kütləsinin temperaturdan asılılığı.

Sürtkü yağlarının keyfiyyətini xarakterizə edən təyinedici parametrlərdən biri özlülük indeksidir. Yağın özlülük indeksinin təyini 40^0 və 100^0C –də aparılmışdır. Kinematik özlülüyün təyini üçün Ostvold – Pinkeviç viskozimetrindən istifadə edilmişdir. Kinematik özlülük aşağıdakı formul ilə təyin edilmişdir :

$\nu_{40} = k \cdot \tau$, burada k – viskozimetr sabiti,

τ - axın müddəti, s. Özlülük indeksi Y - ν_{40} *öi* = ------- 100

formulu ilə hesablanmışdır, burada Y - Y_2

Y – 40^0C–də özlülük indeksi 0 olan yağın kinematik özlülüyüdür və 100^0C -də həmin kinematik özlülüyə malikdir, mm^2/s ν_{40} - 40^0C-də yağın kinematik özlülüyüdür.

Y_2 - 40^0C-də özlülük indeksi 100 olan yağın kinematik özlülüyüdür və 100^0C –də həmin kinematik özlülüyə malikdir. Y və Y_2 qiymətləri cədvəldən tapılmışdır (6).

Molekul kütləsi 1500 olan oliqomer qatılaşdırıcı əlavəedici kimi istifadə edilmişdir. M-10 yağı 2 % oliqomerlə qatılaşdırılmış və tam həll olana qədər 70^0-80^0 C temperaturda qarışdırılmışdır. Soyuduqdan sonra qatılaşdırılmış yağın özlülük indeksi, kinematik özlülükləri yuxarıda göstərilmiş formullarla hesablanmışdır. Aldığımız nəticələrə əsasən M-10 yağının özlülük indeksi 80-dan 93-ə qədər yüksəlmişdir.

Nəticələr :

1. Temperaturun artması izobutilen oliqomerinin çıxımının və molekul kütləsinin azalmasına səbəb olur.
2. Alınmış məhsul – izobutilen oliqomeri M-10 yağı üçün qatılaşdırıcı komponent kimi istifadə edilmiş və nəticələr izobutilen oliqomerinin qatılaşdırıcı maddə kimi istifadəyə yararlığını təsdiq etmişdir.

Ədəbiyyat

1. Г.Гютербок. Полиизобутилен и сополимеры изобутилена. Государственное научно-техническое издательство нефтяной и горно-топливной литературы. Ленинград 1962 г., 352 с.
2. Химический энциклопедический словарь. "Сов. энциклопедия", Москва 1983 г., 789 с.
3. Ю.Г. Камбаров, Н. М. Сеидов, А. А.. Буният-заде. Полиолефины. Азернешр – 1966 г., 185 с.
4. Пат. Рос. № 4462006, 1990 г.
5. Пат. Рос. № 4494997/05, 1991 г.
6. Нефтепродукты. Методы испытаний. Издательство "Стандартов", часть Ы, Москва 1987 г, 248 с.

MƏMMƏD BABANLI,
QORXMAZ HÜSEYNOV
AMEA Naxçıvan Bölməsi
Təbii Ehtiyatlar İnstitutu

TlJ -Te SİSTEMİ

DTA və RFA metodları ilə TlJ-Te sistemində faza tarazlıqları tədqiq edilmişdir. Məlum olmuşdur ki, TlJ-Te sistemi kvazibinardır, monotektik və evtektik tarazlıqlı hal diaqramı əmələ gətirir. Üçlü birləşmə və bərk halda həllolma müşahidə edilmir. Maye halda geniş təbəqələşmə sahəsinə malikdir.

Ədəbiyyat icmalından məlum olmuşdur ki, TlJ-Te sistemi praktik olaraq tam öyrənilməmişdir. TlJ-Te_2Te kvazibinar kəsiyinin faza diaqramı verilmişdir və göstərilmişdir ki, Tl_5Te_2J tərkibli bir üçlü birləşmə alınır (1). Bu birləşmə Tl_5Te_2J <=> L_1+L_2 sintektik reaksiya ilə 775 K temperaturda əriyir. Sintektik tarazlıq temperaturunda təbəqələşmə sahəsi 20-80mol% TlJ sahəsinə düşür. Həmçinin TlJ -TlTe və TlJ-Tl_2Te_3 sistemlərində faza tarazlıqlarının nəticələri verilmişdir. Göstərilmişdir ki, hər iki sistem TlTe və Tl_2Te_3-ün peritetknik xarakterli ərintilərinin təsirindən qeyri-kvazibinardır. Onlar aşağı solidusda stabildir, bərk halda isə heterogen qarışıqlarından ibarətdir., TlJ - TlTe (Tl_2Te_3) sistemləri geniş təbəqələşmə sahəsinə malikdir.(2 - 5) .

Bu nəzəri tədqiqatlara əsaslanaraq TlJ - Te sistemində faza tarazlıqları tədqiq edilmişdir.

Təcrübi hissə

TlJ - Te sistemi üçün lazım olan TlJ birləşməsi havasızlaşdırılmış kvars ampullarda, ikisahəli rejimlə elementar komponentlərin qarşılıqlı təsiri ilə sintez olunmuşdur. Sahələrin temperaturları 750K və 380K-də

saxlanılmışdır. Birinci sahədə temperatur TlJ-in ərimə temperaturundan (715K) (5) bir qədər yüksək qoyulmuşdur. İkinci sahə yod buxarlarının kondesləşməsinə və ampulun partlamasının qarşısının alınmasına xidmət edir. Bütün sintez müddəti (3-4 saat) ampul silkələnmişdir (vibratorla). Cünki TlJ ərintisi metallik talliumun səthini tutaraq onun yodla qarşılıqlı təsirini çətinləşdirir.

Reaksiya qurtardıqdan sonra yodun əsas kütləsi ampulda tamamilə «isti» sahəyə keçirilmiş və yavaş-yavaş silkələnməklə qarışdırılmışdır. Soyutma peçi söndürülməklə aparılmışdır. Alınmış TlJ-in fərdiliyi DTA və RFA metodları ilə yoxlanılmışdır.

Tədqiq olunan TlJ-Te sisteminin ərintisini hazırlamaq üçün Te və TlJ müxtəlif nisbətlərdə qarışdırılaraq havasızlaşdırılmış (~ 10^{-3} Pa) kvars ampullarda əvvəlcə 800K temperaturda, sonra isə 680K temperaturda 300 saat müddətində qızdırılmışdır. Təbəqələşmə sahəsini öyrənmək üçün sistemdən alınan nümunə toz halına salınmış, həb şəklində preslənmiş və analoji şəkildə təkrar qızdırılmışdır.

Nəticələrin müzakirəsi

Tədqiqat DTA (pirometr NTR-75) və RFA (DRON - 2, Cu K_α - şüalanma) metodları ilə aparılmışdır. DTA-in nəticələrinə əsasən sistemin T-x diaqramı qurulmuşdur. Məlum olumuşdur ki, bu sistem krazibinardır, maye halda güclü təbəqələşmə ilə xarakterizə olunur. Sistemdəki ərintilər 95mol% TlJ (L_1) və 30 mol% TlJ (L_2) tərkibində L_1 <=> L_2+$(TlJ)_{II}$ (T=712K) monotentik tarazlıqda olur. Evtektika tərkibi 25 mol% TlJ-ə malik olur və 705 K temperaturda kristallaşır.

TlJ-Te sistemində $(TlJ)_I$<=> $(TlJ)_{II}$ polimorf çevrilmə temperaturu (450 K) (5) dəyişməz qalır və bərk TlJ-də tellurun qismən həll olunmasını təmin edir. TlJ-Te sistemindəki fazaların tərkibi aşağıdakı kimidir:

T> 712K, L_1+L_2
T= 705K— 712K, $L_2+(TlJ)_{II}$
T=450K — 705K$_I$ $(TlJ)_{II}+Te$
T<450K. $(TlJ)_I$ + Te

Nəticə:

TlJ-Te sistemi kvazibinar olub monotektik tarazlıqla və maye halda geniş təbəqələşmə sahəsi ilə xarakterizə olunur. Sistemdə kimyəvi qarşılıqlı təsir müşahidə edilmir. Alınan nəticələr Tl - Te - J üçlü sisteminin TlJ - Te qatılıq sahəsini müstəqil alt sistem kimi ayırmağa imkan verir.

Ə d ə b i y y a t:

1. Е.Ю.Переш, В.Б.Лазарев и др. Неорган. Материалы, 1993, Т.29, №3, с.406-409.
2. И.М.Бабанлы, И.И.Алиев, Я.М.Елчиев. Аз.хим. ж., 2004, №3.
3. Е.Ю.Переш, О.В.Зудака и др. Неорган. Материалы, 2001, Т.37, №8, с.1000-1004.
4. Г.Брауэр. Руководство по неорган синтезу. М., Мир, 1985, Т.3, с.947.
5. D.Gubicciotti. - Y.Less. Common. Met., 1971, v.24, №2, p.201.

ŞƏMİL MAHMUDOV
Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN AĞDƏRƏ POLİMETALLİK KONSENTRANTI ƏSASINDA YENİ, BİR VƏ ÇOX NÜVƏLİ MOLİBDEN KARBONİL KLASTER BİRLƏŞMƏLƏRİNİN SİNTEZİ VƏ TƏDQİQİ

Naxçıvan Ağdərə polimetallik konsentrantı əsasında yeni, bir və çox nüvəli molibden karbonil klaster birləşmələri sintez edilərək tədqiq edilmişdir. Alınmış birləşmələr sintez-qaz ($CO+H_2$) prosesləri üçün Mo - əsaslı daha effektiv,

sənaye əhəmiyyətli katalitik sistemlərin yaradılmasında əsas xammal bazası rolunu oynaya bilər.

Bir və çox nüvəli yeni klaster birləşmələrinin sintezi və tədqiqi istiqamətində aparılan tədqiqat işlərinin [1-2] davamı kimi molibden əsaslı klaster birləşmələrinin sintezində ilk dəfə olaraq tədqiqat obyekti kimi, Naxçıvan Ağdərə polimetallik molibden konsentrantından istifadə edilmişdir.

Belə bir tədqiqatın aparılmasına səbəb, onun həm elmi, həm də praktiki cəhətdən əhəmiyyətli olmasıdır. Bu baxımdan bir və çox nüvəli molibden karbonil əsaslı birləşmələrinin sintez-qaz ($CO+H_2$) proseslərində daha selektiv və effektiv katalitik sistemlərin yaradılmasında istifadə olunması daha məqsədə uyğundur [3].

Yuxarıda qeyd edildiyi kimi işdə əsas tədqiqat obyekti kimi Ağdərə molibden konsentratı götürülmüşdür və məlum olduğu kimi onun tərkibinə bir sıra metallar və qeyri-metallar daxil olmaqla əsasını qiymətli metallardan 12% molibden, 1%- qədərini isə renium təşkil edir.

Konsentrantın əvvəlcə oksigenlə işlədilərək oksidləşdirilməsi, tərkibə daxil olan elementlərin müvafiq oksidlərinə çevrilməsi, daha sonra, onun HCl-la işlənməsi, müvafiq xlorhidrat duzlarına çevrilməsi həyata keçirilmişdir. Qeyd etmək lazımdır ki, oksidləşmədən sonra alınmış kütlənin tetrahidrofuran (THF) polyar həlledicisi ilə yuyulması, tərkibdə olan Re_2O_7 asanlıqla ayrılmasına səbəb olur ki, bu da gələcəkdə ondan da istfadə olunmasına geniş imkanlar açır.

Beləliklə, bu yolla alınmış $MoCl_3 \cdot 4H_2O$ ekstraksiya yolu ilə o biri qarışıqlardan təmizləndikdən sonra, ondan bir və çox nüvəli klaster birləşmələrinin sintezində istifadə edilmişdir. Bunun üçün isə alınmış molibden üç xlorid tetrahidrat duzunun - $MoCl_3 \cdot 4H_2O$, əvvəlcə termiki üsulla (l) dehidratlaşdırılaraq susuz $MoCl_3$ çevrilməsi həyata keçirilməlidir.

$$MoCl_3 \cdot 4H_2O \ 120 - 180^0S \xrightarrow{} MoCl_3 + 4H_2O \qquad (1)$$

Sonra isə (1) reaksiyası ilə alınmış $MoCl_3$-dən bir - $Mo(CO)_6$, $Mo(CO)_5L$ (burada L=PPh_3, $CH_3COCH_2COCH_3$) və çox - $Mo_x[(CO)_m\ L]_y$ nüvəli klaster birləşmələrinin sintezinin əsasını, avtoklav şəraitində (2) reaksiyası ilə $MoCl_3$-ün THF həlledicisində reduksiyaedici Cu^0 iştirakı ilə P_{CO}=30- 40 atm. təzyiqdə dəm qazı - CO ilə 120-160^{0}S temperaturda bir neçə saat işlədilməsi təşkil edir.


$$MoCl_3+Cu^0+P_{CO}30\text{-}40\ atm.\quad 120\text{-}160^0S,\ THF \longrightarrow Mo(CO)_6 + CuCl+COCl_2 \quad (2)$$

Məlum olmuşdur ki, $MoCl_3$-ün CO-la işlədilməsi məqsəddən asılı olaraq tək nüvəli $Mo(CO)_6$ - heksakarbonil molibden, n-donorlu liqandların məsələn, trifenilfosfinin PPh_3, asetil asetonun - $CH_3COCH_2COCH_3$ iştirakı ilə həm bir I, həm də çox II-V nüvəli $Mo_x[(CO)_m\ L]_y$ (burada $x \geq 2\text{-}4$; $y \geq 3\text{-}6$; m=2-4) klaster əmələ gətirə bilər.

Aparılmış tədqiqat işləri göstərir ki, $Mo(CO)_6$ birləşmələrinin bu və ya digər çevrilmələrə (əsasən də liqand dəyişmə reaksiyalarında) məruz qalaraq müxtəlif quruluşa (II-V) malik istər iki, istərsə də çox nüvəli klasterlər əmələ gətirməsi, demək olar ki, başqa keçid (d) elementləri ilə yanaşı öz yarımqrup elementləri - Cr,W - dan da kəskin fərqlənir ki, bu da, onun atom quruluşu ilə əlaqədar olduğu başqa tədqiqatçılar tərəfindən də qeyd edilir və burada liqandın prosesdə həlledici rola malik olmadığı vurğulanır [4].


Digər tərəfdən, Mo-tərkibli klaster əmələ gəlmə prosesində Mo-atomunun liqand dəyişmə və ya $Mo(CO)_m$ radikalının nəzərə alınacaq dərəcədə seçicilik göstərməsi, $Mo(CO)_6$-nın kimyəvi çevrilmələr zamanı daha yüksək çıxımla yeni birləşmələr əmələ gətirməsinə səbəb olur ki, bu da alınan nəticələrin ədəbiyyat məlumatları ilə üst-üstə düşməsinə gətirib çıxarır [5].

AMEA-nın Kimya Problemləri İnstitutu ilə birgə aparılmış tədqiqatlar nəticəsində aşağıdakı tərkibdə bir və çox nüvəli molibden karbonil, $Mo(CO)_6$ (I) kompleksi, iki nüvəli klaster




$(CO)_4Mo$ — $Mo(CO)_4$(II), $(OC)_3Mo \cdot THF$ — $Mo(CO)_3$(III) $\cdot THF$

və iki nüvəli donor liqandlı klaster



$Ph_3P\,(OC)_3Mo$ — $Mo(CO)_3PPh_3$(IV)

kompleksi sintez edilərək tədqiq edilmişdir. Maraqlıdır ki, trifenilfosfin liqandlı kompleksdən (IV) fərqli olaraq, asetilaseton liqandlı kompleks (V) iki deyil üç nüvəli klaster birləşməsi əmələ gətirir.




(V)

Sintez edilmiş I-V klaster komplekslərinin tərkibləri element analiz metodu ilə təyin edilmiş və təklif olunan brutto formula uyğun gəldiyi müəyyən edilmişdir. Onların quruluşlarına gəldikdə isə ilkin daha dolğun məlumatlar İQ-spektral metodun köməyi ilə əldə edilmişdir.

İşdə İQ - spektral metodun köməyindən başqa, digər metodlardan geniş istifadə edilməsi iki baxımdan daha əlverişli sayıla bilər. Birincisi, birləşmələrdəki CO-qrupları Mo-atomu ətrafında baş verə biləcək bütün dəyişikliklərə daha çox həssaslıq göstərir. İkincisi, CO-qrupları özlərinin birləşmədəki tutduqları vəziyyət haqqında məlumat almağa imkan verir [6].

Alınan klasterlərin vazelin yağında və THF-dakı İQ-spektrlərinə əsasən belə bir qənaətə gəlmək olar ki, $Mo(CO)_6$-dan fərqli olaraq ($Â_{CO}$ 2120, 2020, 1995sm^{-1}) yerdə qalan bütün birləşmələrdə CO- qruplarının bir hissəsinin 1880-1820sm^{-1} intervalında yerləşərək iki udulma zolağına malik olması və bununla da komplekslərdə terminal CO-qrupları ilə yanaşı körpü əmələ gətirən CO-qruplarının da olması faktı ortaya çıxır ki, bunu da sxematik olaraq aşağıdakı kimi göstərmək olar.



Alınmış klasterlərin İQ-spektrlərinin CO-qruplarının udulma zolaqları isə aşağıdakı kimidir.

II$Â_{CO}$: 1890, 1875, 1850, 1820sm^{-1}

III$Â_{CO}$: 1890, 1878, 1860, 1830, 1800sm^{-1}

IV$Â_{CO}$: 2075, 1950, 1940sm^{-1}

V$Â_{CO}$: 1895, 1878, 1845, 1810,1805sm^{-1}

Sintez edilmiş komplekslərin bəzi fiziki, termiki və kimyəvi xassələri tədqiq edilmişdir. Belə ki, bütün klaster birləşmələri suda hidroliz olunmurlar, bütün mineral turşular onları tam parçalayırlar. Onlar istər polyar həlledicilərdə, istərsə də qeyri polyar həlledicilərdə çox yaxşı həll olurlar.

Onların bu tip həlledicilərdəki məhlulları açıq havada asanlıqla oksidləşir, birbaşa günəş şüaları altında isə tam dekarbonilləşməyə məruz qalırlar. Termoqrafik tədqiqatlara əsasən məlum olmuşdur ki, bir nüvəli klasterlər 200^0S-dən yuxarı temperaturda dekarbonilləşərək tam parçalanmaya məruz qalırlar.

Beləliklə, aparılmış tədqiqatlar nəticəsində Ağdərə polimetallik konsentrantından istifadə etməklə sənaye əhəmiyyətli sintez-qaz prosesləri üçün katalitik sistemlərin yaradılmasında Mo-tərkibli klaster birləşmələri əsas xammal bazası rolunu oynaya bilər.

Ə d ə b i y y a t:

1. Усятинский А.Я., Махмудов Ш.М., Сулейманов Г.З., Белецкая И.П. Изд. РАН., сер. хим., 1993, №3, с.586
2. Mahmudov Ş.M. Kimya roblemləri jurnalı, 2003, №3.
3. Хартли Ф. Закрепленные металлокомплексы - новое поколение катализаторов. М., Мир, 1989, с. 360
4. Методы элементоорганической химии, Подгруппы хрома, молибдена и вольфрома. Под.ред. А.Н. Несмеянова, К.А. Кочешкова. II-ая книга. М., Наука, 1974, с.874
5. Басоло Ф., Пирсон Р. Механизмы неорганических реакций. М., Мир, 1971, с.592
6. Губин С.П., Микова Н.М., Цыбенов М.П., Лопатин В.Е. Координ. Химия, 1984, Т.10, вып.5, с.625

MƏMMƏD AĞASİYEV
AMEA Naxçıvan Bölməsi
Təbii Ehtiyatlar İnstitutu

NAXÇIVAN MR ƏRAZİSİNDƏ NEFT TƏZAHÜRLƏRİ

Naxçıvan Dövlət Arxivində əldə edilmiş 6 səhifəlik yazışmaya əsasən 1868-ci ildə Pirdoudan (indiki Qacaran) irihəcimli mis-molibden mədəninin iş icraçısı Yakimidi Ordubad qəzasının Urumiçay hövzəsinin Yağıldərə

sahəsində «aşkar etdiyi neft yatağının» kəşfiyyatı və istismarı məqsədilə Yerevan qubernatorundan və Qafqaz canişini Vorensov-Daşkovdan lisenziya istəmişdir. Bu məlumatı Ordubad rayonunun Üstüpü kəndinin qocaman sakinləri də təsdiqləmişlər.

Tiflis arxivindən əldə edilmiş 7 səhifəlik yazıda və İvanovun 1902-ci ildə tərtib etdiyi 1:100000 miqyaslı geoloji xəritədə bu regionun faydalı qazıntıları öz əksini tapmış və yazıda yataqların filiz ehtiyatı, metalların faiz miqdarı və onların istismar rentabelliyi, yataqların yer səthində çıxışları əsasında hesablanmışdır. Yazıda həmçinin müşahidə etdikləri suların yağlılığı və neft iysi verməsi qeyd olunmuşdur. Müəllifi çarın canişini Semyonov və amerikalı geoloq olmuşdur. Yazı II Nikolaya təqdim edilmişdir. Geoloqlar İvanov və Korjevski 1902-ci ildə filiz yataqlarınını istismarı məqsədilə Qaradağı arendaya götürmüş (70 il müddətinə- 1902-1972- ci illər) və bu məqsədlə də II Nikolay Culfa-Mincivan dəmiryolunun çəkilməsinə 1914-cü ildə rəvac vermişdir. Yolun Qərçivandan- Qaradağa çəkilişinə nəzərdə tutulmuşdur. Yolun iş icraçısı bu yazının müəllifinin babası Hacı Rzaqulu və atası Əbülqasım Ağasiyevlər olmuşlar. Yolun döşəməsi 1914-1917-ci illərdə tam hazırlanmış, relsləri isə 1940-1941-ci illərdə qoyulmuşdur. Layihədə istifadə edilən kitablar Ağasiyevlər ailəsindədir.

Əldə edilmiş, geoloji fond və mətbuatda dərc edilmiş, həmçinin səxsən topladığımız geoloji, geofiziki, geokimyəvi və qazılmış quyuların geoloji materiallarına əsaslanaraq və bu məlumatları ərazidəki yertəki çıxışları ilə müqayisələndirilərək, Naxçıvan MR və həmsərhəd sahələrin 1: 50000 miqyasda geoloji xəritəsi tərtib olunmuşdur. Bununla yanaşı yertəkinin dərinliklərini əks etdirən 1:50000 miqyasda 16 kəsiliş, 3 litoloji-stratiqrafik sutun, xəritənin oxunması üçün göstərici, yataqların irimiqyaslı xəritələri də tərtib olunmuşdur. 1: 50000 miqyaslı xəritənin uzunluğu 2.5 m və eni 1,5 m-dir. Dəqiqliyinə xələl gətirmədən, bu xəritə 1:200000 miqyasa çevrilmiş və geoloji məlumatları

genişləndirmək məqsədilə ona Dərələyəz-Zəngəzur, Zəngilan-Qafan ərazilərində vacib hesab edilərək əlavə edilmişdir, belə ki, bu ərazidə istismara cəlb edilmiş 2 damar tipli və 7-i kvars-molibdeni yatağı, 4 mis molibden porfir, 2 qızıl, 1 külçədan- mis kabalt yatağı aşkar edilmişdir. 2 damar tipli kvars-molibden yatağı 1952-91-ci illərdə istismarda olmuşdur.

Tərtib olunmuş xəritələrin hər ikisində bütüm təzahürləri, yeraltı su mənbələri yerləşən sahələr, mineral su çıxışları, filiz və qeyri filiz yataqları və təzahürləri, kəsiliş xətləri, əsas dərinlik qırılmaları və s. öz əksini tapmışdır.

Xəritələri tərtib edərkən Şərur rayanunda çıxışları olan perm və karbon yaslı əhəngdaşlarında üst təbaşirin turon və konyak, kilit və kotam kəndləri ərazisiinin əhəngdaşlarında (turon alt-konyak və dokembri) zəngin bitum aşkar edilmişdir. Arpaçayda bitumlu əhəngdaşlarının qalınlığı 704-884 metrdir. Onun 50-57 metri karbon yaşlı əhəngdaşlarının payına düşür. Arpaçay ərazisiinin bitumlu əhəngdaşlarında 6 lay dəstəsi ayrılmışdır. Onlardan 5-i permdə, 1-i isə karbonda yerləşir. Onların qalınlığı 10 metrdən 271 metrə qədərdir. Bu lay dəstələrinin daxilində kiçik təbəqəli nisbətən zəngin bitumvardır. Əhəngdaşları tünd qara rənglidirlər və nisbən mərmərləşiblər. Orada karyerdə vardır. Kəsilmiş qara mərməri günün altında bir müddət saxladıqda, onun ağardığı da müşahidə olunmuşdur. Bitum buxarlanır və yanır.

Xalaç kəndindəki karyerin yaxınlığında aşkarladığımız əsas tuflar (vulkan mənşəli) neogen yaşıldırlar. Bu tuflar və onların effuziv analoqları Vedi-Ordubad dərinlik qırılması (xəritədə 2N saylı) boyu geniş yayılmışdırlar. Bu baxımdan bitum təzahürünü neogendə də guman olunur, bu isə bütövlükdə geologisütunun bütün kəsilişlərində bitum-neft axtarışına imkanlar yaradır.

Xalaç kəndində aşkarladığımız tuflar İran ərazisində də perm və trias çöküntülərinin üstündə yatırlar. Bu suxurlarda bitum geniş yayılmışdır.

2. NAXÇIVAN MR ƏRAZİSİNDƏ APARILMIŞ NEFT AXTARIŞLARININ NƏTİCƏLƏRİ

Naxçıvan müldasında neft axtarışları məqsədiylə 1951-1955-ci illərdə 3 quyu qazılmışdır.

1 saylı quyu dəhnə adlanan sahədə qazılmışdır. S.Ə.Əzizbəyovun məlumatına əsasən bu qazma quyusu yuxarıdan- aşağı: 331 m-ə qədər eyfel yaşlı orta devon və ondan aşağıda isə 1414 metrlik alt devon çöküntülərini açmışdır.

Açılmış suxurlar kömürlü-qrafitli və piritli terrigen-karbonat çöküntüləriylə təmsil olunmuşdurlar. Onlarda bitum müşahidə edilməmişdir. Tərkibinə görə suxurlar platform mənşəlidirlər.

2 və 3 saylı quyular Böyük düzdə, eyni kəndin yaxınlığında, bir-birindən 2 km aralı qazılmışdır.

2 saylı quyunun dərinliyi2180 metr olmuşdur. Quyu 0-1130 m orta miosenin konq-karaqan horizontunu, 1130-1217 m (87m) oliqosenin tuflarını, 1217-2180 (963 m) triası təmsil edir.

Əgər quyu bir az da dərinə qazılsaycı, şübhəsiz ki, məhsuldar hesab etdiyimiz perm çöküntülərini açmış olardı. (təxminən 10-15 m)

3 saylı quyunun dərinliyi 1662 metrdir. Bu quyu 0-1398 metrədək terrigen mənşəli konq-karaqan horizontunun molasslarını, 1398-1634 metrdə (236 m) oliqosen-eoseni təmsil edən tufogen qatı- 1634-1662 metrdə (28 m) trias yaslı dolamitləri açmışdır.

1968-1975-ci illərdə Haçarparaq bulağının yaxınlığında Nehrəm quyusu adlandırılmış və dərinliyi 3540 m olan IN saylı quyu qazılmışdır. Quyu 0-860 m konq-karaqanın və 860-930 m-də tarxan çokrakın terrigen çöküntülərini, Nehrəm duz qatı ilə birlikdə açmışdır, 930-1330 metrdə oliqosen yaşlı vulkanitlər, 1330-1430 metrdə üst eosenin terrigen qatı, 1430-1680 metrdə eosenin tuf və arqillitləri,

1680- 1750 m paleosenin qil və qumdaşları qatı açılmışdır. 1735-2000 m intervalda quyu qırılma boyu qazıldığından üst təbaşirin konyak, kampan, maastrixt çöküntülərlə təmasda eosen və paleosen çöküntülərlə təkrarlanırlar. 2000-2750 metrlik intervalda üst təbaşirin, maastrixin, kampanın və üst konyakın qilli və qumlu əhəngdaşlarının və mergellərin sütunda yerləşməsi, tərtib edilmiş kəsilişə və karotaya əsaslanaraq müəyyənləşdirilmişdir. 2750- 3540 metrdə üst turonu və alt konyakı təmsil edən tolcit mənşəli, olivinli bazaltlar və onların tufları yerləşirlər.

Quyudan çıxarılmış 70 ədəd nümunələr şlamdan ibarətdirlər. Bu səbəbdən qeyd edilən intervallar tam dəqiq hesab edilə bilməz, lakin onlar qismən kəsilişə uyğunlaşdırılmışdır.

1N saylı quyunun əsas nəticəsi 1612-1623 metrdə debiti 15-17 m^3/saat olan su axınının aşkarlanmasıdır. Bu su kollektor xüsusiyyətli, üstdən və altdan ekran rolu oynayan, terrigen suxurlarla əhatə olunmuş, orta eosen yaşlı tuflarda yerləşir. Ordubadçayın illik orta debiti 0,36 m^3/saniyədir. Bu, quyuda aşkarlanmış suyun debitindən 50 dəfə aşağıdır.

1N saylı quyu 1700 m qədər təmizləndikdən, sonra quyudan su hasil etmək olar və debitə əsaslanaraq yeni quyuların qazılma yerləri mütəxəssislər tərəfindən müəyyənləşdirildikdən sonra, yeni quyular da qazıla bilər. Bu məqsədlə BU-2000 markalı qazma avadanlığı və su mancanaq dəzgahları alınmalıdır.

1995-2000 illərdə Naxçıvan müldaşında geofiziki tədqiqatlar aparılmışdır. Öncə aparılmış geofiziki tədqiqatlardan fərqli olaraq, Əlincəçay-Naxçıvançay arası sahədə miosen, oliqosen və təbaşir yaşlı suxur qatlarının sərhədləri müəyyənləşdirilmişdir. Oliqsen trias yaşlı suxurların tavanı quyuların məlumatı əsasında kəsilişlərdə əks etdirilmişdir. Bitumlu perm, karbon qatlarının sərhədləri isə müəyyənləşdirilmişdir. Bu səbəbdənDərələyəz-Zəngəzur blokunun Qarabağlar-Pais-İlandağ xəttində geofiziki

tədqiqatların kompleks şəkildə aparılması vacib hesab olunur.

3.NEFT VƏ QAZ AXTARIŞININ İSTİQAMƏTLƏRİ

Qərbi Sibirin neft yataqlarının açılmasında Şimal dəniz yolunun təşkili və təchizatı mühüm rol oynamışdır. Gəmiləri yanacaqla təmin etmək məqsədilə Şimal Buzlu Okeanın sahil torpaqlarında neft və kömür, həmçinin filiz yataqlarının xtarışı təşkil edilmişdir. Norilski mis-kobalt yatağını açmış məşhur geoloq Ürvansev, Abşeron yarımadasında olduğu kimi, Taymır yarımadasında və Şimal torpaqlarında kembri və silur yaşlı suxurlarda bitum və bitumlu əhəngdaşları aşkar etmişdir. Əhəngdaşlarından əldə edilmiş bitumda hidrogenın miqdarı- 12,71%, karbonun isə-75, 68% olmuşdur. Bu nəticələr əsasında 1934-cü ildən başlayaraq planlı surətdə Qərbi Sibirin şimal dəniz yolunu əhatə edən torpaqlarda neft axtarışına başlanmış və nəticədə Peçoraçayı hövzəsində və Qərbi sibirdə zəngin neft yataqları aşkar edilmişdir.

Naxçıvan MR ərazisində də bu səpgidə geoloji fəaliyyətə rəvac verilməlidir. Geoloji fəaliyyətin 70 itllik son materiallarını təhlil edərkən, bu fəaliyyətin nə dərəcədə səmərəsiz olmasının şahidi olmuşam. Belə ki, Dərələyəz-Zəngəzur blokunun «Ermənistan» hissəsində 7 iri və orta həcmli qızıl-polimetal, külçədan və mis-molibden porfir yatağı istismar olunur. Lakin geoloji quruluşlarında fərq olmayan blokun Nax.MR ərazisində bu gün istismara cəlb ediləcək sənaye əhəmiyyətli filiz yatağı istismara verilməmişdir. 2 damar tipli kvars-molibden yataqlarının ehtiyatları isə tükənmişdir. Lakin bundan xəbərsiz Nax GKE rəisi Əli Vəliyev simpoziuma təqdim etdiyi braşurada, ehtiyatları tükənmiş yataqlar da daxil olmaqla 14 filiz yatağının istismara hazır olması haqda yalançı məlumat

vermişdir. Eyni sözləri 1992-2000-ci illərdə fəaliyyət göstərən və qızıl hasil etməyən Qızıl şirkətinə də şamil etmək olar.

Tərtib olunmuş xəritələrə əsaslanaraq Naxçıvan MR ərazisində iri həcmli 4 mis-molibden porfir, mis-kobalt, qızıl-polimetal (orta və kiçik həcmli) yataqlarının, yeraltı su mənbələrinin, neft yataqlarının aşkar edilməsi imkanları böyükdür. Bunun üçün yüksək ixtisaslı mütəxəssislərə ehtiyacla yanaşı, metodiki baxımdan geoloji fəaliyyətin təşkili mühüm əhəmiyyət kəsb edir.

Öncə aparılmış neft axtarışının nəticələri şərh olunmuşdur. Naxçıvan mul dasında qazılmış quyular bitumlu perm və karbon yaşlı əhəngdaşlarını açmamışlar. Bitum əhəngdaşları ilə təmasda olan neoqen və təbaşir yaşlı maqmatogen suxurlarda da müşahidə olunmuşdur. Neft yataqlarının axtarışında bitumun əsas kriteriya olması bəllidir. Bununla yanaşı neftin, filizin və həmçinin yeraltı suların toplanmasında litoloji və struktur faktorlar mühüm rol oynayırlar. Öncə Nax. MR ərazisində aparılmış geoloji-kəşfiyyat və axtarış fəaliyyətinin uğursuzluğunun əsas səbəbləri qeyd olunmuş faktorlara əhəmiyyət verilməməsi, tərtib olunmuş geoloji xəritələrin natura ilə uyğunlaşmaması, yataqların morfologiyasına, genezisinə lazımi diqqətin verilməməsi və mütəxəssislərin səriştəsizliyi olmuşdur.

Qeyd etdik ki, Naxçıvan MR ərazisində geoloji quruluşları fərqli iki blok: Arazboyu və Dərələyəz-Zəngəzur mövcuddur. Bu blokları ayıran 2 və 5 saylı dərinlik qırılmalarının amplitudaları 1400 metrdir. Bu səbəbdən qırılma zonasında alt eosenin rifeqen əhəngdaşları, alt miosenin tufoqen çöküntülərilə təmasdadırlar. Bu baxımdan quyular Dərələyəz-Zəngəzur blokunda qazılsaydılar 1,5-4 km dərinlikdə bitumlu turun-altkonyak, perm və karbon yaşlı əhəngdahlarını aşkarlamaq olardı.

Təbaşir və neogen yaşlı maqmatogen suxurlarda bitumun təzahürü Abşeronda və Naxçıvan MR ərazisində neoqendə təzahür etməsinə dəlalət edir. Bu səbəbdən bitum,

həmçinin neft və qaz axtarışı bütün stratiqrafik bölgülərdə, qeyd olunmuş faktorlar əsasında ilk növbədə aparılmalıdır.

Neft əmələ gəldiyi dövrdə paleozoy çöküntülərinin yer səthinə çıxışları olduğundan, neft-qaz axtarışı Qarabağlar-Qıvraq xəttindən şərqdə aparılmalıdır. Bu halda üstünlük Dərələyəz-Zəngəzur blokuna verilməlidir.

Neft axtarışı üzrə təkliflər aşağıdakılardır:

1. Hər iki qeyd olunmuş bloklarda bitum və perspektivli strukur axtarışları davam etdirməklə, tərtib olunmuş xəritələrə lazımi düzəliş də edilməlidir.
2. Bitumlu əhəngdaşlarından və maqmatogen suxurlardan bitum hasil edib labaratoriya şəraitində öyrənilməlidir.
3. Tərtib olunmuş strariqrafik sütunda əks olunmuş lay dəstələrinin kollektorluq xüsusiyyətləri və bitumluğu öyrənilməlidir.
4. Bitumlu perm və karbon əhəngdaşlarını açıq öyrənmək məqsədilə 2 saylı quyu bərpa edilib, dərinliyi 2180 m dən 3000-3500 metrə qədər dərinləşdirilməlidir. Müsbət nəticə əldə etdikdən sonra, Qarabağlar-Qıvraq kəndləri arasında, 2 saylı quyudan 3 km qərbdə dərinliyi 4 km olan yeni quyu qazılmalıdır.
5. Bitumlu qatı ahkarlamaq məqsədilə I Naxçıvan saylı Nehrəm quyusu 5500 metrə qədər dərinləşdirilməlidir. Bu halda quyudan su da hasil etmək olar.
6. Dərələyəz-Zəngəzur blokunda iki sturuktur zoloq aşkar edilmişdir. Bu zolaqlar dərinlik qırılması sayəsində bölünmüş vahid zolağın hissələri olmaqla bərabər, geoloji quruluşları da eynidir. Qarabağlar-İlandağ istiqamətində yerləşən zolağın uzunluğu 53 km-dir. Zolaqda 7 qalxma 6 çökəkliklə əvəz edilir. Çıxıntıların uzunluğu 2-10 km-dir, yer səthində onların mərkəzində təbaşirin maastrixt çöküntüləri yerləşirlər. XII-XII və XIII-XIII saylı kəsilişlərdə perm-karbonun bitumlu əhəngdaşlarını kəsmək üçün qazılası quyuların, müvafiq olaraq, dərinliyi 1,5-2,5 km və 4 km olmalıdır.

7. İkinci zolaq Qızılca kəndindən-Aza kəndinə qədər uzanır. Zolağın uzunluğu 30 km-dır. Bu zolaqda uzunluqları 2-5 km (yer səthində) olan 5 qalxma qeyd olunub, onlarında nüvəsində maastrixt çöküntüləri yerləşirlər.

Bu sahədə axtarış (1967-ci il) B.məmmədov öz hesabatında zolağın neft üçün perspektiv olmasını qeydl etmişdir.

1913-cü ildə çap olunmuş 1:1600000 miqyaslı Qafqazın faydalı qazıntıları xəritəsində Naxçıvan MR ərazisində, Abşeronda olduğu kimi, 2 neft yatağı göstərilmişdir. Qeyd etdiyimiz Bitumlu sturukturlar Nehrəm kəndindən Təbrizə qədər uzanır. Bu zonada da perm əhəngdaşları bitumludur. Kilit kəndi ərazisində Dokembiri yaşl suxurlarda:- 10%-li kvars, 55% əhəngdaşı və 35%-li bitumdan ibarətdir. Dokembiri yaşlı bitumlu əhəngdaşları İran qaradağında da geniş yayılmışdır. Əmək daşlıq etdiyim Almaniyanın İnjineriyen İndustrin şirkətinin menecəri fevralın 15-də mənə zəng vuraraq bildirmişdi ki, qeyd etdiyim İran ərazisində 1 quyu qazılmış və neft aşkar olunmuşdur. O ərazidə su çıxışlarının neft iysi verməsini bildirdim.

MALİKƏJDƏR İBRAHİMOV
Naxçıvan Dövlət Üniversiteti

DARIDAĞ MİNERAL SUYUNUN ÜRƏK-DAMAR XƏSTƏLİKLƏRİNDƏ MÜALİCƏVİ ƏHƏMİYYƏTİ

Darıdağ mərgümüşlü mineral suyun tərkibindəki mərgümüş və qələvinin əlverişli sürətdə birləşməsi hesabına, bütün dünyada qiymətli fiziki-kimyəvi xassəyə malik olan sular qrupuna aiddir. Akademik A.Qarayevin təbirincə desək, təbiət DMMS-nun komponent tərkibini elə dəqiq hesablama ilə tərtib etmişdir ki, bunun adi halda hazırlanması bəlkə də mümkün olmazdı.

Çoxlarının «Dərdlərin dərmanı» deyə adlandırdığı DMMS özünün çoxcəhətli müalicəvi əhəmiyyətinə görə təbiətin bizə verdiyi əvəzsiz nemətdir. Bu gün DMMS-dan istifadə edənlərin demək olar ki, hamısı ondan yalnız balneoloji məqsədlə, yəni vanna şəklində faydalanırlar. Bu suyun balneoloji məqsəd üçün çox yararlı olması ilə (belə ki, tərkibində 98% həll olmuş karbon qazının olması, +26,5 S ^{0} hərarət, sulfidli, arsenli və müxtəlif duz tərkiblərinin olması) əlaqədardırsa, digər tərəfdən əhalinin, DMMS-nun çox dəyərli və faydalı olması haqda az məlumatlarının olmasına dəlalət edir. Çox adam bilmir ki, DMMS-nun əsas faydası həmin suyun daxilə qəbulundan sonra baş verir. Darıdağ mərgümüşlü su bulaqları Culfa şəhərinin şimal-şərq hissəsində ondan 7,8 km məsafədə «Şorsudərə» adlanan dərədə dəniz səviyyəsindən 800-900 metr yüksəklikdə yerləşmişdir.

Müalicə məqsədi ilə 5 və 32 nömrəli bulaqların suyu elmi təqdiqat müşahidələrinə əsasən ən yüksək müalicəvi əhəmiyyətə malikdir.

DMMS-un müalicəvi əhəmiyyəti ilə Azərbaycan Elmi-Tədqiqat Kurortologiya və Fiziki üsullarla Müalicə İnstitutu, N. Nərimanov adına Azərbaycan Dövlət Tibb Universiteti, Azərbaycan Elmlər Akademiyasının Fiziologiya bölməsinin əməkdaşları məşğul olmuşlar. (8) Akademiklərdən M.Qaşqay, A.Qarayev, Ş.Əzizbəyov; professorlardan Ə.Əsgərov, M.Əfəndiyev, Ş.Həsənov, K.Yeqorov, M.Sultanov və başqaları bu suyun hərtərəfli öyrənilməsində xüsusi xidmət göstərmişdir. (1,2,5,6,9) DMMS-un qan yaradıcı, sümük-əzələ, həzm sistemi, dəri və oynaq ürək əzələsi, maddələr mübadiləsi və.s müalicəvi təsiri çoxlu təcrübi-kliniki müşahidələrlə sübut edilmişdir. DMMS-nun ürək əzələsi və onun fəaliyyətinə təsirini müşahidə edən müəlliflər qeyd edirlər ki, mexaniki, toksiki zədə nəticəsində fəaliyyəti dayanmış ürəyə Ringer məhlulu tökülərkən ürəyin fəaliyyəti bərpa olunmadığı halda həmin ürəyə təmiz Darıdağ mineral suyu yeridildikdə onun fəaliyyətə başlanlaması mümkün

olmuşdur. (6) Onun fəaliyyətinin bərpa olunması ilə birlikdə ürək əzələsinin sıxılma qüvvəsinin artması, aritmiya əlamətinin də aradan qaldırılması da müşahidə edilmişdir. Darıdağ mineral suyunun ürək əzələsinə və onun iş qabiliyyətinə müsbət təsirini 13-16 gün ərzində kəskin toksiki miokarditli xəstələrə verməklə klinik və elektrokardioqrafik göstəricilərin yaxşılaşmasını müşahidə etmişdir. Mərgümüşlü suyun xroniki bel-oma radikuliti olan xəstələrə vanna şəklində istifadə edilərkən yanaşı hipertoniya I-II A stadiyasında olan və 14 hipotoniyası olan xəstələrdə müalicədən sonra sistolik, diastolik və nəbz təzyiqinin enməsini ürək əzələsinin işinin normallaşmasını elektrokardioqrafik göstəricilərlə müşahidə etmişdir. (10) Hipotoniyalı xəstələrdə ümumi zəifliyin, əzginliyin və baş gicəllənməsinin aradan qalxmasının, nəbzin yavaşıması, dolğunluğunun artması, arterial təzyiqin yüksəlməsini müşahidə etmişdir. Ürək qan-damar sistemi xəstəliklərinin dekompensasiya fazasında böyük qan dövranında durğunluq nəticəsində qaraciyərin böyüməsi, funksiyalarının pozulması, mədə və bağırsaqların selikli qişasında durğunluq nəticəsində sorulma prosesinin pisləşməsi, vitamin, mikroelement mübadiləsi və başqalarının pozulması maşahidə edilir. DMMS-nun həzm sisteminin, o cümlədən mədə, qaraciyər və bağırsaq xəstəliklərinin bir çoxunda kifayət qədər faydalı olduğu kliniki müşahidələrdə sübut olunmuşdur. (3,4,7) Bu məqsədlə uzun illərlə axtarışlar aparan 30-36 gün ərzində xəstələrə 1- 9 xörək qaşığı ilə gündə 3 dəfə yeməkdən sonra verilməklə mədə şirəsi ifrazının artması mədənin ekskretor qabiliyyətinin gücləndiyini, motor fəaliyyətinin aktivləşməsini müşahidə etmişdir. Çox maraqlıdır ki, müxtəlif dozalarda və müxtəlif zamanlarda qəbul edilən DMMS mədə turşuluğunun istər artması, istərsə də azalması patalogiyalarında mədə turşuluğunu nizama salmış və müxtəlif növ qastritləri aradan qaldırmışdır. (4) Suyun tərkibində olan kalsium, xlor və başqa duz qarışıqları öd ifrazını onun konsentrasisasını və xüsusi çəkisini artırır, bu isə yağların həzm olunmasını yaxşılaşdırır. (3) Mədəaltı

vəzinin fermentlərini artırmaqla da həzm prosesinə müsbət təsir göstərir. (7) Məlum olduğu kimi ürək-damar xəstəliklərinin baş verməsində ateroskleroz böyük rol oynayır. Aterosklerozun əmələ gəlməsində isə yağ mübadiləsinin pozulmasının (hiperlipidemiyanın) rolu və qaraciyər funksiyalarının pozulması müasir klinik və eksperimental müşahidələrlə isbat edilmişdir. Yuxarıda qeyd olunanlardan aydın olur ki, mübadilə pozğunluqları ürək qan-damar xəstəliklərinin əmələ gəlməsində rol oynamaqla ürək qan-damar xəstəlikləri də qaraciyər həzm fəaliyyətinin mübadiləsinin pozulmasına səbəb olur. Ona görə də DMMS-nun qeyd olunan pozğunluqlarda tətbiqi məqsədə uyğun sayıla bilər. Bu məqsədlə DMMS-un 32 nömrəli bulağının suyundan istifadə daha məqsədə uyğundur. (6) Belə ki, bu bulağın suyunda mərgümüş 21 mq/l olmaqla 5 nömrəli bulaqdan daha sərfəlidir. Bulağın 1942-ci ildəki debiti sutkada 140 min litr olmuşdur. (2) Təəssüflə qeyd etməliyik ki, illərlə bu su istifadəsiz axır, digər tərəfdən onun ətrafında sanitariya qaydaları gözlənilmir. Təbiətin bizə bəxş etdiyi bu nemətin ürək qan-damar xəstəliklərinin müalicəsində istifadəsinin elmi təcrübi və kliniki müşahidələr aparılmasına, zəmanənin ən çox yayılmış, əhalinin əlilliyinə və ölümünə əsas səbəb olan bu xəstəliklərin ənənəvi olmayan müalicə üsulunun əhəmiyyətinin daha dəqiq müəyyənləşdirilməsinə ehtiyac vardır. Ona görə ki, müasir kimyəvi dərman maddələrinin heç birinin DMMS qədər geniş təsir spektrinə malik deyildir.

Nəticə:

1. DMMS ürək qan-damar xəstəliklərində qeyri ənənəvi və ucuz müalicə üsulu kimi öyrənilməsi faydalı olar.
2. DMMS-un daxilə müalicə məqsədi ilə geniş şəkildə istifadəsi üçün 200-250 ml şüşə qablara doldurulmaqla apteklərdə satılmasına ehtiyac vardır.
3. 32 nömrəli mərgümüşlü mineral suyunun debitinin tükənməsinin qarşısını almaq və gələcək nəsillərə əsrin bəlası

olan ürək qan- damar xəstəliklərinin müalicəsində əhəmiyyətini elmi-tədqiqat işləri ilə müəyyənləşdirmək lazımdır.

4. Ümumiyyətlə DMMS müalicəvi əhəmiyyətini öyrənmək üçün Tibb, bioloji, kimya, fizika mütəxəsislərindən ibarət problem labaratoriyasının və ya qruppanın yaradılması məqsədə uyğun olardı.

Ədəbiyyat:

1.Александров В.А. « Вопросы курортологии » 1940.

2.Аскеров А. « Геология минеральных источников юго -восточной части Азербайджана » Изд. Аз.гос.Университета им. С.М.Кирова ,1964.

3.Гусейнов А.Г. «Желчеобразовательная функция печени привоздействий на организм дарыдагской мышьяковистой и сирабской минеральными водами» Автореферат канд. дисер. М. 1957.

4.Маликов М.А. «Действие дарыдагской мышьяковистой воды на функции желудка и химикескую среду кишечника» Автореферат доктор . дисер. г.Баку, 1967.

5.Ибрагимов М.К., Эфендиева Ф.М. «О лечебном исползовании мышьякосодержащих минеральных вод» Аз.мед. 1978

6. Sultanov M. Naxçıvan MSSR-in mineral sulara və onların müalicədə tətbiqi. 1964.

7. Axundov Ə. Naxçıvan MSSR mineral sularının müalicəvi əhəmiyyəti. 1982.

8. Rzayev N. ,İbrahimov M. Darıdağ mərgümüşlü mineral suyu: Naxçıvan MR təbii ehtiyatları və onlardan daha səmərəli istifadə yolları. Beynəlxalq simpoziumun materialları Naxçıvan, 2000.

9. Əliquliyev R. Naxçıvan MR mineral suları. (Kimyəvi tərkibi, ehtiyatı istifadə olunması, ekologiyası) Beynəlxalq simpoziumun materialları Naxçıvan, 2000.

10.Торохтин М.Д. Углекислые железисто- марганцево – мышьяковистые минеральные воды Закарпатья и их лечебное применение . Автореферат дисер. док. мед. наук. Киев ,1973.

ƏLÖVSƏT QULİYEV
Naxçıvan Dövlət Universiteti

ƏYLİS KƏHRİZ SİSTEMLƏRİ, ONLARIN POTENSİAL İMKANLARI

Şəhərlərin ən qədim zamanlardan formalaşıb meydana çıxmasında, tədricən inkişaf edərək sənətkarlıq, ticarət və mədəniyyət mərkəzlərinə çevrilməsində bir sıra başqa amillərlə yanaşı su təchizatı da mühüm rol oynamışdır (2).

Orta əsrlərdə sənətkarlığın mükəmməl şəkildə həyata keçirildiyi Beyləqan, Bərdə, Bakı, Şabran, Gəncə, Təbriz, Naxçıvan, Ordubad və digər şəhərlərdə su təchizatı da inkişaf etmişdir. Şəhərlərdə çalışan sənətkarlar məhəllələrin su ilə təchizi üçün su anbarları, su kəmərləri, ovdanlar və kəhrizlər tikirdilər. İstər şəhərsalma, istər müdafiə məsələlərində su təchizatı mühüm əhəmiyyət kəsb edirdi.

Mühüm ticarət yolu ayrıcında yerləşən Ordubad və Əylis məntəqələrində Səfəvi hökmdarı I Şah Abbas və ondan da öncəki dövrlərdə inşa olunmuş kəhriz sistemləri və onların üzərində olan «40 pillələr» bu gün də maraq dairəsindən çıxmamışdır.

Əylis şəhəri Azərbaycanda orta əsr yaşayış məntəqəsi – sənətkarlıq və ticarət mərkəzi, əsasən ipək ticarəti ilə məşğul olmuşdur. Əylis tacirləri bir çox Şərq və Avropa ölkələri ilə ticarət edirdilər. XVII – XVIII – əsrlərdə Əylis Səfəvi və Osmanlı müharibələri nəticəsində dağılmış, 1752 – ci ildən sonra kəndə çevrilmişdir. XIX – əsrdə kənd yenidən dirçəlmişdir, nəticədə ondan Aşağı və Yuxarı Əylis kəndləri yaranmışdır (6).

Əylis kəndlərinin yeganə su mənbəyi Əylis çayı və ondan qidalanan kəhriz sistemləridir. Kəndin əkinə yararlı torpaqları əsasən Əylis çayının gətirmə çöküntüləri, üzərində əmələ gəlmişdir. Kənddən aşağı sahələrdə sel gətirmə çöküntüləri daşlar, qayalar çox yerdə əkinçiliyə və kənd təsərrüfatı texnikası hərəkətinə mane olurlar. Sovetlər dövrü

bu ərazidə suvarma sistemləri inşa edilmiş, sahələri daşdan təmizləyərək əkin üçün hazırlamışlar. Lakin sistemin dəyişməsi layihə işlərinin sonadək tamamlanmasına imkan vermədi. Gələcəkdə bu ərazidə son tamamlama işləri aparmaqla yeni bağlar, gülçülük təsərrüfatları yaradaraq böyük miqdarda gəlir əldə etmək mümükündür.

Ərazidəki kəhriz sistemləri həm içməyə, həm də suvarmaya xidmət edir. Əhali arasında sudan istifadə mədəniyyəti olduqca yüksəkdir. Tədqiq etdiyimiz «Quşlu çeşmə» adlanan kəhriz Yuxarı Əylis kəndində 30 – dan çox ailəyə xidmət edir. Kəhriz üzərində yerli materiallardan və bişmiş kərpicdən inşa edilmiş «40 pillə»lər vardır. Hazırda «40 pillə»lərin bir çoxu uçmuş vəziyyətdədir. Xüsusi ilə boşalmış həyətlərdə olan «40 pillə»lər sahibsizlik üzündən dağılmağa məruz qalmışdır.

Əldə olan məlumata görə XX əsrin əvvəllərində Əylis kəndləri (Yuxarı və Aşağı) ərazisində olan kəhriz sistemlərinin sayı 45 –dən çox olmuşdur. Ötən əsrin ortalarında (1955-ci ildə) Yuxarı Əylis kəndində 15, Aşağı Əylisdə isə 24 kəhriz sistemindən istifadə edilmişdir. Kəndin bağları, bağçaları və əkin sahələri məhz bu kəhriz suları ilə suvarılırmışdır.

Su toplayıcı sahəsi 53 km^2 olan Əylis çayının orta çoxillik sərfi 0,29m^3/ san –dir. İl ərzindəki axan suyun həcmi isə 9 mln.m^3-ə yaxındır. Qədim suvarma əkinçilik mədəniyyətinə malik əylislilər Əylis çayı suyundan kəhriz sistemləri vasitəsilə olduqca səmərəli istifadə etmişlər .

Hesablamalara görə 1955 – ci ildə Əylis kəhriz sistemləri vasitəsilə Əylis çayı suyundan 7,7-8 mln. m^3 götürülərək həm içmək, həm də suvarma məqsədi ilə istifadə edilmişdir.

Əkinə yararlı torpaqlar əsasən çay dərəsi boyunca yayılmışdır. Əylis kəndləri ərazisi Araz çayına doğru meylliyə malikdir. Bu meyllilik eyni zamanda hər iki tərəfdən Əylis çayı məcrası istiqamətinə də yönəlmişdir. Yuxarı sahələrdəki arxlar vasitəsi ilə istifadə olunan suvarma suyunun bir

hissəsi sızaraq yeraltı axınlara çevrilir. Bu cür yeraltı axınlardan qidalanan kəhriz sistemləri vasitəsilə yeraltı sular təkrar yer səthinə çıxarılaraq ondan yenidən istifadə olunmasına imkan verir. Beləliklə Əylis kəhriz sistemlərində 4 dəfəyə qədər eyni sudan istifadə olunmasını müşahidə etmək mümkündür. Yuxarı və aşağı Əylis kəndlərindəki kəhrizlərdən götürülmüş su nümunələrinin su asılqanlarının analizi aparılmış, nəticədə minerallaşmanın iki dəfə artması (0,3-0,7 q/ l) müşahidə edilmişdir.

Əylis kəhriz sistemləri və onlardan istifadənin vəziyyətinə dair məlumatları əks etdirən cədvəldən görürük ki, (cədvəl №1) XX əsrin ortalarında (1955) kəhriz sistemləri 900 ha – dan çox torpaqları su ilə təmin edirdi.

Əylis kəhriz sistemləri ilə istifadə olunan suyun miqdarı və suvarılan torpaq sahələri

Cədvəl №1

Yaşayış məntəqəsinin adı	1955-ci il				2003-cü il				
	Kəhrizlərin sayı	Kəhrizlər vasitəsi ilə yer səthinə çıxarılan suyun miqdarı, m^3	Vegetasiya dövrü istifadə olunan suyun miqdarı, m^3	Suvarılan sahə, ha	Kəhrizlərin sayı	Kəhrizlər vasitəsi ilə götürülən suyun miqdarı, m^3	Vegetasiya dövrü götürülən suyun miqdarı, m^3	Suvarılan sahə, ha	fərq

Yuxarı Əylis	15	2102472	1226442	550	12	1037534	605227	315	235
Aşağı Əylis	24	4955384	2878974	350	15	1636070	954374	200	150
Cəmi	39	7757856	4105416	900	27	2673604	1559601	515	385

Ötən 50 ilə yaxın vaxt ərzində baxımsızlıq nəticəsində kəhrizlərin çayı ümumilikdə 39--dan 27–yə (2003), su sərfi isə 246 l/san–dən 85,5 l/san qədər azalmışdır. Analoji olaraq suvarılan torpaq sahələri də 900 ha-dan 515 ha-a qədər azalmışdır.

Son illər beynəlxalq təşkilatlar və imkanlı əylisilərin köməyi hesabına 10-a qədər kəhriz bərpa olunsa da Əylis kəndlilərinin su problemi tamamilə həll edilməmiş qalır.

Apardığımız araşdırmalara görə Əylisin potensial imkanı böyükdür və buraya investisiya qoyulması olduqca vacibdir. Bunu sadə bir hesablama ilə izah etmək olardı: bu gün bir metr kəhriz kürəsi qazmaq üçün ən azı 30 ABŞ dolları pul xərclənir. Əylis kəndindəki kəhrizlərin orta uzunluğu 400 m götürülərsə və hər 30 m – dən bir quyu olması nəzərə alınarsa, onda bir kəhrizin uzunluğu 512 m qəbul edilməklə, kəhrizin torpaq işi ücün ən azı 15360 ABŞ dolları vəsait xərclənməlidir. Onda Əylis kəndlərində 40-a qədər olan kəhrizin qazılması ücün 614 000 ABŞ dolları pul lazımdır. Bu gün həmin kəhriz qazma işlərini bizdən öncə babalarımız görmüşlər. Deməli Əylisin yarım milyon dollardan yuxarı dəyərə malik kəhriz sistemi vardır.Bəs onda belə bir qiymətə malik meliorativ qurğuları niyə itirək? Aparılan təmir işləri

onu göstərir ki, Əylis kəndində ən yarıtmaz vəziyyətə düşmüş kəhrizin bərpası üçün 3 ilə 6 min ABŞ dolları arasında vəsait tələb olunur. Onda üst – üstə 39 kəhriz üçün 120-150 min ABŞ dolları ilə Əylisin su problemi həll edilə bilər.Beləliklə həm su problemi həll olunar, həm də kəhriz sistemləri gələcək nəsillər üçün bir tarixi abidə kimi qalar.

Ədəbiyyat:

1. Q.Z.Əzizov, Ə.H.Həsənəliyev. Azərbaycanda suvarmanın tarixi Bakı, 2001,103 s.
2. E.Ə.Qasımov. Azərbaycanın orta əsr şəhərlərinin su təchizatı (IX-XV əsrlər), Baku, 2002, 130 s.
3. Q.Z.Əzizov, Ə.G.Quliyev Azərbaycanın şorlaşmış topaqları, onların meliorasiyası və münbitliyinin artırılması Bakı, 1999, 75 s.
4. İ.A.Talıbzadə. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə Bakı, Elm, 1980, 149 s.
5. Р.Салаева. Нахчыван – Наследие архитектуры. Баку, 2002, 239 с.
6. Azərbaycan Sovet ensklopediyası, IV cild, Bakı, 1980, 153 s.

AYGÜN HEYDƏROVA
AMEA Naxçıvan Bölməsi
Təbii Ehtiyatlar İnstitutu

KƏNGƏRLİ RAYONUNUN HİDROGEOLOJİ ŞƏRAİTİNƏ DAİR

Azərbaycan Respublikası prezidentinin 19 mart 2004-cü il sərəncamı ilə yaradılmış Kəngərli Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə daxil olmuş ən yeni rayondur. Yeni təşkil olunmuş, ümumi sahəsi 682km² olan Kəngərli rayonu fiziki və iqtisadi coğrafi baxımdan indiyə kimi ayrılıqda tədqiq olunmamışdır.

Kəngərli yaylası şimal-şərdqə dağətəyi zona ilə, şərqdə Sust –Xıncab, cənub – şərqdə Böyükdüz düzənlikləri, cənub- qərb tərəfdən isə Araz çayı ilə sərhədlənir. Şimal

şərqdə dağətəyi hissə quru qobular vasitəsi ilə mürəkkəbləşmişdir.

Yaylanın çöküntüləri dördüncü dövrün alt travertinli konqlomeratlarından və əhəng daşlarından ibarətdir. Onların qalınlığı Qarabağlar kəndində 53 metrə, Yurdcu kəndi ətrafında 60metrə, travertinin qalınlığı isə Şahtaxtı kəndi yaxınlığında 30 metrə çatır. Muxtar Respublika daxilində hidrogeoloji cəhətcə ən əlverişli, sulu sahələrdən biri travertinli layarası sular hesab edilir.

Yaylanı təşkil edən travertin çöküntüləri il boyu yeraltı suların rejiminə təsir edir. Yaylanın şimal-şərq, cənub-qərb, yamac hissələrində yer səthinə yaxın yataraq bulaqlar əmələ gətirir. Bu bulaqların su sərfi 0,5 l/san ilə 5 l/s arasında dəyişir. Travertinlərin çökmə prosesi dördüncü dövrün alt hissəsində başlamış və hal-hazırda da davam etməkdədir. Yaylanın yeraltı sularının minerallaşması əsasən 0,5-0,6 q/l qədərdir. Kimyəvi tərkibi hidrokarbonatlı, kalsiumlu, maqneziumludur. Suyun ümumi codluğu 5-10 mq/ekv, temperaturu 9-10^0 C -dir. Travertin çöküntülərinin qida mənbəyi yaylanın şimal–şərqində dağətəyi zonada yerləşir. Dolomitli – əhəngdaşlı süxurlar qrunt suları ilə aşağı gətirilir və travertinlərə çevrilir (1, s.321).

Kəngərli yaylasından cənub-şərqdə yerləşən Böyükdüz düzənliyi bu yayladan miosen yaşlı gillərdən təşkil olunmuş Tazıucan təpəliyi ilə ayrılır. Şimalda Sust –Xıncab düzənliyi, şərqdə isə Duzdağ yaylası ilə sərhədlənir. Cənub və cənub –qərbdə Araz çayı ilə kəsilmişdir. Düzənliyin üzərində 4-cü dövr çöküntülərinin qalınlığı şimaldan cənuba doğru artır.

Düzənliyin dördüncü dövr çöküntüləri allüvial –proluvial mənşəli olub, əsasən narın qumlardan, çınqıldan ibarətdir və susuzdur.

Susuzluq sarmat dövrünün gillərinin su keçirməməsindən irəli gəlir. Böyükdüz qrunt suları üçün atmosfer yeganə qida mənbəyi sayılır. Düzənliyin quru iqlim şəraiti, yəni rütubətlənmə əmsalının 0,25 olması hesabına qurunt

lazımi qədər su ilə doya bilmir. Düzənliyi Arazboyu sahədən eni 1km olan sulu zolaq ayırır. Burada qruntun qidalanması Araz çayı hesabınadır (1, s.322).

Şahtaxtından şərqə doğru ümumi codluğu norma həddində olan yeraltı sular qədim allüvial çaqıllı daşlar üzərində toplanmışdır. Bu ərazidə olan kəhrizlərdə su sərfi 13 l/s çatır. Suyun temperaturu 14^0C olur. Arazboyu qurşaqda yeraltı suların güzgü səthinin səviyyəsi sürətlə səthə yaxınlaşır. Səbəbi qruntun həddən artıq sulu olması və ərazinin topoqrafik quruluşu ilə əlaqədardır. Buna görə də Şahtaxtı ətrafında belə sular asanlıqla bulağa çevrilə bilirlər.

Suların minerallaşması 0,6 q/l, kimyəvi tərkibi sulfatlı- hidrokarbonatlı, natrium - maqneziumludur. Şahtaxtı kəndi ərazisində Üst Miosen çökürtü-lərində qumdaşlarından ibarət olan iki təzyiqli lay aşkara çıxarılmışdır. Suların səviyyəsi yer səthindən 1,6-17,0m hündürlükdə durur. Quyunun xüsusi sərfi 0,1-0,13 l/san olub, suyun minerallaşması üst layda 0.5, aşağı layda 3,1 q/l –dir. Aşağı layın suyu kükürdlü, xloridli –natrium- kalsiumlu tərkibə malikdir (1, s.327) .

Böyükdüz düzənliyindən şimalda Xıncab- Təzəkənd yarımrayonu yerləşir. Yarımrayonun ərazisini Sust –Xıncab maili düzənliyi təşkil edir.Düzənlik ondan sarmat mənşəli gil təbəqələri ilə ayrılır. Düzənlik qərbdən Kəngərli, şərqdən Duzdağ yaylası ilə sərhədlənir. Çalxanqala kəndi yaxınlığında Dərələyəz dağlarının cənub ətəkləri ilə kəsişir. Səthin meylliyi şimaldan cənuba doğru azalır və şimal dağətəyi hissədə qobu və yarğanlı mikrorelyeflə mürək-kəbləşmişdir. Cənub hissədə relyef hamarlaşır (2, s.44-46).

Geomorfoloji cəhətcə düzənliyin şimalı, həmçinin orta hissəsi erroziyaya uğramışdır. Hazırda akkumulyasiya və denudasiya proseslərinə məruz qalmışdır. Sellərin gətirdiyi akkumulyativ çöküntülər dağətəyi hissədə daha geniş yayılmışdır.

Çalxanqala kəndinin yaxınlığında qrunt sularının yatım dərinliyi təxminən 6m, sulu çöküntülərin qalınlığı isə

20-25 metrdir. Çalxanqaladan cənubda, Təzəkəndin şərq qurtaracağında qrunt sularının səviyyəsi orta hesabla 12,3 metrdir. Yeraltı su axımının qalınlığı 16 metrdən artıqdır. Təzəkənddən 3,5km cənubda, Sust kəndində qrunt sularının səviyyəsi 9-10m arasındadır. Sulu çöküntülərin qalınlığı 20 metrdən çoxdur. Ərazidə bulaqlar olmadığından əhali kəhriz sistemindən istifadə etmiş və burada mürəkkəb kəhriz sistemi yaranmışdır. Bu kəhrizlərin bəzilərinin su sərfi 35-70 l/san-yə çatır. Qrunt sularının minerallaşma dərəcəsi şimaldan cənuba doğru artır. Göstərici Çalxanqala və Xıncab kəndləri arasında 0,3-0,5 q/l olub hidrokarbonatlı, kalsiumlu, maqneziumlu tərkibə malikdir. Bir qədər cənubda, Təzəkənd ətrafında suların minerallaşma dərəcəsi 1-1,2q/l olub sulfatlı, hidrokarbonatlı natrium və kalsiumlu, maqneziumlu tərkibə malikdir. Sust kəndi yaxınlığında minerallaşma bir az da artır, 1,5 q/l yə çatır. Qrunt sularının codluğu 4,5-9,2 mq/ekv –dək dəyişir. Suyun temperaturu 13-15 C dərəcədir. Qrunt suları əsasən atmosfer çöküntüləri və dağətəyi zonanı təşkil edən trias yaşlı süxurların çat suları ilə qidalanır (3 , s. 54-55).

Dağlıq hissə Dərələyəz dağ silsilələrinin cənub yamacının orta və yüksək hissəsini əhatə edir. Süxurlar müxtəlif mənşəlidir. Yura yaşlı süxurlar Çalxan-qala yaxınlığında çox az yerlərdə səthə çıxır. Az suludur.

Trias yaşlı süxurlar daha geniş yayılmışdır. Bu süxurlardan çıxan bulaqlar çox sululuqları ilə fərqlənirlər. Qarabağlar kəndində Asnı bulağının debiti 220-130 l/san arasında dəyişir. Çalxanqalada sular böyük su sərfi ilə seçilir. Suların minerallaşması 0,3-0,6 q/l olub, adətən hidrokarbonatlı, kalsiumludur (2, s.48).

Beləliklə, inzibati rayonunun hidrogeoloji şəraiti səciyyələndirilmiş, yeraltı suların minerallaşma, səviyyə, termik, qidalanma və yatım şəraiti nəzərə alınmaqla Böyükdüz, Kəngərli maili düzənliyi, Şahtaxtı. Xıncab –Təzəkənd və Dağlıq Qarauş olmaqla beş yarımrayona bölünmüşdür.

Əsasən arid iqlim şəraitində yerləşən Kəngərli rayonunun yeraltı su ehtiyatı elmi əsaslarla ətraflı tədqiq edilməli və təsərrüfatın müxtəlif sahələrində istifadə üçün qiymətləndirilməlidir.

Ə d ə b i y y a t:

1. Süleymanov S.M., Səmədov B.M. «Naxçıvan MSSR–in hidrogeoloji səciyyəsi». Naxçıvan MSSR, Bakı, «Elm» -1975, səh. 314-333
2. Babayev N.S. «Araz çay sisteminin yuxarı hissəsinin ekoloji şəraiti». Dissertasiya işi. Bakı -2001, səh. 45-62
3. Heydərova A.A. «Naxçıvan MR ərazisində yeraltı suların coğrafi yayılma qanunauyğunluqları» . Magistr dissertasiya işi. NDU – 2003
4. Азизбеков Ш.А. «Геология Нахичеванской АССР» , «Госгеолмехиздат» , Москва, 1961, 502 с.

NAZİM BABABƏYLİ
AMAKA Ekologiya İnstitutu

ORTA ARAZ TƏBİİ VİLAYƏTİ DÜZƏNLİK LANDŞAFT KOMPLEKSİNDƏ SƏHRALAŞMA PROBLEMİ

Dünyanın qlobal problemlərindən birinə çevrilən xüsusilə arid və semiarid iqlim şəraitində intensiv inkişaf etməkdə olan səhralaşma prosesi son dövrdə müxtəlif araşdırmaların və beynəlxalq təşkilatların aktual mövzusuna çevrilmişdir. Azərbaycanda son 10-15 il ərzində bu sahəyə diqqət artırılmış, səhralaşma problemi ilə əlaqədar konfranslar keçirilmiş, məqalələr, monoqrafiyalar yazılmışdır. Lakin Orta Araz təbii vilayətini əhatə edən Naxçıvan Muxtar Respublikası ərazisində bu problem indiyə kimi lazımınca öyrənilməmişdir.

Landşaftın səhralaşması ərazisinin relyef, iqlim, hidrogeoloji şəraitinin dəyişməsidən, əhalinin məskunlaşmasından, təsərrüfat sahələrinin istiqamətindən, antropogen amillərin intensivliyindən və s. asılıdır.

Səhralaşmanın dinamikasına təsir edən təbii amillər arasında ərazinin kontinentallıq dərəcəsi xüsusi yer tutur və Muxtar Respublika bu göstəricisinə görə yalnız Orta Asiya və İran yaylasının daxili səhraları ilə müqayisə edilə bilər. Belə ki, yağıntıların orta illik miqdarı Qızılqum səhrasında 210 mm, iyulun orta aylıq temperaturu 26-29^0 C. Dəşti Kəvirdə müvafiq olaraq 247 mm və 30-32^0 C təşkil etdiyi halda, Arazboyunda bu kəmiyyət (Culfa) 215 mm və 29^0 C-dir. (1,s.13) Göstərilən ərazilərin hamısı üçün yarımsəhra-səhra bitkiləri, boz torpaqlar, aşağı rütubətlənmə əmsalı səciyyəvidir.

İsti dövrdə baş verən quraqlıq zamanı quruntun üst təbəqəsi rütubətini tamamilə itirmiş olur və nəticədə bitki örtüyü quruyur, bəzi növlər isə yağıntılı dövrə qədər konservasiya olunur. Yağıntılı dövrdə müvəqqəti səthi axarlar su eroziyasını gücləndirir, bu ekosistemə kompleks təsir göstərməklə torpağın humuslu qatının yuyulmasına, biosenozun azalmasına, qrunt suyunun səviyyəsinin yenməsinə, bəzi fauna növlərinin miqrasiyasına və ya məhvinə səbəb olur. Antropogen amillər, xüsusilə aktiv, plansız otarma və müvəqqəti əkinlər prosesin sürətlənməsinə şərait yaradır. Torpaqların qısa müddətli icarəyə verilməsi, suvarma-irriqasiya sistemlərinin müəyyən qədər dağılması torpağın uzunmüddətli kultivasiya imkanlarını məhdudlaşdırır. Belə ki, şumlanmış, düzgün və vaxtında suvarılmayan, istifadədən çıxan torpaqlarda eroziya daha sürətlə getmiş, həmin sahələrdə dərin yarğanlar əmələ gəlmişdir. Tənənəm maili düzənliyində yarğan konuslarının şleyflərinin stratiqrafik analizi son 20 ildə eroziyanın ən aktiv mərhələyə çatdığını isbat etməkdədir.

Antropogen təsirlə səhralaşmanın inkişafı bütün yüksəklik landşaf qurşaqlarını əhatə etməkdədir. Qarauşun qərb yamaclarında formalaşan seyrək meşə odun tədarükü məqsədi ilə tamamilə məhv edilmiş, Çalxanın qərb, şimal və şimal qərb ekspozisiyasında vaxtı ilə sıx areal yaradan badam, yemişan ağaclarının, itburnu kolluqlarının tək-tək

nümunələri qalmışdır. Nəticə etibarı ilə ətraf bulaqların əksəriyyətinin debiti aşağı düşmüş və ya qurumuşdur. Qarauşun Buğa çeşmə dərəsində diqqətimizi cəlb edən köhnə dəyirman yeri və dəyirman daşı burada vaxtı ilə dəyirmanı işlədə biləcək miqdarda suyun axdığını sübut etməkdədir. Susuz Lizbirt kəndinin xarabalıqları arasında bulaq təknələri, bu gün ağac bitkilərindən məhrum Sarıdağda vaxtilə odun kömürü hazırlanan quyular da bu regionun yaxın keçmişinin təbii şəraiti haqqında maraqlı məlumatlar verməkdədir.

Kəngərli düzündə travertin-daş karxanaları, o cümlədən terrikonlar, Duzdağ maili düzənliyində duz istehsalı zamanı ayrılan keyfiyyətsiz duz və tullantı gil qalıqları səhralaşmanı inkişaf etdirən antropogen amillər arasına daxil edilməlidir.

Vaxtilə Muxtar Respublikanın başlıca qış otlağı olan Böyükdüzdə suvarılan əkin sahələrinin son bir neçə il ərzində sürətlə genişlənməsi burada təbii landşaftın arealının daralmasına səbəb olmuş, otarılma hesabına intensiv inkişaf edən səhralaşma prosesi dayanmış, kompleks daxilində mədəni landşaftla yanaşı, artıq rütubətlənmə hesabına intrazonal landşaft arealları ortaya çıxmışdır. Aqroirriqasiya tədbirləri hidrogeoloji şəraitin dəyişməsinə səbəb olmuş, torpaqlarda qələvilik artmış, təkrar şoranlıqların ayrı-ayrı ocaqları meydana gəlmişdir. Qrunt sularının minerallaşma dərəcəsi də dəyişmiş və bu proses özünü üç formada göstərmişdir: qrunt suyunun minerallaşması artmış; sabit qalmış; azalmışdır. Bəzi yerlərdə həddən artıq suvarma duzların yuyulması ilə nəticələnmiş, eyni zamanda, Arazboyunda təxminən 355 hektar ərazidə orta və zəif dərəcədə irriqasiya eroziyası əmələ gəlmişdir. Y.Ə.Qəribovun fikrinə görə, Şərur – Ordubad (orta Arazboyu) düzündə kəskin deqradasiya nəticəsində səhralaşma ocaqları yaranmışdır (3, s.37). Bizim fikrimizcə, bu «ocaqlar» artıq differensasiya olunmuş və qurşağa çevrilmişdir. Yeri gəlmişkən, R.H.Daşdıyevin Naxçıvanda 1800-2000 metr

hündürlükdə «geniş səhralaşmış landşaft zolaqları» yaranması iddiası əsassızdır (4, s.80).

Muxtar Respublika ərazisində 3300 ha torpaq sahəsi şoranlaşmaya məruz qalmış, 530 ha sahə isə əkin dövriyyəsindən çıxmışdır. Baxımsızlıq, qayğısızlıq suvarma metodlarına düzgün riayət olunmadığından təkcə Şərur rayonunda 600 ha torpaq sahəsi şoranlaşmış, Babək rayonunda isə 670 ha yenidən şoranlaşmaya məruz qalmışdır. Eyni zamanda, Muxtar Respublika ərazisində 4700-dən artıq torpaq sahəsində su eroziya baş vermişdir (5, s.166-167).

T.H.Talıbovun fikrinə görə, ərazidə eroziya fəaliyyətinin güclənməsinə, eləcə də bitki örtüyünün və onun növmüxtəlifliyinin azalması nəticəsində səhralaşmanın inkişafına normadan artıq otarılma da təsir etməkdədir (6, s.148).

Orta Arazboyunun düzənlik landşaftı kompleksi daxilində səhralaşmanı inkişaf etdirən təbii və antropogen amillər, əsasən, aşağıdakılardır:

- **Məskunlaşma.** Sovetlər hakimiyyəti dövründə yanlış olaraq dağ kəndlərinin düzənlik zonaya köçürülməsi və Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar əhalinin məcburi miqrasiyası (Savxoz, Böyükdüz, Yeni Kərki və s. yayayış məntəqələri)
- **Otarılma.** Qış otlaqlarında aparılan intensiv otarılma nəticəsində torpağın deqradasiyası
- **Şumlanma.** Əhaliyə müvəqqəti icarəyə verilmiş torpaqların şumlanması və fasiləli becərilməsi nəticəsində səhra və yarımsəhra bitki örtüyünün məhvi
- **Daş emalı.** Kəngərli düzündə travertin-daş emalı ilə əlaqədar əmələ gələn dərin çökəkliklər, karxana tullantılarından yaranan terrikonlar və karxanalara çəkilən çoxsaylı torpaq yollar
- **Yanacaq təhcizatı.** Blokada şəraitində yaşayan əhalinin yanacağa olan tələbatının ödənilməsi məqsədi ilə bitkilərin qırılması və onların kök sistemindən yanacaq kimi istifadə. Qeyd etmək lazımdır ki, səhra və

yarımsəhra bitkilərində biokütlənin 90 %-i kök sistemini təşkil edir.

- **Hidrogeoloji şəraitin dəyişməsi**. «Araz su qovşağı» su anbarının tikintisi və icarəyə verilmiş torpaqların suvarılması nəticəsində qrunt suyunun səviyyəsinin qalxması və şorlaşma nəticəsində bəzi halofil olmayan bitkilərin məhvi
- **Sel**. Tez-tez baş verən sellər nəticəsində torpaq eroziyasının güclənməsi, bitki areallarının prolüvial çöküntülərlə örtülməsi
- **Elyuvi**. Ərazidə baş verən aktiv fiziki aşınma məhsullarının, xüsusi ilə gil və duzlardan ibarət çöküntü qatının bitkilərə mənfi təsiri

Göründüyü kimi, Orta Araz təbii vilayətində düzənlik landşaftın səhralaşması ekoloji gərginlik yaradan amillərdən birinə çevrilmişdir. Problemin həlli üçün planlı şəkildə 1977-ci ildə qəbul olunmuş «Səhralaşmaya Qarşı Mübarizə» Beynəlxalq sazişin müddəalarına uyğun olaraq fundamental elmi tədqiqat işlərinin aparılması, səhralaşmaya qarşı mübarizə tədbirlərinin hazırlanması və həyata keçirilməsi zəruridir.

Ə d ə b i y y a t:

1. Budaqov B.Ə., Bababəyli N.S. Arazboyunda səhra landşaftı. Kiçik biznes və sahibkarplıq fəaliyyətinin inkişaf problemləri. Məqalələr toplusu. Bakı, 2004, s.9-14
2. Qurbanov Ə.K., Babayev N.S., İskəndərova H.Z., Əliyev S.Ə. Naxçıvan MSSR-də suvarma eroziyası və onlara qarşı mübarizə tədbirləri. Naxçıvan Sahələrarası Ərazi Elmi-Texniki İnformasiya Mərkəzi. № 24- 89, 3 s.
3. Qəribov Y.Ə. Təbii landşaftların antropogen yüklənməsinə görə qruplaşdırılması. Azərbaycan landşaftının və geomorfologiyasının problemləri. Azərbaycan coğrafiya cəmiyyətinin əsərləri, VI cild. Bakı, 1999, s. 33-40
4. Daşdıyev R.H. Azərbaycanın dağlıq landşaftlarında səhralaşma prosesi. Azərbaycanda səhralaşma problemləri. Ak.

B.Ə.Budaqovun 75 illiyinə həsr olunmuş Elmi-praktik konfransın materialları. Bakı, 2003, s. 78-80
5. Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı, 1999, 226 s.
6. Talıbov T.H. Naxçıvan MR-nin flora biomüxtəlifliyi və onun nadir növlərinin qorunması. Bakı, 2001, 191 s.

ƏLİ QURBANOV
Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN MR ƏRAZİSİNDƏ AQROİRRİQASİYA EROZİYASI

Naxçıvan MR Cənubi Qafqazda suvarmaya ən çox tələbatı olan regiondur. Muxtar Respublikada torpağın münbitliyini artırmaq və onun sıradan çıxmasının qarşısını almaq məqsədilə Araz, Arpaçay və Vayxır su anbarlarının tikintisindən sonra Arazboyu düzənlikdə qrunt sularının səviyyəsini aşağı salmaq məqsədilə Şərur, Babək, Kəngərli rayonları ərazisində 12,0 min hektar sahədə kollektor və drenaj şəbəkəsi yaradılmışdır.

Muxtar Respublikada fəaliyyət göstərən kollektor və drenlərin yarıdan çoxu öz fəaliyyətini çoxdan itirmiş, daş və torpaqla dolmuşdur. Belə bir vəziyyət torpağın münbitliyinə böyük təsir göstərir və şorlaşmaya səbəb olur.

Su mənbələri ətrafında əkilmiş əkin sahələrində suvarma zamanı artıq su götürülür ki, bunun da nəticəsində su torpağın məsamələrinə hopmamış, sahədən payın suları şəklində çıxır. Beləliklə, əkin sahələrində suvarma-irriqasiya eroziyası – səthi eroziya yaranır. Payın adı ilə axan su özü ilə torpağın münbitliyini aparır. Bu baxımsızlıq üzündən həm torpağın münbit qatı yuyulur, həm də digər sahədə suyun çatışmamasına səbəb olur və suyun axıdıldığı yerdə torpaq eroziyasına səbəb olur. Belə bir vəziyyətin dövrü təkrarı nəticəsində eroziyaya məruz qalmış ərazidə qobular əmələ gəlir və bunlar eroziya bazisinin dərinləşməsi nəticəsində

böyüyərək geniş ərazini əhatə edir. Eyni zamanda, bitki örtüyündən məhrum olmuş belə sahələrdə digər eroziya növləri də öz təsirini göstərir.

Arazboyu düzənlikdə, xüsusən Şərur və Naxçıvan düzənliklərində olan açıq kollektorların kənarlarında irriqasiya erziyası çox geniş ərazidə özünü göstərir. Çünki burada olan kollektorların əksər hissəsi əkin sahələrinin ortasından Araz çayına qədər uzanır. Böyük miqyaslı xəritələrdə aparılan hesablamadan məlum olmuşdur ki, son illərdə Babək, Kəngərli və Şərur rayonlarının əkin torpaqlarında 30 hektardan artıq güclü eroziyaya məruz qalmışdır. Aparılan hesablamadan belə nəticəyə gəlmişik ki, həmin rayonlarda 355 hektar əkin sahəsində orta və zəif dərəcədə irriqasiya eroziyası əmələ gəlmişdir. Belə bir eroziya əgər bir neçə il davam edərsə, qobu və yarğan şəbəkəsinin sahəsi genişlənə bilər.

Arazboyu düzənlikdə meyilliyi çox olan sahələrdə suvarma düzgün aparılmadığından suvarma-irriqasiya eroziyası torpağı daha şiddətli yuyur. Əkin sahələrinin yuyulması zamanı, humus qatında bitkinin inkişafı üçün lazım olan azot, fosfor, kalium və üzvi maddələr səthi eroziya nəticəsində itib gedir. Eroziyaya uğramış torpaqlarda münbitliyin azalması nəticəsində kənd təsərrüfat bitkilərinin məhsuldarlığı 1,5-2,0 dəfə aşağı düşür. Torpağı yuyulmadan qoruyub saxlamaq yolu ilə kənd təsərrüfatı bitkilərinin üzvi və mineral gübrələrə olan ehtiyacını xeyli azaltmaq mümkündür. Hazırda təsərrüfatlarda torpaqdan istifadə qaydalarının pozulması, dik yamacların eroziyaya qarşı mübarizə tədbirləri nəzərə alınmadan şumlanması aqro-irriqasiya eroziyasının yaranmasına səbəb olur. Bu qaydaların pozulması Şərur və Babək rayonlarında daha acınacaqlı vəziyyət yaradır. Həmin rayonlarda kollektorların eni bəzi yerlərdə 15-20 metrə çatır. Kollektorların orta genişlənməsini 10-15 metr nəzərə alsaq məlum olacaq ki, diqqətsizlik üzündən əkin üçün yararlı olan neçə hektarla sahə həmişəlik sıradan çıxır. Sonra bu cür eroziyaya məruz

qalmaqda olan torpaqların qarşısını almaq əlavə xərc tələb edir. (1, s.1-3)

Naxçıvan MR-də kiçik sahələrdə drenaj işləri aparılmasına baxmayaraq, 3300 ha torpaq sahəsi şoranlığa məruz qalmışdır. Bunun səbəbi drenaj işlərinin keyfiyyətsiz aparılması ilə bağlıdır. Belə ki, drenajdan istifadə 60-70 il üçün nəzərdə tutulduğu halda, onlar 10-15 ildən sonra sıradan çıxmış olur. (2, s.166)

Tədqiqat zamanı məlum olmuşdur ki, Muxtar Respublika ərazinsində qobuların bütün inkişaf mərhələlərinə rast gəlmək olur. Qobular və yarğanlar ərazinin başqa zonalarına nisbətən maili düzənliklərdə və dağətəyi zonada geniş inkişaf etmişdir. Bu zonada qobuların uzunluğu 0,5-3,0 km, dərinliyi 2-8 m, eni 0,5-8,0 m arasında dəyişilir.

Əkin sahələrinin relyef quruluşu mütləq nəzərə alınıb horizontallar üzrə şumlanmalı əkin sahələrinin suvarılması üçün su arxının və tarlanın normasına uyğun su götürülməli, suvarma mütəxəssisin nəzarəti ilə düzgün aparılmalı və götürülmüş suyun miqdarına uyğun suçu təyin olunmalıdır. Kollektorlar vaxtlı-vaxtında təmizlənməlidir.

Payın sularının su mənbələrinə axıdılması üçün sahənin aşağı hissələrində xüsusi arxlar çəkilməli və su ötürücü qurğular tikilməlidir. Kanallara və kollektorlara aid olan torpaqların istifadəsi qadağan edilməli və çoxillik bitkilər əkilməlidir.

Qobuların ətrafında horizontallar üzrə 25-30 sm olan çəpərlər çəkilməli, pilləkənvari terraslar salınmalı, ağac-kol bitkiləri əkilməlidir.

Yuxarıda göstərilən tədbirlərin həyata keçirilməsi aqroirriqasiya eroziyasının inkişafını zəiflətməklə torpaqdan səmərəli istifadə eiməyə imkan verəcəkdir

Ə d ə b i y y a t :

1. Qurbanov Ə.K., Babayev N.S., İskəndərov H.Z., Əliyev S.Ə. Naxçıvan MSSR-də suvarma-irriqasiya eroziyası və onlara

qarşı mübarizə yolları. Naxçıvan Sahələrarası Ərazi Elmi-Texniki İnformasiya və Təbliğat Mərkəzi. № 24; 1989, 3 s
2. Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı, 1999, 226 s

ALƏM ƏLƏKBƏROV
AMEA Naxçıvan Bölməsi

NAXÇIVAN MR TORPAQLARINDA RADİONUKLİDLƏRİN HƏRƏKƏTİ VƏ MİQRASİYASI

Muxtar Respublikanın torpaqları öz tərkib və yayılmasında makro və mikrorelyefin, allüvial, prollüvial, dellğvial yığınlarının dəyişik nisbətdə qarı-şıqlarının, müxtəlif dərəcədə minerallaşmış qrunt sularının, kasıb bitki örtüyünün, kəskin iqlimin və qədim əkinçiliyin təsirini əks etdirir.

Tədqiqatların nəticəsi göstərmişdir ki, Naxçıvanda əsas etibarilə aşağıdakı 4 torpaq qurşağı vardır:

1. Yüksək dağlıq qurşağının çəmən- bozqır torpaqları.
2. Quru kserofit meşə və kolluq qurşağının dağ - qəhvəyi, dağ- boz -qəhvəyi torpaqları.
3. Quru bozqır qurşağının (boz- qəhvəyi) torpaqları.
4. Yarımsəhra qurşağının ibtidai – boz, boz, çəmən-boz allüvial çəmən torpaqları (4. s.230- 239).

Xarici aləmin ekoloji faktor baxımından öyrənilməsi göstərir ki, nüvə partlayışlarından alınan radioaktiv məhsullar biosferdə miqdarı artır ki, bu da öz növbəsində torpaqların və bitki örtüyünün çirklənməsinə səbəb olur. Canlı orqa-nizmə təsir edən ^{90}Sr və ^{137}Cs radionuklidləri uzun müddət yaşayır və miqrasiya dövrünə qoşulmaqla daha çox önəm daşıyır.

Naxçıvan MR ərazisiində ^{90}Sr –nın təyinatı və miqrasiyası dəyişkən xarakter daşımaqla, onun qatılığı 2,5 – 3,5 QB/ km^2 arasında dəyişir. Dağlıq ərazilərin tor-

paqlarında ^{90}Sr düzənlik ərazilərində olduğundan çoxdur. ^{90}Sr –nın max. miqdarı dağ çəmən torpaqlarının üst qatlarda 0-10sm arasında yerləşir. Dərinliyə getdikcə onun miqdarı azalır. ^{90}Sr-nın torpaqlarda yerləşməsi şaquli zonallığa əsaslanır (cədvəl 1.) (1, s.72-75).

Ərazimizin torpaqlarında ^{137}Cs-nin qatılığı 1,5-2,6 QB k/km^2 arasında dəyişir. Dağlıq ərazilərin torpaqlarında ^{90}Sr radionuklidin miqdarı daha çoxdur.

Cədvəl 1

Naxçıvan MR torpaqlarında ^{90}Sr və ^{137}Cs-nin yerdəyişmə və miqrasiyası

Torpaq, № kəsik		Dərinliyi, sm	^{90}Sr		^{137}Cs		^{137}Cs: ^{90}Sr
			QBk/km^2	Bk/kq	QBk/km^2	Bk/kq	
Boz, çox-dan-becə-rilənlən gilli şum-lan-mış (150)	$A_{şum}$	0-10	1,3	10,4	0,5	4,8	0,38
	$A_{şum}$	10-24	0,9	6,7	0,5	3.7	0,55
	V	24-40	0,6	1,9	0,5	4,1	0,83
		0-40	2,8	-	1,5	-	0,53
Boz – qəhvəyi, çöllük şumlanmış (151)	$A_{şum}$	0-12	0,9	7,5	0,7	4,1	0,77
	$A_{şum}$	12-22	0,7	5,0	0,4	3,0	0,57
	V	22-35	0,5	3,5	0,3	2,2	0,60
	VS	35-48	0,4	2,5	0,2	1,1	0,50
		0-48	2,5	-	1,6	-	0,64
Dağ – meşə qəhvəyi (152)	A_D	0-8	1,2	12,6	1,1	8,5	0.91
	A_I	8-18	1,1	8,5	0,9	6,3	0,81
	V	18-26	1,0	7,6	0,6	4,1	0,60
		0-26	3,3	-	2,6	-	0,78
Dağ – çəmən çöllük (153)	A_D	0-9	1,3	12,6	0,7	7,0	0,54
	A_I	9-15	1,1	11,1	0,5	5,2	0,45
	V	15-26	1,1	8,5	0.7	5,2	0,63
		0-26	3,5	-	1,9	-	0,54
Dəyişmə			2,5-3,5	-	1,5-2,6	-	0,53-0,78
Orta			3,0		1,9		0,62

Boz və dağ çəmən torpaqlarında ^{137}Cs-nin yayılma qanunauyğunluğu daha çox aşkar olunmuşdur. Belə ki, dağ qəhvəyi çəmən və dağ qəhvəyi meşə torpaq-larında radionuklidin miqdarı dərinliyə getdikcə azalır. Torpaqların bü-tün horizontallarında ^{137}Cs-nin miqdarı, ^{90}Sr-nın miqdarından azdır (2, s.3-10).

Naxçıvan MR yerləşən radionuklidlərin yerləşməsi və miqrasiyası şaquli zonallığa görə öyrənilir. ^{238}U-in orta qatılığı regionun torpaqlarında 1,4-1,8 s Bk /q arasında dəyişərək 1,6 s B k/q təşkil edir (2, s. 15-18).

Alçaq və dağətəyi rayonlarda ^{238}U-in miqdarı dağlıq ərazilərdəkindən azdır.

Boz torpaqlarda radionuklidin max. miqdarı allüvial –şaquli və dağ –qəhvəyi ğst humus şaquliliyində ancaq dağ qəhvəyi zonallıqda müşahidə edilir.

Regionun torpaqlarında ^{226} Ra-nın orta qatılığı 1,6 - 2,9 sBk/q arasında dəyişir. Dağlıq ərazilərin torpaqlarında radionuklidlərin miqdarı, düzənlik və dağətəyi rayonların ərazisindəkindən çoxdur. Qeyd edək ki, tədqiq olunan torpaqda müşahidə olunan radioaktivlik ^{238}U –in, ^{226}Ra arasındakı müvazinətdə Ra- a tərəf sıxılıb daha çox meyl edir (1, s.174-176).

Regionun ərazisində ^{210} Po –nun orta qatılığı 2,2- 6,0 sBk /q arasında dəyişir. Bu radionuklidin max. miqdarı boz və boz qəhvəyi meşə torpaqlarından aşağı şaquli zonallıqdadır. ^{232} Th –nin qatılığı 1,1-2,2 s Bk /q, ^{40}K –ın orta qatılığı isə bu torpaqlarda 31,8-44,2 s Bk / q arasında dəyişir (cədvəl 2), (1, s. 176-179).

Naxçıvan MR ərazisində təbii radionuklidlərin orta konsentrasiyası
(orta profilli torpaq)

Torpaq, təsərrüfat və № kəsik	Radionuklidlər, sBk/q				
	^{238}U	^{226}Ra	^{210}Po	^{232}Th	^{40}K
Boz şumlanmış (150)	1,4	1,7	2,6	1,8	37,4
Dağ-qəhvəyi çöllük (151)	1,4	1,5	2,2	1,1	44,2
Dağ-meşə qəhvəyi (152)	1,7	2,8	6,0	2,4	31,8
Dağ çəmən çöllük (153)	1,8	2,9	5,4	2,3	31,8-44,4
Dəyişmə	1,4-1,8	1,5-2,9	2,2-6,0	1,1-2,4	38,9
Orta	1,6	2,4	4,0	2,2	

Ümumi radioaktivlikdə regionda ən böyük göstərici ^{40}K –a məxsusdur. Araşdırmalar sübut edir ki, respublikanın torpaqlarındakı radionuklidlərin qatılığının müəyyənləşdirilməsi bir –birindən asılı deyil.

Məlumdur ki, əsas radionuklidlərin qatılığına torpaqdakı aqrokimyəvi birləşmələr təsir edir. Onu da qeyd etməliyik ki, təbii radionuklidlik torpaqlarda ümumi radionuklidliyin 2-10% -ni təşkil edir.

Ə d ə b i y y a t:

1. М.А. Абдуллев, Дж.А.Алиев «Миграция искусственных и естественных радионук-лидов в системе почва – растение». Баку- «Элм» , 1998. 237 с.
2. Кузнецов А.В., Агишев М.Х.. Мгеладзе В.С., Недялков С.И. Естественные радио-ак-тивные нуклиды в системе почва-удобрение –растение. –В кн. : Влияние интенсив.химизации с.-х. На накоп. естеств. Радиснуклидов в почве и продукции растениеводства. М. : 1986 . с.20

3. Абдуллаев М.А. Размеры накопления ^{90}Sr в растениях Азербайджанской ССР. –В кн. : Тез. докл. II респ. конф. « Химия и сельское хозяйство». – Баку : 1977. с.32
4. M.E. Salayev, R.H. Məmmədov «Naxçıvan MSSR-in torpaqları və onlardan səmərəli istifadə» Naxçıvan MSSR , «Elm» 1975 , s. 230-240

CEYHUN ƏSGƏROV
Naxçıvan Dövlət Universiteti

GİLANÇAYIN HİDROENERJİ EHTİYATLARI

Blokada şəraitində yaşayan Naxçıvan MR əhalisinin əsas problemlərindən biri elektrik enerjisinə olan tələbatıdır. Enerjiyə olan tələbatı ödəmək üçün dağ yamaclarında yayılmış seyrək meşələr və kolluqlar yerli əhali tərəfindən qırılaraq məhv edilir. Bu da öz növbəsində yamacların eroziyasına, sel prosesinin inkişafına, qurunt sularının səviyyəsinin aşağı düşməsinə və bir çox yüksək debitli bulaqların qurumasına səbəb olur. Muxtar Respublikada ehtiyatı az olan meşələrdə qırılan ağaclardan yanacaqdan əlavə, həm də tikinti materialları kimi istifadə olunur.

Bu gün Naxçıvan MR-də elektrik enerjisinə olan tələbatın miqdarı 1mlrd 85 mln 341 min kV/saat həcmindədir. Bu ehtiyac Araz SES, Duzdağ İES, bundan əlavə qonşu İran və Türkiyə dövlətlərindən alınan enerji ilə ödənilir. Yerli istehsal çox az olduğundan tələbat baha başa gələn idxal olunan enerji hesabınadır. Belə ki, İrandan alınan 1kVt/ saat enerjinin dəyəri 71 manatdır.

Yanacağın daşınma xərclərini nəzərə alsaq istismar gücü 60mVt olan Duzdağ İES-in hər kVt/saat enerji istehsalı İrandan alınan enerjiyə nisbətən çox baha başa gəlir. Belə ki, bizim şəraitdə 1kVt enerji almaq üçün 300-500 qr arası yanacaq tələb olunur ki bu da təxminən 250-400 manat dəyərindədir (1).

Naxçıvan MR-də mövcud imkanlar hesabına enerji problemini həll etməyin ən düzgün yolu kaskad tipli SES-lərin tikilməsidir. Belə ki, ərazidə yerləşən qısa və sürətli dağ çaylarının bəziləri böyük hidroenerji potensialına malikdir. Belə çaylardan biri də Ordubad rayonu ərazisində yerləşən Gilançaydır(2).

Gilançay qısa və güclü dağ çayı olub uzunluğu 53km-dir. Sutoplayıcı sahəsi 426km², hövzəsinin orta yüksəkliyi 2015m-ə bərabərdir. Çay şəbəkəsinin sıxlığı 0,52km-dir. Başlanğıcını 2876m yüksəklikdə Eşşək meydanı yaxınlığından götürərək 678m hündürlükdə Aşağı Azada Araz çayına tökülür. Çayın düşməsi 2198 m, orta meyilliliyi isə 41,4 m/km-dir. Başlıca qolları Saqqarsu, Nəsirvazçay, Xırdaçay və Parağaçaydır. Çayın dərəsi yuxarı və orta axında dar, aşağı axında isə genişdir.

Gilançayın qidalanma mənbələri müxtəlifdir. Əsas qidasını qar və yağış sularından alır. Həmçinin yeraltı sular da az rol oynamır. Bu çayın suyu ilə Ordubad və Culfa rayonlarında 2000 hektara qədər sahə suvarılır (3, s.56).

Aşağıda 2004-cü il üzrə apardığımız müşahidələrin təhlili əsasında Gilançayın müxtəlif aylar üzrə su sərfi cədvəli və onlar əsasında qrafik verilmişdir. Məlumatların Muxtar Respublikanın digər çaylarının su sərfi ilə müqayisəli təhlili göstərir ki, Gilançayın hidroenerji potensialı Muxtar Respublikanın digər çaylarına nisbətən artıqdır.

Gilançayın 2004-cü ildə bol sulu və az sulu dövrlərinin orta su sərfinin müqayisəli təhlili m³/san.


günlər aylar	1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15
May	21,6	17,0	15,3	14,2	14,5	17,8	17,0	17,8	15,3	15,0	15,0	15,0	14,7	14,7	15,3
Oktyabr	3,46	3,46	3,46	3,32	3,32	3,32	3,18	3,32	3,18	3,18	3,18	3,18	3,18	3,18	3,18

günlər aylar	16	17	18	19	20	21	22	23	24	25	26	27	28	29	30	31	Orta ay
May	15,3	14,7	14,3	13,7	13,5	13,2	13,2	13,2	13,2	13,7	14,0	14,2	14,5	14,7	15,0	15,3	15,1
Oktyabr	3,18	3,18	3,04	3,04	3,04	3,04	3,04	2,90	2,90	2,90	2,90	2,90	2,90	3,04	2,90	3,13	3,13

Gilançay üzərində 6 aqreqatlı turbini olan «Frensis» firmasına aid kiçik SES tikmək məqsədəuyğundur. Turbinin istismar gücü 4,6 mVt, orta enerji istehsalı isə 12.3mln kVt/ saata bərabərdir. Bunu da qeyd etmək lazımdır ki, Gilançay hövzəsi boyu kəndlərin elektrik enerjisinə olan tələbat gücü 6,6 mVt-dır(2). Çay üzərində su anbarı inşa etmədən 30-dan artıq bu cür turbin yerləşdirmək mürnükündür.

Bu tipli SES-lər hesabına bütün Ordubad rayonu ərazisini elektrik enerjisi ilə təmin etmək olar. 2004-cü ilin tək oktyabr ayında Ordubad rayonu 71mln 78 min kVt/saat elektrik enerjisi sərf etmişdir ki, bunun da həcmi 7 mlrd 774 mln manatdır. Yerli enerji istehsal olduqdan sonra Ordubad rayonu ərazisindəki elektrik çatışmazlığı səbəbindən fəaliyyətini dayandırmış bütün sənaye obyektlərini yenidən işə salmaq, eləcə də kommunal, məişət və təsərrüfatın müxtəlif sahələrinin tələbatını ödəmək mümkündür. Problemlərin yaxın gələcəkdə həlli üçün müvafiq təşkilatlar qarşısında məsələ qaldırılmalı və Gilançayın, eləcə də ərazidəki digər çayların hidroenerji ehtiyatları elmi əsaslarla ətraflı tədqiq edilməli və iqtisadi qiymətləndirilməlidir.

su sərfi m^3/san



	I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI	XII
2	3,8	3,28	5,61	14,2	15,1	13,5	8,27	5,29	5,13	3,28	3,88	3,41

1 Orta aylıq su sərfi qrafiki

Ə d ə b i y y a t:

1. Naxçıvan MR Energetika idarəsinin arxivi. İş №7.
2. Əsgərov C.F. AMEA-nın Naxçıvan Bölməsinin elmi-praktik konfransının materialları. I buraxılış, Bakı. Elm, 2004. s.309-314.
3. Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı, Elm, 1999. s.56.
4. Naxçıvan MR Meliorasiya və su təsərrüfatı komitəsinin arxivi. İş №9.

GÜLTƏKİN SÜLEYMANOVA
AMEA Naxçıvan Bölməsinin
Təbii Ehtiyatlar İnstitutu

NAXÇIVAN MR-də DAĞ – ÇƏMƏN LANDŞAFTININ REKREASİYA EHTİYATLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

Muxtar Respublika ərazisi landşaft müxtəlifliyi ilə regionda fərqlənir. Burada 600 metrdən 3900 metrə qədər mütləq hündürlüklər arasında çox qısa bir məsafədə formalaşan landşaft kompleksləri arasında zəngin bitki örtüyü və heyvanlar aləmi, iqlim ehtiyatları, hidrogeoloji şəraiti, axar suları, qiymətli torpaqları, ekzotik qayaları ilə seçilən dağ - çəmən landşaftı xüsusilə fərqlənir.

Rekreasiya – turizm təsərrüfatının yaradılması, onun inkişafına təkan verən ehtiyatların düzgün qiymətləndirilməsi üçün vacibdir. Bu ehtiyatlar əvvəlcə təyin edilməli və daha sonra qruplaşdırılmalıdır. Ənənəvi olaraq rekreasiya ehtiyatı kimi təbii və antropogen landşaft komponentlərinin cəmi başa düşülür. Buna müvafiq iqlim, su, bitki, oroqrafiya, sosial mədəni tarixi və s. rekreasiya ehtiyatları ayrılır. Hər bir rekreasiya sahəsinin inkişafında çoxlu təbii və sosial mədəni amilin rolu vardır. Buna görə də rekreasiya sistemi tərkibinə təbii və mədəni landşaft komponentlərinin uyğunluğu kimi

baxmaq lazımdır. Bunu nəzərə alaraq Y.Ə.Qəribov və T.Y. Verdiyeva rekreasiya ehtiyatlarını üç qrupa ayırır: təbii, iqtisadi, sosial (3, s.179- 180).

Azərbaycanın, eləcə də Qafqaz dağlıq ölkəsində yüksək dağlığın rek-reasiya ehtiyatlarından istifadə edilməyən yeganə yer Lənkəran təbii vilayəti və Naxçıvan MR ərazisindədIr. Bu ilk növbədə SSRİ dövründə bir neçə dövlətin qonşuluğunda yerləşən regionun «təhlükəsizliyini» təmin etmək məqsədi ilə əlaqədar olmuşdur. Respublikamızda fəaliyyət göstərən turizm –rekreasiya mərkəzləri İstisu, Göy-göl Afurca Qonaq kənd, Xan yaylağı, Sarıbaş və s ilə müqayisədə landşaft zənginliyi ilə seçilən Muxtar Respublikanın orta və yüksək dağlığın bir çox üstünlükləri vardır. Bu üstünlük əsasən təbii iqlim, flora, mineral su, təbiət abidələri zənginliyi ilə əlaqədardır.

Rekreasiya potensialı ilə fərqlənən dağ- çəmən landşaft kompleksi, meşə və meşə kol landşaftından yuxarıda 2000-3000 metr hündürlükdə yerləşir. Qışı quraq və soyuq, yayı mülayim isti keçən iqlim şəraitində formalaşan subalp və alp səmənliklərindən yay otlaqları və mütəşəkkil olmayan istirahət yeri kimi istifadə olunur.

Dərələyəz və Ələngəzin (Zəngəzur) cənub ekspozisiyrsında geniş yayılan cəlbedici dağ-çəmən landşaftı üçün kəskin parçalanmış relyef, dərin dərələr, ufantılıuçğunlu yamaclar, qədim karlar, sirklər, troqlar, moren, uçqun və sürüşmə gölləri səciyyəvidir.

Gəmiqayanın şərqində, Qazangöldağın cənubunda, Sakarsu qayanın şimal - şərqində və Göy-göl ətrafında dik və asılı qayalar bəzi yerlərdə 300 metrlik divarlar yaradır.

Çaylar sulu və daimidir. Yazda və yayda xüsusilə qarların intensiv əridiyi dövrdə astanalardan keçib gedən dağ çayları daha da bolsulu olur.

Dağ – çəmən landşaftının zəngin iqlim ehtiyatları vardır. Burada günəşli saatların illik miqdarı 2200- dən artıq, illik radiasiyanın miqdarı 150 –160 kkal. sm^2- dir. Bu göstərici ekvatorial qurşaqla müqayisədə bir qədər

çoxdur. Temperatur amplitudası böyükdür. Dekabr ayında orta aylıq temperatur -0,5 ilə -3^0 C arasında, iyun ayında isə 15-18^{0}C arasında dəyişir. Göründüyü kimi ərazinin iqlimi düzənlik iqlimi ilə müqayisədə yayda daha sərin, qışda isə nisbətən istidir. Landşaftın formalaşmasında temperatur amili ilə yanaşı rütubətlənmə şəraiti də müsbət rol oynayır. 800 – 900 mm-ə çatan illik yağıntı miqdarı alp çəmənliklərində rütubətlənmə əmsalının vahiddən çox olmasına səbəb olur.

Ərazidə qar örtüyü uzunmüddətli və davamlıdır. Bu amil relyef şəraiti nəzərə alınmaqla xizək sürmək üçün bazaların yaradılmasına kömək edə bilər.

Dənəvər strukturlu ağır torpaqlar əsasən dağ – çəmən və torflu dağ –çəmən torpaq tipinə aid olub tünd boz və qəhvəyi rəngləri ilə fərqlənirlər.

Dağ çəmən landşaftının sıx bitki örtüyü və zəngin növ tərkibi vardır.

S.Y. Babayev dağ – çəmən landşaft kompleksini biosenozun tərkibinə görə iki landşaft tipinə ayırır: subalp çəmənlik landşaftı və alp çəmən landşaftı. O, bəzi yerləri çıxmaq şərti ilə subalp çəmənliklərinin qurşaq yaratmadığını və mezofil meşə çəmənlikləri ilə birlikdə kompleks yaratdığını qeyd edir (2, s. 81-82).

Bu zolaq Küküçay hövzəsindən başlayaraq Əlincə-çay hövzəsinə qədər suayrıclarda kəsilib çay dərələrində yenidən üzə çıxır. Kükü kəndi ya-xınlığında və Biçənək meşəsinin yuxarı qurtaracağında ucaboylu, sıx, yaxşı inki-şaf etmiş subalp bitkilərinə rast gəlmək mümkündür. Burada taxılkimilər, çətirçiçəklilər və sairə bitkilərin hündürlüyü 2 metrə çatır.

Alp çəmənlikləri Salvartı, Ağdaban, Küküdağ, Keçəldağ, Ağdağ və Qarıcıq dağlarının yüksək kəsimlə-rində daha yaxşı inkişaf etmişdir. Bu bitkilərin həm boyu və həm də vegetesaya dövrləri qısadır. Boyu 2-3 sm olan mühitə uyğunlaşmış bitkilər isti dövrdə rəngbərəng, gözəl

çiçəklər açır. Açiçiçək, zəngçiçək, yastıqotu və sair çoxillik bitkilər kökləri vasitəsilə torpağa sıx yapışaraq alp xalılarını yaradırlar.

Yüksək dağlıq zona üçün bezuar keçisi, Asiya muflonu, bəbir, dağlıq dələsi, kiçik cənub ayısı və vaşaqlar səciyyəvidir. Böyük Qafqazda olduğu kimi burada da ovçuluq təsərrüfatları yaratmaq bəzi heyvan və quş növlərinin xarici turistlər tərəfindən ovlanmasına icazə verməklə xeyli vəsait əldə etmək mümkündür.

Göründüyü kimi dağ – çəmən landşaft kompleksi daxilində iqlim və balneoloji, turizm və istirahət, ovçuluq, alpinizm və qayalara dırmanmaq, xizək, at yürüşü kimi rekreasiya potensialının olmasına baxmayaraq burada bu sahələrə uyğun müəssisələr fəaliyyət göstərmir. Bizcə müvafiq rekreasiya ehtiyatlarından istifadə olunması üçün bu sahədə ətraflı araşdırmalar və təbii,
iqtisadi, sosial qiymətləndirmələr aparılmalıdır.

Ə d ə b i y y a t:

1. Бабаев Н. «Природная характеристика Гямигая». NDU-nun elmi əsərləri № 9, 2002. s. 35-37.
2. Babayev S.Y. «Naxçıvan Muxtar Respublikasının coğrafiyası». Bakı, 1999, 226 s.
3. Qəribov Y.Ə., Verdiyeva T.Y. «Kiçik Qafqazın şimal-şərq yamacı landşaftlarının rekreasiya ehtiyatlarının qiymətləndirilməsi». Azərbaycan coğrafiya cəmiyyətinin əsərləri. VIII cild. Bakı, 2003, s. 179-190

ETİQAT BEKTAŞİ
Naxçıvan Dövlət Universiteti

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ENDOGEN MƏNŞƏLİ TƏBİƏT ABİDƏLƏRİ

Naxçıvan MR mürəkkəb təbii şəraitə malik olub, özünəməxsus coğrafi mövqeyi ilə səciyyələnir. Burada günəş radiasiyasının, günəşli saatların miqdarı, temperaturun illik cəmi, düzənliklərdə müşahidə edilən maksimum və minimum temperatur amplitudu respublikanın digər vilayətlərinə nisbətən yüksəkdir. Bu kiçik ərazi son dərəcə mürəkkəb relyefə, müxtəlif landşafta, bitki örtüyünün təzadlı çalarlarına, dağ meşələrinə, çoxsaylı bulaqlara, şəfalı mineral su məbələrinə, saysız çay və çay qollarına malikdir.

Naxçıvan MR-in təbiətinin rəngarəngliyidir ki, onun ərazisi başlıca olaraq iki fiziki coğrafi ölkəyə daxil edilir- Ön Asiya və Qafqaz.

Ön Asiya fiziki coğrafi ölkəsinə səhra elementli, yarımsəhra şəraitli Şərur-Ordubad maili düzənliyi, Qafqaza isə çöl və çəmən şəraiti Günnüt- Qapıcıq yüksək və orta dağlıq rayonları daxildir (4, s. 265).

Tipik dağlıq ölkə olan Naxçıvan MR-in ərazisi endogen mənşəli təbiət abidələri ilə zəngindir.

Təbiət abidələri insanların iştirakı olmadan qüdrətdən yaranmış coğrafi obyektlər-dağlar, daşlar, qayalar, dərələr, çaylar, göllər, bulaqlar, meşələr, həmçinin fauna və floranın maraqlı nümunələridir (2, s.44).

Naxçıvan MR-in təbiət abidələrini əsasən oroqrafik hidrodoji, faunistik və landşaft abidələr qrupuna bölmək olar.

Oroqrafik abidələr qrupuna öz forması və insanların həyatında oynadığı rolu ilə seçilən, diqqəti cəlb edən dağlar, dağ zirvələri, qayalar və s. daxildir (2,s.48).

Oroqrafik təbii abidələrdən sayılan endogen mənşəli Zəngəzur silsiləsinin orta hündürlüyü 3200 metr olub, Kiçik Qafqazın bütün silsilələrindən yüksəkdir. Onun ən hündür zirvəsi olan Qapıcıq eyni zamanda Kiçik Qafqazın Azərbaycan ərazisində ən yüksək zirvəsidir.

Gəmiqaya Ordubad rayonunun Tivi və Nəsirvaz kəndləri yaxınlığında yerləşən hündür dağ zirvəsi Qapıcığın əfsanəvi adıdır. Gəmiqaya həm də qədim qayaüstü rəsmlərinə görə məşhurdur. Dağın cənub yamaclarına səpələnmiş qranit- qabbvo tərkibli qayalar üzəri sanki insan əli ilə hamarlanmışdır. Qayaüstü rəsmlər yastı səthli sərt qayalar üzərində eyni tərkibə və sərtliyə malik daşların vasitəsi ilə məharətlə həkk edilmişdir. Gəmiqaya rəsmlər qalereyasıdır. Bu rəsmlər Naxçıvanın dağətəyi və düzənlik hissələrində yaşamış qədim oturaq əkinçi-maldar tayfaların həyat tərzini əks etdirən təsviri sənət nümunələridir. Ordubad dağlarının hündür zirvələrindəki yaylaqlar həmin tayfaların məskəni olmuşdur. Gəmiqayada dəniz səviyyəsindən 3500-3700 rnetr hündürlükdə "Qaranquş", "Nəbi-yurdu" və "Camışölən" adlı yaylaqlarda çoxlu qayaüstü rəsmlər qeydə almışdır (3, s. 56-57).

Naxçıvan MR-in möhtəşəm görüşə malik olan təbii abidələri içərisində Naxçıvanın simvoluna çevrilmiş İlandağ- Haçadağ özünə xüsusi "yer qazanıb".

İlandağ hündürlüyü 2413,4 metrə çatan vulkan mənşəli lakkolitdir (2,s.195). Bu dağ kömbə və ya göbələk forması almış yer qabağında çöküntü suxurları arasına girmiş və orada yer səthini qaldırmış maqma kütləsidir.

Kontinental iqlim şəraitində lakkolitin üstünü örtmüş çöküntü qatları Genudasiya vasitəsi ilə aparıldıqdan sonra, "göbələk" və ya "yumurta " formalı maqmanın üstü açılır. İlandağ məhz bu prosesə məruz qalmış, "donub" qalmış maqma öz görkəmi ilə bənzərsiz bir mənzərə yaratmışdır.

İlandağ yamacları sıldırımlı olub, ətəyində külli miqdarda aşınma materialları toplanmışdır. Kserofit kolluq

və quru çol landşaftına malikdir. Ardıc kolları zirvəyə qədər yayılmışdır (2, s. 195).

İlandağ hündürlüyünə görə Zəngəzur silsiləsinin ayrı-ayrı zirvələrindən xeyli alçaqdır. Lakin o əzəmətli görkəmi ilə diqqəti cəlb edən nadir təbiət abidələrimizdəndir. Bəlkə də bu gözəlliyin qabarıq fonda görünməsi onun "tənha" yerləşməsindən irəli gəlir.

Dağın şimal ətəyində yerləşən Köhnə Xoşkeşin kəndindən və dağın şərqində yerləşən Gal kəndindən başlanan cığırlarla İlandağın zirvəsinə qalxmaq olar. Bu cığırların bəzi yerlərində müdafiə bəndləri hesab edilən qala divarlarının qalıqları indi də durmaqdadır. Tarixçilər İlandağı Əlincə qalasının müşahidə məntəqəsi hesab edirlər (2, s. 196).

Naxçıvan Muxtar Respublikasının təbii abidələrinin bir çoxu həmçinin tarixi abidələridir. Bu abidələr tarixin müəyyən dönəmlərində insanlar üçün sığınacaq, müdafiyə qalası polunu oynamışdır. Təbii- tarixi abidələrimizdən biri xalqımızın yenilməzlik rəmzi olan Əlincə dağıdır.

Dağ Naxçıvan şəhərindən 30 km şərqdə Əlincəçayın sahilində yerləşir. Əlincə dağı vulkan mənşəli dağ olub, hündürlüyü 1811 metrə çatır. Bu dağ cənub- şərqdə yerləşən İlandağ kimi təbiətin maraqlı hadisəsi olan lakkotitlərdəndir. Qayalıq landşafta malik olub, zirvəsinə qalxmaq çox çətin olan bir dağdır. Dağın üstü qayalıq olub, bir tərəfdə meydançanı xatırladan düzənlik vardır. Dağın hər tərəfindən dik, sıldırım, keçilməz və hüdür qayalar ucalır. Şərqdən və qərbdən zirvəyə qalxan dərələr daralaraq yuxarıda ensiz keçid əmələ gətirir (2, s. 199).

Ehtimal olunur ki, Əlincənin adı türk dilində «Alan» (düzənlik, meydan), «Alancıq» (kiçik meydan) sözündəndir. Bu qalanın yerləşdiyi sahənin kiçik meydançaya bənzəməsi ilə əlaqədardır.(4, s. 182). Əlincə qalasının adı «Kitabi- Dədə Qorqud» dastanında istehkam kimi təsvir olunur.

Əlincə dağı təbii- coğrafi abidə olmaqla bərabər, xalqımızın tarixini əks etdirən möhtəşəm bir qaladır.

Vulkanın yaratdığı nəhəng lakkolit üzərində tarixin sənədləri bu günədək əzəmətlə ucalan qala divarlarında, bir- birini əvəz edən sədlərdə, yalçın qayalarda, çapılmış oyuqlarda, bürclərdə, bina qalıqlarında və torpağın altında zəngin maddi- mədəniyyət abidələrində qorunub qalmaqdadır (3, s. 68).

Naxçıvan MR-də endogen mənşəli təbiət abidələri çoxdur. Bu abidələrdən Əsabü-Kəhf, Nəhəcir, Berdik, Şapur, Papaqlı, Qazangöldağ və s. adını çəkmək olar.

Təbiət abidələri ilə zəngin olan Naxçıvan diyarının göstərilən abidələri iqtisadi-rekreasiya cəhətdən qiymətləndirilməsi, bu obyektlərə xarici ölkələrdən turist marşurutları təşkil edilməsi məqsədəuyğun olardı . Bu abidələri dünyaya tanıtmaq üçün onun barəsində kitablar, albomlar, bukletlər hazırlamaq, kinofilmlər çəkmək bütün yurdsevərlərin borcudur.

Ədəbiyyat:

1. Babayev S. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı, Elm, 1999, 226s.
2. Babayev S. Əfsanələr diyarı. Bakı, Elm, 2001, 288 s.
3. Əliyev V. Naxçıvan MSSR-də arxeoloji tədqiqatlar Naxçıvan Muxtar Sovet Sosialist Respublikası. Bakı, 1975, s.48-74
4. Budaqov B., Babayev S. «Naxçıvan MSSR-in landşaftı və onun kənd təsərrüfatı və onun kənd təsərrüfatı əhəmiyyəti» Naxçıvan Muxtar Sovet Sosialist Respublikası. Bakı, 1975 s.257-276

5 ASE. IV cild, Bakı, 1980, s.182

V. FİZİKA, RİYAZİYYAT VƏ ASTRONOMİYA ELMLƏRİ

AZAD MƏMMƏDLİ
AMEA Naxçıvan Bölməsi
Batabat Astrofizika Rəsədxanası

MƏHDUD ÜÇ CİSİM MƏSƏLƏSİNİN XÜSUSİ HƏLLƏRİ HAQQINDA

Məhdud üç cisim məsələsinin polyar koordinatlarda Eyler və Laqranj xüsusi həllərinin tapılması haqqında məsələyə baxılır. Eyler nöqtələrinin yerləşməsi, xüsusi halda, sonlu kütlələrin nisbətindən asılı olaraq təyin olunur.

GİRİŞ

Məhdud üç cisim məsələsi, məlum olduğu kimi, sadə xüsusi həllərə malikdir. Bu həllərin varlığına ilk dəfə Eyler diqqət yetirmiş [1] , və sonra Laplas və Laqranj tərəfindən ətraflı öyrənilmişdir [2,3]. Kollinear Eyler həlləri və üçbucaqlı Laqranj həlləri adlanan bu xüsusi həllər beş librasiya nöqtələrinə uyğun gəlirlər. Onlardan üçü əsas cisimləri birləşdirən düz xətt üzərində, digər ikisi isə bu cisimlərin hərəkət müstəvisində bərabərtərəfli üçbucağın təpələrində yerləşirlər. Əlbəttə ki, məhdud üç cisim məsələsi Laqranj həllərinə yaxın sonsuz xüsusi həllər çoxluğuna malikdir, lakin onlar Laqranj həlləri qədər sadə deyildir və sonlu düsturlarla ifadə oluna bilmirlər. Librasiya nöqtələri və onlarla bağlı digər məsələlər A.P.Markeevin kitabında şərh olunur [4].

Baxılan işdə məhdud üç cisim məsələsində hərəkət tənliklərində asılı olmayan dəyişən olaraq sarsıdıcı cismin həqiqi anomaliyası götürüldükdə Laqranj və Eyler xüsusi həllərinin tapılması haqqında məsələyə baxılır.

MƏSƏLƏNİN QOYULUŞU. POLYAR KOORDİNATLARDA HƏRƏKƏT TƏNLİKLƏRİ

Tutaq ki, sarsıdıcı P' cismi m' kütləsinə malikdir və o, m kütləli P_0 cisminə nəzərən konik kəsiklərdən biri üzrə (ellips, parabola yaxud hiperbola, xüsusi halda, çevrə) hərəkət edir. Tutaq ki, çox kiçik kütləli P cismi də var və o, P_0, P' cisimləri tərəfindən cəzb olunur, lakin onların hərəkətinə heç bir təsir göstərmir.

Hər üç cismin eyni bir müstəvi üzərində hərəkət etdikləri hala baxaq. Başlanğıcı P_0 nöqtəsində olan P_0xy düzbucaqlı koordinat sistemini elə seçək ki, P_0x oxu P' cisminin orbitinin perisentrinə yönəlsin. Onda passiv qravitasiyalı P nöqtəsinin P_0 nöqtəsinə nəzərən hərəkətini əciyyələndirən tənliklər aşağıdakı kimi olar [5]:

$$\frac{d^2x}{dt^2}+\frac{fmx}{r^3}=fm'\left(\frac{x'-x}{\delta^3}-\frac{x'}{r'^3}\right),$$

$$\frac{d^2y}{dt^2}+\frac{fmy}{r^3}=fm'\left(\frac{y'-y}{\delta^3}-\frac{y'}{r'^3}\right), \quad (1)$$

burada f - qravitasiya sabiti, r və r' - P və P' cisimlərinin radius-vektorları, x,y və x',y' - uyğun olaraq həmin cisimlərin düzbucaqlı koordinatlarıdır. Bundan əlavə

$$x'=r'\cos v',\ y'=r'\sin v' \quad (2)$$

və

$$\delta^2=r^2+r'^2-2rr'\cos\gamma. \quad (3)$$

Sonuncu düsturda γ - r və r' radius-vektorları arasındakı bucaqdır:

$$\gamma=v+\omega-v'. \quad (4)$$

Burada ω - P cisminin perisentr arqumenti, v və v' - uyğun olaraq P və P' cisimlərinin həqiqi anomaliyalarıdır.

(1) tənliklərində x,y düzbucaqlı koordinitlarından

$$x = r\cos u, \quad y = r\sin u \qquad (5)$$

düsturlarının köməyi ilə r,u polyar koordinatlarına keçək. Burada $u = \omega + v$ - P cisminin enlik arqumentidir.

İstənilən tip məhdud üç cisim məsələsində r' radius vektoru

$$r' = \frac{p'}{1 + e'\cos v'} \qquad (6)$$

düsturu ilə təyin olunur, burada p', e' ilə P' cisminin uyğun olaraq orbit parametri və eksentrisiteti işarə edilmişdir. (2) və (5) düsturlarının köməyi ilə (1)-dən

$$\frac{d^2(r\cos u)}{dt^2} = -f\frac{m\cos u}{r^2} + fm'\left(\frac{r'\cos v' - r\cos u}{\delta^3} - \frac{\cos v'}{r'^2}\right),$$

$$\frac{d^2(r\sin u)}{dt^2} = -f\frac{m\sin u}{r^2} + fm'\left(\frac{r'\sin v' - r\sin u}{\delta^3} - \frac{\sin v'}{r'^2}\right),$$

buradan da

$$\frac{d^2r}{dt^2}\cos u - 2\frac{dr}{dt}\frac{du}{dt}\sin u - r\cos u\left(\frac{du}{dt}\right)^2 - r\sin u\frac{d^2u}{dt^2} =$$

$$-f\frac{m\cos u}{r^2} + fm'\left(\frac{r'\cos v' - r\cos u}{\delta^3} - \frac{\cos v'}{r'^2}\right),$$

$$\frac{d^2r}{dt^2}\sin u + 2\frac{dr}{dt}\frac{du}{dt}\cos u - r\sin u\left(\frac{du}{dt}\right)^2 + r\cos u\frac{d^2u}{dt^2} =$$

$$-f\frac{m\sin u}{r^2} + fm'\left(\frac{r'\sin v' - r\sin u}{\delta^3} - \frac{\sin v'}{r'^2}\right), \qquad (7)$$

alırıq. (7) tənliklərini uyğun olaraq əvvəlcə $-\sin u, \cos u$ - ya, sonra da $\cos u, \sin u$ - ya vurub və hər dəfə alınan nəticələri toplasaq, aşağıdakı iki bərabərliyi taparıq:

$$2\frac{dr}{dt}\frac{du}{dt}+r\frac{d^2u}{dt^2}=fm'\left[\frac{r'\sin(v'-u)}{\delta^3}-\frac{\sin(v'-u)}{r'^2}\right],$$

$$\frac{d^2r}{dt^2}-r\left(\frac{du}{dt}\right)^2=-f\frac{m}{r^2}+fm'\left[\frac{r'\cos(v'-u)-r}{\delta^3}-\frac{\cos(v'-u)}{r'^2}\right]. \quad (8)$$

(8) tənliklərində t zamanından v' həqiqi anomaliyasına keçək. Bunun üçün onların diferensiallarını əlaqələndirən

$$dt=\frac{r'^2}{\sqrt{f(m+m')p'}}dv' \quad (9)$$

münasibətindən istifadə edək. Bu halda (3) düsturunu da nəzərə alsaq alarıq:

$$2p'(m+m')r'^{-4}\left[\frac{dr}{dv'}\frac{du}{dv'}+r\left(\frac{1}{2}\frac{d^2u}{dv'^2}-\frac{e'\sin v'}{1+e'\cos v'}\frac{du}{dv'}\right)\right]=$$

$$m'\sin(v'-u)\left[\frac{r'}{\left(r'^2+r^2-2rr'\cos\gamma\right)^{3/2}}-\frac{1}{r'^2}\right]; \quad (10)$$

$$p'(m+m')r'^{-4}\left[\frac{d^2r}{dv'^2}-\frac{2e'\sin v'}{1+e'\cos v'}\frac{dr}{dv'}-r\left(\frac{du}{dv'}\right)^2\right]=$$

$$-\frac{m}{r^2}+m'\left[\frac{r'\cos(v'-u)-r}{\left(r'^2+r^2-2rr'\cos\gamma\right)^{3/2}}-\frac{\cos(v'-u)}{r'^2}\right]. \quad (11)$$

Beləliklə, P cisminin r,u polyar koordinatlarının tapılması məsələsi (10) və (11) tənliklərinin birgə həllinə gətirilir. İndi bu tənliklərin xüsusi həllərinə baxaq.

L_1 həlli: Tutaq ki, $r < r', u = v'(\gamma = 0)$. Onda (10) və (11) tənlikləri

$$2p'(m+m')r'^{-4}\left(\frac{dr}{dv'} - r\frac{e'\sin v'}{1+e'\cos v'}\right) = 0, \qquad (12)$$

$$p'(m+m')r'^{-4}\left(\frac{d^2r}{dv'^2} - \frac{2e'\sin v'}{1+e'\cos v'}\frac{dr}{dv'} - r\right) =$$

$$-\frac{m}{r^2} + m'\left[\frac{1}{(r'-r)^2} - \frac{1}{r'^2}\right] \qquad (13)$$

şəklinə düşər. (12) tənliyindən

$$\frac{dr}{r} = -\frac{d(1+e'\cos v')}{1+e'\cos v'}$$

tapırıq, buradan da inteqrallayaraq

$$r = \frac{c'}{1+e'\cos v'} \qquad (14)$$

alırıq, burada c' – inteqrallama sabitidir.

(6) və (14)-ü (13) tənliyində nəzərə alsaq və bəzi çevirmələr aparsaq c'-ə görə aşağıdakı tənliyi alarıq:

$$(m+m')c'^5 - (2m+3m')p'c'^4 + (m+3m')p'^2c'^3 - mp'^3c'^2 + 2mp'^4c' - mp'^5 = 0. \qquad (15)$$

Əgər (15)-də

$$c' = kp' \qquad (16)$$

əvəzləməsini aparsaq, onda k

$$(m+m')k^5 - (2m+3m')k^4 + (m+3m')k^3 - mk^2 + 2mk - m = 0 \qquad (17)$$

tənliyindən təyin olunar. Buradan isə

$$\frac{m}{m'} = \frac{-k^3\left(k^2 - 3k + 3\right)}{\left(k^2 + k + 1\right)(k-1)^3} \qquad (18)$$

tapırıq. (18)-dən göründüyü kimi k yalnız

$$0 < k < 1 \qquad (19)$$

aralığında qiymətlər ala bilər, belə ki, m və m' - sıfırdan fərqli sonlu kütlələrdir. Xüsusi halda $m = m'$ olduqda $k = 0{,}5$ tapırıq.

Beləliklə biz P_0 və P' nöqtələri arasında yerləşən $L_1(v', r)$ librasiya nöqtəsini alırıq ki, burada r

$$r = \frac{kp'}{1 + e'\cos v'} \qquad (20)$$

bərabərliyi ilə təyin olunur.

Bu halda L_1 və P' nöqtələri arasında məsafə

$$\left|L_1P'\right| = \frac{(1-k)p'}{1 + e'\cos v'} \qquad (21)$$

olur.

L_2 həlli: Tutaq ki, $r > r', u = v'(\gamma = 0)$. Burada da L_1 halında olduğu kimi (10) tənliyindən r üçün (14) düsturunu alırıq. Lakin, bu halda (11) tənliyi

$$p'(m+m')r'^{-4}\left(\frac{d^2r}{dv'^2} - \frac{2e'\sin v'}{1+e'\cos v'}\frac{dr}{dv'} - r\right) =$$

$$-\frac{m}{r^2} - m'\left[\frac{1}{\left(r' - r\right)^2} + \frac{1}{r'^2}\right] \qquad (22)$$

şəklində olar.

(6) və (14) düsturlarının köməyi ilə (22)-dən k-ya nəzərən

$$(m+m')k^5 - (2m+3m')k^4 + (m+3m')k^3 - (m+2m')k^2 + 2mk - m = 0$$

(23)

tənliyi alınır, burada (16) əvəzləməsindən istifadə edilmişdir. Bu tənlikdən

$$\frac{m}{m'} = \frac{-k^2\left(k^2-k+1\right)\left(k-2\right)}{\left(k^2+k+1\right)\left(k-1\right)^3}$$

(24)

alırıq.

Kütlələrin m/m' nisbəti müsbət ədəd olduğundan (24)-dən alınır ki,

$$1 < k < 2 . \qquad (25)$$

Kütlələr bərabər olduqda isə $k = 1{,}69840614$ alırıq.

Beləliklə biz $L_2(v', r)$ librasiya nöqtəsini tapırıq ki, burada P' nöqtəsi P_0 və L_2 nöqtələri arasında yerləşir, r koordinatı isə (25) münasibəti nəzərə alınmaqla (20) düsturu ilə verilir. Bu halda L_2 və P' nöqtələri arasındakı məsafə

$$\left|L_2P'\right| = \frac{(k-1)p'}{1+e'\cos v'} \qquad (26)$$

düsturu ilə təyin olunur.

L_3 halli: Tutaq ki, $u = v' + 180^c \left(\gamma = 180^\circ\right)$. Əvvəlki iki halda olduğu kimi (10) tənliyini həll etməklə r üçün yenə də (14) ifadəsini alırıq. (11) tənliyi isə çevrilərək aşağıdakı şəklə düşür:

$$p'(m+m')r'^{-4}\left(\frac{d^2r}{dv'^2} - \frac{2e'\sin v'}{1+e'\cos v'}\frac{dr}{dv'} - r\right) =$$

$$-\frac{m}{r^2} - m'\left[\frac{1}{\left(r'+r\right)^2} - \frac{1}{r'^2}\right] \qquad (27)$$

(6) və (14) düsturlarını (27)-də nəzərə alsaq və $c' = kp'$ əvəz etsək

$$(m+m')k^5+(2m+3m')k^4+(m+3m')k^3-mk^2-2mk-m=0$$
(28)

tənliyini, buradan da

$$\frac{m}{m'}=\frac{-k^3\left(k^2+3k+3\right)}{\left(k^2+k+1\right)(k-1)(k+1)^2} \quad (29)$$

tapırıq. Analoji mühakimə ilə k parametri $0<k<1$ aralığında dəyişir. Xüsusi halda $m=m'$ olduqda $k=0{,}698406\,14$ alırıq.

Bu halda $L_3\left(v'+180^\circ,r\right)$ librasiya nöqtəsini tapırıq və P_0 nöqtəsi L_3 və P' nöqtələri arasında yerləşməklə L_3 nöqtəsinin P_0-dan olan məsafəsi

$$r=\frac{kp'}{1+e'\cos v'} \quad (30)$$

bərabərliyi ilə təyin olunur.

ÜÇBUCAQLI LAQRANJ HƏLLƏRİ

İndi tutaq ki, $r=r'$. Onda (4) və (6) düsturlarının köməyi ilə (10) və (11) tənlikləri aşağıdakı şəklə gətirilir:

$$(m+m')(1+e'\cos v')\frac{d^2u}{dv'^2}=-m'\sin\gamma\left\{\frac{1}{\left[2(1-\cos\gamma)\right]^{3/2}}-1\right\}, \quad (31)$$

$$(m+m')e'\cos v'-(m+m')(1+e'\cos v')\left(\frac{du}{dv'}\right)^2=-m-m'\left\{\frac{1}{2\left[2(1-\cos\gamma)\right]^{1/2}}+\cos\gamma\right\}.$$
(32)

(31) və (32) tənliklərində $\gamma=\pm60^\circ$ nəzərə alsaq, onlar eyni zamanda ödəniləcəkdir. Bu qiymətlər iki üçbucaqlı Laqranj həllərinə uyğun gəlir. Alınan xüsusi həllərə müvafiq olaraq P nöqtəsi P_0 və P' nöqtələri ilə birlikdə

bərabərtərəfli üçbucaq əmələ gətirən $L_4\left(v'+60^\circ, r\right)$ və $L_5\left(v'-60^\circ, r\right)$ librasiya nöqtələrindən birində yerləşməlidir.

Nəticə

Bu işdə məhdud üç cisim məsələsində polyar koordinatlarda verilmiş hərəkət tənliklərində asılı olmayan dəyişən olaraq zaman əvəzinə sarsıdıcı cismin həqiqi anomaliyası götürüldükdə Laqranj və Eyler xüsusi həllərinin tapılması haqqında məsələyə baxılır. Alınan beşinci dərəcəli tənliklərin çevrilməsi nəticəsində əsas cisimləri birləşdirən düz xətt üzərində kollinear librasiya nöqtələrinin vəziyyətini təyin edən parametrin dəyişmə aralığı sonlu kütlələrin nisbətindən asılı olaraq tapılır.

Ədəbiyyat:

1. Euler L. Theorie de la Lune. Paris, 1772.
2. Laplace P. Traite de Mechanique Celeste. Paris, 1799-1825.
3. Lagrange J. Essais sur le probleme des trois corps. Paris, 1772.
4. Маркеев А.П. Точки либрации в небесной механике и космодинамике. М.: Наука, 1978, 312 с.
5. Дубошин Г.Н. Небесная механика. Основные задачи и методы. М.: Наука, 1975, 800 с.

TAPDIQ HACIYEV
AMEA Naxçıvan Bölməsi
Batabat Astrofizika Rəsədxanası

KİÇİK SƏYYAR KORONOQRAF

Günəş tacının işığı təxminən tam Ayın işığına bərabərdir. Lakin Ayı gündüzlər müşaidə etmək olur, günəş tacını isə yox. Buna səbəb səmanın parlaqlığı və ya Yer atmosferində yaranan dağınıq işıqdır.

Günəş atmosferinin üst qatları son zamanlara qədər ancaq Günəş tutulmaları zamanı müşahidə edilirdi. Bu səbəbdən də Günəş tutulmaları Günəş tədqiqatlarında mühüm yer tutur.

Günəş tutulmalarının sadə həndəsi mə'nası qədimdən məlumdur və alimlər çox çalışdılar ki, teleskoplarda süni günəş tutulmaları yaratsınlar. Lakin teleskopun fokal müstəvisinə «süni Ay» qoymaqla tacı müşahidə etmək cəhdləri boşa çıxdı.

Nəhayət, 1930-cu ildə fransız alimi Bernar Lio diqqətlə dağınıq işıq mənbələrini araşdırır. Yer atmosferində dağınıq işıq Günəş işığının toz hissəciklərindən, su damcılarından və buz qırıntılarından səpilməsindən yaranır. Bu faktorları aradan qaldırmaq məqsədi ilə Lio dəniz səviyyəsindən 2900 m hündürlükdə astronomik stansiya üçün yer seçir. Teleskopun özündə isə dağınıq işıq, işıq şüaları optik hissələrdə əks olunanda, sınanda yaranır. Teleskopda dağınıq işığın əsas mənbəyi obyektivdir. Obyektiv şüşəsinin qeyri-bircins olması, səthinin ölçülərinin xətaları, obyektivin kənarında difraksiya - bunların hamısı dağınıq işıq mənbəyidir. Lio öz teleskopunda bir üzü müstəvi, digər üzü qabarıq olan birlinzlalı obyektiv götürür. «Süni Ay»dan sonra Lio sahə linzası adlanan obyektiv qoyur. Bu linza obyektivin xəyalını halqavari diafraqma üzərində qurur. Halqavari diafraqma, obyektivin kənarında difraksiya nəticəsində yaranan dağınıq işığı aradan götürür. Bundaq əlavə, obyektivin səthlərində bir neçə dəfə əks olunan işıq diafraqmanın mərkəzində toplanır. Bu işığı aradan qaldırmaq üçün Lio diafraqmanın mərkəzində balaca lövhə qoyur. Bü cür üssullarla Lio teleskopda yaranan dağınıq işığın miqdarını minimuma endirir. 1931-ci ildə Lio Günəş tacının kəsilməz spektrini müşahidə edir. Adi qırmızı işıq süzgəcindən istifadə edərək, o Günəş tacının fotoşəklini çəkir. Liodan əvvəl və Liodan sonra heç kəs bu cür müşahidələr edə bilməyib.

İ.A.Prokofyeva 1956-cı ildə Pulkovo rəsədxanasında Günəş tacının qırmızı və yaşıl xətlərinin spektrini alır. Prokofyeva Lio sistemini sadələşdirir. Onun teleskopunda "süni Ay»ı spektroqrafın yarığının bir üzü, sahə linzasını spektroqrafın kollimator güzgüsü, Lio diafraqmasını isə difraksiya qəfəsinin sağanaqı əvəz edir. Bu teleskop quruluşca

sadədir, optik hissələri minimuma endirilib, lakin dağınıq işıq nəzərə çarpacaq qədərdir. Bu cür teleskoplarda xromosferi, protuberansları, Günəş tacının parlaq emission xətlərini müşahidə etmk olar [1]. Ümumiyyətlə, sadələşdirilmiş koronoqraflarda ancaq spektral müşahidələr aparmaq olar.


Ən böyük koronoqraf 1966-cı ildə SSRİ-də quraşdırılıb. Teleskopun optik və mexanik sxemi Q. M.Nikolski və A.A.Sazanov tərəfindən hazırlanmışdır [2,3,4,5].

Günəş atmosferinin üst qatlarını tədqiq etmək üçün koronoqraf olduqca effektli cihazdır. Müəllif yerli şəraiti nəzərə alaraq, kiçik səyyar koronoqraf prinsipial sxemini işləyib hazırlamışdır. Bu teleskop klassik Lio koronoqrafından çox cuzi fərqlənir (şək. 1).

Teleskopun baş obyektivi (1) bir üzü müstəvi, digər üzü qabarıq linzadır. Linzanın diametri 110 mm, fokus məsafəsi 1600 mm-dir. Linzanın qabarıq üzü Günəşə tərəf yönəlib. Baş obyektiv Günəşin xəyalını «süni Ay» (2) üzərində qurur. «Süni Ay» metal konus olub oturacağının diametri 15 mm-dir. Beləliklə, «sün' Ay» Günəş diskindən gələn işıq şüalarının tam qarşısını ala bilir və elə əks etdirir ki, əks olunan şüalar baş obyektivin üzərinə düşməsin. «Süni Ay» sahə linzasının üzərinə yapışqanla yapışdırılır. Sahə linzası (3) "İndustar" tipli obyektivdir (30/140) və baş obyektivin xəyalını «süni Ay»dan 153.5 mm məsafədə halqavari diafraqma (4) üzərində qurur. Diafraqmanın daxili diametri 9-10 mm-dir. Diafraqmadan sonra kamera obyektivi (20/160) (5) qoyulmuşdur. Kamera obyektivi Günəş atmosferinin xəyalını işıq qəbuledicisi (6) üzərində qurur. Kamera obyektivi optik ox boyunca ± 50 mm hərəkət edə bilir. Bu zaman Günəşin xəyalının miqyası $\left(53833\frac{km}{mm} - 2320\frac{km}{mm}\right)$ arasında dəyişir.

Müqaisə üçün şəkildə həm də ŞDAİ-nin Alma-Ata yaxınlığında quraşdırdığı koronoqrafın optik sxemləri verilmişdir [5] . (1-baş ovyektiv, 2-süni Ay, 3-sahə linzası, 6-

Lio diafraqması.) ŞDAİ-in teleskopunda (4), (5) qurğuları vasitəsiilə «süni Ay»dan əks olunan işıq şuaları tutulur, ki bu şualar əlavə dağınıq işıq mənbəyi omasın. Bizim teleskopda belə qurğuya ehtiyac yoxdur.



Şək. 1

Ədəbiyyat:

1. *Прокофьева И.А.*, **Солнечные данные,** 1956,№2, с.119-122.
2. *Никольский Г.М., Сазанов А.А.*, **Астрономический журнал,** 1966, **43**, №4, с.868-872.
3. *Гневышев М.Н., Никольский Г.М., Сазанов А.А.*, **Природа,** 1967, №6, с.71-73.
4. *Сазанов А.А.*, **Вестник АН СССР**, 1967, №8, с.31-35.
5. *Никольский Г.М.*, **Земля и Вселенная**, 1967, №6, с.66-70.
6. *Делоне А.Б., Макарова Е.А., Курт В.Г.*, **Астрономический циркуляр,** 1959, 18, №203, с.3-4.

ƏLÖVSƏT DADAŞOV
AMEA Naxçıvan Bölməsi
Batabat Astrofizika Rəsədxanası

ORBİTLƏRARASI ƏN QISA MƏSAFƏNİN TAPILMASININ BİR HƏLLİ HAQQINDA

Heliosentrik orbitlərdə hərəkət edən iki səma cisminin toqquşmasının mümkünlüyü məsələsinin həllində orbitlərarası ən qısa məsafə (MOİD) parametrinin tapılması birinci

dərəcəli əhəmiyyətə malikdir. Bu parametr, konkret halda, Yer planeti üçün potensial təhlükəli kometlərin seçilməsində əsas kriteriya olaraq qəbul edilir [1].

MOİD parametrinin tapılması üçün bir sıra yarımanalitik və təqribi üsullar vardır [2]. Bunların bir çoxu yüksək tərtibli tənliklərin həllinə gətirilir ki, belə tənliklərin həll edilməsi xeyli çətinliklərlə bağlıdır. Bu işdə MOİD parametrini hesablamaq üçün fərqli bir üsuldan istifadə olunur.

Fəzada düzbucaqlı $Oxyz$ ekliptik koordinat sistemi götürək və bu sistemin z oxu ətrafında Ω, x oxu ətrafında isə i bucağı qədər dönməsinə baxaq. Bu zaman fəzanın hər hansı $f \circ g$ çevrilməsini alırıq.

Fəza koordinat sisteminin belə çevrilməsinin matrisi

$$\begin{pmatrix} \cos\Omega & -\sin\Omega & 0 \\ \cos i\sin\Omega & \cos i\cos\Omega & -\sin i \\ \sin i\sin\Omega & \sin i\cos\Omega & \cos i \end{pmatrix} \quad (1)$$

olar.

Bu çevrilmə nəticəsində tənliyi

$$z = 0 \quad (2)$$

olan ekliptika müstəvisi

$$Ax + By + Cz = 0 \quad (3)$$

müstəvisinə keçir. Burada A, B, C əmsalları (1) matrisinin üçüncü sətir element -ləridir.

Aydındır ki, (2) Yerin, (3) isə kometin orbit müstəvisidir.

İki həmfokus orbit arasındakı ən qısa məsafəni ilkin yaxınlaşmada bu orbitlərin müstəvilərinin kəsişdiyi düz xətt üzərində axtarmaq lazım gəldiyindən (2) və (3)-dən

$$\begin{cases} Ax + By + Cz = 0, \\ z = 0 \end{cases} \quad (4)$$

alırıq. Bu sistem fəzada kometin düyün nöqtələrindən keçən düz xəttin tənliyini təyin edir.

$Oxyz$ sistemində Yer orbitinin tənliyi

$$\begin{cases} \dfrac{(x-c)^2}{a^2}+\dfrac{y^2+z^2}{b^2}=1, \\ z=0, \end{cases} \qquad (5)$$

komet orbitinin tənliyi isə

$$\begin{cases} \dfrac{(x'-c')^2}{a'^2}+\dfrac{y'+z'}{b'^2}=1, \\ Ax+By+Cz=0 \end{cases} \qquad (6)$$

şəkildə olar, burada x', y', z' koordinatları x, y, z koordinatlarının xətti triqo- nometrik funksiyaları olmaqla (1) matrisi ilə tə'yin olunur, a, b və a', b' uyğun olaraq Yer və komet orbitinin böyük və kiçik yarım oxları, c və c' isə fokus məsafələridir.

(4) və (5)-dən

$$\begin{cases} \dfrac{(x-c)^2}{a^2}+\dfrac{y^2}{b^2}=1, \\ Ax+By=0, \end{cases} \qquad (7)$$

(4) və (6)-dan isə

$$\begin{cases} \dfrac{(x'-c')^2}{a'^2}+\dfrac{y'^2}{b'^2}=1, \\ Ax+By=0 \end{cases} \qquad (8)$$

tənliklər sistemini alırıq.

Göründüyü kimi, bu tənliklər siteminin hər biri ikidərəcəli tənlikdir və asanlıqla həll olunurlar. Bunları həll edərək hər bir sitem üçün (4) düz xətti üzərində yerləşən iki nöqtə tapırıq.

(7) tənliyinin kökləri $(x_1; y_1)$, $(x_2; y_2)$, (8) tənliyinin kökləri isə $(x_1'; y_1'), (x_2'; y_2')$ olsun. Onda

$$d_1=\sqrt{(x_1'-x_1)^2+(y_1'-y_1)^2}$$

və

$$d_2=\sqrt{(x_2'-x_2)^2+(y_2'-y_2)^2}$$

məsafələrindən $\min(d_1;d_2)$-ni seçməklə axtardığımız MOİD= $\min(d_1;d_2)$ parametrini tapmış oluruq.

Şərh olunan metodla 20-dən artıq komet üçün MOİD parametri hesablanmış və [3] kataloqunda verilən uyğun nəticələrlə müqayisə aparılaraq bu metodun kifayət qədər etibarlı olduğu aşkar edilmişdir.

Qeyd edək ki, metod elliptik orbitlər üçün işlənmişdir. (5) və (6) tənliklərində dəyişiklik aparmaqla bu üsuldan parabolik və hiperbolik kometlər üçün də istifadə etmək olar.

Ədəbiyyat:

1. Труды ИПА РАН, вып. 9, С-Петербург, 2003.
2. *Sitarski G.* Approaches of parabolic komet to the outer planets. Acta Astronomika, v.18, p. 171-195.
3. *T.A.Vinogradova, V.A.Shor.* Catalogue of potentially hazardous asteroids and komets, S-Peterburg, 2003.

SADIQ VƏLİYEV
Naxçıvan Müəllimlər İnstitutu

ÇIRLAŞAN ƏMSALLI EKSPONENTLƏR SİSTEMİNİN HİLBERT BAZİSLİYİ

Çırlaşan ω(t) əmsallı aşağıdakı eksponentlər sisteminə baxaq:

$$\left\{A^{+}(t)\omega(t)e^{int};\quad A^{-}(t)\omega(t)e^{-i(n+1)t}\right\}_{n\geq 0}, \qquad (1)$$

Burada $A^{\pm}(t)\equiv\left|A^{\pm}(t)\right|e^{i\alpha^{\pm}(t)}$ – $[-\pi;\pi]$ – seqmentində kompleks qiymətli funksiyadır; ω(t) – isə aşağıdakı kimi ifadə olunmuşdur:

$$\omega(t)\equiv\prod_{i=1}^{t}\left\{\sin\left|\frac{t-\tau_i}{2}\right|\right\}^{\beta_i} \qquad (2)$$

$\{\tau_i\}\subset(-\pi;\pi)$; $\{\beta_i\}\subset R$ – hər hansı həqiqi ədədlər çoxluğudur.

İşdə (1) sisteminin L_2 Helbert fəzasında Riss bazisliyinə baxılmışdır. Bu məsələ $\left\{\frac{1}{\sqrt{2\pi}}t(x)e^{inx}\right\}_{-\infty}^{+\infty}$ şəklində eksponentlər sisteminə nəzərən V.F.Qapoşkinin [1] və K.İ.Babenkonun [2] işlərində tədqiq olunmuşdur.

Tutaq ki, $A^{\pm}(t)$ və ω(t) funksiyaları aşağıdakı şərtləri ödəyirlər:

1) $\alpha^{\pm}(t)-[-\pi;\pi]-$ parçasında hissə-hissə Hölder funksiyalarıdır, $\{s_i\}_1^r-$ isə $\theta(t)\equiv\alpha^-(t)-\alpha^+(t)$ funksiyasının (-π;π) intervalında kəsilmə nöqtələri çoxluğudur.

2) $|A^{\pm}(t)|-(-\pi;\pi)$ intervalında ölçülən funksiyalardır, həmçinin aşağıdakı şərti ödəyirlər:

$$\sup_{(-\pi;\pi)} vrai\left\{|A^+(t)|^{\pm1};\quad |A^-(t)|^{\pm1}\right\}\le M<+\infty.$$

3) $\{\tau_i\}_1^\ell$ və $\{s_i\}_1^r$ çoxluqları kəsişmirlər, yəni

$$\{\tau_i\}_1^\ell\cap\{s_i\}_1^r=\varnothing.$$

$\{h_i\}_1^r$- ilə θ(t) funksiyasının s_i $i=\overline{(1,r)}$ nöqtələrində sıçrayışlarını işarə edək, yəni

$$h_i=\theta(s_i+0)-\theta(s_i-0),\qquad i=\overline{1,r}$$

Aşağıdakı teorem doğrudur.

Teorem. Fərz edək ki, $A^{\pm}(t)$ və ω(t) funksiyaları 1)-3) şərtlərini ödəyirlər. Onda

$$-\frac{1}{2}<\beta_i<\frac{1}{2},\quad i=\overline{1,\ell}$$

$$-\pi<h_k<\pi,\quad k=\overline{1,r+1}$$

şərtləri ödənildikdə (1) sistemi L_2 fəzasında onda və yalnız onda Riss bazisi təşkil edər ki, $\beta_i = 0 \quad (i = \overline{1, \ell})$ olsun. Burada $h_{r+1} = \theta(-\pi + 0) - \theta(\pi - 0)$.

İsbatı. Əvvəlcə aşağıdakı eksponentlər sisteminə baxaq:

$$\left\{A^+(t) \cdot e^{int};\quad A^-(t)e^{ikt}\right\}_{n\geq 0, k\geq 1} \tag{3}$$

Teoremin şərtlərindən və B.T.Bilalovun [3] işindən alırıq ki, (3) sistemi L_2 fəzasında Riss bazisi təşkil edir. $\left\{e_n^+(t); e_k^-(t)\right\}_{n\geq 0, k\geq 1}$ - ilə (3) sisteminə biortoqonal sistemi işarə edək, yəni

$$\int_{-\pi}^{\pi} A^+(t)e^{int} \cdot \overline{e_m^+(t)}dt = \delta_{nm},$$

$$\int_{-\pi}^{\pi} A^+(t)e^{int} \cdot \overline{e_m^-(t)}dt = 0,$$

$$\int_{-\pi}^{\pi} A^-(t)e^{-int} \cdot \overline{e_m^-(t)}dt = \delta_{nm},$$

$$\int_{-\pi}^{\pi} A^-(t)e^{-int} \cdot \overline{e_m^+(t)}dt = 0$$

Burada, δ_{nm} - Kroneker simvoludur.

[3] – işindən alınır ki, $e_n^{\pm}(t)$ funksiyaları $\tau_i \quad (i = \overline{1, \ell})$ nöqtələrinin kafi kiçik ətrafında hər yerdə $\left|e_n^{\pm}(t)\right| \geq \delta > 0$ şərtini ödəyirlər. Buna görə də (1) sistemi L_2 fəzasında minimaldır və ona biortoqonal sistem aşağıdakı şəkildədir:

$$H_n^+(t) \equiv \frac{e_n^+(t)}{\omega(t)}, \quad n \geq 0; \qquad H_n^-(t) \equiv \frac{e_k^-(t)}{\omega(t)} \quad k \geq 1$$

İndi əvvəlcə fərz edək ki, $i_0 \in \{1,\ldots,\ell\}$ nömrəsi var ki, $\beta_{i_0} > 0$ olur. Onda L_2 fəzasında $f(t)$ funksiyası var ki, onun üçün $\frac{f(t)}{\omega(t)}$ nisbəti L_2 fəzasına daxil deyildir. (3) sisteminə görə

$F(t) \equiv \dfrac{f(t)}{\omega(t)}$ funksiyasının biortoqonal əmsallarını $\left\{a_n^+; a_k^-\right\}_{n\geq 0, k\geq 1}$ - ilə işarə edək.

Onda (3) sisteminin L_2 fəzasında Riss bazisliyindən alarıq ki,

$$\sum_n \left|a_n^+\right|^2 + \left|a_n^-\right|^2 = +\infty$$

sırası dağılandır. Digər tərəfdən $\left\{a_n^{\pm}\right\}$ ədədləri f(t) funksiyasının (1) sisteminə görə biortoqonal əmsallarıdır, yəni

$$a_n^{\pm} = \int_{-\pi}^{\pi} F(t)\cdot \overline{e_n^{\pm}(t)}dt = \int_{-\pi}^{\pi} f(t)\overline{H_n^{\pm}(t)}dt$$

Beləliklə, nəticədə alırıq ki, bu halda (1) sistemi Bessel bazisi deyil. Deməli, L_2 fəzasında Riss bazisi də deyildir.

İndi fərz edək ki,

$$\sum_n \left|a_n^+\right|^2 + \left|a_n^-\right|^2 < +\infty$$

sırası hər hansı $\left\{a_n^+; a_{n+1}^-\right\}_{n\geq 0}$ ədədlər ardıcıllığı üçün yığılır.

(3) sistemi L_2 fəzasında Riss bazisi təşkil etdiyindən, L_2 fəzasından elə F(t) funksiyası var ki, onun üçün $\left\{a_n^{\pm}\right\}$ ədədlər ardıcıllığı bu funksiyanın (3) sisteminə görə biortoqonal əmsallarıdır. Yəni

$$a_n^{\pm} = \int_{-\pi}^{\pi} F(t)\cdot \overline{e_n^{\pm}(t)}dt$$

F(t)·ω(t) hasilini f(t) ilə işarə etsək alarıq:

$$a_n^{\pm} = \int_{-\pi}^{\pi} f(t)\overline{H_n^{\pm}(t)}dt$$

Tamamilə aşkardır ki, əgər $\forall i = \overline{1,\ell}$ üçün $\beta_i \geq 0$ olarsa, onda $f(t)$ funksiyası L_2 fəzasına daxil olar. $H_n^{\pm} \equiv \frac{e_n^{\pm}(t)}{\omega(t)}$ ifadəsindən çıxır ki, $\left\{H_n^{\pm}(t); H_{n+1}^{-}(t)\right\}_{n\geq 0}$ sistemi L_2 fəzasına daxildir.

Göstərək ki, bu cür funksiya yeganədir. Teoremin şərtindən çıxır ki, $[\omega(t)]^{-1}$ funksiyası L_2 fəzasına daxildir. Fərz edək ki, L_2 fəzasına daxil olan başqa $f_0(t)$ funksiyası var ki,

$$a_n^{\pm} = \int_{-\pi}^{\pi} f_0(t)\overline{H_n^{\pm}(t)}dta_n^{\pm} = \int_{-\pi}^{\pi} F_0(t)\cdot\overline{e_n^{\pm}(t)}dt$$

Burada $F_0(t) = \frac{f_0(t)}{\omega(t)}$. Aşkardır ki, bu funksiya $L_1(-\pi,\pi)$ fəzasına daxildir. (3) sisteminin L_2 fəzasında Riss bazisliyindən alırıq ki, ona biortoqonal $\left\{e_n^{+}(t); e_{n+1}^{-}(t)\right\}_{n\geq 0}$ sistemi L_2 fəzasında tamdır. Nəticədə alırıq ki, bu sistem $L_1 \equiv L_1(-\pi,\pi)$ fəzasında tamdır.

Beləliklə alırıq ki,

$$0 = \int_{-\pi}^{\pi}\left[F(t) - F_0(t)\right]\overline{e_n^{\pm}(t)}dt, \qquad \forall n$$

Bu münasibətdən alırıq ki, $F(t)=F_0(t)$ və $f(t)= f_0(t)$.

Nəticədə alırıq ki, $\beta_i \geq 0$, $\forall i = \overline{1,\ell}$ şərti ödənildikdə (1) sistemi L_2 fəzasında Hilbert bazisi təşkil edir.

Hər hansı $i_0 \in \{1,\ldots,\ell\}$ nömrəsi üçün $\beta_{i_0} < 0$ halına baxaq. Onda L_2 fəzasından elə $F(t)$ funksiyası var ki, $F(t)\cdot\omega(t)$ hasili L_2 fəzasına daxil deyildir. Fərz edək ki, $\left\{a_n^{\pm}\right\}$ ədədləri $F(t)$ funksiyasının (3) sisteminə görə biortoqonal əmsallarıdır:

$$a_n^{\pm} = \int_{-\pi}^{\pi} F(t)\cdot\overline{e_n^{\pm}(t)}dt$$

(3) sisteminin L_2 fəzasında Riss bazisliyindən alırıq ki,

$$\sum_n \left|a_n^+\right|^2 + \left|a_n^-\right|^2 < +\infty$$

sırası yığılır. F(t)·ω(t) hasilini $f(t)$ ilə işarə etsək, alarıq ki, $\left\{a_n^{\pm}\right\}$ ədədləri bu funksiyanın (1) sisteminə görə biortoqonal əmsallarıdır:

$$a_n^{\pm} = \int_{-\pi}^{\pi} f(t)\overline{H_n^{\pm}(t)}dt$$

Eynilə $\left\{e_n^+(t); e_{n+1}^-(t)\right\}_{n\geq 1}$ sisteminin L_1 fəzasında tamlığından və $f(t)$ funksiyasının bu fəzaya daxil olmasından alırıq ki, bu cür $f(t)$ funksiyası yeganədir. Nəticədə baxdığımız halda (1) sistemi Hilbert sistemi deyildir və beləliklə, L_2 fəzasında Riss bazisi təşkil etmir.

Fərz edək ki, $\beta_i \leq 0, \forall i$. L_2 fəzasından istənilən $f(t)$ funksiyasını götürək. Aşkardır ki, $\frac{f(t)}{\omega(t)} \equiv F(t)$ funksiyası L_2 fəzasına daxildir. (3) sisteminin L_2 fəzasında Riss bazisliyindən alırıq ki,

$$\sum_n \left|a_n^+\right|^2 + \left|a_n^-\right|^2 < +\infty$$

Burada, $\left\{a_n^{\pm}\right\}$ ədədləri F(t) funksiyasının (3) sisteminə görə biortoqonal əmsallarıdır:

$$a_n^{\pm} = \int_{-\pi}^{\pi} f(t)\overline{H_n^{\pm}(t)}dt$$

Digər tərəfdən $\left\{a_n^{\pm}\right\}$ ədədləri $f(t)$ funksiyasının (1) sisteminə görə biortoqonal əmsallarıdır. Bu halda (1) sistemi L_2 fəzasında Bessel bazisi təşkil edir.

Teorem isbat olundu.

Bu teoremdən aşağıdakı nəticələr alınır.

Nəticə 1. Fərz edək ki, $A^{\pm}(t)$ və $\omega(t)$ funksiyaları 1)-3) şərtlərini ödəyirlər və aşağıdakı bərabərsizliklər ödənilir:

$$-\pi<h_k<\pi,\quad k=\overline{1,r+1},\qquad |\beta_i|<\frac{1}{2},\quad i=\overline{1,\ell}$$

Burada $h_{r+1}=\theta(-\pi+0)-\theta(\pi-0)$. (1) sistemi L_2 fəzasında onda və ancaq onda Hilbert bazisi təşkil edər ki, $\beta_i \geq 0, \forall i$ olsun.

Nəticə 2. Fərz edək ki, teoremin bütün şərtləri ödənilir. (1) sistemi L_2 fəzasında onda və ancaq onda Bessel bazisi təşkil edər ki, $\beta_i \leq 0, \forall i$ olsun.

Ədəbiyyat:

1. В.Ф.Гапошкин, Одно обобщение теоремы М.Рисса о сопрятенных функциях, Математический сборник, Т.46(88),№3 (1958) 359-372.
2. К.И.Бабенко, О сопряженных функциях, ДАН СССР, Т.62, №2 (1948), 157-160.
3. Б.Т.Билалов, Базисность некоторых систем экспонент, косинусов и синусов, Дифференц. Уравнения, Т.26. №1 (1990), 10-16.

RÖVŞƏN HƏSƏNOV

Naxçıvan Dövlət Universiteti

BAŞLANĞIC GƏRGİNLİKLİ YARIMMÜSTƏVİ ÜÇÜN DÖVRİ MƏSƏLƏ
(xüsusi elastiki potensiallar)

[2]-də başlanğıc gərginlikli elastiki yarımmüstəvi üçün dövri məsələ (bərabər olmayan köklər halı) ümumi şəkildə həll edilmişdir. Təqdim olunan işdə xüsusi elastiki potensiallar üçün həmin məsələ konkret nəticələr alınmaqla həll edil mişdir.

1.[3,(1.63)] şəklində elastiklik münasibətləri.

Bu münasibətlər fiziki xətti elastiki sıxılan ortotrop cismə aid edilir, xəttiləş miş elastiklik nəzəriyyəsinin kiçik başlanğıc deformasiyalar nəzəriyyəsinin ikinci variantına tədbiq edilir.Burada μ_j - köklərini təyin etmək üçün tənlik [3,

(2.164)] şəklindədir; ümumi halda bərabər olmayan köklər alınır. [3,(2.190)-(2.196)]-dəni başlanğıc gərginliklər olmadıqda [4]-dəki kompleks parametrlər alınır. Bundan başqa[3, (2.195)] –dən

$$\gamma_{21}^{(j)}=1,\ \gamma_{11}^{(j)}=1 \qquad (1)$$

alınır. $\mathrm{Re}\,\mu_j=0$ olduğunu nəzərə alaraq, [2]-dən $\varphi_1(\xi)$ və $\varphi_2(\xi)$ funksiyaları və gər ginliklər üçün alarıq:

$$\varphi_1(\xi)=\frac{1}{4\pi i(\mu_1-\mu_2)}\int_\gamma[\mu_2 p(\sigma)+t(\sigma)\ ]\frac{\sigma+\xi}{\sigma-\xi}\frac{d\sigma}{\sigma}+\lambda_1;$$

$$\varphi_2(\xi)=-\frac{1}{4\pi i(\mu_1-\mu_2)}\int_\gamma[\mu_1 p(\sigma)+t(\sigma)\ ]\frac{\sigma+\xi}{\sigma-\xi}\frac{d\sigma}{\sigma}+\lambda_2; \quad (2)$$

$$\tilde{Q}_{11}^0=\sigma_x^0=2\alpha_0(\mathrm{Re}\,\mu_1\,\mathrm{Im}\,\mu_2+\mathrm{Re}\,\mu_2\,\mathrm{Im}\,\mu_1)-2\beta_0(\mathrm{Im}\,\mu_1+\mathrm{Im}\,\mu_2)$$

;

$$\tilde{Q}_{21}^0=\tilde{Q}_{12}^0=\sigma_{xy}=0 \qquad (3)$$

(3)-dən alınır:

$$\beta_0=-\frac{\tilde{Q}_{11}^0}{2(\mathrm{Im}\,\mu_1+\mathrm{Im}\,\mu_2)}$$

və ya [2]-dən

$$\lambda_1=-\frac{i\tilde{Q}_{21}^0}{2(\mathrm{Im}\,\mu_1+\mathrm{Im}\,\mu_2)(\mu_1-\mu_2)},$$

$$\lambda_2=\frac{i\tilde{Q}_{21}^0}{2(\mathrm{Im}\,\mu_1+\mathrm{Im}\,\mu_2)(\mu_1-\mu_2)}, \qquad (4)$$

sonra

$$\varphi_1(0)=\frac{1}{2\ l(\mu_1-\mu_2)}(\mu_2 p+T),\varphi_2(0)=\frac{-1}{2e(\mu_1-\mu_2)}(\mu_1 p+T); \quad (5)$$

$$\tilde{Q}_1^*=\sigma_x^*=-\mathrm{Im}\,\mu_1\,\mathrm{Im}\,\mu_2\frac{p}{l} \qquad (6)$$

Bu ifadələr [4]-dəki həllər əsasında alınmış [1,(3.7),(3.9),(3-10),(3-13)] ifadələr ilə tamamilə üst-üstə düşür.

Beləliklə,alınmış nəticələr başlanğıc gərginliklər olmadıqda xətti- elastiki ortatrop cisimlər üçün uyğun nəticələrə [1] keçir.

2.[3,(1-46)] şəklində potensial.

Bu halda kiçik başlanğıc deformasiyalar nəzəriyyəsinin ikinci variantı çərçivəsində $\mathrm{Re}\,\mu_j = 0$ olduqda qeyri-bərabər köklər alınır. Nəzərə alaq ki, olduqca bərk materiallar üçün

$$\frac{\sigma_{11}^0}{\lambda+2\mu} \ll 1, \quad \frac{\sigma_{11}^0}{\mu} \ll 1 \qquad (7)$$

bərabərsizlikləri doğruldur, burada λ və μ Lyame sabitləridir. [3.(3.40)] –dan istifadə edərək [2]-dəki A,B,C,və D kəmiyyətləri tapılırlar. Müəyyən çevrilmələr dən sonra $\tilde{Q}_{11}^0, \tilde{Q}_{12}^0, \lambda_1, \lambda_2, \tilde{Q}_{11}^*$ və $\tilde{Q}_{12}^*$ üçün ifadələr alınır. Belə ki,

$$\tilde{Q}_{11}^0 = -2\frac{2-\dfrac{\sigma_{11}^0}{2\mu}\dfrac{\lambda}{1+\mu}}{1+\dfrac{\sigma_{11}^0}{2\mu}\dfrac{\mu^2-\lambda(\lambda+2\mu)}{2(\lambda+\mu)(\lambda+2\mu)}}; \qquad (3')$$

$$\tilde{Q}_{12}^0 = 2\frac{\dfrac{\sigma_{11}^0}{2\mu}\dfrac{\lambda+2\mu}{\lambda+\mu}}{1+\dfrac{\sigma_{11}^0}{2\mu}\dfrac{\mu^2-\lambda(\lambda+2\mu)}{2(\lambda+\mu)(\lambda+2\mu)}}$$

$$\lambda_1 = \frac{\dfrac{\sigma_{11}^0}{2\mu}\cdot\dfrac{\lambda+2\mu}{\lambda+\mu}\dfrac{\lambda+2\mu}{\lambda+\mu}\,\tilde{Q}_{11}^0 + i\left[2-\dfrac{\sigma_{11}^0}{2\mu}\dfrac{2\lambda}{\lambda+\mu}+\left(\dfrac{\sigma_{11}^0}{2\mu}\right)^2\right]\tilde{Q}_{12}^0}{4\left(\dfrac{\sigma_{11}^0}{2\mu}\right)^2}; \qquad (4)'$$

$$\lambda_2 = -\frac{\frac{\sigma_{11}^0}{2\mu}\frac{\lambda+2\mu}{\lambda+\mu}\tilde{Q}_{11}^0 + i\left[2 - \frac{\sigma_{11}^0}{2\mu}2\cdot\frac{(\lambda+\mu)^2+\lambda(\lambda+2\mu)}{(\lambda+\mu)(\lambda+2\mu)} + \left(\frac{\sigma_{11}^0}{2\mu}\right)^2\frac{4(\lambda+\mu)^2+\mu(2\lambda-\mu)}{(\lambda+2\mu)^2}\right]\tilde{Q}_{12}^0}{4\left(\frac{\sigma_{11}^0}{2\mu}\right)^2}$$

[3,(3,40)] münasibətlərinə əsasən [2]-dəki ifadələr üçün tapırıq:

$$\mu_2\gamma_{21}^{(2)} - \mu_1\gamma_{21}^{(2)} = i\left(\frac{\sigma_{11}^0}{2\mu}\right)^2\left[\frac{\lambda+\mu}{\lambda+2\mu} + \frac{\sigma_{11}^0}{2\mu}\frac{\mu^2-\lambda(\lambda+2\mu)}{2(\lambda+2\mu)^2}\right];$$

(8)

$$\gamma_{21}^{(2)}\mu_2 = i\left[1+\frac{1}{8}\left(\frac{\sigma_{11}^0}{\mu}\right)^2\right];\gamma_{21}^{(1)}\mu_2 = i\left[1-\frac{1}{2}\cdot\frac{\sigma_{11}^0}{\mu}\frac{\lambda+\mu}{\lambda+2\mu}+\frac{1}{8}\left(\frac{\sigma_{11}^0}{\mu}\right)^2\frac{3\mu^2+6\lambda\mu+2\lambda^2}{(\lambda+2\mu)^2}\right];$$

(8)-i [2]-də nəzərə almaqla $\varphi_1(0)$ və $\varphi_2(0)$ təyin edilir.

Nəhayət, sonsuzluqda gərginliklərin $\tilde{Q}_{11}^*$, Q_{12}^* komponentləri üçün alırıq:

$$\tilde{Q}_{11}^* = \frac{1+\frac{\sigma_{11}^0}{2\mu}\frac{2\lambda+5\mu}{2(\lambda+2\mu)}}{1+\frac{\sigma_{11}^0}{2\mu}\frac{\mu^2-\lambda(\lambda+2\mu)}{2(\lambda+\mu)(\lambda+2\mu)}}\frac{p}{l};\tilde{Q}_{12}^* = -\frac{T}{l}$$

(6′)

3. Treloar potensialı [3,(1,39)]

Treloar potensiallı sıxılmayan cismin müstəvi deformasiyası halında bəra bər olmayan köklər alınır.[3,(2.145)] kompleks potensiallarla işarə edilmiş ifadələ rə daxil olan kəmiyyətlər [3,(2.183),(2.184)] münasibətləri ilə verilirlər:

$$\mu_1 = i\ ;\mu_2 = i\lambda_1\lambda_2^{-1};$$

$$\gamma_{11}^{(1)} = \gamma_{21}^{(1)} = 2\lambda_2^2\left(\lambda_1^2+\lambda_2^2\right)^{-1};\quad \gamma_{11}^{(2)} = \gamma_{21}^{(2)} = \left(2\lambda_1^2\right)^{-1}\left(\lambda_1^2+\lambda_2^2\right);$$

$$\gamma_1^{\,1} = -(2C_{10})^{-1}\left(\lambda_1^{\,2} + \lambda_2^{\,2}\right)^{-1}; \quad \gamma_1^{\,2} = -\left(4C_{10}\lambda_2^{\,2}\right)^{-1}; \tag{9}$$

$$\gamma_2^{\,1} = -i(2C_{10})^{-1}\left(\lambda_1^{\,2} + \gamma_2^{\,2}\right)^{-1}; \quad \gamma_2^{\,(2)} = -i(4C_{10}\lambda_1\lambda_2)^{-1}.$$

[2]-dəki bəzi kəmiyyətləri Treloar potensialı üçün hesablayırıq:

$$\mu_2\gamma_{21}^{\,(2)} - \mu_1\mu_{21}^{\,(2)} = i\frac{\left(\lambda_1^{\,2} + \lambda_2^{\,2}\right)^2 - 4\lambda_1\lambda_2^{\,2}}{2\lambda_1\lambda_2\left(\lambda_1^{\,2} + \lambda_2^{\,2}\right)}; \tag{10}$$

$$\mu_2\gamma_{21}^{\,(2)} = i\frac{\lambda_1^{\,2} + \lambda_2^{\,2}}{2\lambda_1\lambda_2}; \mu_1\gamma_{21}^{\,(1)} = i\frac{2\lambda_1^{\,2}}{\lambda_1^{\,2} + \lambda_2^{\,2}}.$$

Həmçinin A, B, C, D, A_1, A_2, B_1,B_2,C_1,C_2,D_1, D_2 üçün qiymətləri tapırıq. Onları [2]-də yerinə yazaraq $\tilde{Q}_{11}^0, \tilde{Q}_{12}^0, \lambda_1^0$ və λ_2^0 ([2]-dəki λ_1 və λ_2-ləri λ_1^0 və λ_2^0 ilə işarə edirik) kəmiyyətləri üçün alırıq:

$$\tilde{Q}_{11}^0 = -2\frac{\lambda_1}{\lambda_2}\frac{(\lambda_1^2 + \lambda_2^2) - 4\lambda_2^4}{(\lambda_1^2 + \lambda_2^2)^2 - 4\lambda_1\lambda_2^3}\beta_0; \tag{3''}$$

$$\tilde{Q}_{12}^0 = 2\frac{\left(\lambda_1^2 + \lambda_2^2\right)^2 - 4\lambda_1^2\lambda_2^2}{\left(\lambda_1^2 + \lambda_2^2\right)^2 - 4\lambda_1\lambda_2^3}\alpha_0.$$

(10) və A_1, A_2, B_1,B_2,C_1,C_2,D_1 və D_2 nin qiymətlərindən istifadə edilərək tapılır:

$$\lambda_1 = \frac{\left[\left(\lambda_1^2 + \lambda_2^2\right)^2 - 4\lambda_1^2\lambda_2^2\right]\tilde{Q}_{11}^0 + i\frac{\lambda_1^2 + \lambda_2^2}{2\lambda_2^2}\left[\left(\lambda_1^2 + \lambda_2^2\right)^2 - 4\lambda_2^4\right]\tilde{Q}_{12}^0}{\left[\left(\lambda_1^2 + \lambda_2^2\right)^2 - 4\lambda_1^2\lambda_2^2\right]\left[\left(\lambda_1^2 + \lambda_2^2\right)^2 - 4\lambda_2^4\right]\cdot\frac{1}{\lambda_2^2\left(\lambda_1^2 + \lambda_2^2\right)}}$$

(4″)

$$\lambda_2 = -\frac{\left[\left(\lambda_1^2+\lambda_2^2\right)^2-4\lambda_1^2\lambda_2^2\right]\tilde{Q}_{11}^0 + i\cdot\frac{2\lambda_1\lambda_2}{\lambda_1^2+\lambda_2^2}\left[\left(\lambda_1^2+\lambda_2^2\right)^2-4\lambda_2^4\right]\tilde{Q}_{12}^0}{\left[\left(\lambda_1^2+\lambda_2^2\right)^2-4\lambda_1^2\lambda_2^2\right]\left[\left(\lambda_1^2+\lambda_2^2\right)^2-4\lambda_2^4\right]\cdot\frac{1}{\lambda_2^2\left(\lambda_1^2+\lambda_2^2\right)}}$$

$\tilde{Q}_{11}$ və $\tilde{Q}_{12}$ gərginliklərinin komponentlərinin sonsuzluqda qiymətləri üçün alınır:

$$\tilde{Q}_{11}^* = -\frac{2\left(\lambda_1^2+\lambda_2^2\right)\lambda_2(\lambda_1-\lambda_2)}{\left(\lambda_1^2+\lambda_2^2\right)^2-4\lambda_1\lambda_2^3}\frac{p}{l}$$

$$\tilde{Q}_{12}^* = -\frac{2\left(\lambda_1^2+\lambda_2^2\right)\lambda_1(\lambda_1-\lambda_2)}{\left(\lambda_1^2+\lambda_2^2\right)^2-4\lambda_1\lambda_2^3}\frac{T}{l} \qquad (6'')$$

Ədəbiyyat:

1. Брилла И.Периодические смещанные задачи для анизотропных упругих плас тинок-приоложения теории функций в механике сплошной среды I том, Наука,1965.
2. Гасанов Р.А.Алиев С.А.Периодическая задача для упругой преднапряженной полуплоскости-Труды ИММ АН Азербайджана,1997,томVII (XV) стр.156-161
3. Гузъ А.Н.Механика хрупкого разрушения материалов с началъными напряже ниями-Киев,"Наук думка",1983,296с
4. Лехницкий С.Г.Теория упругости анизотропного тела.-М:Наука,1977,416 с.

İBRAHİM RÜSTƏMOV
FATMA HACIYEVA
Naxçıvan Dövlət Universiteti

İBTİDAİ SİNİFLƏRDƏ TƏNLİK QURMAQLA MƏSƏLƏLƏR HƏLLİNİN TƏDRİSİNƏ DAİR

İbtidai məktəb riyaziyyat təlimində mübahisəli məsələlərdən biri də tənlik qurmaqla məsələlər həllinin öyrədilməsi ilə bağlıdır. Bir çox mütəxəssislər ibtidai məktəb riyaziyyat kursunda məsələlərin təntik qurmaqla həll edilməsinin əlehinədirlər. Onlar bunu onunla izah edirlər ki, tənlik qurmaqla məsələlər həlli zamanı şagirdlərin təfəkkür inkişafına zəmin yaranmır, ona görə də məsələləri hesabi üsulla həll etdirmək daha səmərəlidir. Əslində tənlik qurmaqla məsələlər həl etdirmək həm şagirdləri fəallaşdırır, həm də onların gələcək təlim fəaliyyətlərinə hazırlanmalarına geniş imkan yaradır.

Tənlik qurmaqla məsələlər həlli 3-cü sinifdən başlayaraq öyrədilir. Məsələnin tənlik qurmaqla həll edilməsi üçün şagird onu dərk etməli, verilənlərlə axtarılanlar arasındakı əlaqəni müəyyənləşdirmənyi bacarmalı və məsələnin şərtinə uyğun əsas məchulu (buna bəzən giriş məchul da deyilir) təyin etməyi bilməlidir.

Üçüncü sinifdə əvvəlcə sadə məsələlərin tənlik qurmaqla həlli verilir. Məsələn, seçmə üsulu ilə sadə tənliklərin həlli mövzusu öyrədildikdən sonra aşağıdakı məsələnin həlli təklif olunur:

Məsələnin şətinə görə tənlik qur və həll et:

Məsələ 1. Avtobusdan 16 sərnişin düşdü və avtobusda 17 sərnişin qaldı. Əvvəlcə avtobusda neçə sərnişin vardı?

Əvvəla məsələnin şərtinin bu cür ifadə oluması qüsurludur. Zənnimizcə o, dil-üslub cəhətcə aşağıdakı kimi verilsə daha yaxşı olar:

Avtobusda bir neçə sərnişin vardı. Dayanacaqda 16 sərnişin düşdükdən sonra avtobusda 17 sərnişin qaldı. Əvvəlcə avtobusda neçə sərnişin vardı?

Məsələ əvvəlcə həm müəllim həm də şagirdlər tərəfindən oxunur. Məsələni tənlik qulmaqla həll etmək üçün müəllim şagirdlərə müraciət edir ki, verilən və axtarılanları izah edin. Yəni məsələni şagirdlərə bir daha şərh etdirir. Şagirdlər məsələni danışır və izah edirlər. Sonra müəllim axırıncı sualdan başlayaraq soruşur ki, avtobusda neçə sərnişin vardı. Şagirdlər cavab verirlər ki, əvvəlcə avtobusda neçə nəfər olduğu məlum deyildi. Onu x ilə işarə edək. Onda x -dən avtobusdan düşən sərnişinlərin sayını (16) çıxsaq 17 sərnişin qalar. Yəni x-16=17 olduğunu alırıq. Buradan isə x=17+16 və x=33 alırıq. Sonra müəllim məsələnin həllini şagirdlərə təhlil etdirir. Bu məqsədlə onlara həlli yoxladır. Şagirdlər məsələnin həllini yoxlayırlar: əvvəlcə avtobusda 33 sərnişin olubsa, 16 sərnişin düşəndən sonra 17 nəfər qalıb, yəni 33-16=17. Deməli məsələ düzgün həll olunub. 3-cü sinifin riyaziyyat dərsliyində tənlik qurmaqla həll olunan məsələlərə çox az yer verilib. Lakin verilən məsələlərin əksəriyyətinin mətnində bir qədər dəyişiklik etməklə onları da tənlik qurmaqla həll etmək olar. Tənlik qurmaqla məsələlər həllinə 4cü sinifdə verilən yer bir az artıqdır. Lakin burada da kifayət qədər deyil. Digər tərəfdən, verilən məsələlərin əksəriyyəti də çox sadə şəkildədir. Yəni belə məsələlərin həlli zamanı şagirlərin təfəkkür inkişafına heç bir köməklik gösərilmir.

Məsələ 2. Fikirdə tutulmuş ədədi 3 dəfə artırsaq 12 alınır. Fikirdə hansı ədəd tutulmuşdur.

Əslində 4-cü sinif şairdlərinə belə məsələ təklif etmək fikrimizcə düzgün deyil.

Məsələ 3. Məchul ədədə 4 əlavə etsək, ən kiçik 4 rəqəmli ədəd alınar. Məchul ədədi tapın.


Yenə də məsələ şagirlər tərəfindən oxunur, izah olunur və müəllim məsələnin həllinə başlamaq üçün soruşur ki, ən kiçik 4 rəqəmli ədəd neçədir. Şagirdlər ən böyük üçrəqəmli ədədi yada salır ki, 999 ən byük üçrəqəmli ədədir

və ondan bilavasitə sonra gələn ədəd ən kiçik dördrəqəmli ədəd olacaq. Yəni ən kiçik dördrəqəmli ədəd 1000 ədədi olacaqdır. Onda məchul ədəd x olsa, tənlik $x+4=1000$ kimi olar. Buradan isə $x=1000-4$ və $x=996$ alınar. Şagirdlər həlli yoxlayaraq onun düzgünlüyünə inanırlar. Belə məsələlər şairdlərin diqqət və marağını artırsa da dördüncü sinif şagirdləri üçün çox sadədir.

Aparılan müşahidələr, itidai sinif müəllimləri ilə müsahibələr göstərir ki. ibtidai sinif şagirdləri, əsasən də dördüncü sinif şagirdləri hərəkətə aid bir çox məsələləri tənlik qurmaqla asanlıqla həll edirlər. Buna görə də 4-cü sinif şagirdlərinə aşağıdakı kimi məsələ vermək olar:

Məsələ 4. Aralarındakı məsafə 150 km olan şəhərdən kəndə sürəti 60 km/saat olan bir yük maşını yola düşdü. Eyni zamanda kənddən şəhərə velosipedçi yola düşdü və 2 saatdan sonra yük maşını ilə rastlaşdılar. Velosibetçinin sürətini tapın?

Məsələni həll etdirmək üçün müəllim əvvəlcə məsələyə uyğun şəkil çəkdirir və şəkil üzrə izahat işi aparır.



Müəllim soruşur ki, məsələdə məlum omayan nədir. Şagirdlər cavab verirlər ki, məsələdə məlum olmayan, axtarılan velosipedçinin sürətidir. Onu x ilə işarə edək, onda velosipedçi 2 saata yük maşını ilə görüşənə qədər $2 \cdot x$ km yol gedər. Həmin 2 saatda yük maşını da $2 \cdot 60$ km yol gedər. Deməli tənlik aşağıdakı kimi olar:

$$2x+2 \cdot 60=150$$

Artıq şagirdlər bu şəkildə tənliklərin həlli ilə tanışdırlar, əvvəlki biliklərindən istifadə edərək tənliyi həll edirlər:

$2x=150-120$; $2x=30$; $x=30:2$; $x=15$ km/saat.


Deməli, velosipedçinin sürəti 15 km/saat-dir. Məsələnin həllini yoxlayırlar. Əgər velosipedçinin sürəti 15

km/saatdırsa, onda 2 saatda o 30 km yol gedər. Yük maşını isə 2 saatda 2·60=120 km yol gedər və görüşərlər. Deməli, onların birlikdə 2 saatda getdikləri yol 30 km + 120 km=150 km olar. Şagirdlər məsələnin həllinin düzgünlüyünə əmin olurlar.

Sonra hərəkətin digər növünə aid məsələ vermək olar.

Məsələ 5. Aralarındakı məsafə 846 km olan iki şəhərdən eyni zamanda qarşı-qarşıya iki qatar yola düşür. Birinci qatar 324 km, ikinci isə 286 km yol getdikdən sonra qatarlar arasındakı qalan məsafəni tapın. Məsələni həll etdirmək üçün yenə də məsələyə uyğun şəkil çəkilir.

1-ci 324 km 2-ci 286 km



Artıq bu şəkildə tənlikləri şagirdlər həll edə bilirlər:

846- x =610; x = 846-610; x =236km


Sonra həll araşdırılır və əsaslandırılır. Ümumiyyətlə məsələnin həllinin araşdırılması və yoxlanılması məsələ həllində vacib mərhələlərdən biridir. Ona görə də şagirdləri buna hazırlamaq lazımdır.

Tənlik qurmaqla həll olunan məsələlər içərisində şagirdlərin çətinlik çəkdikləri məsələlərdən biri də mürəkkəb istiqamətli hərəkətə aid məsələlərdir. Adətən belə məsələlərin həllində bəzi ibtidai sinif müəllimləri də çətinlik çəkirlər. Bunun əsas səbəbi fikrimizcə məsələnin mahiyyətinin dərk edilməməsindən ibarətdir. Ona görə də belə məsələlər əvvəlcə təhlil edilməli, onun məzmunu, mahiyyəti şagirdlərə aydınlaşdırılmalıdır. Əgər şagirdlər məsələnin hesabi üsulla həllində çətinlik çəkirsə əvvəlcə məsələni tənlik qurmaqla həll etdirərək hesabi üsulla həllə keçmək olar. Aşağıdakı məsələyə baxaq.

Məsələ 6. Aralarındakı məsafə 2km olan A və B məntəqələrindən eyni zamanda eyni istiqamətdə iki oğlan yola düşdü. A məntəqəsindən yola düşən oğlanın sürəti

saatda 5 km, B məntəqəsindən yola düşən oğlanın sürəti isə saatda 4 km-dir. Oğlanlar hərəkətə başlayan kimi onnlar arasında bir it qaçmağa başlayır və oğlanlar görüşənə kimi dayanmadan qaçır. İtin sürəti saatda 8 km olarsa oğlanlar görüşənə kimi it nə qədər yol gedər.

Məsələnin şərti ilk növbədə şagird üçün qarışıq görünür. Lakin şəkil qurulduqdan sonra həll yolu görünür.



Tutaq ki, oğlanlar x saatdan sonra görüşdülər. Onda bu müddət ərzində birinci oğlan $5x$ km, ikinci isə $4x$ km yol gedər. Lakin birinci oğlan 2-cidən 2 km artıq getməli olur (A və B məntəqələri arasındakı məsafəni). Onda tənlik aşağıdakı kimi olar:

$$5x = 4x + 2,$$

buradan $x = 2$. Deməli, 2 saatdan sonra görüşürlər. Bu müddət ərzində it 16km yol getmiş olar. Məsələnin belə cəbri üsula həllindən sonra onun hesabi üsulla həllini vermək olar və bu vacibdir.

İlk baxışdan mürəkkəb görünən belə məsələlər dərslikdə yoxdur. Onu müəllimi didaktik məsələlərdən götürər və yaxud özü tərtib edə bilər.

Adətən hərəkətə aid məsələlərin əksəriyyəti mürəkkəb xarakterə malik olur. Məsələn, çayın axma istiqaməti ilə qayığın hərəkət istiqaməti eyni olduqda buna aid məsələlrin bir yolla, hərəkət istiqamətləri müxətil olduqda isə başqa yolla həll olunurlar. Yəni bir halda sürətlər toplanır, digər halda isə çıxılır. Əslində belə məsələlərin həllində şagird üçün çətinlik yarada biləcək əsaslı bir şey yoxdur. Əsas məsələ müəllimin izahından və şagirdlərin məsələni dərk etmə səviyyəsindən asılıdır.

Məsələlərin tənlik qurmaqla həll edilməsi həmin məsələlərin hesabi üsulla həllinə də şərait yaradır. Bu isə şagirdin ümumi inkişafına kömək göstərir.

Şagirdlərin daha da fəallaşdırılması üçün müəllim hər hansı tənliyə uyğun məsələ tərtib etməyə də geniş yer verməlidir. Çünki bu zaman şagirdlərdə, öz fikrini ifadə etməklə əsaslandırmaq bacarığı inkişaf edir, təşəbbüskarlıq, maraq və müstəqillik yüksəlir. Ona görə də verilmiş məsələni həm hesabi həm də cəbri yolla (tənlik qurmaqla) həll etmək olduqca vacibdir.

Ədəbiyyat:

1. N.Kazımov, S.Həmidov. Riyaziyyatın tədrisi metodikası (I-IV siniflər). Bakı, 1994.
2. İ.Rüstəmov. İbtidai siniflərdə riyaziyyatın tədrisi metodikası. Bakı, 1999.
3. Z.Məmmədov. İbtidai siniflərdə məsələ həllinin tədrisi. Bakı, 2001.

ELŞAD AĞAYEV
Naxçıvan Dövlət Universiteti

BİR ELLİPTİK TİP TƏNLİK ÜÇÜN SƏRHƏD MƏSƏLƏSİ

İşdə ikinci tərtib qeyri müntəzəm elliptik tip tənliyin həllinin böyümə sürəti tənliyin elliptik sabitindən, fəzanın ölçüsündən, baxılan oblastın həndəsi yerindən asılı olaraq tədqiq edilir. Bu zaman maksimum prinsipindən və böyümə haqqında lemmadan köməkçi riyazi aparat kimi istifadə olunur. Aşağıdakı şəkildə elliptik tip tənliyə baxaq:

$$L_\lambda u = \sum_{i,j=1}^{n-1} a_{ij}(x) U_{x_i x_j} + \lambda(x_n) \cdot U_{x_n x_n} = \varphi(x, u) \quad (1)$$

$$x = (x_1, \ldots\ldots, x_n)$$

burada

$$Sgn\varphi(x,u)=SgnU;\quad |\varphi(x,u)|\le u^{1+\alpha},\qquad -1<\alpha<\min\left(1,\ \frac{2}{s}\right)$$

(2)

və $x_n\to+\infty$ şərtində $\lambda(x_n)\to+\infty$ olur. R^n ilə n ölçülü həqiqi evklid fəzasını işarə edək. (1) tənliyinin həlli dedikdə hər hansı $G\subset R^n$ oblastında 2-ci tərtibdən kəsilməz diferensiallanan və bu tənliyi eyniliyə çevirən $u(x)$ funksiyası başa düşəcəyik. (2) şərtində s ədədi $s>e-2$ şərtini ödəyir. Burada e (1) tənliyinin elliptik sabitidir. İşdə müntəzəm elliptik tip tənlik üçün məlum olan maksimum prinsipi və böyümə haqqında lemmadan istifadə edəcəyik[2].

Aşağıdakı teorem doğrudur.

Teorem. Tutaq ki, $U(x)$ (1) tənliyinin

$$G_{\psi_1}=\left\{\tilde{x}=(x_1,\ldots.x_{n-1},y_n)\in R^n,\ |\tilde{x}_n|<\psi_1\left(\left(\sum_{i=1}^{n-1}\tilde{x}_i^2\right)\right)^{\frac{1}{2}}\right\}$$

oblastında müsbət təyin olunmuş həllidir, $\varphi(x,u)$ funksiyası isə (2) şərtini ödəyir və $x^n\to+\infty$ şərtində $\lambda(x_n)\to+\infty$ olur. Burada $\psi_1(t)>0$, $0\le t<\infty$ kəsilməz diferensiallanan, monoton funksiyadır və $|\psi_1'(t)|<const$. Əlverişli olması üçün $|\psi_1'(t)|<\frac{1}{10}$ götürək. Tutaq ki, $U(x)$ (1) tənliyinin G_{ψ_1} oblastında təyin olunmuş müsbət həllidir, $\varphi(x,u)$ funksiyası isə (2) şərtini ödəyir.

Γ ilə G_{ψ_1} oblastının sərhəddini işarə edək və tutaq ki, $U(x)|_\Gamma=0$ $M(r)=\max\limits_{\left(\sum_{i=1}^{n-1}x_i^2\right)^{1/2}=r}U(x)$ qəbul edək.

Onda $M(r) > \exp\left(\varepsilon \int_0^r \frac{dt}{\psi_1(t)}\right) \cdot const$ bərabərsizliyi doğrudur. Burada $\varepsilon > 0$ hər hansı sabit ədəddir.

(Müəyyən r ədədindən başlayaraq $M(r) = \infty$ ola bilər) .

İsbatı. (1) tənliyinə uyğun olan operatoru müntəzəm elliptik şəklə gətirmək üçün $y_n = a(x_n)$ əvəzləməsini qəbul edək. Burada $y_n = a(x_n)$ kəsilməz diferensiallanan və monoton funksiyadır. Onda alarıq:

$$\frac{\partial u}{\partial x_n} = \frac{\partial u}{\partial y_n} \cdot a'(x_n), \quad \frac{\partial^2 u}{\partial x_n^2} = \frac{\partial^2 u}{\partial y_n^2} \cdot (a'(x_n))^2 + \frac{\partial u}{\partial y_n} \cdot a''(x_n)$$

Bu zaman (1) tənliyi aşağıdakı şəklə düşər:

$$\sum_{i,j=1}^{n-1} a_{ij}(x) \frac{\partial^2 u}{\partial x_i \partial x_j} + \lambda(x_n) \cdot (a'(x_n))^2 \frac{\partial^2 u}{\partial y_n^2} + \frac{\partial u}{\partial y_n} \lambda(x_n) \cdot a''(x_n) = \varphi(x, u)$$

$\lambda(x_n) \cdot (a'(x_n))^2 = 1$ qəbul edək.

Buradan $a'(x_n) = \frac{1}{\sqrt{\lambda(x_n)}}$ və ya $a(x_n) = y_n = \int_0^{x_n} \frac{d\xi}{\sqrt{\lambda(\xi)}}$

Axırıncı tənliyi aşağıdakı şəkildə yaza bilərik:

$$\sum_{i,j=1}^{n-1} a_{ij}(x) \frac{\partial^2 u}{\partial x_i \partial x_j} + \frac{\partial^2 u}{\partial y_n^2} + \lambda(x_n) \frac{\partial u}{\partial y_n} \cdot a''(x_n) = \varphi(x, u) ,$$

Və ya

$$\sum_{i,j=1}^{n-1} a_{ij}(x) \frac{\partial^2 u}{\partial x_i \partial x_j} + \frac{\partial^2 u}{\partial y_n^2} - \frac{1}{2} \frac{\partial u}{\partial y_n} \frac{\lambda'(x_n)}{\sqrt{\lambda(x_n)}} = \varphi(x, u) \quad (3)$$

$\tilde{x}_i = x_i, \quad 1 \le i \le n-1, \ \tilde{x}_n = y_n$ qəbul edək.

Onda (3) tənliyini aşağıdakı şəkildə yaza bilərik:

$$\sum_{i,j=1}^{n} \tilde{a}_{ij}(\tilde{x}) u_{\tilde{x}_i \tilde{x}_j} - \frac{1}{2} u_{\tilde{x}_n} \frac{\lambda'(x_n)}{\sqrt{\lambda(x_n)}} = \varphi(\tilde{x}, u) \qquad (4)$$

$$\tilde{x} := (x_1, \ldots\ldots\ldots x_{n-1}, y_n)$$

Beləliklə, biz $y_n = a(x_n)$ əvəzləməsini aparmaqla (1) tənliyini (4) şəklində müntəzəm elliptik tənliyə gətirmiş oluruq. Bizə məlumdur ki, (4) şəklində tənlik üçün maksimum prinsipi və böyümə haqqında lemmanın hökmü doğrudur. Aşağıdakı hallara baxaq.

a) Tutaq ki, $\tilde{x}_n = \int_0^{x_n} \frac{d\xi}{\sqrt{\lambda(\xi)}}$ inteqralı dağılır.

Bu halda baxılan inteqralın dağılan olması üçün $\lambda(\xi) < \xi^2 \cdot \ln^2 \xi$ və $x_n \to +\infty$ şərtində $\tilde{x}_n = a(x_n) \to +\infty$ münasibətlərinin ödənməsi kafidir.

b) Tutaq ki, $\tilde{x}_n = a(x_n) = \int_0^{x_n} \frac{d\xi}{\sqrt{\lambda(\xi)}}$ inteqralı yığılır.

Bu halda $x_n \to +\infty$ şərtində $\tilde{x}_n \to A < \infty$ olur. Baxılan inteqralın yığılan olması üçün, məsələn, $\lambda(\xi) > (\xi \cdot \ln^{\alpha} \xi)$, $\alpha > 1$ şərtinin ödənməsi kafidir. Qeyd edək ki, teoremin isbat prosesi $\tilde{x}_n$ kəmiyyətinin sonlu və sonsuz qiymət almasından asılı deyildir. Mərkəzləri $x_0 \in G \cap \{\tilde{x}_n = 0\}$ nöqtəsində yerləşən və radiusları uyğun olaraq $8\psi_1(r_0)$ və $2\psi_1(r_0)$, $r_0 = \left(\sum_{i=1}^{n-1} (x_0)^2 \right)^{1/2}$ olan $B^{x_0}_{8\psi_1(r_0)}$ və $B^{x_0}_{2\psi_1(r_0)}$ kürələrinə baxaq. Onda maksimum prinsipinə görə, $u(\tilde{x})$ funksiyası $G \cap B^{x_0}_{8\psi_1(r_0)}$ oblastının qapayıcısında maksimum qiymətini bu kürənin səthində hər hansı nöqtədə alır. Bu nöqtəni x_1 ilə işarə edlək. $\tilde{x}_i$ ardıcıllığını aşağıdakı qaydada quraq:

$\tilde{x}_{i+1}$ nöqtəsi $u(\tilde{x})$ funksiyasının $G \cap B^{\tilde{x}_i}_{8\psi_1(r_0)}$ oblastının qapayıcısındakı maksimum nöqtədir, burada $r_i = \left(\sum_{i=1}^{n-1} (\tilde{x}_i)_k^2 \right)^{1/2}$. $B^{\tilde{x}_i}_{8\psi_1(r_0)} \cap G$ çoxluğuna böyümə haqqında lemmanın hökmünü tətbiq etsək, alarıq:

$$\underset{B^{\tilde{x}_i}_{8\psi_1(r_0)} \cap G}{Sup} u(\tilde{x}) \geq \left[1 + \xi \frac{(\psi_1(r_i))^s}{(2\psi_1(r_i))^s} \right] \cdot \underset{B^{\tilde{x}_i}_{8\psi_1(r_0)} \cap G}{Sup} u(\tilde{x}),$$

Burada $\xi > 0$ S -dən asılı ədəddir.

$\beta = \ln\left(1 + \frac{\xi}{2^s}\right)$ qəbul edək. Onda

$\underset{B^{\tilde{x}_i}_{8\psi_1(r_0)} \cap G}{Sup} u(\tilde{x}) \geq e^{\beta} \cdot \underset{B^{\tilde{x}_i}_{2\psi_1(r_0)} \cap G}{Sup} u(\tilde{x})$ olur.

Ona görə də, alarıq:

$$M(r_i) \geq e^{\beta} \cdot M(r_{i-1}).$$

Buradan $M(r_k) \geq (e^{\beta})^k \cdot M(r_0)$. olur. $|\psi_1'(t)| < \frac{1}{10}$ şərtini nəzərə alsaq, alarıq: $|\psi_1(r) - \psi_1(r_i)| < \frac{1}{10}(r_{i+1} - r_i)$

Buradan $\psi_1(r) > \psi_1(r_i) - \frac{1}{10} 8 \cdot \psi_1(r_i) = \frac{1}{5}\psi_1(r_i)$

Ona görə də $\int_{r_i}^{r_{i+1}} \frac{dt}{\psi_1(t)} \leq 8 \cdot \psi_1(r_i) \cdot \frac{5}{\psi_1(r_i)} = 40$

Deməli, $\int_{r_0}^{r_k} \frac{dt}{\psi_1(t)} = \sum_{i=0}^{k-1} \int_{r_i}^{r_{i+1}} \frac{dt}{\psi_1(t)} \leq 40k$

Tutaq ki, $\varepsilon > 0$ elə ədəddir ki, $\varepsilon \cdot 40 < \beta$ bərabərsizliyi doğrudur. Onda alarıq:

$$\varepsilon \cdot \int_{r_0}^{r_k} \frac{dt}{\psi_1(t)} < \beta \cdot k$$

Ona görə də $\exp\left(\varepsilon\cdot\int\limits_{r_0}^{r_k}\frac{dt}{\psi_1(t)}\right)<e^{\beta\cdot k}$

Buradan çıxır ki, $M(r_k)>\exp\left(\varepsilon\cdot\int\limits_{r_0}^{r_k}\frac{dt}{\psi_1(t)}\right)\cdot M(r_0)$

Əgər $r_{i-1}<r<r_i$ olarsa, onda maksimum prinsipindən çıxır ki, $M(r_{i-1})<M(r)<M(r_i)$, və ona görə də alarıq:

$$M(r)\geq e^{\beta\cdot k}M(r_0)>\exp\left(\varepsilon\cdot\int\limits_{r_0}^{r}\frac{dt}{\psi_1(t)}\right)\cdot C_1$$

Beləliklə, teorem isbat olundu.

Ədəbiyyat:

1. Е.М.Ландис. Уравнения второго порядка эллиптического и параболического типа, М. Наука, 1971, 287 с.
2. Агаев Э.В. О поведении решения полулинейного эллиптического уравнения второго порядка в неограниченной области, Вестник МГУ, Мех. –мат., 1991, №4, с. 16-17.

AZAD NOVRUZOV
SAHİB ƏLİYEV
Naxçıvan Dövlət Universiteti

RİYAZİ ANALİZDƏN PRAKTİK MƏŞĞƏLƏLƏR ÜÇÜN ÇALIŞMALARIN SEÇİLMƏSİ PRİNSİPİ VƏ ONUN DİDAKTİK ƏHƏMİYYƏTİ

Ali məktəb təlimi sistemində riyaziyyatdan praktik məşğələlərin müxtəlif formaları tətbiq olunur.Pedaqoji institut və universitetlərin bakalavr təhsil sistemində riyazi analiz kursu üzrə praktik məşğələlərin düzgün təşkili və keçirilməsi-həmin fənnin dərindən öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Ayrı-ayrı riyazi fənlərə aid praktik məşğələ dedikdə «müəllimin rəhbərliyi altında elmi-nəzəri

biliklərin dərinləşdirilməsinə,tədris planındakı bu və ya digər fənlərə aid müəyyən iş metlodlarının mənim-sənilməsinə yönəlmiş məşğələ növü nəzərdə tutulur»(1, s.230)

Riyaziyyat fakultəsində riyazi analizdən praktik məşğələlərdə məsələ və misalların həll edilməsi,qrafiklərin qurulması və s. işlər yerinə yetirilir. Belə məşğələlərdə əsas məqsəd aşağıdakılardan ibarətdir:

-nəzəri materialın dərindən mənimsənilməsi,

-nəzəri biliklərin praktikada, məsələ və misalların həllində tətbiq edilməsi,

-təlimin tərbiyəvi və ümumi inkişafetdirici məqsədinin həyata keçirilməsi.

Riyazi analizdən mühazirə aparan müəllimin həm də praktik məşğələni aparması daha çox səmərə verir. Çünki mühazirə məşğələsində elə məsələlər ola bilər ki, onların daha geniş işıqlandırılması praktik məşğələdə əlverişli olur. Nəzəri biliklərin təkrar edilməsi, hansı misalların həllində onların tətbiq edilməsi mühazirədə toxunulmayan, lakin tələbələr üçün zəruri olan biliklə-rin, təkliflərin bilavasitə praktik məşğələdə aşkar edilməsi-müəllimin səmərəli fəaliy-yətinin müxtəlif cəhətlərini təşkil edir. Belə olan hallarda mühazirə və praktik məşğələlər bir-birini tamamlayır. Müəllim mühazirəyə hazırlaşarkən, praktik məşğələnin də həmin mövzuya dair «payını» müəyyən edir,tələbələrin müs-təqil işi üçün materialların perespektiv planını müəyyən edir.

Ali məktəb təcrübəsi göstərir ki,tələbələri təlim fəaliy-yətinə cəlb etmək,onlara öyrənmə yollarını öyrətmək üçün «müəllim-tələbə» münasibətində fərdi yanaşma priyomu mühüm rol oynayır. Bu şərtlə ki, praktik məşğələ aparan müəllimin pedaqoji və elmi hazırlığı yüksək olmalıdır. Çox vaxt ali məktəblərdə riyaziyyatdan praktik məşğələlər, pedaqoji təcrübəsi olmayan, metodiki hazırlığı(və bəzən elmi hazırlığı) zəif olan cavan müəllimlərə həvalə edilir. Nəticədə tələbələrin nəzəri hazırlığı, praktik bacarıq və vərdişləri aşağı səviyyədə olur.

Daha bir cəhəti qeyd etmək lazımdır: mühazirə və praktik məşğələ aparan müəllimlər təqvim planlarını tərtib edərkən, bir sıra məsələlərin həllində, mövzuların seçilməsində, praktik məşğələ mövzularının müəyyənləş-dirilməsində razılığa gəlməlidirlər.

Riyazi analizdən praktik məşğələlərin özünəməxsus xüsusiyyətlərini nəzərə alaraq, problem xarakterli məsələlərə, həlli nəticəsində yeni biliklər aşkar olunan məsələlərə xüsusi diqqət yetirilməli və müstəqil işlərin məzmununda bunu nəzərə almaq lazımdır.

Biz təcrübəmizdə müəyyənləşdirimişik ki, riyazi analizdən praktik məşğələlərin strukturu aşağıdakı kimi olduqda, təlimin səmərəsi yüksək olur:

1. Təşkilatı mərhələ-bu zaman tələbə fəaliyyət planı ilə tanış olur.
2. Müstəqil işin (ev tapşırığı) nəticəsini yoxlanması, nəzəri materialın təkrarı .
3. Məsələ və misalların həlli(parktik mərhələ)
4. Yekun mərhələ-tələbələrin fəaliyyətinin differensial-laşdırılması, ev tapşırığının verilməsi .

Riyaziyyat fakultəsində riyazi analizdən praktik məşğələlər həcminə görə mühazirə məşğələsindən çoxdur. Bu, o məqsədlə edilmişdir ki, mühazirə məşğələsində mövzunun mahiyyəti, məzmunu, zəruri ədəbiyyat haqqında ümumi xarakterli fəaliyyət planı verilir. Prkatik məşğələdə isə ayrı-ayrı məsələlər konkret halda araşdırılır,dar mənada tədqiqat aparılır. Çünki, riyazi analizdən hər bir çalışma bir neçə didaktik funksiyaya cavab verir.

Praktik məşğələlərin qarşısında aşağıdakı tələbləri qoymaq olar:

1)məşğələnin mövzusu tədris proqramına uyğun olmaq-la ,mühazirə məşğələsini müşayət etməlidir;

2) praktik məşğələ-tələbələri fərdi yaradıcılığa,müstəqil fəaliyyətə sövq etməlidir;

3) praktik məşğələdə differensiallaşdırma prinsipinə əməl etməklə, tələbə-lərin fərdi tədris fəaliyyəti qiymətləndiril-məlidir;

4)praktik məşğələnin məzmununa daxil edilən çalışmalar biliklərin möhkəmləndirilməsi,yeni biliklərin qazanılması məqsədlərinə xidmət etməlidir;

5)praktik məşğələlər –qarşıya qoyulan məqsədindən asılı olaraq,kollektiv iş müstəqil iş formalarında aparılmalıdır.

Praktik məşğələnin səmərəsini yüksəltmək üçün onun məzmununu təşkil edən məsələ və misalların məqsədli seçilməsinə xüsusi diqqət yetirilməlidir.Elmi-metodik ədəbiy-yatda son on beş ildə üstünlüyü «Qalperin-Talızina»prinsipinə verirlər və təcrübə göstərir ki,həmin prinsipə əməl etməklə bilik,bacarıq və vərdişlərin qazanılmasının səmərəli yolu təmin edilir.Bu prinsipin mahiyyəti aşağıdakından ibarətdir: praktik məşğələnin bütöv vaxtı hissələrə bölünür və onun strukturu müəyyən edilir.Əsas məqsəd: çalışmalar vasitəsilə biliklərin təkrarı,möhkəmləndirilməsi, yaradıcı fəaliyyət göstərməklə, yeni biliklərin qazanılması və tətbiq edilməsindən ibarətdir. Məhz buna görə hər bir praktik məşğələ üçün seçilən çalışmalar aidiyyətinə görə *səviyyələrə* ayrılır. (1, s.49)

Birinci səviyyəli çalışmalar tələbələrin tədris materia-lının mənimsəmələrinə və biliklər əldə etmələrinə xidmət edir.

İkinci səviyyəli çalışmalar qazanılmış biliklərin tanış situasiyalarda tətbiq olunmasına və həmin biliklərin dərinləşdirilməsinə xidmət edir.

Üçüncü səviyyəli çalışmalar –əldə edilən biliklərin yeni situasiyalarda tətbiq edilməsinə xidmət edir və nəticədə tələbələr yeni biliklər qazanır və fəaliyyət (elmi-tədqiqat)üsullarına yiyələnirlər.

Didaktikada təlim səviyyələrinin müxtəlif təsnifatı mövcuddur.Məsələn, M.N.Skatkin və İ.Y.Lerner təlimin üç səviyyəsini(məşğələ prosesin-də) təklif edirlər:

I səviyyədə-qavrayış mühakimə və yadda saxlama

II səviyyədə- məlum nümunəyə görə biliklərin tətbiqi,

III səviyyədə-qeyri standart məsələlərin həllində biliklərin yaradıcı şəkildə tətbiqi.

V.P.Bespalko isə təlimin dörd səviyyəsini təklif edir ki,bunlar da əvvəlki təsnifatdan mahiyyətcə fərqlənmir. (2, s.112)

Təcrübə göstərir ki,tələbələr verilən ev(müstəqil) işi problem xarakterli çalışmalardan ibarət olduqda,onlar daha çox yaradıcı fəaliyyət göstərirlər. Bunu təmin etmək üçün riyazi analizdən praktik məşğələnin yekun hissəsində yaradıcı xarakterli elə çalışmalar verilməlidir ki,tələbələr qazandıqları bilikləri yeni situasiyalarda tətbiq edə bilsinlər. Həmin çalışmaları aşağıdakı kimi təsnif etmək olar:

-qazanılmış bilikləri ümumiləşdirməyi tələb edən çalışmalar,

-elmi-parktik xarakterli çalışmalar,

-fənlərarası əlaqələri təmin edən çalışmalar,

-qazanılmış bilikləri vahid sistemə gətirməyə xidmət edən çalışmalar,

-tələbələri düşünməyə,müqayisə etməyə və nəticə çıxarmağa sövq edən çalışmalar.

Qeyd etmək lazımdır ki, elmlərin metodologiyasında idrakın(təfəkkürün) iki səviyyəsi qeyd olunur:

1.Emprik səviyyə

2.Nəzəri səviyyə»(3, s.118)

Elmi idrakın emprik səviyyəsinə-müşahidə, eksperiment, eksperimentin nəticələrinin qruplaşdırılması, təsnifi və təsviri daxildir.

Elmi idrakın nəzəri səviyyəsinə isə elmi hipotez və nəzəriyyələrin qurulması və inkişafı,qanunların formula edilməsi və bunlardan məntiqi nəticələrin alınması,müxtəlif hipotez və nəzəriyyələrin müqayisə edilməsi.

Emprik bilklər-hissiyatla,qavrayışla və təsəvvürlə bağlıdır. Məhz praktik məşğələlərdə əldə edilən emprik biliklər nəzəri bilikləri möhkəmləndirir.

Ədəbiyyat:

1. Галперин П.Я. Основные результаты исследований по проблеме формирования умственных действий и понятий. М.1985, 280 с.
2. Беспалько В.П. Програмированное обучение дидактические основы. М. «Выс.шк.». 1970, 320 с.
3. Т.А.Ильина. Вопросы теории методики педагогического эксперимента в исследовании програмированного обучения. М. 1985, 123 с.

AYGÜN SULTANOVA
Naxçıvan Dövlət Universiteti

$ZnGa_2Se_4$ MONOKRİSTALINDA VALENT VƏ KEÇİRİCİLİK ZONASI ÜÇÜN DEFORMASİYA POTENSİALI

Yarımkeçirici cihazlara daim artan tələbat onların praktik tətbiqi üçün zəruri xassələrə malik yeni materialların axtarılması problemini meydana çıxarır. Buna görə son illərdə tədqiqatçıların əsas diqqətini çox komponentli birləşmələr cəlb edir ki, bunların arasında əsas yeri $A^2B^4C_4^6$, $A^2B_2^3C_4^6$ və s. tipli üçqat almazabənzər birləşmələr tutur. $A^2B_2^3C_4^6$ birləşmələri tetraqonal strukturda kristallaşır. Bu birləşmələr geniş spektrli oblasta fotohəssasdırlar, aydın lüminessensiya edir, optik aktivliyə, ikiqat şüalanmaya, mühim qeyri-xətti qavrayıcılıq əmsalı qiymətlərinə malik olur. Göstərilən xassələr bu birləşmələri yarımkeçirici cihazqayırma üçün perspektiv materiallar sırasına qaldırır.

$A^2B_2^3C_4^6$ üçqat birləşmələrində binar birləşmələrdən fərqli olaraq, kation altqəfəsdə iki növ atomların mövcud olmasına görə, kation və anion vakansiyalardan başqa kationların qarşılıqlı əvəzolunması ilə şərtlənən antistruktur defektlərin yaranması mümkündür. Bu faktorlar lokal

halların zəngin spektrinin mövcudluğuna və qeyri-taraz proseslərin baş verməsinin xüsusiyyətlərinin müxtəlifliyinə gətirir.

$A^2B_2^3C_4^6$ tetraqonal maddələrində udulma kənarının temperatura görə yerdəyişməsi qeyri-xətti asılılığa malikdir [1] və yarımkeçirilərdə udulma kənarının temperatur əmsalına iki faktordan pay daxil olur: elektron-fonon qarşılıqlı təsiri və qəfəsin genişlənməsi

$$\frac{dE}{dT}=\left(\frac{dE}{dT}\right)_{ef}+\left(\frac{dE}{dT}\right)_{q}$$

Məlumdur ki, elektron səviyyələri xarici təsirlər (temperatur, təzyiq) nəticəsində zonaların ekstremumlarının deformasiya potensialları ilə təsvir olunur. Buna görə də bu parametrlərin təyini mühüm məsələdir. Zonaların deformasiya potensialının təyininin müxtəlif yolları mövcuddur. Son illərdə üçqat yarımkeçiricilərdə zonaların ekstremumlarının deformasiya potensiallarını Monooqian-Leklerk metodu ilə məxsusi udulma kənarının sürüşməsinin temperatur asılılığından təyin edirlər [2]. Yarımkeçiricilərdə məxsusi udulma kənarının sürüşməsinin temperatur əmsalı aşağıdakı kimi təyin olunur:

$$E(0)-E(T)=UT^{x}+V\varphi[\coth\varphi/2T-1] \quad (1)$$

U,V,φ - temperaturdan asılı olmayan parametrlərdir. U - qəfəsin genişlənməsini, V - elektron-fonon qarşılıqlı təsirini təsvir edir. φ - temperatur vahidinə malik parametrdir.

Elektron-fonon qarşılıqlı təsiri və qəfəsin genişlənməsi hesabına olan payları uyğun olaraq aşağıdakı şəkildə yazmaq olar :

$$\left(\frac{dE}{dT}\right)_1 = -\left(V\varphi^2\right)/\left(2T^2\right)\cos ech^2\left(\varphi/2T\right)$$
$$\left(\frac{dE}{dT}\right)_2 = -xUT^{x-1} \qquad (2)$$

Udulma kənarının sürüşməsinin temperatur əmsalına elektron-fonon qarşılıqlı təsirinin və qəfəsin genişlənməsinin verdiyi paylar aşağıdakı məlum tənliklərdən tapılır [3]:

$$\left(\frac{dE}{dT}\right) = \frac{8}{9}\pi\left(\frac{3}{4}\pi\right)^{1/3} k_b\Omega/\left(\hbar M\gamma^2\right)\left(m_e C_e^{\ 2} + m_h C_h^{\ 2}\right)$$
$$\left(\frac{dE}{dT}\right) = 2\alpha(C_e + C_h) \qquad (3)$$

Burada M - elementar özəyin kütləsi, Ω - elementar özəyin həcmi, ν - kristalda səsin sürəti, k_b - Bolsman sabiti, $\hbar$ - Plank sabiti, $m_e m_h$ - effektiv kütlələr, α - qəfəsin temik genişlənmə əmsalıdır.

Məlumdur ki, $A^2B_2^3C_4^6$ tipli birləşmələrdən olan $CdGa_2S_4$ və $CdGaSe_4$ monokristallarında valent zonanın təpəsinin formalaşmasına əsas payı üçvalentli kationların p-halları verir, keçiricilik zonasının dibi isə $ZnGa_2Se_4$ birləşməsində anionların S- halları ilə formalaşır, üçvalentli kation və anionlar eynidir, spin- orbital parçalanmasının qiymətləri həmçinin yaxındır: $CdGa_2Se_4$ ~ 0,15eV və $ZnGa_2Se_4$ ~ 0,15eV. Buna görə də $ZnGa_2Se_4$ birləşməsində keçiricilik zonasının dibinin və valent zonasının təpəsinin effektiv kütlələri üçün $CdGa_2Se_4$ birləşməsinə görə hesablanmış məlumatlara əsaslanaraq zonaların ekstremumlarının deformasiya potensialları üçün qiymətləri alınmışdır [4].

(3) sistem tənliyini həll edərək $ZnGa_2Se_4$ monokristalında məxsusi udulma kənarının temperatur asılılığından keçirici zonanın və valent zonasının deformasiya

potensialları üçün uyğun olaraq $C_e(\Gamma_1)$=-25eV və $C_h(\Gamma_2)$=23,7eV qiymətləri alınmışdır.

Ədəbiyyat:

1.Керимова Т.Г., Мамедов М.С., Мамедов Ш.А., Гулиев Р.А. Температурная зависимость смещения края собственного поглощения и деформационные потенциалы в $CdGa_2Se_4$, Физика, 1998, Т4, № 2, с 3-5.

2. Monoogian A. and Leclerc A. Determination of the Dilation and Vibrational Contributions to the energy Band Gaps in Germanium and Silicon, Phys. Stat. Sol (b), 1979, 92. K 23.

3. Уиллардсон Р., Бир А. Оптические свойства полупроводников. М., Мир, 1970, с.488.

4. Мамедова И.А., Абдуллаев Ф.Н., Султанова А.Г. Деформационные потенциалы экстремумов зон в Г (000) $ZnGa_2$ Se_4. Труды V Международной конфереции. Оптика, оптоэлектроника и технологии . Ульяновск, 23-27 июня 2003г, с. 23

ALMUQ ABBASOV
MƏCNUN AĞAYEV
AMEA Fizika İnstitutu
ORUC ƏHMƏDOV
AMEA Naxçıvan Bölməsi
Təbii Ehtiyatlar İnstitutu

Cu Gd Te_2, Cu_3 Gd Te_3, Cu_5 Gd Te_4 BİRLƏŞMƏLƏRİNİN SİNTEZİ VƏ ƏKSOLMA SPEKTRLƏRİNİN ÖYRƏNİLMƏSİ


Son vaxtlar müxtəlif xassələri ilə fərqlənən nadir torpaq elementlərinin (NTE) halkogenidlərinin öyrənilməsinə böyük diqqət yetirilir. Bunların arasında yarımkeçirici xassəli, metallik keçiricilik xarakterli, aşağı temperaturlarda ifratkeçiricilik xassəli birləşmələr mövcuddur.

Üçqat halkogenidlərin - təbii mineral olan bornitin (Cu_5FeS_4) analoqlarının alınması və tədqiqi xüsusi maraq

doğurur. Belə ki, Cu_5FeS_4 birləşməsindəki Fe atomunu NTE atomlarının biri ilə əvəz etdikdə $A^I_5B^{III}C^{VI}_4$ tip silsilə birləşmələr almaq olur, burada A - Cu; B - NTE (Gd-dan Li-ə qədər), C-S, Se, Te və bunlar da yarımkeçirici xassələrinə malik olurlar.

$CuGdTe_2$, Cu_3GdTe_3, Cu_5GdTe_4, birləşmələrini sintez etmək üçün stexiometrik tərkibə uyğun olaraq elementlərin miqdarları hesablanmışdır (1,3). Sonra hər üç element Cu, Gd, Te stexiometrik tərkibə uyğun çəkilib, təmizlənmiş və 10^{-3}mm.c.st-a qədər havasızlaşdırılmış kvars ampulalara doldurulub, ağzı qapanmışdır. Sintez prosesi birzonalı peçdə 800-1100^{0}C temperatur intervalında aparılmışdır. Nümunələr 1100^{0}C-də üç saat müddətində saxlanıldıqdan sonra temperatur 800^{0}C-ə endirilmiş və həmin temperaturda 150 saat termik emal edilmişdir. Sintez olunmuş nümunələr məsaməli kütlə şəklində alınmışdır. Fiziki xassələri tədqiq etmək məqsədi ilə alınmış birləşmələr 200 atm. təzyiqə qədər preslənmiş və parallelepiped şəklinə salınmışdır. Preslənmiş nümunələr homogenləşdirilmək məqsədi ilə yenidən 600-800^{0}C-də üç gün müddətində saxlanılmışdır. Birciinsləş-dirilmiş nümunələr üzərində fiziki xassələr öyrənilmişdir. Elektrik keçiriciliyinin və termo e.h.q.-nin temperaturdan asılılığının ölçülməsi tədqiq olunmuş hər üç mis tellurolantanatların p-tip yarımkeçiricilik xassəsinə malik olduğunu göstərmişdir (4,6).

$CuGdTe_2$, Cu_3GdTe_3, Cu_5GdTe_4 birləşmələrinin 1-6,5ev intervalında kristallik qəfəsin «C» oxu boyunca (C_{II}), ona perpendikulyar və 45^0 (C_{45^0}) olan istiqamətlərdə əksolunma spektrləri öyrənilmiş, nəticələr şəkil 1-də göstərilmişdir.



Şəkil 1. I - $CuGdTe_2$, II - Cu_3GdTe_3, III - Cu_5GdTe_4 birləşmələrinin əksolunma spektrləri

Əksolunma əmsalından (R) və düşən şüanın enerjisindən (E) asılı olaraq, kristallarda 1,2-1,45 eV intervalında bütün istiqamətlərdə daha intensiv piklər müşahidə olunur. Bu piklər 0,2-1,8 eV intervalında zonalararası keçidlərdə tədqiq olunan birləşmələr üçün gözlənilən nəticələrlə üst-üstə düşür. Bu piklərdən başqa, $CuGdTe_2$ kristalında C_{II}, C_I istiqamətində 1,9; 3,7; 4,6; 5,2; 6,2 eV, Cu_3GdTe_3 kristalında 1,95; 2,1 5,38 eV, Cu_5GdTe_4 kristalında 3,45; 3,85; 5,65 eV nöqtələrində uyğun olaraq nisbətən zəif piklər müşahidə olunur. Bundan başqa dN/dE funksiyalarının yerləşməsi ϵ_2 (E) və R (E) enerji spektrində uyğun olur. Əksolunma əyrilərinin eksperimental nəticələri E>Eg (Eg- qadağan olunmuş zona) oblastında dN/dE funksiyasının nəzəri qiymətlərini yerinə qoymaqla zonalararası məsafəni və zonaların təbiətini təyin etmək olur. R (E) üzrə alınmış qiymətlərin anilizi göstərir ki, $CuGdTe_2$, Cu_3GdTe_3, Cu_5GdTe_4 birləşmələrində müşahidə olunmuş 1,2-1,45 eV intervalındakı piklər, istiqamətlərdən asılı olmayaraq Brillyüen zonasında kritik nöqtələrin keçidi ilə əlaqədardır (7,8). Başqa piklərin izahatı bu istiqamətdə yeni tədqiqatlar aparılmasını tələb edir.

Nəticə:

İşdə $CuGdTe_2$, Cu_3CdTe_3, Cu_5GdTe_4 birləşmələrinin sintezi və kristallik qəfəsin «C» oxu boyunca (C_{II}), ona perpendikulyar və 45^0 (C_{45^0}) olan istiqamətlərdə əksolunma spektrləri öyrənilmişdir. Zəif piklərlə yanaşı, 1,2-1,45 eV intervalındakı qiymətlərdə daha intensiv piklər müşahidə edilmişdir ki, bu, Brillyüen zonasının kritik nöqtələrinin keçidləri ilə bağlıdır.

Ədəbiyyat:

1. T.X.Qurbanov, P.H.Rüstəmov, O.M.Əliyev, L.T.Abdullayeva, A.B.Eynullayev, İ.P.Əliyev. NTE-nin üçlü halkogenidlərinin alınması və tədqiqi. SSRİ EA-nın xəbərləri. Неорганические материалы, 1980, c.16, №4, s.611-615.
2. Cəfərov M.A. Неорганические материалы, 1999, №5, s.1307-1312.
3. P.H.Rüstəmov, B.N.Mardaxaev. Az.SSR EA-nın məruzələri. 20,13 (1964).
4. R.S.Həmidov, L.Q.Keyseruxskaya. Неорганические материалы, 1972. c.8, №1, s.100.
5. Y.M.Əliyev, R.S.Həmidov, H.H.Hüseynov, M.A.Əlicanov. Неорганические материалы 1972. c.8, №2, s.370-371.
6. J.P.Maud, M.Guittard. Bull. Soc. Chim. France, 5, 2293 (1968).
7. V.V.Sobolev. Неорганические материалы, №1, 55-60, 1966.
8. J.S.Phillips., Phys. Rev., 133, A 452, 1964.

MƏMMƏD HÜSEYNƏLİYEV
AMEA Naxçıvan Bölməsi

Təbii Ehtiyatlar İnstitutu

HORİZONTAL BRİCMEN ÜSULU İLƏ ALINMIŞ $CuInS_2$ MONOKRİSTALININ OPTİK XASSƏLƏRİ

$A^IB^{III}C_2^{VI}$ seriyadan olan yarımkeçirici birləşmələr arasında $CuInS_2$ (X=S,Se,Te) tipli materiallar fotovoltaik tətbiq nöqteyi-nəzərdən elektrik və optik xassələrinin son

dərəcə münasib olmaları ilə diqqəti cəlb edir (1,2). Məlumdur ki, (3) günəş fotovoltaik çeviriciləri yaratmaq üçün ən effektiv material qadağan zonaları E_q=0,9-1,5 eV olan yarımkeçirici birləşmələr hesab olunurlar. Belə ki, məhz onların fotohəssaslıqlarının spektrləri günəş şüalanmasının yer səthinə düşən və ya kosmik fəzaya yayılan spektrinin nisbətən daha çox enerji daşıyan hissəsini (günəş spektrinin "aktiv" hissəsi) qəbul etməyə qadirdirlər.

$CuInS_2$ birləşməsi də bu seriyadan olmaqla günəş enerjisini fotovoltaik çevirmək üçün optimal qadağan olunmuş zonaya (E_q=1,5 eV) və çox böyük udma qabiliyyətinə malikdir.Nəzəri olaraq göstərilmişdir ki,bu materialdan uducu kimi istifadə etməklə təqribən 27-32% effektivliyə nail olmaq olar (4).

$CuInS_2$ nazik təbəqələri əsasında effektivliyi 3,6% olan günəş elementinin hazırlanması haqqında məlumat vardır (2). Bu yaxınlarda aldığımız n-GaP/p-$CuInS_2$ heterokeçidlərində 3,2% effektivliyə nail olmaq mümkün olmuşdur (5).


$CuInS_2$ birləşməsi xalkopirit strukturunda kristallaşdığından və c/a=2 oldugundan, o sfalerit strukturunda kristallaşan bir çox $A^{II}B^{VI}$ və $A^{III}B^{V}$ birləşmələri ilə ideal heterokeçidlər yarada bilər. Məsələn, $CuInS_2$ birləşməsi ilə GaP və CdS birləşmələrinin qəfəs sabitləri arasındakı fərqin uygun olaraq 1,2% və 5,7% oldugunu nəzərə alsaq , $CuInS_2$ birləşməsinin (112) müstəvisi ilə CdS və GaP birləşmələrinin (111) müstəviləri tamamilə identikdir. Bu isə heterokeçid almaq üçün birləşmələrin qarşısına qoyulan tələblərdən biridir.

$CuInS_2$ monokristallarının alınmasında horizontal Bricmen üsulundan istifadə edilmişdir. Əvvəlcə $CuInS_2$ birləşməsi sintez olunmuşdur: Cu,In və S elementlərinin stexiometrik qarışığı (təmizlik dərəcələri : Cu üçün -99,999, In və S üçün -99,9999%) havası sorulmuş kvars ampulada 600^0C temperaturadək qızdırılaraq partlayışın baş verməməsi üçün bu temperaturda bir neçə saat saxlanıldıqdan

sonra temperatur 1175^0C-yə qaldırılmış və 24 saat bu temperaturda saxlanılmışdır. Alınan kristal toz şəklinə salınaraq monokristal almaq üçün xüsusi formalı yetişmə kvars ampulasına doldurulmuşdur.Ampulanın havası sorulduqdan sonra o, horizontal şəkildə yerləşdirilmiş peçə daxil edilmişdir. Peçdəki maksimum temperatur 1175^0C , ampulanın hərəkət sürəti isə 1,5 sm/saat olaraq götürülmüşdür (6). Alınan monokristalları yan səthlərində müşahidə olunan paralel xətlər boyunca asanlıqla bölmək mümkün olmuşdur. Rentgenoqrafik analizlə təsdiq olunmuşdur ki, bu üsulla alınan $CuInS_2$ monokristallarının bölünmə müstəviləri (112) müstəviləridir.


Heç bir mexaniki cilalama aparılmadan alınan müxtəlif qalınlıqlı bu müstəvi paralel nümunələr üzərində optik ölçmələr aparılmışdır.

Şəkil 1-də $CuInS_2$ monokristalının optik buraxma əyrisi göstərilmişdir. Ölçmələr "SPECORD-40M" spektrofotometrində aparılmışdır.



Şəkil 1. Horizontal Bricmen üsulu ilə alınmış $CuInS_2$ monokristalının optik buraxma əyrisi

Nümunənin qadagan zonasının enini (E_g-ni) müəyyən etmək üçün fundamental udma oblastında $(\alpha h\nu)^2 = f(h\nu)$ asılılığı qurulmuşdur (şəkil 2).



Şəkil2.

$CuInS_2$ monokristalı üçün $(\alpha h\nu)^2 = f(h\nu)$ asılılığı

Bu asılılıqdan düz xətt oblastının ekstropolyasiyası üsulu ilə E_g= 1,542 eV qiyməti tapılmışdır. Bu qiymət ədəbiyyatlarda $CuInS_2$ üçün göstərilən qiymətlərlə tamamilə üst-üstə düşür.

Ədəbiyyat:

1. J.L.Shay and S.H.Wernic. Ternary Chalcopiryte Semiconductors : Growth, Electronic Properties and Applications- Pergamon, New-York, 1975 , pp.110-187.
2. L.L.Kazmersky in G.D.Holah (ed). Ternary Compounds-1977, in Inst. Conf. Ser., 35, 1977, p.217.
3. А.Амброзяк. Конструкция и технология полупроводниковых приборов-Изд. Советское радио, М.,1970, с.392.
4. J.M.Meese, J.C.Manthuruthul and D.R.Locker . Bull. Amer. Phys. Soc., 20, . 1975, p.696.
5. H.S. Seyidli, M.H.Hüseynəliyev. Məsafədən zondlamada informasiya və elektron texnologiyaları. Beynəlxalq elmi

texniki konfransın materialları. Bakı, 20-23 dekabr 2004-cü il, s. 429-431.
6. T.Q.Qasımov, M.H.Hüseynəliyev. Az. EA-nın xəbərləri, 1987, №5, s. 72-75.

MƏHBUB KAZIMOV
NAZİLƏ MAHMUDOVA
AMEA Naxçıvan Bölməsi
Təbii Ehtiyatlar İnstitutu

Ga In S_3- Fe TİPLİ MONOKRİSTALININ SİNTEZİ, ELEKTRONOQRAFİK VƏ RENTGENOQRAFİK TƏDQİQİ

Ga In S_3-Fe mürəkkəb monokristallı yarımkeçiricilər fizikasında perspektiv materiallardan biri kimi tanınır. Biz bu məqalədə planlaşdırılmış böyük tədqiqatın bəzi nəticələrini veririk.

Ga In S_3-Fe laylı monokristalı AMEA-nın Fizika İnstitutunda iki rejimdə yetişdirilmişdir.

Birinci rejimdə sintez kvars ampulalarında bir zonalı peçlərdə aparılmışdır (1). Peçin temperaturu hər saatdan bir 100^0C/saat sürəti ilə 400^0 C-dək qaldırılıb bu rejimdə 40 dəqiqə saxlanılmışdır. Bundan sonra temperatur 1000^0 C-yə qaldı- rılaraq bu temperaturda 1 saat saxlanılmışdır. Sonra temperatur 600^0 C-yə endirilmiş, nümunə peçdə 150 saat bişirilmişdir.

İkinci rejim birincidən onunla fərqlənir ki, nümunənin peçdə bişirilməsi 700^0 C-də 650 saat müddətində bişirilməklə aparılmışdır.

Nəticədə çoxlaylı monokristal alınmışdır ki, bu da həm elmi, həm də tətbiqi baxımdan böyük maraq doğurur. Bu monokristal müxtəlif struktur quruluşlarına malik laylı birləşmələr şəklində alınmışdır.

Ga In S_3-Fe birləşməsinin kristallik strukturunun (3 laylı təbəqədə) (2) çərçivələrinin parametrləri aşağıdakı kimidir:

I təbəqə çərçivəsində a=3,8105A^0; C=18,190A^0
II təbəqə çərçivəsində a=3,808A^0; C=45,894A^0

III təbəqə çərçivəsində a=3,816A^0; C=36,793A^0

Bu tipli birləşmələrdə orta layların kristallik quruluş çərçivələri (anizot-ropiyası) oktaedr, üst və alt qatların kristallik quruluş çərçivələri isə tetraedr şəkilli quruluşa malikdirlər. $GaInS_3$-Fe monokristalının elektrik keçiriciliyinin ölçülməsi göstərmişdir ki, monokristal yüksək elektrik keçricilikli anizotropiyaya malikdir. İlkin elektronoqrafik və rentgenoqrafik tədqiqatlar göstərdi ki, Ga-In-S sistemində romboedrik çərçivəyə malik olan digər faza da mövcuddur (3,4). Təəssüf ki, bu faza hələlik az öyrənilmişdir və əlimizdə dəqiq dəlillər yoxdur. Monokristalın laylar arası elektrik keçiriciliyini öyrənmək üçün müxtəlif ampulalarda bişirilmiş kristal nümunələri götürərək elektronoqrafik üsulla tədqiqat aparılmışdır.

Müxtəlif nümunələrin tədqiqatı göstərdi ki, tetraedr çərçivəsində yerləşən atomların, kationların və anionların yerləşmə mövqeləri oktaedrin mərkəzinə tərəf öz yerlərini dəyişir.Tədqiqatlar nəticəsində aydın olmuşdur ki, müxtəlif temperatur dəyişmələrində bu yerdəyişmələrin sürətləri də müxtəlif olur. Sıx bağlantı şəklində olan anionların yaratdıqları T və O boşluqlarında kationların yerləşməsi aşağıdakı kimidir:

S 1/3 In; 1/2 Fe S In 2/3 Ga; 1/6 Fe S,
S 5/6 Fe S In S 2/3 Ga; 1/6 Fe S,
S1/2 Fe; 1/3 In S 5/6 FeS.

Tədqiqatların nəticəsində aydın olmuşdur ki, monokristalın tərkibində kim-yəvi elementlərdən hər hansı biri aparılan təcrübələr zamanı kristalın tərkibində az və ya çox olduqda onda maddənin elektronoqrafik və rentgenoqrafik xassələri dəyişir.

Aparılan tədqiqatlar onu göstərir ki, üçlaylı Ga In S_3 – Fe mənokristalında rombaedrik anizotropiyaya malik çərçivələrdə atomlar daha düzgün yerləşir və laylararası qatlarda yerləşmiş kationların xarakteristikaları daha yaxşıdır.

Ədəbiyyat:

1. М.Г.Кязумов, Г.Г.Гусейнов, М.Г.Казымов, Ш.Ибрагимкызы – XI Национальная Конференция по Росту Кристаллов, г. Москва, 2004 г., с. 201

2. М.Г.Кязумов, И.Р.Амирасланов, М.Г.Казымов – Сообщение НПО Космических исследований г. Бакы, 1980. с.209
3. М.Г.Кязумов, А.П.Жуклистов, А.М. Фолиенков, Б.Б.Звягин. Материалы XIII Всесоюзной конференции по электронной микроскопии г. Сумы, 1987, т.2 с. 453-455
4. A.N.Anagnostopoulos et. al- Phys. Stat. Sol.1993, 77, p.595.

NAİLƏ QARDAŞBƏYOVA
Naxçıvan Dövlət Universiteti

POLYAR OPTİK FONONLARDAN SƏPİLMƏ

Polyar kristallarda əks işarəli yüklərin rəqsi hərəkəti nəinki deformasiya potensialı yaradır, həm də uzağa təsirli mikroskopik elektrik sahəsi yaradır ki, bu sahələrdə də elektronların qarşılıqlı təsiri, yükdaşıyıcıların optik fononlardan səpilməsinə əlavə pay verir. Təmiz birləşmələrdə polyar səpilmə mexanizmi üstünlük təşkil edir. Bu birləşmələrə A^3B^5 və A^2B^6 birləşmələrini misal gətirmək olar. Polyarizasiya qarşılıqlı təsiri atom cütlərinin hərəkəti zamanı meydana çıxır.

Otaq temperaturunda polyar materiallarda səpilmədə əsas rolu uzununa optik fononlardan səpilmə ilə əlaqəlidir.

Polyar rəqslərin elektronlarla qarşılıqlı təsirinin əsas hissəsi

$$H_{ep} = \int \rho(\vec{R})\varphi(\vec{R})d\vec{R}$$

ifadəsi ilə verilir. Burada H_{ep} - qarşılıqlı təsirin Hamilton operatoru, $\rho(\vec{R})$ - elektronların yük sıxlığı, $\varphi(\vec{R})$ - elementar qəfəs polyarizasiya ilə bağlıdır. Atomun effektiv yükü e, elementar özəyin həcmi V_0 olarsa, onda polyarizasiya

$$P(\vec{R}) = eu(\vec{R})/V_0$$

$u(\vec{R})$ - $\vec{R}$ nöqtəsində elementar qəfəsdə optik sürüşmədir.

Bu polyarizasiya sıxlığı bağlı yüklərlə həyata keçdiyi üçün

$$H_{ep} = \int D(\vec{R})\varepsilon(\vec{R})d\vec{R}$$

$D(\vec{R})$ - elektronlar tərəfindən yaradılan sahənin induksiyası, $\varepsilon(\vec{R})$ isə polyarizasiya ilə bağlı elektrik sahəsinin intensivliyidir.

$$\varepsilon(\vec{R}) = -P(\vec{R})/\varepsilon_0$$

Beləliklə,

$$H_{ep} = -\frac{1}{\varepsilon}\int D(\vec{R})P(\vec{R})d\vec{R}$$

Elektronların yaratdığı sahənin induksiyası

$$D(\vec{R}) = -grad\left(\frac{e_{e\varphi}}{4\pi|\vec{r}-\vec{R}|}\right)$$

$e_{e\varphi}$ - elektronun yüküdür.

Ekranlaşma nəzərə alındıqda

$$D(\vec{R}) = -grad\left\{\frac{e_{e\varphi}}{4\pi|\vec{r}-\vec{R}|}\cdot\exp\left(-q_0|\vec{r}-\vec{R}|\right)\right\}$$

q_0 - kəmiyyəti Debay ekranlaşma oblastının radiusunun tərs qiymətidir.

Parabolik zona üçün elektronların vadilərarası keçidə uyğun optik fononlardan səpilməsinin ehtimalı [1-2] işlərində göstərilmişdir. Bu halda səpilmənin ehtimalı enerji artdıqca uzundalğalı akustik fononlara nisbətən sürətlə artır.

Sferik və parabolik zonalar halında bucaqlara nəzərən inteqrallamaları yerinə yetirib, yükdaşıyıcıların optik fononlarla qarşılıqlı təsirinin ehtimalı $W(k)$ üçün aşağıdakı ifadəni alarıq

$$W(k)=\frac{V_0}{4\pi m\omega_0}\left(\frac{\bar{e}e^*}{V_0\varepsilon_0}\right)^2\frac{1}{\hbar\nu}\left\{n(\omega)\int_{q_{min}}^{q_{max}}\frac{q^3}{\left(q^2+q_0^2\right)^2}dq+\right.$$

$$\left.+\left[n(\omega_0+1)\right]\int_{q_{min}}^{q_{max}}\frac{q^3}{\left(q^2+q_0^2\right)^2}dq\right.$$

burada ω_0- optik fononun teəliyi, n- baş kvant ədədi, ν- Pausson əmsalı, V_0- elementar özəyin həcmi, q- eninə və uzununa rəqslərin tezliyidir.

Ədəbiyyat:

1. Велиев З.А. Коэффициент заполнения дислокации ФТП. 1986, т. 20, в 11, с. 17-31.
2. Veliev Z.A., Kardashbekova N.A. Recombination of holesin dislocation centers in an electric field. Fizika. 2000, v.6, №4, p. 59-60.

MƏHƏRRƏM İBRAHİMOV
AMEA Naxçıvan Bölməsi
Təbii Ehtiyatlar İnstitutu

İNFORMASİYA ÖLÇMƏ SİSTEMLƏRİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ HAQQINDA

İnformasiya ölçmə sistemləri (1) bir sıra digər qurğu və komplekslərlə bərabər həm naqilli, həm də naqilsiz informasiya mübadiləsi əsasında müxtəlif parametrlərə görə təbii ehtiyatların öyrənilməsində geniş tətbiq edilirlər.

Təbii ehtiyatların öyrənilməsi sahəsi bir çox tədqiqat istiqamətlərini və tədqiqat problemlərini özündə cəmləşdirir. Hər bir tədqiqat istiqaməti, eləcə də hər bir tədqiqat problemi onların qarşısında olan tələblərə uyğun olaraq tədqiqatı uyğun sahənin inkişafını təmin edən texniki və digər sahələrin metod və qaydaları əsasında yerinə yetirir. Metod və qaydalarından istifadə olunan texniki və digər sahərlərin müxtəlifliyi və inkişafı sayəsində təbii ehtiyatların öyrənilməsi sahəsi təkmilləşir və əhəmiyyətli göstəricilərlə zənginləşir.

Təbii ehtiyatların öyrənilməsi sahəsinin inkişafı öz növbəsində metod və qaydalarından istifadə olunan sahələrin qarşısında uyğun tələblərin meydana çıxmasını şərtləndirir. Yeni tələblərin aşkar edilməsi, texniki və digər sahələrdə təbii ehtiyatların öyrənilməsini təmin edən uyğun məhsuldar və iqtisadi cəhətdən əlverişli olan metod və qaydaların işlənib hazırlanmasını və bunların da əsasında yeni quruluşlu geofiziki cihazların (2) və digər avtomatlaşdırılmış qurğuların yaranmasını təmin edir.

Təbii ehtiyatların öyrənilməsinin müxtəlif mərhələlərində – istər təbii ehtiyatların axtarışında, istərsə də onların istismar olunmasında, geniş surətdə tətbiq edilən əsas avtomatlaşdırılmış sistem – informasiya ölçmə sistemidir. İnformasiya ölçmə sistemləri təbii ehtiyatların müəyyənləşdirilməsi zamanı onların yaranması formasına uyğun olan parametrlər haqqında, yaranmış təbii ehtiyatların olduqları sahələrin ölçüləri haqqında, bu təbii ehtiyatların ətraf mühitlə əlaqəsi haqqında olan informasiyaların və digər informasiyaların ölçülməsi prosesini avtomatlaşdırılmış olaraq yerinə yetirirlər.

Təbii ehtiyatların uyğun istismarı zamanı informasiya ölçmə sistemləri vasitəsi ilə məhsuldarlıq, ətraf mühitlə əlaqə, şəraitə uyğun parametrlər haqqında olan informasiyaların və digər informasiyaların ölçülməsi və bununla da istismara nəzarət və diaqnostika proseslərinin yerinə yetirilməsi təmin edilir.

Göstərilən bütün hallarda təbii ehtiyatların öyrənilməsi ilə bağlı olan proseslər və təbii sərvətlər haqqındakı informasiyanın alınması və ölçülməsi iformasiya ölçmə sistemləri vasitəsi ilə müəyyən edilmiş yerlərdə və müəyyən olunmuş vaxtlarda yerinə yetirilir. Təbii ehtiyatları xarakterizə edən parametrlər haqqındakı informasiyanın alınmasının və ölçülməsinin tədqiq edilən obyektin yerinin və tədqiqat vaxtının göstərilməsi ilə müşayət olunması özünə məxsus əhəmiyyət kəsb edir.

Həm təbii sərvətlərin müəyyənləşdirilməsində, həm də onların istismarında informasiyanın avtomatlaşdırılmış vasitələrlə kimi alınması, çevrilməsi və ölçülməsi üçün istifadə olunan informasiya ölçmə sistemləri müəyyən ardıcıllıqla bir-biri ilə əlaqələndirilmiş uyğun funksiyaları yerinə yetirən qurğular toplusundan ibarətdirlər. İnformasiya ölçmə

sistemlərinin əsas funksiyalarının yerinə yetirilməsi ilə bərabər, müəyyər qurğular əsasında tədqiq edilən obyektin yeri, tədqiqat tarixi və tədqiqat vaxtı kimi parametrlərin müəyyənləşdirilməsi funksiyalarının da yerinə yetirilməsi obyektlərdən alınan informasiyanın hər tərəfli işlənməsində böyük əhəmiyyət kəsb edir.

Göstərilən parametrlərdən təbii ehtiyatların öyrənilməsi proseslərinin ayrı-ayrı mərhələlərinin yerinə yetirilməsində istifadə olunması, informasiya ölçmə sisteminin öz funksiyasını da zənginləşdirmiş olur. Təbii ehtiyatların öyrənilməsi proseslərinin ayrı-ayrı hissələrinin yerinə yetirilməsində vaxt, tarix və yer kimi faktorların müəyyən ardıcıllıqla göstərilməsi bu proseslərin biri-birindən seçilməsini və onların ayrı-ayrılıqda təhlil edilməsini təmin edir.

Təbii ehtiyarların öyrənilməsi proseslərinin yerinə yetirilməsi, müxtəlif faktorlarla zənginləşdirilmiş informasiya ölçmə sistemlərində müəyyən qurğuların yaranması və bu qurğuların uyğun ardıcıllıqla sistemdə birləşdirilməsi ilə bağlıdır. Bu bağlılıq informasiya ölçmə sistemlərinin müxtəlif funksiyalı bloklar əsasında olan inkişafına öz uyğun təsirini göstərir. İnformasiya ölçmə sistemlərinin inkişafı isə təbii ehtiyatların öyrənilməsi proseslərinə öz təsirini göstərir və bu proseslər də sistemlərin ayrı-ayrı blokları qarşısında müəyyən tələblərin yaranmasını təmin edirlər.

Ədəbiyyat:

1. М.П.Цапенко. Измерительные информационные системы. М., «Энер-гоатомиздат», 1985 г.
2. Б.С.Вольвовский, Н.Я.Купин, Е.И.Терехин. Краткий справочник по полевой геофизике. М., «Недра», 1977 г.

CAVİD MUSTAFAYEV
RAFİQ NƏCƏFOV
AMEA Naxçıvan Bölməsi
Təbii Ehtiyatlar İnstitutu

TƏDQİQ EDİLƏN OBYEKTLƏRDƏN İNFORMASİYANIN ALINMASI VƏ TOPLANMASI

Geoloji kəşfiyyat işlərinin aparılmasında, faydalı qazıntıların axtarışı və kəşfiyyatında çöl geofizikasının əsas metodlarının yerinə yetirilməsinin təşkili xüsusi əhəmiyyətə malikdir. Çöl geofizikasının müxtəlif metodları elektrik və elektron avadanlıqları əsasında yaradılmış çoxfunksiyalı qurğular və sistemlər vasitəsi ilə realizə oluna bilərlər. Bu qurğu və sistemlərin əsas funksiyalarından biri tədqiq olunan obyektlərdən onları xarakterizə edən informasiyanın alınmasıdır (1). Tədqiq olunan obyektlərdən alınan informasiya həm elektrik, həm də qeyri elektrik kəmiyyətləri formasında ola bilərlər. Qeyri elektrik kəmiyyətləri formasında olan informasiyanın geofiziki cihazlar tərəfindən qəbul edilməsi üçün onun elektrik kəmiyyələri şəkilində olan informasiyaya çevrilməsi məqsədə uyğundur. Bu obyektdə informasiyanın həm elektrik, həm də qeyri elektrik kəmiyyətləri şəkilində alınmasını təmin etmək üçün onun müxtəlif yerlərində uyğün sayğaclar quraşdırmaq lazımdır. Həssas elementlər vasitəsilə geofiziki cihazlara təsir edə bilən ilkin qeyri elektrik kəmiyyətlərin uyğun anoloq elektrik kəmiyyətlərinə çevrilməsi mümkündür (2).


Müxtəlif sorğu metodları ilə uyğun həssas elementlərdən alınan ilkin və yaxud sonrakı forması analoq elektrik siqnalları şəkilində olan infarmasiya daşıyıcı siqnalların öyrənilməsi göstərilən obyektin tədqiqini müəyyənləşdirir. Tədqiq edilən obyektin öyrənilməsi alınan elektrik siqnalların daşıdıqları informasiyanın işlən-məsi ilə bağlıdır. Bu informasiyanın işlənməsini təmin etməklə sınaqdan keçirilən obyekti xarakterizə edən parametrlər müəyyən edilə bilər.

Sınaqdan keçirilən obyekti xarakterizə edən parametrlərin öyrənilməsini təmin etmək məqsədi ilə obyektin çoxlu sayda

yerlərdə quraşdırılmış müxtəlif sayğaclardan informasiyanın toplanmasını və göndərilməsini təmin etmək lazımdır. Tədqiq edilən obyektin uyğun yerlərindən informasiyanın alınmasını və toplanmasını xüsusi piramidal formalı qurğu vasitəsi ilə yerinə yetirmək mümkündür. Bu qurğunun mahiyyəti ümumi halda göstərilmiş sxem ilə aydınlaşdırıla bilər (şəkil 1).

Qurğu 1,2,3,...., N-1,N qirişlərindən,bir M çıxışından və $K_1,K_2, K_3,..., K_{N-1},, K_N$ ikitərəfli informasiya mübadiləsini təmin edən xüsusi kontaktlardan ibarətdir.

Qurğunun 1,2,3,...,N-1,N girişlərində birləşdirilmiş sayğaclardan hər hansı biri ilə qurğunun çıxışına birləşdirilmiş çevirici arasında iki tərəfli informasiya mübadiləsini təmin etmək üçün 1,2,3...,N-1, N kontaktlarından uyğunu işə salınır. İşə salınmış kontaktın köməyi ilə uyğun elektrik dövrəsi qapanır və girişə birləşdirilmiş tələb edilən sayğaclardan M çıxışına birləşdirilmiş çeviriciyə informasiya daxil olur. Qeyd etmək lazımdır ki, $K_1,K_2,K_3,...,K_{N-1}, K_N$ kontaktları diskret və yaxud inteqral formasında hazırlanmış fərdi kontraklardırlar.



Sxemi şəkildə göstərildiyi kimi, informasiyanın alınmasını və toplanmasını təmin edən N sayda girişli və bir çıxışlı (M) piramidal formalı qurğu vasitəsilə iki cür metodla sınaqdan keçirilən obyektdən informasiyanın alınmasını və toplanmasını təmin etmək mümkündür. Bu metodlardan biri ondan ibarətdir ki, obyekti xarakterizə edən parametrlər haqqındakı informasiya tələb edilən ünvanda yerləşən sayğaclardan alınır. Bu halda uyğun informasiya dövrəsinin qapanmasını təmin edən $K_1,K_2,K_3,...,K_{N-1}, K_N$ kontaktlarından yalnız biri işə salınır və iki tərəfli informasiya

mübadiləsi təmin edilir. Sınaqdan keçirilən obyekti xarakterizə edən parametrlər haqqındakı informasiyanın alınması və toplanmasını təmin edən metodlardan digəri ondan ibarətdir ki, obyektin müxtəlif yerlərində quraşdırılmış sayğaclardan informasiyanın alınması və toplanması ardıcıl olaraq dövri şəkildə yerinə yetirilir. Bu halda $K_1,K_2,K_3,\ldots,K_{N-1}$, K_N kontaktları ardıcıl olaraq qapanır və hər biri informasiya mübadiləsi yerinə yetirildikdən sonra əvvəlki vəziyyətə qayıdır. Bundan sonra yenidən ardıcıl olaraq kontaktlar qapanırlar və uyğun infor -masiya mübadiləsi təmin edilir. Sonra proses təkrar olunur.

N ə t i c ə:

Tədqiq olunan obyektlərdən informasiyanın alınması və toplanması prosesi izah edilir. Sınaqdan keçirilən obyektdən informasiyanın alınması ünvan və dövri sorğu vasitəsi ilə yerinə yetirilir. Piramidal formada qurulmuş xüsusi kontaktlardan ibarət qurğunun köməyi ilə tədqiq edilən obyekti xarakterizə edən parametrlər haqqındakı informasiyanın toplanması təmin edilir.

Beləliklə, tədqiq edilən obyektdən informasiyanın alınması və toplanması prosesi müxtəlif metodlarla yerinə yetirilir.

Ə d ə b i y y a t:

1. Страхов А.Ф. Автоматизированные измерительные комплексы. М.: Энергоиздат, 1982.
2. Орнатский П.П. Теоретические основы информационно-измерительной техники. Киев, Вища школа, 1983.

Yığılmağa verilmiş 03.02.2005.
Çapa imzalanmış 20.04.2005.
Şərti çap vərəqi 39,5. Sifariş № 108.
Kağız formatı 60x84 1/16. Tiraj 300.

Kitab «Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
*Direktor: **prof. N.B.Məmmədli***
E-mail: nurlan1959@rambler.ru
Tel: 497-16-32; 850-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.